**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# M A G İ S T R A N T

dövri-elmi jurnal

**ISSN 2788-6964**

**2024 №1(13)**

**B A K I**

**Baş redaktor:**
**Asəf D.Zamanov**
fizika-riyaziyyat elmləri doktoru, professor
ADPU-nun elm və innovasiyalar üzrə prorektoru
(ADPU, Bakı, Azərbaycan)

**Redaksiya heyəti:**

**Arif Ş.Şəkərəliyev**
iqtisad elmləri doktoru, professor
(ADİU, Bakı, Azərbaycan)
**Bəhlul İ.Ağayev**
biologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Bəhram H.Əliyev**
riyaziyyat elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əbülfət Q.Pələngov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əhməd Ş.Abdinov**
fizika-riyaziyyat elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Ələkbər Ə.Əliyev**
texnika elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Əli Z.Zalov**
kimya üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əmir İ.Əliyev**
hüquq üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Fərrux A.Rüstəmov**
pedaqoji elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Gülnaz A.Abdullazadə**
fəlsəfə elmləri doktoru, professor
(BMA, Azərbaycan)
**Hikmət Ə.Əlizadə**
pedaqoji elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**İsa N.İsmayılov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**İlham Ə.Şahmuradov**
biologiya elmləri doktoru, professor
(AMEA, Bakı, Azərbaycan)

**ADPU**-Azərbaycan Dövlət Pedaqoji Universiteti
**BDU**-Bakı Dövlət Universiteti
**ADNSU**-Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**BMA**-Bakı Musiqi Akademiyası
**ADİU**-Azərbaycan Dövlət iqtisad Universiteti
**YTU**-Yıldız Teknik Universiteti. İstanbul, Türkiyə

**Mahirə N.Hüseynova**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Məhəmməd A.Abduyev**
Coğrafiya üzrə elmlər doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Mübariz M.Əmirov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Müsavər A.Musayev**
fizika üzrə elmlər doktoru, professor
(ADNSU, Bakı, Azərbaycan)
**Müseyib İ.İlyasov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Namiq Q.Şıxalıyev**
kimya üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Nazim Ə.İmamverdiyev**
geologiya-mineralogiya üzrə elmlər doktoru, professor, (BDU, Azərbaycan)
**Oqtay B.Sultanov**
tarix elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Ramiz İ.Əliyev**
psixologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Sevinc B.Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Surxay C.Əkbərov**
texnika elmləri doktoru, professor
(YTU, İstanbul, Türkiyə)

**Məsul katib:**
***Natəvan F.Həsənova***
***(ADPU, Bakı, Azərbaycan)***

**Təsisçi:** Azərbaycan Dövlət Pedaqoji Universiteti –(Bakı, Azərbaycan)

**Dövlət qeydiyyatı:**
«MAGİSTRANT» dövri-elmi jurnalı 29.01.2021-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edimişdir.
Qeydiyyat: № 4328

# MÜNDƏRİCAT


## FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ

**G.U.Fərzi**
Məktəb riyaziyyat kursunda cəbri funksiyaların tərs funksiyasının tapılmasının öyrədilməsi.....5
**X.B.Əliyeva**
Funksiyanın elementar üsulla araşdırılmasının öyrədilməsi metodikası.....11
**A.N.İmanova**
V-VII siniflərdə həndəsə məzmun xətlərinin məntiqi quruluşu haqqında.....17
**A.H.İsmayılova**
XI siniflərdə həndəsə məzmun xətlərinin məntiqi quruluşu haqqında.....23
**S.V.Əsgərova**
Ali məktəblərdə tarix kursunun tədrisində multimedia texnologiyalarından istifadənin imkan və yolları.....29
**R.E.Ağaraziyeva**
Ali məktəblərin idarəedilməsində informasiya təhlükəsizliyinə kompleks yanaşma.....36
**X.İ.Fətullayeva**
Təhsildə rəqəmsal texnologiyalardan istifadənin müsbət və mənfi tərəfləri.....42
**N.Q.İbrahimova**
Atmosfer bölməsinin tədrisində riyazi hesablamaların öyrədilməsi metodikası.....48
**G.R.Valehova**
Ümumtəhsil məktəblərinin tədris prosesində elektron daşıyıcılardan istifadənin xüsusiyyətləri.....54

## TƏBİƏT ELMLƏRİ

**L.Q.Abdullayeva**
VI sinifdə xəritəyə aid mövzunun tədrisində CİS proqramından istifadə edilməsinin metodikası.....60
**S.M.Haqverdiyev**
Təbiət məzmun xətti fənninin tədris olunmasında müşahidələrin aparılması və onlara verilən əsas tələblər.....67
**R.Ə.Həsənova**
Diyarşünaslıq materiallarından istifadə etməklə şagirdlərin bilik keyfiyyətinin artırılması.....74

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

**Ç.F.Osmanova**
Azərbaycan Tunc dövründə.....80

**N.H.Məsiyeva**
İnsan resurslarının idarəedilməsində multikultural yanaşmalar....................................85
**S.Ə.Ramazanova**
Sosial fenomen olaraq münaqişələrin idarə olunması və münaqişəşünaslıq bir elm kimi.........................................................................................................................92
**Ş.Ə.Şirəliyeva**
Ali təhsil məktəblərinin idarə olunmasına təsir göstərən amillər.................................98
**V.A.Qurbanova**
İnteqrasiya haqqında məlumat və texnologiyanın təlim prosesinə inteqrasiyası........105
**S.A.İsmayılova**
Demokratik liderliyin ali təhsilin idarə edilməsinin keyfiyyətinə təsiri.....................112
**S.M.Ramazanova**
Təhsilin keyfiyyətinin idarə olunmasında monitorinqin rolu....................................117
**A.V.Fərzəliyeva**
XIX əsr milli burjuaziyamızın inkişafına Ağa Musa Nağıyevin verdiyi töhfə...........123
**A.R.Xasayzadə**
Təhsil müəssisələrinin innovativ təlim metodları ilə idarə olunmasının əhəmiyyəti və üstünlükləri.................................................................................................................130
**G.İ.Pənahova**
Azərbaycanlı tələbələrin xaricdə təhsilin təşkilinin müasir vəziyyəti və qiymətləndirilməsi.......................................................................................................137
**F.A.Qasımova**
Qadın zorakılığına qarşı beynəlxalq mübarizə (problemin məzmunu və həlli istiqamətləri)............................................................................................................146
**K.T.Tapdıqov**
Azərbaycan dili dərsliklərinin inkişaf tarixindən......................................................153
**F.A.İmanova**
Sosial xidmət sahəsində könüllü fəaliyyəti...............................................................160
**A.N.Həsən**
Təhsil müəssisələrində strateji idarəetmənin nəzəri aspektləri..................................167
**G.A.Abdullayeva**
İdarəetmə prosesində qərarvermə.............................................................................172
**A.İ.Xankişiyeva**
Ümumtəhsil məktəbləri üzrə təşkil olunan respublika fənn olimpiadalarının nəticələrinə dair........................................................................................................178
**N.E.Niftaliyev**
Karyera planlaşdırma və hədəflərini müəyyənləşdirmədə məzunların üzləşdiyi çətinliklər və həlli yolları.........................................................................................183
**V.H.Abbaszadə**
Heydər Əliyevin təhsil siyasətində pedaqoji kadr hazırlığı.......................................190
**A.S.Əzizova**
Müəssisənin strateji planlaşdırılmasının mahiyyəti, məqsədi və hazırlanması mərhələləri...............................................................................................................196

## PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR

**S.M.Abbasova**
Azərbaycan şifahi xalq ədəbiyyatı: Nağıllar uşaqların mənəvi inkişafının mühüm amili kimi........................................................................................................201
**N.R.Qədirova**
Yeniyetmə-valideyn münasibətlərinin psixoloji xüsusiyyətləri.................................207
**A.R.Şəfiyeva**
Emosional intellekt anlayışı və onun mahiyyəti.......................................................213
**N.Q.Əkbərli**
İnklüziv təhsilin müasir təhsil sistemində yeri..........................................................220
**F.İ.Aslanova**
Tədris prosesinin gedişində müəllim və tələbələr arasında əməkdaşlığın optimallaşdırılması zamanın tələbidir.......................................................................227
**F.M.Hacıyeva**
Ailə mühitinin formalaşmasının sosial-psixoloji problemləri...................................233
**S.H.Bağırova**
Ali məktəblərin orta əsrlər tarixinin tədrisində yaradıcı təfəkkürün inkişaf etdirilməsi probleminin mahiyyəti...................................................................................239
**S.M.Əlirzayev**
Peşə-ixtisas təhsili müəssisələrində tələbələrin yaradıcı düşüncə tərzi......................244
**X.K.Hüseynova**
Məktəbəhazırlıq qruplarında əxlaq tərbiyəsinin aparılması üzrə işlərin təşkili..........251
**F.N.Abbaslı**
Şagirdlərin idrak fəallığında psixoloji monitorinqin rolu...........................................255
**M.F.Cümşüdova**
Təhsil sistemində qiymətləndirmənin əhəmiyyəti......................................................261
**S.M.Ağalarova**
Özünüqiymətləndirmə təlim keyfiyyətinə təsir vasitəsi kimi....................................268
**G.V.Cəbrayılova**
Biologiya dərslərində STEAM metodikasının zəruriliyi və imkanları.......................275
**A.A.Əliyeva**
Müəllim hazırlığı (Azərbaycan və Finlandiya təhsil sistemində müqayisəli təhlil)...........................................................................................................280
**A.K.Siracova**
Azərbaycan dili dərslərində inteqrasiya imkanları.....................................................287
**S.E.Həsənova**
"Azərbaycan dili" dərslikləri müasir təlim vasitəsi kimi............................................296
**G.A.Gəncəliyeva**
Linqvistik təhlil kommunikativ bacarıqları formalaşdırma vasitəsi kimi...................304
**N.Q.Quliyeva**
Ümumtəhsil məktəblərində psixoloji xidmətə nəzəri baxış........................................311
**E.E.Aslanzadə**
Bədii mətnlərin tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları.......316

**G.V.Mahmudova**
V sinif Azərbaycan tarixi dərslərində motivasiyanın düzgün qurulmasının əhəmiyyəti....................................................................................................323
**Ə.F.Rüstəmli**
Tarix üzrə dərsdənkənar tədbirlərdə şəxsiyyətin formalaşdırılmasının imkan və yollarının mahiyyəti (V-VII siniflərin materialları əsasında)....................................330
**F.C.Məmmədova**
Ümumi tarix kursunun IX siniflərində biliklərin transformasiyasında Binar dərs üsulundan istifadə.........................................................................................335
**N.R.Abdullayeva**
Təlimin idarə edilməsinə müasir yanaşmaların didaktiv və tərbiyəvi əhəmiyyəti.....342

**G.U.Fərzi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulshadfarzi@gmail.com***

# MƏKTƏB RİYAZİYYAT KURSUNDA CƏBRİ FUNKSİYALARIN TƏRS FUNKSİYASININ TAPILMASININ ÖYRƏDİLMƏSİ

***Xülasə***

*Məqalədə məktəb riyaziyyat kursuna daxil olan bəzi cəbri funksiyaların tərs funksiyasının tapılması metodikası tədqiq edilmişdir. Tərs funksiyanın tapılmasına aid misallar üzərində əhəmiyyətli mülahizələr irəli sürülmüşdür.*

# ОБУЧЕНИЕ НАХОЖДЕНИЮ ОБРАТНЫХ АЛГЕБРАИЧЕСКИХ ФУНКЦИЙ В ШКОЛЬНОМ КУРСЕ МАТЕМАТИКИ

***Резюме***

*В статье изучен метод нахождения обратной функции некоторых алгебраических функций, входящих в школьный курс математики. Важные соображения сделаны на примерах нахождения обратной функции.*

# TEACHİNG FİNDİNG THE İNVERSE OF ALGEBRAİC FUNCTİONS İN A SCHOOL MATHEMATİCS COURSE

***Summary***

*The method of finding the inverse function of some algebraic functions included in the school mathematics course is studied in the article. Important considerations have been made on the examples of finding the inverse function.*

***Açar sözlər:*** *funksiya, arqument, qrafik, tərs funksiya, dönən funksiya*
***Ключевые слова:*** *функция, аргумент, график, обратная функция, возвращаемая функция*
***Key words:*** *function, argument, graph, inverse function, return function*

Məktəb riyaziyyat kursunda öyrənilməsi tələb olunan əsas mövzulardan biri də “Funksiya” anlayışıdır. Şagirdlərin təfəkkürünün, idraki fəallığının inkişafında funksiya və onunla bağlı digər anlayışlar özünəməxsus yer tutur.

Təcrübələr göstərir ki, funksiya anlayışının öyrədilməsində tərs funksiya anlayışının öyrədilməsi şagirdlərə nisbətən çətin gəlir. Bu çətinliklərin

aradan qaldırılması üçün tərs funksiya və onun öyrədilməsi metodikasının işlənilməsi zərurəti meydana çıxır.

Əvvəlcə tərs funksiyasının mahiyyətini aydınlaşdıraq.

Təbiətdə müxtəlif qarşılıqlı tərs olan münasibətlər mövcuddur. Biz riyaziyyatda bu tip münasibətləri düz və tərs funksiya anlayışlarının köməyi ilə öyrənirik.

Bəs tərs funksiya nədir? Real həyatda müəyyən qanunauyğunluqla verilən funksiyaların tərsini tapmaq lazım gəlir. Məsələn, sürəti $4\ m/san$ olan cismin getdiyi yolun zamandan asılılığı $s = 4t$ olduqda gedilən yolun verilmiş müxtəlif qiymətlərinə görə zamanın qiymətlərini tapmaq tələb olunur. Bu halda tərs funksiya anlayışını daxil etmək zərurəti meydana gəlir.

Aşağıdakı misalları nəzərdən keçirək.

**Misal 1.** $y = 2x + 6$ funksiyası arqumentin hansı qiymətində $10$-a bərabər qiyməti alar?

**Həlli:** $y = 2x + 6$ düsturunda $y = 10$ qəbul edərək alınmış $2x + 6 = 10$ tənliyini həll edirik. Bu tənlikdən $x = 2$ alırıq. Deməli, $x = 2$ olduqda $y = 10$ olur.

**Misal 2.** $y = x^2 - 5x + 8$ funksiyası arqumentin hansı qiymətlərində 2-ə bərabər olar?

**Həlli:** $y = x^2 - 5x + 8$ düsturunda $y = 2$ yazaraq alınmış $x^2 - 5x + 8 = 2$ tənliyini həll edək. Buradan $x^2 - 5x + 6 = 0$ kvadrat tənliyi alınır ki, onun da kökləri $x_1 = 2, x_2 = 3$ olur. Deməli, $x = 2$ və ya $x = 3$ olduqda $y = x^2 - 5x + 8$ funksiyası $2$-yə bərabər qiymətini alır.

Beləliklə, alırıq ki, $y = 2x + 6$ funksiyası özünün hər bir qiymətini arqumentin yalnız bir qiymətində, $y = x^2 - 5x + 8$ funksiyası isə özünün $\frac{3}{4}$-dən başqa bütün qiymətlərini arqumentin iki qiymətində alır.

Qeyd edək ki, elə funksiyalar var ki, özünün hər bir qiymətini arqumentin hətta üç, dörd, beş və s. sonsuz sayda qiymətlərində də ala bilər.

***Tərif:*** Özünün hər bir qiymətini arqumentin yalnız bir qiymətində alan funksiyaya **tərsi olan funksiya** deyilir. Başqa sözlə, istənilən $x_1, x_2 \in X$ üçün $x_1 \neq x_2$ olmasından $f(x_1) \neq f(x_2)$ olması alınırsa, $f$ funksiyasına $X$ çoxluğunda **tərsi olan funksiya** deyilir.

Tutaq ki, $y = f(x)$ funksiyasının $D(f)$ təyin oblastında tərsi var.

***Tərif:*** $f$ funksiyasının $E(f)$ qiymətlər çoxluğundan götürülmüş $y$-ə $f(x) = y$ şərtini ödəyən $x$ ədədini qarşı qoyan $x = g(y)$ funksiyasına funksiyasının tərs funksiyası deyilir.

Sonuncu tərifdən alınır ki, $X$ çoxluğunda hər bir artan (azalan) funksiya tərsi olan funksiyadır.

Qeyd edək ki, tərs funksiya ilə bağlı verdiyimiz bu təriflər şagirdlərə bir qədər mürəkkəb görünə bilər. Ümumiyyətlə, tərs funksiya anlayışını şagirdlərə izah etmək üçün ən sadə üsullardan biri dörd hesab əməlləri arasında qarşılıqlı tərs əməllər haqqında müzakirə aparmaqdır. Belə ki, şagirdlər artıq bilirlər ki, toplama və çıxma, vurma və bölmə əməlləri qarşılıqlı tərs əməllərdir. Verilən funksiyanın tərsi olan funksiyanı cəbri olaraq müəyyən etmək üçün əməllərin qarşılıqlı əlaqəsindən istifadə etmək olar. Məsələn, $f(x) = 2x$ funksiyasının tərsi $f^{-1}(x) = \frac{1}{2}x$ funksiyasıdır.

Başqa bir misalı nəzərdən keçirək. Məsələn, $f(x) = 3x + 2$ bu funksiya dəyişəni $3$-ə vurub üzərinə $2$ əlavə edir.

$f$ funksiyasının yerinə yetirdiyi əməlləri tərsinə icra etməklə bu funksiyanın tərsi olan




funksiyanın analitik şəklini almaq olar. Məsələn, $f(x) = 5 - x^3$ funksiyasının tərsi olan funksiyanı tapmaq üçün verilən $f$ funksiyasının "gördüyü əməlləri tərsinə çevirmək lazımdır", yəni $x$-i kuba yüksəldib nəticəni $-1$-ə vurub üzərinə $5$ əlavə etmə işini $5$-dən $x$-i çıxıb, kub kök alma "işi" kimi $f^{-1}(x) = \sqrt[3]{5-x}$ funksiyası ilə əvəz etmək lazımdır.

Şagirdlərdə belə bir sual formalaşa bilər ki, "$f$ funksiyasının hansı halda tərs funksiyası var?". Əlbəttə ilk öncə şagirdlərin bu sualın cavabını özlərinin düşünməsinə istiqamətləndirmək daha məqsədəuyğun olar. Lakin şagirdlər bu sualı cavablandıra bilməsələr, bunu onlara izah etmək lazımdır. Şagirdlərin diqqətinə çatdırılmalıdır ki, $f$ funksiyasının tərsi olan funksiyanın mövcud olması üçün onun təyin oblastındakı hər bir qiymətə qiymətlər çoxluğundan bir qiymət uyğun gəlməlidir, bu cür funksiyalar **dönən funksiya** adlanır. Əks halda, yəni $x$-in müxtəlif qiymətlərinə $y$-in bir qiyməti uyğun gələrsə, (məsələn, $y = x^2$ funksiyasında olduğu kimi) bu dönən funksiya deyil və onun tərsi olan funksiya yoxdur. Funksiyanın dönən funksiya olub-olmadığını onun qrafikinə görə üfüqi xəttin köməyilə test etmək olar. Əgər üfüqi xətt qrafiki birdən çox sayda nöqtədə kəsərsə, bu funksiya dönən funksiya deyil və tərs funksiyası yoxdur.




Dönən funksiya deyil




Dönən funksiyadır



Dönən funksiya deyil



Dönən funksiyadır

Şagirdlərin diqqətinə çatdırılması tələb olunan digər bir məqam qarşılıqlı tərs funksiya anlayışıdır.

***Tərif:*** Əgər $y = f^{-1}(x)$ funksiyası $y = f(x)$-in tərsi olduqda, $y = f(x)$ funksiyası da $y = f^{-1}(x)$ funksiyasının tərsi olarsa, f və $f^{-1}$ funksiyalarına ***qarşılıqlı tərs funksiyalar*** deyilir.

Qeyd edək ki, qarşılıqlı tərs funksiyalanın təyin oblastı ilə qiymətlər oblastı rollarını dəyişir, yəni verilmiş funksiyanın təyin oblastı ona qarşılıqlı tərsi olan funksiyanın qiymətlər oblastı, verilmiş funksiyanın qiymətlər oblastı isə, ona qarşılıqlı tərs olan funksiyanın təyin oblastı olur. Bu dediklərimizi simvolik olaraq aşağıdakı şəkildə ifadə edə bilərik:

$$D(f) = E(f^{-1})$$

$$E(f) = D(f^{-1})$$

Əgər *f və* $f^{-1}$*qarşılıqlı tərs funksiyalardırsa, onların qrafikləri* $y = x$ *düz xəttinə nəzərən simmetrik olur (şəkil 1):*



**Şəkil 1.**

İndi isə cəbri funksiyaların tərs funksiyasının tapılmasını şagirdlərə öyrətməyin əsas yolunu aydınlaşdıraq. Qeyd edək ki, cəbri funksiyaların tərs funksiyasının tapılmasının çox sadə bir qaydası var. Belə ki, əgər funksiya düsturla verilmişdirsə və onun tərs funksiyası varsa, onda həmin tərs funksiyanı tapmaq üçün:

1) Verilmiş bərabərlikdən $x$ dəyişəni $y$-lə ifadə edilir.
2) Alınmış bərabərlikdə $x$ -in əvəzinə $y$, $y$ -in əvəzinə $x$ yazılır.

Qeyd etdiyimiz qaydanı misal üzərində izah edək.

**Misal 3.** $y = 2x - 3$ funksiyasına tərs olan funksiyanın düsturunu yazın.

**Həlli:** Əvvəlcə verilən funksiya yazılır:

$$y = 2x - 3$$

$x$ dəyişəni $y$ -dən asılı şəkildə ifadə olunur:

$$x = \frac{1}{2}y + \frac{3}{2}$$

Bundan sonra isə x dəyişənin əvəzinə y, y-in əvəzinə isə x yazılır:

$$y = \frac{1}{2}x + \frac{3}{2}$$

Verilmiş funksiyaların qrafiklərini qursaq, qarşılıqlı tərs funksiyaların qrafiki üçün dediklərimizin doğruluğunu aydın şəkildə görərik (şəkil 2):




**Şəkil 2.**

Qeyd edək ki, şagirdlərin nəzərinə çatdıra bilərik ki, əgər verilmiş funksiyanın tərsi olan funksiyanın qrafikini qurmaq tələb olunursa, əvvəlcə verilmiş funksiyanın qrafiki qurub, daha sonra $y = x$ düz xəttini çəkməklə

həmin qrafikə simmetrik olan funksiyanın qrafikini qursaq, elə həmin funksiyasının tərsi olan funksiyanın qrafikini qurmuş olarıq.

Sonda şagirdlərin nəzərinə çatdırmaq olar ki, verilmiş funksiyanın tərsinin olub-olmadığını bilmək üçün aşağıdakı teoremi bilmək faydalıdır:

**Teorem:** Əgər $y = f(x)$ funksiyası $[a; b]$ parçasında artırsa (azalırsa) və kəsilməzdirsə, onun $[f(a); f(b)]$ $([f(b); f(a)]$ qiymətlər çoxluğunda təyin olunmuş $y = f^{-1}(x)$ tərs funksiyası varsa, tərs funksiya da uyğun olaraq artandır (azalandır) və kəsilməzdir.

***Ədəbiyyat***

1. *Ümumtəhsil məktəbləri üçün riyaziyyat kurikulumu, Bakı – 2021.*
2. *M.H.Yaqubov, İ.M.Abdullayev, Ə.H.Yaqubov. (2015). TQDK Riyaziyyat. Bakı: "Abituriyent" jurnalı.*
3. *N.M.Qəhrəmanova, M.A.Kərimov, İ.H.Hüseynov. (2022). Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC.*
4. *Ю.М.Колягин. (1982). Методика преподавания математики в средней школе. Москва.*

**X.B.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***eliyeva.xatire1234@gmail.com***

# FUNKSİYANIN ELEMENTAR ÜSULLA ARAŞDIRILMASININ ÖYRƏDİLMƏSİ METODİKASI

***Xülasə***

*Funksiyanın elementar üsulla araşdırılması orta məktəbdə geniş istifadə olunur və şagirdlər tərəfindən mənimsənilməsi zamanı bəzi çətinliklər yaradır. Bu məqalənin məqsədi bu çətinlikləri ortaya çıxarmaq və araşdırmaqdır. Məqalədə elementar üsulla araşdırmaya aid misallar üzərində əhəmiyyətli mülahizələr irəli sürülmüşdür.*

# МЕТОДИКА ИССЛЕДОВАНИЯ ФУНКЦИИ ОБУЧЕНИЯ ЭЛЕМЕНТАРНЫМ МЕТОДОМ

***Резюме***

*Исследование функции элементарным методом широко применяется в средней школе и создает некоторые трудности при ее освоении учащимися. Цель данной статьи – раскрыть и изучить эти проблемы. В статье высказаны важные соображения на примерах элементарного метода исследования.*

# METHODOLOGY OF TEACHİNG THE İNVESTİGATİON OF THE FUNCTİON BY THE ELEMENTARY METHOD

***Summary***

*Examining the function by the elementary method is widely used in secondary school and creates some difficulties when it is mastered by students. The purpose of this article is to reveal and explore these challenges. In the article, important considerations were put forward on the examples of elementary method research.*

***Açar sözlər:*** *funksiya, koordinat, tək və ya cüt, məhdudluq, monoton, dövri, qrafik*

***Ключевые слова:*** *функция, координат, нечетная или четная, предел, монотонная, периодическая, график*

***Key words:*** *function, coordinate, odd or even, limit, monotone, periodic, graph*

Funksiya, istər riyaziyyatda, istərsə də həyatın bütün sahələrində çox böyük praktiki rola sahib olduğundan, onun hər tərəfli araşdırılaraq, xassələrinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Funksiya riyaziyyatın əsas bölməsi olmaqla bərabər, həmçinin deyə bilərik ki, özəyini də təşkil edir. Buna görə də bu mövzunun araşdırılması və həmçinin şagirdlərin zəif qavradıqları hissələri nəzərə alaraq araşdırılması böyük önəm kəsb edir. Funksiyanın elementar üsul ilə araşdırılması şagirdlərin çətinlik çəkdiyi mövzulardan biri olmaqla bərabər onların öyrənmələri böyük önəm kəsb edir.

Funksiyanın qrafikini daha dəqiq qurmaq üçün onu araşdırmaq lazımdır. Funksiyanın elementar üsulla araşdırılması dedikdə aşağıdakı müddəalar başa düşülür:

1. Funksiyanın təyin oblastı;
2. Funksiyanın qiymətlər çoxluğu;
3. Funksiyanın monotonluğu;
4. Funksiyanın tək və cütlüyü;
5. Funksiyanın sıfırları;
6. Funksiyanın ekstremumları;
7. Funksiyanın ən böyük və ən kiçik qiymətləri;
8. Funksiyanın məhdudluğu;
9. Funksiyanın dövriliyi;
10. Funksiyanın qrafikinin qurulması.

Bu araşdırmalar əsasında funksiyanın qrafikinin qurulması aparılır. Bu müddəaların hər birini misal üzərində nəzərdən keçirək. Nümunə: $y = \sqrt{x^2 - 4x - 12}$.

**1. Funksiyanın təyin oblastının və qiymətlər çoxluğunun tapılması:**

Funksiyanın araşdırılmasında əsas məsələlərdən biri onun təyin oblastının və qiymətlər çoxluğunun tapılmasıdır. Kəmiyyətlər arasında funksional asılılıqlar müxtəlif olduğundan, hər bir konkret funksiya üçün ayrılıqda təyin oblastı və qiymətlər çoxluğu öyrənilir. Funksiyanın təyin oblastını taparkən əsasən aşağıdakı xüsusi halları nəzərə almaq lazımdır: 1. Məxrəcin sıfıra çevrilməsi; 2. Cüt dərəcədən kökün daxil olması; 3. Funksiyanın $log_a^x$ ifadəsinin daxil olması; 4. Funksiyaya üstlü ifadənin daxil olması; 5. Funksiyaya triqonometrik funksiyaların $y = tgx$ və $y = ctgx$ funksiyalarının daxil olması.

Bunları nəzərə alaraq misalı həll edək. Kvadrat kökün $x^2 - 4x - 12 \geq 0$ olduqda mənası var. Bu bərbərsizliyi vuruqlara ayırmaqla və ya diskriminantın köməyi ilə həll edə bilərik. Bu bərabərsizliyin həllər çoxluğunu $(x-6)(x+2) \geq 0$ bərabərsizliyindən ala bilərik, bu zaman funksiyanın təyin oblastı $D(f) = (-\infty; -2] \cup [6; +\infty)$ olur.

Qeyd etmək lazımdır ki, funksiyanın qiymətlər çoxluğunu təyin etmək üçün müəyyən edilmiş bir qayda yoxdur. Funksiyanın qiymətlər çoxluğunu tapmaq üçün verilmiş misalı xarakterinə görə xüsusi qaydalarla tapmaq lazım gəlir. Bu funksiyanın qiymətlər çoxluğunu taparkən diqqət etməli olduğumuz məqamlar; funksiyanın növü, radikalı və bəzi düsturları bilmələri. $y = x^2 + bx + c, a \neq 0$ funksiyasını hər zaman $y = a(x-m)^2 + n$ (burada $m = -\frac{b}{2a}, n = -\frac{b^2-4ac}{4a}$) şəklində yazmaqla qiymətlər çoxluğunu tapa bilərik. Buradan görünür ki, $a > 0$ olduqda, $y = a(x-m)^2 + n$ funksiyasının qiymətlər çoxluğu $[n; +\infty)$, $a < 0$ olduqda isə bu funksiyanın qiymətlər çoxluğu $(-\infty; n]$ olacaqdır. Bəs funksiya radikal altında olduqda şagirdlər nə etməlidir?

Misalımıza diqqət etsək, görərik ki, funksiya kök altında verilmişdir. Onda bəzi düsturlara nəzər salaq. $y = \sqrt{x^2 + bx + c}$ funksiyasında
1. $a > 0 \Rightarrow n > 0$ olduqda $[\sqrt{n}; +\infty)$, $n = 0$ olduqda $[0; +\infty)$, $n < 0$ olduqda isə $(-\infty; \sqrt{n}]$ olacaqdır.
2. $a < 0 \Rightarrow n > 0$ olduqda $[0; \sqrt{n})$, $n < 0$ olduqda $\varnothing$ olacaqdır.

Görürük ki, $y = \sqrt{x^2 - 4x - 12}$ funksiyasında $a > 0$-dır. Onda n-i təyin etsək, alarıq ki, $n = -\frac{b^2-4ac}{4a} = -\frac{16+48}{4 \cdot 1} = -16$. Görürük ki, $n < 0$, onda funksiyanın qiymətlər çoxluğu $(-\infty; \sqrt{16}] \Rightarrow (-\infty; 4]$ olacaq.

**2. Funksiyanın monotonluğu:**

**Tərif:** Artan və ya azalan funksiyaya monoton funksiya deyilir. $X$ çoxluğunda arqumentin böyük qiymətinə funksiyanın böyük qiyməti uyğun gələrsə, y funksiyasına bu çoxluqda artan funksiya deyilir. Həmçinin, $X$ çoxluğunda arqumentin böyük qiymətinə funksiyanın kiçik qiyməti uyğun gələrsə, y funksiyasına bu çoxluqda azalan funksiya deyilir. Məsələn: $y = 4x + 9$ funksiyasının artan və ya azalan funksiya olduğunu araşdırın.

**Həlli:** Tutaq ki, $x_1$ və $x_2$ ədəd oxunun ixtiyari nöqtələridir və $x_1 < x_2$ isə onda, ədədi bərabərsizliyin xassəsinə əsasən: $4x_1 < 4x_2$ və ya $4x_1 + 9 < 4x_2 + 9$. Başqa sözlə, $f(x_1) < f(x_2)$ deməli, $y = 4x + 9$ funksiyası artan funksiyadır.

**3. Funksiyanın tək və ya cütlüyü:**

**Tərif:** $y = f(x)$ funksiyasının təyin oblastına daxil olan bütün $x$-lər üçün $|f(-x)| = |f(x)|$ bərabərliyi doğru olarsa, onda f funksiyasına ya cüt, ya da tək funksiya deyilir. Verilmiş $f(x) = 0$ funksiyası yeganə funksiyadır ki, nə təkdir, nə də cüt.

**Misal:** $f(x) = x^4 + 1$ funksiyasının tək və ya cüt olmasını araşdıraq.

**Həlli:** Araşdırmanı tərifdən istifadə etməklə aşağıdakı kimi aparsaq aşağıdakı kimi olar.

$f(-x) = (-x)^4 + 1 = x^4 + 1 = f(x) \Rightarrow f(-x) = f(x)$
$f(-x) = f(x)$ olduğundan $f(x) = x^4 + 1$ funksiyası cüt funksiyadır.

**4. Funksiyanın sıfırlarının araşdırılması:**

**Tərif:** Arqumentin hər hansı qiymətində funksiyanın qiyməti sıfıra çevrilərsə, arqumentin bu qiymətinə verilmiş $y = f(x)$ funksiyasının sıfırları deyilir. Misal üzərində izah edək.

**Misal:** $y = f(x) = \sqrt{x^2 - 4x - 12}$ funksiyasının sıfırlarının tapılmasına baxaq.

**Həlli:** $f(x) = 0$ tənliyini həll edək.

$\sqrt{x^2 - 4x - 12} = 0$
$x^2 - 4x - 12 = 0$
$(x-6)(x+2) = 0$
$x_1 = 6; x_2 = -2$

Deməli, $f(x) = \sqrt{x^2 - 4x - 12}$ funksiyasının sıfırları $6$ və $-2$-dir.

**5. Funksiyanın ən böyük və ən kiçik qiymətləri və funksiyanın ekstremumlarının araşdırılması:**

Maksimum və minimum nöqtələri birlikdə funksiyanın ekstremum nöqtələri adlanır. Bu nöqtələrdə funksiyanın qiyməti ekstremumları adlanır. $f(x)$ funksiyasının $[a; b]$parçasında aldığı qiymətlərin ən böyüyünə bu parçada onun ən böyük qiyməti (ƏBQ) deyilir və $max f(x)$, $x \in [a; b]$ kimi işarə olunur, $f(x)$ funksiyasının $[a; b]$

**Misal.** $y = x^2 - x - 2$ funksiyasının $[-2; 5]$ parçasında ƏBQ və ƏKQ-ni və ya ekstremumlarını tapın.

**Həlli:** $y = x^2 - x - 2$ kvadratik funksiyasında $a = 1 > 0$ olduğundan, minimumu var və minimum nöqtəsi $m = -\frac{b}{2a} = -\frac{-1}{2 \cdot 1} = \frac{1}{2} \in [-2; 5]$. Bu funksiyanın minimumu isə $n = -\frac{(-1)^2 - 4 \cdot 1 \cdot (-2)}{4 \cdot 1} = -\frac{9}{4} = -2\frac{1}{4}$-ə bərabərdir. Başqa sözlə, $y_{min} = f\left(\frac{1}{2}\right) = -2\frac{1}{4}$.

Parçanın uc nöqtələrindəki $f(-2)$ və $f(5)$ qiymətləri isə, uyğun olaraq, $f(-2) = 4$, $f(5) = 18$ olar. Bu qiymətlər içərisində, göründüyü kimi, funksiyanın ƏBQ-i 18-ə, ƏKQ isə $-2\frac{1}{4}$ - ə bərabərdir.

**6. Funksiyanın məhdudluğunun araşdırılması:**

Verilmiş hər hansı məhdudluğunu araşdırarkən bir sıra xassələrə baxmağımız vacibdir.

**Xassə 1.** Tutaq ki, f(x) və g(x) funksiyaları $X$ çoxluğunda təyin olunmuş və məhduddur. Onda: $f(x) + g(x)$, $f(x) - g(x)$, $f(x) \cdot g(x)$ və $|f(x)|$ funksiyaları da $X$ çoxluğunda məhduddur, xüsusi halda $C \cdot f(x)$ $(C = const)$, $f^2$(x) funksiyaları da $X$ çoxluğunda məhduddur.

**Xassə 2.** Tutaq ki, $f(x)$ və $g(x)$ funksiyaları eyni bir $X$ çoxluğunda təyin olunmuşdur. $f(x)$ X çoxluğunda məhduddur və $X$ çoxluğunda $|g(x)| > M > 0$ bərabərsizliyi ödəyir. Onda $\frac{f(x)}{g(x)}$ −də X çoxluğunda məhduddur.

**Xassə 3.** Tutaq ki, f(x), $X_1$ və $X_2$ çoxluqlarında məhduddur. Onda bu funksiya $X_1$ və $X_2$ çoxluqlarının birləşməsinə bərabər olan çoxluqda məhduddur. Tutaq ki, $y = f(x)$ funksiyası verilmişdir və məhduddur.

Aşağıdakı teoremləri isbatsız verək:

**Teorem:** Məhdud funksiyanın qiymətlər çoxluğu sonsuz interval ola bilməz.

**Teorem:** Qeyri-məhdud funksiyanın qiymətlər çoxluğu isə sonsuz interval və ya parça ola bilməz.

**Misal:** $f(x) = \frac{x}{1+x^2}$ funksiyası məhdud funksiyadır. $f(x)$ funksiyasının qiymətlər çoxluğunun sonsuz interval olmadığını araşdıraq.

**Həlli:** Burada $|x| < \frac{x^2+1}{2}$ olduğu üçün $\left|\frac{x}{1+x^2}\right| = \frac{|x|}{1+x^2} \leq \frac{1}{2}$ alınır.

Sonuncu bərabərlikdən aydın olunur ki, $E(f) = (-\frac{1}{2}; \frac{1}{2})$. Yuxarıda da qeyd edildiyi kimi qeyri-məhdud funksiyanın qiymətlər çoxluğu isə sonlu interval və ya parça ola bilməz. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, qeyd olunan xassələrin məhdud funksiyanın tərəfindən alınır.

**7. Funksiyanın dövriliyinin araşdırılması:**

Tutaq ki, $y = f(x)$ funksiyası verilmişdir və elə $T \neq 0$ ədədi vardır ki, bu funksiyanın təyin oblastından olan istənilən $x$ üçün $x - T$ və $x + T$ də təyin oblastına daxildir və $f(x - T) = f(x + T)$ bərabərlikləri ödənir. Onda $f(x)$ funksiyasına dövrü $T$ olan dövri funksiya deyilir. Dövri funksiyalara aid misala baxaq.

**Misal.** $f(x) = C$ (sabit funksiya). Bu funksiya bütün ədəd oxunda təyin olunmuşdur: $D(f) = (-\infty; +\infty)$. İstənilən $x$ və $T$ ədədi üçün $f(x+T) = f(x-T) = f(x) = C$ bərabərliyi doğrudur. Yəni, $f(x) = C$ funksiyası dövri funksiyadır və istənilən ədəd bu funksiyanın dövrüdür.

**8. Funksiyanın qrafik üsulla araşdırılması:**

Funksiyanın qrafikinə baxaraq biz onun bəzi xüsusiyyətlərini deyə bilərik. Məsələn; funksiyanın təyin və qiymətlər oblastını, funksiyanın monotonluğunun araşdırılmasını, funksiyanın tək və cütlüyünü, sıfırlarını, ekstremumlarını, ən böyük və ən kiçik qiymətlərini, məhdudluğunu, dövriliyini araşdırmaq olar. İndi isə bir nümunəyə baxaq. Bir funksiyanın qrafikini araşdıraq.

**Misal:** Verilmiş qrafikə əsasən funksiyanın xassələrini sadalayın.

**Həlli:** Qrafikə əsasən qeyd etmək mümkündür ki, funksiyanın $[-1;5)$ aralığında təyin olunmuşdur. Həmçinin deyə bilərik ki, funksiyanın qiymətlər çoxluğu $[-3;3]$ aralığı olacaq.




Qrafikin absis oxunu kəsdiyi nöqtələri qeyd etsək, bu nöqtələr $x=1$ və $x=4$ nöqtələridir. Buradan qeyd edə bilərik ki, funksiyanın sıfırları $x=1$ və $x=4$ nöqtələridir. Yəni, $f(1)=0, f(4)=0.$ Funksiyanın qrafikindən aydındır ki, $[-1;0]$ və $[2;5)$ aralıqlarının hər birində funksiya artan, $[0;2]$ aralığında isə funksiya azalandır.

Qrafik üzərində göstərilmiş $(0;3)$ və $(2;-3)$ nöqtələri funksiyanın ekstremum nöqtələridir ki, burada həmin nöqtələr funksiyanın maksimum və minimum nöqtələrini göstərir.

***Ədəbiyyat***

1. *Riyaziyyat 10 sinif dərslik. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, Əbdürrəhim Quliyev. Radius, 2018.*
2. *Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı - 2018.*
3. *Əliyeva T.M., Adıgözəlov A.S., Mütəllimov. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. T.E I-II h., Bakı, ADPU, 1993.*
4. *Ağayev B.Ə. Riyaziyyat tədrisi metodikası. Bakı – 1961.*
5. *Əhmədova M. və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı, "Adiloğlu", 2006.*
6. *Həsənov M.M. Problemli təlim vasitəsilə şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsi. Bakı, "Müəllim", 1986.*
7. *İbrahimov F.N. Riyaziyyat təlimi haqqında pedaqoji düşüncələr (dərs vəsaiti). Bakı, "Mütərcim" , 1999.*
8. *Nəsirov A.M., Məmmədov R.Ə. Pedaqoji ustalıq. Bakı, "Müəllim", 2008.*

**A.N.İmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytacimanova237@gmail.com*

# V-VII SİNİFLƏRDƏ HƏNDƏSƏ MƏZMUN XƏTLƏRİNİN MƏNTİQİ QURULUŞU HAQQINDA

***Xülasə***

*Bu məqalədə "Riyaziyyat 5", "Riyaziyyat 6", "Riyaziyyat 7" dərsliklərində verilən həndəsə məzmun xətləri üzrə tədris materiallarının təhlili aparılmışdır.*

# О ЛОГИЧЕСКОЙ СТРУКТУРЕ СОДЕРЖАНИЯ ЛИНИИ ГЕОМЕТРИИ В V-VII КЛАССАХ

***Резюме***

*В данной статье проведен анализ учебно-методических материалов по содержательным направлениям геометрии, приведенных в учебниках «Математика 5», «Математика 6», «Математика 7».*

# ABOUT THE LOGICAL STRUCTURE OF GEOMETRY CONTENT LINES IN CLASSES V-VII

***Summary***

*In this article, the analysis of teaching materials on geometry content lines given in "Mathematics 5", "Mathematics 6", "Mathematics 7" textbooks was carried out.*

***Açar sözlər:*** *proqram, təlim nəticələri, teorem, standart, aksiomatika*

***Ключевые слова:*** *программа, результаты обучения, теорема, стандарт, аксиоматика*

***Key words:*** *program, learning outcomes, theorem, standard, axiomatics*

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramının - kurikulumun "Riyaziyyat fənni üzrə ümumi təlim nəticələri" adlanan ilk bölümündə (V-IX siniflər üzrə) şagirdin ümumi orta təhsil səviyyəsi müəyyənləşdirilmişdir. Kurikulumun "Məzmun xətləri üzrə təlim nəticələri" adlanan növbəti bölümündə digər məzmun xətti kimi konkret olaraq siniflər üzrə təlim nəticələri və məzmun standartları göstərilir. Bu sənədə görə 5-ci sinfin sonunda həndəsə məzmun xəttinin təlim nəticələri,

yəni şagirdin bilik, bacarıqlarının səviyyəsi aşağıdakı kimi müəyyənləşdirilir. Şagird:

- uzunluğu məlum olan parçanı, dərəcə ölçüsü verilən bucağı, iki tərəfi və onlar arasında qalan bucağa görə üçbucağı, tərəflərinə görə düzbucaqlını qurur, üçbucağın və dördbucaqlının perimetrini, düzbucaqlının və kvadratın sahəsini, paralelepipedin və kubun səthinin sahəsini və həcmini hesablayır;
- simmetrik müstəvi fiqurları və sadə konqruyent fiqurları tanıyır;
- uzunluğun, sahənin, həcmin və bucağın ölçü vahidlərindən və ölçmə alətlərindən istifadə edir.

Həndəsə məzmun xətti üzrə qeyd olunan bu ümumi təlim nəticələri ilə yanaşı, 5-ci sinif üçün məzmun xətləri üzrə əsas və alt standartlar da müəyyənləşdirilmişdir ki, burada konkret olaraq həndəsə məzmun xətti üzrə şagird:

3.1. Həndəsi təsvir, təsəvvür və məntiqi mühakimələrin köməyi ilə fiqurların əlamət və xassələrini araşdırır.

3.1.1. Nöqtə, düz xətt, şüa, parça, müstəvi, bucaq, üçbucaq, dördbucaqlı, çevrə və dairə anlayışları haqqında biliklərini nümayiş etdirir.

3.1.2. Uzunluğu məlum olan parçanı, dərəcə ölçüsü verilən bucağı, iki tərəfi və onlar arasında qalan bucağa görə üçbucağı, tərəflərinə görə düzbucaqlını qurur.

3.1.3. Üçbucağın və dördbucaqlının perimetrini, düzbucaqlının və kvadratın sahəsini hesablayır.

3.1.4. Paralelepipedin və kubun səthinin sahəsini və həcmini hesablayır.

3.1.5. Üçbucaqların tərəflərinə və bucaqlarına görə təsnifatını aparır.

3.2. Problem həlli situasiyalarına həndəsi çevirmələri və simmetriyanı tətbiq edir.

3.2.1. Sadə simmetrik müstəvi fiqurları tanıyır.

3.2.2. Sadə konqruyent (formaca eyni, ölçüləri bərabər) fiqurları tanıyır.

3.2.3. Ədəd oxunda nöqtələrin koordinatlarını qurur və koordinatına görə ədədi tapır.

5-ci sinif riyaziyyat dərsliyi 2020-ci ildə “Radius” nəşriyyatında Nayma Qəhrəmanova və Famil Hüseynov tərəfindən nəşr edilmişdir. Səkkiz bölmədən ibarət olan bu dərsliyin yalnız iki bölməsi həndəsə məzmun xəttinə aiddir. Dərsliyin həndəsə məzmun xəttinə dair 4-cü bölməsi “Həndəsi fiqurlar”, 6-cı bölməsi isə “Fəza fiqurları” adlanır.

4-cü bölmədə “Nöqtə, düz xətt, parça, şüa, müstəvi”, “Bucaqlar”, “Dördbucaqlılar”, “Üçbucaqlar”, “Üçbucaqların qurulması”, “Çevrə, dairə”, “Konqruyent fiqurlar”, “Dönmə, əksetmə, sürüşmə”, “Simmetriya”, “Perimetr”, “Kvadrat və düzbucaqlının sahəsi” mövzuları verilmişdir.

Bu bölmədə parçanın, şüanın, paralel düz xətlərin, perpendikulyar düz xətlərin, bucağın, üçbucağın, çevrənin, dairənin, radiusun, diametrin, vətərin, mərkəzi bucağın, konqruyent fiqurların tərifləri verilmiş və onlar şəkillər üzrə konkret induktiv yolla şərh olunmuşdur.

"Fəza fiqurları" adlanan 6-cı bölmədə: "Fəza fiqurları", "Düzbucaqlı paralelepipedin səthinin sahəsi", "Həcm, kub vahidlərlə", "Düzbucaqlı paralelepipedin həcmi" kimi mövzularla yanaşı, həm də burada uzunluq, sahə, həcm vahidləri üzərində qarşılıqlı çevirmələrə dair çalışmalar verilmişdir. Bu bölmədə fəza cisimlərindən prizma və piramida anlayışları da verilmişdir.

Kurikulumun tələbinə görə həndəsə məzmun xətti üzrə təlim nəticələri 6-cı sinif üçün də müəyyənləşdirilmişdir. Belə ki, şagird:

3.1. Həndəsi təsvir, təsəvvür və məntiqi mühakimələrin köməyi ilə fiqurların əlamət və xassələrini araşdırır.

3.1.1. Müstəvi üzərində düz xətlərin, düz xətlə çevrənin, çevrələrin qarşılıqlı vəziyyəti haqqında biliklərini nümayiş etdirir.

3.1.2. Tərəfinə və ona bitişik bucaqlarına görə üçbucağı və radiusuna görə çevrəni qurur.

3.1.3. Qonşu bucaqların və qarşılıqlı bucaqların xassələrinə aid məsələləri həll edir.

3.1.4. Çevrə və dairənin elementlərini (vətər, seqment, sektor, mərkəzi bucaq) bilir, onların xassələrini tətbiq edir.

3.1.5. Müstəvi üzərində düz xətlə çevrənin qarşılıqlı vəziyyətini müəyyən edir.

3.2. Problem həlli situasiyalarına həndəsi çevirmələri və simmetriyanı tətbiq edir.

3.2.1. Verilmiş düz xəttə nəzərən verilmiş nöqtə ilə simmetrik nöqtəni qurur (ox simmetriyası).

3.2.2. Fiqurla oxa nəzərən simmetrik olan fiqurun həmin fiqurla konqruyent olduğunu göstərir.

3.2.3. Müstəvi üzərində koordinatları verilmiş nöqtəni qurur və verilmiş nöqtənin koordinatlarını tapır.

Müəllifləri Sevda İsmayılova, Arzu Hüseynova olan "Şərq-Qərb" nəşriyyatında 2021-ci ildə nəşr olunmuş ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün riyaziyyat dərsliyi səkkiz bölmədən ibarətdir. Burada həndəsə məzmun xəttini əhatə edən 5-ci bölmə "Düzbucaqlı koordinat sistemi", 6-cı bölmə "Bucaq. Çevrə. Simmetriya", 7-ci bölmə isə "Ölçmələr. Sahə. Həcm" mövzularını əhatə edir.

5-ci bölmədə "Paralel və perpendikulyar düz xətlər", "Koordinatlar", "Düzbucaqlı koordinat sistemi" mövzuları verilmişdir. Burada paralel düz

xətlər, kəsişən düz xətlər, perpendikulyar düz xətlər, absis oxu, ordinat oxu, koordinat müstəvisi kimi anlayışların tərifləri verilmişdir.

6-cı bölmədə "Qonşu və qarşılıqlı bucaqlar", "Üçbucağın qurulması", "Düz xətlə çevrənin qarşılıqlı vəziyyəti", "İki çevrənin qarşılıqlı vəziyyəti", "Qövs. Mərkəzi bucaq", "Çevrənin uzunluğu", "Ox simmetriyası", "Konqruyent fiqurlar" mövzuları verilmişdir ki, bu mövzularda: qonşu bucaqlar; qarşılıqlı bucaqlar; vətər; diametr; qövs; mərkəzi bucaq; simmetrik fiqurlar; konqruyent fiqurlar kimi anlayışların tərifləri bu bölmədə əksini tapmışdır.

Uzunluq, sahə və həcmlərin ölçülməsi ilə yanaşı, 7-ci bölmədə "Dairə. Sektor. Seqment", "Dairənin sahəsi", "Silindrin səthinin sahəsi" kimi həndəsə məzmunlu mövzuların tədrisi nəzərdə tutulmuşdur. Dairə, sektor, seqment, anlayışlarının tərifləri və silindrin həcminin düsturu hazır şəkildə verilmişdir.

7-ci sinif üçün də təlim nəticələri aşağıdakı kimi müəyyənləşdirilmişdir. Şagird:

3.1. Həndəsi təsvir, təsəvvür və məntiqi mühakimələrin köməyi ilə fiqurların əlamət və xassələrini araşdırır.

3.1.1. Üçbucağın əsas elementləri və onlar arasındakı münasibətləri bilir, həndəsi təsvir edir.

3.1.2. Parçanı yarıya bölür, parçanın orta perpendikulyarını, bucağın tənbölənini və tərəflərinə görə üçbucağı qurur.

3.1.3. İki parallel düz xətti üçüncü ilə kəsdikdə alınan bucaqların xassələrini tətbiq edir.

3.1.4. Üçbucağın daxili bucaqlarının cəmi haqqında teoremi və xarici bucağının xassəsini tətbiq edir.

3.1.5. Aksiom, teorem, düz teorem və tərs teorem anlayışlarını başa düşür.

3.2. Problem həlli situasiyalarına həndəsi çevirmələri və simmetriyanı tətbiq edir.

3.2.1. Verilmiş nöqtəyə nəzərən verilmiş fiqurla simmetrik fiquru qurur (Mərkəzi simmetriya).

3.2.2. Üçbucaqların konqruyentlik əlamətlərini bilir və tətbiq edir.

3.2.3. $y=kx+b$ tənliyi ilə verilmiş düz xəttin qrafikini qurur, bu düz xəttin koordinat oxları ilə kəsişmə nöqtələrini müəyyən edir.

"Şərq-Qərb" nəşriyyatında 2022-ci ildə nəşr olunmuş və Sevda İsmayılova, Sahib Abdurrahimovun müəllif olduqları ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün riyaziyyat dərsliyi on bölmədən ibarətdir.

"Paralellik. Perpendikulyarlıq" adlanan 3-cü bölmədə "Perpendikulyar və mail", "Parçanın orta perpendikulyarı", "Mərkəzi simmetriya", "İki düz xəttin üçüncü ilə kəsişməsindən alınan bucaqlar", "Düz xətlərin paralellik

əlamətləri", "Uyğun tərəfləri parallel və ya perpendikulyar olan bucaqlar" mövzuları verilmişdir.

Bu bölmədə perpendikulyar, perpendikulyarın oturacağı, məsafə, mail, mailin oturacağı, meyil bucağı, proyeksiya, daxili çarpaz bucaqlar, xarici çarpaz bucaqlar, daxili birtərəfli bucaqlar, xarici birtərəfli bucaqlar, uyğun bucaqlar, uyğun tərəfləri paralel və ya perpendikulyar olan bucaqlar kimi anlayışlar; qurma məsələsi, orta perpendikulyar, simmetrik nöqtə, simmetriya mərkəzi, mərkəzi simmetrik fiqur, fiqurun simmetriya mərkəzi kimi təriflər; uyğun, daxili çarpaz, xarici çarpaz, daxili birtərəfli, xarici birtərəfli bucaqların əlamətləri; uyğun tərəfləri paralel və ya perpendikulyar olan bucaqların xassələri verilmişdir. Bundan əlavə 3-cü bölmədə aşağıdakı teorem qeyd olunmuşdur:

İstənilən nöqtədən verilmiş düz xəttə yalnız bir perpendikulyar düz xətt çəkmək mümkündür.

"Üçbucaqlar" adlanan 5-ci bölmədə "Üç tərəfinə görə üçbucağın qurulması", "Üçbucağın bucaqları və tərəfləri", "Üçbucağın elementləri: tənbölən, median, hündürlük" mövzuları öz əksini tapmışdır. 5-ci bölmədə xarici bucağın, bucağın tənbölənlərinin, üçbucağın tənbölənlərinin, üçbucağın medianının, üçbucağın hündürlüyünün tərifləri verilmişdir. Həmçinin, aşağıda qeyd olunan teoremlər bu bölməyə aiddir:

**Teorem:** Üçbucağın daxili bucaqlarının cəmi 180°-dir.

**Teorem:** Üçbucağın xarici bucağı ona qonşu olmayan iki daxili bucağının cəminə bərabərdir.

**Teorem:** Üçbucaqda: 1) böyük tərəf qarşısında böyük bucaq durur; 2) böyük bucaq qarşısında böyük tərəf durur.

**Teorem:** Üçbucağın hər bir tərəfinin uzunluğu digər iki tərəfinin uzunluqları cəmindən kiçikdir.

"Üçbucaqların konqruyentliyi" adlanan 9-cu bölmədə "Konqruyent üçbucaqlar", "Üçbucaqların konqruyentliyinin I əlaməti", "Üçbucaqların konqruyentliyinin II əlaməti", "Üçbucaqların konqruyentliyinin III əlaməti", "Bərabəryanlı və bərabərtərəfli üçbucağın xassələri" kimi mövzular verilmişdir. Bu bölmədə konqruyent fiqurların, bərabəryanlı və bərabərtərəfli üçbucaqların tərifləri qeyd olunmuşdur.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı - 2006, 38 s.*
2. *Azərbaycan Respublikasının Qanunu "Təhsil haqqında". Qanun nəşriyyatı, 2012, 96 s.*

3. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı - 2013.*
4. *Riyaziyyat 5 sinif dərslik. Nayma Qəhrəmanova, Famil Hüseynov. Radius, Bakı - 2020.*
5. *Riyaziyyat 6 sinif dərslik. Sevda İsmayılova, Arzu Hüseynova. Şərq-Qərb, Bakı - 2021.*
6. *Riyaziyyat 7 sinif dərslik. Sevda İsmayılova, Sahib Abdurahimov. Şərq-Qərb, Bakı - 2022.*

**A.H.İsmayılova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aygunismayilova564@gmail.com*

# XI SİNİFLƏRDƏ HƏNDƏSƏ MƏZMUN XƏTLƏRİNİN MƏNTİQİ QURULUŞU HAQQINDA

***Xülasə***

*Məqalədə "Riyaziyyat 11" dərsliyində həndəsə məzmun xətti üzrə verilən tədris materiallarının təhlili aparılmışdır.*

# О ЛОГИЧЕСКОЙ СТРУКТУРЕ СОДЕРЖАНИЯ ЛИНИИ ГЕОМЕТРИИ В XI КЛАССЕ

***Резюме***

*В данной статье проведен анализ учебно-методических материалов по содержательным направлениям геометрии, приведенных в учебниках «Математика 11».*

# ABOUT THE LOGICAL STRUCTURE OF THE CONTENT OF THE GEOMETRY LINE IN XI CLASS

***Summary***

*In this article, the analysis of teaching materials on geometry content lines given in "Mathematics 11" textbook was carried out.*

***Açar sözlər:*** *təlim nəticələri, teorem, firlanma fiqurları, sahə, həcm*
***Ключевые слова:*** *результаты обучения, теорема, тела вращения, площадь, объем*
***Key words:*** *learning outcomes, theorem, rotational shapes, area, volume*

Riyaziyyat fənni ümumtəhsil məktəblərində tədris olunan vacib və ən mühüm fənlərdən biridir. Ümumtəhsil məktəblərində Riyaziyyat fənni üzrə təhsil proqramı (Kurikulumu) riyaziyyat təliminin əsas məqsədlərini təyin etməklə ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətləri əks etdirən və hər bir şagirdin imkan və ehtiyaclarına yönəlmiş sənəddir. Kurikulumun hazırlanması prosesində məzmun xətlərinin hər birindəki məzmunun sadədən mürəkkəbə doğru dəyişməsi, dərinləşməsi və genişləndirilməsi nəzərdə tutulmalıdır. Buna görə də məzmun xətləri yalnız kurikulumun quruluşunu tərtib etməyə və bu haqda mülahizə yürütməyə xidmət edir. Kurikulumun "Riyaziyyat fənni üzrə ümumi təlim nəticələri"

adlanan bölümündə (X-XI siniflər üzrə) şagirdin tam orta təhsil səviyyəsi müəyyənləşdirilmişdir. Kurikulumun "Məzmun xətləri üzrə təlim nəticələri" adlanan növbəti bölümündə isə siniflər üzrə təlim nəticələri və məzmun standartları göstərilir. Bu sənədə görə 11-ci sinfin sonunda şagirdlərdə həndəsə məzmun xəttinin təlim nəticələri, yəni bilik, bacarıqların səviyyəsi aşağıdakı kimi müəyyənləşdirilir. Şagird:

- əyrixətli trapesiyanın sahəsini və fırlanmadan alınan cisimlərin həcmini hesablayır;
- fəzada koordinatları ilə verilmiş iki vektorun skalyar hasilini tapır, koordinatlar üsulunu müxtəlif məsələlərin həllinə tətbiq edir, fəzada verilmiş vektoru komplanar olmayan üç vektor üzrə ayırır;
- müstəvinin və sferanın tənliyinə aid məsələləri həll edir;
- paralel köçürməni və oxşarlıq çevirməsini məsələlər həllinə tətbiq edir;
- silindrin, konusun, kəsik konusun yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir, kürənin və hissələrinin səthlərinin sahələrini və həcmlərini tapır;
- müəyyən inteqraldan istifadə edərək, əyrixətli trapesiyanın və digər müstəvi fiqurların sahəsini tapır.

Həndəsə məzmun xətti üzrə ümumi təlim nəticələri ilə yanaşı, 11-ci sinif üçün məzmun xətləri üzrə əsas və alt standartlarda müəyyənləşdirilmişdir. Burada həndəsə məzmun xətti üzrə şagird:

Müəllifləri Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, Əbdürrəhim Quliyev olan XI riyaziyyat dərsliyi 2023-ci ildə radius nəşriyyatında nəşr olunmuşdur. Dərslik kurikulum proqramının nəzərdə tutduğu beş məzmun xəttini əhatə edən 10 bölmədən ibarətdir. Bu dərsliyin həndəsə məzmun xəttini 2,4,6-cı bölmələr əhatə edir.

2-ci bölmə "Fəzada vektorlar" adlanır. Bu bölmənin "Fəzada Dekart koordinat sistemi" mövzusunda Dekart koordinatları anlayışının tərifi və bir neçə teorem və onların isbatı verilmişdir. Bu bölmədə teoremlər düzbucaqlı fiqurun içərisində qeyd olunmuşdur.

**Fəzada iki nöqtə arasındakı məsafə:** P $(x_1, y_1, z_1)$ və Q $(x_2; y_2; z_2)$ nöqtələri arasındakı məsafə PQ=$\sqrt{(x_2-x_1)^2+(y_2-y_1)^2+(z_2-z_1)^2}$ düsturu ilə hesablanır.

**Parçanı müəyyən nisbətdə bölən nöqtənin koordinatları:** P $(x_1, y_1, z_1)$ və Q $(x_2; y_2; z_2)$ nöqtələrini birləşdirən parçanı PR:RQ=m:n nisbətində bölən R nöqtəsinin koordinatları R $\left(\frac{mx_2+nx_1}{m+n}; \frac{my_2+ny_1}{m+n}; \frac{mz_2+nz_1}{m+n}\right)$ kimi tapılır.

**Parçanın orta nöqtəsinin koordinatları:** P$(x_1, y_1, z_1)$ və Q$(x_2; y_2; z_2)$ nöqtələrini birləşdirən parçanın orta nöqtəsi M$\left(\frac{x_1+x_2}{2}; \frac{y_1+y_2}{2}; \frac{z_1+z_2}{2}\right)$ olur.

**Üçbucağın ağırlıq mərkəzinin koordinatları.** Təpələri M ($x_1$, $y_1$, $z_1$), N ($x_2$; $y_2$; $z_2$), L ($x_3$; $y_3$; $z_3$), nöqtələrində olan üçbucağın ağırlıq mərkəzinin (medianlarının kəsişmə nöqtəsinin) koordinatlarının P $\left(\frac{x_1+x_2+x_3}{3};\frac{y_1+y_2+y_3}{3};\frac{z_1+z_2+z_3}{3}\right)$ kimi tapmaq olar.

"Fəzada vektorlar" mövzusunda vektorial kəmiyyətlər, vektorun uzunluğu, sıfır vektor, radius-vektor, bərabər vektorlar, əks vektorlar, kollinear vektorlar, komplanar vektorlar, vahid vektor, ort vektorlar kimi anlayışların tərifi verilmişdir. Həmçinin bu mövzuda aşağıdakı kimi teoremlər isbatsız qeyd olunmuşdur:

**Teorem:** Başlanğıcı və sonu uyğun olaraq P ($x_1$, $y_1$,$z_1$) və Q ($x_2$; $y_2$; $z_2$) nöqtələri olan $\overrightarrow{PQ}$ vektorunun uzunluğu $|\overrightarrow{PQ}|=\sqrt{(x_2-x_1)^2+(y_2-y_1)^2+(z_2-z_1)^2}$ düsturu ilə tapılır.

**Nəticə:** $\overrightarrow{OP}\langle x,y,z\rangle$ yer vektorunun uzunluğu $|\overrightarrow{OP}|=\sqrt{x^2+y^2+z^2}$ olar (koordinat başlanğıcından verilən nöqtəyə qədər məsafə düsturu ilə eynidir).

**Vektorların toplanması və çıxılması:** $\vec{v}\ \langle v_1;v_2;v_3\rangle$ və $\vec{u}\ \langle u_1;u_2;u_3\rangle$ vektorlarının cəmi (fərqi), komponentləri bu vektorların uyğun komponentləri cəminə (fərqinə) bərabər olan vektordur:

$$\vec{v}+\vec{u}=\langle v_1+u_1;v_2+u_2;v_3+u_3\rangle$$
$$\vec{v}-\vec{u}=\langle v_1-u_1;v_2-u_2;v_3-u_3\rangle$$

**Vektorun ədədə vurulması:** $\vec{v}\ \langle v_1;v_2;v_3\rangle$ vektorunun k həqiqi ədədinə hasili $k\vec{v}=\langle kv_1;kv_2;kv_3\rangle$ kimi təyin edilən vektordur.

Bu teoremlərdən sonra kollinear və komplanar vektorlara tərifləri verilərək vahid vektor və ort vektor anlayışları da daxil edilir. Sonra $\vec{a}$ vektorunun $\vec{i}$, $\vec{j}$, $\vec{k}$ ort vektorları üzrə ayrılışına aid teorem verilir. Vektorları təsvir edən istiqamətlənmiş parçalar paraleldirsə və ya eyni düz xətt üzərindədirsə, onlara kollinear vektorlar deyilir. $\vec{a}\neq 0$ və $\vec{b}$ vektorları kollineardırsa, onda elə yeganə k ədədi var ki, $\vec{b}=k\cdot\vec{a}$ ödənir. $k>0$ olduqda bu vektorlar eyniistiqamətli, $k<0$ olduqda isə əks istiqamətlidir. Kollinear vektorların uyğun koordinatları mütənasibdir: $b_1=k\cdot a_1$, $b_2=k\cdot a_2$, $b_3=k\cdot a_3$ . $a_1\neq 0$, $a_2\neq 0$, $a_3\neq 0$ olduqda, bu şərt $\frac{b_1}{a_1}=\frac{b_2}{a_2}=\frac{b_3}{a_3}=k$ kimi yazılır. Eyni müstəvi və ya parelel müstəvilər üzərində yerləşən vektorlara komplanar vektorlar deyilir. Uzunluğu vahidə bərabər olan vektora bərabər vektor deyilir. İstənilən sıfır olmayan $\vec{v}$ vektoru üçün $\frac{\vec{v}}{|\vec{v}|}$ vektoru vahid vektordur.

**Teorem:** İstənilən $\vec{a}(a_1,a_2,a_3)$ vektoru $\vec{i}$, $\vec{j}$, $\vec{k}$ ort vektorları üzrə yeganə ayrılışa malikdir və $\vec{a}=a_1\cdot\vec{i}+a_2\cdot\vec{j}+a_3\cdot\vec{k}$ bərabərliyi doğrudur.

"İki vektorun skalyar hasili", "Düz xəttin ümumi tənliyi", "Sferanın tənliyi", "Fəzada və müstəvidə çevrilmələr" mövzularında isə skalyar hasil,

düz xəttin normal vektoru, sfera, sferaya toxunan müstəvi, hərəkət, dönmə, oxşarlıq çevrilməsi, oxşarlıq əmsalı, homotetiya kimi anlayışların tərifi verilmişdir.

4-cü bölmə "Fırlanma fiqurları. Silindr, konus, kürə" adlanır. Bu bölmənin "Fırlanma fiqurları" mövzusunda fırlanma oxu anlayışının tərifi verilmişdir. "Silindr" mövzusunda silindr, silindrin oturacağı, silindrin doğuranı, düz silindr, mail silindr, silindrin hündürlüyü, düz dairəvi silindr, silindrin radiusu, silindrin oxu kimi anlayışların tərifi verilmişdir. "Silindrin səthinin sahəsi" mövzusunda aşağıdakı teorem isbatsız verilmişdir.

Silindrin **yan səthinin sahəsi** oturacaq çevrəsinin uzunluğu ilə hündürlüyü hasilinə bərabərdir: $S_{yan}=2\pi rh$

"Konus" mövzusunda konus, konusun oturacağı, konusun hündürlüyü, dairəvi konus, düz dairəvi konus, konusun doğuranı, konusun oxu, konusun radiusu kimi anlayışların tərifi verilmişdir.

"Konusun səthinin sahəsi" mövzusunda aşağıdakı teorem isbatsız qeyd olunmuşdur.

Konusun **yan səthinin sahəsi** oturacaq çevrəsinin uzunluğunun yarısı ilə doğuranı hasilinə bərabərdir: $S_{yan}=\pi rl$

Qeyd edək ki, silindrin və konusun səth anlayışları haqqında təsəvvürlər əyani illüstrativ verildiyi üçün yan və tam səth anlayışlarını, səthlərin hesablanmasını şagirdlər asanlıqla qavrayırlar:

"Silindr və konusun müstəvi kəsikləri" mövzusunda silindrin ox kəsiyi, bərabərtərəfli silindr, konusun ox kəsiyi, bərabərtərəfli konus kimi anlayışların tərifi verilmişdir.

"Kürə və hissələrinin səthinin sahəsi" mövzusunda kürə, kürənin vətəri, kürənin diametri, seqment, seqmentin oturacağı, seqmentin hündürlüyü, kürə qurşağının hündürlüyü kimi anlayışların tərifi verilmişdir.

4-cü bölmədə "Kompleks fiqurların səthinin sahəsi" mövzusu da verilmişdir. Adından göründüyü kimi bu mövzu da şagirdlər real həyatdakı obyektlərlə tanış edilir. Onların səth sahələrin hesablama bacarıqlarına yiyələnirlər.

Bu bölmədə şagirdin hər bir fiqurun səthinin sahəsinin təcrübi olaraq, hazır fiquru kəsərək açması və verilən kartondan, kağızdan düzəldə bilməsi məşğələlərinə geniş yer verilməlidir. Bu bölmədə istər silindrin, istər konusun səthinin sahəsinin hesablanması tapşırıqlarına geniş yer verilmişdir. Şagird bu tapşırıqları yerinə yetirməklə səthin sahəsinin real olaraq nəyi ifadə etdiyini başa düşdükdən sonra məlumatları həndəsi anlayışlarla daha düzgün əlaqələndirə biləcək və düsturları məsələ həllinə daha rahatlıqla tətbiq edə biləcəkdir.

"Fırlanma fiqurlarının həcmi" adlanan 6-cı bölmə "Silindrin həcmi", "Konusun həcmi", "Kəsik konusun həcmi", "Kürə və hissələrinin həcmi", "Oxşar fiqurların həcmi" kimi mövzuları əhatə edir. Bu mövzularda prizma, kürə sektoru kimi anlayışların tərifi verilmişdir. Həmçinin 6-cı bölmədə fırlanma fiqurlarının həcmi düsturlarının istər emprik yollarla isbatı, istərsə də analitik yolla isbatının verilməsinə çalışılmışdır.

Silindrin həcmi oturacağının sahəsi ilə hündürlüyü hasilinə bərabərdir:

$$V=S_{ot}h$$

Konusun həcmi oturacağın sahəsi ilə hündürlüyü hasilinin üçdə birinə bərabərdir: $V=\frac{1}{3}S_{ot}h$

Kürənin həcmi $\frac{4}{3}\pi$ ilə radiusu kubunun hasilinə bərabərdir: $V=\frac{4}{3}\pi r^3$

**Oxşar fəza fiqurlarının həcmləri:** Oxşar A və B fəza fiqurlarının həcmlərinin nisbəti onların uyğun xətti ölçülərinin nisbətinin kubuna, yaxud oxşarlıq əmsalının kubuna bərabərdir: $A \sim B$ $\frac{V_A}{V_B} = (\frac{a}{b})^3 = k^3$

Hər bölmə ümumiləşdirici tapşırıqla yekunlaşdırılmışdır. Ümumiləşdirici tapşırıqların verilməsinin məqsədi öyrənilmiş yeni biliklərin təkrarı və möhkəmləndirilməsi xarakterini daşıyır.

Təhlilini apardığımız 11-ci sinfin riyaziyyat dərsliyinin və uyğun metodik vəsaitin aparılan təhlili həndəsə məzmun xətti üzrə təlim nəticələrini müəyyənləşdirməyə əsas verdi. Bu dərsliyin həndəsə məzmun xəttinin tədrisinin təlim nəticəsi olaraq, şagirdin mənimsəməli olduğu bilik və bacarıqların sistemini qeyd edək.

Dərsliyin "Fəzada vektorlar" adlanan 2-ci bölməsi üzrə şagird:

- Fəzada Dekart koordinat sistemi, vektor anlayışları ilə yanaşı iki vektorun skalyar hasili, düz xəttin ümumi tənliyi, müstəvinin tənliyi, sferanın tənliyi anlayışlarını bilir. Müstəvilərin qarşılıqlı vəziyyətini fəzada və müstəvidə çevirmə əsasında məntiqi mühakimə və koordinatlar üsulu ilə fiqurların xassələrini araşdırır. Bu anlayışlarla bağlı bilikləri mənimsəyərək müxtəlif tipli məsələlərin həllinə tətbiq etməyi bacarır və sonda verilən ümumiləşdirilmiş tapşırıqların öhdəsindən asanlıqla gəlir.

Dərsliyin "Fırlanma fiqurları. Silindr, konus, kürə" adlanan 4-cü bölməsi üzrə şagird:

- Fırlanma fiqurlarının silindr, konus, kürə anlayışlarının təriflərini, onların səth sahələrinin hesablanması düsturlarını bilir. Kəsik konus, kürə seqmenti, kürə sektoru kimi kəsiklərin alınmasını və təsvir edilməsini bilib bacarmaqla yanaşı fırlanma fiqurları və kəsiklərinə aid biliklərin məsələlər üzrə həllinə tətbiqlərini də bacarır. Oxşar fiqurların səth sahələri və mürəkkəb fiqurların, məsələn çoxüzlülərlə fırlanma cisimlərinin kombinasiyalarının səth

sahələrinin hesablanmasına aid məsələlərin həllini bacarır, sonda verilmiş ümumiləşdirilmiş tapşırıqların öhdəsindən asanlıqla gəlir.

Dərsliyin "Fırlanma fiqurlarının həcmi" adlanan 6-cı bölməsi üzrə şagird:

- Silindrin, konusun, kəsik konusun, kürə və hissələrinin, oxşar fiqurların həcminin hesablanmasının düsturlarını məntiqi mühakimə ilə alınmasını bilir və müxtəlif məsələləri onların tapılmasına dair həll etməyi bacarır və sonda verilən ümumiləşdirilmiş tapşırıqların öhdəsindən asanlıqla gəlir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı - 2006, 38s.*
2. *Azərbaycan Respublikasının Qanunu "Təhsil haqqında". Qanun nəşriyyatı, 2012, 96s.*
3. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər), Bakı - 2013.*
4. *Riyaziyyat 11 sinif dərslik. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, Əbdürrəhim Quliyev. Radius, 2023.*
5. *Riyaziyyat 11 sinif metodik vəsait. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, Əbdürrəhim Quliyev. Radius, 2023.*

**S.V.Əsgərova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sabinasgarova@gmail.com*

# ALİ MƏKTƏBLƏRDƏ TARİX KURSUNUN TƏDRİSİNDƏ MULTİMEDİA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

**Xülasə**

*Məqalədə multimedia texnologiyalarının tarix dərslərində tədqiqinin imkan və yolları məsələləri əks olunmuşdur. Təhsildə multimedia qurğularından istifadənin mahiyyəti və yaratdığı imkanlardan bəhs olunur. Tarix dərslərini daha maraqlı və yadda qalan etmək üçün video, audio, fotoşəkillər və təqdimatlardan istifadənin əhəmiyyəti vurğulanmış və multimedia texnologiyalarından istifadə etməklə tarixi hadisələrin mənimsəmə bacarıqlarınn və dərsin səmərəliliyinin artırılması qeyd olunmuşdur. Rəqəmsal texnologiyaların təhsilin keyfiyyətini yüksəltməsi şərh edilmişdir.*

# ВОЗМОЖНОСТИ И ПУТИ ИСПОЛЬЗОВАНИЯ МУЛЬТИМЕДИЙНЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ ИСТОРИИ В ВУЗАХ

**Резюме**

*В статье отражены возможности и способы исследования мультимедийных технологий на уроках истории. Обсуждается сущность использования мультимедийных устройств в образовании и возможности, которые это создает. Подчеркнута важность использования видео, аудио, фотографий и презентаций для того, чтобы сделать уроки истории более интересными и запоминающимися, а также отмечена возможность изучения исторических событий и повышения эффективности урока за счет использования мультимедийных технологий. Было отмечено, что цифровые технологии улучшают качество образования.*

# POSSIBILITIES AND WAYS OF USING MULTIMEDIA TECHNOLOGIES IN HISTORY COURSE TEACHING IN HIGHER SCHOOLS

**Summary**

*The article reflects the possibilities and ways of researching multimedia technologies in history classes. The essence of the use of multimedia devices in education and the opportunities it creates are discussed. The importance of using video, audio, photos and presentations to make history lessons more interesting and memorable was emphasized, and the ability to learn historical events and increase the*

*efficiency of the lesson by using multimedia technologies was noted. It has been commented that digital technologies improve the quality of education.*

***Açar sözlər:*** *tədris, rəqəmsal, müasir təhsil, disklər, kompüter, multimedia, informasiya-kommunikasiya*

***Ключевые слова:*** *обучение, цифровое, современное образование, диски, компьютер, мультимедиа, информационно-коммуникативные*

***Key words:*** *teaching, digital, modern education, discs, computer, multimedia, information-communication*

Multimedia texnologiyalarının təhsilə inteqrasiyası tələbələrə cəlbedici öyrənmə təcrübəsi təqdim edir və onlara daha çox maraq göstərməyə imkan verir. Texnologiya varsa, tələbələr öyrənmə ilə daha çox məşğul ola bilərlər. Çünki indiki gənclər elektron cihazların istifadəsinə olduqca uyğunlaşdırılmışdırlar və şübhəsiz ki, məktəb təhsili onların marağını və iştirak səviyyələrini artırmağa kömək edəcəkdir. Tələbə öyrənməsi daha dinamik və cəlbedici olması üçün proyektorlardan, kompüterlərdən və digər qabaqcıl texniki vasitələrdən istifadə dərsi daha maraqlı və effektiv edir. Multimedia texnologiyaları təhsili təkmilləşdirməyə kömək edə biləcək güclü alətdir. Rəqəmsal texnologiyaları təhsildə qabaqcıl edən səbəblərdən biri də səmərəli təhsil üçün hər kəsə və hər yerdə əlçatan olmasıdır.

**Təhsildə rəqəmsal texnologiyaların tətbiqi məsələsi.** Sinif təlimatlarını maraqlı etmək üçün rəqəmsal texnologiyalardan istifadə olunması sinifdə tədrisi daha maraqlı və yaradıcı edir. Tələbələr bu barədə getdikcə daha çox xəbərdar olurlar. Onlar müəllimin dediklərinə təkcə qulaq asmır, həm də ekranda baxırlar. Bu, gənclər üçün vizual öyrənməni asanlaşdırır. Rəqəmsal siniflərdə praktiki məşğələlərdə tədris materialı tələbələrə interaktiv onlayn təqdimatlar vasitəsilə detallara daha çox diqqət yetirməyə imkan verir. Bundan əlavə, onlayn öyrənmədə real vaxt tələbələrin daha yaxşı maraqlarını təmin edə bilər. Bütün bunlar tələbələrin performansını yaxşılaşdırır və təhsili çevikləşdirir. Texnologiyanın təkmilləşdirilməsi nəticəsində təhsil daha çevik və əlçatan olur. Onlayn öyrənmə getdikcə populyarlaşır və fiziki sərhədlər aradan qaldırılır. Müasir texnologiya şagirdlərə məlumat əldə etmək imkanı verməklə yanaşı, onları həyəcanlandırmaq və keçirilən dərsi yaddaşda gücləndirmək potensialına malikdir.

Audio-video əsaslı təlim tələbələrə texnologiyalara əsaslanan qarışıq öyrənmə üstünlük təşkil edir. Tədris üslubunun bu formasına təkcə audio-video deyil, həm də təlimat proqramları, podkastlar, elektron kitablar və s. daxildir. Tələbələr bu rəqəmsal platformalar vasitəsilə yeni konsepsiyalar kəşf etməkdən vəcdə olurlar. İnternetin daha qənaətcil və əlçatan olması ilə gələcəkdə

rəqəmsal və ənənəvi tədris-təlim metodlarının daha əhəmiyyətli birləşmələri olacaq. Onlayn təhsil öyrənmək, öyrətmək və tədqiqat üçün sərbəst mövcud material təqdim edir. Bu, tələbələrə internetdə açıq olan geniş çeşidli tədris materialları ilə məşğul olmağa imkan verir və bununla da öz-özünə öyrənmə mühiti yaradaraq tədrisdə tətbiqi təhsilin səmərəliliyini artırır və müəllimlərin iş yükünü azaldır [1, s.276-279].

Multimedia texnologiyalarından istifadə tələbələrin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, tədris prosesinin təşkilində yeni imkanlar açır. Aktiv təlim metodlarının effektiv tətbiqi üçün kifayət qədər kompüter avadanlığı təchiz etmək, həmçinin tədris prosesinin təşkilində metodiki və məlumat bazası hazırlamaq üçün böyük və ciddi bir işə ehtiyac var. Hal-hazırda multimedia texnologiyaları təhsil prosesində yeni informasiya texnologiyalarının ən sürətlə inkişaf edən sahələrindən biridir. Beləliklə, tədris prosesinin təşkilində multimedia texnologiyalarının (məlumatların operativ istifadəsi, audio və vizual materialların birləşməsi və s.) üstünlüyünü müşahidə edirik. Bu cür texnologiyalardan istifadə təhsil məlumatlarını əhəmiyyətli dərəcədə aktivləşdirir, qavrayış üçün daha əyani və mənimsənilməsini asanlaşdırır.

Multimedia texnologiyalarının istifadəsi müəllimə vizual materialın nümayişini daha səmərəli idarə etməyə, qrup işini təşkil etməyə və özünün yenilikçi inkişaflarını yaratmağa imkan verir, eyni zamanda adi iş ritmini və tərzini pozmur. Bir media dərsi prosesində, təhsil məlumatlarının ötürülməsi və mənimsənilməsində təhsil prosesinin iki yeni komponenti iştirak edir: Birincisi, kompüter yeni universal bir texniki tədris və inkişaf vasitəsinin yerini alır. İkincisi, proqram məktəb fənni və ya onun ayrı-ayrı bölmələri və mövzularının tədrisinin ənənəvi texnologiyasını tamamlayır. Mətn şəklində aydın şəkildə qurulmuş təhsil məlumatlarını, animasiya və səs effektləri ilə təchiz olunmuş diaqramlar, rəqəmlər, cədvəllər, video kliplər şəklində bir çox əyani şəkilləri ehtiva edirlər. Eyni zamanda, həm kompüter, həm də tədris prosesinin digər komponentləri ilə üzvi şəkildə əlaqəli olmalıdır.

Multimedia mənbələrinin istifadəsi bir çox tədris metod və üsullarını əvəz etməyə imkan verir. Məsələn, hekayə və izahatları olan mühazirələr slaydlar və səsli təqdimatla əvəz edilə bilər, nəzarət üsulları kompüter testi şəklində həyata keçirilir. Multimedia texnologiyaları tədris və təhsil metodlarının inteqrasiya olunmuş tətbiqini təmin edir. Multimedia texnologiyaları müxtəlif pedaqoji problemlərin həllinə yönəlmiş geniş funksiyalara malikdir. Bütün bu multimedia xüsusiyyətləri və imkanları tədris prosesinin keyfiyyətini artırmağa kömək edir. Məlumatlar üç formada olur: qrafika, video və audio. Multimedia texnologiyalarının və ənənəvi pedaqoji vasitələrin kompleks tətbiqi tələbələrin təhsilə marağını aktivləşdirməyə

xidmət edir. İnteraktiv təlim emosional bir rəngə malikdir, bu da siniflərə marağın artmasına və tədris materialının daha məhsuldar mənimsənilməsinə kömək edir. Multimedia texnologiyaları tədris materialının daha yüksək keyfiyyətdə aydınlığına nail olmağa imkan verir [2, s.152-154].

Müasir təhsili multimedia texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Multimedia eyni vaxtda bir neçə informasiya daşıyıcısından istifadə edən kompüter texnologiyaları məcmusudur: qrafika, mətn, video, animasiya, səs effektləri, yüksək keyfiyyətli səs və s. Tarixin tədrisində də mutlimedia qurğularından və texnologiyalarından istifadə edilir. Multimediadan istifadə tarixin tədrisinin keyfiyyətini və səmərəliliyini artırır, öyrənmə fəaliyyətini inkişaf etdirir. Kompüterin çoxyönlü olması tələbələrin bir çox koqnitiv ehtiyaclarını ödəməyə imkan verir.

Tarixin tədrisində multimedia texnologiyalarının üstünlükləri:

- Tarixi hadisələrlə tanışlıq video çarxların və fotoşəkillərin nümayişi ilə müşayiət olunması;
- Rəssamların rəsmlərinin reproduksiyalarının nümayişindən geniş istifadə edilməsi;
- Tarixi faktları qrafik materialı ilə cədvəllər, diaqramlar və s. göstərməklə;
- Dünyanın ən böyük muzeylərinin video çarxla və ya təqdimatlarla göstərilməsi.

Dərs zamanı və dərsə hazırlıq prosesində istifadə olunacaq ən maraqlı disklər aşağıdakı disklərdir: “Rusiyanın tarixi. 862-1917”, “Üçüncü minilliyin qovşağında Rusiya”, “Dünya mədəniyyəti və incəsənəti”, “Dünya incəsənətinin xəzinələri”, “Rus məkanı”, “Rusiyanın tarixi XX əsr”. Bu CD-lərin üstünlüyü çoxlu sayda animasiyalı tarixi xəritələrin, videokliplərin, cədvəllərin və diaqramların olmasıdır. Bundan əlavə, hazırda DVD-də BBC-nin maarifləndirici filmlərinin böyük seçimi var: “Səlib yürüşləri”, “Leonardo da Vinçi”, “Çingiz xan” və s. [3, s.2-5]

Tarix dərslərində istifadə oluna biləcək çoxlu informasiya və kommunikasiya vasitələri var. Bunlar: multimedia təlim proqramları, elektron dərsliklər, tarix kursları üçün elektron kitabxanalardır. Tarix dərslərində kompüter texnologiyalarından istifadə tədris-idrak fəaliyyətinin optimallaşdırılması, təlimin fərdiləşdirilməsi, tələbələrin özünütəhsilini təşkil etmək bacarığı vasitəsilə təhsilin keyfiyyətini yüksəldir. Multimedia əsasında şagirdlərin kollektiv tədqiqat fəaliyyətini təşkil etməyə imkan verir.

Multimedia texnologiyalarından istifadə tarixin tədrisi vəzifəsini xeyli yaxşılaşdırır. Birinci müqayisəli görüntü ekranlarından istifadə üsulu kömək edir. Hadisələrin bir neçə variantlarının məzmununu aydınlaşdırmaq üçün eyni slaydda yerləşdirilir, beləliklə, yanlız bir slaydla müqayisənin təsirini həyata

keçirtmək mümkündür. İkincisi tarixi şəxsiyyətlərin münasibətlərinin animasiya şəklində təqdim edilməsi müəllimlərə tarixi şəxsiyyətlərin münasibətlərinin mahiyyətini aydın izah etməyə imkan verir. Nəhayət, pedaqoqlar tarixin müəyyən bir dövründə müxtəlif vəzifələrin ətraf mühitə vizual təsirini təsvir etmək üçün məlumatların ardıcıl slayd təqdimatlarından istifadə edə bilərlər [4, s.163-164].

**Multimedia texnologiyasının tədris və təlimdə rolu.** Təlim proqramlarına kifayət qədər yüksək tələblər bir və ya iki sadə illüstrasiya ilə təmin oluna bilməz, videomateriallar isə real tarixi obrazı canlandırmaq və o dövrün tarixi hadisələrini maksimum dərəcədə bərpa etmək iqtidarındadır. Tədris prosesində multimedia texnologiyalarından istifadə sinifdə darıxdırıcı atmosferi dəyişdirə və tələbələrə öyrənmə mühiti yarada bilir.

Keengve multimedia haqqında yazır: “Multimedia texnologiyalarının tətbiqi müxtəlif tələbələrin ehtiyaclarını qarşılayarkən çox məhsuldar, maraqlı, həvəsləndirici, interaktiv və keyfiyyətli sinifdə tədrisi təmin edir”.

Milovanovi qeyd edir ki, multimedia texnologiyalarının və tətbiqlərinin tədris və ya təlim vasitəsi kimi təhsildə əhəmiyyətini vurğulamasaq olmaz. Bu fikri multimedia texnologiyalarının təhsil sisteminə təsirini araşdıran bir sıra tədqiqatlarda təsdiq edilmişdir [5, s.2-3].

Psixoloji və pedaqoji ədəbiyyatların təhlili göstərir ki, multimedia fərdə təsir edir, onun idrak ehtiyaclarını ödəyir. Affektiv, yeni, emosional, eləcə də estetik təcrübələrin formalaşmasına və cəmiyyətin digər üzvləri ilə şəxsi inteqrasiya əlaqələrin genişləndirilməsinə kömək olur. Hazırda universitetlərdə əməkdaşlar və ya digər tərtibatçılar tərəfindən yaradılmış hazır multimedia tədris materialları ilə təchiz edilməsi məsələsi aktuallaşıb. Son illərdə multimedia texnologiyaları təhsil arenasına daxil olmuş və informasiyanın tədris metodologiyasına və ümumilikdə tələbələrin biliyinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Klassik metod bizim təhsil müəssisələrimizdə onilliklər ərzində tətbiq edilir, lakin hazırda multimedia texnologiyalarının təsiri altında şagirdin təliminin fundamental rejimi və konsepsiyaları dəyişir. Nəticədə təhsildə multimedia texnologiyalarından istifadə tələbədə təlim prosesini daha yüksək, innovativ səviyyəyə aparır. Multimedia texnologiyaları çoxsəviyyəli elmi ideyaların yaradılması və təqdim edilməsi üçün güclü vasitədir. Mühazirələrdə multimedia texnologiyalarından istifadənin üstünlükləri göz qabağındadır, çünki onlar tələbələrin marağını artırır və materialın təqdimatı zamanı onları fəal saxlayır, klassik formatda, müəllimin multimedia texnologiyalarına malik olmadığı şəraitdə bu mümkün deyil.

Alimlər M.Sanger, T.Qrinbov, R.Mitçel, D.Qabel və başqaları təlimin təkcə biliyi formalaşdırmaq deyil, həm də tələbələrə onu praktikada tətbiq etməyi öyrətmək məqsədi daşıdığına diqqət yetirirlər. Əlverişli təhsil mühitini

təmin etmək üçün bilik bazasının yaradılması çox vacibdir. Ali təhsil müəssisələrinin tələbələri kompüter vasitələrindən gələcək həyatlarının üzvi komponenti kimi istifadə etməlidirlər.

Elmi ədəbiyyatın hərtərəfli əksi əsasında sübut edilmişdir ki, multimedia təkcə informasiya deyil, həm də cəmiyyətə təsir edən kommunikasiya resurslarıdır. Eyni zamanda təlim-tərbiyə prosesinin səmərəli təşkilinə kömək edən vasitələrdir. Təhsildə multimedianın tətbiqi spektri nəzərə çarpacaq dərəcədə genişlənmişdir. Təhsil proqramlarının yaradılmasında multimedia texnologiyalarının istifadəsindən tutmuş multimedia sahəsində təhsil proqramlarının qurulması, müəyyən istiqamət üzrə universitet səviyyəli kadrların hazırlanması üçün vahid konsepsiyanın işlənib hazırlanmasına qədər və yeni tədris vəsaitlərinin formalaşdırılması prosesi əks olunmuşdur [6, s.85].

Multimedia texnologiyalarının üstünlükləri, onların orta və ali məktəblərin tədris prosesində məqsədyönlü və məhsuldar istifadəsinin zəruriliyi vurğulanır. Yerli və xarici alimlərin, müəllimlərin, psixoloqların əsərləri göstərir ki, multimediadan istifadə didaktik məsələlərin həllini optimallaşdırır. Böyük tərbiyəvi təsiri olan suallar, öyrənmənin effektivliyini artırmaq üçün alətə çevrilə bilər, vaxtı əhəmiyyətli dərəcədə azaldır, problemlərin dairəsini əhəmiyyətli dərəcədə dərinləşdirir və genişləndirir. Bu, ilk növbədə, mürəkkəblik və qeyri-kafi səviyyədədir. O, didaktik vasitə kimi "multimedia" anlayışının nəzəri öyrənilməsini əhatə edir. Ümumilikdə qeyd edək ki, multimedianın tədris prosesində davamlı istifadəsi tələbələrin inkişafına köklü şəkildə təsir edir. Müasir mərhələdə təhsilin mühüm vəzifəsi təlim prosesinin humanistləşdirilməsi, təhsilalanın fərdiliyinin formalaşması, yüksək informasiya mədəniyyətinin formalaşdırılmasıdır. Müasir dövr müəllimdən ən yeni pedaqoji texnologiyaların tətbiqi sahəsində bilik və bacarıqlara malik olmağı, müasir elmin mütərəqqi metod və vasitələrinə yiyələnməyi tələb edir [6, s.85-86].

**Nəticə:** Təhsildə multimedia texnologiyalarından istifadənin üstünlükləri barəsində ümumiləşdirilmə aparılmışdır. Tarix dərslərinin daha yadda qalan və maraqlı olması üçün rəqəmsal texnologiyaların vacibliyi məsələsi aşkara çıxarılmışdır. Bir sıra tədqiqatçıların fikirləri və müddəalarından istifadə edilərək XXI əsrimizin bir hissəsinə çevrilən multimedia texnologiyaları təlimə tətbiq olunmasının zərurəti üzə çıxarılmışdır.

**Problemin aktuallığı:** Ali təhsil müəssisələrində multimedia texnologiyalarının tarix fənlərinə tətbiqi məsələsi çox önəm daşıyır. Tələbələrin tarix dərslərinə maraq yaratmasına gətirib çıxarır. Mahiyyət etibarlığı ilə həyatımızın bir parçası olan texnologiyaların təhsil sahəsində istifadəsi artıq günümüzün tələbinə çevrilib.

**Problemin elmi yeniliyi:** Məqalədə multimedia texnologiyalarının təhsilin keyfiyyətinə təsiri və vacibliyi araşdırılmışdır. Tələbələrə mütəşəkkilliyi və çevikliyi öyrədir. Texnologiyaların təkmilləşməsi nəticəsində təhsil də daha çevik və əlçatan olur. Multimedia texnologiyalarının tarix fənninin tədrisində imkan və yolları haqqında məlumat verilmişdir.

**Problemin praktiki əhəmiyyəti:** Məqalə dərslərini multimedia texnologiyaları vasitəsi ilə təşkil edən müəllim və tələbələr üçün yararlı ola bilər. Onların fəaliyyətini daha səmərəli edə bilər.

***Ədəbiyyat***

1. *Understanding the role of digital technologies in education article, Sustainable operations and computer journal years 2022; page 275-285.*
2. *Təhsil müəssisələrində multimediya texnologiyalarının tətbiqi məsələləri məqalə səh.152-156. Elmi əsərlər jurnalı, cild 12, №3 2021(47).*
3. *Применение мультимедийных технологий в преподавании истории, Проблемы современного образования |№1|, 2019.*
4. *Статья "Использование мультимедийных технологий на уроках истории и обществознания" (159-166).*
5. *Multimedia tools in the teaching and learning processes article., Heliyon – 2020.*
6. *Интеграция мультимедийных технологий в процесс обучения. Балтийский гуманитарный журнал. 2014. № 4 (85-87).*

**R.E.Ağaraziyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rehime.agaraziyeva@gmail.com***

# ALİ MƏKTƏBLƏRİN İDARƏEDİLMƏSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNƏ KOMPLEKS YANAŞMA

***Xülasə***

*Məqalədə Ali məktəblərin idarəedilməsində informasiya təhlükəsizliyinin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin səviyyəsindən, Qanunvericilik tədbirlərindən, müvafiq qanunların, normativ aktların, standartların rolundan, funksiyalarından danışılır. Müəllif gösərir ki, informasiya təhlükəsizliyi ilə bağlı vacib məqamlar bu aktlarda öz əksini tapmışdır. Bəzi mənbələrə istinad edən müəllif qeyd edir ki, ali məktəblərdə informasiya təhlükəsizliyinin həyata keçirilməsi üçün kompleks tədbirlər tələb olunur. O, qeyd edir ki, ali məktəblərin idarə edilməsində informasiya təhlükəsizliyinin effektiv idarə edilməsi riskləri azaltmaq və kritik aktivlərin qorunmasını təmin etmək üçün proaktiv və adaptiv yanaşma tələb edir. Bu baxımdan təşkilat daxilində güclü təhlükəsizlik mədəniyyəti yaratmaq və bütün işçilərin təhlükəsizlik mövqeyini qorumağa cəlb etmək vacibdir.*

# КОМПЛЕКСНЫЙ ПОДХОД К ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В УПРАВЛЕНИИ ВУЗАМИ

***Резюме***

*В статье говорится об уровне мер защиты информации, законодательных мерах, роли и функциях соответствующих законов, нормативных актов и стандартов в управлении высшими учебными заведениями. Автор показывает, что в данных актах отражены важные моменты, связанные с информационной безопасностью. Ссылаясь на некоторые источники, автор отмечает, что для реализации информационной безопасности в высших учебных заведениях необходимы комплексные меры. Он отмечает, что эффективное управление информационной безопасностью в управлении высшим образованием требует проактивного и адаптивного подхода для снижения рисков и обеспечения защиты критически важных активов. делает. В связи с этим важно создать сильную культуру безопасности внутри организации и вовлечь всех сотрудников в поддержание уровня безопасности.*

# A COMPLEX APPROACH TO INFORMATION SECURITY IN ADMINISTRATION OF HIGHER SCHOOLS

***Summary***

*The article talks about the level of information security protection measures, legislative measures, the role and functions of relevant laws, normative acts, and standards in the management of higher education institutions. The author shows that important points related to information security are reflected in these acts. Citing some sources, the author notes that comprehensive measures are required to implement information security in higher education institutions. He notes that effective management of information security in higher education management requires a proactive and adaptive approach to reduce risks and ensure the protection of critical assets. does. In this regard, it is important to create a strong safety culture within the organization and involve all employees in maintaining a safety posture.*

***Açar sözlər:*** *informasiya təhlükəsizliyi, effektiv idarəetmə, informasiya məkanı, texnoloji sistemlər, risklər, strategiyalar*

***Ключевые слова:*** *информационная безопасность, эффективный менеджмент, информационное пространство, технологические системы, риски, стратегии*

***Key words:*** *information security, effective management, information space, technological systems, risks, strategies*

Dünyanın hazırkı gedişi göstərir ki, cəmiyyət həyatının dəyişikliklərlə inkişafının sürətli vüsəti bir çox məsələlərin həllini vəzifə olaraq qarşıya qoyur. Texnologiya dövrünün tələbi bütün sahələrdə olduğu kimi təhsildə də idarəetmənin yeni qaydalarını formalaşdırır. Bu proseslərin həyata keçirilməsi üçün texniki və texnoloji sistemlərin yaradılması, kompüter texnikalarının, kibernetik və riyazi modelləşdirmə metodlarının tətbiqi, təhsildə idarəetmə prosesinin informasiya təminatı və informasiya təhlükəsizliyinin qorunması kimi məsələlər ön plana çəkilir. Ölkəmizin müasir inkişaf mərhələsi idarəetmənin bütün sahələrində nəticəsi səmərəli olan qərarların qəbul edilməsi üçün informasiyaların operativliyi, tamlığı və düzgünlüyü, informasiya təhlükəsizliyinin qorunması tələblərinin kəskin qoyuluşu ilə səciyyələnir. İnformasiya nədir? İnformasiya uyğun predmet, hadisə, proses, münasibətlər və s. haqqında toplanmış və istifadə olunmaq üçün yararlı formada sistemləşdirilmiş müəyyən məlumatların, verilənlərin, faktların, xüsusiyyətlərin toplusundan ibarət olub, idarəetmənin əsasını təşkil edir [1]. Azərbaycan beynəlxalq informasiya sisteminə qovuşduqca bir çox vahid şəklə salınma məsələləri bir qədər də aktual olur. Onun informasiya bazarına nüfuz etməsi intellektual mülkiyyət olunmaqla onun icra effektivliyini çoxaltmaq bəşəriyyətin qabaqcıl təşkilatlarının ölkəmizdə işləmələri və digər innovativ

texnologiyalarının üstünlüklərindən istifadə cəhətindən hədəf mərkəzində durur. Bu mənada ali məktəblərin idarə olunmasında informasiya təhlükəsizliyi təşkilatın məxfi məlumatlarını, onun nüfuzunu qorumaq və əməliyyatın davamlılığını təmin etmək üçün olduqca vacibdir. Məlumdur ki, informasiya təhlükəsizliyinin effektiv idarə edilməsi məlumatların qorunması və potensial risklərin azaldılması üçün müxtəlif prinsiplər, strategiyalar və təcrübələri əhatə edir. İnformasiya təhlükəsizliyi ilə bağlı tədbirlərin müxtəlif səviyyələri qeyd edilir:

- qanunvericilik tədbirləri;
- inzibati tədbirlər;
- təşkilati tədbirlər;
- proqram-texniki tədbirlər [3].

İnformasiya təhlükəsizliyinin idarəetmədə bəzi funksiyalarını nəzərə almaq vacibdir. Bu sıraya İnformasiya təhlükəsizliyinin pozucularına qarşı neqativ münasibət yaratmaq və onu dəstəkləmək, İnformasiya təhlükəsizliyi probleminin vacibliyini hər zaman qeyd etmək, resursları tədqiqatların ən mühüm istiqamətlərində cəmləşdirmək və təhsil fəaliyyətini koordinasiya etmək kimi funksiyalar ali təhsildə informasiya təhlükəsizliyinin qorunmasında vacib amillərdir [https://cert.az/news/2015/teskilat-ve-muessiselerde-informasiya-tehlukesizliyinin-temin-olunmasi-qaydalari]. Bu baxımdan idarəetmədə informasiya təhlükəsizliyinin əsas istiqamətlərini nəzərdən keçirərkən rəhbərlik və idarəetmə, risk idarəetmə, siyasət və prosedurların inkişafı istiqamətlərinə diqqət yetirmək faydalı hesab olunur. Rəhbərlik və İdarəetmə üzrə fəaliyyətə ilk olaraq Baş İnformasiya Təhlükəsizliyi Mütəxəssisinin (CISO) təyin edilməsi və ya informasiya təhlükəsizliyinə cavabdeh olan yüksək səviyyəli icraçının təyin edilməsi daxildir. Bu məqsədlə təşkilatın məqsədləri ilə uyğunlaşdırılmış informasiya təhlükəsizliyi siyasəti və strategiyası hazırlamaq mühüm göstərişlərdəndir.

Ali məktəblərin idarə edilməsində Risk İdarəetmə fəaliyyətlərinin həyata keçirilməsi də informasiya təhlükəsizliyi üzrə idarəetmənin vacib tərəfidir və potensial təhlükələri və zəiflikləri müəyyən etmək və qiymətləndirmək üçün müntəzəm risk qiymətləndirmələri aparılmasını zəruri edən prosesdir. Riskləri prioritetləşdirmək və qiymətləndirmə əsasında resursları bölüşdürmək informasiya təhlükəsizliyində vacib sayılır.

İnformasiya təhlükəsizliyinin qorunması üçün idarəetmədə Siyasət və Prosedurların İnkişafı istiqamətində fəaliyyətlər də nəzərə alınmalıdır. Bu istiqamətdə fəaliyyələr məlumatların mühafizəsi, girişə nəzarət, insidentlərə reaksiya və istifadəçi məlumatlılığını əhatə edən aydın informasiya təhlükəsizliyi siyasətləri və prosedurlarını qoruması və tətbiqi sayəsində baş verir.

Ali məktəblərdə informasiya təhlükəsizliyinin təmin edilməsində Giriş nəzarətinin olması işin keyfiyyət amilidir. İdarəçi İstifadəçi autentifikasiyası, rol əsaslı giriş və ən az imtiyaz prinsipləri daxil olmaqla güclü giriş nəzarətlərini həyata keçirməlidir. Bu prosesdə İstifadəçi girişinin idarə edilməsinin tətbiqi həyata keçirilir və icazələr mütəmadi olaraq nəzərdən keçirlir, həmçinin yeniləmə prosesi baş verir.

Ali məktəblərdə informasiya təhlükəsizliyinin təmin edilməsində məlumatların mühafizəsinin idarə edilməsi vacib amildir. Bu zaman icazəsiz girişin qarşısını almaq üçün istirahətdə və tranzitdə olan həssas məlumatları şifrələmək tələb olunur. Bura məlumatların saxlanması və silinməsi hərəkətləri də daxil olmaqla, məlumatların təsnifatı və işlənməsi prosedurlarının inkişaf etdirilməsi prosedurları da daxil edilir. Həmçinin təhlükəsizlik üzrə maarifləndirmə və təlimlərin təşkili işçiləri və istifadəçiləri ən yaxşı təhlükəsizlik təcrübələri haqqında maarifləndirmək üçün müntəzəm təhlükəsizlik təlimi və məlumatlandırma proqramlarını tərtib etməyi tələb edir. Bu həm də təşkilat daxilində təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsi işində mühüm addımlar hesab olunur.

Ali məktəblərin idarə olunmasında informasiya təhlükəsizliyinin təminatı üçün baş verəcək hadisəyə cavab və bərpa proseslərinin həyata keçirilməsi təhlükəsizlik pozuntularını və məlumat insidentlərini həll etmək üçün güclü insident cavab planı hazırlamaqla müşayiət olunur. Bu prosesdə planı təqlid edilmiş məşqlər vasitəsilə sınaqlar keçirmək və insidentlərin sürətli hesabatını təmin etmək tələb olunur. Həmçinin şəbəkə və sistem təhlükəsizliyinə nəzarəti həyata keçirmək üçün müdaxilənin aşkarlanması və qarşısının alınması sistemlərini və təhlükəsizlik tədbirlərini tətbiq etmək, bunun üçün zəiflikləri müntəzəm olaraq skan edib və təhlükəsizlik yeniləmələrinin tətbiqinə nail olmaq lazımdır.

Ali məktəblərin idarəedilməsində informasiya təhlükəsizliyinin qorunması fəaliyyətlərində təhlükəsizlik monitorinqi, həmçinin nəzarəti davam etdirmək tələb olunur. Anomaliyalar üçün şəbəkə və sistem fəaliyyətlərini izləmək və təhlil etmək üçün Təhlükəsizlik Məlumatı və Hadisə İdarəetmə (SIEM) alətlərindən istifadə edilməsi prosesin səmərəliliyini artırır. Potensial təhlükələr üçün xəbərdarlıq mexanizmləri və cavab protokollarının yaradılması təhlükəsizliyin təminatıdır. Bu proseslərə üçüncü tərəf risk idarəetmə təcrübələri də aid edilir. Üçüncü tərəfin xidmət təminatçılarının təhlükəsizlik təcrübələrinin qiymətləndirilməsi təşkilatın təhlükəsizlik standartlarına və uyğunluq tələblərinə adekvat olmalıdır. Burada uyğunluq barədə müvafiq orqanlar qarşısında hesabat vermək də qiymətləndirmədir.

Fiziki təhlükəsizlik üçün giriş nəzarəti, nəzarət və təhlükəsiz obyekt dizaynı vasitəsilə məlumat mərkəzlərinə və kritik infrastruktura fiziki girişi,

mobil cihazları və noutbukları şifrələmə və uzaqdan silmə imkanları ilə qorumaq da təhlükəsizliyin qorunmasını şərtləndirir və hadisə zamanı məlumatların tez bərpa oluna biləcəyini təmin etmək üçün ehtiyat nüsxə sistemlərini və bərpa proseslərini sınaqdan keçirməyi ehtiva edir. Təhlükəsizlik testi və qiymətləndirilməsi prosesində zəif cəhətləri müəyyən etmək və aradan qaldırmaq üçün müntəzəm olaraq zəifliklərin qiymətləndirilməsi, nüfuzetmə testi və təhlükəsizlik auditinin aparılması idarəetməni asanlaşdırır. Davamlı inkişafa nail olmaq üçün ən yaxşı təcrübələrə əsaslanan prosedurların keçirilməsi təhlükəsizliyin təkmilləşdirilməsi və innovasiya mədəniyyətinin inkişafı deməkdir. İnkişaf naminə məlumat mübadiləsi aparmaq və əməkdaşlıq etmək, təşkilatın əməliyyatları və tədqiqat fəaliyyətinin bütün aspektlərində məlumatların etik istifadəsini və məxfiliyə hörməti təşviq edir.

Ali məktəblərin idarə edilməsində informasiya təhlükəsizliyinin effektiv idarə edilməsi riskləri azaltmaq və kritik aktivlərin qorunmasını təmin etmək üçün proaktiv və adaptiv yanaşma tələb edir. Təşkilat daxilində güclü təhlükəsizlik mədəniyyəti yaratmaq və bütün işçiləri təhlükəsizlik mövqeyini qorumağa cəlb etmək vacibdir. Bu da özlüyündə idarəetmədə informasiya təhlükəsizliyinə kompleks yanaşma tələb edir. Bu zaman tətbiqlər qanunvericilik tədbirləri müvafiq qanunları, normativ aktları, standartları və s. əhatə edir. Bu aktlarda qanunvericilik səviyyəsinin funksiyalarına vacib məqamlar öz əksini tapmışdır [2, 4].

- İnformasiya təhlükəsizliyinin pozucularına qarşı neqativ münasibət yaratmaq və onu dəstəkləmək;
- İnformasiya təhlükəsizliyi probleminin vacibliyini hər zaman qeyd etmək;
- Resursları tədqiqatların ən mühüm istiqamətlərində cəmləşdirmək;
- Təhsil fəaliyyətini koordinasiya etmək.

Ölkəmizdə informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar, sərəncamlar qəbul edilmişdir. Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır. AMEA-nın müxbir üzvü, İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyevin təbirincə desək, "informasiya təhlükəsizliyi sistemlərində baş verən anormal hadisələrə və qeyri-qanuni hərəkətlərə tez reaksiya verilməsi, kompüter cinayətlərinin müxtəlif növlərinə əks təsir vasitələrindən biri də dünya təcrübəsində geniş istifadə olunan Kompüter İnsidentləri üzrə Yardım Komandalarının (Computer Emergency Response Team, CERT) yaradılmasıdır. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təşəbbüsü və rəhbərliyi ilə bu cür komandaların yaradılması istiqamətində məqsədyönlü

tədbirlər görülür. Artıq İnformasiya Texnologiyaları İnstitutunda CERT mərkəzi fəaliyyət göstərməyə başlamışdır. Yaxın gələcəkdə CERT qurumların dövlət strukturlarında, özəl şirkətlərdə, ictimai təşkilatlarda, təhsil ocaqlarında, internet provayderlərində də yaradılması nəzərdə tutulur. Əlbəttə, yaradılacaq bütün CERT-lərin mülkiyyət və təşkilat formasından asılı olmayaraq vahid bir platformada milli CERT çərçivəsində əlaqələndirilməsi ölkədə formalaşan korporativ informasiya fəzalarının etibarlı mühafizəsi və təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Milli eyniləşdirmə sisteminin iki vacib elementinin - biometrik eyniləşdirmə sisteminin və elektron imza infrastrukturunun yaradılması, onların imkanlarının səmərəli şəkildə birləşdirilməsi və istifadəsi təkcə bu problemin həllində deyil, ümumiyyətlə, informasiya məkanının təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaqdır”.

***Ədəbiyat***

1. *Abdullayev Pünhan Rafik. İdarəetmə prosesinin informasiya təminatı. Bakı – 2018.*
2. *Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında konsepsiyası. 23 aprel 2007-ci il.*
3. *Qasımov Vaqif. İnformasiya təhlükəsizliyinin əsasları. Dərslik. Bakı – 2009.*
4. *İnformasiya, İnformasiyalaşdırma və informasiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı - 3 aprel 1998-ci il.*

**X.İ.Fətullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***xayalafetullayeva@gmail.com***

# TƏHSİLDƏ RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏNİN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

***Xülasə***

*XXI əsrdə rəqəmsal texnologiyalar həyatımızın ayrılmaz bir parçasına çevrilib. Məqalədə təhsildə rəqəmsal texnologiyalardan istifadənin təhsilin keyfiyyətinin artırılmasında vacibliyi vurğulanmışdır. Tədqiqatın əsas məqsədi rəqəmsal transformasiyanın müsbət və mənfi tərəflərini müəyyən etməkdir. Məqalədə həmçinin rəqəmsallaşmanın mövcud problemləri də vurğulanıb. Təhsildə rəqəmsal texnologiyalardan istifadənin, onun təlim mühitinə tətbiqinin əsas istiqamətləri təhlil edilir, rəqəmsal təhsil mühitinin xüsusiyyətləri göstərilir. Məqalədə rəqəmsallaşmanın üstünlükləri və çatışmazlıqları geniş bir şəkildə izah olunur. Təhsildə rəqəmsallaşma inkişafa aparan bir yoldur və bu addım təhsildə keyfiyyətin yüksəlməsinə xidmət edir. Buna görə də respublikamızda təhsildə müasir texnologiyalardan istifadəni təşviq edən prosesin həyata keçirilməsi zəruridir.*

# ПОЛОЖИТЕЛЬНЫЕ И ОТРИЦАТЕЛЬНЫЕ СТОРОНЫ ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАНИИ

***Резюме***

*В XXI веке цифровые технологии стали неотъемлемой частью нашей жизни. В статье подчеркивается важность использования цифровых технологий в образовании для повышения качества образования. Основная цель исследования-выявить плюсы и минусы цифровой трансформации. В статье также освещены текущие проблемы цифровизации. Анализируются основные направления использования цифровых технологий в образовании, их внедрение в учебную среду, указываются особенности цифровой образовательной среды. В статье подробно объясняются преимущества и недостатки оцифровки. Цифровизация в образовании-это путь к развитию, и этот шаг служит повышению качества образования. Поэтому в нашей республике необходимо осуществлять процесс, способствующий использованию современных технологий в образовании.*

# POSITIVE AND NEGATIVE SIDES OF USING DIGITAL TECHNOLOGIES IN EDUCATION

***Summary***

*In the XXI century, digital technologies have become an integral part of our life. The article highlighted the importance of the use of digital technologies in*

*education in improving the quality of Education. The main objective of the study is to identify the pros and cons of digital transformation. The article also highlighted the existing problems of digitalization. The main directions of using digital technologies in education, its application to the learning environment are analyzed, the features of the digital educational environment are shown. The article explains the advantages and disadvantages of digitalization in a broad way. Digitalization in education is a path to development, and this step serves to improve quality in education. Therefore, it is necessary to implement a process that promotes the use of modern technologies in education in our republic.*

***Açar sözlər:*** *rəqəmsallaşma, təhsil, rəqəmsal texnologiyalar, təlim, müəllim*
***Ключевые слова:*** *цифровизация, образование, цифровые технологии, обучение, педагог*
***Key words:*** *digitization, education, digital technologies, training, teacher*

Son dövrlərdə "rəqəmsallaşma" termini xeyli populyarlaşmışdır, lakin hər kəs onun mahiyyətini düzgün başa düşə bilmir. Rəqəmsallaşma dedikdə həyatın müxtəlif sahələrində, düşüncə tərzində və iş metodlarında rəqəmsal texnologiyaların tətbiqi ilə əsaslı dəyişikliklərin edilməsi başa düşülür. Bu gün rəqəmsal texnologiyalar demək olar ki, bütün fəaliyyət sahələrini, o cümlədən təhsil sahəsini əhatə edir. Təhsildə rəqəmsal texnologiyadan istifadə qlobal bir hadisədir. Artıq müasir dövrdə rəqəmsallaşma olmadan təhsil mümkün deyil. Çünki rəqəmsal internet mühiti həyatımızın bir parçasına çevrilib və bir çox prosesləri asanlaşdırır. Molchanova E.V qeyd edir ki, "*Rəqəmsal texnologiyalar tələbələr üçün məlumat və biliklərin səmərəli çatdırılması, tədris materiallarının və effektiv tədris üsulunun yaradılması, ən əsası isə yeni təhsil mühitinin qurulması vasitəsidir. Beləliklə, rəqəmsal transformasiya fərdiləşdirilmiş və nəticəyönümlü təhsil prosesinə keçid üçün rəqəmsal texnologiyalardan səmərəli və çevik istifadə etməkdən ibarətdir* [3].

Rəqəmsal texnologiyalar məktəblərin formatını tədricən dəyişir, rəqəmsal mühit adlanan mühit təşkil olunur. Artıq bulud sistemləri (elektron gündəliklər), interaktiv məzmunlu elektron lövhələr, kompüterlər və planşetlər istifadə olunur. Artıq məktəblərin yüksək sürətli internetə çıxışı var. Getdikcə dərs planlarına informasiya texnologiyalarına əsaslanan interaktiv fəaliyyətlər və rəqəmsal dövrün digər fəaliyyət istiqamətləri daxil edilir.

Rəqəmsal təhsil məktəbləri klassik tədris metodları və vasitələri ilə məhdudlaşdırmır. Təlim prosesinin özü daha da genişlənir, tələbələri həmişəkindən daha effektiv şəkildə cəlb edir və uğurlu öyrənmə üçün lazım olan hər şeyi təklif edir. Bilik tədricən internetə köçür. İstər universitet tələbələri, istərsə də məktəblilər tədris prosesində internet resursларından istifadə edir, oradan lazımi məlumatları əldə edirlər. Standart məktəb dərslikləri hələ də istifadə olunur,

lakin şagirdlərin özləri dərslik və dərs vəsaitlərinin elektron variantına üstünlük verdiyi üçün tədricən arxa plana keçir.

Təhsildə rəqəmsal texnologiya yalnız rəqəmsal cihazlardan istifadə deyil, həmçinin müəllim və şagird arasında qarşılıqlı əlaqəni asanlaşdıran, tədris prosesinin effektivliyini və deməli, keyfiyyətini artıran vasitədir.

Artıq 21-ci əsr tələb edir ki, təhsil sistemi müasir dövrün tələblərinə uyğunlaşsın, köhnə təhsil sistemi yeni təhsil sistemi ilə əvəz olunsun. *"Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir"*[1]. Bütün bu məqamlar prezidentimiz İlham Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də öz əksini tapmışdır.

Rəqəmsal təhsil vasitəsi ilə yeni öyrənmə imkanları yaranır, yeni əməkdaşlıq modelləri ortaya çıxır və innovativ, cəlbedici öyrənmə strategiyalarının çeşidi genişlənir. Ancaq təhsildə müasir texnologiyaların müsbət tərəfləri ilə yanaşı, çatışmazlıqları, mənfi tərəfləri də var. Rəqəmsal texnologiyalardan istifadənin müsbət və mənfi tərəflərinə nəzər salaq.

**Təhsildə rəqəmsal texnologiyadan istifadənin müsbət tərəfləri:**

**1. Rəqəmsal texnologiya bizə geniş məlumat bazasından istifadə etməyə və lazım olan məlumatlara dərhal çıxışı təmin etməyə kömək edir.**

İnternet bilik əldə etmək üçün sonsuz bir məkandır. Artıq internet vasitəsi ilə istənilən mənbə tələbələr üçün əlçatandır. Dərsliklərdə və ya dərs vəsaitlərində olmayan məlumatların tələbələr tərəfindən araşdırılması həm onlarda tədqiqatçılıq bacarığını inkişaf etdirir, həm də bu hal tədris prosesinin dəyərini artırır. Texnologiyanın inkişafı bizə internet məkanında olarkən istənilən ədəbiyyata baxmaq və öyrənmək imkanı verir və bizə eyni zamanda müxtəlif informasiya mənbələrindən rahat istifadə etməyə kömək edir [4, s. 9].

**2. Texnologiyadan istifadə etməyi öyrənmək həyat bacarığı və mühüm savadlılıq bacarığıdır.**

Rəqəmsal savadlı olmaq sadəcə "vahid texnologiya bacarıqlarına" malik olmaqdan ibarət deyil. Burada söhbət hər gün dəyişən yeni kontekstlərə uyğunlaşmaqdan və rəqəmsal mühitin dərindən dərk edilməsindən gedir. Təqdimatların yaradılması, internetdə etibarlı mənbələrin tapılmasını öyrənmək, düzgün onlayn etiket qaydalarına riayət etmək və s. bunlar şagirdlərin öyrənmə prosesi vasitəsilə öyrənə biləcəyi həyati bacarıqlardır və hər bir uşaq üçün bütün həyatı boyu faydalı olacaqdır. Rəqəmsal savadlılıq nəinki öyrənmənin keyfiyyətini yaxşılaşdırmağa kömək edə bilər, həm də təlim nəticələrinin hər zaman aktual qalmasına imkan verə bilər.

**3. Texnologiya tələbələrin təlim prosesində fəal iştirakını təmin etməyə kömək edir.**

Müasir texnologiyalar uşaqlara təhsil prosesinin daha fəal iştirakçısına çevrilməyə, müəllimlərə isə yeni yanaşmalar, metodlar, təlim və tərbiyə modelləri yaratmağa imkan verir. Məsələn, müəllim mühazirənin istənilən mərhələsində öyrənilən materialın mənimsənilmə səviyyəsini müəyyən etmək üçün onlayn sorğu keçirə bilər. Onlayn sorğu və digər rəqəmsal alətlər bütün tələbələri, o cümlədən utancaq, öz qabiliyyətlərinə inamı olmayan və adətən təşəbbüs göstərməyən tələbələri təlim prosesinə cəlb etməyə kömək edir. Onlayn sistemlər vasitəsi ilə davamlı olaraq tələbələrin biliklərini yoxlamaq mümkündür. Məlumatların təhlili müəllimə hər bir uşağın çətinliklərini asanlıqla və tez müəyyən etməyə və vaxtında kömək göstərməyə, tələbələrin rəqabət apara biləcəyi sahələri müəyyən etməyə imkan verir.

**4. Tələbələrin məhsuldar öyrənmə fəaliyyəti ilə məşğul olmasına kömək etmək üçün bir çox resurs mövcuddur.**

Təlimdə mobil platforma tətbiqlərindən və elektron dərsliklərdən istifadə etməklə təlim prosesini daha effektiv və əyləncəli etmək mümkündür. Elektron dərsliklər müasir texnikanın nailiyyətlərini, fənlər üzrə mövzuları, dizayn və bədii keyfiyyətləri özündə birləşdirir, eyni zamanda, kağızın istifadəsini məhdudlaşdırır. Sorğular, testlər vasitəsi ilə şagirdlər materialı daha yaxşı mənimsəyə bilirlər.

Vizual və audio materialların təlim mühitinə əlavə edilməsi tələbələrin mövzunu daha yaxşı anlamalarına və yadda saxlamalarına kömək edir. Videolar, animasiyalar, şəkillər tələbələrin materialı təhlil etməsi və qavraması üçün effektiv alətlərdir. İvanova, E.V. vurğulayır ki, *“Münasib proqramlar tələbələrin qrafik şəkillər sayəsində yeni materialları daha yaxşı qavramalarına kömək edir”* [2, s. 124].

**Təhsildə rəqəmsal texnologiyadan istifadənin mənfi tərəfləri:**

**1. Texnologiya öyrənmə prosesindən yayındıra bilər.**

Araşdırmalar göstərib ki, texnologiyalar uşaqları təhsil prosesindən yayındıra bilər. Ancaq burada əsas rolu müəllim oynayır çünki, müəllimin vəzifəsi təlim prosesini maraqlı etməkdir və tələbələrin diqqəti yayınarsa, bu texnologiya və cihazların deyil, müəllimin problemidir. Bu gün aktual vəzifə təhsil prosesinin bütün iştirakçılarına mədəniyyət və hörmət aşılamaqdır. Buna görə də müəllimlərin əsas vəzifəsi texnologiyaların istifadəsini məhdudlaşdırmaq deyil, sinifdə texnologiyanın imkanlarından effektiv və məqsədə uyğun şəkildə istifadə etməkdir.

**2. Texnologiya tələbələrin ünsiyyət bacarıqlarının və sosial qarşılıqlı əlaqələrin inkişafına mənfi təsir göstərə bilər.**

Rəqəmsal texnologiyalar tələbələrin real həyatda ünsiyyət qurmaq qabiliyyətini azaldır. Bu hal da tələbələrin sosiallaşmasına mənfi təsir göstərir. Bununla belə, təlimdə texnoloji vasitələrdən, şifahi təqdimatlardan və qrup əməkdaşlığından istifadə etməyə imkan verən mühit yaranarsa, uşaqlar bir-biri ilə fəal şəkildə qarşılıqlı əlaqədə olacaqlar. Müasir müəllim texnologiyadan səriştəli istifadə etməyi bacarmalı, onu nəzarətdə saxlamalı, üstünlüklərini bilməlidir.

**3. Texnologiyalar aldatmağa və tapşırıqlardan yayınmağa səbəb ola bilər.**

Tələbələr çox vaxt tapşırıqlardan yayınmağın yollarını axtarırlar və rəqəmsal texnologiyalar bunu daha da asanlaşdırır. Tələbələr internet vasitəsi ilə başqasının işini kopyalayıb istifadə edə bilər, internetdən tapşırığa uyğun hazır esse və ya təqdimat əldə edə bilər və bu hal tələbərin müstəqil düşünməsinə, yaradıcılıq bacarığının formalaşmasına maneə olur.

**4. Tələbələrin texnologiya resurslarına bərabər çıxışı yoxdur.**

Bütün tələbələrin planşet, noutbuk, smartfon və hətta daimi internetə çıxış imkanı yoxdur. Bunun üçün həmin tələbələrə qrupda işləməyə və resursları bölüşməyə imkan verən tapşırıqlar verilə bilər və texnologiyadan istifadə edə biləcəkləri kitabxanalardan və ya digər təşkilatlardan istifadə etməyə təşviq oluna bilər.

**5. İnternet mənbələrinin keyfiyyəti.**

İnternet uşaqlar üçün həm faydalı bir informasiya mənbəyi, həm də zərərli informasiya mənbəyi ola bilər. Tələbələr keyfiyyətli məlumat mənbələrini etibarsız olanlardan ayırmaq bacarığına malik olmalıdır. Bunun üçün təhsil müəssisələrində tələbələrin etibar edə, istifadə edə biləcəyi elektron təhsil resurslarının siyahısını yaratmaq olar. Həmçinin bəzi mənbələrə girişə qadağa qoyula bilər.

## Nəticə

Məlumdur ki, müsbət tərəflər mənfi cəhətləri həmişə üstələyir, lakin təhsildə texnologiyanın tətbiqinin açarını həmişə müəllim-şagird münasibəti müəyyən edəcək, çünki təhsil məhz burada baş verir. Texnologiya çox güclü bir vasitə ola bilər, lakin o, sadəcə bir vasitədir. Texnologiya müəllimi əvəz etmək üçün nəzərdə tutulmayıb, burada əsas məqsəd təlim prosesinin təşkilini tək adamlıq şoudan əməkdaşlığa və məhsuldar öyrənmə fəaliyyətinə keçməyə imkan verən təlim mühiti yaratmaqdır.

Təhsilin rəqəmsallaşdırılmasından qaçmaq mümkün deyil. Texnologiya hər kəsi gələcəyə aparacaq və insanlar buna hazırlaşmalı və vaxtında uyğunlaşmalıdırlar. Bu gün biz texnologiyanın təhsilə tətbiqinin ilk mərhələsindəyik. Tətbiq prosesi bəziləri üçün məyusedici, bezdirici və vaxt

aparan ola bilər, lakin son nəticədə texnologiya yeni təcrübələrə, kəşflərə, öyrənmə yollarına tələbələr və müəllimlər arasında əməkdaşlığa aparan bir vasitədir.

***Ədəbiyyat***

1. *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. // https://president.az/az/articles/view/50474*
2. *İvanova, E. (2015). № 5. Elektronny uchebnik-predmetnaya informasionno-obrazovaniya sreda samostoyatelnoy raboti uchashikhsya. Obrazovany i nauka, s.118-128.*
3. *Молчанова Е.В. О плюсах и минусах цифровизации современного образования / Е.В. Молчанова // Проблемы современного педагогического образования. 2019. №64-4. [Электронный ресурс]. – URL: https://cyberleninka.ru/article/n/o-plyusah-i-minusah-tsifrovizatsii-sovremennogo-obrazovaniya (дата обращения: 1.11.2020)*
4. *Turakulova S.T. 2017. To the question of the possibility of using online platforms for intensification of higher education Young Scientist 20, 497-9.*

**N.Q.İbrahimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***necibe.2001@icloud.com***

# ATMOSFER BÖLMƏSİNİN TƏDRİSİNDƏ RİYAZİ HESABLAMALARIN ÖYRƏDİLMƏSİ METODİKASI

***Xülasə***

*Məqaləni yazmaqda əsas məqsəd ondan ibarətdir ki, müasir dövrdə müəllimlərin qarşısına qoyulan tələblər necə icra olunur, o cümlədən coğrafiya mövzularının tədrisində riyazi hesablamalardan, yəni çalışmalardan istifadə edilməsini müəyyənləşdirmək edilirsə, çatışmayan cəhətlər hansılardır və ya hansı sahələri müəllimlər şagirdlərə mənimsədə bilmirlər. Şagirdlərin çətinlik çəkdiyi mövzular hansılardır, yəni bunları araşdırmaqdan ibarətdir.*

# МЕТОДИКА ОБУЧЕНИЯ МАТЕМАТИЧЕСКИМ ВЫЧИСЛЕНИЯМ В ПРЕПОДАВАНИИ АТМОСФЕРНОГО ОТДЕЛЕНИЯ

***Резюме***

*Основная цель написания статьи - определить, как реализуются требования, предъявляемые к учителям в современное время, в том числе к использованию математических расчетов, т.е. занятий, при преподавании предметов географии, какие аспекты отсутствуют или какие области не под силу учителям освоить студентам. С какими темами у студентов возникают трудности, то есть с их исследованием.*

# METHODOLOGY FOR TEACHING MATHEMATICAL COMPUTATIONS IN THE TEACHING OF THE ATMOSPHERIC DIVISION

***Summary***

*The main purpose of writing the article is to determine how the demands placed on teachers in modern times are implemented, including the use of mathematical calculations, i.e. studies, in the teaching of geography subjects, what are the missing aspects or what areas are teachers unable to master to students. What are the topics that students have difficulty with, that is, to research them.*

***Açar sözlər:*** *atmosferdə tempratur, atmosfer təzyiqi, rütubətlənmə əmsalı, atmosferdə su, nisbi rütubətlik, mütləq rütubətlik*

***Ключевые слова:*** *температура в атмосфере, атмосферное давление, коэффициент влажности, вода в атмосфере, относительная влажность, абсолютная влажность*

***Key words:*** *temperature in the atmosphere, atmospheric pressure, humidity coefficient, water in the atmosphere, relative humidity, absolute humidity*

## Giriş

Coğrafiyadan bir sıra mövzuları əhatə edən çoxlu sayda çalışmalar var və bunları araşdırarkən sorğu, nəzəri təhlil metodlarından istifadə olunmuşdur. Belə ki, ümumtəhsil orta məktəblərdə coğrafiya müəllimləri arasında sorğu keçirilmişdir. 115 nömrəli məktəbdə aparılan sorğu nəticəsində aydın olmuşdur ki, müəllimlər riyazi hesablamalara aid tapşırıqların həlli zamanı şagirdlərə mənimsətməkdə çətinlik çəkirlər və onlarda bu sahədə bacarıq əldə olunmasında problem yaranmışdır. Bundan başqa bir sıra metodik vəsait təhlil olunmuş buradan aydın olmuşdur ki, orda da çalışmaların verilməsi və icra edilməsi zamanı müəllimlərə xüsusi qaydaların öyrədilməsi metodik vəsaitdə verilməmişdir. Buna görə də tədqiqat obyektinə çevrilmiş məsələ aktuallığı ilə seçilir.

**Müzakirə və təhlil:** Dərsliklərdə 6-cı sinifdən başlayaraq siniflər üzrə müvafiq olaraq müxtəlif mövzularda riyazi çalışmalara geniş yer verilmişdir. İlk öncə 6-cı sinifdə tədris olunan miqyasa aid məsələlərdən bəhs oluna bilər. Şagirdlər arasında sorğu zamanı bəzi problemlər məlum olmuşdur, bu isə onların bir miqyasdan digərinə keçə bilməməsidir. Məlumdur ki, miqyasın 3 növü var və bunlardan ən çox istifadə olunan ədədi miqyasdır. Ama xəritənin legendasında miqyasın 3 növü formalaşır. Bu problemin həlli üçün müəllimlər ilk öncə mövzunu izah edib, sonra isə sadədən mürəkkəbə doğru müxtəlif tipli məsələlər həll etdirməlidir. Məsələn:

Xəritənin miqyası 1/200000-dir. Xəritə üzərində uzunluğu 22 sm olarsa, həqiqi uzunluğu tapın.

Burada miqyası sözlərlə ifadə etmək lazımdır. Ərazinin 200000 dəfə kiçildiyi qeyd etdikdə demək 1 sm - 2km uyğun gələr. Onda həlli aşağıdakı kimi olacaqdır.

**Həlli:** H=X×M düsturuna əsasən, H=2×22=44

Xəritə üzərində uzunluq 44 km-ə bərabərdir.

7-ci sinifdə havanın temperaturu, havanın rütubəti və təzyiqə aid çalışmalardan bəhs oluna bilər. Bundan başqa müəllim açıq hava şəraitində mövzuya uyğun müxtəlif praktik tapşırıqları icra edə bilər. Məsələn, havanın temperatur rejimi, atmosfer təzyiqi. Onu da qeyd edək ki, atmosfer mövzusu genişdir və burada hesablamalar zamanı əyani vasitələrdən istifadə etmək məqsədəuyğundur; termometr, barometr, və s. Burada şagird həm cihazlardan istifadə etmə bacarığını öyrənmiş olur, həm də qazanmış olduqları nəzəri bilikləri praktik tətbiq edərək riyazi hesablamalara dair tapşırıqları daha rahat

başa düşəcəkdir. Çünki müəllim şagird fəaliyyətini təşkil etmək üçün riyazı hesablamalardan geniş istifadə etməlidir. Şagird fəaliyyətini təşkil edərkən ilk öncə onun nəzəri hissəsini izah edib, bir neçə məsələ üzərində izah etməlidir ki, şagirdə tam aydın olsun. Bu onların həm məntiqi təfəkkürü, həm də idraki fəaliyyətinin inkişafına şərait yaradacaqdır. Bundan başqa orta sutkalıq temperaturun ölçülməsini tapşıra bilər və həll edilmə metodunu izah etdikdən sonra bunu sərbəst şəkildə praktikaya tətbiqini tapşıra bilər. Şagird isə öyrəndiklərinə əsasən tədris zamanı apardığı hesabatları onun sayına bölməlidir. O zaman orta sutkalıq temperaturun tapılma qaydasını biləcəklər. Günləri, ayları, həmçinin illəri də bu hesabatlar əsasında hesablayıb müəyyənləşdirmək mümkündür. Ama bu uzun vaxt tələb edən prosesdir. Şagird ölçmə işlərini apardığı müddətdə müəllim də onlarla birgə prosesə nəzarət etməlidir. Bu həm şagirdlərin verilən tapşırığa daha məsuliyyətli yanaşmasına, həm də göstəricilərin dəqiqliklə yerinə yetirilməsinə kömək olacaqdır. Məsələn:

Gecə saat 12-dən başlayaraq temperaturu hər 3 saatdan bir ölçüb müvafiq olaraq dərəcələri qeyd edək: 10, 12, 16, 18, 20, 24, 28, 32.

**Həlli:** (10+12+16+18+20+24+28+32):8=20.

Demək orta sutkalıq temperatur 20 dərəcə təşkil edəcəkdir. Atmosferə aid riyazi hesablamalardan şagird həmçinin sutkalıq temperatur amplitudunu ölçüb müəyyən edə bilər. Bu isə sutka ərzində ən aşağı və ən yuxarı temperatur fərqi ilə tapılır və tematik iqlim xəritələrdə ən aşağı, ən yuxarı illik temperatur amplitudasına malik olan ölkələri qeyd etməyi şagirdlərə tapşırıla bilər. Məsələn:

Tutaq ki, sutkada ən yuxarı tempratur 28 dərəcə, ən aşağı isə 17 dərəcədir. Onda, sutkalıq temperatur amplitudu 28-17=11 dərəcə təşkil edəcəkdir. Burada məqsəd şagirdlərin fəaliyyətini artırmaq, dərslikdə əldə etdikləri nəzəri bilikləri praktikada necə tətbiq etmələrinin öyrədilməsi, həmçinin adı çəkilən cihazlardan istifadə qaydasını bilməkdir. Bilirik ki, temperatur hər 100 m-də 0,6 aşağı düşür. Müəllim buna aid məsələlər həll etməklə şagirdə bunu daha yaxşı izah etmiş olacaqdır. Məsələn, adi çalışma ilə bunu izah edək:

Hündürlüyü 4000 m olan dağın ətəyində temperatur 22 dərəcədir. Zirvədə olan temperaturu müəyyən edin.

**Həlli:** 4000:1000=4
4×6=24
22-24=-2

**Cavab:** Zirvədə temperatur -2 dərəcə təşkil edəcəkdir.

Buna aid tapşırıqları əyani olaraq yaşadıqları əraziyə yaxın mövcud olan hündürlükdə də tətbiq edə bilərlər. Bu həm də Respublika ərazisində

deyilən qaydaları tətbiq edərək diyarımızı daha yaxşı öyrənməyə imkan yaradacaqdır. Bu zaman tədris olunan fənn şagird üçün çox maraqlı olacaqdır. Əfsuslar olsun ki, hazırda müəllimlər praktikaya deyil, yalnız nəzəri bilikləri şagirdlərə izah etməklə kifayətlənirlər. Bu isə bir növ əzbərçiliyə, yəni əldə edilən biliklərin bir müddət sonra unudulmasına gətirib çıxarır. Son olaraq təlim keyfiyyətində gözlənilən nəticəni əldə etmək mümkün olmur.

Yuxarıda atmosferə aid riyazi hesablamalardan təzyiqi də qeyd etmişdik. Atmosfer təzyiqini barometr adlanan cihazla ölçə bilərik. Bu cihazdan istifadə edərək şagird həm verilən məsələni həll edə, həm də cihazdan istifadə qaydasını öyrənmiş olacaqdır. Qeyd edək ki, atmosfer təzyiqi hündürlüyə doğru hər 10 m-də 1mm c.süt aşağı düşür. Yaxşı olar ki, buna aid müxtəlif tipli məsələlərin həll edilməsi verilən tapşırığa hansı yöndən baxmalı olduqlarını göstərəcəkdir. Məsələn:

Dağın ətəyində atmosfer təzyiqi 720 mm c.süt-dur və zirvəsində isə 120 mm c.süt təşkil edir. Dağın hündürlüyünü tapın. Onda həlli aşağıdakı kimi olar.

**Həlli:** 720-120=60
600×10=6000, deməli hündürlük 6000-m olacaqdır.

Fənn müəllimi hündürlüyü alçaq olan dağlarda cihazı götürüb buna aid bir neçə ölçmə işləri apararaq dərsi şagirdlər üçün daha maraqlı təşkil edə bilər. Şagird özü cihazdan istifadə edərək ölçmə işləri apardığı zaman özünü bu tapşırığın həllində böyük rolu olduğunu hiss edəcəkdir. Şagird yalnız təzyiqi bilməklə də dağın təxmini hündürlüyünü öyrənmiş olur. Sadədən mürəkkəbə doğru tapşırıqların izah edilərək öyrədilməsi mövzunu daha aydın başa düşməyə imkan verəcəkdir. Nisbətən mürəkkəb tapşırığa diqqət yetirək. Məsələn:

Dağın yamacında 2600 m yüksəklikdə temperatur 12 selsidir. 5600 m yüksəklikdə temperatur və atmosfer təzyiqini müəyyən edin.

**Həlli:** 5600-2600=3000
(3000:1000)×6=18
12-18= -6 alınan cavab zirvədə olan temperaturdur.
3000:10=300
760-300=460 mm c.süt isə təzyiq təşkil edir.

Bundan başqa atmosferə aid riyazi hesablamalardan rütubətlənmə əmsalından bəhs edə bilərik, hansı ki, yağıntının mümkün buxarlanmaya olan nisbəti onun tərifidir. Rütubətlənmə əmsalının vahidə yaxın, vahiddən böyük və ya kiçik olması şagirdə həmin ərazi üçün müəyyən dərəcədə fikirlər irəli sürməyə imkan verir. Rütubətlənmə əmsalı vahiddən kiçik olarsa, bu yağıntının az, buxarlanmanın çox olduğunu göstərir. Bu isə tropik ərazilər üçün uyğun gələ bilər, həmin ərazidə fiziki aşınma hökm sürür. Məsələn:

Yağıntı 50mm, mümkün buxarlanma 100mm dir. Rütubətlənmə əmsalını tapın.

R/ə=Y:B düsturuna əsasən; 50:100=0,5. Vahiddən böyük olarsa, yağıntının buxarlanmadan çox olduğunu göstərir. Qısaca şagirdlərə həmin ərazilər üçün proqnoz vermə imkanı yaradacaq.

8-ci sinifdə xəritə üzərində məsafələrin hesablanmasına aid məsələlərdən bəhs oluna bilər. Bu eyni meridian və ya paralel üzərində aparıla bilər. Məsələn, eyni paralel üzərində yerləşən Bakı şəhəri ilə Pekin arasındakı məsafəni hesablayın. Qeyd edək ki, 40`şm.e-də 1`lik paralelin qiyməti 85.4 km-dir. Onda uzunluqların fərqi göstərilən ədədə vurulacaqdır.

$$(117-50)\times 85.4=5721.8$$

Araşdırmalar zamanı məlum oldu ki, şagirdlərin mövzuya aid hesablamalarda yanlışlığa yol verirlər. Səbəb müxtəlif amillər ola bilər; vaxt azlığı, düzgün metoddan istifadə etməmək və s.

9-cu sinifdə günəşin düşmə bucağına aid hesablamalara yer verilmişdir. Bu məsələlərin həllində günəşin harda zenitdə olduğuna diqqət yetirmək lazımdır. Məsələn, 60` şm.e-də yerləşən dağın cənuba meylliyi 17`-dir. 22 iyunda bu yamacda günəşin düşmə bucağını tapın. 22 iyunda günəş şm tropikdə zenitdə olduğundan 90` düşür onda;

$$(90-60)+23.5=53.5$$

$$53.5+17=70.5$$

10-cu sinifdə vaxt fərqinin hesablanmasına aid məsələlərdən bəhs oluna bilər. Buna aid çalışmaları həll edərkən sadə izahla yadda saxlamaq kifayətdir. Eyni saat qurşağından söhbət gedirsə, dərəcələr çıxılır, müxtəlif saat qurşağındadırsa, toplanıb 15-ə bölünür. Əgər tam bölünmürsə, 1`-nin qiyməti 4 dəqiqəyə bərabər olduğundan həmin ədədə vurulacaqdır. Məsələn, 40`ş.u-da olan A məntəqəsilə 50` q.u-da olan B məntəqəsi arasında vaxt fərqini hesablayın.

**Həlli:** 40+50=90

90/15=6, demək vaxt fərqi 6 saatdır.

11-ci sinifdə təbii ehtiyatlara aid çalışmalardan bəhs olunur. Burada sadə məsələ ilə istifadə edilən ehtiyatların çatacağı ili hesablamaq olar. Məsələn, ABŞ-da ümumi ehtiyat 8.2mlrd ton-dur, illik hasilat isə 711mln ton olarsa, çatacağı ili hesablayın.

**Həlli:** 8.2mlrd/711mln=11.5, deməli bu qədər müddətdə təbii ehtiyat çatacaqdır.

**Nəticə:** Yuxarıdakı deyilənlərə yekun vuraraq aşağıdakı nəticəyə gəlinmişdir:

1. Ümumtəhsil orta məktəblərdə şagirdlər çalışmaların həlli zamanı bir sıra yanlışlığa yol verirlər.
2. Müəllimlər düzgün metodlardan istifadə etmirlər.
3. Son olaraq şagird fəaliyyətinin inkişafına şərait yaradan riyazi hesablamalardan kifayət qədər istifadə etməmək təlimdə gözlənilən nəticəni vermir.

***Ədəbiyyat***

1. *Z. Emin, Coğrafiyadan testlər (metodik vəsait), Bakı – 1998.*
2. *Həsənova İ., Coğrafiyadan məsələlər (dərslik), Bakı – 2004.*
3. *R. Ramil, S. Mahir, Q. Fuad, Ali məktəblərə daxil olan abituriyentlər üçün vəsait.*

**G.R.Valehova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunayvalehova9@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN TƏDRİS PROSESİNDƏ ELEKTRON DAŞIYICILARDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Məqalədə təhsil sisteminin idarə edilməsinin səmərəliliyinin artırılmasında metodik xidmətin təşkilinin pedaqoji aspektləri təhlil olunur, təhsilin inkişafının müasir mərhələsində proqram - metodiki xidmətin inkişaf tendensiyalarının təhlili edilir. Tədris prosesində elektron daşıyıcılardan istifadənin müəyyən edilmiş vasitələrinin effektivliyi göstərilir.*

# ОСОБЕННОСТИ ИСПОЛЬЗОВАНИЯ ЭЛЕКТРОННЫХ НОСИТЕЛЕЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ

***Резюме***

*В статье анализируются педагогические аспекты организации методической службы в повышении эффективности управления системой образования, анализируются тенденции развития программно-методической службы на современном этапе развития образования. Показана эффективность определенных средств использования электронных носителей в образовательном процессе.*

# FEATURES OF THE USE OF ELECTRONİC MEDİA İN THE EDUCATİONAL PROCESS OF SECONDARY SCHOOLS

***Summary***

*The article analyzes the pedagogical aspects of the organization of methodical service in increasing the efficiency of the management of the education system, analyzes the development trends of the program-methodical service at the modern stage of education development. The effectiveness of the determined means of using electronic carriers in the educational process is shown.*

***Açar sözlər:*** *media, kütləvi informasiya vasitələri, elektron media*

***Ключевые слова:*** *СМИ, средства массовой информации, электронные СМИ*

***Key words:*** *media, mass media, electronic media*

İstənilən təhsil prosesinin əsas nəticəsi fəal həyat və peşəkar mövqeyə malik mütəxəssislərin hazırlanmasıdır. Müasir şəraitdə təhsil müəssisələrinin məzunları arasında həm peşəkar səriştələrin, həm də daimi özünü inkişaf və özünü təkmilləşdirməyə şəxsi istəyin formalaşdırılması ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Lakin tələbənin yaradıcı özünü identifikasiyası ənənəvi bilik ötürülməsi yolu ilə formalaşdırıla bilmədiyi üçün, şübhəsiz ki, yalnız metodoloji yanaşmaları və təhsil texnologiyalarını yenidən nəzərdən keçirmək kifayət deyil - tədrisin konseptual prinsiplərində dəyişikliklər zəruridir. Yeni təhsil paradiqmasında tələbə passiv biliyin istehlakçısından fəal subyektə çevrilməlidir ki, onun fəaliyyət prinsipi bilavasitə peşə problemlərinin həllində, təhsilə nail olmaq üçün vasitə və üsulların seçilməsində müstəqillik dərəcəsindən asılıdır.

Müasir ümumtəhsil məktəbi xüsusi şəraitdə fəaliyyət göstərir ki, onun xüsusiyyətləri daha çox cəmiyyətin, mədəniyyətin, təhsilin qlobal informasiyalaşdırılması prosesi ilə müəyyən edilir. KİV və kommunikasiya təkcə böyüklərin deyil, uşaqların da həyatında mühüm rol oynayır. Son illərdə aparılan sosioloji araşdırmalara görə, uşaqların seçdiyi informasiyanın ötürülməsi mənbələri və kanalları arasında şəksiz lider media və kommunikasiyalar, o cümlədən elektronlardır. Yeniyetmələr asudə vaxtlarını getdikcə daha çox müəyyən media vasitələrindən istifadə etməklə təşkil edirlər və bu sahədə əldə olunan məlumatlar yol həmyaşıdları, valideynlər, müəllimlərlə ünsiyyətə daxildir.

Müasir dünyada “media” termini kütləvi informasiya vasitələri və kommunikasiyalar anlayışının analoqu kimi istifadə olunur. Bura çap, fotoqrafiya, radio, kino, televiziya, video, multimedia kompüter sistemləri, o cümlədən internet eyni zamanda, müxtəlif ölkələrdə qəbul edilmiş “media”nın ifadəsində, bir qayda olaraq, heç bir uyğunsuzluq yoxdur. Onlar yalnız stilistik cəhətdən fərqlənir.

Kütləvi informasiya vasitələrinin həyatın müxtəlif sahələrinə təsirinin miqyası hər gün artır. Bu, təhsil sistemi qarşısında yeni vəzifələr qoyur, insandan nəinki müasir texniki vasitələri və onlarla işləmək bacarığını, həm də müəyyən kritik səviyyəyə çatmasını tələb edir: təfəkkür (media mesajlarını şərh etmək, müxtəlif media mətnlərini başa düşmək bacarığı), informasiya materialının axtarışı, emalı və təqdimatı ilə bağlı müstəqil yaradıcı iş bacarıqları və s. şəxsi məlumat sahəsinə gedin və mövcud media dünyası ümumiyyətlə son dərəcə qiymətlidir.

Yerli və xarici tədqiqatlara görə, uşağın televiziya proqramlarına baxan və ya kompüterdə işlədiyi vaxt artıq məktəbdə keçirdiyi vaxtdan artıqdır. Qeyd etmək olar ki, məktəbdəki tədris materialından fərqli olaraq, müxtəlif media mənbələrindən alınan məlumatlar, uşaqlar üçün bir sıra cəlbedici

xüsusiyyətlərə malikdir, emosional yüklənir, aktualdır, başa düşmək üçün əlçatandır, əzbərləməyi tələb etmir və qiymətləndirilmir. Bütün bunlar medianı bilik mənbəyi kimi şagirdlər üçün məktəb dərslərindən daha cəlbedici edir.

Belə ki, medianın şagirdlərə təsirinin özünəməxsus xüsusiyyətləri var ki, bu da ilk növbədə bu təsirin "mütəşəkkil olmamasından ibarətdir." Qavrayışın xarakteri dərsdə informasiyanın qavranılmasından fərqli olaraq spesifikdir. Bundan əlavə, media və ünsiyyət sosial mühit, dostlar, valideynlər, müəllimlər və s. vasitəsilə dolayı təsir göstərir.

Müxtəlif kütləvi informasiya vasitələrinin fəal istifadəçiləri olan məktəblilər isə heç də həmişə mesajların əsl mənasını, onların yaradılma motivlərini və mexanizmlərini dərk etmirlər. Eyni zamanda qeyd etmək lazımdır ki, media kanalları vasitəsilə ötürülən informasiyalar, informasiyanın manipulyasiyasına yönəlib. Siyasi, iqtisadi və ya digər məqsədlər üçün istehlakçı şüuru adambaşına düşən "hücumedici" media və kommunikasiyalar getdikcə daha peşəkar xarakter alır. İnformasiya bazarı istehlakçının zövqünə diqqət yetirir, onu müxtəlif məzmunlu məhsullarla (idman, detektiv hekayələr, əyləncə şouları və s.) zənginləşdirir. Məktəblilər şüurlu şəkildə zəruri, lakin mürəkkəb maarifləndirici proqramlardan, ciddi ictimai-siyasi proqramlardan yayına, bir növ "informasiya baraması"na düşə, real dünyadan təcrid oluna, virtual reallıqda yaşaya bilər. İdrakın və fərdin faktiki mövcudluğunun informasiya məhdudiyyətlərinə səbəb olur.

J.S.Zaznobina, A.V.Fedorov və digər tədqiqatçılar qeyd edirlər ki, yeniyetmələr medianın köməyi ilə onlara "məktəbdə verilmədiklərini" "bilik" axtarmırlar - əylənmək arzusu hər şeydən əvvəl gəlir. Lakin bir çox media maarifləndirici, təhsil, tərbiyə funksiyaları - buraya televiziya proqramları, internet saytları daxildir ki, burada məlumatların əhəmiyyətli hissəsi məktəbdə oxunan fənlərlə bağlıdır. Lakin bu didaktik potensial nəzərə alınmır, bir çox informasiya axınının məktəblilərə təsiri, bir qayda olaraq, hər kəs tərəfindən tənzimlənmir [9, 136].

Təbii ki, Azərbaycanda baş verən sosial-iqtisadi dəyişikliklər və bütün dünyaya təsir edən informasiya partlayışı müxtəlif informasiya vasitələrinin istifadəsi kontekstində ənənəvi olaraq qurulmuş təhsil sistemlərindən, məzmunundan, metodlarından istifadə problemi müasir təhsil sistemində aparılan islahatların ümumi kontekstində nəzərdən keçirilir.

Bu sahədə tədris məqsədləri üçün hazırlanmış media məhsulları haqqında əldə edilmiş biliklər tədris prosesində informasiya-kommunikasiya vasitələrini tətbiq edənlər üçün üstünlük təşkil edir. Bu baxımdan, belə bir qənaətə gəldik ki, təhsilin informasiyalaşdırılmasının aktual problemlərinin həllində media həlledici rol oynayır.

Müəllimin tədris prosesində elektron mediadan istifadə etməyə hazırlığının strukturunda aşağıdakı komponentləri müəyyən etmək olar:

- motivasiya (müasir cəmiyyətdə medianın rolunu adekvat başa düşmək, təhsilin informasiyalaşdırılmasının məqsəd və vəzifələrini başa düşmək, bu prosesdə fəal iştirak etmək istəyi);
- məqsədyönlü (müəyyən bir fənnin tədrisi prosesində elektron mediadan istifadənin məqsəd və imkanları haqqında aydın məlumatlılıq);
- informasiya (müasir media, onların müvafiq məhsulları və resursları, onların təhsil və tərbiyə imkanları, psixoloji və pedaqoji xüsusiyyətləri və istifadə üsulları haqqında biliklər);
- fəaliyyət (elektron media ilə işləmək və təhsil məqsədləri üçün öz media məhsullarınızı yaratmaq bacarığı).

Hazırlığın müəyyən edilmiş komponentlərində həlledici rol, fikrimizcə, motivasiyanın yaradılmasına, təlim prosesinin idrak, kommunikativ, tərbiyəvi və digər vəzifələrinin daha dolğun yerinə yetirilməsi üçün bu imkanları nəzərə almaq istəyi, müxtəlif sinifdənkənar məlumat axınlarının uşaqlara təsirinin nəzərə alınmasının vacibliyi haqqında təsəvvürün formalaşmasına aiddir. Məhz bu cəhət müasir ümumtəhsil məktəbinin pedaqoji kadrlarının yenidən hazırlanmasında əsas məqama çevrilməlidir.

Bu məqsədlə şagirdlərə akademik işlərində elektron mediadan səmərəli istifadə etməyi öyrətməkdir. Bu nəticəyə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmalıdır.

- şagirdləri elektron medianın, nəşrlərin və resursların təhsil imkanları ilə tanış etmək;
- şagirdlərə bu imkanlardan istifadə etməyin müxtəlif yollarını göstərmək;
- yaradıcı tapşırıqlar vasitəsilə uşaqların elektron media və media məhsullarından tədris işində istifadə bacarıqlarının inkişafına töhfə vermək.

Təklif olunan vasitələrin praktikada tətbiqinin effektivliyi meyarları kimi aşağıdakı meyarlar müəyyən edilmişdir:

- tələbələrin idrak fəallığının artırılması;
- akademik performansın yaxşılaşdırılması,
- öyrənməyə və ümumilikdə məktəb həyatına müsbət münasibət.

Məktəbdənkənar fəaliyyətlər, müxtəlif fənlər üzrə dərslər və media ilə işin təbiəti zamanı müsbət emosional təzahürlərdə ifadə olunan öyrənməyə və ümumiyyətlə məktəb həyatına müsbət münasibət yaratmaq lazımdır.

Bu münasibətlər bir sıra şərtlərə uyğunluq səbəbindən əldə edilməlidir:

- KİV-də hadisələrin operativ, hərtərəfli işıqlandırılması;
- müəllim tərəfindən media məlumatlarının qavranılmasına pedaqoji rəhbərlik;

- informasiyanın qavranılması, onun tənqidi dərk edilməsi bacarıqlarının inkişafı;
- tələbələri fərdi, yaradıcı işə cəlb etmək;
- media mesajlarının balanslaşdırılmış seçimi.

Tədris prosesində elektron daşıyıcılardan istifadənin müəyyən edilmiş vasitələrinin effektivliyi pedaqoji vasitələrin optimal birləşməsindən, məktəblilərin fəallığından, müstəqilliyindən və medianın özlərinin didaktik potensialından asılıdır.

Beləliklə, eksperimental iş prosesində nail olunmuşdur ki, elektron daşıyıcılardan tədris prosesində istifadə vasitələri onların spesifik xüsusiyyətlərinə və təhsil mühitində istifadənin pedaqoji aspektlərinə əsasən müəyyən edilmişdir:

- orta məktəb şagirdləri üçün, o cümlədən müxtəlif məktəb fənləri üzrə dərsləri elektron daşıyıcılardan istifadə etməklə və onlardan tədris prosesində səmərəli istifadə şərtləri nəzərə alınmaqla seçmə kurs hazırlanmalıdır;
- bu kursun praktiki icrası zamanı elektron daşıyıcılardan istifadə üçün ayrılmış vasitələrin səmərəliliyi eksperimental olaraq yoxlanılmalıdır;
- müasir məktəblərin tədris prosesində elektron mediadan istifadənin nəzəri və metodoloji məsələlərinə diqqət yetirmək məqsədəuyğundur.

Bu aspektlərin öyrənilməsi aşağıdakı bir sıra aktual problemləri müəyyən etməyə imkan verdi:

- medianın tələbələrin şəxsiyyətinə təsirinin xüsusiyyətləri;
- ölkəmizdə media pedaqogikasının inkişaf perspektivləri;
- ayrı-ayrı fənlərin tədrisi çərçivəsində məktəblilərin media səriştəsinin formalaşdırılması;
- KİV-dən peşəkar fəaliyyətdə istifadə etmək üçün müəllimlərin hazırlanması və yenidən hazırlanması problemləri və s.

Cəmiyyətin informasiyalaşdırılması prosesləri müasir təhsilə əhəmiyyətli dərəcədə təsir göstərir. Tədris prosesinə tədricən yeni informasiya texnologiyaları daxil edilir ki, bura indi multimedia texnologiyaları, kompüter telekommunikasiyaları, videokonfranslar və yeni televiziya yayımı texnologiyaları daxildir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında qanunu, E-qanun.gov.az.framework/3525*
2. *Nəzərov M.H, Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı, "Elm və təhsil", 2017, 256 s.*
3. *Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU - 2020. ADPU-nun nəşriyyatı, 496 s.*

4. *Mədədəov P., Eminov A. Pedaqogika və evrologiya. BAKI-"Gənclik 2014", 238 s.*
5. *Абросимова, М.А. Информационные технологии в государственном и муниципальном управлении: Учебное пособие - М .: КноРус, 2013. - 248 с.*
6. *Агеев В.Н., Древе Ю.Г. Электронные издания учебного назначения: концепции, создание, использование: Учебное пособие, М.: МГУП, 2003, -234 с.*
7. *Балдин К.В. Информационные технологии в менеджменте. М. Академия, 2012. - 283 с.*
8. *Журин А.А., Принципы отбора информации СМИ для использования на уроках химии // Химия, методика преподавания. Научно-методический журнал М • Школьная пресса, 2005, №7, С. 6-15*
9. *Зазнобина J.С. Общее и особенное в медиаобразовании // Школа 2000 Концепции, методики, эксперимент Сборник научных трудов М/ ИОСО РАО, 1999. – С. 263-269*

**L.Q.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullayeval795@gmail.com***

# VI SİNİFDƏ XƏRİTƏYƏ AİD MÖVZUNUN TƏDRİSİNDƏ CİS PROQRAMINDAN İSTİFADƏ EDİLMƏSİNİN METODİKASI

***Xülasə***

*Müasir dövr elə tərəqqi səviyyəsinə çatmışdır ki, texnologiyasız həyat təsəvvür edilmir. Texniki vasitələr və texnologiya öz çoxcəhətliliyi ilə təkcə təsərrüfat və sənayeyə deyil, həmçinin elmə də öz töhfələrini verərək, məktəb mühitində istifadə edilmək səviyyəsinə qədər irəliləyib. Şagirdlərə ilkin baza biliklərini verən məktəb və digər təhsil müəssisələrində tədrisin keyfiyyətli təşkil olunması vacib məsələlərdəndir. Bu məqalənin məqsədi də elmdə baş verən yenilikləri nəzərə alaraq, VI sinif dərsliyində "Xəritələr coğrafi informasiya mənbəyidir" mövzusunu müasir CİS proqram texnologiyasından istifadə edərək pedaqoji prosesdə gerçəkləşdirmək və onun tədrisdə əhəmiyyətini göstərməkdir.*

# МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ПРОГРАММНОГО ОБЕСПЕЧЕНИЯ ГИС ПРИ ОБУЧЕНИИ ПРЕДМЕТА КАРТА В Vl КЛАССЕ

***Резюме***

*Современная эпоха достигла такого уровня прогресса, что жизнь без технологий немыслима. Технические средства и технологии, благодаря своей универсальности, внесли вклад не только в экономику и промышленность, но и в науку и достигли уровня использования в школьной среде. Качественная организация обучения в школах и других образовательных учреждениях, обеспечивающих получение учащимися базовых знаний, является одним из важных вопросов. Цель данной статьи – реализовать тему «Карты – источник географической информации» в учебнике шестого класса в педагогическом процессе с использованием современных программных ГИС - технологий и показать ее значение в обучении с учетом инноваций в науке.*

# METHODOLOGY OF USING THE GIS SOFTWARE IN TEACHING THE SUBJECT OF MAP IN CLASS Vl

***Summary***

*The modern era has reached such a level of progress that life without technology is unimaginable. Technical tools and technology, with their versatility, have contributed not only to economy and industry, but also to science, and have progressed to the level of being used in the school environment. Quality organization*

*of teaching in schools and other educational institutions that provide students with basic basic knowledge is one of the important issues. The purpose of this article is to realize the topic "Maps are a source of geographic information" in the sixth grade textbook in the pedagogical process using modern GIS software technology and to show its importance in teaching, taking into account the innovations in science.*

***Açar sözlər:*** *CİS, innovativ dərs, kurikulum, QGİS proqramı, kompüter, qrafik planşet, proyektor, baza xəritə, informasiya mənbəyi*
***Ключевые слова:*** *ГИС, инновационный урок, учебная программа, ГГИС-программа, компьютер, графический планшет, проектор, базовая карта, источник информации*
***Key words:*** *GIS, innovative lesson, curriculum, QGIS program, computer, graphic tablet, projector, base map, information source*

İnkişaf edən zamanın tələblərinə uyğun olaraq, hər bir kəs artıq texnika və texnologiyanın bir parçası olan elektronik əşyaların istifadəsini öyrənmiş və daha da təkmilləşdirmişlər. Maraqlısı ondadır ki, yaşlı nəslin də təəccübünə səbəb olan hadisələrdən biri məhz yeni doğulan körpələrin də texnologiyaya həvəs göstərməsi, hətta onlardan istifadə etməyi belə bacara bilməsidir. Bu tərzə sahib sürətli inkişaf şəraiti artıq elm, təhsil insanları, alimləri, psixoloq və pedaqoqlarını vahid məsələ ətrafında düşünməyə vadar edir. Bu mühüm məsələ gələcəyin düşünən, sağlam, intellektual beyinlərini, çağdaş dövrümüzün yetişməkdə olan gənc nəslini inkişaf etdirmək üçün görüləcək tədbirlərə işarədir.

Yeni tədris edilən, üzərində daim işlənilib hazırlanan kurikulum proqramı yenilikləri ilə məktəb sferasında özünün yerini sabitləmişdir. Artıq Təhsil Nazirliyi müəssisələri işçiləri və digər məsul şəxslər kurikulumun məktəblərdə tətbiqini genişləndirmək üçün məktəblərin işinə, tədris siniflərinə nəzarəti gücləndirirlər. Bunlardan biri və ən mühümü, müasir, çox funksional proqram, avadanlıqlarla məktəbləri təchiz etməkdir. Bu kimi yeniliklərin tətbiqi ölkəmizin təhsil sistemində inqilab yaradacaqdır. Bu isə tarixi keçmişə söykənən, lakin hələ də dərslərə tətbiqi reallaşdırıla bilməyən bir proqram – GİS sayəsində daha da tərəqqi etmiş olacaq. Ümumi və tam orta təhsil məktəblərində Coğrafiya fənni dərsliyində xəritələrin özündə coğrafi mövqedən informasiyanı, məlumatı daşıması mövzusu və onun məktəb mühitində hansı metodlarla tədris edilməsi də digər dərs mövzuları kimi aktual məsələyə çevrilib. Altıncı sinifdə coğrafi məlumat mənbəyi kimi xəritənin öyrənilməsinin ilkin mərhələsinin əsası qoyulur. Bunu müəllim GİS proqram texnologiyası vasitəsindən istifadə edərək dərsi innovativ formada tədris edə bilər. Bunun üçün müəllim hər bir texniki avadanlıqlarla təchiz olunmuş sinif otağı

seçməlidir. Bura kompüter, proyektor, adi planşet və ya qrafik planşet texnikaları daxildir. Coğrafiya fənninin ilk keçirildiyi altıncı sinifdə və xəritə ilə bağlı ilk mövzuda fənn müəllimi şagirdlərin yaşını, qavrama qabiliyyətlərini və texnika ilə işləmək bacarıqlarını nəzərdə götürərək dərsini keçməlidir. Müəllim şagirdlərində dərsə maraq oyatmaq və diktə edəcəyi mövzunun nə olduğu ilə bağlı anlayış formalaşdırmaq üçün şagirdlərə ilkin tanışlıq sualları verərək sinfə bu cür səslənə bilər: Xəritələrdən hansı məlumatları almaq olar? Və onların əhəmiyyəti nədir? Müəllim şagirdlərlə 10 dəqiqə ərzində beyin həmləsi üsulu ilə müzakirə təşkil etdikdən və şagirdlərinin fikirlərini alıb ümumi baxış keçirdikdən sonra dərsin əsas məğzinə giriş edə bilər. Bələdçi müəllim şagirdlərlə bərabər sinif şəraitində xüsusi avadanlıqlarla tədqiqat işinə başlamazdan əvvəl onlara bir neçə tədqiqat sualı yönləndirə və tədqiqatın sonunda onlardan fikirlərini ala bilər.

a) Coğrafiya dərsində ənənəvi kağız xəritələri əvəz edə biləcək başqa hansı yeni, əlverişli üsul, vasitələri bilirsiz?

b) Xəritənin coğrafi məlumatın - informasiyanın mənbəyi olmasını necə izah edə bilərsiz?

c) Xüsusi GİS proqramlarında yaradılan xəritələrin keçmişdə yaradılan xəritələrlə nə kimi fərqlərini söyləyə bilərsiz?

Müəllim artıq kompüterdə özünün istifadə etdiyi, tədrisin məzmununa, əsas ideyasına uyğun gələ biləcək QGİS (Quantum GİS) proqramı ilə şagirdlərə mövzunu müasir texnologiyalarla izah edəcək və şagirdlər də müəllimləri ilə bərabər işləyə biləcəklər.




Niyə məhz QGİS proqramı tədrisə uyğun gələ bilər? Çünki, onun texnikaya yüklənməsi asan başa gəlir, üstəlik yaddaş tutumu münasib dərəcədədir və

istifadəsi də rahatdır. Pedaqoji prosesdə kompakt şəkildə istifadə üçün QGİS proqramının müəllimin kompüterində olmağı ilə yanaşı şagirdlərin də istifadə edəcəyi planşetlərdə olmasını müəllim əvvəlcədən təmin etməlidir. Müəllim öz proqramının istifadəsini şagirdləri ilə paylaşaraq müştərək formada proqramdan istifadəni təmin edə bilər. Müəllim proqramın istifadəsini başladıb, onu şagirdlərin hamısının görməsini təmin etmək üçün proyektora yönləndirməlidir. Bununla da dərsini davam etdirərək, xəritələr haqqında şagirdlərin bilmədiyi məlumatları verməklə həm də öz kompüterində rahatlıqla QGİS proqramı vasitəsilə istənilən baza xəritəni orada nümayiş etdirə bilər. Müəllim şagirdlərə həm müasir xəritələrin GİS vasitəsilə necə yaradıldığını öyrətməklə bərabər onlara həmin xəritələrin özünəməxsus xüsusiyyətləri haqqında məlumat vermiş olur.

Müəllim bu görüntü vasitəsilə dünyanın fiziki xəritəsini, yəni ümumi görünüşünü şagirdlərə vizual şəkildə sərgiləmiş olur. Bu xəritənin şagirdlərə hansı məlumatları ötürdüyü haqda onların fikirlərini almalı və çatışmayan məlumatları əlavə etməlidir. Daha sonra QGİS-in digər xüsusiyyətlərinə keçərək, şagirdlərlə birgə xəritə üzərində yeni işlər ərsəyə gətirməlidir.

Əlavə olaraq dünya xəritəsinin sadə görünüşünü baza, özül xəritə kimi istifadə edərək onun üzərində digər dünya statistik göstəricilərini, məsələn, şagirdlərdə xəritələr haqda ümumi fikir formalaşdırmaq üçün dünya əhalisinin




ərazilər üzrə qeyri-bərabər paylanmasını dairələr vasitəsi ilə açıq rəngdən tünd rəngə doğru necə qeyd etmək lazım olduğunu müəllim izah etməli və şagirdlər də onların qarşısında olan qrafik - qələmli, rahat istifadəli planşet vasitəsilə lazım olan qeydləri apararaq xəritə yaradılması prosesində iştirak edə bilirlər. Müəllim belə üsulla davam edərək, şagirdlərlə az zaman müddətində bir neçə növ xəritə üzərində işləyir, onları necə yaddaşda saxlamaq lazım olduğunu, hər yaratdıqları nümunə xəritələrin hansı xüsusiyyətlərinin olduğunu bu üsulla rahat şəkildə izah edə bilir.

Müəllim yeni mövzuda xəritə yaratmaq üçün yeni bir lay aça və onu adlandıra bilər. Bu layda dünyanın tektonik cəhətdən daha təhlükəli ərazilərini şagirdlərlə birgə işləyə bilər. Bu xəritəni də yaratmaqla müəllim seysmiklik istiqamətdən fəal olan zonaları şagirdlərə praktik formada işlətmiş olur.




Müəllim sonda şagirdlərə belə bir xəritəni göstərərək onlarda coğrafi koordinatlar haqqında da təəssürat yarada bilər. Beləliklə, müəllim bütün bu proseslərin məhz GİS proqramlarından hər hansısa birinin vasitəsilə asanlıqla, heç bir əlavə zəhmət tələb etmədən, elektronlaşdırılmış səmərəli sistemlərlə xəritə yaradılmasını şagirdlərə aşılaya biləcəkdir.

Müəllimlə birgə aparılan tədqiqatın nəticəsində şagirdlər Coğrafiya xəritələrinin mahiyyətinin, məqsədinin nədən ibarət olduğunu, nə məqsədlərlə istifadə edildiyini və əhəmiyyətini qeyd edə biləcəklər. Müəllim bu metodla, GİS proqramını dərsində tətbiq edərək daha effektiv nəticə əldə etməklə bərabər, şagirdlərə eyni baza xəritənin üzərində istənilən fərqli mövzuda xəritələrin yaradılmasının mümkün olduğunu qeyd etmiş olacaqdır. Bunları proqramın strukturasında, legenda hissəsində sadəcə xəritələrin adlarını əvvəlcədən qeyd edərək həmin baza xəritəni yaddaşa verməklə mümkün olduğunu qeyd etməlidir.

Pedaqoji prosesin sonunda şagirdlər xəritənin məhz CİS-in əsas mənbəyi olduğunu qeyd edə biləcəklər. Şagirdlər artıq hər mövzunun tədrisi üçün ayrıca kağız xəritənin tərtib olunmasını, onların siniflərə hər dəfə daşınmasını, zaman keçdikcə sıradan çıxaraq yararsız vəziyyətə düşməsini deyil, QGİS və yaxud istənilən CİS proqramını açmaqla orada yadda

saxlanılmış xəritəni istifadə edə biləcəklərini öyrənmiş olurlar və həm də özləri də asanlıqla xəritə yaratmaq bacarıqlarına yiyələnirlər. Şagirdlər keçmişdə yaradılmış xəritələrlə indi müasir texnologiyalarla yaradılan xəritələri açıq-aşkar müqayisə edə bilir və onlarda tənqidi təfəkkürün inkişafına, müqayisə etmək bacarıqlarının və fikrini əsaslandırmaq kimi müsbət xüsusiyyətlərin yaranmasına səbəb olur.

Hazırki texnologiya və informasiya dövründə belə nəticəyə gəlinir ki, dünyanın bir çox ölkələrinin müəllimləri yüksək səviyyəli təhsil üçün informasiya texnologiyalarından istifadəni vacib sayırlar. Coğrafiya fənninin müasir metodlarla tədrisi üçün ən mükəmməl texnologiya Coğrafi İnformasiya Sistemləri (CİS) və onun proqram təminatlarıdır. Coğrafi biliklər artdıqca xəritələr təkmilləşdirilmiş və daha geniş ərazilər təsvir olunmuşdur, bu zaman xəritədə əks etdirilən məlumatlar da artmışdır. Toplanmış məlumatların çoxalması ilə eyni vaxtda yeni məzmunlu xəritələr də tərtib edilir, bir xəritədə verilən məlumatlar çoxalır. Ona görə də eyni bir ərazinin müxtəlif məzmunlu xəritələri hazırlanır [2, s.39].

CİS elə bir sistemdir ki, bu sistem vasitəsilə coğrafi biliklər proqram təminatı vasitəsilə şagirdlərə çatdırılır və şagirdlər özləri də proqram təminatı vasitəsilə müxtəlif fəaliyyətlər həyata keçirir, bununla da onlarda fənn üçün nəzərdə tutulmuş dövlət standartlarında qeyd olunan bacarıqlar formalaşmış olur. Yuxarıda göstərilən dərs nümunəsində bunu daha aydın başa düşmək mümkündür. Nümunədəki kimi çoxlu sayda coğrafi mövzular var ki, həmin mövzuların dərslərdə keçirilməsi zamanı CİS və onun proqram təminatından istifadə etməklə tədris edilə bilər. Bu metod şagirdlərdə əlaqələri görmək, sintez etmək, prinsipləri tətbiq etmək, nəticə çıxarmaq, alternativ yollar tapmaq, yeni biliklər kəşf etmək bacarıqlarını formalaşdırır, proqram dərsdə vizual görüntü yaradır, şagirdlərin xəritə biliyini genişləndirir, yaddaşlarında qalıcılıq yaradır, öyrənməyi əyləncəli hala gətirir, rəqəmsal verilənləri əldə etməyi, öyrənməni asanlaşdırır, yaradıcılığa sövq edir, tənqidi düşünməyi təmin edir, fərqli verilənlər arasında qarşılaşdırma etməyə şərait yaradır, dərsdə hər kəsin aktiv olmasına kömək edir, məkansal analiz etməni təmin edir, kompyuterdən istifadə etmək bacarığını formalaşdırır. Ən əsası isə onlarda peşə qabiliyyəti yaranır.

CİS-dən həmçinin fəal dərsin mərhələlərinin həyata keçirilməsində də istifadə oluna bilər. Məsələn, müəllimlərin motivasiyanı qurmasında, şagirdlərin iştirak etdiyi tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələlərində CİS-dən yararlanmaq olar.

CİS demək olar ki, dünyanın əksər ölkələrində, eləcə də Azərbaycanda çox önəmli peşə sahəsi kimi tanınır, dövlət orqanları və qurumlarda geniş istifadə edilir. Azərbaycanda isə orta məktəbdə CİS zəif keçirildiyindən (və ya

heç keçirilmədiyindən) şagirdlər belə bir tədqiqat sahəsinin olmasından, ətraf mühitdəki önəmindən xəbardar olmurlar.

Azərbaycanın orta məktəblərində CİS texnologiyalarından istifadə olunmur. Coğrafiya dərsliklərində nəzəri olaraq CİS haqqında ilkin məlumatlar verilsə də öyrənilənlərin praktiki olaraq tətbiqi həyata keçirilmir. Gələcəyin şəxsiyyətini, vətəndaşını yetişdirən məktəblərdə, müəssisələrdə dərsi bu cür, lazımi texnologiyarla təşkil etmək vacibdir, bununla da uşaqlar gələcəyin davamlı inkişafını təmin edə bilən dövrün əhəmiyyətli iştirakçılarına çevrilmiş olurlar. Lakin bir problem bu məsələni gündəmə gətirir. Məktəblərdə texniki avadanlıqlarla təminat aşağı səviyyədədir və müəllimlər öz dərslərini innovativ formada xüsusi GİS proqramlarını tətbiq edərək tədris edə bilmirlər. İlk öncə məktəblərin maddi-texniki təminat səviyyəsi ürəkaçan vəziyyətdə deyil. Bu günümüzün ən əsas problemidir. Bundan əlavə müəllimlərin texnikadan istifadə etmək vərdişlərinin olmaması, onu öyrənməyə şəraitin yoxluğu və yaxud da həvəs göstərməməsidir. Digər hal isə şagirdlərin texnologiya ilə işləmək bacarıqlarının olması üçün baza yoxdur. Tədrisdə istifadə üçün şagirdlərin kompüter, təkistifadəli planşet və sair ilə təmin edilməməsi GİS-in məktəbdə tətbiqini məhdudlaşdırır.

***Ədəbiyyat***

1. *https://gisgeography.com/what-is-gis/*
2. *https://e-derslik.edu.az/portal/book.php?id=238*
3. *https://youtu.be/1vxs9sClhtU?si=VANrfNIUn7QdJ-rc*
4. *Arif Mehdiyev, Amin İsmayılov, Coğrafiya İnformasiya Sistemləri, Bakı - 2011.*
5. *Apatova N.V. Məktəb təhsilində informasiya texnologiyaları. M., 1994.*
6. *Təhsil sistemində yeni pedaqoji və informasiya texnologiyaları / Ed. E.S. Polat və başqaları M.: Akademiya, 2000.*

**S.M.Haqverdiyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***samirhaqverdiyev013@gmail.com***

# TƏBİƏT MƏZMUN XƏTTİ FƏNNİNİN TƏDRİS OLUNMASINDA MÜŞAHİDƏLƏRİN APARILMASI VƏ ONLARA VERİLƏN ƏSAS TƏLƏBLƏR

***Xülasə***

*Məqalədə Təbiət fənninin tədris olunması zamanı ümumorta təhsil məktəb səviyyələri üzrə müşahidələrin aparılması imkanları və aparılmasına verilən tələblər üzrə əsas məsələlərə diqqət edilmişdir. Bunun üçün coğrafiya kurslarında "Təbiət məzmun xətti fənninin tədris olunmasında müşahidələrin aparılması imkanları və onlara verilən tələblər" mövzusu üzrə təhlil və tədqiqat aparılmış, şagirdlərin bu mövzu üzrə daha çox bilik və bacarıqlar əldə etməsi üçün müxtəlif üsul və vasitələrlə təhlilinin aparılması imkanı yaradılmışdır. Bu məqalə üzrə bilik və bacarıqların əldə olunması, fənnin tədrisi zamanı aktiv vasitə və ya metodlardan istifadə olunması, tədqiqat, problemli və evristik xarakterə malik testlərin təşkil edilməsi, hər hansı mövzu üzrə yaradıcı fəaliyyətin yerinə yetirilməsi zamanı ən əlverişli həll yollarının tapılması və sairə kimi məsələlərə toxunulmuşdur.*

# ПРОВЕДЕНИЕ НАБЛЮДЕНИЙ ПРИ ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «ЛИНИЯ ПРИРОДНОГО СОДЕРЖАНИЯ» И ОСНОВНЫЕ ПРЕДЪЯВЛЯЕМЫЕ ТРЕБОВАНИЯ К НИМ

***Резюме***

*В статье уделено внимание основным вопросам, касающимся возможностей и требований к проведению наблюдений на ступенях общеобразовательной школы при преподавании природы. Для этого в курсах географии был проведен анализ и исследование по теме «Возможности проведения наблюдений при преподавании предмета содержательной линии природы и требования, предъявляемые к ним» и создана возможность проводить анализ различными методами и средствами. для того, чтобы студенты приобрели больше знаний и навыков по этой теме. В данной статье затронуты приобретение знаний и умений, использование активных средств или методов при преподавании предмета, организация исследований, проблемных и эвристических тестов, нахождение наиболее выгодных решений при выполнении творческой деятельности по какому-либо предмету, и так далее.*

# CONDUCT OF OBSERVATIONS IN THE TEACHING OF THE CONTENT LINE OF NATURE AND THE MAIN REQUIREMENTS GIVEN TO THEM

***Summary***

*In the article, attention is paid to the main issues related to opportunities and requirements for conducting observations at the levels of the general education school when teaching nature. For this purpose, in the courses of geography, an analysis and research was conducted on the topic "Observations possibilities when teaching the subject of the content line of nature and the requirements presented to them" and an opportunity was created to conduct the analysis by various methods and means. in order for students to acquire more knowledge and skills on this topic. This article deals with the acquisition of knowledge and skills, the use of active means or methods when teaching a subject, the organization of research, problem and heuristic tests, finding the most beneficial solutions when performing creative activities on any subject, and so on.*

***Açar sözlər:*** *təbiət məzmun xətti, müşahidə, coğrafiya, tapşırıq və məsələlər, əlverişli həll yolları, həll metodikası*

***Ключевые слова:*** *линия содержания природы, наблюдение, география, задачи и проблемы, удобные решения, методология решения*

***Key words:*** *nature content line, observation, geography, tasks and issues, convenient solutions, solution methodology*

Elmi məqalənin əsas məqsədi ümumtəhsil orta məktəblərdə ***Təbiət məzmun xəttini*** öyrənən zaman coğrafi müşahidələrin aparılması metodikası və aparılmasına verilən tələbləri müəyyən etməkdir.

Bu səbəblə, tərəfimizdən aşağıdakı məsələlərin həlli nəzərdə tutulmuşdur:

1. Məktəblərdə “Təbiət” məzmun xətti fənninin tədrisində müşahidələrin aparılması imkanları və əsasları;
2. Müşahidələrin aparılması metodikası və müşahidələrin aparılması üzrə şagirdlərə optimal şəraitin yaradılması.

**Müşahidə -** müstəqil surətdə bilik və bacarıq əldə etmək məqsədilə müəllimlərin şagirdlərə tapşırdığı, yaxud da şagirdlər tərəfindən yerinə yetirilən prosesdir. Müşahidə aparılan zaman müvafiq obyektlərin seçilməsi prosesi baş verir.

Nəzərə çatdırmalıyıq ki, şagirdlər bəzi hallarda əldə olunmuş bilikləri heç də asan mənimsəyə bilmirlər. Bu səbəbdən coğrafiya fənninin tədrisi zamanı müxtəlif müşahidə növlərinin təşkilinə ehtiyac duyulur. Məktəblilər təbiətdə baş vermiş hadisə və proseslərin baş vermə səbəb və nəticələri, eyni

zamanda onların mahiyyətini sərbəst şəkildə başa düşmək üçün müşahidələr aparırlar. Müşahidə zamanı şagirdlərdə bir neçə spesifik xüsusiyyətlər meydana gəlir. Bunlara yaradıcılıq qabiliyyətləri, diqqətcil olmaq və s. kimi xüsusiyyətlər daxil edilir [6].

Qısaca desək, bu fənn üzrə müşahidələrin aparılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu müşahidələrin aparılması isə öz növbəsində məktəblilərdə böyük marağa səbəb olmuşdur. Həmçinin bunun vasitəsilə şagirdlər təbiəti dərk etmə bacarığına da malik olurlar. Çünki, fənn müşahidələrinin aparılması ilə şagirdlərdə təbiətə qarşı qayğıkeş və sevgi dolu münasibət bəsləməyi öyrədir. Eyni zamanda müşahidələrin həyata keçirilməsi şagirdlərin dünyagörüşünün artmasına səbəb olacaqdır. Bu cür müşahidələrin təşkili isə həmçinin coğrafi təsəvvürlərinin formalaşmasına gətirib çıxarır.

Müşahidələr coğrafiya fənninə aid hesab olunur. Ancaq bunu da qeyd etməliyik ki, coğrafiya fənninin tədrisi zamanı müşahidələrin aparılması imkanları genişləndirilməlidir. Müşahidələrin təşkil edilməsi sinif səviyyələri üzrə hər zaman təkmilləşdirilməlidir. Müşahidələrin aparılması şagirdlərdə idrak və təfəkkür qabiliyyətinin genişlənməsinə, həmçinin bilik və bacarıqlarının qazanılmasına kömək edir. Məktəb səviyyəsində müşahidələrin təşkil olunmasında coğrafiya kabinetləri əsas rol oynayır. Bu kabinetlər hər zaman şagirdlərin diqqətini çəkir. Çünki şagirdlər uşaq olduqları üçün yalnız maraq göstərdikləri zaman nəyəsə can atır. Buna görə də məktəblərdə şagirdlərin müşahidələri daha istəkli, daha həvəsli aparmaları üçün coğrafiya kabinetləri yaradılır. Müəllimlər şagirdlərin diqqətini çəkmək üçün coğrafiya kabinetləri təşkil edib sinifdə yeni coğrafi mühit yaradırlar. Bu mühit isə öz növbəsində şagirdlərin əhval-ruhiyyələrinə müsbət təsir göstərəcəkdir.

***Müşahidə*** dedikdə, təbii hadisələrə müdaxilə olunmadan baş verən hadisə və proseslərin izlənilməsi üsulu başa düşülür. Təbii hadisələr arasındakı qarşılıqlı əlaqə və qanunauyğunluqların aşkara çıxarılması isə coğrafi müşahidələrin əsas məqsədi hesab olunur. Məktəblərdə şagirdlər tərəfindən müşahidələrin aparılması üçün bir sıra cihazlardan istifadə olunur. Bunlara termometr, nivelir, kompas, barometr və s. aiddir. Müşahidə aparılan zaman şagirdlər əldə olunan bilikləri qeyd edirlər. Onlar torpaq, çay, hava, meşə və s. üzərində müxtəlif müşahidə aparmaqla keçirilmiş mövzuları mənimsəyə bilirlər.

Bundan əlavə şagirdlərin müşahidə apara bilmələri üçün coğrafiya meydançaları yaradılmışdır. Onlar coğrafiya meydançalarında dərs vaxtı və eynilə dərsdən sonra müşahidə apara bilərlər.

Müşahidələr şagirdlərin bilik və bacarıqlarının formalaşmasında əsas rol oynayır. Müşahidələr növünə görə bölünür:




**Sutkalıq** müşahidələr adətən, ekskursiyalarda aparılır. **Mütəmadi** müşahidələr adından da göründüyü kimi, mütəmadi olaraq təşkil olunur. **Uzunmüddətli** müşahidələrə isə hava üzərindən səma cisimlərinin izlənilməsi və s. kimi müşahidələr aid edilir.




***Dərs vaxtı*** aparılan müşahidələrə şagirdlər dərsdə olduğu zaman aparılan müşahidələr aiddir. Məsələn, bura şagirdlərin pəncərədən havanın buludlu və ya küləkli olmasını izlədikləri müşahidələr aid edilir. **Dərsdən sonra** aparılan müşahidələr isə şagirdlərin müəllimlərin rəhbərliyi altında coğrafiya meydançalarında müşahidə apara bildikləri kimi eyni zamanda ev şəraitində aparılan müşahidələr də bura aiddir. Qısaca desək, şagirdlər dərsə getdikləri zaman bu tip müşahidələri apara bilərlər [2].



Yuxarıda əks etdirilmiş cədvəldə təşkil etmə baxımından müşahidələr üç qrupa ayrılır:

- Fərdi: Yalnız bir fərd arasında aparılır.
- Birgə: Şagirdlər kiçik qruplar və s. şəklində müşahidə aparırlar.
- Frontal: Bütün sinif şagirdləri üzrə aparılır.

Şagirdlər hava üzərində müşahidəni fərdi qaydada, yaxud frontal və kollektiv şəkildə apara bilərlər. Müşahidələrin həyata keçirilməsi üzrə qarşıya bir sıra məqsəd və vəzifələr qoyulmuşdur. Onlara aşağıdakılar aid edilir:

1. Əvvəlcə müşahidə aparmaq üçün obyektlər seçilir;
2. Müşahidə olunacaq obyektlərin əsas xüsusiyyətləri aşkar edilir;
3. Müşahidə zamanı əsas faktlar qeyd edilir;
4. Əldə olunan məlumatlar ümumiləşdirilir;
5. Aparılan müşahidələrdən yekun nəticələr çıxarılır.

Şagirdlər bu prosesləri tamamlamaqla müşahidə zamanı mövzunun mahiyyətini anlaya bilirlər. Coğrafiya fənninin tədrisinin ilk mərhələsi zamanı fenoloji və meteoroloji müşahidələr həyata keçirilir [3]. Qeyd edək ki, hələ aşağı sinifdən şagirdlərdə coğrafi biliklərin formalaşması üçün həyat bilgisi fənni keçilir. Ancaq ibtidai sinif mərhələsindən sonra təbiət elmləri tədris edilir.

Şagirdlər müşahidəni sərbəst surətdə həyata keçirərək mövzunu asanlıqla mənimsəyə bilirlər. Onlar müxtəlif cihaz və avadanlıqlardan istifadə edərək müşahidə aparırlar. Əsasən istifadə edilən cihazlar bunlardır: termometr, barometr, hoqrometr, flüger və s.


**Barometr**



**Hiqrometr**



**Termometr**

Müşahidələrin səmərəli aparılması müəllimlərin proqramlarına əsasən təşkil olunur [4]. Əldə olunan nəticələr cədvəl və ya qrafik formalarda da təsvir edilə bilər. Eyni zamanda şagirdlər müşahidə aparmaqla bir sıra suala cavab tapmış olur:

1. Hansı ünsürlər hava şəraitinin dəyişilməsinə təsir edə bilər?
2. Hansı ünsürlər buludluluğa təsir edə bilər?
3. Yağıntılar əsasən hansı aylarda düşür?

4. Yağıntı və temperatur üzrə göstəricilər necədir?
5. Müşahidə aparılan zaman hansı nəticəyə gəlmək olar?

Hava üzərində aparılan müşahidələr hava ünsürləri arasındakı əlaqələri müəyyən edən formulların yaradılmasıyla nəticələnir. Müşahidələr müəyyən sistem əsasında həyata keçirilir. Bu metodika məktəblilərin ibtidai sinifdən başlayaraq sərbəst şəkildə müşahidələrinin aparılması və eyni zamanda bilik və bacarıqlara yiyələnə bilmələrinə əlverişli şərait yaradır. Bundan əlavə, hava üzərində aparılan müşahidələrin ən sonuncu mərhələsində onun elementləri arasında qarşılıqlı əlaqə eyni zamanda səbəb və nəticə əlaqələri aşkar edilərək müxtəlif tipli formullar yaradılır [1] .

Ümumiyyətlə, il ərzində hava üzərində frontal müşahidələrin aparılması yerinə yetirilməsi olduqca çətindir. Bu müşahidə növünün həyata keçirilməsinin müsbət cəhəti odur ki, üç yaxud dörd həftə müddətə malikdir. Məktəblilər bu zaman ərzində hava üzərində aparılan müşahidələrin bütün yollarına yiyələnirlər.

Hava haqqında dolğun və dəqiq müşahidələr aparmaq üçün cədvəl və ya qrafiklər tərtib olunur. Bu cədvəllərdə qeydlər aparılır. Hava üzərində aparılan müşahidələr zamanı tərtib edilən həmin cədvəl belədir [1]:

| **Tarix** | **Tempera-tur t °C** | **Təzyiq** | **Yağın-tı növü** | **Bulud-luluq və növü** | **Havanın təsvir edilməsi** | **Küləyin əsas istiqamə ti** |
|---|---|---|---|---|---|---|
| 11.10 | 16°C | 760mm | leysan | - | Yağmur-lu, güclü küləkli | Cənub-şərq |

Fenoloji müşahidələrin öyrənilməsi məqsədilə müəllimlər tərəfindən ardıcıl qaydada və eyni zamanda sistematik olaraq müşahidələr təşkil edilməlidir. Bundan əlavə, müşahidələr aparan zaman qeyd dəftərində qeydlər aparılmalıdır. Müşahidə zamanı təkcə yaddaşa arxalanmaq düzgün deyil. Bəzən bu səhvliklərin yaranması və müşahidə məlumatlarının düzgün olmaması ilə nəticələnə bilər. Şagirdlər dəftərdə qeyd etdikləri məlumatları sonradan müşahidə jurnalına köçürə bilərlər.

Ümumiyyətlə, şagirdlər müşahidələr aparmaqla təbiət elmləri haqqında ətraflı məlumat əldə edir, müxtəlif bilik və bacarıqlara yiyələnirlər. Şagirdlər təkcə hava üzərində deyil, eləcə də, müxtəlif komponentlər üzrə də müşahidələr apara bilərlər [7]. Bu müşahidələr içərisindən çaylar üzərində aparılan müşahidələri vurğulaya bilərik. Çaylar üzərində aparılan müşahidələr əsasən hidroloji xarakter daşıyır. Şagirdlər müşahidə zamanı çaylar haqqında bilik və

bacarıqlara yiyələnirlər. Bundan əlavə, onlar çayların hidroloji xüsusiyyətləri barədə də bilik əldə edirlər. Adətən, ekskursiya zamanı çayların müşahidəsini aparmaq mümkündür [7].

Müşahidələr təbiətdə aparılmaqla yanaşı, eyni zamanda istehsalatda da aparıla bilər [5]. Şagirdlər dərslərdə, ekskursiyalarda, coğrafiya meydançaları və coğrafiya kabinetlərində müşahidələr apararaq müxtəlif bilik və bacarıqlara yiyələnə bilərlər. Bu zaman onlar əldə etdikləri nəticələri təhlil edib, sistemləşdirərək ümumi nəticəyə gəlib çıxırlar. Qısaca desək, müşahidə təbiətdə baş verən hadisə və proseslərin məqsədyönlü olaraq qavrama prosesi hesab edilir. Ancaq təbiətdə baş verən hadisə və prosesləri təkcə müşahidə aparmaqla tədqiq etmək doğru deyil.

Coğrafi müşahidələr bir sıra xüsusiyyətlərə malikdir. Onlar öz növbəsində kompleks xarakter daşımaqla, şagirdlərin təbiət haqqında bilik və bacarıqları mənimsəyə bilmələrinə şərait yaradır.

Bu məqalə təhsilalanların təbiət məzmun xəttinin tədris olunması üzrə coğrafi müşahidələr apara bilmələri üçün faydalı material olacaqdır.

***Ədəbiyyat***

1. *A.Y.Bibik. "Orta məktəblərdə coğrafiya təliminin metodikası". Bakı - 1973. 301 s.*
2. *Ə.Z.Safullin. "Orta məktəblərdə coğrafi diyarşünaslıq". Moskva, "Ekskursiya işinin təşkili". Moskva - 1979, 234 s.*
3. *Finarov D.P. "Məktəbdə coğrafiyanın tədrisi metodikası". Moskva - 2007, 273 s.*
4. *Məktəblərdə turist, diyarşünaslıq və ekskursiya işləri üzrə təşkilatçılara metodik göstərişlər. Bakı - 1984. 120 s.*
5. https://www/bibliofond.ru
6. https://www.prezident.az
7. https://www.muallim.edu.az

**R.Ə.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***osmanova.remziye@gmail.com***

# DİYARŞÜNASLIQ MATERİALLARINDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN BİLİK KEYFİYYƏTİNİN ARTIRILMASI

***Xülasə***

*Bu məqalədə məktəblərdə coğrafiya fənninin tədrisi zamanı doğma diyarın öyrənilməsinin əhəmiyyətindən, həmçinin, diyarşünaslıq materiallarından nə dərəcədə istifadə olunmalıdır və şagirdlərin nə kimi fəaliyyətlərlə məşğul olması haqqında bəhs olunur. Bu materialların öyrənilməsi yolları, şagirdlərə verilən praktiki işlər qeyd olunmuşdur. Bu məqaləni yazmaqda əsas məqsədlərimdən biri coğrafiya dərslərində diyarşünaslıq materiallarından istifadəni ön plana çəkməkdən ibarətdir.*

# ПОВЫШЕНИЕ КАЧЕСТВА ЗНАНИЙ СТУДЕНТОВ ЗА СЧЕТ ИСПОЛЬЗОВАНИЯ МАТЕРИАЛОВ КРАЕВЕДЕНИЯ

***Резюме***

*В данной статье говорится о важности изучения родины при преподавании географии в школах, а также о том, в какой степени следует использовать краеведческие материалы и какой деятельностью следует заниматься учащимся. Были отмечены способы изучения этих материалов, практические задания, даваемые студентам. Одной из моих главных целей при написании этой статьи было подчеркнуть использование краеведческих материалов на уроках географии.*

# IMPROVİNG THE QUALİTY OF STUDENTS' KNOWLEDGE BY USİNG MATERİALS OF LOCAL STUDİES

***Summary***

*This article talks about the importance of studying the Motherland when teaching geography in schools, as well as the extent to which historical materials are used and what activities students are involved in. Methods for studying these materials and practical tasks that are given to students are indicated. One of my main goals in writing this article was to highlight the use of history materials in geography lessons.*

***Açar sözləri:*** *coğrafiya meydançası, coğrafiya kabineti, zəlzələ, torpaq nümunələri, çay, maket nümunələri, dövlət diyarşünaslığı, ictimai diyarşünaslıq, məktəb diyarşünaslıq, coğrafiya axşamları*

***Ключевые слова:*** *поле географии, кабинет географии, землетрясение, образцы почвы, река, модельные образцы, государственная география, общественная география, школьная география, вечера географии*

***Key words:*** *field of geography, cabinet of geography, earthquake, patterns of soil, river, model samples, state geography, public geography, school geography, evening geography*

Diyarşünaslıq nədir? sualı verilərkən, biz bu suala belə cavab verməliyik.

Dünyabəyim Əfəndiyeva ona belə tərif vermişdi: Diyarşünaslıq dar mənada elmi coğrafiyanın sahəsi olub, kiçik bir ərazinin fiziki-coğrafi və ya kompleks coğrafi xarakteristikasını yaratmaqla məşğuldur. Geniş mənada isə bir hərəkatdır. Bu hərəkatda həm elmi Diyarşünaslığın materiallarından, həm də digər mənbələrdən toplanan materiallardan istifadə olunur. Bu hərəkatda başlıca məqsəd isə doğma yurdu daha dərindən dərk etmək, geniş kütlələrin vətənpərvərlik duyğularını, doğma yurdun sərvətinə qayğı ilə yanaşmaq, mühafizə etmək, artırmaq meylini gücləndirməkdir [1, səh. 6-7].

Diyarşünaslıq materiallarını qruplaşdırarkən 3 qrupa bölürlər:

**Dövlət diyarşünaslığı.** Dövlət diyarşünaslığının əsas məqsədlərindən biri şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşdırılmasından ibarətdir. Yeni nəslə öz diyarını sevmək, onun sərvətlərinə və faydalı qazıntılarına sahib çıxmağı aşılamaqdır. Təhsil Nazirliyinə tabe olan Turistlər və Diyarşünaslıq mərkəzi gənclərin bu yöndə daha da faydalanmağı üçün böyük imkanlar yaradıb. Mərkəzdə müxtəlif yöndə fəaliyyətlərdən ibarət tədbirlər həyata keçirilir və gənc nəslin bura marağının artmasına səbəb olur. Həmçinin mərkəzdə müxtəlif debat klubları təşkil olunur və coğrafiya gecələri, sərgilər keçirilir. Məqsəd də yuxarıda qeyd etdiyim kimi cəmiyyətdən vətənini, xalqını sevən, ona hörmət edən, milli əhvali-ruhiyyədə istedadlı gənclər yetişdirməkdir.

**İctimai diyarşünaslıq.** Burada əhalinin bütün təbəqələrinin kollektiv tədbirlərdə yaxından iştirak etməsi, şagirdlərin və tələbələrin yaşadıqları ərazinin dərk edilməsi ön planda durur.

Dərslərdə doğma diyarın öyrənilməsi olduqca əhəmiyyətlidir, bu dərslər tədris olunarkən ekoloji cəhətdən oranı qorumaq, tullantılardan təmizləmək və meşə ehtiyatlarının qırılmasının qarşısını almağı təbliğ etmək lazımdır. Tez-tez təbiətdə təmizlik işlərinin aparılmasında və ağacların əkilməsində şagirdlər iştirak etməlidir. Çünki şagird və tələbələr ilk öncə öz diyarını sevməli onu qorumalıdır ki, daha sonra digər ərazilərə hörmətlə yanaşsın.

Dünyanın bir çox ölkələrində şagirdlərin mənəvi cəhətdən yetişdirilməsinə önəm verilir. Onlara insani keyfiyyətlərin daha vacib olduğu öyrədilir.

Dərsin keyfiyyətinin artırılması məqsədilə məktəblərdə fakültativ məşğələlər, dərsdən sonra dərnəklər, şagirdləri müxtəlif ərazilərə ekskursiyalara aparmaqla bu ərazilərdən toplanan müxtəlif növ materiallar dərs zamanı tətbiq olunur. Bunlar Diyarşünaslıq materialları adlanır və dərsin keyfiyyətini və dərs prosesinin yüksək və səmərəli keçməsinə şərait yaradır.

Məktəblərdə bu materialların bütün siniflərdə olması coğrafiya dərsləri zamanı şagirdlərin bu vasitələrlə dərsi daha yaxşı mənimsəməsinə xidmət edir. Həmçinin təhsilalanların müstəqil işləmə bacarıqları aşılamaqla öz diyarlarını ətraflı tanıyırlar. Bu da onlarda respublikamıza qarşı məhəbbət hissləri formalaşdırmaqla yanaşı onların yaradıcılığını daha da artırır.

Təlim prosesinin faydalılıq əmsalını yüksəltmək məqsədilə müxtəlif metodlardan istifadə olunur. Bunlar içərisində ən effektiv şagird kollektivinin həm sinif daxilində, həm də sinifdənkənar ərazilərdə praktiki işlər tapşırılmasıdır. Əyani vasitələrlə təmin olunmasını qeyd edərkən isə elektron lövhələrdə şəkil və videoçarxların təqdim olunması, müxtəlif növ maketlərin hazırlanması: bunlara vulkan maketi, Günəş və ona daxil olan planetlər sistemi, çay sisteminin maketini aid etmək olar. Bundan başqa xəritələr toplusu, müxtəlif növ diaqramlar, qlobus modelləri və s. aiddir.

Coğrafiya axşamları - məktəblilərin coğrafi bilik və bacarıqlarının genişləndirilməsinə xidmət edir və Diyarşünaslıq elm sahəsinin yaxından tanımağa imkan verir. Nəticə olaraq, gənc nəsilə müsbət enerji, əməksevərlik, vətənə qayğı, məhəbbət, çətin vəziyyətdə bir-birinə dayaq olma hissləri aşılayır. Coğrafiya axşamı keçirilmədən öncə,xəbərdarlıq məqsədi ilə elan asılır, qonaqların siyahısı tutulur, və onları dəvət etmək üçün məktublar göndərilir.Tədbirə təcrübəli illərin coğrafiya müəllimləri, müharibə veteranları, qazilər və məktəbə mütamadi gələn valideynlər dəvət olunur.Bununla bərabər məktəbin müəllim kollektividə bu gecədə iştirak edir.

S.Məcidov coğrafiya dərslərinin tədrisinin əhəmiyyətindən bəhs edərkən, ekskursiyaların təşkil edilməsinin olduqca əhəmiyyətli olduğunu qeyd etmişdir. O kitabında ekskursiyaya hazırlıq mərhələsi, onun planlaşdırılması və həyata keçirilməsi məsələlərindən danışır [2, səh. 18-28].

Coğrafiya dərslərinin öyrənilməsində olduqca əhəmiyyətli və əvəzolunmazdır. Nəzəriyyəni öyrənərkən praktikaya tətbiq etmək biliklərin möhkəmləndirilməsinin əsasıdır. Praktiki işlər şagirdlərə müşahidə qabiliyyəti, müstəqil işləmə bacarıqları, yaradıcı tətbiqetmə qabiliyyəti aşılayır.

Coğrafiyanın bir çox bölmələri üzrə praktiki işlər aparmaq olar. Bir sıra praktiki işlərə nəzər salaq.

Fiziki coğrafiyada demək olar ki, bütün mövzularda praktiki işlər aparmaq olar. Mövzu götürülərkən relyef, faydalı qazıntılar, iqlim göstəriciləri, atmosfer prosesləri, torpağın xüsusiyyətləri və bitki heyvanlar aləmi əsas götürülür. Eyni zamanda praktiki işlərdən istifadə zamanı təbiəti mühafizə, zibillik ərazilərin təmizlənməsi, meşə ehtiyatlarından düzgün istifadə ön plana çəkilməlidir.

✓ Metereoloji bölmə üzrə praktik işlər kimi qar örtüyünün qalınlığının ölçülməsi, üfüqdə günəşin hündürlüyünə dair müşahidələrin işlənməsi, hava üzərində müşahidə materiallarının işlənməsi, temperatur gedişinə dair qrafiklərin tərtibi, yağıntı və buludluluq diaqramları, külək günləri, küləyin gücü və sürətinin ölçülməsi, gün və ay ərzində havanın təsviri, mövsümlük, keçən ilin həmin dövrünün havası ilə müqayisə, havanın rütubət göstəriciləri, buludluluğun növü və hərəkəti işlərini göstərmək olar. Bunun üçün təkcə müşahidə kifayət deyil, həm də bu və ya digər dəyişikliklərlə, məsələn, havanın təsiri ilə dəyişiklikləri qeydə almaq və izah etmək lazımdır.

✓ Hidroqrafik bölmə üzrə praktik işlər kimi Azərbaycan xəritəsi üzrə yaşadığınız məntəqədən ən yaxın dənizə qədər olan məsafənin təyini və həmin su obyektinin öyrənilməsi, diyarda mövcud olan yerli su obyektlərindəki temperatur və buz rejiminin həmçinin suyun səviyyə tərəddüdünün öyrənilməsi, ərazidə mövcud olan çay sisteminin öyrənilməsi (qolları, əhəmiyyəti, rejimi, istifadəsi), həmçinin diyarda olan artezian hövzələrinin su anbar və kanallarının, kəhrizlərin, bulaqların müşahidəsinə nümunə göstərmək olar.

✓ İqtisadi coğrafiya bölməsi üzrə aparılan praktik işlərə diyarın iqtisadi coğrafi cəhətdən öyrənilməsini nümunə kimi göstərə bilərik. Buraya təsərrüfatın ümumi səciyyəsi, kənd təsərrüfatı, sənaye və yaxud nəqliyyatın müəyyən ərazi üçün statistik göstəriciləri aiddir. Eyni zamanda yerli ərazidə hər hansı bir müəssisənin öyrənilməsini də praktik iş kimi nəzərdən keçirmək olar. Bu müəssisədə istehsal olunan məhsulun, göndəricələk ərazilərin, işçi bazasının göstəriciləri iqtisadi mövqedən qiymətləndirilə bilər. Bu tip sahələrə təşkil olunan ekskursiyalar diyarın iqtisadi cəhətdən öyrənilməsi üçün olduqca faydalıdır.

Ümumiyyətlə, dərs prosesində keyfiyyətin artırılması məqsədilə bir neçə mövzuda ətraf ərazinin öyrənilməsinə nəzər yetirək.

- çaylar mövzusu tədris olunarkən nəzəri cəhətdən izah olunan mövzu təhsilalan şagirdin yaddaşında bir müddətlik qala bilər, lakin əyaniliklə çay və onun elementlərini gördükdə uzun müddət çay haqqında təsəvvürlər formalaşdıracaqdır. Bunun üçün təhsil müəssisəsinə ən yaxında yerləşən çay ərazisinə şagirdləri apararaq onların əyani şəkildə çay üzərində müşahidə aparmasına şərait yaratmaq olar.

Müəllim əvvəlcədən şagirdləri qruplara bölərək onlara tapşırıqlar verə bilər.

1-ci qrupa: Çayın axım sürəti və dərinliyini ölçməyi tapşırıq verir.

2-ci qrupa: Çayın gətirmə konusu haqqında məlumat toplamaq tapşırılır.

3-cü qrupa: Çayda eroziya varmı, səbəbləri haqqında məlumat toplamaq tapşırılır.

4-cü qrupa: Çayın təsərrüfat əhəmiyyəti varmı və nədən ibarətdir?

Ola bilsin ki, yaşadığı əraziyə yaxın çay şəbəkəsi olmasın bu zaman rəhbərliyin razılığı ilə daha uzaq məsafədə olan çay sisteminə ekskursiya təşkil olunmalıdır. Müəllim burada çayın bütün elementlərini birbaşa göstərməklə yanaşı ölçmə işlərinin sadə yollarla necə etmək olduğunu da izah edir. İlk öncə çayın dərinliyini ölçmək üçün bir neçə metr uzunluğunda çubuq parçasını götürərək başına ip bağlamaq lazımdır. Daha sonra körpü üzərində dayanaraq çubuğu çaya endiririk. Çubuq dibə dəydikdə onu çıxarırıq, metrə vasitəsilə çubuğun islanan hissəsini ölçürük, bu da təxmini çayın dərinliyi olur. Bu kimi nümunələr əsasında şagirdlərə verilən tapşırıqlara cavab tapmağa da kömək etmiş olur.

- Materiklər və okeanlar mövzusu tədris olunarkən müəllim tərəfindən müxtəlif növ atlaslardan istifadə oluna bilər. Şagird əvvəlcədən xəritəni daha yaxşı mənimsədikdə boş atlas üzərində müəllimin tapşırdığı obyektləri asanlıqla qeyd edə bilər.
- Planalma mövzusu keçirilərkən təhsilalana kitabda olan planalma mövzusu tədris olunmalı, növləri, istifadə olunan alətlər haqqında məlumat verilməlidir. Daha sonra şagirdlərin hər birinin rahatlıqla tapa biləcəyi xətkeş, kompas, karandaş vasitəsilə istənilən ərazinin plana alınması yolları izah olunur. Daha sonra şagirdlər bu bilikləri möhkəmləndirmək məqsədilə cütlər şəklində müxtəlif ərazilərin planını özləri alırlar. Praktiki işlər şagirdlərin gündəlik həyatında da olduqca əhəmiyyətlidir.
- Torpaqlar mövzusunda müxtəlif torpaq nümunələri əsasında dərsi qurmaq daha məqsədəuyğundur. Əgər torpaq nümunələri yoxdursa, ən sadə formada torpağı bir neçə metr qazaraq qatlarını əyani şəkildə tələbə və şagirdlərə nümayiş etdirmək olar.

Dərslərdə doğma diyarın öyrənilməsi olduqca əhəmiyyətlidir, bu dərslər tədris olunarkən ekoloji cəhətdən oranı qorumaq, tullantılardan təmizləmək və meşə ehtiyatlarının qırılmasının qarşısını almağı təbliğ etmək lazımdır. Çünki şagird və tələbələr ilk öncə öz diyarını sevməli, onu qorumalıdır ki, daha sonra digər ərazilərə hörmətlə yanaşsın.

Günümüzdə dünyanın müxtəlif əraziləri təbii fəlakətlərlə üz üzədir. Bu hadisələr nəticəsində bəzən bir xalq, bir ölkə yer üzərindən silinə bilər. Törətdiyi maddi və mənəvi fəsadlar uzun zaman bərpa olunmur. Bu proseslər

hər bir xalqın başına gələ bilər. Dövlətlərin tez-tez rastlaşdığı zəlzələ, sel daşqınları güclü fəlakətlər törədir. Yaxın zamanda Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində minlərlə insan həlak olmuş şəhər tamamilə dağılmışdır. Bu hadisələr bir daha göstərir ki, məktəblərdə təbii fəlakətlər haqqında geniş məlumat verilməli, şagirdlərə bu hadisələr zamanı qorunmağın yolları öyrədilməlidir.

Çox təəssüf ki, məktəblərin çoxu coğrafiya kabineti və meydançası ilə təmin olunmamışdır. Arzuolunandır ki, coğrafiya dərsləri kabinetdə və meydançada keçirilsin. Bu halda müəllim ilin müxtəlif fəslindən asılı olmayaraq şagirdlərə tapşırıqlar verərək dərsin praktik cəhətdən qurulmasına imkan yaradar.

***Ədəbiyyat***

1. *Dünyabəyim Əfəndiyeva, Dürdanə Ələsgərova – Diyarşünaslıq. Bakı – 2014.*
2. *Məcidov S. Coğrafiya üzrə ekskursiyaların keçirilməsi metodikası. Bakı – 1958.*

**Ç.F.Osmanova**
**Bakı Dövlət Universiteti**
***cinareosmanova5@gmail.com***

# AZƏRBAYCAN TUNC DÖVRÜNDƏ

***Xülasə***

*Tunc dövrü bəşər tarixinin salnamələrində texnologiya, mədəniyyət və ictimai strukturlarda əhəmiyyətli irəliləyişlərlə yadda qalan transformasiya dövrü idi. Tunc metallurgiyasının meydana çıxması təkcə alətlərin və silahların istehsalında inqilab yaratmadı, həm də iqtisadi və mədəni inkişafa təkan verdi.*

*Məqalədə Azərbaycan ərazisində Tunc dövrü mədəniyyətinin tədqiqindən söz açılır, əkinçilik və maldarlıq kimi təsərrüfat sahələri ilə yanaşı, sənətkarlığın yüksəlişindən, qonşu tayfalarla iqtisadi-mədəni əlaqələrin inkişafından bəhs olunur.*

# АЗЕРБАЙДЖАН В БРОНЗОВОМ ВЕКЕ

***Резюме***

*Бронзовый век был периодом трансформации в анналах человеческой истории, отмеченным значительными достижениями в области технологий, культуры и социальных структур. Появление бронзовой металлургии не только произвело революцию в производстве инструментов и оружия, но и стимулировало экономическое и культурное развитие.*

*В статье упоминается изучение культуры бронзового века на территории Азербайджана, наряду с такими экономическими областями, как земледелие и животноводство, обсуждаются возникновение ремесел и развитие экономических и культурных связей с соседними племенами.*

# AZERBAIJAN IN THE BRONZE AGE

***Summary***

*The Bronze Age was a period of transformation in the annals of human history, marked by significant advances in technology, culture, and social structures. The emergence of bronze metallurgy not only revolutionized the production of tools and weapons, but also spurred economic and cultural development.*

*The article mentions the study of the Bronze Age culture in the territory of Azerbaijan, along with economic fields such as agriculture and animal husbandry, the rise of crafts and the development of economic and cultural relations with neighboring tribes are discussed.*

***Açar sözlər:*** *Tunc dövrü, Azərbaycan ərazisi, əkinçilik, maldarlıq, iqtisadi-mədəni əlaqələr*

***Ключевые слова:*** *бронзовый век, территория Азербайджана, сельское хозяйство, животноводство, экономические и культурные связи*

***Key words:*** *Bronze Age, territory of Azerbaijan, agriculture, livestock, economic and cultural relations*

Eramızdan əvvəl IV minilliyin ikinci yarısında meydana çıxan Tunc dövrünün erkən mərhələsində Azərbaycan və Cənubi Qafqaz ərazisində yaşayan tayfaların sosial-iqtisadi və mədəni həyatında mühüm irəliləyişlər baş verdi. Xüsusilə, əkinçilik və heyvandarlıq sahələrinin çiçəklənməsi nəticəsində yeni yaşayış məskənləri yarandı. Yerli materiallardan istifadə etməklə ilkin "metallurgiya" meydana çıxdı və tunc məmulatlarının istehsalı nəzərə çarpacaq dərəcədə genişləndi. İlk dəfə olaraq misin tərkibinə mərgümüş və digər aşqarlar qatılmaqla tunc əldə edildi. Əkinçilik və heyvandarlıqdakı tərəqqi əhalinin artmasına və patriarxal ictimai quruluşun möhkəmlənməsinə kömək etdi. Qəbilə başçıları hakimiyyət və mülkiyyət üzərində nəzarəti ələ keçirmək haqqında düşündülər ki, bu da sinfi parçalanmaların dərinləşməsinə şərait yaratdı.

Tunc dövrü ərzində Azərbaycanda bir neçə yeni yaşayış məskənləri, o cümlədən Qobustan, Qaraköpəktəpə, Günəştəpə, Çardaxlıtəpə, Mişarçay, Qəflə təpələri, Sərkərtəpə, Şortəpə, II Kültəpə və digər yaşayış məskənləri yarandı. Zaman keçdikcə bu yaşayış məntəqələri qoruyucu istehkamlarla əhatə olundu [4, s.209].

Tunc dövründə Azərbaycan əhalisinin fəaliyyətində əkinçilik əsas rol oynamışdır. Yerli sakinlər buğda, arpa, darı, kətan və noxud kimi məhsullar becərirdilər. Əkin üçün toxum seleksiyasının inkişafı bu dövrün təcrübələrində əhəmiyyətli irəliləyiş idi. Məhsulu yığmaq üçün tunc və obsidian (dəvəgözü) dişli oraqlardan istifadə olunurdu. Maraqlıdır ki, Kür-Araz mədəniyyətinə mənsub tayfalar torpağı şumlamaq üçün iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə edirdilər [6, s.4].

Qəbilələrin dağınıqlığına səbəb olan həlledici amil mal-qaranın sayının artması və əmək məhsuldarlığının yüksəlməsi hesabına məskunlaşmış əhalinin genişlənməsi idi. Maldar tayfalar daha çox dinamizm nümayiş etdirdilər və onları əkinçiliklə məşğul olan həmkarlarından fərqləndirən həyat tərzini mənimsədilər.

Kür-Araz mədəniyyətinin sonrakı mərhələlərində - Orta Tunc dövrünün əvvəllərində maldar tayfalar yüksək mövqe tutmuşlar. Bu dəyişiklik, ənənəvi əkinçilik təcrübələrinin saxlanması ilə birlikdə, yarımköçəri maldarlığın yaranmasına, metal emalı təcrübəsinin artmasına, Mesopotamiya, Kiçik və Ön Asiya şəhər sivilizasiyaları ilə daha sıx əlaqələrə təkan verdi. Bu inkişaflar istehsal imkanlarını əhəmiyyətli dərəcədə gücləndirdi ki, nəticədə əhəmiyyətli məhsul artıqlığı yarandı, sosial iyerarxiyalar dərinləşdi və bölgədə yaşayan tayfaların iqtisadi, siyasi və mənəvi aspektlərində nəzərə çarpacaq dəyişikliklər oldu [3, s.97].

Erkən Tunc dövrünə aid evlər, adətən dairəvi planda olub, divarları daş bünövrələr üzərində çiy kərpicdən tikilib. Bəzi bölgələrdə insanlar ağac çubuqlarından hörülmüş daxmalarda, suvaqlı tikililərdə və yarı yeraltı yaşayış evlərində yaşayırdılar. Dini mərasimlər üçün ibadətgahlar da tikirdilər. Qeyd edək ki, Xaçmaz rayonu ərazisində yerləşən Sərkərtərə abidəsində ibadətgahla yanaşı, suvaq və əhənglə ağardılmış böyük dairəvi ibadət evi də aşkar edilib [8,s.118-119]. Oxşar ibadət ocaqlarına Qazax rayonunun Babadərviş və Naxçıvan yaxınlığındakı Kültəpə abidələrində də rast gəlmək olar.

Tunc dövrünün ilkin mərhələlərində əkinçilik və heyvandarlıq xeyli inkişaf etmişdir. Bu dövrdə toxa əkinçiliyi öz yerini xış əkinçiliyinə verdi. Əkin sahələri genişləndi, süni suvarma sistemləri tətbiq olundu, məhsuldarlıq yüksəldi. Şumlama üçün qoşqu heyvanlarından istifadə olunurdu. Biçin, xırman və taxıl üyüdülməsi üçün daha mükəmməl alətlər hazırlanırdı. Tunc oraqlar taxıl biçini üçün buynuz üzərində quraşdırılmış oraqları əvəz edirdi [2, s.87-103].

Əsas inkişaf ilk ictimai əmək bölgüsü nəticəsində heyvandarlığın əkinçilikdən ayrılması idi. Bu dəyişiklik qoyun, keçi və at kimi əhliləşdirilmiş heyvanların növlərinin və sayının əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Nəticədə yeni bir təcrübə, köçəri (yaylaq) maldarlığı yarandı. Mal-qara yaz-yay aylarında dağ çəmənliklərində otarılır, payızda havaların soyuması ilə əlaqədar qışlaqlara qayıdırdı. Heyvandarlıqdakı sürətli artım bu geniş iqtisadi sahələrin bir-birindən ayrılmasını, bunun tarixdə ən erkən əmək bölgülərindən biri olduğunu göstərir. Maldarlığa diqqət yetirən tayfalar daha əlverişli şəraitə görə əkinçi həmkarlarına nisbətən daha sürətlə sərvət toplayırdılar.

Azərbaycanda sənətkarlıq Erkən Tunc dövründə inkişaf etmişdir. Əhali müxtəlif sənətkarlıqla, o cümlədən dulusçuluq, metal emalı, toxuculuqla məşğul olurdu. Xüsusilə, dulusçuluq əhəmiyyətli dərəcədə irəlilədi, müxtəlif çeşidli saxsı məmulatları yaradıldı, onların formasına və bədii tərtibatına xüsusi diqqət yetirildi. Bu əşyalar müxtəlif məqsədlərə xidmət edirdi. Tunc alətlərin və əşyaların keyfiyyəti nəzərə çarpacaq dərəcədə yaxşılaşdı. Arxeoloji qazıntılar zamanı metal ərintilərinin tökülməsində istifadə olunan qəliblər və metal emalı sənəti ilə bağlı müxtəlif tunc əşyalar aşkar edilmişdir [5, s.31-55].

Tuncdan alətlər, silahlar, muncuq və bilərziklər kimi bəzək əşyaları, iynə, bıçaq kimi məişət əşyaları hazırlamaq üçün də istifadə olunurdu. Bəzi sənətkarlar hətta qızılla işləyirdilər. Tunc ön plana çıxsa da, daş və sümük alətlər ev təsərrüfatlarında və əkinçilik təcrübələrində faydalı olmağa davam edirdi. Bundan əlavə, qoyunçuluğun genişlənməsi toxuculuğun inkişafına səbəb oldu.

Bu dövrə aid arxeoloji materiallar əhalinin əhəmiyyətli artımını, geniş qəbilə ittifaqlarının formalaşmasını, mürəkkəb daxili qəbilə münasibətlərini və artan hərbi münaqişələri diqqətimizə çatdırır. Heyvandarlıqla məşğul olan

tayfalar yeni ərazilərdə məskunlaşdıqca, həm Azərbaycan ərazisində, həm də bütün Cənubi Qafqazda yaşayış məntəqələrinin və möhkəmləndirilmiş qalaların sayı çoxalmağa başlayır [6, s.4].

Kür-Araz ərazilərindən tapılan çoxsaylı artefaktlar, xüsusən silindrik çıxıntılı və içi boş qapaqlı vaza formalı qablar Kür-Araz mədəniyyəti tayfalarının qədim Mesopotamiya ilə əlaqələrinin olduğunu deməyə əsas verir. Bu qablar, ehtimal ki, qədim şumer nümunələri ilə analoqlar əsasında hazırlanmışdır. Şübhəsiz ki, bu ticarət əlaqələri qarşılıqlı idi və hər iki tərəfə fayda verirdi. Məsələn, Naxçıvan yaxınlığında yerləşən I Kültəpə qədim yaşayış yerində arxaik oraq və dördbucaqlı nizə ucunun tapılması belə əşyaların iqtisadi-mədəni əlaqələr zəminində meydana çıxmasından, həmçinin Azərbaycan ərazisindən qonşu rayonlara da yayılmasından xəbər verir. Eynilə, baltaların tökülməsi üçün istifadə olunan ikitaylı gil qəliblərin tədqiqi oxşar fikirləri verir. Kür-Araz ərazilərində Mesopotamiyadan gətirildiyi məlum olan mavi rəngli şirli pasta muncuqların olması Yaxın Şərq və Ön Asiya ilə əlaqələri daha da əsaslandırır. Babək rayonu ərazisində, Yuxarı Uzunoba və Didivar kəndləri arasında yerləşən II Kültəpə də buna əsasdır.

İctimai binaların içərisində, xüsusilə tayfanın mərkəzi toplanma yeri kimi xidmət edən XI tikinti qatında öküz başını xatırladan sobalar aşkar edilmişdir [10, s.34-35]. Abidədə dördbucaqlı planlı ziyarətgahda öküz başlarına bənzəyən ibadət obyektləri, xüsusən də dairəvi ocağın yanında öküz kultu ilə bağlı ayinlərin yerinə yetirildiyini göstərən ibadət obyektləri aşkar olunmuşdur. Gil qablardakı yarımşar formalı qulplar praktiki, dekorativ və ritual əhəmiyyətə malikdir və potensial olaraq qoruyucu funksiya daşıyır [7,s.124-128]. Maraqlıdır ki, Kür-Araz mədəniyyətinin ilkin mərhələsində öküz başı formalı ocaqlar daha canlı, sonrakı mərhələdə isə daha sxematik forma almışdır. Bu transformasiya həmçinin Kür-Araz mədəniyyətinin üçüncü mərhələsində xırdabuynuzlu heyvanların getdikcə daha çox yayılmasının təsiri ilə gil qabların qulplarının dizaynında da özünü göstərir. Bu dövrdə gil qablar üzərində xırdabuynuzlu heyvan təsvirləri daha geniş yer alır.

Kür-Araz mədəniyyəti tayfaları arasında nalşəkilli sobalar pərəstiş obyekti kimi xüsusi əhəmiyyət kəsb edirdi. Xüsusilə, II Kültəpədə aşkar edilən bu ocaq qurğularının mərkəzi hissəsində insan başlarının təsvirləri əks olunub. Bu ocaq qurğuları oturmuş insan fiqurlarına bənzədilib. Onların ocağın mühafizəçisi olduğu təsiri yaranır. Bu cür ocaq qurğularına dövrün yaşayış yerlərinin hər birində rast gəlinməsi [9, s.134-135,155,157,210] icma daxilində ümumi inamın olduğunu göstərir ki, bu da hər evdə icma ziyarətgahları ilə yanaşı, bərəkət Allahına sitayiş edilməsinə işarədir. Belə dua mərasimləri çox güman ki, xüsusi rituallarla müşayiət olunurdu. Duaların məzmunu çox güman ki, ocağın və onun qəyyumunun qorunub saxlanması, ailənin rifahının təmin edilməsi ilə bağlı olmuşdur.

Gil qablar üzərində tapılan müəyyən təsvirlər, şübhəsiz ki, insanların dini inanclarını əks etdirir. Təkrarlanan spiral və aypara motivləri Kür-Araz tayfaları arasında astral inancların geniş yayıldığını göstərir. Tədqiqatçıların fikrincə, aypara təsvirləri Tanrının insanlığa bağlılığını göstərməklə patriarxal münasibətlərin mövcudluğunu təsdiq edir [1, s.117-119].

Tədqiqatlar əvvəlki Eneolit dövrü ilə müqayisədə bu dövrdə dəfn proseslərində dəyişiklik olduğunu da təsdiq edir. Artıq dəfnlər yaşayış evlərindən kənarda aparılırdı ki, bu da əvvəlki adətlərdən nəzərə çarpacaq dərəcədə uzaqlaşmanın əlamətidir.

## Nəticə

Eramızdan əvvəl IV-II minilliklərdə Azərbaycan ərazisində mövcud olmuş Tunc dövrünün tədqiqi bizi zəngin tariximizin, mədəniyyətimizin, ulu keçmişimizin valehedici səyahətinə aparır. Bu əlamətdar dövrün tədqiqini yekunlaşdırdıqca aydın olur ki, Azərbaycanda Tunc dövrü köklü transformasiya və əhəmiyyət kəsb edən dövr olmuşdur.

Bununla belə, Azərbaycanda Tunc dövrü təkcə maddi tərəqqi ilə müəyyən edilməmişdir. Bu, inam sistemlərinin təkamül etdiyi və mənəvi təcrübələrin meydana çıxdığı bir dövr idi. Bu mənəvi cəhətlər bu dövrdə iman və gündəlik həyatın mürəkkəb qarşılıqlı əlaqəsinə işıq salır.

***Ədəbiyyat***


1. *Baxşəliyev V., "Azərbaycan Arxeologiyası", Bakı - Elm nəşriyyatı, 2006, s.117-119.*
2. *Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, Azərnəşr, 1960, 238 s.*
3. *Əliyev İ., "Azərbaycan tarixi ən qədimdən bizim eranın III əsri", Bakı - Elm nəşriyyatı, 2007, 97 səh.*
4. *Əzizov K., "Naxçıvanın ilk tunc dövrü arxeoloji abidələrin öyrənilmə tarixi" məqalə, Tarix və onun problemləri, N-4, 2011.*
5. *Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı, İşıq, 1986, 186 səh.*
6. *Kərimov E., "Tunc dövründə" məqalə, Ədalət, 2010.*
7. *Quliyeva Z., "Naxçıvanın erkən tunc dövrü mədəniyyətinin mənşəyi və xronologiyası", məqalə, «Xəbərlər» - İctimai və humanitar elmlər seriyası.- 2009.-№1. s.124-128.*
8. *Мусаев Д.Л. Серкертепе поселение эпохи ранней бронзы. ММНК «Археология и этнография Кавказа», Баку, 2000, с.118-119.*
9. *Seyidov A., Baxşəliyev V., Məmmədov S., Səfərov A. Qədim Şərur. Bakı, Nurlan, 2012, 466 səh.*
10. *Сеидов А. Раннебронзовая культура Нахчывана. Воронеж, ВГУ, 2002, 200 стр.*

**N.H.Məsiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***masiyeva1999@mail.ru***

# İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİNDƏ MULTİKULTURAL YANAŞMALAR

***Xülasə***

*Məqalədə insan resurslarının multikultural idarə edilməsi fəaliyyətləri və problemlərindən danışılır. Məqalə müəllifi qeyd edir ki, hazırda multikultural mühit müasir dünyanın təbii bir xüsusiyyətinə çevrilib. Qloballaşma insanların hərəkətini stimullaşdıraraq dövlətlərin fiziki sərhədlərini açaraq, eləcə də yüksək informasiya texnologiyalarının inkişafı sayəsində virtual sərhədlərin açılmasına səbəb olub. Müxtəlif yerlərdə yaşayan insanların idarəedilməsi və ünsiyyəti üçün real imkanlar yarandığından idarəetmə texnologiyaları uyğunlaşma və çevikliyə doğru dəyişərək insanların multikultural idarə edilməsi proseslərində yeni faktlar, yeni strategiyalar meydana çıxarmışdır. Belə ki, insan resurslarının idarə edilməsində multikultural fəaliyyətlər ilk növbədə iş yerində müxtəlifliyi və inklüzivliyi inkişaf etdirmək üçün vacibdir. Belə bir idarəetmə təşkilatlara müxtəlif mədəni mənşəli işçilərin inkişaf və səmərəli əməkdaşlıq edə bildiyi, həmçinin unikal perspektiv və istedadlarına töhfə verə biləcəyi bir mühit yaratmağa kömək edir. İnsan resursları idarəçiliyində əsas multikultural fəaliyyətlər və təcrübələri nəzərdən keçirilmiş, müəllif ilk növbədə insan resurslarının idarə edilməsində fəaliyyətin mədəni maarifləndirmə təlimi ilə bağlı olduğu qənaətinə gəlmişdir.*

# МУЛЬТИКУЛЬТУРНЫЕ ПОДХОДЫ В УПРАВЛЕНИИ ЧЕЛОВЕЧЕСКИМ РЕСУРСОМ

***Резюме***

*В статье говорится о деятельности и проблемах поликультурного управления человеческими ресурсами. Автор статьи отмечает, что мультикультурная среда стала естественной особенностью современного мира. Глобализация привела к открытию физических границ государств за счет стимулирования передвижения людей, а также к открытию виртуальных границ за счет развития передовых информационных технологий. Поскольку возникли реальные возможности управления и общения людей, живущих в разных местах, технологии управления изменились в сторону адаптации и гибкости, а в процессах мультикультурного управления людьми появились новые факты и новые стратегии. Таким образом, мультикультурная деятельность в управлении человеческими ресурсами прежде всего важна для содействия многообразию и инклюзивности на рабочем месте. Такое управление помогает организациям создать среду, в которой сотрудники разных культур могут процветать и эффективно сотрудничать, а также делиться своими*

*уникальными взглядами и талантами. Были рассмотрены основные мультикультурные виды деятельности и практики управления человеческими ресурсами, и автор пришел к выводу, что деятельность в области управления человеческими ресурсами в первую очередь связана с обучением культурной осведомленности.*

# MULTICULTURAL APPROACHES IN HUMAN RESOURCE MANAGEMENT

***Summary***

*The article talks about activities and problems of multicultural management of human resources. The author of the article notes that the multicultural environment has become a natural feature of the modern world. Globalization has led to the opening of physical borders of states by stimulating the movement of people, as well as the opening of virtual borders through the development of advanced information technologies. Since real opportunities for management and communication of people living in different places have arisen, management technologies have changed towards adaptation and flexibility, and new facts and new strategies have emerged in the processes of multicultural management of people. Thus, multicultural activities in human resource management are primarily important for promoting diversity and inclusion in the workplace. Such management helps organizations create an environment where employees from diverse cultural backgrounds can thrive and collaborate effectively, as well as contribute their unique perspectives and talents. The main multicultural activities and practices in human resources management were reviewed, and the author came to the conclusion that the activities in human resources management are primarily related to cultural awareness training.*

***Açar sözlər:*** *insan resursları, idarəetmə, multikultural dəyərlər, insan resursları siyasəti, milli müxtəliflik və fərqlilik, tolerantlıq*

***Ключевые слова:*** *человеческие ресурсы, менеджмент, мультикультурные ценности, человеческие ресурсы, национальное разнообразие и различия, толерантность*

***Key words:*** *human resources, management, multicultural values, human resources policy, national diversity and difference, tolerance*

Müasir dünyanın bugünkü vəziyyəti “qlobal düşün, yerli olaraq hərəkət et” ideyasının tətbiqindən keçir. Belə ki, texnologiyaların yüksək inkişafı sayəsində bir kənd halına gələn və az qala bir ovuc içində yerləşən dünyanın elə bir hissəsini, elə bir ölkəsi və ya təşkilatını tapmaq olmaz ki, orada eyni nümayəndələrin olduğu bir cəmiyyəti təsəvvür etmək mümkün olsun. Hazırda multikultural mühit müasir dünyanın təbii bir xüsusiyyətinə çevrilib. Qloballaşma insanların hərəkətini stimullaşdıraraq dövlətlərin fiziki sərhədlərini açdı, eləcə də yüksək informasiya texnologiyalarının inkişafı

sayəsində virtual sərhədlərin açılması səbəbindən müxtəlif yerlərdə yaşayan insanların idarəedilməsi və ünsiyyəti üçün real imkanlar yarandı, idarəetmə texnologiyaları uyğunlaşma və çevikliyə doğru dəyişərək insanların multikultural idarə edilməsi proseslərində yeni faktlar, yeni strategiyaların meydana çıxmasına səbəb oldu [3, s.215]. Belə ki, insan resurslarının idarə edilməsində multikultural fəaliyyətlər ilk növbədə iş yerində müxtəlifliyi və inkluzivliyi inkişaf etdirmək üçün vacibdir. Belə bir idarəetmə təşkilatlara müxtəlif mədəni mənşəli işçilərin inkişaf və səmərəli əməkdaşlıq edə bildiyi, həmçinin unikal perspektiv və istedadlarına töhfə verə biləcəyi bir mühit yaratmağa kömək edir. İnsan resursları idarəçiliyində əsas multikultural fəaliyyətlər və təcrübələri nəzərdən keçirsək, ilk növbədə fəaliyyətin mədəni maarifləndirmə təlimi ilə bağlı olduğu qənaətinə gələrik. İşçilər arasında müxtəlif mədəniyyətlər, onların dəyərləri və ünsiyyət üslubları haqqında məlumatlılığı artırmaq üçün multikultural təlimlərin keçirilməsi insan resurslarının multikultural dəyərlər istiqamətində idarə edilməsinin vacib tərəfi kimi başa düşülməlidir. Çünki bu fəaliyyət mədəni anlaşılmazlıqları azaltmağa və tolerantlığı təşviq etməyə kömək edir. Maarifləndirmə təlimi müxtəliflik və inkluzivlik seminarları ilə davam etdirilərsə, işçilərlə komanda işini və innovasiyanı artırmaq üçün mədəni fərqlilikləri qiymətləndirməyi və onlardan istifadə etməyi öyrətmək işi xeyli asanlaşar. Burada İşçi Resurs Qrupları (İRQ)-komandalar yaratmaq faydalıdır və təşkilat daxilində müxtəlif mədəni və ya yaxınlıq qrupları üçün İRQ-lərin formalaşması bu qruplar vasitəsilə işçilərə öz təcrübələrini bölüşmək, mədəniyyətlərini qeyd etmək, müxtəliflik və inkluzivliyi, tolerantlığı müdafiə etmək üçün platforma yaratmaq deməkdir. Tolerantlıq müxtəlifliyin harmoniyasıdır və yalnız mənəvi öhdəlik deyil, həmçinin siyasi və hüquqi məcburiyyətdir [5, s.235]. Multikultural idarəetmə komandalarının yaradılması müxtəlif mənşəli işçiləri əməkdaşlığa və bir-birini daha yaxşı tanımağa təşviq edən komanda quruculuğu olaraq öz fəaliyyətlərini mədəni maneələri aradan qaldırmaq və birlik hissini gücləndirərək mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşdırılmasında mühüm addımdır.

İnsan resurslarının multikultural idarə edilməsi fəaliyyətləri sırasında işə qəbul və bu zaman inkluzivliyin qorunması probleminin həlli mühüm yer tutur.

İnkluziv işə qəbul prosesində müxtəlifliyi təşviq edən təcrübələri həyata keçirmək üçün məsələn, görmə əlilliyi olan, yaxud eşitmə əlilliyi olan insanların CV-lərinin nəzərdən keçirilməsi, yaxud müxtəlif müsahibə panelləri və kifayət qədər təmsil olunmayan icmalarla əlaqələrin qurulması, əlil arabaları ilə hərəkət edən insanlara iş mühitinin yaradılması kimi problemlərin həlli vacib şərtlərdəndir. Həmçinin dini yaşayış yerləri, bayramlar və ailə strukturları da daxil olmaqla müxtəlif mədəni ehtiyacları əhatə etmək üçün İR

siyasətlərini və faydalarını nəzərdən keçirmək, dil maneələrinin işçilər üçün ünsiyyətə və ya imkanlara mane olmaması üçün dil təlimi və ya tərcümə xidmətləri təklif etmək, mədəni bacarıqların qiymətləndirilməsi məqsədilə işçilərin mədəni səriştəsini ölçmək, böyümə və inkişaf naminə rəy bildirmək üçün qiymətləndirmələrdən istifadə etmək, karyera inkişafı və irəliləyişini dəstəkləmək üçün müxtəlif mədəniyyətlərdən olan işçiləri birləşdirən mentorluq və sponsorluq proqramları yaratmaq, tətbiq etmək insan resurlarının idarə edilməsində istifadə olunan multikultural fəaliyyətlər olmaqla yanaşı, problemlərin həlli imkanlarını təmin etməkdir.

İnsan resurslarının idarəedilməsində multikultural fəaliyyətlər və problemlərin həlli istiqamətində görülən işlər sırasında mədəni şənliklərin tanınması fəaliyyəti mühüm rola malikdir və bu ünsiyyət üçün vacibdir. Ulu öndər Heydər Əliyev Novruz bayramı ilə əlaqədar demişdir: “Novruz bizim ümummilli bayramımızdır. Mən hesab edirəm ki, indi artıq müstəqil Azərbaycan üçün bu bayramdan əziz bayram ola bilməz”. Bütün bunlar bir daha təsdiq edir ki, yüz illər boyu yüksək mənəvi-əxlaqi və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycanda ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcuddur [1, s.72]. Təşkilat daxilində mədəni bayramları, tədbirləri və ənənələri qeyd etmək müxtəlif fərqlilikləri olan insanları - işçiləri mədəni təcrübələrini həmkarları ilə bölüşməyə həvəsləndirir və qarşılıqlı hörmət və inam yaradır. Məsələn, dünya hər il Yeni ilin gəlişini bayram edir və burada dini, irqi, sosial mənsubiyyətlər unudulur. Eləcə də, qeyd edək, Novruz bayramını. Türk xalqlarına məxsus bu bayram dünyanın bir çox ölkələrində qeyd edilir.

İnsan resurslarının multikultural dəyərlər istiqamətində idarəedilməsində diqqət edilməli vacib məqam münaqişələrin həlli üzrə aparılan işlərdir. Mədəni fərqləri nəzərə alan münaqişələrin həlli istiqamətində təlimlərin keçirilməsi işçilərə münaqişələri mədəni cəhətdən həssas şəkildə həll etməyə kömək edir.

Münaqişələrin müxtəliflik içərisində həllinə kömək edən vasitələrdən biri daimi əlaqə və sorğuların keçirilməsidir. Bu fəaliyyətə işçilərin təcrübələrini və daxil olma hisslərini ölçmək üçün onlardan rəy toplanması, lazımi təkmilləşdirmələr etmək üçün bu məlumatdan istifadə edilməsidir. Bu proses idarəetmədə bərabər imkanlar və ayrı-seçkiliyə qarşı siyasətlər həyata keçirməkdə idarəçilərə yol göstərir. Bu multikultural fəaliyyətləri həyata keçirməklə insan resursları müxtəlifliyin nəinki tanındığı, həm də qeyd edildiyi daha inkluziv iş yeri yarada bilər ki, bu da işçilərin məmnunluğunun, innovasiyanın və təşkilati uğurun artmasına gətirib çıxarır.

İnsan resurslarının multikultural idarə edilməsi prosesinin müəyyən çətinlikləri, problemləri var və insan resurslarının idarə edilməsində

multikultural problemləri müxtəlif işçi qüvvəsinin idarə edilməsi ilə bağlı çətinliklər səbəbindən yarana bilər. Müxtəliflik bir çox fayda gətirə bilsə də, İR mütəxəssislərinin həll etməli olduğu xüsusi problemlər də təqdim edə bilər. İnsan resurslarının idarə edilməsi dörd taktiki funksiyaya malikdir: kadr, təlim və inkişaf, həvəsləndirmənin idarə edilməsi və texniki xidmət [3, s.215]. Araşdırmalar bu istiqamətdə bəzi problemləri müəyyən etmişdir və bunlardan bəzilərinə nəzər salaq:

- Mədəni anlaşılmazlıqlar;
- Ayrı-seçkilik və qərəz;
- Dil maneələri;
- Stereotip və qərəz;
- Dəyişikliyə müqavimət;
- Mədəni toqquşmalar;
- Saxlanma problemləri;
- Müxtəliflik yorğunluğu;
- Nümayəndəliyin olmaması;
- Hüquqi uyğunluq;
- Mədəni şənliklərin idarə edilməsi;
- Təlim və inkişaf boşluqları;
- Mədəniyyətlərarası münaqişələrin həlli;
- Fərqli iş etikası və gözləntilər.

İnsan resurslarının idarə edilməsi təcrübəsi göstərir ki, multikultural fəaliyyətlər heç də problemlərsiz ötüşmür və mədəni normalar, dəyərlər və ünsiyyət tərzlərindəki fərqlər işçilər arasında anlaşılmazlıqlara və münaqişələrə səbəb olması normal haldır. Müxtəliflik və inkluzivlik səylərinə baxmayaraq, iş yerlərində ayrı-seçkilik və qərəzlilik həmişə baş verə bilər. İdarəçilər bu cür problemlərin operativ və effektiv həllində ayıq olmalı, hər an alternativ yollar tapmalıdırlar. Nəzərə alsaq ki, bu istiqamətdə elə ilk növbədə dil fərqləri effektiv ünsiyyətə mane ola bilər, çaşqınlıq yarada bilər və təşkilatın hakim dilini bilməyən işçilər üçün imkanları məhdudlaşdıra bilər. İdarəetmədə bu cəhətə ciddi fikir vermək və dil baryerlərini aradan qaldırmaq üçün ilk növbədə təlimlər təşkil etmək faydalıdır.

Mədəniyyətə əsaslanan stereotiplər və qərəzlər işə qəbul, yüksəliş və performansın qiymətləndirilməsi qərarlarına təsir göstərərək işçilərə qarşı ədalətsiz rəftara səbəb ola bilər. İdarəçilər bu zaman rəylərin alınmasına və dinləmə tədbirlərinə əl atmalıdırlar. Yalnız səbəbi müəyyən etdikdən sonra ədalətsizliyin aradan qaldırılmasına nail olmaq olar. Bu zaman idarəetmə elə həyata keçirilməlidir ki, fərqli mədəniyyət mənşəli işçilərin iş yerində onların mədəni gözləntilərinə uyğun gəlməyən dəyişikliklərə müqavimətinə düzgün reaksiya verə bilsinlər. Baş verən mədəni toqquşmalar işin xeyrinə həll olunsun. Fərqli mədəni normalar və təcrübələr, xüsusən də müxtəlif

komandalarda mədəni toqquşmalara səbəb ola bilər və bu fərqlilik mühitində qaçılmazdır. Deməli, İR idarəçiləri münaqişələri həll etmək və ahəngdar iş mühitini təmin etmək üçün insan resurslarının multikultural dəyərlər fonunda idarə edilməsinə nail ola bilsinlər. Həmçinin mədəni fərqlər işçilərin saxlanmasına da təsir göstərə bilər, çünki bəzi şəxslər iş yerində özünü kənarda və ya narahat hiss edə bilər. İR idarəçiləri müxtəlif istedadlar üçün saxlama strategiyalarına diqqət yetirməli, problemi həll etməlidirlər.

İnsan resurslarının multikultural idarə edilməsi fəaliyyətlərində müxtəlifliyə və inkluzivliyə həqiqi sadiqliyinin qorumasına diqqət edilməsi vacibdir. Bəzən elə olur ki, insanlar müxtəliflik və inkluzivlik məsələləri ilə həddindən artıq yüklənirlər və bu mənada özlərini yorulmuş hiss edirlər. İdarəçilər bunu qeyri-səmimi qəbul etməməlidirlər. Burada hüquqi uyğunluq-müxtəliflik, bərabər imkanlar və ayrı-seçkiliyə qarşı qanuni tələblər və qaydalar arasında naviqasiya İR mütəxəssisləri üçün mürəkkəb və çətin olsa, gözlənilməlidir. Xüsusən o zaman ki, müəyyən mədəni qruplar rəhbər vəzifələrdə qeyri-adekvat təmsil olunur və müxtəliflik səylərinə mane ola bilən bu vəziyyət işçilər arasında kifayət qədər təmsil olunma istəyi yarada bilər. Bu həssas bir məqamdır və idarəçilər bundan nəticə çıxarmalıdırlar. Bununla belə, multikulturalizmin imkanlarını tam şəkildə reallaşdırmaq üçün təşkilati qarşılıqlı fəaliyyət üçün elə şərait yaratmaq lazımdır ki, mövcud ziddiyyətlər çatışmazlıq kimi yox, üstünlüyü, “mülkiyyətçiliyin xüsusi resursu” kimi qəbul edilsin [4, s.66].

İnsan resurslarının multikultural idarə edilməsində Təlim və İnkişaf Boşluqlarının idarəedilməsi mühüm yer tutur. Fərqli mədəniyyət mənşəli işçilərin müxtəlif səviyyələrdə təlim və inkişaf imkanlarına çıxışı ola bilər ki, bu da bacarıq və inkişafda fərq yarada bilər. “Etnik qrupların nümayəndələri ümumi əhval-ruhiyyəyə və ölkənin dəyərlərinə uyğundurlarsa, yad görsənmirlər” [2, s.24].

Qeyd etdiyimiz fəaliyyətlər çərçivəsində insan resurslarının idarə edilməsində multikultural problemlərin həlli üçün İR mütəxəssislərindən müxtəliflik və inkluziv təşəbbüslərinə üstünlük vermək, işçilər üçün mədəni səriştə təhsili vermək və təlimlər təşkil etmək, aydın və ardıcıl siyasət həyata keçirərək açıq və inkluziv iş yeri mədəniyyəti formalaşdırmaq tələb olunur. Bu səylərin səmərəliliyinin müntəzəm olaraq qiymətləndirilməsi və lazımi düzəlişlərin edilməsi insan resurslarının idarə edilməsində və multikultural problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. Multikulturalizm hökumət siyasətləri, təhsil kurikulumları, iş yerlərində müxtəliflik proqramları və müxtəlif ənənələri və mənşəyi qeyd edən mədəni tədbirlər kimi müxtəlif yollarla özünü göstərə bilər. Bu, müxtəlif cəmiyyətlərin reallığına cavabdır və müxtəlif mədəni fonlardan olan insanların töhfələrindən faydalanan ahəngdar və inkluziv icmalar qurmaq məqsədi daşıyır. Multikulturalizm bir çox

ölkələrdə müzakirə mövzusu olmuşdur, çünki o, mədəni identikliklərin qorunub saxlanması ilə ortaq dəyərlərin və milli və ya icma identikliyi hissinin təşviqi ilə balanslaşdırmağı nəzərdə tutur.

***Ədəbiyyat***

1. *Əliyev H.Ə. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999, - 72 s.*
2. *Əhmədov E. Azərbaycanın daxili və xarici siyasətində multikultural və tolerant dəyərlər // "Geostrategiya" jurnalı, № 03(39) May-İyun 2017, s.24-27.*
3. *Lepak D.P., Scott A.S. Virtual HR: 21-ci əsrdə strateji insan resurslarının idarə edilməsi // İnsan Resurslarının İdarə Edilməsi İcmalı. 1998. Cild. 8. Iss. 3. s. 215-234.*
4. *Morqunova E.B. Kadrların idarə edilməsinin modelləri və metodları: Rus-Britaniya dərsliyi / Ed. - M.: "İntel-Sintez" biznes məktəbi, 2001. 66 s.*
5. *Nəcəfov Etibar. Multikulturalizm Azərbaycan Respublikasının daxili siyasətinin tərkib hissəsi kimi. Azərbaycan Multikulturalizmi. Dərslik. Bakı, 2017, səh. 235*
6. *Rzayeva Roida. Dəyişən dəyərlər və multikulturalizm. Azərbaycan multikulturalizmi Elmi toplu. Bakı, 2015, səh. 167-175.*

**S.Ə.Ramazanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sevda.ramazanova353@gmail.com***

# SOSİAL FENOMEN OLARAQ MÜNAQİŞƏLƏRİN İDARƏ OLUNMASI VƏ MÜNAQİŞƏŞÜNASLIQ BİR ELM KİMİ

***Xülasə***

*Məqalədə müasir dövrdə münaqişələrin idarəedilməsi prosesinin əhəmiyyətindən, münaqişələrin bir sosial fenomen olaraq idarəedilməsinin bəzi aspektlərindən, vacib xüsusiyyətlərindən, münaqişələrin həllində əsas prinsiplərdən münaqişənin böyüməsinin qarşısının alınmasının yollarından, münaqişəşünaslığın bir elm kimi münaqişələrin öyrənilməsi və anlaşılması üçün ciddi elmi metodların tətbiqinə, münaqişələrin qarşısının alınması və həlli üçün praktiki yanaşmaların işlənib hazırlanmasına yönəlmiş bir sahə olmasından danışılır. Məqalə müəllifi qeyd edir ki, münaqişəşünaslıq bir elm kimi münaqişələrin müxtəlif formalarda və miqyasda davam etdiyi və təkamül etdiyi bir dünyada sülhün və sabitliyin təşviqində mühüm rol oynayır.*

# УПРАВЛЕНИЕ КОНФЛИКТАМИ КАК СОЦИАЛЬНЫЙ ФЕНОМЕН И КОНФЛИКТ КАК НАУКА

***Резюме***

*В статье рассматривается значение процесса управления конфликтами в современное время, некоторые аспекты управления конфликтами как социального явления, его важные особенности, основные принципы разрешения конфликтов, способы предотвращения разрастания конфликта, конфликтология как наука, применение серьезных научных методов для изучения и понимания конфликтов, предотвращение и разрешение конфликтов считается областью, ориентированной на развитие практических подходов. Автор статьи отмечает, что конфликтология как наука играет важную роль в обеспечении мира и стабильности в мире, где конфликты продолжаются и развиваются в различных формах и масштабах.*

# CONFLICT MANAGEMENT AS A SOCIAL PHENOMENON AND CONFLICT AS A SCIENCE

***Summary***

*In the article, the importance of the process of conflict management in modern times, some aspects of conflict management as a social phenomenon, its important features, the main principles of conflict resolution, the ways to prevent the growth of conflict, conflict studies as a science, the application of serious scientific methods for*

*the study and understanding of conflicts, the prevention and resolution of conflicts it is said to be a field focused on the development of practical approaches. The author of the article notes that conflict studies as a science plays an important role in promoting peace and stability in a world where conflicts continue and evolve in various forms and scales.*

***Açar sözlər:*** *münaqişələrin strukturu, sosial fenomen, münaqişəşünaslıq elmi, şəxslərarası münaqişə, qrup münaqişəsi*

***Ключевые слова:*** *структура конфликтов, социальное явление, конфликтология, межличностный конфликт, группа конфликт*

***Key words:*** *structure of conflicts, social phenomenon, conflict science, interpersonal conflict, group conflict*

Zamanın müasir düzəni dünyanın 17 qlobal probleminin bir zəruri tələb olaraq bəşəriyyətin xeyrinə istiqamətləndirilməsinin həlləri yolunda mübarizə apararkən dünya liderləri problemlərin həllinin sülh yollarından yan keçərək zora, gücə, müharibələrə üstünlük verirlər. Rusiya-Ukrayna, İsrail-Fələstin qarşıdurması, Fransanın insanlığa qarşı müstəmləkəçilik siyasəti, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və onlarla insan amilindən törəyən münaqişələr [2] bəşəriyyəti faciələrə doğru aparmırmı? Bu gün texnologiyaların sürətli inkişafı, insan-texnoloji münasibətlərin gərginliyi, insan intellektinin süni intellektlə qarşı-qarşıya qaldığı dünya sferasında münaqişələrin həll problemləri də konfliktləri qaçılmaz hala gətirmişdir. Deməli, münaqişə insanların qarşılıqlı fəaliyyətinin təbii hissəsidir və o, müxtəlif şəraitlərdə, o cümlədən iş yerində, şəxsiyyətlərarası münasibətlərdə və icma şəraitlərində də yaranır. Sadəcə qalır münaqişələrin effektiv idarə edilməsi və sağlam münasibətlərin və məhsuldar mühitin qorunmasına insanın, xüsusən də idarəçilərin töhvə verməsi.

Araşdırmalar göstərir ki, münaqişələrin idarə olunması ilə bağlı məsələlər bir sıra dünya və ölkə alimlərinin əsərlərində vaxtaşırı olaraq tədqiq olunmuşdur. O cümlədən, Herbert Spenserin (1890-1903-cü illər) Sosiologiyanın prinsipləri, Vilhelm Vundtun (1832-1920-ci illər) Psixologiya oçerki, Georq Zimmelin (1858-1918-ci illər) Sosial differensasiya, Sosial-psixoloji araşdırmaları, Formal sosiologiya nəzəriyyəsi, Münaqişə sosiologiyası termini əsəri, Emil Dürkheymi (1858-1917-ci illər) Sosioloji metodlar qaydası, Maks Veberin (1864-1920-ci illər) "Başa düşülən" sosiologiya konsepsiyası, Ziqmund Freydin (1856-1939-cu illər) Kütlə psixologiyası və mən konsepsiyasının təhlili əsərləri, Karl Marksın Sosial determinizm konsepsiyası, Lyuis Kozerin Sosial konfliktin funksiyaları, sosial konfliktlərin araşdırılmasında cəmiyyətin rolu əsəri və s. alimlərin əsərlərində münaqişə problemləri geniş şəkildə təhlil olunmuşdur. Ölkəmizdə bu problemin həlli ilə A.N.Abbasbəyli, S.Z.Yusifzadə və başqalarının

konfliktologiyaya aid əsərlərində öz əksini tapmışdır. Bununla belə müasir dövrdə təşkilatların idarə olunmasında insan amilinin rolunun daima artmasını, udan və uduzan ideyasını [4] nəzərə alaraq bu problemin tədqiqinin daha da geniş şəkildə araşdırılmasının zəruriliyi mövcuddur. Bu baxımdan yanaşsaq, münaqişələrin idarəolunmasını fərdlər və ya qruplar arasında mübahisələrin və ya fikir ayrılıqlarının konstruktiv və effektiv şəkildə həlli prosesinə aid edə bilərik. Bu proses də özlüyündə münaqişələri idarə etmək üçün bəzi əsas prinsiplər və strategiyaları qarşıya qoyur. İnsanlar arasında münasibətlərin, ünsiyyətin, emosional səviyyənin, sosial bacarıqların ən çox formalaşdığı məkan təhsil sferasıdır və təhsilin bütün istiqamətlərində münaqişələrin idarəedilməsinin [1,2] bir sıra prinsipləri vardır:

Açıq ünsiyyət: Bu prinsip idarəetmədə fəal dinləmə və bir-birinin perspektivlərini başa düşmək üçün çox vacibdir və özlüyündə münaqişədə iştirak edən tərəflər arasında açıq və dürüst ünsiyyəti təşviq edir. Çünki dürüst ünsiyyət olmadan münaqişənin idarəedilməsi prosesinin baş verməsi uğurlu nəticəyə yol açmayacaq.

Təhsil sistemində münaqişələrin mənbəyini müəyyənləşdirmək də vacib sayılır. Bu, münaqişələrin əsas səbəblərinin üzə çıxarılmasıdır. Münaqişəyə səbəb olan məqsədlər, dəyərlər, resurslar və ya şəxsi məsələlərlə bağlı fikir ayrılıqlarının müəyyənləşməsi münaqişənin mənbəyini müəyyən etmək onu daha effektiv həll etmək deməkdir.

Münaqişələrin həllində əsas prinsiplərdən biri sakitliyin, emosional nəzarətin qorunması, münaqişənin böyüməsinin qarşısının alınmasıdır. Çünki emosional reaksiyalar vəziyyəti daha da ağırlaşdıra bilər. Müzakirəni davam etdirməzdən əvvəl səbrlənmək, lazım gələrsə, fasilə vermək, hətta bir müddət tək qalaraq düşünmək lazımdır. Bu ortaq zəmin axtarmaq anlamına gələ bilər. Həmçinin münaqişənin idarə olunmasında ümumi dil tapmaq danışıqlar və həll üçün əsas ola bilər. Əməkdaşlıq prinsipi münaqişələrin idarəolunmasına, problemin həllinə birgə yanaşmanı təşviq edir. Çünki münaqişədə insanların təfəkküründə qalib-məğlub ideyası güclüdür. Düzgün əməkdaşlıq isə qalib-uduzan zehniyyətindən çox, bütün tərəflərə fayda verən həllər tapmaq üçün birlikdə işləməyi nəzərdə tutur və təbii ki, bu zaman vasitəçilikdən istifadə də yaxşı nəticə verir. Doğrusu, münaqişəni təkbaşına idarə etmək çox çətin olduğu hallarda, ünsiyyət və danışıqları asanlaşdırmaq üçün neytral üçüncü tərəf ən yaxşı vasitəçidir.

Təhsil idarəçiləri hər gün iş rejimində münaqişəli hallarla rastlaşa biləcəkləri ehtimalına çox yaxın olduqlarından münaqişələrin idarə edilməsində münaqişənin idarə edilməsi prosesinin istənilən nəticəsini aydın şəkildə müəyyənləşdirməli, Beyin fırtınası edərək həll yollarını araşdırmalı, düşünülən hər bir variantın müsbət və mənfi tərəflərini qiymətləndirməlidir. Qiymətləndirmə idarəçilikdə Qətnamə ilə razılaşdırılır və münaqişənin həll

yolu baş verdikdən sonra bütün iştirakçı tərəflərin razılaşdırılması yolu ilə öhdəliklərin tətbiq etmə mərhələsi başlanır. Bu münaqişənin yenidən baş verməməsi üçün vacibdir.

Münaqişələr bütün sosial institutların, sosial qrupların fəaliyyətində, insanlar arasında qarşılıqlı münasibətlərdə meydana çıxır. Ona görə də müəssisə rəhbəri, hər bir mədəni insan münaqişələr haqqında adi təsəvvürlərə malik olmalıdır, onların baş verdiyi vaxtda davranış üsullarını bilməlidir [3]. Təhsil prosesində münaqişələrin idarə olunması, həmçinin münaqişədən öyrənməni də təmin edir. Hər hansı bir münaqişənin idarəçiliyinin həyata keçirilməsi münaqişədən böyümə və öyrənmə fürsəti kimi istifadə edilərək gələcəkdə oxşar problemlərin qarşısını almaq üçün münaqişəyə nəyin səbəb olduğunu və münaqişənin necə həll edildiyini təhlil etməyə imkan verir. Təhsildə Təlim və Təhsilin həyata keçirilməsi münaqişələrin həll edilməsinin ən faydalı prinsipi kimi, xüsusilə peşəkar şəraitdə fərdlərə və ya qruplara münaqişələrin həlli bacarıqları üzrə təlim və təhsil verməklə münaqişələrdən uzaq durmağın ən yaxşı yoludur:

Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhün xeyir olmuş, kinindən ziyan.

Təhsil idarəçilərinə məlumdur ki, münaqişələrin müxtəlif ölçülərini, strukturlarını başa düşmək münaqişələrin daha effektiv idarə olunmasına kömək edə bilər. Həmçinin münaqişələr özünəməxsus və çoxşaxəli sosial hadisədir. Münaqişələrin mahiyyətini anlamaq hər bir təhsil idarəçisi üçün vacibdir və münaqişələrin effektiv idarə edilməsi və həlli strategiyalarının həyata keçirilməsi təhsildə sabit və ədalətli sferanın qurulması və qorunması üçün faydalıdır. Münaqişələr həm pozucu, həm də dəyişdirici ola bilər və onların təsiri cəmiyyətin müxtəlif səviyyələrində necə idarə olunduğundan və həll olunduğundan asılıdır.

Bilirik ki, münaqişələr ümumi və geniş yayılmış sosial hadisədir və insanlar arasında qarşılıqlı əlaqədə və cəmiyyətlərdə mühüm rola malikdir. Bu mənada sosial fenomen kimi münaqişələrin bəzi əsas cəhətlərinə nəzər salsaq, Qaçılmazlıq, Müxtəliflik və Fərqlər, Dəyişikliklərə təkan, Güc dinamikası Sosial strukturlar, Həll mexanizmləri, Sosiallaşma və Normalar, Sosial Birlik, İqtisadi və Ekoloji Münaqişələr, Şəxsiyyət və Qrup Münaqişələri, Qlobal münaqişələr, münaqişələrin qarşısının alınması kimi istiqamətlərin təhsil idarəçiliyində nəzərə alınması bir daha göstərir ki, münaqişəşünaslıq artıq bir elm kimi tədqiq olunur. Münaqişəşünaslıq bir elmi fənn olaraq, münaqişələrin mahiyyəti, səbəbləri, mərhələləri və iştirakçılarının müəyyən edilməsi; münaqişəli vəziyyətlərin idarə olunması yollarının müəyyən edilməsi, üsullarının axtarılıb tapılması; münaqişələrin əsas formalarının tapılması, özünəməxsusluğunun müəyyən edilməsi məsələlərini öyrənir [5]. Həmçinin tez-tez münaqişələrin idarə edilməsi, münaqişələrin həlli, sülh və münaqişə

tədqiqatları və ya münaqişələrin idarə edilməsi kimi ifadələrin işlədilməsi, aparılan konflikt tədqiqatları həqiqətən qanuni və fənlərarası tədqiqat sahəsi hesab olunaraq münaqişəşünaslığı elm kimi tanıdır və konfliktlərin, onların səbəbləri, dinamikası və həlli yollarının sistemli şəkildə öyrənilməsinə diqqət yetirir. Təbii ki, münaqişəşünaslıq bir elmi sahə kimi konfliktşünaslığın bəzi əsas aspektlərini də meydana çıxarır. Tədqiqatçılar bunlardan bəzilərinə diqqəti çəkir:

Fənlərarası yanaşma istiqamətində münaqişə tədqiqatları ilkin olaraq sosiologiya, psixologiya, politologiya, beynəlxalq münasibətlər, antropologiya, hüquq, iqtisadiyyat və s. sahələri əhatə edərək münaqişələri müxtəlif aspektlərdən hərtərəfli başa düşməyə imkan verir. Empirik tədqiqatlar isə məlumat toplamaq və münaqişələri təhlil etmək üçün empirik tədqiqat metodlarına əsaslanır. Bu sahədə tədqiqatçılar münaqişələrin səbəbləri və nəticələrini öyrənmək üçün araşdırmalar, sorğular, müsahibələr və müşahidələr aparırlar. Nəzəriyyənin inkişafı münaqişələrin təbiətini izah etməyə kömək edən müxtəlif nəzəriyyələr və modellər yaratmışdır. Münaqişə dövrü və ya konfliktin çevrilmə modelləri kimi bu nəzəriyyələr münaqişə dinamikasını başa düşmək üçün çərçivə təmin edir.

Münaqişəşünaslıq aspektinin münaqişələrin təhlili istiqaməti münaqişələrin öyrənilməsinin sistematik təhlilini, o cümlədən iştirakçı tərəfləri, onların maraqlarını və mövqelərini, əsas problemlərini və münaqişənin tarixini müəyyən edir. Bu təhlil effektiv münaqişələrin həlli strategiyalarının hazırlanması üçün çox vacibdir. Bu sırada münaqişələrin qarşısının alınması istiqaməti münaqişələrin qarşısının alınması üçün strategiyaların və mexanizmlərin öyrənilməsi üçün konflikt tədqiqatlarının mühüm aspektidir. Buraya potensial münaqişələrin erkən xəbərdarlıq əlamətlərinin müəyyən edilməsi, zorakılıq və ya eskalasiya ehtimalını azaltmaq üçün tədbirlərin həyata keçirilməsi daxildir. Münaqişənin həlli aspektində isə münaqişənin həlli üsulları sahənin diqqət mərkəzindədir. Tədqiqatçılar və praktiklər dinc və ədalətli nəticələrə nail olmaq üçün münaqişə tərəflərini danışıqlar, vasitəçilik və barışdırmaq üsullarını araşdırırlar.

Münaqişə araşdırmaları tez-tez münaqişədən təsirlənmiş bölgələrdə uzunmüddətli sülh və sabitliyin təşviqinə yönəlmiş fəaliyyət və təşəbbüsləri əhatə edən sülhməramlı səylərin öyrənilməsini əhatə edir. Bu, iqtisadi inkişafı, siyasi islahatları və sosial uzlaşmanı əhatə edə bilir ki, bu aspekt Sülh quruculuğunu təmin edir.

Münaqişələrin həlli istiqamətində Humanitar və Etik narahatlıqlar aspekti tədqiqatlara görə münaqişə araşdırmaları üzrə etik mülahizələrə və humanitar narahatlıqlara güclü diqqət yetirir. Bu sahədə çalışan alimlər və praktiklər tez-tez insan hüquqları, humanitar müdaxilələr və münaqişələr zamanı həssas əhalinin müdafiəsi ilə bağlı məsələlərə müraciət edirlər.

Münaqişəşünaslıq elminin təhsil və təlim, siyasət və təcrübələr, beynəlxalq münasibətlər istiqamətində apardığı fəaliyyətlər münaqişələrin həllinə yeni yanaşmalar, yeni səylər ortaya qoyur. Bu baxımdan yanaşma bütövlükdə konfliktşünaslıq münaqişələrin öyrənilməsi və anlaşılması üçün ciddi elmi metodların tətbiqinə, münaqişələrin qarşısının alınması və həlli üçün praktiki yanaşmaların işlənib hazırlanmasına yönəlmiş bir sahədir. O, münaqişələrin müxtəlif formalarda və miqyasda davam etdiyi və təkamül etdiyi bir dünyada sülhün və sabitliyin təşviqində mühüm rol oynayır.

Bu bir həqiqətdir ki,  bütün münaqişələr tamamilə həll edilə bilməz, lakin onlar çox vaxt mənfi təsirləri minimuma endirəcək və müsbət münasibətləri qoruyacaq şəkildə idarə oluna bilər. Münaqişələrin doğru zamanda, düzgün, effektiv idarə edilməsi, istər şəxsi, istərsə də peşəkar şəraitdə təkmilləşdirilmiş ünsiyyətə, daha güclü münasibətlərə və daha ahəngdar bir mühitə gətirib çıxara bilər və təhsilin idarəedilməsi proseslərini keyfiyyətin təminatına yönləndirər.

***Ədəbiyyat***

1. *A.N.Abbasbəyli. Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar. B., 2006. 3 səh.*
2. *Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı, BDU nəşriyyatı, 2009, 309 səh.*
3. *Məmmədzadə Kamran. "Münaqişələr və Onların Həlli Yolları". https://www.linkedin.com/pulse/m%C3%BCnaqi%C5%9F%C9%99l%C9%99r-v%C9%99-onlar%C4%B1n-h%C9%99lli-yollar%C4%B1-kamran-m%*
4. *Maks A. Eggert və Vendi Falzon. Münaişələrin həll edilməsi (Pocket.edu.az)*
5. *Kərimov Azər. Münaqişəşünaslıq elmi: onun yaranması və təkamülü. https://genderi.org/magistratura-merkezi-v20.html?page=18*

**Ş.Ə.Şirəliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sems_sireliyeva00@yahoo.com*

# ALİ TƏHSİL MƏKTƏBLƏRİNİN İDARƏ OLUNMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Xülasə***

*Ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılması baxımından təhlilin aparılması müəssisənin səmərəli fəaliyyətini təmin etmək üçün zəruridir. Bu aspektdə müəyyən təhlillərin aparılması bu və ya digər amillərlə bağlıdır. Güclü və zəif tərəflərin müəyyən edilməsi: ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin güclü və zəif tərəfləri haqqında dəyərli fikirlər verə bilər. Bu təhlil qurumun missiya və baxış bəyanatlarını, onun strateji məqsəd və vəzifələrini, bu məqsədlərə nail olmaq üçün həyata keçirilən təşəbbüsləri və tədbirləri nəzərdən keçirməklə aparıla bilər. Bununla yanaşı müəssisənin güclü tərəflərinin müəyyən edilməsi vacibdir, çünki o, təşkilatın mükəmməl olduğu və resurslara investisiya qoymağa davam etməli olduğu sahələri vurğulamağa kömək edə bilər. Məsələn, müəssisə müəyyən bir təhsil sahəsində güclü reputasiyaya və ya yüksək keyfiyyətli professor-müəllim heyətinə malik ola bilər. Bu güclü tərəflərin tanınması onlara əsaslanmağa və təşkilatın ümumi nüfuzunu və rəqabət qabiliyyətini artırmağa kömək etməsində bir əminlik yaradır.*

*Ali məktəbin idarə olunmasının bəzi məsələləri ali məktəb, digər tədris müəssisələri kimi, Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, tənzimləyici aktlar, sənədlər əsasında idarə olunur. Ali məktəbin idarə olunmasında ən mühüm sənədlərdən biri ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsidir. Adı çəkilən Nizamnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА УПРАВЛЕНИЕ ВЫСШИМ ОБРАЗОВАНИЕМ

***Резюме***

*В рамках стратегического планирования деятельности руководителя высшего учебного заведения проведение анализа необходимо для обеспечения эффективной работы учреждения. Проведение определенных анализов в этом аспекте связано с теми или иными факторами. Выявление сильных и слабых сторон: анализ стратегического планирования руководителя высшего учебного заведения может дать ценную информацию о сильных и слабых сторонах учебного заведения. Этот анализ можно провести путем рассмотрения заявлений о миссии и видении учреждения, его стратегических целей и задач, а также инициатив и действий, предпринятых для достижения этих целей.*

*Однако выявление сильных сторон предприятия важно, поскольку оно может помочь выявить области, в которых организация превосходит других и в которых ей следует продолжать инвестировать ресурсы. Например, учебное заведение может иметь хорошую репутацию в определенной области обучения или высококвалифицированный преподавательский состав. Признание этих сильных сторон создает уверенность в их развитии и помогает повысить общую репутацию и конкурентоспособность организации.*

*Некоторые вопросы управления высшей школой решаются на основе Конституции Азербайджанской Республики, Закона Азербайджанской Республики «Об образовании», нормативных актов, документов других образовательных учреждений. Одним из важнейших документов в управлении высшим учебным заведением является Типовой Устав высшего учебного заведения. Указанный Устав был утвержден решением Кабинета Министров Азербайджанской Республики №9 от 21 января 2011 года.*

## FACTORS AFFECTING THE MANAGEMENT OF HIGHER EDUCATION SCHOOLS

***Summary***

*In terms of the strategic planning of the activity of the head of a higher education institution, conducting an analysis is necessary to ensure the efficient operation of the institution. Conducting certain analyzes in this aspect is related to these or other factors. Identifying strengths and weaknesses: an analysis of the strategic planning of the head of a higher education institution can provide valuable insights into the strengths and weaknesses of the institution. This analysis can be done by reviewing the institution's mission and vision statements, its strategic goals and objectives, and the initiatives and actions taken to achieve these goals. However, identifying an enterprise's strengths is important because it can help highlight areas where the organization excels and should continue to invest resources. For example, an institution may have a strong reputation in a particular field of study or a high-quality faculty. Recognizing these strengths creates confidence in building on them and helping to increase the organization's overall reputation and competitiveness.*

*Some issues of higher school management are managed on the basis of the Constitution of the Republic of Azerbaijan, the Law of the Republic of Azerbaijan on Education, regulatory acts, documents, as well as other educational institutions. One of the most important documents in the management of a higher education institution is the Model Charter of a higher education institution. The mentioned Charter was approved by the decision No. 9 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated January 21, 2011.*

***Açar sözlər:*** *ali təhsil, rektor, müəllim, tələbə*
***Ключевые слова:*** *высшее образование, ректор, преподаватель, студент*
***Key words:*** *higher education, rector, teacher, student*

Təhsilin idarə olunmasının mürəkkəbliyini bir sıra amillər müəyyənləşdirir. Hər şeydən qabaq təhsilin məqsədini nəzərdən keçirmək lazımdır. "Təhsilin məqsədi milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsi yolu ilə Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan adamlar yetişdirməyə kömək göstərməkdən ibarətdir". Məqsəd təhsilin qloballığını, eyni zamanda, milli mənafeyə xidmət etməli olduğunu göstərir. Bütün dövrlərdə təhsil qloballığı ilə səciyyələnib.

Müstəqillik, Azərbaycanın dünyaya inteqrasiyasının miqyası bu qloballığı daha da genişləndirib. İndi heç kəs deyə bilməz ki, Azərbaycan təhsil sisteminin yetişdirməsi ancaq və ancaq Azərbaycanda əmək fəaliyyəti göstərəcək. Onlarla nümunə gətirmək olar ki, doğma vətənimizdə təhsil almış gənclərimiz dünyanın inkişaf etmiş ölkələrində uğurla çalışırlar. Başqa ölkələrdə təhsil almış əcnəbilərin də Azərbaycanda çalışmaları adi hala çevrilmişdir. Bu faktlar göstərir ki, Azərbaycan təhsilinin məzmunu bəşəri dəyərləri, dünyada baş verən yenilikləri özündə əks etdirir.

Azərbaycanın tədris müəssisələrində biliklərə və mənəvi keyfiyyətlərə yiyələnmiş hər bir gənc dünyanın müxtəlif nöqtələrində çalışa bilir, həyatını təmin etməyi, aldığı biliklərlə başqalarına fayda verməyi bacarır. Göstərilənlər təhsilin mürəkkəbliyinə, çoxşaxəliyinə bir nümunədir. Bu cəhət isə təhsilin idarə olunmasında özünü aydın şəkildə büruzə verir [5, səh. 97].

Təhsilin maliyyələşdirilməsi onun idarə olunmasının mürəkkəb cəhətlərindəndir. Təhsilin maliyyələşdirilməsi sovetlər dönəmindən fərqli olaraq yeni keyfiyyətlər qazanmışdır. İndi təhsili təkcə dövlət büdcəsindən maliyyələşən bir sistem kimi qəbul etmək olmaz. Müstəqilliyimiz xeyirxah insanların təhsilə vəsait ayırmalarına, dövlət təhsil müəssisələri ilə paralel şəkildə özəl məktəblərin fəaliyyət göstərməsinə imkanlar açmışdır. Doğrudur, hələlik bu sahədə sistemli bir ənənə yaranmayıb. Özəl təhsil müəssisələri dövlətdən maliyyələşmir və əsasən, təhsilalanların ödədikləri vəsaitlə fəaliyyətlərini qururlar.

Dünyada, xüsusilə peşə-ixtisas məktəbləri (ilk peşə-ixtisas təhsili məktəbləri, orta ixtisas məktəbləri, ali təhsil müəssisələri) sifarişlə yerinə yetirdikləri layihələrdən maliyyə vəsaitləri qazanır, xeyirxah insanların əvəzsiz ödədikləri pullarla büdcələrini artırırlar. Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən Azərbaycanda da təhsilə belə münasibətin formalaşacağına heç bir şübhə yoxdur [7, səh.65].

Azərbaycan Respublikası tərəfindən təhsil müəssisələrinin gəlirinə qoyulmuş verginin ləğv edilməsi təhsilə göstərilən qayğı kimi özəl və dövlət ali təhsil müəssisələrinin inkişafına imkan açır, təhsil ödənişlərinin azaldılmasına şərait yaradır. Təhsildə yüksək uğurlar göstərən tələbələrə təqaüdlərin

ayrılmasında da həmin qərarın müstəsna əhəmiyyəti olmuşdur. Nəticədə həmin qərar əsasında əldə olunmuş gəlirdən səmərəli istifadə edən özəl ali təhsil müəssisələrinin nüfuzu artır, qəbul planı dolur, daha peşəkar mütəxəssislərin bu universitetlərə işə cəlb olunmasına əlverişli şərait yaranır.

Ali təhsildə idarəolunmanın sərhədləri və ali təhsil müəssisələrinin səlahiyyət və vəzifələri ölkənin mədəniyyəti, adət-ənənələri və qanunları kimi amillərə uyğun olaraq formalaşır. Bu amillər muxtariyyətin və dövlətin müdaxiləsinin sərhədlərini müəyyən edir. Xüsusilə demokratik və liberal cəmiyyətlərdə ali təhsil müəssisələrinə müəyyən muxtariyyət verilməsi və dövlətin müdaxiləsinin məhdudlaşdırılması vacibdir. Bununla da akademik azadlıqlar qorunur və elmi araşdırmalar müstəqil şəkildə həyata keçirilə bilər.

Ölkələrin idarəetmə sistemləri fərqlənir və ali təhsil sahəsində mərkəzi orqanların səlahiyyətləri bu fərq nəzərə alınmaqla müəyyən edilir. Bəzi ölkələrdə ali təhsil idarəetməsi daha mərkəzləşdirilmiş struktura malikdir, bəzi ölkələrdə isə yerli hökumətlər və ya vasitəçi qurumlar daha çox səlahiyyətə malik ola bilər. Bununla belə, ali təhsil sistemi ilə bağlı əsas strategiya və siyasətləri müəyyən etmək səlahiyyəti, ümumiyyətlə mərkəzi orqanlara məxsusdur [8, səh. 98].

Texnoloji inkişafların vacib rolu vardır. Texnologiyanın təhsil idarəetmə sistemlərinə inteqrasiyası məktəblərin fəaliyyətinə təsir göstərir. İdarəetmə, tədris və ünsiyyət üçün innovativ vasitələrin qəbulu aktual qalmaq və müasir təhsil təcrübəsi təmin etmək üçün çox vacibdir. Qurumlar qərar qəbuletmə proseslərini təkmilləşdirmək üçün getdikcə daha çox məlumat analitikasına etibar edirlər. Rəhbərlik tələbə performansı, resurs bölgüsü və ümumi institusional effektivliyə dair fikirlər toplamaq üçün səmərəli məlumat idarəetmə sistemlərini inteqrasiya etməlidir. Rəqəmsal sistemlərdən asılılığın artması ilə ali təhsil müəssisələri kibertəhlükəsizlik təhdidləri ilə üzləşirlər. Effektiv idarəetmə həssas tələbə məlumatlarını qorumaq və akademik qeydlərin bütövlüyünü qorumaq üçün güclü kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsini əhatə edir.

Ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılması baxımından təhlilin aparılması müəssisənin səmərəli fəaliyyətini təmin etmək üçün zəruridir. Bu aspektdə müəyyən təhlillərin aparılması bu və ya digər amillərlə bağlıdır. Güclü və zəif tərəflərin müəyyən edilməsi: ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin güclü və zəif tərəfləri haqqında dəyərli fikirlər verə bilər. Bu təhlil qurumun missiya və baxış bəyanatlarını, onun strateji məqsəd və vəzifələrini, bu məqsədlərə nail olmaq üçün həyata keçirilən təşəbbüsləri və tədbirləri nəzərdən keçirməklə aparıla bilər. Bununla yanaşı müəssisənin güclü tərəflərinin müəyyən edilməsi vacibdir, çünki o, təşkilatın mükəmməl olduğu və resurslara investisiya qoymağa davam etməli olduğu sahələri vurğulamağa

kömək edə bilər. Məsələn, müəssisə müəyyən bir təhsil sahəsində güclü reputasiyaya və ya yüksək keyfiyyətli professor-müəllim heyətinə malik ola bilər. Bu güclü tərəflərin tanınması onlara əsaslanmağa və təşkilatın ümumi nüfuzunu və rəqabət qabiliyyətini artırmağa kömək etməsində bir əminlik yaradır.

Təhsilin məzmununun mürəkkəbliyi də idaraetmədə nəzərə alınmalı cəhətlərdəndir. Məktəbəqədər təhsildən başlayaraq təhsilin sonraki pillələrində öyrədilən fənnlərin təkcə adlarını saymaq kifayət edir ki, bu məzmunun nə qədər mürəkkəb olduğunu dərk edəsən. Həmin məzmun tələb olunan səviyyədə formalaşdırılana qədər olan mərhələlərdə görülən işlərin miqyası da bunları təhsilin idarə olunmasında nəzərə almağı zərurətə çevirir.

Təbiidir ki, belə bir mürəkkəb sistemdə çalışan kadrların hazırlanması xüsusi diqqət tələb edir. Həmin kadrlarla iş ancaq peşə hazırlığı mərhələsində həyata keçirilmir. Çoxsaylı kadrlarla daimi iş, onların təkmilləşdirilməsi, yenidən hazırlanması, fəaliyyətlərinin səmərəlilik dərəcəsinin izlənilməsi, bu məqsədlə monitorinqlərin təşkili, işçilərin maddi vəziyyətinin yaxşılaşdırılması, tələbələrin təqaüdü və yataqxanalarda mənzillə təmin olunması bütün bunlar təhsilin necə mürəkkəb bir sahə olduğu barədə təsəvvür yaradır.

Təhsilin məqsədi anlayışından onun daha bir neçə cəhəti üzə çıxır. Aydın olur ki, təhsil təkcə bilik vermir. O, paralel şəkildə təhsilalanların tərbiyəsini və psixoloji qüvvələrinin inkişafını təmin etməlidir. Əlbəttə, bu işdə təhsili idarə edənlərin əməyi əvəzsizdir.

**Nəticə:** Keyfiyyəti sözdə deyil işində əsas götürən, müasir tələblərə cavab verən maddi-texniki bazaya, müəllim potensialına malik olan, ən əsası beynəlxalq aləmdə nüfuz qazanmış ali məktəbləri digərilərindən fərqləndirmək ən düzgün yoldur. Yaxşı ali məktəb, yaxşı olduğunun bəhrəsini görməli, digərləri də buna can atmalıdır. Bu hal ali məktəblər arasında əsl sağlam rəqabət və yarış atmosferi yaradar ki, bu da inkişafı şərtləndirən əsas cəhətlərdəndir. Beləliklə, dövlət özəl ali məktəblərin fəaliyyətinə həmişə nüfuz edir və bu nüfuzetmə yüksək səviyyəli kadr hazırlanması prosesinə, yəni ali məktəbin baş məqsədinə öz təsirini göstərir. Məsələ bu təsirin mənfi və ya müsbət olmasındadır. Fikrimizcə, kifayət qədər zaman keçməsinə baxmayaraq, hələ öz dəsti-xəttini tapa bilməmiş, ali məktəblər arasında və ictimaiyyətdə özünü sübut edə bilməmiş, tədris proqramları baxımından adilikdən çıxa bilməyən, beynəlxalq aləmdə nüfuz qazana bilməyən özəl ali məktəblərə belə nüfuzetmə məsələnin xeyrinə olursa, qabaqcıl özəl ali məktəblərin işlərinə belə nüfuzetmə kadr hazırlığı prosesinə, müəyyən mənada, mənfi təsir göstərir.

Təhsilin idarə olunmasının səciyyəvi cəhətlərinin şərhi zamanı qeyd etmişdik ki, bu xüsusiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasından, ölkəmizin dövlət quruluşundan, inkişafda əsas götürülən prinsiplərdən doğur

və onların hər biri ilə sıx bağlıdır. Bununla yanaşı, öyrənmişdik ki, Konstitusiyanın tələbləri, müddəaları təhsillə bağlı rəsmi sənədlərdə konkretləşdirilir ki, onlardan da təhsilin növündən, onun qarşısında duran məqsəddən asılı olaraq istifadə edilir.

Təhsilin idarə olunması problemi də bu ümumi sistemdən kənarda qala bilməz. Təhsilin bütün pillələrində, sahələrində nəzərə alınması vacib olan prinsiplər vardır. Həmin prinsiplər tədris müəssisəsinin növündən, xüsusiyyətindən asılı olmayaraq idarəetmədə nəzərə alınmalıdır. Bu prinsiplərə əməl olunması təhsilin səmərəli idarə edilməsinə, onun qarşısında qoyulmuş məqsədin həyata keçirilməsi işinin səmərəli nəticələnməsinə imkan yaradır.

Bunları nəzərə alaraq qeyd etməyi vacib sayırıq ki, təhsilin idarə olunması ilə bağlı prinsiplərlə sabahın təhsil işçilərinin tanış olmaları zəruridir. Həmin prinsiplərə, prinsiplərdən doğan tələblərə bələdlik rəhbər işçiyə fəaliyyətini ölkənin Konstitusiyası, Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu və bu qanundan irəli gələn qanunvericilik aktlarının müddəaları əsas götürülməklə idarə etməyə şərait yaradır, təhsilin qarşısında duran məqsədin həyata keçirilməsi işinin səmərəli nəticələnməsinə kömək göstərir.

Təhsilin idarə olunması prinsipləri məsələsinə elmi-pedaqoji ədəbiyyatda münasibət bildirilmiş, mülahizələr irəli sürülmüşdür. Təhsilin ayrı-ayrı sahələrinin idarə edilməsinin səciyyəvi xüsusiyyətlərinin olduğu məlumdur. Bu cəhətdən yanaşanda həm bütövlükdə təhsilin, həm də ümumi orta təhsil müəssisələrinin idarə olunması prinsiplərindən söz açmağa dəyər. Lakin təqdim olunan prinsiplərin təhlili göstərir ki, onlar ümumiləşdirilmiş səciyyə daşıyır və təkcə təhsilin idarə olunmasına deyil, onun başqa sahələrinə də aid edilə bilər. Digər tərəfdən, əgər ümumi orta təhsilin idarə olunması prinsipləri müəyyənləşdirilibsə, səciyyəvi cəhətlər nəzərə alınmaqla digər təhsil müəssisələri üçün də bunun edilməsi faydalı olar.

***Ədəbiyyat***

1. *Richard C. Axt. The Federal Government and Financing Higher Education. New-York: Columbia University Press, 1952.*
2. *Səlahəddin Xəlilov. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı - 1999.*
3. *Levy Daniel. Higher Education and the State in Latin America: Private challenges to Public Dominance. Chicago: University of Chicago Press, 1986.*
4. *Levy Daniel. "Private and Public: Analysis amid ambiguity in higher education" in Levy D. (ed). Private Education: Studies in Choice and Public Policy. New York and Oxford: Oxford University Press, 1986.*

5. *Х.Синкотта, Р.Холден, Д.Гивенз. «Системы образования в США», Национальная комиссия по повышению качества образования. Отдел учебных програм информационного агенства США, Виена - 1998.*
6. *Zahid Qaralov. Azərbaycan təhsilini necə görmək istərdim? "Azərbaycan məktəbi" jurnalı, № 6, 1997, səh.16-20.*
7. *П.Карстанье, У.Ушаковой. Управление в образовании. Проблемы и подходы. Москва - 1995.*

**V.A.Qurbanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vgurbanova9898@gmail.com***

# İNTEQRASİYA HAQQINDA MƏLUMAT VƏ TEXNOLOGİYANIN TƏLİM PROSESİNƏ İNTEQRASİYASI

***Xülasə***

*Müəllimlər və pedaqoqlar qısa vaxt ərzində az əmək sərf edərək daha çox nailiyyət əldə etmək üçün sistemli, planlı şəkildə çalışmalıdırlar. Öyrədiləcək mövzuların inteqrativ formada tədrisi təhsil alanların həmin mövzuları uğurlu şəkildə öyrənmələrinə kömək edir. İnteqrasiyanın təhsildə vacibliyi hər zaman nəzərə alınmalı və dərslərin keyfiyyətinin artması üçün ondan istifadə edilməlidir. Müasir dövrdə texnologiya əsaslı yer tutduğundan təlim və tədris prosesi zamanı ondan istifadə halları geniş yayılmışdır. Texnologiyanın tədrisdə rolu gün keçdikcə daha çox artır. Bütün bunları nəzərə alaraq məqalədə inteqrasiya haqqında ümumi məlumat verilmiş, onun əhəmiyyətindən və texnologiyanın təlim prosesinə inteqrasiyasından bəhs edilmişdir.*

# ИНФОРМАЦИЯ ОБ ИНТЕГРАЦИИ И ИНТЕГРАЦИИ ТЕХНОЛОГИЙ В ПРОЦЕСС ОБУЧЕНИЯ

***Резюме***

*Учителя и педагоги должны работать систематически и планированно, чтобы достичь большего с меньшими усилиями и за более короткое время. Преподавание тем, которые будут преподаваться в комплексной форме, помогает учащимся успешно изучать эти темы. Важность интеграции в образовании всегда следует учитывать и использовать для улучшения качества уроков. Поскольку технологии занимают основополагающее место в современную эпоху, их использование в процессе обучения и воспитания широко распространено. Роль технологий в образовании возрастает с каждым днем. Принимая все это во внимание, в статье приводятся общие сведения об интеграции, ее значении и интеграция технологий в процесс обучения.*

# INFORMATION ABOUT INTEGRATION AND INTEGRATION OF TECHNOLOGY INTO TRAINING PROCESS

***Summary***

*Teachers and pedagogues should work in a systematic, planned way to achieve more with less effort in a shorter time. Teaching the topics to be taught in an integrated form helps the students to learn those topics successfully. The importance*

*of integration in education should always be considered and used to improve the quality of lessons. Since technology occupies a fundamental place in the modern era, its use during the training and education process is widespread. The role of technology in education is increasing day by day. Taking all this into account, the article provides general information about integration, its importance and the integration of technology into the learning process.*

***Açar sözlər:** inteqrasiya, texnologiya, təlim prosesi, inkişaf, nailiyyət*
***Ключевые слова:** интеграция, технологии, тренировочный процесс, разработка, достижение*
***Key words:** integration, technology, training process, development, achievement*

“İnteqrasiya” - latın mənşəlidir və kiçik hissələrin birləşərək tam şəkil alması kimi işlədilir. İnteqrasiya hissələri vahid halda birləşdirməyə və onları bir-birləri ilə əlaqələndirməyə xidmət edir. Bir çox sahələrdə, xüsusən də təhsil sahəsində inteqrasiyanın xüsusi rolu və əhəmiyyəti vardır. O ilk növbədə zamanı düzgün dəyərləndirməyə kömək edir. Müəllimlər oxşar mövzuları sistemləşdirib tədris etməklə onları az vaxtda öyrədə bilirlər. İnteqrasiya şagirdlərin motivasiyasını artıraraq onları dərsə qarşı daha həvəsli edir. Daha dəqiq desək, müxtəlif fənnləri birlikdə tədris etməklə şagirdlərə xoşlamadıqları fənnləri sevdirmək mümkündür. İnteqrasiyanın köməyilə biliklər mürəkkəb və kompleks halda verilir. Nəticədə şagirdlər bir çox fənnlərə və mövzulara yaxından bələd olurlar. Bu isə eyni zamanda onların dünyagörüşlərinin inkişafına gətirib çıxarır.

Pedaqogikada inteqrasiyanın 3 növündən istifadə edilir. Bunlar fənndaxili inteqrasiya, fənlərarası inteqrasiya və fənlərüstü inteqrasiyadır.

Fənndaxili inteqrasiyada yalnız bir fənnin mövzuları arasında əlaqə yaradılır. Mövzular bir-birləri ilə sistemləşdirilərək tədris olunur. Belə olan təqdirdə şagirdlər mövzular arasında oxşarlıqları daha yaxşı görür və başa düşürlər. Üfüqi inteqrasiya və şaquli inteqrasiya olmaqla 2 əsas forması var. Üfüqi inteqrasiya fənn üzrə məzmun xətlərini əlaqələndirərək onlara müvafiq gələn məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir. Şaquli inteqrasiya sinifdən sinfə tədricən genişlənən məzmun xətləri arasındakı varisliyin qorunmasını təmin edir.

Fənnlərarası inteqrasiya isə müxtəlif fənnlərə məxsus oxşar mövzuların birgə tədris edilməsidir. Lakin fənndaxili inteqrasiyada fənnlərin yaxınlıq dərəcələri nəzərə alınmalıdır. Fənnlərin yaxınlıq dərəcələrinə görə 3 növü var:

1. Yaxınlıq dərəcələri çox olan fənnlər: Belə fənnlər “qohum” fənnlər də adlandırılır. Bir-birləri ilə yaxınlıq dərəcələri çox olduğu üçün inteqrasiya asan olur.

2. Qismən yaxın fənlər: Bu cür fənnlər nə tamamilə oxşardırlar, nə də tamamilə fərqlidirlər.

3. Yaxınlıq dərəcələri uzaq olan fənnlər: Bir-birlərindən çox fərqləndikləri üçün onların oxşar cəhətlərini taparaq inteqrasiya etmək çox çətindir.

Fənnlərüstü inteqrasiya təlim və tədris prosesində öyrədilən biliklərin, informasiyanın real həyatla əlaqələndirilməsidir. Bu inteqrasiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, təhsil alanlar tədris müəssisələrində qazandıqları nəzəri məlumatları real həyatda sınaqdan keçirirlər və təcrübə qazanırlar.

**Dünya dövlətlərinin təhsil sistemlərinin inteqrasiyası:** Bütün ölkələrin təhsil sistemləri arasında inteqrasiyanın olması xarici vətəndaşların müxtəlif ölkələrdə oxuma və ya iş tapma prosesini gözlə görüləcək dərəcədə asanlaşdırır. Bolonya sistemi və ikili diplom proqramı bu inteqrasiyaya daxildirlər.

- **Bolonya sistemi:** 1970-ci ildə Avropa nazirlər soveti tərəfindən təsdiq edilmişdir. Ancaq 1999-cu ildə rəsmi şəkildə əsası qoyulmuşdur. İtalyanın Bolonya şəhərində qəbul olunduğu üçün Bolonya sistemi adlanır. İstənilən hər bir ölkə Bolonya sisteminə qoşula bilər. Lakin bunun üçün bir çox tələbləri yerinə yetirməlidirlər. Bolonya sisteminə qatılmaq istəyən ölkə ilk olaraq müqavilə imzalamalıdır. Bolonya sistemi 6 müddəaya malikdir. Bolonya sistemi iki pilləli təhsilə (dərəcəyə qədər və dərəcədən sonra) keçid etməyi tələb edir. İlk pillədə təlim müddəti üç ildən az olmamalıdır. Növbəti pillədə tələbələr magistratura və doktoranturada oxuya bilərlər. Bolonya prosesində kredit sistemi əsas məsələlərdən biridir. Azərbaycanda bu sistemin tətbiqi ali və orta ixtisas məktəblərinin tələbələrinə bir sıra üstünlüklər qazandırıb. Bu gün Azərbaycanda ali və orta ixtisas təhsili sahəsində müasir təlim metodları geniş şəkildə tətbiq edilir. Qeyd edək ki, ölkəmizin Bolonya prosesinə qoşulmasından sonra bu istiqamətdə görülən işlər daha da sürətləndirilib. Bu prosesin ən böyük üstünlüklərindən biri isə təhsildə kredit sisteminin tətbiqi sayıla bilər. Kredit tələbənin semestr boyu həftə ərzində bir dərsdə keçirdiyi akademik saatdır. "Kredit sistemi" tələbənin təhsil müddətindəki fərdi planı, "kredit" isə tələbənin tədrisdə kəmiyyət göstəricisidir. Tələbə krediti mühazirə-seminar məşğələlərdə iştirakı ilə müstəqil şəkildə, həmçinin auditoriyadankənar tapşırıqlar yerinə yetirməklə də qazana bilər. Kredit sisteminin üstünlüklərinə gəldikdə isə bu sistemdə təhsil alan hər hansı bir tələbə təhsil haqqında sənədlərini kredit sistemi tətbiq olunan istənilən ölkənin universitetinə təqdim edəndə heç bir çətinlik çəkmir. Çünki, kredit sistemi vahid tədris məkanı deməkdir. Eyni zamanda bakalavr pilləsini başa vuranın alacağı əsas ali təhsil sənədləri (diplom və diploma əlavə) beynəlxalq standartlara uyğun hesab edilir. Hər bir tələbənin qiymət cədvəlində (Transcript və ya Diploma Supplement) fənnlərin kəmiyyət göstəricisi-krediti və GPA-Grade Point Average (bütün fənnlər üzrə orta qiymət göstəricisi) yazılır.

- **İkili diplom:** Dövlət Proqramı "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərdən faydalanaraq müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycanın ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə hazırlanıb. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Xüsusilə ötən əsrin sonlarından etibarən aktuallaşmış transmilli təhsil modelinin Azərbaycanda tətbiqi uğurlu nəticənin əldə olunmasına şərait yaratmalıdır. Bu baxımdan beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili təmin edilməlidir.

Texnologiyanın həyatımızda rolu gün keçdikcə daha da artır. Təhsil sahəsində texnologiyadan geniş şəkildə istifadə edilməsini nümunə olaraq göstərmək mümkündür. Hal-hazırda bir çox ölkələrdə texnologiya tədris prosesi zamanı əsas yer tutur. Dərslər elektron lövhələrdə keçirilir, jurnallar elektron qaydada tərtib edilir, şagirdlər dərslərini kompüterlərdə, mobil telefonlarda hazırlayırlar. Bu isə artıq həmin ölkələr üçün adi hala çevrilib.

**Texnologiyanın müəllimlərə təsiri:** Müəllimlər bir çox xüsusiyyətlərə sahib olmalıdırlar. Onlar sadəcə dərs deməklə kifayətlənmirlər. Müəllimlər tədris etdikləri fənlərə yaxından bələd olmalı, pedaqoji bacarıqlara malik olmalı və şagirdlərin psixologiyalarını başa düşməlidirlər. Lakin texnologiyaların təhsilə inteqrasiyası müəllimlərdən daha da professional olmağı tələb edir. Belə ki, ilk növbədə İKT-ni (İnformasiya-Kommunikasiya Texnologiyalarını) bilmək, ondan istifadəni bacarmaq lazımdır. Əks halda sinifdə texnoloji vasitələrdən istifadə mümkün olmayacaq. İKT-dən düzgün istifadə edilməsi dərslərin keyfiyyətini artırır. Şagirdlər üçün təqdimatlar hazırlamaqla, mövzu ilə bağlı müxtəlif videolar nümayiş etdirməklə onların dərsə olan maraq və motivasiyalarını artırmaq mümkündür. Kiçik yaşlı məktəblilərin marağını dərsə cəlb etmək üçün gözəl hazırlanmış təqdimatlar və öyrədici, eyni zamanda əyləncəli videolar əvəzolunmazdır. Texnologiyalar müəllimlərdən həm yeni, həm də ənənəvi bacarıqlar tələb edir. Çünki, onlar bir-birləri ilə sıx bağlıdır və ayrılmazdır.

**Texnologiyanın təhsil alanlara təsiri:** Təhsil alanların nöqteyi-nəzərindən inteqrasiyanın müxtəlif aspektləri var. Müxtəlif komponentlər ayrı-

ayrı deyil, bir-birilərinə bağlı şəkildə tədris edilsələr, öyrənənlər baxımından daha yaxşı olar. Yeni texnologiyaların şagirdlərin inkişafında xüsusi rolu var. Onlar istədikləri informasiyaları qısa zaman içində tapa bilirlər. Nəticədə isə zəngin bilik sahəsinə, geniş dünyagörüşünə sahib olurlar. Texnoloji alətlər şagirdlərin tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirir. Şagirdlər müxtəlif mövzular barədə müstəqil araşdırma apararaq həmin mövzuları dərindən öyrənirlər. Müxtəlif təqdimatlar hazırlamaq, tədqiqat işləri aparmaq yaradıcı və müstəqil gənclərin yetişməsinə səbəb olur.

**Texnologiya və mühit:** İKT-nin inteqrasiyası yeni dizayn ilə tərtib olunmuş mühitin olmasını tələb edir. Məktəblərdə texnologiya üçün xüsusi otaqlar olmamalıdır, əksinə texnoloji avadanlıqlar dərs otaqlarına uyğun quraşdırılmalıdır. Texnoloji avadanlıqlar elə quraşdırılmalıdır ki, onlardan rahat istifadə etmək mümkün olsun. Ancaq onlar diqqəti yayındırmamalıdırlar. "İnteqrasiyalı otaqlar" lazım olan vəsaitlərlə təmin olunmalıdır. Kompüterlər, proyektorlar və internetə qoşulma imkanı belə vəsaitlərdən bir neçəsidir. Texnoloji avadanlıqlardan istifadə şagirdlərə izah edilməlidir. Ancaq bu da "inteqrasiyalı otaqlar" kimi nəzərə çarpmadan edilməlidir. Kitablarda yeni texnologiyalarla bağlı xüsusi bölməyə ehtiyac yoxdur. Yeni texnologiyalar haqqında məlumatlar və informasiyalar bütün kitab boyunca inteqrasiya olunmuş şəkildə təqdim olunmalıdırlar. İKT ilə dizayn edilmiş mühit yaratmaq çətin olmasına baxmayaraq mövzuyla bağlı daim çalışmaq lazımdır.

**Texnologiyanın inteqrasiyası ilə bağlı problemlər:** Texnologiyanın inteqrasiyası zamanı bir çox problemlər yaranır. Bu cür problemlərə siniflərdə şagirdlərin çox olması, İKT inteqrasiya edilmiş dərslərdə zamanın azlığı, onunla bağlı biliklərin az olması və ondan istifadə edə bilməmək kimi problemlər aiddir. Ancaq tədqiqatçılar problemlərin həll olunmağa başladığını qeyd edirlər. Mütəxəssislər texnologiyanın təhsilə inteqrasiyası çoxmərhələli proses olduğundan ondan istifadədə nailiyyət qazanmağa təsir edən müxtəlif amilləri daim nəzarətdə saxlamağı məsləhət görürlər. Texnologiyanın inteqrasiyasına təsir edən amillərdən biri inteqrasiya zamanı hər daim problemlərin mövcud olmasıdır. Digər bir amil isə əgər təhsil alanlar imtahanlarda yüksək nailiyyətlər əldə edirlərsə, texnologiyadan istifadəyə ehtiyac yoxdur kimi düşünülməsidir. Şagirdlərin nailiyyətləri çox olsa da onlar İKT-dən istifadə etməli, onunla bağlı məlumatlara malik olmalıdırlar. Texnologiyanı bilməmək real həyatda bir çox problemlərlə qarşılaşmaq deməkdir, çünki texnoloji avadanlıqlar həyatımızın hər sahəsində əhəmiyyətli yer tutur.

Texnologiya inteqrasiyası ilə bağlı modellər:

- Apple - Gələcəyin Sinifləri Modeli (ACOT): Təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər 5 mərhələdən ibarət inteqrasiya modeli məsləhət

görürlər. Bu mərhələlər giriş, qəbul etmə, uyğunlaşdırma, mənimsəmə və yenilik icad etmə mərhələləridir.

- Texnologiya inteqrasiyası planlama modeli (Robblyer, 2006): Bu modelin ilk mərhələsi müəllimlərin təlim prosesi zamanı baş verən problemlərə diqqət etmələrini və problemləri həll etməyi bacaracaq İKT-yə əsaslanan həll yollarının tapılmasını özündə ehtiva edir. İkinci mərhələdə təhsil alanların texnologiyanı inteqrasiya edilmiş dərslərdən öyrənmələri və nəticələrin təhlili baş verir. Bu mərhələdə hədəflər, məqsədlər qərarlaşdırılmalıdır. Üçüncü mərhələdə təhsil strategiyaları, onların həyata keçirilmələri barədə planlar aparılır. Dördüncü mərhələdə həmin planların reallaşdırılması üçün uyğun şərait hazırlanır. Beşinci mərhələdə öyrənmə-öyrətmə mühitində texnologiya inteqrasiyasının dəyərləndirilməsi və gələcəkdə ediləcək dəyişiklərə qərar verilməsi başlıca yer tutur.
- Ümumi model (Wang, 2008): Bu modelin təməl daşları pedaqoji, sosial təsir və texnologiyadır. Modeldə uğur qazanmaq bu 3 təməl daşına sıx bağlıdır. Bu modelin digərlərindən fərqi ondan ibarətdir ki, sosial təsir gündəlik həyatda olduğu kimi öyrənmə mühitində də vacibdir. Sosial təsir planı qurularkən şagirdlərin öyrənməyə həvəsli olduğu mühitin hazırlanmasına diqqət edilməlidir. Belə mühitlər şagirdlərin bir-biriləri ilə rahat ünsiyyətə girə biləcəkləri şəkildə qurulmalı, həmçinin təhlükəsiz olmalıdır.
- Təhsil kurikulumuna uyğunlaşdırılmış beşmərhələli kompüter texnologiyaları inteqrasiya modeli (Toledo, 2005): İnteqrasiyadan öncə>Dəyişmə>Yayılma>İnkişaf>Tam sistemə inteqrasiya. Modelin ilk mərhələsində inteqrasiyanı maddi olaraq dəstəkləmək üçün universitetlərin qabaqcıl fəaliyyətinə ehtiyac duyulur. İkinci mərhələdə təhsil müəssisələrinə uyğun olaraq vacib dəyişikliklər edilir. Üçüncü mərhələdə kompüter texnologiyalarının kurikuluma inteqrasiya prosesi baş verir. Dördüncü mərhələdə inteqrasiyaya müsbət təsir edən amillərin daha da artmasına cəhd edilir. Beşinci mərhələdə ISTE (International Society for Technology in Education) standartlarına əsasən texnologiyalar müəllimlərin inkişaf etdirilməsi məqsədilə kurikuluma inteqrasiya edilir.
- Əvəzedicilik, İnkişaf, Dəyişdirmə, Yenidən Müəyyən Edilmə (SAMR) Modeli (Puentedura, 2009): SAMR modeli müəllimlərə şagirdlərin fərqli öyrənmə şəkillərinə əsaslanan, onların maraqlarını çəkə biləcək yollar göstərir. Bu modeldə ilk öncə rəqəmsal olmayan avadanlıqları rəqəmsal avadanlıqlarla əvəz etmək üçün şərait qurulur. İnkişafda isə müəllimlərin və şagirdlərin seçilən rəqəmsal avadanlıqlardan əldə etdiyi dəyişikliyə və uğura əsaslanaraq rəqəmsal texnologiyaların istifadə dairəsini genişləndirir. Bu iki səviyyəyə “yaxşılaşdırma” mərhələləri də deyirlər. Üçüncü və dördüncü mərhələlər öyrənmə vəzifələrinin dəyişdirilməsi və ya yenidən müəyyən edilməsinin

rəqəmsal texnologiyaların istifadəsilə mümkün olduğu dəyişdirici mərhələlərdir.

Dərslərə görə texnologiyadan istifadəetmə səviyyələri də dəyişir. Bu səviyyələrə aiddir:

1. Nadir səviyyə - İKT-dən mümkün olduğu qədər uzaq dayanılır;
2. Əsas səviyyə - Şagirdlərə qabaqcadan müəyyən edilmiş texnoloji avadanlıqları işlətməyə icazə verilir;
3. Təminedici səviyyə - Siniflərdə mütəmadi aralıqlarla İKT-dən istifadə edilir;
4. Qüsursuz səviyyə - Təhsil alanlar hər gün texnoloji avadanlıqlardan rahat bir şəkildə istifadə edirlər.

***Ədəbiyyat***

1. *Kazımov A. "Ümumi Təhsil Kurikulumunun Əsasları" Bakı – 2015.*
2. *https://www.acarindex.com/eurasian-journal-of-educational-research/teknoloji-entegrasyonu-onundeki-yeni-engeller-43294*
3. *https://www.egiteknoloji.com/egitimde-teknoloji-entegrasyonu-nedir.html*
4. *Mehdiyeva R. "Tədris prosesində İKT-dən istifadə imkanları" Bakı - 2016.*

**S.A.İsmayılova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sevilismayilova.x@gmail.com***

# DEMOKRATİK LİDERLİYİN ALİ TƏHSİLİN İDARƏ EDİLMƏSİNİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Xülasə***

*Məqalədə demokratik liderlik anlayışı əsasən sosial-psixoloji fenomen kimi izah olunmuş, onun ali təhsil müəssisəsinin idarə edilməsində əhəmiyyətindən, xüsusiyyətlərindən, eləcə də ali təhsilin keyfiyyətinə müsbət təsirindən bəhs olunmuşdur. Ali məktəbin idarə edilməsində demokratik liderlik demokratik dəyərlərə əsaslanmaqla tabeliyindəki insanları müəyyən məqsədlərin əldə olunmasına sövq etmə, hərəkətə keçirmə bacarığı, insanları yönləndirmə gücüdür. Bu idarəetmə tərzi məqsədlərə kollektivlə birgə çatmağı əsas tutur, demokratik lider kollektivin ilhamla və motivlənmiş şəkildə fəaliyyətini təşkil edir, qərarlarda kollektivin fikirlərini nəzərə alır.*

# ВЛИЯНИЕ ДЕМОКРАТИЧЕСКОГО ЛИДЕРСТВА НА КАЧЕСТВО УПРАВЛЕНИЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

***Резюме***

*В данной статье демократическое лидерство рассматривается в основном как социально-психологический феномен. Обсуждается его значение в управлении высшим учебным заведением, особенности и положительное воздействие на качество высшего образования. Демократическое лидерство в управлении высшим учебным заведением предполагает способность вдохновлять и мотивировать людей в коллективе, умение мотивировать подчиненных на достижение определенных целей, умение руководить людьми на основе демократических ценностей. Этот стиль управления основан на совместном с коллективом достижении целей, демократический лидер вдохновенно и мотивированно организует деятельность коллектива, учитывает мнение коллектива при принятии решений.*

# THE IMPACT OF DEMOCRATIC LEADERSHIP ON THE QUALITY OF HIGHER EDUCATION ADMINISTRATION

***Summary***

*In the article, the concept of democratic leadership was mainly explained as a socio-psychological phenomenon, its importance and characteristics in the management of higher education institution, as well as its positive impact on the quality of higher education were discussed. Democratic leadership in the management of a higher school is the ability to motivate subordinates to achieve certain goals, and the ability to direct people based on democratic values. This style of management is*

*based on achieving goals together with the collective, the democratic leader organizes the collective's activities in an inspired and motivated manner, and takes the collective's opinions into account in decisions.*

***Açar sözlər:*** *demokratik idarəetmə, demokratiya, təhsil, liderlik, menecment, ali təhsil*
***Ключевые слова:*** *демократическое управление, демократия, образование, лидерство, менеджмент, высшее образование*
***Key words:*** *democratic administration, democracy, education, leadership, management, higher education*

Ali təhsil müəssisəsində rəhbərliyin üstün səviyyəsi demokratik liderlikdir. Demokratik liderlik liderliyin bir növü olmaqla müəssisənin demokratik dəyərlərinin rəhbər üçün vacibliyinin, rəhbərliyin demokratik prinsiplər çərçivəsində həyata keçirilməsinin göstəricisidir. Rəhbər, menecer və lider anlayışları oxşardır, hətta bəzi ədəbiyyatlarda bu anlayışlar eyniləşdirilir. Bəzən bacarıqlı rəhbər və bacarıqsız rəhbər qavramı ilə qarşılaşa bilərik, amma lider həmişə bacarıqlıdır. Rəhbər, menecer o zaman həqiqi liderdir ki, ali təhsil müəssisəsinin fəaliyyətində, inkişafında həmişə innovasiyalara açıqdır, yenilikçidir, müəssisənin fəaliyyəti ilə hərtərəfli məşğuldur, ən əsası tabeliyindəki şəxslər ondan razıdır və ondan ilhamlanır. Bir qayda olaraq, rəhbər – formal şəxsdir, onun fəaliyyəti qanunvericilik və inzibatçılığa əsaslanır, liderlik isə qeyri-formal, insanlararası münasibətlərə əsaslanır. Rəhbər müəyyən keyfiyyətlərin cəmi ilə liderdir. Bəzən liderlik hər hansı kollektivin və təşkilatının demokratik kontekstinin formalaşdırıcı vahidi kimi özünü göstərir. Lider ön mövqedə durmaqla tabeliyindəki şəxsləri uğura aparan yolda addımları ilə istiqamətləndirən, tabeliyində olan kadrlara müsbət təsir edə bilən, inandırma gücünə malik rəhbərdir. Demokratik liderlik rəhbərin şəxsi keyfiyyətləri, demokratik mədəniyyəti, dəyər və baxışları, demokratik idarəetmə bacarıqları ilə əlaqədardır.

Demokratik liderlik həyatın müxtəlif sahələrinin rəhbərlərinə xas xüsusiyyət olmaqla, ali təhsil sahəsində spesifik cəhətləri ilə seçilən üslubi rəhbərlikdir. Hər bir sahədə olduğu kimi ali təhsil sahəsinin lideri də ümumi liderlik prinsiplərinə əsaslanır və bu prinsiplərdən bəhrələnir. Lakin onu spesifik edən ən əsas cəhət hər bir sahə üçün mütəxəssis hazırlığı ilə məşğul olan pedaqoji kadrlara və yüzlərlə tələbəyə rəhbərlikdir. Ali təhsil müəssisəsinin idarə edilməsində demokratik liderlik demokratiyanın və demokratik idarəetmənin prinsiplərini özündə ehtiva edir. Ali məktəbdə demokratik liderlik:

- bərabərhüquqluluq;
- söz və ifadə azadlığı;

- kollegiallıq;
- ədalətlilik;
- şəffaflıq və açıqlıq kimi demokratik prinsiplərə əsaslanır.

Demokratik liderlik anlayışının hərtərəfli açıqlanmasında əsas məsələlərdən biri odur ki, müxtəlif dövrlərdə demokratiya anlayışına müxtəlif baxışlar olmuş və fərqli cəmiyyətlər üçün demokratiya, onun model və xüsusiyyətləri özünəməxsus şəkildə qavranılmışdır. Bir qayda olaraq hələ qədim zamanlardan "lider"lər toplum arasından seçilən şəxslər hesab olunurdu. Liderlik anlayışına ümumiyyətlə müxtəlif yanaşmalar vardır, məsələn bir qrup düşünür ki, liderlik anadangəlmə keyfiyyətdir, zamanla dəyişməyən bir sıra şəxsi xüsusiyyətlərin məcmusudur və nəsildən-nəslə ötürülür. F.Qalton, E.Boqardus və b. belə düşünürdülər ki, liderlər onları ardıcıllardan fərqləndirən və irsən keçən hər hansı keyfiyyət və ya keyfiyyətlər cəminə sahibdirlər. Ümumilikdə, demokratik liderlik anlayışı keçən əsrin 60-cı illərində White R.K., Lewin K. və Lippitt R. tərəfindən idarəetmə və ünsiyyət üslubu baxımından araşdırılmış, istifadə olunmuşdur.

Liderlik haqqında nəzəriyyəçilərdən biri olan Uorren Bennis çox sayda lideri müşahidə etmiş və onlarda, əsasən, diqqəti idarə etmək, inamı idarə etmək, əhəmiyyəti idarə etmək və ən əsası özünü idarə etmək kimi keyfiyyətləri ayırmışdır. Uorren Bennisə görə insan lider olaraq doğulmur, təcrübə ilə lider ola bilir. *"Lider olmağı öyrənmək üçün ilk öncə bu qəribə dünyanın necə təşkil olunduğunu öyrənmək lazımdır. Menecer və lider fərqli anlayışlardır. Menecer işləri düzgün şəkildə görür, lider isə düzgün işlər görür*" [4; 91].

Demokratik liderlik ali təhsil müəssisəsində idarə edən və idarə olunan yarımsistemlər arasında fikir mübadiləsi və ortaq qərarların alınmasını, söz və ifadə azadlığının dəstəklənməsini, qərarların müştərək qəbulunu, problemlərin birgə səylə həllini, hər kəs üçün bərabər şərtlərin yaradılmasını və bunun kimi çox məsələləri əhatə edir. Tədqiqatlar isbat edir ki, müasir dövrün ali təhsil müəssisəsinin idarə edilməsində demokratik liderlik ən təsirli üslubdur və pedaqoji kollektivin əhval-ruhiyyəsinin, motivasiyasının artmasına, bununla da müəssisənin fəaliyyətinin məhsuldarlığına səbəb olur. Ali təhsildə rəhbər çox sayda struktur vahidindən təşkil olunmuş və yüzlərlə pedaqoji kadrı əhatə edən böyük bir sistemə rəhbərlik edir və bu rəhbərliyin uğurla həyata keçirilməsi onun liderlik xüsusiyyətlərindən asılıdır. Demokratik lider ali məktəbə dair mühüm və qeyri-mühüm məsələlərin digər idarəetmə subyektləri və pedaqoji kollektivin, eləcə də tələbələrin fikir, arzu, istək və düşüncələrini cəlb etməklə ortaq qərarlarla həll edilməsilə müəssisəyə rəhbərliyi həyata keçirir. Demokratik liderlik kollegiallığa əsaslanır, burada rəhbər inzibati-sərəncam işlərilə yanaşı kollektivin emosional-psixoloji ruhlandırılması, motivasiyası, problem həlletmə bacarıqları və özgüvəninə də təsir göstərir, onları birgə

fəaliyyətə təşviq edir, onları ilhamlandırır. Güclü demokratik lider əməkdaşların hörmətini qazanmış, nüfuz sahibi rəhbərdir. Bundan əlavə əməkdaşlığın təşviq edilməsi, pedaqoji kollektiv arasında və tələbələr arasında eyni məqsəd uğrunda birgə fəaliyyət üçün motiv yaradan, ümumi məqsədin nail olunmasında kollektivdə məsuliyyət hissi oyatmaqda liderin əsas qabiliyyəti olmalıdır.

Ali təhsil müəssisəsində demokratik mühit hər kəsin fikrinin vacib olduğu və dəyər verildiyi mühitdir, müxtəlif fikirlər çoxluğu ən doğru qərarların alınması üçün daha obyektivdir. Tabelikdə nə qədər insan varsa, o qədər də bilik və təcrübə var, bunların hər biri ümumi qərarların alınmasında və ali məktəbin nailiyyətlərində öz çəkisini göstərməlidir, fikir müxtəlifliyi problemlərin müxtəlif yollarla yaradıcı həllini göstərir və optimal nəticələrin əldə olunması ilə sonlana bilir. Demokratik liderin şəxsi keyfiyyətindən irəli gələn ən əsas xüsusiyyəti onun ədalətliliyidir. İnsan şəxsiyyətinin formalaşmasına bilavasitə təsir edən təhsil sahəsində ədalətlilik hər bir pedaqoji kadrın və rəhbərin ən əhəmiyyətli cəhətidir. Demokratik dəyərlərdən, bərabərlik və fikir azadlığından bəhs edərkən hər bir şəxsə qarşı ədalətli mövqe qurmaq təhsil idarəçiliyinin disiplin və sistemliliyinin mənəvi təməli kimi çıxış edir. Riçard Kerr qeyd edir ki: *"İnsanlar idarə olunmaq istəmirlər. Onlar kiminsə ideyalarının ardı ilə getmək istəyirlər"* [5; 8].

Əslində, çox insan öz işini yaxşı görmək istəyir, reallıqda isə onların gördüyü işin nəticəsi onların rəhbərinin işinin refleksidir. Demokratik liderlik qabiliyyətlərinə sahib rəhbərin müəssisənin pedaqoji kollektivinə emosional təsiri müəssisənin fəaliyyətinin uğuruna birbaşa təsir edir. Liderliyə təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi də baxıla bilər. Demokratik liderliyin əsas xüsusiyyətlərinə:

- açıq və müsbət kommunikasiya;
- konstruktiv dialoqlar;
- əks-əlaqə;
- kompromiss siyasəti və konsensus;
- özünütənzimləmə və özünüidarəetmə;
- münaqişələrin həlli;
- məsələlərin kollektiv həlli;
- müsbət emosional mühit;
- fərdi və təşkilati məqsədlərin uyğunluğu və b. keyfiyyətlər aiddir.

Ali məktəbdə təhsilin keyfiyyətinə təsir edən əsas cəhətlərdən biri kimi rəhbərin demokratik liderlik qabiliyyəti tələbələrin də liderlik ruhunda formalaşmasını asanlaşdırır. Dövlətin gələcəyi gənc nəslin indiki təhsilinin, mütəxəssis hazırlığının keyfiyyətindən asılı olduğu hər kəsə məlumdur.

Təbiidir ki, tələbələrin hər biri müxtəlif potensiala malik şəxsdir, onlar müxtəlif şəxsi-psixoloji, emosional xüsusiyyətlərə, müxtəlif bilik və bacarıqlara, müxtəlif praktik vərdişlərə sahibdir. Onlar arasında gələcəyin elmi kaşifləri, tədqiqatçıları, müxtəlif müəssisələrdə rəhbərlik potensialına malik tələbələr formalaşır və bunda onların əsas nümunəsi demokratik liderlik modelində qurulmuş idarəetmə və təlim prosesidir. Ali təhsilin keyfiyyətinin yüksəldilməsində demokratik liderliyin əsas funksiyalarına qoyulan məqsədlərin reallaşdırılması, kollektivin yaradılması və şəxsiyyətin inkişafı aid edilir. Ali məktəbin struktur bölmələri, məsələn, kafedralarında müdir və pedaqoji kollektiv arasında və ya bilavasitə təlim prosesində pedaqoq və tələbə münasibətlərində - məqsəd qoyuluşu və ona nail olunması ilk mərhələ kimi çıxış edir. Kollektivin təşkilati strukturunun yaradılması, emosional mühitin formalaşdırılması, kollektiv üzvləri arasında effektiv əməkdaşlığın təşviq edilməsi demokratik liderliyin digər funksiyası kimi məqsədlərin nail olunmasında əhəmiyyətlidir. Son funksiya digər ikisi ilə bilavasitə bağlıdır, belə ki, kollektivin hər bir üzvü qoyulan məqsədlərə çatmaqda maraqlı olmalı, yaradıcı fərdi potensialını göstərməyə həvəsli olmalıdır.

Demokratik liderliyin əsas mənfi cəhəti kimi – qərar qəbuletmə vaxtının uzanması ilə əlaqədardır. Hər kəsin fikirlərinə müraciət etmək standart zaman zərfindən daha çox vaxt tələb edə bilər. Ümumiyyətlə, idarəetmə fəaliyyəti rəhbərdən hər bir üslubun müəyyən zamanda düzgün istifadəsini tələb edir, məsələn, laqeyd buraxılmış iş mühitində rəhbər digər metodlar işə yaramadıqda avtoritarlıq göstərə bilər, burada məsələ düzgün zamanda düzgün davranış göstərməkdir, lakin bu davranış onun üslubunda davamlı tərz kimi qalmayacaqdır.

Nəticə olaraq qeyd etmək olar ki, ali təhsilin idarə olunmasında demokratik liderlik bir model, tərz, üslub kimi çıxış edərək təhsilin müasir standartlara uyğunlaşmasına xidmət edir və yalnızca üslub olaraq qalmır, günümüzün idarəetmə tələbi və reallığı kimi çıxış edir.

***Ədəbiyyat***

1. *Doris L. Wilson. Successful Educational Leadership at High Performing Schools. California State University, San Bernardino, USA – 2011.*
2. *Philip A. Woods. Democratic Leadership. Article. Centre for Educational Leadership, University of Hertfordshire. 2019. 28 p.*
3. *Steven Jay Gross, Joan Poliner Shapiro. Democratic Ethical Educational Leadership. Routledge. 2016. 157 p.*
4. *Warren Bennis. On becoming a leader. 20$^{th}$ anniversary edition. Revised and updated. 2009. 304 p.*
5. *Джон Максвелл. Воспитай в себе лидера. пер. с англ. Г.И.Левитан. – Минск. 2018. - 272 с.*

**S.M.Ramazanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seylaramazanova2@gmail.com***

# TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA MONİTORİNQİN ROLU

***Xülasə***

*Məqalədə təhsilin keyfiyyətinin idarə olunmasında monitorinqin rolundan bəhs edilmişdir. Təhsilin keyfiyyətinin idarə olunmasında monitorinqin rolu əsasən sistemli bir prosesdir. Bu proses təhsilin effektivliyini qiymətləndirmək, problemləri müəyyənləşdirmək, müvafiq dəyişiklikləri tətbiq etmək və nəhayət, təhsilin ümumi keyfiyyətini artırmaq üçün təcrübə və məlumatları cəmləməyi özündə əhatə edir. Eləcə də, monitorinq təhsilin davamlı təkmilləşdirilməsi üçün tələb olunan dəyişiklikləri idarəçilərə məlumat verərək strateji qərarlar almağa və təhsil prosesini daha effektiv və keyfiyyətli etdirməyə kömək edir. Bu da təhsil sistemlərinin daha dinamik olmasına imkan verir.*

# РОЛЬ МОНИТОРИНГА В УПРАВЛЕНИИ КАЧЕСТВОМ ОБРАЗОВАНИЯ

***Резюме***

*В статье рассматривается роль мониторинга в управлении качеством образования. Роль мониторинга в управлении качеством образования представляет собой преимущественно систематический процесс. Этот процесс включает в себя сбор опыта и данных для оценки эффективности образования, выявления проблем, внедрения соответствующих изменений и, в конечном итоге, улучшения общего качества образования. Также мониторинг помогает принимать стратегические решения и делать образовательный процесс более эффективным и качественным, информируя администраторов об изменениях, необходимых для постоянного улучшения образования. Это позволяет системам образования быть более динамичными.*

# THE ROLE OF MONITORING IN EDUCATION QUALITY MANAGEMENT

***Summary***

*The role of monitoring in the management of the quality of education is discussed in the article. The role of monitoring in the management of the quality of education is mainly a systematic process. This process involves gathering experience and data to evaluate the effectiveness of education, identify problems, implement appropriate changes, and ultimately improve the overall quality of education. Also,*

*monitoring helps to make strategic decisions and make the educational process more effective and qualitative by informing administrators about the changes required for continuous improvement of education. This allows education systems to be more dynamic.*

***Açar sözlər:*** *təhsil, keyfiyyət, monitorinq, tələbə*
***Ключевые слова:*** *образование, качество, мониторинг, студент*
***Key words:*** *education, quality, monitoring, student*

Təhsilin keyfiyyəti bir ölkənin inkişafı üçün əhəmiyyətli rol oynayır və bu, cəmiyyətin geniş təbəqələri üçün ədalətli və sürətli əlaqələri təmin etməkdə kömək edir. Təhsilin keyfiyyətinin inkişaf dinamikasına nəzarət etmək gərəkdir. Bu, davamlı monitorinqlə təmin edilir. Müasir dövrdə təhsil sisteminin monitorinqi və tənzimlənməsi təhsilin effektivliyini artırmaq və keyfiyyətini yüksəltmək üçün əhəmiyyətli bir məsələdir. "Monitorinq" anlayışı latınca "monitor" - müşahidə, nəzarət, xəbərdarlıq sözündəndir [6, s.16].

Monitorinqin məqsədi təhsil sahəsinin vəziyyəti və fəaliyyətinin mühüm göstəriciləri üzrə daxil olan informasiyaların ümumiləşdirilməsi və təhlili, inkişaf tendensiyalarının dəyərləndirilməsi və proqnozlaşdırılması, habelə keyfiyyətli təhsilin əldə olunması üçün əsaslandırılmış idarəetmə qərarlarının qəbulu üçün zəmin yaradılmasıdır. Bu məqsədlərə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulur:

✓ nəzarətin təşkili, təhsil prosesinin şərtləri, eləcə də məzmunu, nəticələri barədə etibarlı və qərəzsiz məlumatların əldə olunması;

✓ məlumatın sistemləşdirilməsi, onun effektivliyinin və əlçatanlığının yüksəldilməsi;

✓ standartlaşdırılmış normativ materialların və diaqnostika metodların işlənib hazırlanılması və istifadə olunması;

✓ bütün pillələrdə və səviyyələrdə, fərqli sahələrdə tədqiqat monitorinqi mexanizminin yaradılması;

✓ təhsildəki dəyişiklikləri və bu dəyişikliklərin arxasındakı amilləri tez bir zamanda müəyyənləşdirilməsi;

✓ idarəetmə orqanlarına, təhsil müəssisələrinə, maraqlı tərəflərə və cəmiyyətə monitorinqdən əldə edilən sosial əhəmiyyətli məlumatları təqdim olunması.

Monitorinq prosesi: statistik, iqtisadi, sanitar, tibbi, psixoloji, sosioloji, didaktik, pedaqoji və digər müvafiq kateqoriyalar daxil olmaqla geniş göstəriciləri əhatə edir. Monitorinq həm müxtəlif sahələrdə, həm də kompleks formada aparıla bilər. Bu onun məqsədlərindən və təşkilati imkanlarından asılıdır. Monitorinqin aparılması dedikdə, davamlı nəzarətin təşkili nəzərdə tutulur [6, s.132].

Bir çox ölkədə təhsil sistemi və idarəetmə prinsipləri daim inkişaf etməkdədir. Müasir təhsil tələbatlarına cavab vermək, texnologiyalardan və müstəqil təlimdən istifadə etmək üçün uyğunlaşma zəruridir. Bu məqsədlə, Azərbaycanın təhsil müəssisələrinin idarə edilməsi prinsiplərinin yenidən nəzərdən keçirilməsi və müasir texnologiyalardan faydalanması vacibdir.

Dünya məkanına inteqrasiya beynəlxalq təhsil standartlarına uyğunluğu tələb edir. Bu çərçivədə Azərbaycan təhsil sistemini beynəlxalq standartlara uyğunlaşdırmağa nail olmalıdır. Müstəqil qərarların qəbulu məsələsində, təhsil müəssisələrinin idarəetmə prinsiplərinin demokratik və şəffaf olması vacibdir. Bu, müəssisə içində hər kəsin fikirlərinə və təcrübələrinə hörmət etmək və təhsilin inkişafına müstəqil qüvvələrin cəlb edilməsinə nail olmağa kömək edir.

Həmçinin, təhsil sahəsi tələbələrin təhsil nəticələrini artırmaq üçün keyfiyyətin idarə edilməsinə xüsusi tələblər qoyur. Nəticə etibarilə, təhsil proseslərinə ardıcıl nəzarət təhsilin keyfiyyətinin səmərəli idarə edilməsində mühüm yer tutur.

Təhsilin keyfiyyəti anlayışı əldə edilmiş bilik səviyyəsinin dövlətin, cəmiyyətin, təhsil sahəsi əməkdaşlarının tələblərinə və biliklərin əldə edildiyi şərtlərə cavab vermə dərəcəsinə aiddir. Təhsilin keyfiyyətinin idarə olunması tədris prosesinin səmərəli təşkili, təhsil ehtiyaclarının ödənilməsi üçün əlverişli şəraitin təmin edilməsi və təhsil prosesini əvvəlcədən müəyyən edilmiş məqsədlərə uyğunlaşdırmaq üçün məlumatların operativ qəbulunu və işlənməsini asanlaşdıran meyarlar sisteminin qurulmasını əhatə edir [3, s.6].

Bundan əlavə, yüksək keyfiyyətli təhsil sisteminin innovativ tərəfləri və texnologiyaları tətbiq etməsi, tələbələrin müstəqil fikirlərini inkişaf etdirməsi, onlara praktiki bacarıqlar verməsi, ölkəni dünya miqyasında daha öncül edir.

Təhsilin keyfiyyətinin yaxşılaşması, müstəqil fikirlərin, yaradıcılığın və problem həll bacarığının inkişafına da nail olmağa kömək edir. Bu da innovasiyaların və müstəqil fikirlərin inkişafını təmin edərək, bir ölkənin sosial və iqtisadi sahədə daha peşəkar və müasir olmasına imkan verir. Bu məqsədlə, dövlət, cəmiyyət və təhsilalanlar birgə fəaliyyət göstərməlidirlər. Dövlət tərəfindən təşkil edilən təhsil siyasəti, cəmiyyətin təhsilə olan tələblərinə cavab verməlidir. Həm də təhsil müəssisələri öz proqram və metodlarını daima yaxşılaşdırmalı, müasir texnologiyalardan və təcrübələrdən istifadə etməlidir. Bu, təhsil sisteminin keyfiyyətini yaxşılaşdırmağa və sosial tələblərə cavab verməyə nail olmağa kömək edəcəkdir.

Təhsil müəssisəsi səviyyəsində keyfiyyət idarəetmə sisteminin effektiv işləməsi üçün onun fəaliyyətinin hər bir konkret sahəsinin cari vəziyyətini izləmək lazımdır. Təhsil müəssisələrinin əsas fəaliyyəti təhsil olduğundan, ilk növbədə, tədris prosesinin keyfiyyətinin vəziyyəti haqqında obyektiv məlumatların əldə edilməsinə ehtiyac var. Bu halda təhsil prosesinin

keyfiyyətinin səmərəli idarə olunmasını təmin edən vasitələrin tapılması məsələsi aktuallaşır.

Təhsil monitorinqi təhsil prosesinin keyfiyyətinin idarə edilməsində informasiya, diaqnostik, müqayisəli, inteqrativ və proqnostik funksiyaları həyata keçirir. Təhsil monitorinqi növünə görə dəyişir.

Universitetlərdə təlim prosesinin keyfiyyətinin qiymətləndirilməsində praktiki qərarların və nəticəyönümlü idarəetmə qəbulunu müəyyənləşdirən vacib elementlərdən biri pedaqoji monitorinqdir.

Pedaqoji monitorinq və ya təhsil nailiyyətlərinin monitorinqi şəxsiyyətyönümlü yanaşma çərçivəsində nəzərdən keçirilir. Pedaqoji monitorinq didaktik və tərbiyəvi aspektləri əhatə edir. Alimlərin fikrincə, pedaqoji monitorinq normalardan kənara çıxmaların qarşısını almaq üçün şəxsi inkişaf göstəricilərinin və onun şərtlərinin müntəzəm monitorinqini təmin etmək məqsədi daşıyır. Pedaqoji monitorinqin əsas üsulları portfoliolar, layihə fəaliyyətləri və tələbələrin təhsil nailiyyətlərinin qeydə alınması üçün reytinq sistemidir.

Tələbələrin təhsil nailiyyətlərinin hərtərəfli qiymətləndirilməsinə yönəlmiş pedaqoji monitorinq aşağıdakı vəzifələri həll etməlidir [7, s.105-107]:

- ✓ təhsil nailiyyətlərinin təkcə idrak (bilik) və fəaliyyət (bacarıq) komponentlərini deyil, həm də motivasiya-dəyər (hazırlıq və münasibət) komponentini diaqnostika etmək;
- ✓ təlim prosesi zamanı mənimsənilən səriştələrin inteqrativ qiymətləndirilməsi imkanını təmin etmək;
- ✓ qiymətləndirməyə şəxsiyyətyönümlü yanaşma ideyalarını həyata keçirmək: tələbənin motivlərinə, ehtiyaclarına və şəxsi təcrübəsinə diqqət yetirmək;
- ✓ qiymətləndirmə prosesinə həvəsləndirmə funksiyası vermək ki, monitorinqin özü uğur situasiyalarının yaradılmasının əsas mənbələrindən biri, təhsil fəaliyyətinin daxili tənzimləyicisi kimi çıxış etsin, gələcəkdə təhsil nailiyyətlərinin artımını təmin etsin;
- ✓ akademik intizamın mənimsənilməsində uğurları möhkəmləndirmək və boşluqları doldurmaq üçün iş sahələrində təhsil prosesinin iştirakçılarını istiqamətləndirmək;
- ✓ tələbənin öz təhsil nailiyyətlərini əks etdirməyə hazırlığını və bacarığını inkişaf etdirmək.

Universitetdə tədris prosesinin təşkilinin yüksək keyfiyyəti, ilk növbədə, onun bilavasitə iştirakçılarının (müəllim və tələbələrin) universitetdə kadr hazırlığı üçün yaradılmış tədris prosesi şəraitindən yüksək dərəcədə razı olmasıdır. Universitetdə tədris prosesinin, məsələn, metodik təminat, tələbə elmi-tədqiqat işi, maddi-texniki baza, tədris fəaliyyəti, dərs cədvəlləri, tədris fənləri, müəllimlərin işi kimi komponentləri haqqında onların fikirlərini nəzərə

almaq lazımdır. Universitetdə tədris prosesinin təşkilinin keyfiyyətlə səmərəli idarə olunması monitorinqlər əsasında təmin edilir [5, s.7].

Monitorinqin universitet praktikasında tətbiqi tədris prosesinin təşkilinin keyfiyyətinin yaxşılaşdırılması və müvafiq olaraq təhsil nəticələrinin - məzunların peşə fəaliyyətinə hazırlığının keyfiyyətinin yaxşılaşdırılması üçün vaxtında idarəetmə qərarları qəbul etməyə imkan verir.

Təhsilin keyfiyyətinin monitorinq sisteminin yaradılması sərhədsiz əhəmiyyətə malikdir və bu, təhsilin sürətli və effektiv inkişafı üçün vacibdir. Bu monitorinq sistemi, tələbələrin bacarıqlarını və biliklərini ölçməkdən ziyadə, təhsilin bir çox aspektlərini ölçməyə nail olmalıdır. Təhsilin keyfiyyətinin və effektivliyinə dair tədqiqatların hazırlanması, məlumatların effektiv şəkildə toplanması, təhlil edilməsi və nəticələrin qiymətləndirilməsi üçün tədqiqat təşkil edir.

Universitetdə təhsilin keyfiyyətinin yüksəldilməsi məsələsinə bir çox əsas yollarla yanaşmaq olar.

- ✓ ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş texnologiya və mənbələrin təmin edilməsi;
- ✓ mütəxəssis hazırlığının keyfiyyəti;
- ✓ təhsil standartlarının, tədris proqramlarının və dərsliklərin keyfiyyəti;
- ✓ təhsil prosesinin təşkili keyfiyyəti, habelə elmi, metodiki, informasiya, kadr və maddi-texniki dəstəyin keyfiyyəti [4, s.12].

Təhsilin keyfiyyəti anlayışı çoxşaxəli və qarışıqdır. Təhsilin keyfiyyətini yalnız təlim nəticələri ilə əlaqələndirmək mümkün deyil. Təlim nəticələri təhsilin bir hissəsidir, ancaq bu, təhsilin bütününü təşkil edən bir çox amildən yalnız biridir. Başqa amillər də nəzərə alınmalıdır ki, təhsilin keyfiyyəti ətraflı bir şəkildə qiymətləndirilsin. Belə ki, təhsil prosesinin effektivliyini qiymətləndirərkən mühit və onun xarakteristikaları, yaradılan şərait, təhsilverənlərin pedaqoji hazırlığı kimi amillər də əhəmiyyətli rol oynayır.

Monitorinqin aparılması ilə təhsilin keyfiyyətinə daimi nəzarət etmək, təhsil prosesi çərçivəsində uğur və ya uğursuzluqları müəyyənləşdirmək və bu nəticələrə səbəb olan əsas elementləri müəyyənləşdirmək mümkün olur.

Təhsilin idarə edilməsinin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsinin əsas məqsədi insanların təhsil ehtiyaclarını və istəklərini effektiv şəkildə ödəməyə yönəlmiş qərarların qəbul edilməsidir. Qarşımızda duran əsas vəzifə toplanmış məlumatların keyfiyyətini qiymətləndirməkdir. [2,s.49]

Monitorinqlər aparılarkən bu sistem: diaqnostik, inteqrativ informasiyalılıq, elmilik, pedaqoji kommunikativlik, sosial-normativ xarakterlilik, fasiləsizlik, tamlıq və ardıcıllıq prinsiplərinə əsaslanmalıdır. [1,s.38]

Təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi bir ölkədə dövlət, cəmiyyət və təhsilalanların ümumi tələblərinə cavab vermək üçün əhəmiyyətli bir məsələdir. Bu, bir ölkənin sosial və iqtisadi inkişafının əsas faktorlarından biri olaraq qəbul edilir. İstifadə edilən universitet proqramları, tələbələrə təqdim edilən imkanlar, tədris metodu və digər faktorlar təhsilin keyfiyyətini təyin edir.

Sistemli monitorinqin həyata keçirilməsi ilə təhsil müəssisələri haqqında hərtərəfli məlumatlar toplanır, diqqətlə öyrənilir və sonradan müqayisə olunur ki, bu da mövcud problemlərin aradan qaldırılması üçün mümkün olan həllərin formalaşdırılmasına səbəb olur.

***Ədəbiyyat***

1. *Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007. -184 səh.*
2. *Məmmədzadə R., Abdullayev A., Kərimova F., Cabbarov R., Rəsulov S., Quliyev Ə. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı - 2008, -238 səh.*
3. *Məmmədzadə, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. -170 s.*
4. *Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. (Mühazirə xülasələri). Dərs vəsaiti, Bakı - 2019, -216 s.*
5. *Болотов В.А. О построении общероссийской системы качества образования // Вопросы образования, 2005. № 1. С. 5-11.*
6. *Звонников В.И., Челышкова М.Б. Современные средства оценивания результатов обучения: учеб. пособие для студ. высш. учеб. Заведений – М.: Издательский центр «Академия», 2007. -224 с.*
7. *Чандра М.Ю. Системный мониторинг в управлении качеством образовательного процесса в вузе // Изв. Волгогр. гос. пед. ун-та. Сер. : Педагогические науки. - 2008. - №6 (30). - С. 105-110.*

**A.V.Fərzəliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayan.f227@gmail.com***

# XIX ƏSR MİLLİ BURJUAZİYAMIZIN İNKİŞAFINA AĞA MUSA NAĞIYEVİN VERDİYİ TÖHFƏ

***Xülasə***

*XIX əsrin sonu XX əsrin əvvəllərində ölkəmizdə və Çar Rusiyasında iqtisadiyyatın əsasını təşkil edən neft sənayesinin inkişaf etdiyi bir dövr kimi yadda qalıb. Neft sənayesinin inkişafında xarici şirkətlərlə yanaşı yerli neftxudaların da az əməyi olmamışdır. Məqalədə Rusiyada, o cümlədən, bütün müsəlman şərqində sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti ilə seçilən Ağa Musa Nağıyevin həyat yolundan bəhs olunur. Kasıb bir ailədə dünyaya gəlib öz işgüzarlığı, kamalı, əzmi sayəsində yük daşımaqdan adlı-sanlı neft milyonçusuna çevrilmiş Ağa Musa Nağıyevin həyat yolu və xalqının firəvanlığı üçün gördüyü işlər biz gənc nəsilə örnəkdir. Bakılı neft milyonçusunun cəmi 77 il davam edən çox maraqlı ömür yolu olmuşdur.*

# ВКЛАД АГА МУСА НАГИЕВА В РАЗВИТИИ НАШЕЙ НАЦИОНАЛЬНОЙ БУРЖУАЗЫ В XIX ВЕЧЕНИИ

***Резюме***

*Конец XIX и начало XX веков запомнились как время развития нефтяной промышленности, которая составляла основную часть экономики нашей страны и царской России. Помимо иностранных компаний, значительную роль в развитии нефтяной промышленности сыграли и местные нефтяные лорды. В статье рассказывается о жизненном пути Ага Мусы Нагиева, отличающегося предпринимательской и благотворительной деятельностью в России, в том числе на всем мусульманском Востоке. Ага Муса Нагиев, родившийся в бедной семье и благодаря своей деловой хватке, целеустремленности превратившийся из грузоперевозчика в известного нефтяного миллионера, является примером для молодого поколения. У нефтяного миллионера из Баку был очень интересный жизненный путь, который продлился всего 77 лет.*

# AGA MUSA NAGIYEV'S CONTRIBUTION TO THE DEVELOPMENT OF OUR NATIONAL BOURGEOISE IN THE 19TH CENTURY

***Summary***

*The end of the 19th century and the beginning of the 20th century are remembered as a time when the oil industry, which was the main part of the economy in our country and Tsarist Russia, developed. In addition to foreign companies, local oil lords also played a significant role in the development of the oil industry. The*

*article talks about the life path of Aga Musa Nagiyev, who is distinguished by his entrepreneurial and charitable activities in Russia, including in the entire Muslim East. Aga Musa Nagiyev, who was born in a poor family and thanks to his business acumen, determination, and turned from carrying cargo into a famous oil millionaire, is an example for the younger generation. The oil millionaire from Baku had a very interesting life path that lasted only 77 years.*

***Açar sözlər:*** *neft sənayesi, xeyriyyəçilik fəaliyyəti, neftxuda, XIX əsr milli burjuaziya*

***Ключевые слова:*** *нефтяная промышленность, филантропическая деятельность, нефтяной бог, национальная буржуазия XIX века*

***Key words:*** *oil industry, charitable activities, oil millionaire, XIX century national bourgeoisie*

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda milli burjuaziyanın təşəkkülünə təkan verən amillərdən biri kimi xalqımızın ən böyük sərvətlərindən hesab olunan "Qara qızıl" - neft hasilatının artması idi. Ölkəmizin zəngin neft kapitalı Bakıda iri neft sərmayədarlarının artmasına gətirib çıxarır. Ölkəmizdə təkcə xarici ölkələrdən olan neft maqnatlarının deyil, yerli neftxudaların da sayı çoxalır. Neft milyonçularımızı xarici sərmayədarlardan fərqləndirən əsas xüsusiyyət isə dədə-baba mirası olmadan savadsız, kasıb vəziyyətindən öz zəhmətləri, səyləri hesabına bu mövqeyə gəlmələri və bir çoxunun qarşısındakı əsas məqsəd isə xalqın tərəqqisi və maariflənməsi yolunda çalışması idi. O dövrdə Azərbaycanda çar II Nikolayın 11 görkəmli neft milyonçusundan hesab etdiyi şəxslərdən biri də "Neft kralı" tituluna sahib Ağa Musa Nağıyev idi [2, s.6].

Bakı quberniyasının Biləcəri kəndində soyuq bir qış gecəsində saman satmaqla dolanan bir ailədə dünyaya göz açan görkəmli şəxsiyyət fəhləçilik etməklə pullarını qəpik-qəpik toplayaraq aldığı Bibiheybət ərazisində yerləşən ona məxsus kiçik torpaq sahəsindəki mədənlərdə bir-birinin dalınca vuran neft fantanları onu neft maqnatına çevirmişdir.

Gəliri çoxaldıqca Sabunçu, Ramanı, Suraxanı kimi ərazilərdə aldığı torpaqlarda neft yataqlarının istifadəsinə başlayır və sonralar Qaraşəhərdə kiçik neft zavodu tikdirir. Rəsmi hesablamalara görə, Ağa Musa Nağıyevin neft mədənlərində texniki baxımdan yüksək səviyyədə olan, məhsuldarlığı ilə seçilən 40-dan çox neft quyusu olmuşdur. Bu mədənlərdə xeyriyyəçi 800-dən çox şəxsi işlə təmin etmişdir. İstedadlı azərbaycanlı mühəndis Fətullabəy Rüstəmbəyovun və Nağıyevin mədənlərində rəhbər vəzifəsini icra edən mühəndis - geoloq Hüseynxan Talışxanovun bu neft quyularının hasilatında önəmli rolu var idi. O, 1908-ci ildə Ağa Musa Nağıyevin sahibi olduğu neft mədənlərindən 12.328.300 puddan çox xam neft hasil edərək istehsalı rekord

səviyyəyə çatdırır. 1913-cü ildə isə A.M.Nağıyevin sahibi olduğu müəssisələr o dövrdə ən iri Azərbaycan firmalarının ilk onluğuna daxil olmuşdur, daha sonralar isə həmin müəssisələr müxtəlif illərdə 6-7-ci yerləri tutmuşdur.

"Əl tutmaq Əlidən qalıb" məsəlinə sadiq qalan xeyriyyəçi Bakı ətrafında 4 xəstəxana binasının tikilməsi (onlardan biri keçmiş Semaşko adına xəstəxana idi), insanların içməli suya olan tələbatlarının ödənilməsi (Bakı su kəmərinin tikilişi), Realnı məktəb tikilişi və ilk orta məktəbi öz qəyyumluğuna götürməklə hər il 25 müsəlman uşaqdan ibarət siniflərin təhsillərini həyata keçirməsi milyonçunun hər zaman xalqının taleyini düşündüyünün bariz nümunəsidir.

Könül Səmədzadənin messenatın 180 illik yubileyi ilə əlaqədar onun həyat və fəaliyyəti ilə bağlı işıq üzü görmüş kitabında vurğulanır ki, o, paytaxtımızın arxitekturasına xüsusi gözəllik qatmaq üçün qarşısına 100 binanın tikdirməsini məqsəd qoysa da, 98 binanın tikilməsinə nail olmaqla o dövr memarlığımıza xüsusi töhfə vermişdir. Onun vəsaiti hesabına tikilən 28 may küçəsini başdan-ayağa bəzəmiş qırmızı kərpicdən tikilən möhtəşəm binalar, Qoşa qala qapıları, Mərkəzi poçtun köhnə binası, Nizami küçəsində Operanın yaxınlığında yaşayış evi, Nigar Rəfibəyli küçəsində yerləşən əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində yerləşən Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" kimi mehmanxanalar kimi gözəgəlimli tikililər hər ornamentində xüsusi ştrixə malikdir [3, s.53].

Milyonçunun nəvəsi Dilarə Nağıyeva babasına həsr etdiyi "Zamanın sorağında" adlı kitabında qeyd edir ki, öz keçmişini heç vaxt unutmayan milyonçunun tikililərinin kənarında saman çələngi ortada hambal şələsi və üzərində MN və yaxud AM (ad və soyadı) təsvir olunub. Sahibi olduğu firmaya məxsus, binaların üzərini bəzəyən Venzel (daş kitabə) adlanan emblem Ağanın əsil-nəcabətini əks etdirir və onun imzası kimi xeyriyyəçilik timsalı olaraq tikililərin üzərində müasir dövrdə də saxlanılmaqdadır. Onun göstərişi ilə tikilən bu binalar uzun illər ölkənin ictimai-siyasi, mədəni-maarif, rabitə və digər sahələrdə istifadə olunaraq bir çox tarixi hadisələrə şahidlik edib. Musa Nağıyevi digər milyonçulardan fərqləndirən cəhətlərdən biri də köhnə Bakımızın memarlıq üslubuna etdiyi qatqıdır [3, s.18].

Milli burjuaziyamızın formalaşdığı bir dövrdə Nağıyev avropalaşmaq istəyində olanlara "Qərbi Azərbaycana gətirəcəyəm" deyirdi. Onun imzası ilə seçilən bu tikililər gözəlliyi, möhtəşəmliyi, nadir üslubu özündə birləşdirməklə bərabər, qəmgin duyğuları da özündə yaşadır. Belə ki, bu duyğuların mənbəyi həmin binaların sahibinin kədərli taleyidir. Ömrünün 70-ci baharında vəfat edən milyonçunun həyatı digər milyonçu-xeyriyyəçilər kimi çox faciəvi olub - Azərbaycanda kommunist rejiminin qurulması neft maqnatlarını taleyin sərt üzü ilə üz-üzə qoyur. Nəticədə, səfalət içində dünyasını dəyişənlər, düşdüyü vəziyyətə dözməyib intihar edənlər və dərddən dünyasını dəyişənlər oldu. 20-ci

illərdə bolşeviklərin Azərbaycanda hakimiyyəti ələ keçirməsi Bakı milyonçularının taleyinə və karyeralarına birdəfəlik son qoyur.

Dəbdəbəni sevməməsinə, hər qəpiyinin hesabını tutduğuna görə o dövrdə Nağıyevi xəsis, simic adlandırsa da, ölkəsi, xalqı üçün gördüyü ictimai işlər onun adını bu şəhərdə dillər əzbəri etmişdir. Xalqının gələcəyi üçün etdiyi iriməbləğli ianələr sayəsində bir çox gənc xarici ölkələrdə təhsil almış, savadlı kadrlar kimi ölkəmizə qayıdaraq fəaliyyət göstərmişdir [2, s.5].

Bəhayi məzhəbinə mənsub olan Nağıyev Şeyx Bəhanın şərəfinə ecazkar arxitekturası ilə seçilən "İsmailiyyə" binasının ən yuxarı hissəsində onu qranitdən böyük bir heykəlini qoydurmuşdu, heykəlin alt tərəfində yerləşən girdə pəncərələrin birində isə həyatdan tez köçən oğlu Ağa İsmayılın kresloda əyləşən vəziyyətdə mərmərdən yonulmuş heykəli dururdu. Həmçinin o bəhayi məzhəbinə mənsub olanlar üçün məscid tikdirmişdi. Məzhəb mənsublarının öz seçimi ilə mavi rəngə boyanan məscid minarəsiz, tağvari qapı və iri pəncərəli səkili mülk idi.

Soyuqqanlı, səbrli olması kimi xüsusiyyətləri ilə seçilən Nağıyev var-dövlətinə görə iki dəfə Bakı qoçuları tərəfindən qaçırılaraq ondan yüksək məbləğdə pul tələb olunur. Ölümlə təhdid olunmasına baxmayaraq o qoçulara istədiyini vermir.

Xalqının inkişaf etməsini qarşısına əsas vəzifə qoyan xeyriyyəçi bir çox neft maqnatları kimi Azərbaycanda bolşevik hökuməti hakimiyyəti ələ keçirəndən sonra düşmən damğası vurulur. Təəssüflər olsun ki, böyük xeyriyyəçiyə qarşı bu münasibət dəyişməz olaraq qalır. Azərbaycanın xeyriyyəçi şəxsiyyətləri sovetlər tərəfindən istismarçı sinif adlandırılmış, onlara qarşı əks-təbliğat işləri həyata keçirilərək xalq tərəfindən unutdurulmağa səy göstərilmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli burjuaziyamızın görkəmli nümayəndələri ilə bağlı tarixi ədalət bərpa olunaraq onların həyat və fəaliyyətinin öyrənilməsinə başlanılır, obyektiv elmi-tədqiqat işləri həyata keçirilir.

Azərbaycanlı milyonçunun xeyriyyəçilik işləri təkcə öz xalqının nümayəndələrinə deyil, həmçinin digər ölkə və xalqlarının nümayəndələrinə həsr olunub. Həmçinin, onun fəaliyyəti cavabsız qalmır – qardaş türk xalqı üçün gördüyü ictimai xeyriyyəçilik fəaliyyəti Osmanlı dövləti tərəfindən dəyərləndirilərək ona yüksək səviyyəli medallar təqdim olunmuşdur. Milyonçunun nəvəsi Dilarə Nağıyeva babası ilə bağlı yazdığı xatirələrində vurğulayır ki, böyük xeyriyyəçinin təsisçisi olduğu "Xeyriyyə Cəmiyyəti" təşkilatı 1912-1913-cü illərdə Osmanlı dövlətinin 4 Balkan dövləti ilə apardığı döyüşlər zamanı burada mövcud olan "Qızlay Cəmiyyəti"nə dəfələrlə göstərdiyi yardımın miqdarı 884.683 quruş təşkil etmişdir. Rus-Osmanlı müharibəsi gedişində Ərzurum vilayətində dağıdılan məscidlərin birinin tapıntıları arasında aşkarlanmış "Qurani-Kərim" kitabının xeyriyyəçi tərəfindən

satın alınması və Osmanlı sultanı V Mehmet Rəşidə hədiyyə olunması ilə bağlı bu ölkədə arxiv sənədləri mövcud olmuşdur. Onun xeyriyyəçilik fəaliyyətini yüksək qiymətləndirən Osmanlı Sultanı Nağıyevə "Məcidiyyə", "Osmaniyyə" adlı ordenlər təqdim etmişdir. Böyük xeyriyyəçinin Osmanlı dövləti üçün gördüyü işlər, həmçinin, Osmanlı Sultanı tərəfində mükafatlara layiq görülməsi Azərbaycan-Türkiyə arasında qardaşlıq münasibətlərinə böyük töhvə verir və türk dünyasının tarixində şanlı səhifələrdən hesab olunur.

Milyonçunun nəvəsi həmçinin öz xatirələrində yazır ki, Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində Hacıya məxsus sənədlərdə onun sahibkarlıq və xeyriyyəçilik fəaliyyətinə görə III dərəcəli Müqəddəs Stanislav ordeni, çar II Nikolayın "Zolotaya Şeynaya medalına Andreyevskoy Lente" kimi nişanlara layiq görülüb [5].

XIX əsrin sonu XX əsrin əvvəllərinə aid və müasir dövrümüzdə də görünüşü ilə memarlıq incilərimiz arasında özünməxsus yer tutan "İsmailiyyə" binasının tikdirməkdə milyonçunun əsas məqsədi dünyadan erkən köçən oğlu İsmayılın xatirəsini əbədiləşdirmək idi. Digər adı "Cəmiyyəti-Xeyriyyə" olan binanın tikilməsini Hacı Zeynalabdin Tağıyev hər il Novruz bayramı münasibətilə qız məktəbinin "Ərəbkarı salonunda" təşkil etdiyi mərasim zamanı bir neçə məşhur axund, qazı, ağsaqqal, o cümlədən Mir Məhəmməd Kərim, Axund Hacı Turabla məsləhətləşib qərara gəlirlər ki, Ağamusa gələndə oğlu İsmayılın vəfatından sonra onun adını əbədiləşdirmək üçün cəmiyyəti-xeyriyyə üçün bina tikməsini boynuna qoysunlar. Hacı qazı Məhəmməd Kərimə Ağamusa razılaşan kimi dua oxumağa başlamasını söyləyir, biz də Ağa Musanı təbrik edər və ona boyun qaçırmağa macal vermərik. Beləliklə, Nağıyev razılaşan kimi 1908-ci il dekabrın 21-də "Qapan dibi" adlanan yerdə binanın təməli qoyulur. Rəssam Mir Teymur "Qapan dibi" adlanan ərazidə rayondan gələn mallar satıldığını və rusların bu ərazidə müsəlmanlara bina tikmələrinə imkan vermədiyini vurğulayır. Şəhər duması bu yeri müsəlman cəmiyyətinə verməklə uzun-uzadı davam edən söz-söhbətlərə son qoyur. Müsəlman cəmiyyəti də öz növbəsində bu yerdə təmtəraqlı, altı sütunlu, çox günbəzli məscid tikdirmək istəsə də, həmin yerdə artıq mövcud olan qızıllı kilsənin yanında belə bir məscidin tikilməsi ilə rus icması razılaşmır. Məscidin inşası saxlanılaraq ərazi hasara alınır". Sonralar dumada bu ərazidə bağ salınması fikri səslənsə də, ərazi müsəlman xeyriyyə cəmiyyətinə qalır [2, s.3].

"İsmailiyyə" ictimai məqsədlər üçün tikilən bir bina idi və ilk dəfə Azərbaycanda ictimai, ədəbi və siyasi təşkilatların fəaliyyət göstərə biləcəyi bina tikilib fəaliyyət göstərməsi böyük bir hadisə idi. "İsmailiyyə" binasında xeyriyyə cəmiyyəti ilə yanaşı Qafqaz Müsəlman Komitələri də yerləşirdi. Burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılır, müsəlman yığıncaq və qurultayları təşkil olunurdu. Bu da xeyriyyə cəmiyyətlərinin fəaliyyəti üçün böyük töhfə idi. Xeyriyyə cəmiyyətlərinin meydana gəlməsində

həmin dövrdə neft istehsalının yüksəlməsi böyük önəm kəsb edir. Bu amili 1875-ci ildə əsası qoyulan ilk xeyriyyə cəmiyyətinin 11 nəfər üzvü arasında Zeynalabdin Tağıyevin və digər milyonçuların olması faktı bir daha təsdiqləyir. Azərbaycan xalqının maariflənməsi, əhalinin savadlanması yolunda xeyriyyə cəmiyyətləri əvəzolunmaz rol oynayıb [1].

Nağıyevin imzası olan bu möhtəşəm bina tikildiyi dövrdən bu günə qədər xalqımızın tarixində zaman-zaman baş vermiş bir çox tarixi hadisələrə şahidlik edərək tariximizin daşlaşmış yaddaşına çevrilir: Azərbaycana muxtariyyat və müstəqillik verilməsi ideyaları ilk dəfə məhz bu binada səsləndirilib.

Xalqızımızın tarixində baş verən acınacaqlı hadisələr bu tikilidən də yan ötüşmür. Cümhuriyyətimizin süqutundan sonra Bakını ələ keçirən bolşeviklər İsmailiyyənin bir hissəsini 26-lara, Şaumyana, sonra isə rus əsgərlərinə verir. 1918-ci il mart soyqırımları zamanı tikili mənfur düşmənlərimiz tərəfindən yandırılır. Beləliklə də, həmin ildə xalqımızın erməni soyqırımına məruz qaldığı kimi, İsmailiyyə binası da vəhşiliklərin qurbanı oldu. Belə versiyalar irəli sürülür ki, ermənilər binanın bünövrəsinə qızılın qoyulması ilə bağlı xəbərlərə aludə olaraq binanı top atəşinə tutmuşdular. Amma təsəlliverici məqam odur ki, İsmailiyyənin arxivi yandırılsa da, özülünü məhv edə bilmədilər. İsmailiyyənin yandırılması milyonçunun ağır iztirablarına səbəb olur. Ermənilər təkcə binanı yandırmır, həm də binanın üzərində qızıl hərflərlə yazılmış “İsmailiyyə” sözünü qoparır, sarayı talan edirlər, arxiv sənədlərini ələ keçirirlər. Qeyd edək ki, bina yalnız cümhuriyyət dövründə bərpa olundu. Hazırda isə bu binada Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir.

Beləliklə, XIX əsrdə müstəmləkə şəraitində olan ölkəmizdə neft hasilatının çoxalması nəticəsində iqtisadi inkişafa təkan verən milli burjuaziyamızın formalaşmasında maarifpərvər, vətənini sevən şəxslərin də rolu xüsusilə qeyd olunmalıdır. Hər nə qədər xəsis adlandırılsa da, Ağa Musa Nağıyev milli burjuaziyamızın görkəmli nümayəndələrindən biri kimi gördüyü xeyirxah işlər illər keçdikcə qədirbilən xalqımızın yaddaşlarından silinməyəcək. Onun əməyi nəticəsində ərsəyə gələn saysız möhtəşəm tikililərini, maariflənmə və səhiyyənin inkişafı üçün gördüyü işlərə nəzər yetirdikcə, sahib olduğu insani keyfiyyətlərini dəyərləndirdiyimiz zaman qəlbimizdə Ağa Musa Nağıyevə yer ayıracağınıza əminəm.

***Ədəbiyyat***

1. *“İsmailiyyə” binası: bir gənc xatirəsi üçün, bir millətin iftixarı naminə. 2011. Məqalə, 525-ci qəzet.- 2011.- 13 may.- S.6.*
2. *Neft milyonçusu, tacir və mesenat-xeyriyyəçi Musa Nağıyevin 180 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə,*

*kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. -28 s.*

3. *Nağıyeva D.A. Zamanın sorağında (Milyonçu Ağa Musa Nağıyevin fəaliyyəti və xeyriyyəçiliyi haqqında) Bakı, Elm nəşriyyatı 2011*
4. *Благотворительность в Азербайджане в начале XX века, Использованы данные из монографии В.Прохорова «Российское предпринимательское благотворение: неизвестные страницы (XIX – начало XX вв.)»*
5. *https://www.azerbaijan-news.az/posts/detail/xeyriyyecilik-fealiyyeti-osmanli-dovleti terefinden-mukafatlandirilmis-azerbaycanli-milyoncu-1625946547*

**A.R.Xasayzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***afaq.xasayzade@gmail.com***

# TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNNOVATİV TƏLİM METODLARI İLƏ İDARƏ OLUNMASININ ƏHƏMİYYƏTİ VƏ ÜSTÜNLÜKLƏRİ

***Xülasə***

*Təhsil sistemini hal-hazırda innovativ proseslər olmadan təsəvvür etmək qeyri-mümkündür. Məqalədə innovativ fəaliyyətin mahiyyəti aydınlaşdırılır və idarəetmədə istifadəsindən bəhs olunur. İnnovativ fəaliyyətin təhsilin inkişafına və keyfiyyətin yüksəldilməsinə təsiri əsaslandırılır. Təhsilin tərkib hissəsi kimi innovasiya prosesi müzakirə olunur. İnnovativ təlim metodlarından istifadə sadəcə təhsili təkmilləşdirmək deyil, eyni zamanda idarə etməni gücləndirmək və təhsil işçiləri, şagirdləri inkişaf etdirmək kimi məsələlər əhatə edilir. Məqalədə innovasiyaların, təhsil texnologiyalarının ümumi orta təhsil standartlarının məzmununa, prosesin səmərəliyinə əsaslanması öz əksini tapmışdır. İnkişaf prosesi kimi innovativ təlim prosesi məktəblərdə keçirilir. Məqalədə innovativ hallardan istifadə etməklə öyrənmənin problemli-situasiya forması təsvir edilmişdir.*

# ВАЖНОСТЬ И ПРЕИМУЩЕСТВА УПРАВЛЕНИЯ ОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ ИННОВАЦИОННЫМИ МЕТОДАМИ ОБРАЗОВАНИЯ

***Резюме***

*В настоящее время невозможно представить систему образования без инновационных процессов. В статье уточняется сущность инновационной деятельности и рассматривается ее использование в менеджменте. Они обосновывают влияние инновационной деятельности на развитие образования и повышение его качества. Обсуждается инновационный процесс как составная часть образования. Использование инновационных методов обучения направлено не только на улучшение образования, но и на усиление управления и развитие преподавателей и студентов. В статье отражено то, что инновации, образовательные технологии базируются на содержании стандартов общего среднего образования и эффективности процесса. Инновационный процесс обучения, как и процесс развития, происходит в школах. В статье излагается проблемно-ситуативное форма обучения с использованием инновационных кейсов.*

# THE IMPORTANCE AND ADVANTAGES OF MANAGEMENT OF EDUCATIONAL INSTITUTIONS WITH INNOVATIVE EDUCATIONAL METHODS

***Summary***

*Currently, it is impossible to imagine the education system without innovative processes. The article clarifies the essence of innovative activity and discusses its use in management. They justify the impact of innovative activity on the development of education and improvement of quality. The process of innovation as a component of education is discussed. The use of innovative teaching methods is not only about improving education, but also about strengthening management and developing educators and students. The article reflects the fact that innovations, educational technologies are based on the content of general secondary education standards, and the efficiency of the process. The innovative learning process, like the development process, takes place in schools. The article describes a problem-situational form of learning using innovative cases.*

***Açar sözlər:*** *innovasiya, innovativ təlim metodları, təhsilin innovativ idarə edilməsi, texnologiyanın təhsildə istifadəsi*

***Ключевые слова:*** *инновации, инновационные методы обучения, инновационный менеджмент образования, использование технологий в образовании*

***Key words:*** *innovation, innovative training methods, innovative management of education, technology uses in education*

Təhsildə innovasiyalar yeninin tətbiqi, mövcud olanların dəyişdirilməsi ilə bağlıdır. Latın sözü olub "yenilik" mənasını verən "innovasiya" termini XX əsrin əvvəllərində meydana gəldi, onun vasitəsilə texniki yeniliklərin qanunauyğunluğu öyrənilməyə başlandı. İnnovativ proseslər təhsildə üç əsas aspektdən asılıdır ki, bunlar da psixoloji, sosial-iqtisadi, pedaqoji və təşkilati idarəetmə aspektləridir. İnnovativ fəaliyyət hər şeydən əvvəl təhsillə bağlı dövlət siyasəti prinsiplərinə, qəbul edilmiş qərarlara, strategiyalara istinad etməlidir. Təhsilin məzmununu innovasiyalarla daha da çoxaltmaq eyni zamanda, ölkənin inkişafına, müsbət istiqamətdə cəmiyyətin vəziyyətində dəyişikliklərin baş verməsinə səbəb olacaqdır. Bir neçə ildir ki, təhsilin məqsədi sadəcə dərslikdəki məlumatları öyrədib şagirdləri anlamaq deyil, həmçinin innnovativ təfəkkürə yaradıcı mühiti təmin etməkdir. Nəticədə isə məhsuldar və keyfiyyətli təhsil əldə etmək üçün innovasiya istiqamətində uğur qazanmaq lazımdır. Bu uğurun əldə edilmə yollarını aşağıdakı kimi göstərmək olar: təhsil müəssisələrində tədris prosesinin innovativ idarə edilməsi üzrə məktəb rəhbərləri, sinif müəllimləri üçün təlimlərin, seminarların, konfransların həyata keçirilməsinə sövq edilməlidir; məktəb direktorları və

müəllimlərinə informasiya kommunikasiya vasitələrindən istifadəyə maraq yaradılmalı, həmçinin bu vasitələrdən istifadə edə bilmələri üçün təlimlərə cəlb olunmalıdır; məktəblərə daimi olaraq elektrik enerjisi verilməlidir ki, texnoloji vasitələr elektriklə işə salınır; sözsüz ki, texnoloji alətlərdən istifadə etmək bacarığı olan kadrlarla məktəb təmin olunmalıdır; məktəbdə strateji planlaşdırmanı təhsil menecerləri qəbul etməlidir; idarəetmədə transformasiya liderliyindən istifadə olunmalıdır, çünki təhsil işçilərini məktəbdənkənar işləməyə stimullaşdırır.

Təhsildə innovasiyalar yeninin tətbiq edilməsi, mövcud olanların dəyişdirilməsi və təkmilləşdirilməsi kimi başa düşülür. Həmçinin, özündə yeninin məzmununu, metodlarını və texnologiyasını əhatə edən hadisədir. Qabaqcıl pedaqoji təcrübənin tətbiq edilməsi təhsil sahəsində innovasiyaların yaranmasına səbəb olmuşdur. Bu gün təhsil sisteminin səmərəli və effektli olması innovativ təcrübələri nə qədər tez mənimsənilməkdən asılıdır. İnnovativ fəaliyyətin əsas məqsədi şagirdləri və tələbələri dəyişməkdə olan dünyaya hazırlamaq, müstəqil şəkildə əldə edilən informasiyaları idarə edə bilmək bacarığını formalaşdırmaq, elm və təcrübənin nailiyyətlərindən istifadə edərək uşaqların təbii bacarıqlarını üzə çıxarıb inkişaf etdirməkdir. İnnovativ təlim metodlarından tədris prosesində daim istifadə etmək şagirdlərdə kommunikativlik, natiqlik, fəallıq, səriştə və demokratiya kimi bacarıqları inkişaf etdirir. Metoddan istifadə etmək şagirddə öyrənməyə həvəsini əhəmiyyətli dərəcədə artırır, eyni zamanda, özlərini məktəbdə daha müvəffəqiyyətli hiss edirlər, özlərinə hörmət və inam hissi yaranır. Təhsil müəssisələrində istifadə olunan innovativ təlim metodlarından bir neçəsi aşağıdakılardır: modul təlim, sosial media metodu, virtual reallıq, 3D layihə metodu və sənəd kamerası.

**Modul təlim.** Deyə bilərik ki, müstəqil seçim və lazımi məlumatlardan istifadə etmək məktəblərin əsas məqsədidir. Bu problemləri həll edən təlim vasitələrindən biri modul təlimdir. Bu metodun mahiyyəti budur ki, təlim məqsədlərini, tapşırıq üçün verilən təlimatları və tövsiyyələri birləşdirən modulla şagird işləməklə müstəqil şəkildə təlim və idrak məqsədlərini əldə edir. Modul təlimə fəaliyyət planı, didaktik məqsədlərə nail olmaq üçün praktiki tapşırıqlar, məqsədlərə nail olmaq üçün nəzarət tapşırıqları daxildir. Modul metodu şagirdlərə sərbəst işləmək, sinif yoldaşlarına kömək etmək, yoldaşının işi ilə öz işini müqayisə etməyə kömək edir. Müəllimin modul təlimdə rolunu onu qeyd etmək olar ki, şagirdlərlə ünsiyyət qurmaq, zəif şagirdlərə kömək göstərmək və güclü şagirdləri isə motivasiya verməkdən ibarətdir. Bu metodun vasitəsilə yeni materialın mənimsənilmə səviyyəsini müəyyən etmək və şagirdin biliklərindəki boşluğu müəyyən etmək mümkün olur. Yuxarıda qeyd edilmiş bütün informasiyalara əsasən tədris prosesində tətbiq olunan modul texnologiyaların əsas üstünlüklərini sadalaya bilərik: təlim

nəticələrinin təminatlı əldə edilməsi, müəllim və tələbələr arasında əməkdaşlıq, cüt və qruplarla işləmək imkanı, təlim səviyyəsini seçə bilmək, sinif yoldaşları ilə ünsiyyət qurmaq imkanı, yekun təlim nəticələrini vaxtında təqdim edə bilmək. Belə bir nəticəyə gəlmək olar ki, modul tədris texnologiyasının imkanları çox böyükdür, çünki onun sayəsində "müəllim-şagird" sistemində mərkəzi yeri tələbə tutur. Müəllim şagirdlərin öyrənməsini həvəsləndirir, təşkil edir, məsləhətlər verir, nəzarət edir. Modul təlim metodu təlim prinsiplərinin fərdiləşdirilməsinin, şagirdin fəaliyyətinin diferensiallaşdırılmasını innovativ həyata keçirməyə imkan verən pedaqoji bir texnologiya olduğunu demək olar. Qısa formada desək, modul təlim öyrənməyə fərdi yanaşmanın həyata keçirilməsinə yönəlmişdir.

**Sosial media metodu.** Sosial medianın getdikcə böyüməsinə səbəb onu göstərmək olar ki, internetin əlçatanlığının artması, proqram vasitələrin təkmilləşdirilməsi, kompüter və mobil cihazların inkişafı ilə əlaqədardır. Demək olar ki, bu media bütün dünyada milyonlarla insanların gündəlik həyatına çevrilib, həmçinin həyatımızın hər bir hissəsində yeri var. Müasir dövrdə şagirdlərə ümumiyyətlə, məktəb yaşlı uşaqlara fikir versək, vaxtlarının çoxunu sosial mediada keçirməyə üstünlük verirlər. Sosial media vasitəsilə sadəcə boş vaxt keçirməkdən fərqli olaraq məktəblilər buradan dərs vəsaiti kimi də istifadə edə bilərlər. Əvvəllər şəxsi və ya biznes məqsədi üçün bir vasitə kimi qəbul edilən sosial media təhsil üçün təsirli bir vasitə kimi son vaxtlar diqqəti cəlb edir. Çoxlu sayda internet istifadəçilərindən biri də müəllimlər və tələbələrdir, buna əsasən də sosial media bizim öyrətmə və öyrənmə vasitəmizə çevrilib. Əlbəttə ki, təhsil işçilərinin sosial mediadan tədris və təlim proseslərini təkmilləşdirmək üçün istifadə etməsinin faydaları da mövcuddur. Eyni zamanda sosial medianı şagirdlər və müəllimlərdən ibarət bir qrupun müəyyən tapşırıqlar, ümumi məqsədlər istiqamətində əməkdaşlıq etməyə imkan verir. Asanlıqla demək olar ki, sosial media dedikdə insanların ağlına ilk olaraq Facebook, İnstagram, WhatsApp, Twitter gəlir. Hal-hazırda İnstagram və Facebookda ümumtəhsil müəssisələrində tədris olunan fənnlər üzrə hər bir müəllim sosial media hesabı açmış və fəaliyyət göstərməkdədir. Bu platformalarda foto paylaşmaq üçün istifadə olunurdusa, artıq videolar, mətnlər paylaşmaq funksiyaları əlavə edilib. Hətta qrup yaratmaq funksiyası köməyi ilə müəllim və şagirdlər keçirilmiş mövzularla bağlı müzakirə aparmaq imkanı yaranmışdır. Müəllim hər gün keçirilmiş mövzuyla bağlı tapşırıqları, əlavə məlumatları sosial mediada paylaşaraq şagirdlərin mövzu üzərində işləyib daha dolğun mənimsəməsinə şərait yaradır. Həmçinin, müəllim tədris materialları şagirdlərə kifayət etmədikdə əlavə materialları şagirdlərə pdf formasında göndərə bilir. Onu da qeyd etmək olar ki, şagirdlərə qrup şəklində tapşırıq hazırlamaq tapşırılıbsa, günümüzdə artıq şagirdlər media platformlarında qrup yaradaraq həm müzakirə edib, həm də tapşırığı yerinə yetirmiş olurlar.

Bununla, sinifdə asosial bir şagirdin də fəallaşmasına imkan yaranır. Nəticədə şagirdlər ünsiyyət qurmaq bacarığını inkişaf etdirir və sadəcə məktəblərin deyil, şagirdlərin də yeniliklərə açıq olmasına imkan yaradılır. Məktəbdənkənar gündəlik həyatında şagirdlərin vaxtının müəyyən bir hissəsinin maariflənməsinə şərait yaranır.

**Virtual reallıq.** Virtual reallıq və yaxud VR texnologiyasından istifadə şagirdlərin sinfi tərk etmədən dünya təcrübəsindən bəhrələnməyə imkan verir. Bu texnologiyadan istifadə etmək üçün ekran, monitor və xüsusi eynəklər lazımdır. Belə bir nümunə göstərmək olar ki, masa arxasında oturmuş şagird piramidaları kəşf edə bilər. Demək olar ki, çox insan virtual reallıq haqqında eşitmişdir, amma bir çox insan onun nə olduğunu və təhsildə necə istifadə oluna biləcəyini bilmir. Nümunə göstərməklə virtual reallığı belə izah etmək olar ki, tarixi bir yerin 360 dərəcəsini görməyə imkan verən şəkillər və ya videolardan ibarətdir. Əlbəttə ki, bu kimi real yerlər xüsusi kamera və avadanlıqlardan istifadə olunaraq çəkilir. Virtual reallıq vasitəsilə şagirdləri ruhlandırmaq və dərs prosesinə cəlb etmək daha əlverişli olur. Həqiqətən də, şagirdlər ziyarət etmək mümkün olmayan və bahalı yerlərlə qarşılaşırlar, lakin virtual reallıq həm müəllimlər, həm də şagirdlər üçün yeni imkanlar açır. Virtual reallıq ənənəvi təhsil sistemindən fərqli olaraq şagirdlərin təcrübəyə əsasən öyrənməyə imkan verir və klassik tədris metodlarından sıxılan şagird üçün bu cəlbedici ola bilər. Virtual reallığı dərs planına və mövzuya uyğunlaşdırmaq mümkün olsa, şagirdlərin ətraf mühit haqqında məlumat əldə etmək, tarixi öyrənmək, abidələri ziyarət etmək və ya təbiət qoruqlarına baş çəkmək kimi gəzintiləri sinfi tərk etmədən özlərini orda hiss edə və öyrənə bilərlər. Dünyada ən aktual problemlərdən biri iqlim dəyişikliyidir ki, şagirdləri iqlim dəyişikliyi ilə tanış etməyin səmərəli yollarından biri olduğunu demək olar. Qeyd edilən məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, virtual reallıq şagirdlərin təxəyyülünün inkişafına icazə verir və yaradıcı düşüncəyə təşviq edir. Həmçinin, şagirdlərin sinif yoldaşları ilə ünsiyyət qurmağa, öz fikirlərini bölüşdürməyə və müzakirə etməyə ruhlandırır. Onu demək olar ki, hər bir şagird üçün əlverişlidir, yəni inklüziv şagirdlər üçündə yararlıdır. Bu texnologiyadan istifadə həmçinin, xərc və vaxtla bağlı qənaət etməyə imkan verir. Müəllimlər isə mürəkkəb mövzuları asanlıqla izah edə bilər və innovativ pedaqoq ola bilərlər.

**3D Layihə metodu.** 3D nədir? 3D üçölçülü obyektin rəqəmsal modelinin yaradılmasından ibarətdir və təhsil sahəsində istifadə edilməsi yüksək nəticələr əldə etməsilə müşahidə olunmuşdur. 3D dizayndan daha çox diş həkimləri zədələnmiş dişin rentgenini çəkmək üçün istifadə edir, kino sahəsində isə xüsusi effektlər vermək üçün istifadə edilir. Müəllimlər şagirdlərə daha əyləncəli və praktiki şəkildə öyrənməyə şərait yaratmaq üçün 3D layihə metodundan istifadə edə bilər. Bu metoddan istifadə edərkən müəllim 3D çap

texnologiyası vasitəsilə rəqəmsal modellər hazırlayır. Əvvəllər müəllimlər dərsliklərdə verilmiş şəkillər üzərindən dərsi izah etməklə kifayətlənirdisə, artıq bu texnologiyadan istifadə edərək daha geniş və incəlikləri ilə dərsi tədris edə bilər. 3D çap texnologiyası təxminən 30 ildir mövcuddur, yəni xərc baxımından ictimaiyyət üçün əlçatandır. Bu texnologiyanı kurikuluma inteqrasiya etmək hər bir şagirdin tədris prosesini innovativ üsullarla fərqləndirməyə kömək edə bilər. Nəticədə isə şagird nailiyyətlərini artırmış olur. 3D layihə metodundan texnologiya, həyat bilgisi, biologiya, kimya, coğrafiya dərslərində istifadə oluna bilər. Texnologiya dərslərində müəllim kiçik ev, avtomobil və ya məişət vasitələrinin 3D modelini istifadə edərək onların üzərində hər bir hissələrin necə hazırlanmasının gedişatını ətraflı izah edə bilər. Biologiya və anatomiya dərslərində isə insan bədəninin modelini hazırlamaqla orqanların necə yerləşdiyini daha səmərəli şəkildə öyrətmək olar. Eyni zamanda, ürəyin və ya digər orqanların 3D modeli əsasında onların kəsişmələrini, damarlarda qan dövranını və digər şagirdləri maraqlandıran sualları cavablandırmaq mümkündür. Kimya bir çox şagirdlər üçün mürəkkəb gələ bilər, lakin bunu asanlıqla aradan qaldırmaq mümkündür. Məhz 3D çapdan istifadə edərək molekulların forması, quruluşu və tərkibi haqqında vizual olaraq məlumat verilə bilər. Bundan başqa onu da qeyd edə bilərik ki, topoqrafik xəritələr yaratmaq, dağ silsilələrinin, okeanların, düzənliklərin landşaftlarını və digər xüsusiyyətlərini 3D model yaratmaqla dərs prosesində müsbət nəticələr əldə edilər. Yuxarıda qeyd etdiklərimizə əsasən belə nəticəyə gəlmək olar ki, şagirdlərin əldə etdikləri bilikləri aktivləşdirmək, yeniləmək, sistemləndirmək və məktəb kurikulumundan kənar materiallarla tanış etmək; mövzu ətrafında düşünmək, təhlil etmək, müqayisə etmək, nəticə çıxarmaq və nəticələri təqdim etmə bacarığını inkişaf etdirmək və s. bu kimi üstünlüklər metodun əsasını təşkil edir. İnkişaf etdirmək üçün iş sinifdə aparılmalıdır. 3D metodunu qısa şəkildə ifadə etsək, bunu demək olar ki, bu metod yeni biliklərin daha geniş və ətraflı işlənib hazılanması prosesini nəzərdə tutur.

Sənəd kamerası istənilən obyektləri mobil telefonda, proyektorda, istifadə olunan kompüterdə görməyi asanlaşdırır. Sənəd kamerası həm müəllimlər, həm də şagirdlər üçün əlverişlidir. Sənəd kamerasından ümumtəhsil pillələri arasında daha çox ibtidai siniflər üçün əlverişli olduğunu demək olar. Buna nümunə olaraq onu göstərmək olar ki, ibtidai sinif şagirdləri dərs vəsaitləri üzərində işləməyə tam hakim olmadıqlarından müəllim sənəd kamerası vasitəsilə kitabı proyektorda əks etdirə bilər. Nəticədə isə müəllim asanlıqla dərs vəsaiti üzərində tapşırıqları necə işləməli olduqlarını göstərmək imkanı əldə edir. Coğrafiya dərsində sinif otağında xəritə yoxdur və dərs vəsaitində xəritənin kiçik modeli verilibsə, müəllim sənəd kamerası vasitəsilə ağıllı lövhə xəritənin böyük modelini əks etdirə bilər. Həmçinin, riyaziyyat müəllimləri riyaziyyat problemlərini göstərmək və ya düsturlar üzərində

işləmək üçün sənəd kamerasından istifadə edə bilər. Əgər müəllim dərs prosesini qrup işi formasında keçiribsə, hər qrupun işini bütün sinfin yaxından görməsini təşkil etmək üçün sənəd kamerasından istifadə etməsi əlverişli olar. Nəticə olaraq onu demək olar ki, sənəd kamerasından istifadə bütün şagirdlərin tədris prosesində iştirak etməsinə şərait yaradır. Yəni, müəllim sənəd kamerasından istifadə etdikdə hər bir şagirdə fərdi olaraq işləməsinə ehtiyac qalmır. Sənəd kameraları, həmçinin audio və video yaza bilən sənəd kamerasıdır. Müəllim dərs vəsaiti üzərində mövzunu izah edib və qeyd apararaq video ala bilər. Nəticədə isə dərsdə iştirak etməyən şagirdlər olduqda bu videonu onlarla paylaşar və şagirdlər dərsdən kənarda qalmaz. Videonun digər bir üstünlüyü ondan ibarətdir ki, müəllim riyazi düsturu izah elədiyi videonu saxlayıb lövhənin bir hissəsində onu əks etdirə bilər. Bu zaman lövhənin digər tərəfində şagirdlər işləyə bilər. Bir növ bu şagirdlərə tapşırığın həllində köməkçi olur. Sənəd kamerasından istifadə etmək şagirdlər arasında tapşırıq kağızlarının paylanmasını da aradan qaldırmış olur.

Beləliklə, nəticə etibarı ilə daim inkişaf edən bir dünya sözsüz ki, həyatın bütün sahələrində yeniliklərə açıq olmağı tələb edir. Məhz inkişaf edən məktəblər də idarəetmədə keyfiyyətcə yeni yanaşmalar tələb edir. Müasir inkişaf etməkdə olan tələbələr üçün məktəb idarəetməsində innovativ dəyişikliklərin həyata keçirilməsi məqsədə uyğundur. Bu o deməkdir ki, mövcud standartlar köhnəlib və müasir tədris prosesində müasir tələbələrə yenilik lazımdır. Yeniliklər nə qədər mürəkkəbdirsə, onun mənimsənilməsi və təcrübə tərəfindən qəbul edilməsi də bir o qədər azdır. Təhsil müəssisələrində istifadə edilən bu yeniliklər çoxsaylı problemlərin həll yollarını tapmağa köməklik edir. Məktəbin idarəedilməsi prinsipcə sistemli xarakter daşıdığından innovativ proses idarəetmə sisteminin bütün komponentlərinə təsir göstərməlidir. Yəni, fərdi olaraq funksiyaların dəyişilməsi müsbət nəticə verməz. Məktəb idarəetmə funksiyalarının müvəffəqiyyəti təhsil müəssisəsi rəhbərinin şəxsi keyfiyyətindən və peşəkar fəaliyyətindən aslıdır. Ona görə də ümid edirik ki, təhsil sistemi daima yeniliklərə açıq olar.

***Ədəbiyyat***

1. *İvanchenko V.N. I23 Innovations in education: general and additional education of children: teaching aid / V.N.İvanchenko. - Rostov n / a: Phoenix, 2011.*
2. *OECD, Innovating Education and Educating for Innovation: The Power of Digital Technologies and Skills, OECD Publishing, Paris – 2016.*
3. *Инновационные методы обучения, или Как интересно преподавать: Учебное пособие. Алматы, 2012. – 355 с.*
4. *https://corp.kaltura.com/blog/what-is-innovation-in-education/*
5. *https://teachingmama.org/document-camera-for-the-classroom/*

**G.İ.Pənahova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunelpanakh@gmail.com***

# AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN XARİCDƏ TƏHSİLİN TƏŞKİLİNİN MÜASİR VƏZİYYƏTİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Xülasə***

*Təhsil ölkənin gənc nəslinin istedadlarının inkişaf etdirilməsində, milli inkişafın dəstəklənməsində və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Son illər azərbaycanlı tələbələrin xaricdə təhsilə meylində artım müşahidə olunur. Bu, qloballaşan dünyada fərqli mədəniyyətlərin yaşanmasının, beynəlxalq baxışın qazanılmasının və təhsil həyatına yeni ölçü əlavə etməyin vacibliyini vurğulayır. Bu tendensiyanın arxasında duran səbəblər arasında beynəlxalq öyrənmə təcrübəsini təmin edən universitetlərdə keyfiyyətli təhsil imkanları, geniş akademik spektr, dil bacarıqlarını təkmilləşdirmək şansı, mədəni müxtəlifliklə qarşılaşma fürsəti və beynəlxalq əlaqələr qurmaq istəyi daxildir. Bununla belə, azərbaycanlı tələbələrin xaricdə təhsilinin təşkili ilə bağlı bəzi çətinliklər və təsirlər də var.*

*Bu yazıda azərbaycanlı tələbələrin xaricdə təhsil alması tendensiyası, bu prosesin hazırkı vəziyyəti və qarşıya çıxan çətinlikləri dəyərləndirəcəyik. Biz həmçinin tələbələrin bu təcrübədən necə maksimum yararlana biləcəyini və təhsil təşkilatlarının bu prosesdə necə dəstək verə biləcəyini araşdıracağıq. Bu təhlil Azərbaycan gənclərinin qlobal dünyada daha səmərəli iştirakına kömək edəcək mühüm məlumatları təqdim etmək məqsədi daşıyır.*

# ТЕКУЩАЯ СИТУАЦИЯ И ОЦЕНКА ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ СТУДЕНТОВ ЗА РУБЕЖОМ

***Резюме***

*Образование играет важную роль в развитии талантов молодого поколения страны, поддержке национального развития и повышении международной конкурентоспособности. В последние годы наблюдается рост склонности азербайджанских студентов учиться за рубежом. Это подчеркивает важность знакомства с различными культурами в глобализированном мире, получения международной перспективы и добавления нового измерения в образовательную жизнь. Причины этой тенденции включают качественные образовательные возможности в университетах, которые обеспечивают международный опыт обучения, широкий академический спектр, возможность улучшить языковые навыки,*

*возможность познакомиться с культурным разнообразием и желание построить международные отношения. Однако существуют некоторые трудности и последствия, связанные с организацией обучения азербайджанских студентов за рубежом.*

*В этой статье мы оценим склонность азербайджанских студентов учиться за рубежом, современное состояние этого процесса и возникшие трудности. Мы также рассмотрим, как студенты могут получить максимальную пользу от этого опыта и как образовательные организации могут поддержать их в этом процессе. Целью этого анализа является предоставление важной информации, которая поможет молодежи Азербайджана более эффективно участвовать в жизни глобального мира.*

# CURRENT SİTUATİON AND ASSESSMENT OF THE ORGANİZATİON OF AZERBAİJANİ STUDENTS' EDUCATİON ABROAD

***Summary***

*Education plays an important role in developing the talents of the country's young generation, supporting national development and increasing international competitiveness. In recent years, there has been an increase in the tendency of Azerbaijani students to study abroad. This highlights the importance of experiencing different cultures in a globalized world, gaining an international perspective and adding a new dimension to educational life. Reasons behind this trend include quality educational opportunities at universities that provide an international learning experience, a wide academic spectrum, the chance to improve language skills, the opportunity to encounter cultural diversity and the desire to build international relationships. However, there are some difficulties and effects related to the organization of Azerbaijani students' education abroad.*

*In this article, we will evaluate the tendency of Azerbaijani students to study abroad, the current state of this process and the difficulties encountered. We will also explore how students can get the most out of this experience and how educational organizations can support them in this process. This analysis aims to provide important information that will help the youth of Azerbaijan participate more effectively in the global world.*

***Açar sözlər:*** *tələbə, xaricdə təhsil, təhsilin təşkili, Azərbaycan*

***Ключевые слова:*** *студент, образование за рубежом, организация образования, Азербайджан.*

***Key words:*** *student, education abroad, organization of education, Azerbaijan*

Azərbaycan Cənubi Qafqazda strateji yerləşməsi, enerji resursları və tarixi sərvətləri ilə diqqət çəkən ölkədir. Bununla belə, təhsil sisteminin inkişaf prosesində və müəyyən sahələrində rast gəlinən bəzi problemlər var ki, onların həlli tələb olunur.

***İnkişaf problemləri:***

Azərbaycan iqtisadiyyatı daha çox enerji sektorundan asılıdır. Neft və təbii qaz gəlirləri əsasında inkişaf edən iqtisadiyyat iqtisadiyyatın diversifikasiyası baxımından zəif nöqtədir. Bu vəziyyət iqtisadiyyatda xarici asılılığa səbəb ola bilər. Ölkədəki inkişaf paytaxt Bakıda və onun ətrafında cəmləşib. Digər regionlarda inkişaf səviyyələri arasında nəzərəçarpacaq disbalans var. Bu, ölkənin ümumi inkişaf məqsədlərinə çatmasını çətinləşdirə və sosial narazılığa səbəb ola bilər. İnkişaf prosesini dəstəkləyən infrastruktur çatışmazlıqları nəqliyyat, enerji və rabitə kimi əsas sektorlarda problemlər yarada bilər. İnfrastruktur çatışmazlıqları investisiyaların səmərəli istifadəsinə mane ola bilər və iş dünyası üçün mənfi mühit yarada bilər.

***Təhsil sisteminin təhlili:***

Azərbaycanda təhsil sistemi əsas təhsilə çıxışda ümumilikdə uğurlu olsa da, bəzi kənd yerlərində tələbələr üçün hələ də çətinliklər var. Təhsildə gender bərabərsizliyi də nəzərə alınmalıdır. Təhsil sisteminin keyfiyyəti və onun tələbələrə praktiki bacarıqların aşılanmasında əldə etdiyi uğur milli inkişaf üçün çox vacibdir. Əmək bazarına daha yaxşı uyğunlaşmaq üçün peşə hazırlığı və texniki bacarıqların vurğulanması vacibdir. Təhsil sisteminin müvəffəqiyyəti ixtisaslı müəllimlərin mövcudluğundan və effektiv təhsil idarəçiliyindən asılıdır. Müəllimlərin davamlı peşəkar inkişafına və təhsil idarəçilərinin effektiv liderlik qabiliyyətlərinə diqqət yetirmək vacibdir [1, s. 33].

Azərbaycanlı tələbələr üçün xaricdə təhsilin bir sıra üstünlükləri var və xüsusi proqramlarda iştirak bu üstünlükləri daha da artıra bilər. Bu üstünlükləri və rəyləri ilə bir təhlil:

1. **Mədəni müxtəliflik və dil bacarıqları:** Xaricdə təhsil tələbələrə müxtəlif mədəniyyətləri yaxından tanımaq və anlamaq şansı verir. Bu təcrübə tələbələrin dünyagörüşlərini genişləndirir və onların mədəni müxtəlifliklə zənginləşməsinə töhfə verir. Xarici ölkədə təhsil almaq tələbələrə həmin ölkənin gündəlik həyatını, adət-ənənələrini və sosial normalarını dərk etmək imkanı verir. Bu, tələbələrə öz perspektivlərini şübhə altına almağa və mədəni anlayışlarını dərinləşdirməyə imkan verir.

Eyni zamanda xaricdə təhsil almaq tələbələrə müxtəlif dillərdə ünsiyyət qurmaq imkanı verir. Dil bacarıqlarının təkmilləşdirilməsi tələbələrin beynəlxalq səviyyədə daha effektiv ünsiyyət qurmalarına yol açır. Xarici dil öyrənmək tələbələrə dil maneələrini dəf etmək və qlobal səviyyədə daha effektiv ünsiyyət qurmaq imkanı verir. Bu, tələbələrə təkcə akademik sahədə deyil, həm də beynəlxalq iş dünyasında daha rəqabətqabiliyyətli olmağa imkan verir.

Xaricdə əldə edilən mədəni zənginlik və dil bacarıqları tələbələrə qlobal perspektivli şəxsiyyət olmaq yolunda mühüm addımlar atmağa imkan verir.

Mədəni müxtəliflıklə təchiz edilmiş fərdlər daha açıq fikirli, çevik və mədəni fərqliliklərə hörmətlə yanaşırlar. Bu xüsusiyyətlər tələbələrin təkcə öz ölkələrində deyil, həm də beynəlxalq səviyyədə liderlik potensialına malik olmasına kömək edir.

**2. Beynəlxalq əlaqələr və şəbəkəçilik:** Xaricdə təhsil alan tələbələr müxtəlif mədəniyyətlərdən dostluq etməklə yanaşı, müxtəlif elmlər üzrə ixtisaslaşmış akademiklərlə tanış olmaq imkanı əldə edirlər. Bu, tələbələrə təkcə akademik deyil, həm də qlobal səviyyədə müxtəlif perspektivlərə və bilik sahələrinə sahib olmaq üstünlüyü verir. Bu qarşılıqlı əlaqələr tələbələrin dünyagörüşlərini genişləndirir və mədəni baxımdan zəngin təcrübəyə töhfə verir. Bu qlobal şəbəkələr tələbələrə təkcə təhsil müddətində deyil, həm də gələcək karyeraları üçün əhəmiyyətli imkanlar təklif edə bilər. Xaricdə əldə edilən əlaqələr tələbələrə beynəlxalq iş dünyasında unikal imkanlar aça bilər. İş dünyası getdikcə qloballaşdıqca, bu qlobal şəbəkələr tələbələrə iş tapmaq, təcrübə keçmək və layihələrdə iştirak etməkdə üstünlüklər verir.

Bundan əlavə, xaricdə əldə edilən bu əlaqələr tələbələrə qlobal səviyyədə əməkdaşlıq etmək şansı verir. Müxtəlif ölkələrdən olan tələbələr və akademiklərlə bu qarşılıqlı əlaqələr beynəlxalq layihələrdə iştirak etmək və qlobal problemlərə həll yolları istehsal etmək potensialını artırır. Bu, tələbələrə təkcə öz ölkələrində deyil, həm də beynəlxalq səviyyədə liderlik etmək imkanı verir [2, s. 41].

**3. Yüksək keyfiyyətli təhsil imkanları:** Xaricdə təhsil almaq tələbələrə dünya şöhrətli universitet və təhsil müəssisələrinə daxil olmaq imkanı verməklə onlara keyfiyyətli təhsil imkanları təqdim edir. Bu, tələbələrə təkcə akademik deyil, həm də karyeraları üçün möhkəm təməl qurmaq imkanı verir. Bir çox ölkələr dünya səviyyəli universitetləri və təhsil müəssisələri ilə tanınır. Xaricdə xüsusi proqramlarda iştirak etməklə tələbələr bu qurumların təqdim etdiyi keyfiyyətli təhsil imkanlarından yararlana bilərlər. Bu proqramlara tez-tez sənaye təcrübəsi, müasir tədris metodları və beynəlxalq səviyyədə tanınmış fakültə daxildir. Bu, tələbələrə həm nəzəri bilik, həm də praktiki təcrübə verməklə onlara karyeralarında üstünlük verir.

Xaricdə təhsilin digər üstünlüyü müxtəlif fənlər üzrə ixtisaslaşma imkanıdır. Tələbələr öz sahələrində seçilən proqramlarda iştirak edərək maraqlandıqları sahədə dərin bilik əldə etmək şansı əldə edə bilərlər. Bu ixtisas tələbələrə seçdikləri karyera yolunda qabaqcıl bilik və bacarıqlar verməklə rəqabət üstünlüyü əldə etməyə imkan verir. Milli sərhədləri aşaraq təhsil almaq tələbələrə qlobal perspektiv verir. Müxtəlif mədəniyyətlərdən olan tələbələrlə ünsiyyət qurmaq və beynəlxalq səviyyədə təhsil almaq tələbələrə çoxyönlü bir perspektiv verir. Bu, onların qlobal səviyyədə biznes qurmaq imkanlarını artırır və beynəlxalq iş dünyasında daha effektiv olmalarına kömək edir. Bundan əlavə, xaricdə təhsil tələbələrə qlobal iş bazarında daha rəqabətli mövqe verə

bilər. Beynəlxalq səviyyədə tanınan universitetdən məzun olmaq işəgötürənlər üçün dəyərli arayış təmin edə və tələbələrə geniş iş şəbəkəsinə çıxış imkanı verə bilər. Bu, onların karyeralarında irəliləməsinə kömək edə bilər.

**4. İş imkanları və karyera inkişafı:** Xaricdə təhsil almaq tələbələrə təkcə akademik deyil, həm də iş dünyasında daha rəqabətli mövqe qazanmaq şansı verir. Bu təcrübə onların CV-lərini gücləndirir və işəgötürənlər tərəfindən dəyərli aktiv hesab olunur. Xaricdə təhsilin üstünlükləri iş imkanları və karyera inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Xaricdə təhsil alan tələbələr beynəlxalq mühitdə qazandıqları təcrübə sayəsində iş dünyasında daha rəqabətli profil yaradırlar. Bu, tələbələrə mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və müxtəlif iş mühitlərinə uyğunlaşmağa kömək edir. İşəgötürənlər bu cür təcrübəyə malik namizədlərə üstünlük verə bilər, çünki onlar qlobal səviyyədə biznes qurmaq qabiliyyətinə malik olduqlarını düşünürlər.

Beynəlxalq təcrübə tələbələrin CV-lərinə dəyərli əlavədir. Xaricdə təhsil alan şəxslər təkcə akademik uğurlarını deyil, həm də müxtəlif mədəniyyətlərlə qarşılıqlı əlaqədə olmaq və problem həll etmək bacarıqlarını nümayiş etdirirlər. Bu, işəgötürənlərə namizədləri qiymətləndirərkən daha əhatəli bir perspektiv verir. Xaricdə qazanılan təcrübə tələbələrə qlobal iş bazarında müxtəlif karyera imkanları təklif edə bilər. Beynəlxalq şəbəkələr qurmaq və müxtəlif ölkələrdə peşəkarlarla qarşılıqlı əlaqə qurmaq şansı tələbələrə geniş işgüzar əlaqələr şəbəkəsi təqdim edə bilər. Bu şəbəkələr təcrübə və iş imkanlarına çıxışda mühüm rol oynaya bilər. Bundan əlavə, xaricdə təhsil almış şəxslər tez-tez dil biliklərində üstün olurlar. Xüsusilə qlobal şirkətlərdə işləməyi hədəfləyənlər üçün birdən çox dil bilmək böyük üstünlükdür. Dil bilikləri beynəlxalq biznes mühitlərində səmərəli ünsiyyət qurmaq və müxtəlif mədəniyyətlərlə daha sıx əməkdaşlıq etmək bacarığı deməkdir [3, s. 41].

**5. Xüsusi proqramlardan qazanılan ekspertiza:** Xaricdə xüsusi proqramlarda iştirak etmək tələbələrə müəyyən bir sahədə ixtisaslaşma imkanı təqdim edərək, məzun olduqdan sonra müvafiq sektorda əhəmiyyətli üstünlüklər əldə etmələrinə şərait yaradır. Bu ixtisaslaşdırılmış proqramlar tələbələrə sənayeyə aid bilik və bacarıqlar, həmçinin praktiki təcrübə və qlobal perspektiv təmin edir. Xaricdəki özəl proqramlar çox vaxt sektorların ehtiyaclarına yönəlmiş balanslaşdırılmış kurikulum təklif edir. Bu, tələbələrə müvafiq sektorda mövcud olan yenilikləri izləmək və onları praktikada tətbiq etmək imkanı verir. Bu, tələbələrə məzun olduqdan sonra sənayedəki ən son yenilikləri başa düşmək və tətbiq etməklə rəqabət üstünlüyü əldə etməyə imkan verir. Bundan əlavə, xaricdə ixtisaslaşmış proqramlarda iştirak edən tələbələr tez-tez sənaye liderləri və ekspertlər tərəfindən tədris olunan kurslara çıxış əldə edirlər. Bu, tələbələrə sənayedə tanınmış adlarla ünsiyyət qurmaq və sənaye

şəbəkələrini genişləndirmək imkanı verir. Bu əlaqələr məzun olduqdan sonra iş tapmaqda və karyeralarını yüksəltməkdə mühüm rol oynaya bilər. Xüsusi proqramlar həmçinin tələbələrə sektorlar üzrə təcrübə və layihələrdə iştirak etmək imkanı verir. Bu, nəzəri bilikləri praktiki təcrübə ilə birləşdirməyə imkan yaradır, tələbələrin məzun olduqdan sonra iş dünyasına daha hazırlıqlı addım atmasına kömək edir. Sektora aid layihələrdə iştirak etmək tələbələrə problem həll etmə bacarıqları verir və onların sektor dinamikasına uyğunlaşma bacarıqlarını artırır. Xaricdə xüsusi proqramları bitirmiş şəxslər tez-tez sənayedə daha sürətli yüksəlmək və lider mövqelərə çatmaq şansına malikdirlər. Bu proqramlardan əldə etdikləri təcrübə işəgötürənlər tərəfindən qiymətli aktiv kimi qəbul edilir və məzunların sənayedə aparıcı mövqelərə keçməsini asanlaşdırır [4, s. 17].

**6. Şəxsi inkişaf və müstəqillik:** Xaricdə təhsil tələbələrə akademik biliklər verməklə yanaşı, həm də unikal fərdi inkişaf və müstəqillik təcrübəsi təqdim edir. Yeni mədəniyyətlə tanış olmaq, ona uyğunlaşmaq, problem həll etmək və uyğunlaşma bacarıqlarını inkişaf etdirmək tələbələrin daha yetkin və özünə güvənən şəxsiyyətlər kimi yetişməsinə kömək edir. Xaricdə təhsil alan tələbələr çox vaxt öz mədəniyyətlərindən fərqli bir mühitdə olmaq kimi çətinliklərlə üzləşirlər. Yeni dilə, fərqli adət-ənənələrə, yemək vərdişlərinə və sosial normalara uyğunlaşma tələbələrə böyük uyğunlaşma qabiliyyəti verir. Bu təcrübə tələbələrin çevikliyini artırır və onlara müxtəlif perspektivlərə açıq fərdlər olmağa imkan verir. Yeni mədəniyyətə məruz qalma həm də tələbələrə mədəni anlayışlarını genişləndirmək şansı verir. Bu, onların empatiyasını inkişaf etdirməyə və dünyagörüşlərini zənginləşdirməyə kömək edir. Fərqli mühitdə yaşamaq tələbələrə tolerantlıq və multikulturalizm məsələləri üzərində düşünmək imkanı verir. Bu, onların şəxsi inkişafına müsbət töhfə verir.

Xaricdə təhsil problem həll etmə bacarıqlarını təkmilləşdirmək üçün də təsirli bir yoldur. Fərqli mədəniyyətdə yaşayarkən qarşıya çıxan çətinliklər tələbələrə yaradıcı həllər tapmağa və uyğunlaşma bacarıqlarını gücləndirməyə imkan verir. Bu təcrübə tələbələrə təkcə akademik deyil, həm də gündəlik həyatda qarşılaşdıqları problemlərə praqmatik yanaşma inkişaf etdirməyə imkan verir. Müstəqillik xaricdə təhsilin vacib hissəsidir. Yeni ölkədə təkbaşına yaşamaq tələbələrə məsuliyyət götürməyi, maliyyə planlaması etməyi və gündəlik həyatda qərarlar qəbul etməyi öyrədir. Bu, tələbələrin özünə inamını artırır və onların müstəqil şəxsiyyət kimi böyüməsinə kömək edir [5, s. 39].

Azərbaycanlı tələbələr üçün xaricdə təhsilin təşkili dövlət tərəfindən dəstəklənən proqramlar baxımından bir sıra üstünlüklər və imkanlar təqdim edir. Bu proqramlar tez-tez tələbələrə təhsil xərcləri, dil öyrənmə, yaşayış və digər xərclər üçün dəstək verir. Azərbaycanlı tələbələrin xaricdə təhsilin

təşkilini qiymətləndirmək üçün vacib olan dövlət tərəfindən dəstəklənən bəzi proqramları təqdim edirik:

*Təqaüd Proqramları:* Azərbaycan hökuməti və digər təşkilatlar xaricdə təhsil almaq istəyən uğurlu tələbələrə tez-tez təqaüd imkanları təklif edir. Bu təqaüdlər təhsil haqqlarının bir hissəsini və ya hamısını əhatə edə və tələbələrə yaşayış xərcləri üçün dəstək verə bilər.

*Dil Təhsili Proqramları:* Xaricdə təhsil almaq istəyən tələbələr üçün dil maneəsini aşmaq vacibdir. Dövlət tərəfindən dəstəklənən dil təhsili proqramları tələbələrə hədəf ölkədə dil bacarıqlarını təkmilləşdirmək şansı verir. Bu proqramlara tez-tez dil kursları, seminarlar və praktik tətbiqlər daxil ola bilər.

*Beynəlxalq Mübadilə Proqramları:* Azərbaycanlı tələbələr dövlət tərəfindən dəstəklənən beynəlxalq mübadilə proqramlarına müraciət etməklə müxtəlif ölkələrin universitetlərində bir semestr və ya daha uzun müddətə təhsil almaq imkanı əldə edə bilərlər. Bu proqramlar tələbələrə mədəni mübadilə və akademik təcrübə təqdim edir.

*Təhsil kreditləri:* Hökumət tərəfindən maliyyələşdirilən bəzi proqramlar tələbələrə təhsil xərclərini ödəmək üçün əlverişli şərtlərlə geri qaytarıla bilən kreditlər verir. Bu, tələbələrə maliyyə dəstəyi vermək və onların təhsilini başa çatdırmaq üçün çevik xərc strukturu yaratmaq üçün vacibdir.

*Beynəlxalq Əməkdaşlıq Sazişləri*: Azərbaycan hökuməti müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq müqavilələri vasitəsilə tələbələrə müxtəlif üstünlüklər təklif edə bilər. Bu müqavilələrə təhsil haqqı endirimləri, viza imkanları və digər dəstəklər daxil ola bilər [6, s. 31].

Azərbaycanlı tələbələrin dövlət tərəfindən dəstəklənən bu cür proqramların qiymətləndirilməsi yalnız maliyyə aspektlərini deyil, həm də təhsilin keyfiyyəti, dil öyrənməsi və mədəni təcrübə kimi amilləri əhatə etməlidir. Bu proqramlar gənc nəslin qlobal səviyyədə rəqabət üstünlüyü əldə etməsinə və ölkənin təhsil sisteminə beynəlxalq səviyyədə tanınmasına kömək edə bilər.

Xaricdə təhsilin təmin edilməsi bir çox amilləri əhatə edən mürəkkəb prosesdir və tələbə hansı ölkədə və hansı universitetdə təhsil alacağını seçərkən bir sıra mühüm meyarları nəzərə almalıdır. Potensial tələbələr təhsil almaq niyyətində olduqları ölkələrdəki universitetlərin dünya reytinqlərini, fakültələrini və proqramlarını qiymətləndirməlidirlər. Güclü akademik reputasiyası olan universitetlər ümumiyyətlə daha yüksək keyfiyyətli təhsil təklif edirlər. Tələbələr hədəf ölkədəki tədris dilinin bilməli və ya öyrənməli olduqları dil olub-olmadığını düşünməlidirlər. Dili bilməmək əlavə dil təlim proqramlarında iştirak etməyi və ya dil sertifikatlarının alınmasını tələb edə bilər. Təhsil xərcləri, yaşayış xərcləri və digər xərclər nəzərə alınmalıdır. Bundan əlavə, hədəf ölkələrin təqdim etdiyi təqaüdlər və maliyyə dəstəyi proqramları da nəzərə alınmalıdır. Təyinat ölkəsindəki mədəni və sosial mühit

tələbələrin uyğunlaşma qabiliyyətinə və həyat keyfiyyətinə təsir göstərir. Tələbələr təyinat ölkəsində özlərini rahat hiss edib-etməyəcəklərini düşünməlidirlər. Bəzi ölkələr beynəlxalq tələbələrə iş icazələri və iş imkanları verir. Tələbələr təhsillərini başa vurduqdan sonra təyinat ölkəsində iş tapmaq imkanlarını da nəzərə almalıdırlar. Təyinat ölkəsində viza və yaşayış icazəsi prosesləri tələbələr üçün planlarını təşkil etmək və daimi hüquqi statusu saxlamaq üçün vacibdir. Bəzi ölkələr digər ölkələrlə beynəlxalq əməkdaşlıq müqavilələri vasitəsilə tələbələrə güzəştlər təklif edirlər. Bu müqavilələrə təhsil xərclərinə endirimlər, viza imkanları və digər dəstəklər daxil ola bilər [7, s. 41].

Bu amillərin diqqətlə nəzərdən keçirilməsi tələbələrə ən yaxşı uyğunluğu seçməyə kömək edə bilər. Hər bir tələbənin fərqli ehtiyacları olduğu üçün qərar vermə prosesi şəxsi məqsədlərə, üstünlüklərə və resurslara uyğunlaşdırılmalıdır.

## Nəticə

Azərbaycanlı tələbələrin xaricdə təhsil alması tendensiyası beynəlxalq miqyasda rəqabət üstünlüyü əldə etmək istəyi və qlobal öyrənmə təcrübəsi qazanmaq istəyi ilə güclənir. Bu tendensiya göstərir ki, gənc nəsil təkcə akademik deyil, həm də mədəni və sosial cəhətdən zənginləşmək məqsədi daşıyır. Lakin bu prosesdə qarşılaşılan bəzi çətinliklər tələbələrin bu təcrübədən tam yararlanmasına mane ola bilər. Azərbaycanlı tələbələrə dəstək olmaqda və onlara bu çətinliklərin öhdəsindən gəlməkdə təhsil təşkilatlarının rolu mühümdür. Dil problemləri, mədəniyyət şoku, maliyyə çətinlikləri və viza proseduru kimi məsələlərdə effektiv rəhbərlik və dəstək tələbələrə bu təcrübədən maksimum yararlanmağa imkan verə bilər.

Nəticə etibarı ilə azərbaycanlı tələbələrin xaricdə təhsilinin təşkili gənc nəslin qlobal miqyasda rəqabət qabiliyyətinin artırılmasına və ölkələrinə qayıtdıqdan sonra daha effektiv lider olmasına kömək edə bilər. Bu prosesin uğuru o halda mümkün olacaq ki, təhsil müəssisələri və dövlət tələbələrə effektiv dəstək və istiqamətləndirmə siyasətini hazırlasın.

***Ədəbiyyat***

1. *Qasımova, F., & İsayeva, G. (2019). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilinin İdarə Edilməsi: Problemlər və Strategiyalar. Beynəlxalq Tələbələr Jurnalı, 9(2), 616-634.*
2. *Babayev, E., & Əliyeva, S. (2018). Azərbaycanlı tələbələrin xaricdə təhsilinin asanlaşdırılmasında təhsil agentlərinin rolu: perspektivlər və problemlər. Journal of Studies in International Education, 22(2), 164-182.*

3. *Bağırova, F., və Hüseynov, A. (2020). Azərbaycan Tələbələrinin Xaricdə Təhsilinə Hökumət Siyasətlərinin Təsiri: Nümunə Tədqiqatı. Journal of Education Policy and Leadership, 14(3), 1-18.*
4. *Cəfərova, Z., & Hacıyeva, G. (2017). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilinə Dəstəkdə Qeyri-Hökumət Təşkilatlarının Rolu. European Journal of Education Studies, 3(6), 150-162.*
5. *Quliyeva, S., & Hüseynli, N. (2019). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsilində Keyfiyyətin Təminatı: Problemlər və Həll Yolları. Beynəlxalq Təhsil İnkişafı Jurnalı, 70, 1-10.*
6. *Abbasov, R. (2020). Azərbaycanlı tələbələrin xaricdə təhsili: imkanlar və problemlər. Journal of Higher Education and Science, 10(2), 238-251.*
7. *İbrahimov, E., & Hacıyeva, S. (2018). Azərbaycanlı Tələbələrin Xaricdə Təhsili ilə bağlı Dövlət Siyasəti və Təcrübələri. Journal of Education and Humanities, 9(2), 297-312.*

**F.A.Qasımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gasimovafidann@gmail.com***

# QADIN ZORAKILIĞINA QARŞI BEYNƏLXALQ MÜBARİZƏ (PROBLEMİN MƏZMUNU VƏ HƏLLİ İSTİQAMƏTLƏRİ)

***Xülasə***

*Qadın zorakılığı problemi qlobal məkanda müzakirə olunan və müasir dövrümüzün ciddi sosial problemlərindən biri kimi öyrənilir. Həm beynəlxalq qurumlarda, həm də regional səviyyədə gündəmdən çıxmayan ailə-məişət zorakılığı problemi üzrə müxtəlif konsepsiyalar işlənib hazırlanmışdır. Qadınlara qarşı zorakılıqla mübarizə hökumətləri, vətəndaş cəmiyyətlərini, beynəlxalq təşkilatları və ayrı-ayrı şəxsləri cəlb edən əlaqələndirilmiş və çoxşaxəli yanaşma tələb edir. Bu, qadınların zorakılıq və ayrı-seçkilikdən azad yaşaya biləcəyi bir dünya yaratmaq üçün öhdəlik, resurslar və kollektiv səylər tələb edən davamlı mübarizədir. Məqalədə məişət zorakılığı ilə əlaqəli beynəlxalq təşkilatların fəaliyyətləri və dünyadakı statistik məlumatlar təqdim olunur.*

# МЕЖДУНАРОДНАЯ БОРЬБА ПРОТИВ ЖЕНСКОГО НАСИЛИЯ (СОДЕРЖАНИЕ ПРОБЛЕМЫ И НАПРАВЛЕНИЯ РЕШЕНИЯ)

***Резюме***

*Проблема женского насилия обсуждается во всем мире и изучается как одна из серьезных социальных проблем современности. Изучение проблемы семейно-бытового насилия, которая остается на повестке дня как в международных институтах, так и на региональном уровне проявляются в различных концепциях. Борьба с насилием в отношении женщин требует скоординированного и многогранного подхода с участием правительств, гражданского общества, международных организаций и отдельных лиц. Это продолжающаяся борьба, которая требует приверженности, ресурсов и коллективных усилий для создания мира, в котором женщины смогут жить без насилия и дискриминации. В статье представлена деятельность международных организаций, связанных с домашним насилием, и статистические данные в мире.*

# THE INTERNATIONAL STRUGGLE AGAINST WOMEN'S VIOLENCE (CONTENT OF THE PROBLEM AND SOLUTION DIRECTIONS)

***Summary***

*The problem of women's violence is discussed around the world and studied as one of the serious social problems of our time. The study of domestic violence, which remains on the agenda both in international institutions and at the regional level, is manifested in various concepts. Combating violence against women requires a coordinated and multifaceted approach involving governments, civil society, international organizations and individuals. It is an ongoing struggle that requires commitment, resources and collective efforts to create a world where women can live without violence and discrimination. The article presents the activities of international organizations related to domestic violence and statistics in the world.*

***Açar sözlər:*** *qadın zorakılığı, ayrı-seçkilik, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti, ailə-məişət zorakılığı*

***Ключевые слова:*** *насилие в отношении женщин, дискриминация, международные организации, гражданское общество, домашнее насилие*

***Key words:*** *violence against women, discrimination, international organizations, civil society, domestic violence*

Dövlətlərin, beynəlxalq hökumətlərarası təşkilatların universal, regional və subregional səviyyələrdə insan hüquqları funksiyaları, o cümlədən qadınlara qarşı zorakılığın və məişət zorakılığının hər hansı formalarının qarşısının alınması və onlarla mübarizə aparan öhdəlikləri Birləşmiş Millətlər Təşkilatının [4, fəsil 1, maddə 1, fəsil 9, maddə 55] və Beynəlxalq Bill-in qanuni müddəalarından irəli gəlir [5].

Beynəlxalq Konvensiyanın diskriminasiyaya qarşı universal əsasları irqi ayrı-seçkiliyin və qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına istiqamətləndirilmişdir.

BMT fəaliyyətə başladığı gündən cəmiyyətin həssas təbəqəsi kimi qadınların problemlərinə xüsusi diqqət yetirir ki, bu da BMT-nin İqtisadi və Sosial Şurasının, eyni zamanda Komissiyasının yaradılması ilə təsdiqlənir. Sonradan insan hüquqları gündəliyində gender bərabərliyinin təmin edilməsi problemi beynəlxalq ictimaiyyətin daimi diqqət obyektinə çevrilir və qadınlara qarşı zorakılığın bütün formalarının aradan qaldırılması vəzifəsi də daxil olmaqla, geniş miqyas alır. Təəssüf ki, BMT Baş katibinin 2020-ci ilin mart ayında Qadınların Statusu üzrə Komissiyanın Pekində həyata keçirilməsində irəliləyişlərin nəzərdən keçirilməsinə və qiymətləndirilməsinə həsr olunmuş sessiyasında təqdim etdiyi hesabatında qeyd edildiyi kimi "qadınlara və qızlara qarşı zorakılıq hələ də geniş yayılmaqda davam edir" [6].

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər üçüncü qadın (35%) həyatı boyu intim partnyor tərəfindən fiziki və ya cinsi zorakılığa və ya başqa şəxs tərəfindən cinsi zorakılığa məruz qalır. Qlobal olaraq, münasibətlərdə olan qadınların 30%-i həyatları boyu partnyorları tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarını bildirir; dünyada qadın qətllərinin 38%-ə qədəri onların intim kişi partnyorları tərəfindən törədilir [12].

2017-ci ildə Asiyada intim partnyor və ya ailə üzvü tərəfindən ən çox sayda qadın öldürülüb. Digər məlumatlara görə, bir milyarddan çox qadın intim partnyoru və ya ailə üzvü tərəfindən cinsi zorakılıqdan müdafiə olunmur, təxminən 1,4 milyard qadın isə iqtisadi zorakılıqdan müdafiə olunmur. Məşğulluq, təhsil və ictimai yerlərdə cinsi təcavüzə məruz qalan qadınların sayı müvafiq olaraq 359 milyon, 1,5 milyard və 2,2 milyarddır [8].

Dünya Bankının məlumatına görə, artıq bu kimi hallara qarşı 155 ölkə müvafiq qanunlar qəbul edib [10].

Onu da qeyd edək ki, qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində bir sıra problemlər var. Xüsusilə, dünyanın hər üçüncü ölkəsində xüsusi hüquqi akt yoxdur ki, bunun da nəticəsində məişət zorakılığının bir növü kimi cinsi zorakılığa qarşı hüquqi müdafiə səmərəsiz qalır. BMT-yə üzv olan ölkələrin yarıdan çoxunda iqtisadi zorakılıqdan müdafiə məsələləri həll olunmayıb. Məişət zorakılığına qarşı qanunvericiliyi olan ölkələrin üçdə ikisi bunu subay intim partnyorlara tətbiq etmir. Cinsi qınamaya görə cinayət cəzaları dünya ölkələrinin 30%-dən bir qədər çoxunda tətbiq edilir [9].

Məişət zorakılığı problemi törədilmiş əmələ görə cinayət məsuliyyətinin tətbiq edilməsi məsələsinin də tənzimlənməsini tələb edir. Lakin qadınlara münasibətdə insan hüquqları sahəsində vəziyyət qadınlara qarşı zorakılığın və məişət zorakılığının spesifik mahiyyəti ilə mürəkkəbləşir ki, bu da ilk növbədə bir çox qadınların bu və ya digər səbəbdən zorakılığa məruz qalmasını gizlətməsi, etiraf etməməsi ucbatından baş verir.

Bu məsələ Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin 5-ci Məqsədində öz əksini tapıb. Məqsəd gender bərabərliyinə nail olunmasını və bütün qadınların və qızların səlahiyyətlərinin gücləndirilməsini, ictimai və özəl sahələrdə çalışan qadınlara və qızlara qarşı zorakılığa, o cümlədən insan alveri, cinsi və digər istismar formalarına son qoyulmasını; qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarının, məcburi nikah və qadın sünnəti də daxil olmaqla bütün zərərli təcrübələrin aradan qaldırılmasını ehtiva edir [8].

Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması məsələləri Avropa Şurası sistemində qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə xüsusi regional Konvensiya (İstanbul Konvensiyası kimi də tanınır) əsasında əhatəli şəkildə

işlənib. Konvensiya 7 aprel 2011-ci ildə qəbul edilmiş və 1 avqust 2014-cü ildə qüvvəyə minmişdir [7]. Bu Konvensiya onun üzv dövlətlərinin milli qanunvericiliyində həyata keçirilməli olan bir sıra əməlləri cinayət əməlləri kimi təsnif edir. Onun müddəalarına əməl olunmasına nəzarət üçün xüsusi mexanizm də bu Konvensiya əsasında fəaliyyət göstərir. Konvensiya Avropadan kənarda olan bir çox dövlətlər tərəfindən də yol xəritəsi kimi istifadə olunur. Azərbaycan İstanbul Konvensiyasını imzalamayan iki Avropa Şurası üzv dövlətindən biridir. "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində Avropa İttifaqı və Avropa Şurası, qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində milli qanunvericiliyin və siyasətin Avropa standartlarına uyğunlaşdırılması, eləcə də qadınlara qarşı zorakılığın qarşısının alınması və onunla mübarizə sahəsində mövcud daxili siyasətləri və milli fəaliyyət planının həyata keçirilməsi istiqamətində Azərbaycanın dövlət qurumlarına dəstək göstərir. Eləcə də, bu birgə layihə Azərbaycanın dövlət qurumlarına İstanbul Konvensiyasına tərəf olmaq istiqamətində bələdçilik edir. Azərbaycanda məişət zorakılığının qarşısının alınması məqsədilə hələ 2010-cu ildə qanun qəbul edilib. Sonradan 2011-2012-ci illərdə Nazirlər Kabineti tərəfindən qəbul edilən qaydalara əsasən görüləcək işlərin siyahısı müəyyənləşdirilərək təsdiqlənib. Qanunvericiliyə əsasən mühafizə orderi institutu, yardım mərkəzləri yaradılıb. Hazırda ölkəmizdə bir çox qeyri-hökumət təşkilatının dövlət qurumları tərəfindən dəstəklənən sığınacaqları fəaliyyət göstərir. Ümumiyyətlə, məişət zəminində zorakılığın aradan qaldırılması ilə bağlı davamlı fəaliyyət aparılmalıdır. Bu fəaliyyətdə, sadəcə ölkəmizdəki dövlət qurumlarının deyil, həm də hökumətlərarası komissiyaların işi cəmlənir və bu, çox önəmlidir [10].

Qadın zorakılığına qarşı həyata keçirilən beynəlxalq mübarizə ilə bağlı Pekin Fəaliyyət Platformasında öz əksini tapan əsas məqamları təqdim edək:

- Qadınlar və ətraf mühit;
- Hakimiyyətdə olan və qərar qəbul edən qadınlar;
- Qızlar;
- Qadınlar və iqtisadiyyat;
- Qadınlar və yoxsulluq;
- Qadınlara qarşı zorakılıq;
- Qadın hüquqları;
- Qadın təhsili və təlimi;
- Qadınların inkişafı üçün institusional mexanizmlər;
- Qadınlar və sağlamlıq;
- Qadınlar və media;
- Qadınlar və silahlı münaqişə [6].

Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin Məqsədlərində bu maddələrin yerinə yetirilməsi üçün prioritet hədəflər göstərilmişdir:

- Hər yerdə bütün qadın və qızlara qarşı bütün formalarda ayrı-seçkiliyə son qoymaq;
- Dövlət və özəl sahələrdə bütün qadın və qızlara qarşı bütün formalarda zorakılığın, o cümlədən insan alveri, cinsi və digər növlərdə istismarın aradan qaldırılması;
- Uşaq, erkən və məcburi nigah və qadınların cinsi zəmində alçaldılması kimi bütün zərərli halları aradan qaldırmaq;
- İctimai xidmətlər göstərməklə, infrastruktur və sosial müdafiə siyasətləri və milli səviyyədə zərurət olduqda evdə və ailədə ümumi öhdəlikləri təşviq etməklə, ödənişsiz qayğı və işi nəzərə almaq və dəyərləndirmək;
- Siyasi, iqtisadi və ictimai həyatda qərar qəbul etmənin bütün səviyyələrində qadınların tam və effektiv iştirakını və rəhbərlik üçün bərabər imkanları təmin etmək;
- Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı və Pekin Fəaliyyət Platforması və digər nəzarət konfranslarının yekun sənədlərinə uyğun olaraq razılaşdırıldığı kimi, hamı üçün cinsi və reproduktiv sağlamlıq xidmətlərinə çıxış imkanını və reproduktiv hüquqları təmin etmək;
- Milli qanunlara uyğun olaraq, qadınlara iqtisadi resurslara bərabər çıxış hüquqlarının, habelə torpaq və digər əmlak formaları üzərində sahiblik və nəzarət, maliyyə xidmətləri, miras və təbii resurslara çıxış imkanının verilməsi üçün islahatlar aparmaq;
- Qadınların səlahiyyətlərinin genişləndirilməsini təşviq etmək üçün imkanlar yaradan texnologiyalardan, xüsusən də informasiya və kommunikasiya texnologiyalarından istifadəni genişləndirmək;
- Gender bərabərliyinin təşviq olunması və bütün səviyyələrdə bütün qadınların və qızların səlahiyyətlərinin genişləndirilməsi üzrə güclü siyasətlər və qanunvericilik qəbul etmək və onları gücləndirmək [17].

## Nəticə

Məişət zorakılığı müasir cəmiyyət üçün böyük ictimai bəladır, bununla mübarizənin faydalılığı məişət zorakılığı qurbanlarının hüquqi və sosial sahələrdə mühafizə vasitələrinin mövcudluğundan asılıdır. Bu gün ailələrdə mənfi halların müşahidə edilməsi, xüsusilə də məişət zorakılığı kimi arzuolunmaz faktların mövcudluğu cəmiyyətimizi narahat etməyə bilməz. Bu məsələdə köhnə stereotiplərin hələ də qalması, qabaqlayıcı tədbirlərin lazımi səviyyədə aparılmaması bu problemi doğuran səbəblərindən biridir.

Göründüyü kimi beynəlxalq hüquqi aktlar cəmiyyətləri uçuruma sürükləyən qadına şiddət faktoruna qarşı birgə mübarizəni şərtləndirir. Qarşıya

qoyulan tələblərin dəqiqliklə yerinə yetirilməsi, məişət zorakılığına qarşı artıq mövcud olan qanunvericiliyin inkişaf etdirilməsi və təkmilləşdirilməsi dünya dövlətləri qarşısında duran vacib addımlardır. Bunun üçün bütün dövlətlərin hakimiyyətləri qarşısında aşağıdakı tələblərin qoyulması məqsədəuyğun hesab edilə bilər: a) məişət zorakılığının qarşısının alınmasında hakimiyyət ilə cəmiyyətin tam birgə fəaliyyətinin təşkili; b) ailədə şiddət probleminin aradan qaldırılması zamanı yarana biləcək problemlərin öncədən müəyyən edilməsi və həll yollarının təhlili; c) məişət zorakılığının profilaktikası üçün mövcud metodların təkmilləşdirilməsi; d) məişət zorakılığına məruz qalanların zamanında müəyyən edilməsi və şiddətə məruz qalmış şəxslərlə iş sahəsində mövcud olan çətinliklərin aradan qaldırılması; e) sosial iş praktikasının inkişaf etdirilməsi və zorakılıqdan əziyyət çəkmiş şəxslərə sosial dəstəyin həyata keçirilməsi; f) ziyan çəkmişlərin professional hüquqi dəstəklə təmin olunması və onların müdafiə altına alınması, ixtisaslaşmış yardım mərkəzlərinin yaradılması; g) ailədaxili zorakılığa şərait yarada biləcək faktorların öncədən aradan qaldırılması üçün müvafiq orqanlar tərəfindən ailələrlə profilaktik işlərin aparılması.

Qadınları bütün növ zorakılıqlardan qorumaq və qadınlara qarşı zorakılığın qarşısını almaq, cinayət törədənləri məsuliyyətə cəlb etmək, qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvinə dəstək olmaq, qadınlar və kişilər arasında bərabərlik prinsipini inkişaf etdirmək hər birimizin vəzifəsinə çevrilməlidir.

***Ədəbiyyat***

1. *“Xülasə Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında” Bəyannamə, Nyu-York, BMT, 23 fevral, 1994.*
2. *ÜST (2013). Qadınlara qarşı zorakılığın yayılma səviyyəsi ilə bağlı təxmini qlobal və regional göstəricilər: İntim partnyor və digər şəxslər tərəfindən törədilən cinsi zorakılığın yayılma səviyyəsi və sağlamlığa təsirləri, Ümumdünya Səhiyyə Təşkilatı, Cenevrə.*
3. *Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun Direktor Müavini Lakşmi Purinin “Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri” üzrə yüksək səviyyəli müzakirədə çıxışı, 21 sentyabr, 2016-cı il.*
4. *Устав ООН https://www.un.org/ru/about-us/un-charter/full-text*
5. *Международный билль о правах человека https://www.un.org/ru/documents/decl_conv/hr_bill.shtml*
6. *Пекинская декларация и Платформа действий // Официальный сайт ООН. Phttp://www.un.org/womenwatch/daw/beijing/pdf/BDPfA%20R.pdf*

7. *Преобразование нашего мира: Повестка дня в области устойчивого развития на период до 2030 года (резолюция Генеральной Ассамблеи ООН от 25 сентября 2015 года) // Официальный сайт ООН. Режим доступа: https://www.un.org/ga/search/view_doc.asp?symbol=A/RES/70/1&Lang=R*
8. *Глобальные и региональные оценки насилия в отношении женщин: распространенность и последствия для здоровья в связи с насилием со стороны интимного партнера и сексуального насилия со стороны лица, не являющегося партнером // Официальный сайт ВОЗ.*
9. *Конвенция Совета Европы по предотвращению и борьбе с насилием в отношении женщин и домашним насилием (CETS N 210)Официальный сайт Совета Европы. https://www.coe.int/en/web/conventions/full-list//conventions/rms/090000168008482e*
10. *https://rm.coe.int/twinning-methodology-aze-/1680abf12b*
11. *https://www.coe.int/en/web/genderequality/raising-awareness-of-the-istanbul-convention-and-other-gender*
12. *http://www.un.org/womenwatch/daw/beijing/platform/index.html*
13. *UNWomen, Gender Issues (http://www.unifem.org/gender_issues); UNICEF, 'Women and Children: The Double Dividend of Gender Equality', 2007; UNDP in Action: Women and Girls in Crisis. Key statistics; UN Entity for Gender Equality and the Empowerment of Women.*
14. *Ending violence against women and girls, Global and regional trends in women's legal protection against domestic violence and sexual harassment. Official website of the World Bank. Mode of access: http://pubdocs.worldbank.org/en679221517425064052/EndingViolenceAgainstWomenandGirls-GBVLaws-Women, Business and the Law 2020. Official website of the World Bank. 9/9781464815324.pdf*
15. *https://apps.who.int/iris/bitstream/handle/10665/85241/WHO_RHR_HRP_1.06_rus.pdf;jsessionid=DE51EEEA3B 60EC623550B39B68AE03D*
16. *https://sdg.azstat.org/az/national-priority/5/gender-beraberliyi*

**K.T.Tapdıqov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***kenan.tapdıqov.99@mail.ru***

# AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNİN İNKİŞAF TARİXİNDƏN

***Xülasə***

*Məqalədə dərsliklərin Azərbaycan dili təlimindəki roluna toxunulur və "müasir dərslik necə olmalıdır?" sualına cavab axtarılır. Müasir "Azərbaycan dili" dərsliklərinə əsas dövlət atributlarından biri olan milli dilin, dövlətçilik məfkurəsinin qorunması və təkmilləşdirilməsi vasitəsi kimi yanaşılır. Varislik prinsipi əsas götürülməklə A.O.Çernyayevskinin "Vətən dili" dərsliyindən başlayaraq müstəqillik dövrünə qədər yazılan dərsliklərin inkişaf tarixi izlənilir. Bütövlükdə dərsliklərin məzmunu, didaktik imkanları, milli təhsil sistemindəki yeri aydınlaşdırılır. Qeyd olunur ki, tarix boyu dərsliklərin yazılması, məzmunu və mahiyyəti, strukturu, məzmuna daxil olan materialların çatdırılması üçün metodiki imkanların olub-olmaması yalnız dərslik müəlliflərini deyil, bütün pedaqoji ictimaiyyəti düşündürən məsələ olmuşdur. Bu yanaşma bu gün də aktuallığını qoruyub saxlamaqda və müasir tələblərə cavab verən variativ, çoxvariantlı dərsliklərin yazılmasını diktə etməkdədir.*

# ИЗ ИСТОРИИ РАЗВИТИЯ УЧЕБНИКОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Резюме***

*В статье затрагивается роль учебников в обучении Азербайджанскому языку и ищется ответ на вопрос "каким должен быть современный учебник?". Современные учебники «Азербайджанского языка» рассматриваются как средство защиты и совершенствования национального языка, который является одним из основных атрибутов государства, и идеологии государственности. На основе принципа преемственности прослежена история развития учебников, написанных начиная с учебника А.О.Черняевского «Родной язык» и вплоть до периода независимости. В целом выясняется содержание учебников, их дидактические возможности и место в отечественной системе образования. Отмечается, что на протяжении всей истории наличие методических возможностей для написания учебников, их содержание и сущность, структура, подача включенных в содержание материалов было предметом беспокойства не только авторов учебников, но и самих все педагогическое сообщество. Этот подход сохраняет свою актуальность и сегодня и диктует написание разнообразных, многовариантных учебников, отвечающих современным требованиям.*

# FROM THE HISTORY OF THE DEVELOPMENT OF TEXTBOOKS OF THE AZERBAIJANI LANGUAGE

***Summary***

*The article touches on the role of textbooks in teaching the Azerbaijani language and seeks an answer to the question "what should a modern textbook be like?" Modern textbooks of the "Azerbaijani language" are considered as a means of protecting and improving the national language, which is one of the main attributes of the state, and the ideology of statehood. Based on the principle of continuity, the history of the development of textbooks written starting from the textbook by A.O.Chernyaevsky "Native Language" and up to the period of independence is traced. In general, the content of textbooks, their didactic capabilities and place in the domestic education system are clarified. It is noted that throughout history, the availability of methodological opportunities for writing textbooks, their content and essence, structure, presentation of materials included in the content have been a matter of concern not only for the authors of textbooks, but also for the entire teaching community themselves. This approach remains relevant today and dictates the writing of diverse, multi-variant textbooks that meet modern requirements.*

***Açar sözlər:*** *dərslik ənənəsi, dərsliklər təlim vasitəsi kimi, didaktik prinsip, müasir dərsliklər, alternativ dərslik*

***Ключевые слова:*** *учебниковая традиция, учебники как средство обучения, дидактический принцип, современные учебники, альтернативный учебник*

***Key words*****:** *textbook tradition, textbooks as a means of teaching, didactic principle, modern textbooks, alternative textbook*

Milli dil məsələsini dövlətçilik ideologiyamızın atributuna çevirmək, ərəb, fars, rus işğalı dövrlərində dilimizə vurulan zərbələrin miqyasını müəyyənləşdirmək, milli mövcudluğumuzun dillə bağlı olduğunu tam mənada dərk etmək üçün xeyli işlər görülməlidir. Bu işlərin də başında təhsil, onu təmin edən dərslik və dərs vəsaitləri dayanır.

İşğallar dövründə folkloru, yazılı abidələri, klassik ədəbiyyat nümunələri, məişət nitqi ilə dilini qoruyan xalq öz ziyalılarının, ədiblərinin və dövlət adamlarının gücü ilə doğma dili hegemon dillərin (ingilis, alman, fransız, rus və s.) basqısından, qloballaşmanın mənfi meyllərindən də qorumalı, Azərbaycan dilinin informativ-texnoloji leksikasının gücləndirilməsi qayğısına qalmalıdır. M.Kaşğari, Füzuli, Nəsimi, Vaqif, N.Tusi, M.Kazımbəy, B.Çobanzadə və digərlərinin elmi-bədii əsərlərində özünü yaşadan dil müasir texnologiyalar əsrində də ciddi mühafizə olunmalı, özünü yad təsirlərdən qorumalıdır.

Bunun üçün M.F.Axundovdan başlanan maarifçilik, A.O.Çernyayevskidən qidalanan dərslik ənənəsi davam etdirilməli, milli

varlığımızın, dövlətçilik məfkurəmizin qorunmasına xidmət edən dərsliklər yazılmalı, Azərbaycan dili milli sərvət, ünsiyyət vasitəsi olaraq zənginləşdirilməli, təkmilləşdirilməlidir.

Müstəqillik dövrünün ilk günlərindən əlifbamız, milli dilimiz, təhsil sistemimizlə bağlı aparılan islahatlar, ölkə rəhbərlərinin fərman və sərəncamları birbaşa Azərbaycan dilinin dövlət dili kimi qayğı ilə əhatə olunmasına hesablanmışdır. "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi" (2001-ci il), "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (2013-cü il) kimi sənədlər Konstitusiyaya uyğun olaraq dilimizin dövlət dili kimi mövqeyinin möhkəmləndirilməsinə istiqamətləndirilmiş addımlar idi.

Ölkə rəhbəri İ.Əliyevin imzaladığı sərəncamda qeyd olunur ki: "Dövlət proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və əlaqələndirilməsini təmin etməkdir" [8].

Azərbaycan dili və onun inkişafı ilə bağlı qəbul edilən qanun, fərman və sərəncamlar onu təsdiqləyir ki, dil, dilçilik, onun tədqiqi və tədrisi məsələləri Azərbaycan dövlətinin strateji hədəflərindəndir və bu istiqamət dilimizin təkmilləşdirilməsinə, işləklik dairəsinin genişlənməsinə xidmət edir. Bu gün Azərbaycan dilinin tədrisi dövlətçilik və milli maraq prinsiplərinə müvafiq qurulur, dil təlimi milli məfkurəni zənginləşdirən vasitə kimi qiymətləndirilir. Beynəlxalq qiymətləndirilmələrdə milli dilin aparıcı amil kimi götürülməsi bu işə daha məsuliyyətli yanaşmağı tələb edir.

Dili öyrənmə ailədən, məişətdən başlanılsa da, onun cilalanması, zənginləşdirilməsi, dəqiqləşdirilməsi, elmi-tətbiqi quruluşda mənimsənilməsi orta məktəb mərhələsində baş verir. Bu başlanğıc prosesin uğurla nəticələnməsində dərsliklərin rolu danılmazdır. Məzmun zənginliyi, milli-bəşəri dəyərlərə sayqı, fakt və dəlil dəqiqliyi, praktiklik, dil səlisliyi, oxunaqlılıq, əlçatanlıq və s. müasir dərsliklərin əsas əlamətləridir.

"Müasir dərsliyin vəzifəsi şagirdə sadəcə qaydaları, anlayışları, tərifləri və sairəni əzbərlətməkdən ibarət deyil. Dərsliklər şagirdləri düşünməyə sövq etməli, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılamalı, tənqidi təfəkkürü inkişaf etdirməlidir" [5, 3]. Müasir dövrdə dövlətin strateji hədəflərini diqqətdə saxlayan, qloballaşma və informativləşdirmə şəraitinin tələblərinə cavab verən dərsliklərin hazırlanması bir təbii zərurətdir.

Hazırda dərsliklərin 4-5 ildən bir yenilənməsi də informasiya axınının bolluğu, qloballaşmanın sürəti ilə əlaqəlidir. Bu gün dərslikləri zamanın

nəbzinə münasib hazırlamamaq, müasir dünyanın inkişaf axarından geridə qalmaq deməkdir. "Ümumtəhsil sistemində dərslik siyasəti" (2005) adlı sənədin hazırlanması da bu zərurətdən doğmuşdur.

Bütün bu reallıqları görmək, yaranan problemləri səmərəli həll etmək üçün isə bugünkü dərsliklərə nəzər salmaq, onları təhlil etməklə nail olmaq olmaz. Təlimdə olduğu kimi onu təmin edən dərsliklərin hazırlanmasında da ənənə və müasirlik, varislik, tarixilik prinsipləri gözlənilməli, dərsliklərin inkişaf tarixi izlənilməli, sistemləşdirilməlidir. Təbii ki, dərsliklərin hazırlanması tarixi dilimizin tarixi qədər qədim və zəngin olmasa da, mollaxana, mədrəsə, məhəllə məktəbləri, yeni tipli məktəblər dövründən başlayaraq tədris materiallarının hazırlanmasına cəhdlər edilmiş, klassik ədəbiyyat nümunələri təlim materialı kimi istifadə olunmuşdur.

A.Abdullayevdən başlayaraq Azərbaycan dili tədrisinin inkişaf dinamikası izlənilmiş, dərslik, dərs vəsaiti və proqramlar sistemli təhlil edilmişdir. Sonralar H.Balıyev, Y.Kərimov, A.Babayev, A.Məmmədova və digərləri də bu məsələləri diqqət mərkəzində saxlamış, dərsliklərin təlimdəki mövqeyinə aydınlıq gətirmişlər. Bunlara misal olaraq A.Abdullayevin "Azərbaycan dilinin tədrisi tarixinə dair", A.Babayevin "Azərbaycan dilçiliyinin tarixi", A.Məmmədovanın "Azərbaycan dilinin tədrisi tarixi" kitablarını göstərmək olar.

A.Abdullayev mollaxana və mədrəsələr dövründən başlayaraq 1925-ci ildə çağrılan I Müəllimlər Qurultayına qədər olan mərhələni araşdırır, M.F.Axundov, M.Ş.Vazeh, H.Zərdabi, A.Bakıxanov, M.Kazım bəy, M.P.Budaqov, M.M.Əfşar, A.O.Çernyayevski, R.Əfəndiyev, S.Ə.Şirvani, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Sidqi, C.Məmmədquluzadə, N.Nərimanov, F.Köçərli, M.Mahmudbəyov, M.Şahtaxtinski, M.H.Rüşdiyyə, Ə.Qafarzadə kimi maarifçi ziyalıların, məktəbşünasların elmi-pedaqoji fəaliyyətini təhlil edir, onların hazırladıqları dərslik, dərs vəsaiti və proqramların əhəmiyyətindən bəhs edir.

Müəllif öz monoqrafiyasında M.F.Axundovun əlifba uğrunda mübarizəsini işıqlandırır, A.O.Çernyayevskinin sövti üsulla yazılmış ilk dərsliyindən – "Vətən dili"ndən danışır, böyük maarifçinin Azərbaycana göstərdiyi misilsiz xidmətlərə toxunur. H.Zərdabinin "Əkinçi" qəzetində dərc olunan materialları, A.Bakıxanovun "Nəsihətnamə", M.Kazımbəyin "Türk-tatar dilinin qrammatikası", M.M.Əfşarın "Fənni-sərfi-türki", R.Əfəndiyevin "Uşaq bağçası" və "Bəsirətül-ətfal", S.Ə.Şirvaninin "Məcmuəyi-pasari-Hacı Seyid Əzim Şirvani", M.Sidqinin "Qiraət kitabı", F.Köçərlinin "Balalara hədiyyə" kimi dərslikləri müəllifin diqqətini cəlb edir və həmin materialların qısa təhlilini verir.

O, birinci (1906) və ikinci (1907) Müəllimlər Qurultaylarında Azərbaycan dilinin tədrisi məsələlərindən, 1920-ci ildən sonrakı dövrdə çap

olunan ana dili proqramlarından bəhs edir. Müəllifin bu araşdırması bütövlükdə dil tədrisi tarixinin sonrakı tədqiqatçıları üçün bir mənbə rolunu oynayır, istər H.Balıyev, istər Y.Kərimov, istərsə də A.Məmmədova dilin tədrisi tarixi ilə bağlı tədqiqatlarında ona istinad etmişlər.

Azərbaycan dilinin tədrisi tarixi ilə bağlı yazılan sanballı vəsaitlərdən biri də A.Məmmədovanın "Azərbaycan dilinin tədrisi tarixi" adlı dərs vəsaitidir. Müəllif bu vəsaitdə A.Abdullayevin araşdırmalarından sonrakı mərhələyə də müraciət edir, B.Çobanzadə, A.Abdullayev, Ə.Dəmirçizadə, Ə.Əfəndizadə, Y.Kərimov, H.Balıyev, Ə.Əhmədov, M.Həsənov, K.Mikayılov, Ə.Kəlbəliyev, B.Əhmədov, N.Abdullayev, V.Qurbanov, Ə.Abbasov və digər dilçi-metodistlərin təhsil və dərslik sahəsindəki fəaliyyətinə işıq salır, müstəqil Azərbaycan Respublikası yarandıqdan sonra Azərbaycan dilinin tədrisi vəziyyətini təhlil edir.

H.Balıyev və A.Balıyevin müəllifliyi ilə hazırlanan "Azərbaycan dilinin tədrisi metodikası" dərsliyində də Azərbaycan dili tədrisi tarixinin öyrənilməsi vəziyyəti, onun inkişaf mərhələləri, ilk savad təlimi, oxu və qrammatika dərsliklərinin xarakteristikası, müasir dərslik və proqramların səciyyəvi cəhətləri analiz edilir. Müəlliflər Azərbaycan dilinin tədrisi metodikasının inkişaf tarixini və formalaşmasını şərti olaraq dörd mərhələyə bölürlər:

1. XIX əsr və XX əsrin başlanğıcına qədər olan dövr;
2. XX əsrin başlanğıcından 20-ci illərə qədər olan dövr;
3. XX əsrin 90-cı illərinədək olan dövr;
4. Azərbaycan Respublikasının Müstəqillik dövrü [3, 21].

Dərslikdə 1925-1927-ci illərin "Kompleks proqram"ından, 1932-ci ildə layihə kimi dərc olunan "Türk dili və ədəbiyyat proqramı"ndan söhbət açılır, kurikuluma qədərki mərhələ və kurikulum əsaslı dərsliklər təhlilə cəlb edilir.

Təhlil etdiyimiz mənbələrin işığında Azərbaycan dilinin tədrisində mühüm rol oynayan və maariflənməyə, milli dilin, milli məktəbin formalaşmasında müstəsna xidməti olan bəzi dərsliklərin inkişaf xronikasına nəzər salmağı, yeni dərsliklərin formalaşmasında onların rolunu dəqiqləşdirməyi də vacib bilirik.

XIX əsrin I rübündə ərəb, fars dillərində və mollaxana, mədrəsələr üçün yazılmış dərsliklər yararsız görünürdü. Belə bir mühitdə A.Bakıxanov özünün "Nəsihətnamə" adlı dərsliyini hazırladı. O, bu dərslikdə azərbaycanlılaşmış ərəb və fars sözlərindən, aydın, sadə ifadələrdən daha çox istifadə edir, məhz buna görə də bu dərslik XX əsrin əvvəllərinə qədər mədrəsələrdə istifadə olunur.

Azərbaycan maarifçiliyinin inkişafında misilsiz xidmətləri olan A.O.Çernyayevski ilk dəfə olaraq Azərbaycan dilində təhsil alanlar üçün sövti üsulla 48 səhifəlik "Vətən dili" dərsliyi hazırlamış, bu dərslik uzun illər Azərbaycan balalarına savad və elm öyrətmişdir. O, "Vətən dili"nin II hissəsini

S.Vəlibəyovla birlikdə hazırlamış və dərslikdə rus maarifçiliyinin banisi K.D.Uşinskinin "Doğru söz" əsərində yer alan təlim materiallarından istifadə etmişdir.

A.O.Çernyayevskinin şagirdi R.Əfəndiyev "Vətən dili" dərsliyindəki nöqsanları aradan qaldırmaq, savad təlimini altı ay müddətində deyil, bir aya başa çatdırmaq üçün 1889-cu ildə özünün "Uşaq bağçası" adlı dərsliyini çap etdirmiş, müəllimindən fərqli olaraq ərəb məxrəci ilə ifadə olunan səkkiz hərfi ixtisar etmiş, təlim üçün 24 hərf saxlamışdır. Onun bu və "Bəsirətül-ətfal" adlı dərsliyi uzun illər təlim vasitəsi olaraq istifadə edilmişdir.

Qori müəllimlər seminariyasının fəaliyyət göstərdiyi dövrdə M.M.Əfşar oranın tələbələri üçün 90 səhifəlik "Fənni-sərfi-türki" adlı dərslik yazmış, müqəddimədə dil qaydalarını öyrənməyin əhəmiyyətindən, lüğətlərdən bəhs etməklə bərabər, morfologiya və sintaksisə aid təriflərin izahını vermişdir.

Sonrakı illərdə yazılan bir çox dərslik və dərs vəsaitləri də ("Balalara hədiyyə", "Türk əlifbası və ilk qiraət", "İkinci il", "Üçüncü il", "Türk ədəbiyyatına ilk qədəm", "Yeni türk əlifbası", "Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı", "İmlamız", "Uşaq gözlüyü", "Sövti Şərq əlifbası", "Qəvaidi-lisani-türki" və s.) ötən əsrin 20-ci illərinə qədər Azərbaycan təhsilinə, Azərbaycan maarifinə misilsiz xidmətlər göstərmişdir.

Bundan sonrakı mərhələdə F.Ağazadə və B.Çobanzadənin "Türk qrammeri" (1929), Ə.Dəmirçizadə və D.Quliyevin "Qrammatika" (1936), S.Cəfərovun "Azərbaycan dilinin qrammatikası" (1959), A.Axundov və B.Əhmədovun "Azərbaycan dili" (1972), S.Cəfərov və Ə.Fərəcovun "Azərbaycan dili" (5-6-cı sinif) dərslikləri və s. Azərbaycan dilinin tədrisində müstəsna rol oynamışdır.

Göründüyü kimi müstəqillik dövrünə və kurikuluma qədərki dövrə qədər olan dərsliklərdə daha çox bilik, tərif və qaydalar öyrətmək nəzərdə tutulur, nitq inkişafı məsələlərinə, praktik bacarıqların formalaşdırılmasına az diqqət yetirilirdi. Təlimin məzmunu daha çox tərbiyəvi xarakter daşıyırdı.

Yeni mərhələdə Azərbaycan dilinin vahid konsepsiyasını əks etdirən, tədrisin praktik ehtiyaclarına əsaslanan, konkret linqvistik faktların hərtərəfli əsasında ümumi qaydalar quran dərsliklər meydana çıxmaqdadır. Klassik dərsliklərin təhlili və inkişaf dinamikası göstərir ki, burada daha çox dilin mənimsənilməsi modellərinə yer verilir, bu model ardıcıl olaraq dilin mənimsənilməsini nəzərdə tutur. İlk mərhələdə şagirdlər dil vasitələrinə yiyələnirlər. Onlar səsləri, hərfləri, onların formalarını, orfoqrafiya qaydalarını, sözlərin istifadəsini mənimsəyirlər. Bu zaman qrammatika və lüğət biliklərini, cümlələri, mətnləri təhlil etmək bacarığını inkişaf etdirməyə yönəlmiş metodlardan istifadə olunur. İkinci mərhələdə şagirdlər bütün öyrənilən materialdan şifahi və yazılı nitqdə istifadə etməyi mənimsəyirlər.

Müasir dərslik yeni prinsiplərlə qurulmalı, həyati bacarıqlarla zəngin intellektin formalaşmasına, informasiya bolluğunda ondan düzgün istifadə etməyin yollarını dərindən bilən "öyrənən" sektorunun yaranmasına kömək etməli, şagirdin, tələbənin, müəllimin yaxın dostuna, müsahibinə çevrilməlidir. Təlim materialı seçimində dəyərlər, prinsiplər, tələblər nəzərə alınmalı, ən zəruri, axtarıcılığa, müstəqil yanaşmaya, yaradıcı baxışa yardım edən materiallar elmilik, ardıcıllıq, əyanilik, varislik, sadədən mürəkkəbə, asandan çətinə prinsipləri ilə düzənlənməlidir. Kitab şagirdi stimullaşdırmalı, onu öyrənməyə sövq etdirməli, ona birgəyaşayış, bərabərhüquqluluq, tolerantlıq, humanistlik normalarını öyrətməlidir.

Yekun olaraq dərslik nəticəyə, səriştələr əldə olunmasına gedilən yolda müəllimin bələdçilik, şagirdin tədqiqatçılıq fəaliyyətini tamamlamalıdır. Dərslik həm müəllimin, həm də şagirdin potensial daxili imkanlarını, yaradıcılıq enerjisini ortaya qoymağa imkan yaratmalıdır. Dərsliklərə, dərslik müəlliflərinə olan bəzi subyektiv münasibətlər onu əsas istiqamətdən - şəxsiyyət formalaşdırmaq istiqamətindən yayındırmamalıdır.

***Ədəbiyyat***

1. *Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixinə dair. Bakı, Azərnəşr, 1958, 203 s.*
2. *Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası. Bakı, 2012, 39 s.*
3. *Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Elm və təhsil, 2019, 380 s.*
4. *Babayev A. Azərbaycan dilçiliyinin tarixi. Bakı, BDU nəşr, 1996, 273 s.*
5. *Dərslik necə olmalıdır?. Oka ofset, Bakı, 2003, 117 s.*
6. *Əşrəfov R. Azərbaycan dilinin tədrisi metodikası. Dərslik. Bakı, ADPU nəşr, 2022, 541 s.*
7. *Məmmədova A. Azərbaycan dilinin tədrisi tarixi. Bakı, Mütərcim, 2015, 328 s.*
8. https://e-qanun.az/framework/25537

**F.A.İmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fidanimanova.19@gmail.com***

# SOSİAL XİDMƏT SAHƏSİNDƏ KÖNÜLLÜ FƏALİYYƏTİ

***Xülasə***

*Bu gün könüllülük institutu dünyanın bir çox ölkəsində cəmiyyətin inkişafı üçün getdikcə vacib pedaqoji mənbəyə çevrilir. Bu işdə təhsil səviyyəsindən, peşəsindən və gəlirindən asılı olmayaraq boş vaxtını könüllü işə həsr etmək istəyən və məsuliyyət keyfiyyətinə sahib olan əhalinin bütün təbəqələri iştirak edə bilər. İctimai faydalı işlərdə vətəndaş iştirakının bir forması olan könüllü fəaliyyətinin əsas xüsusiyyəti qarşılıqlı kollektiv əlaqə üsulu və aktual sosial-pedaqoji problemlərin həllində təsirli mexanizm olmasıdır. Könüllü olan insanlar mənəvi dəyərlərin daşıyıcısına çevrilirlər. Könüllülük cəmiyyəti dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, görülən bütün işlərin timsalında cəmiyyəti irəli aparmağı hədəfləmiş bir fəaliyyət sahəsidir. Məqalədə könüllü fəaliyyəti ilə əlaqəli ölkəmizdə görülən işlər və bu fəaliyyətin tarixi haqqında məlumat təqdim olunur.*

# ВОЛОНТЕРСКАЯ ДЕЯТЕЛЬНОСТЬ В СФЕРЕ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ

***Резюме***

*Сегодня институт волонтерства становится все более важным педагогическим ресурсом развития общества во многих странах мира. В этой работе могут участвовать все слои населения, желающие посвятить свое свободное время волонтерской деятельности и обладающие качеством ответственности, независимо от уровня образования, профессии и доходов. Основной особенностью волонтерства, являющегося формой участия граждан в общественно полезном труде, является метод взаимного коллективного общения и эффективный механизм решения актуальных социально-педагогических задач. Волонтёры становятся носителями моральных ценностей. Волонтерство – это движение, которое создает условия для изменения общества, внесения важного вклада в формирование гражданского общества, и это сфера деятельности, направленная на продвижение общества вперед на примере всей проделанной работы. В статье представлена информация о проделанной работе в связи с волонтерской деятельностью в нашей стране и истории этой деятельности.*

# VOLUNTEER ACTIVITY IN THE FIELD OF SOCIAL SERVICE

***Summary***

*Today, the institution of volunteerism is becoming an increasingly important pedagogical resource for the development of society in many countries of the world. All classes of the population who want to devote their free time to voluntary work and have the quality of responsibility can participate in this work, regardless of their education level, profession and income. The main feature of voluntary activity, which is a form of citizen participation in socially useful works, is a method of mutual collective communication and an effective mechanism for solving current socio-pedagogical problems. Being a volunteer means being a carrier of moral values. Volunteering is a movement that creates conditions to change society, to make an important contribution to the formation of civil society, and it is a field of activity aimed at moving society forward in the example of all the work done. The article presents information about the work done in our country related to voluntary activities and the history of this activity.*

***Açar sözlər:*** *könüllülük, mənəvi dəyərlər, özfəaliyyət, təmənnasız yardım, ictimai məsuliyyət*

***Ключевые слова:*** *волонтерство, моральные ценности, самодеятельность, самопомощь, социальная ответственность*

***Key words:*** *volunteering, moral values, self-activity, gratuitous assistance, public responsibility*

Yaşadığımız dövrdə dünyanın bir çox ölkələrində könüllü iş gündəlik sosial təcrübəni təcəssüm etdirir: insanlar ağac əkmək, aktiv həyat tərzini təbliğ etmək, ekoloji aksiyalar keçirmək, konfranslar, forumlar təşkil etmək, hüquq pozulmalarının profilaktikasını həyata keçirmək və ümumi problemləri həll etmək üçün bir araya gəlirlər. Qlobal səviyyədə könüllü işin unikal xüsusiyyətləri və imkanlarını qeyd edən BMT öz qətnamələrində könüllülüyün dövlətlərin sosial-iqtisadi inkişaf üzrə milli strategiyalarının tərkib hissəsinə daxil olunmasını tövsiyə edir ki, son illərdə bu, Azərbaycanda da geniş şəkildə özünü göstərir. Belə ki, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın məqsəd və vəzifələrinə ölkədə könüllülük hərəkatını inkişaf etdirmək, gənclərin könüllülük hərəkatının genişləndirilməsi və yerlərdə intensivləşdirilməsi daxildir [9]. Həmçinin ölkə başçısı 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, təcrübi biliklərini artırmaq, onların yaradıcı,

innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoymuşdur [4].

Bu sahədə atılan ən böyük addım isə heç şübhəsiz, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" imzaladığı sərəncamdır. Bu addım gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyəti artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Bəs könüllülük nədir, onun tarixçəsi hansı dövrə gedib çıxır, strategiyası nədən ibarətdir və ilk könüllülər kimlərdir?

Bəşər tarixində elə bir cəmiyyət yoxdur ki, könüllü və təmənnasız yardım anlayışları ona yad olsun. Bir fərdin və ya qrupun ümumilikdə cəmiyyətə, yaxud ayrı-ayrı şəxslərə etdiyi könüllü yardım bəşəriyyətin insani ideallarına təmənnasız xidmət ideyalarına söykənir, qazanc götürmək, ödəniş almaq və ya karyerada yüksəlmək məqsədi güdmür. O, qarşılıqlı yardımlaşmanın ənənəvi formalarından tutmuş minlərlə insanın təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasına, münaqişə hallarının həll edilməsinə və yoxsulluğun aradan qaldırılmasına yönəlmiş birgə səylərinə qədər müxtəlif şəkillərdə təzahür edə bilər [10].

Müasir Qərb sosiologiyasında "volunteerism" şəklində ifadə edilən könüllülük anlayışı ilə könüllü insanlar tərəfindən təmənna gözləmədən ictimai əhəmiyyətli hədəflərə çatmaq, cəmiyyətin problemlərini həll etmək məqsədilə həyata keçirilən fəaliyyət nəzərdə tutulur. Fransız dilindəki "volontaire" sözü latıncadakı "voluntaries"dən törənmişdir və hərfi mənada "könüllü, istəkli" mənasını verir. XVIII-XIX əsrlərdə könüllü olaraq hərbi xidmətə gedən insanları "volonter" adlandırırdılar. Belə ki, bəzi ölkələrdə ümumi hərbi xidmət sisteminin tətbiq edilməsindən əvvəl könüllülük əsasında orduların yığılması təşkil edilirdi. XVIII əsrdə və XIX əsrin birinci yarısında Avstriya-Macarıstan, Fransa və İtaliyada nizami orduya birləşmiş könüllülərdən ibarət batalyon və alaylar mövcud idi. Ancaq XIX əsrin ikinci yarısında əksər dövlətlərdə bu cür könüllülük sistemi öz əhəmiyyətini itirdi. Yalnız XX əsrdə Avropa qitəsində könüllülük ümumi sosial fenomen xüsusiyyətləri qazanmağa başlamışdır. Birinci Dünya Müharibəsindən sonra 1920-ci ildə Strasburq yaxınlığında alman və fransız gənclərinin iştirakı ilə ilk könüllü layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində könüllülər alman və fransız qoşunları arasında baş vermiş şiddətli döyüş bölgəsində dağıdılmış fermaları bərpa etmişlər. O vaxtdan bəri könüllülük dünyada genişlənməyə və populyarlıq qazanmağa başlamışdır. Statistik məlumatlar göstərir ki, XX əsrin 90-cı illərində könüllülərin işi ABŞ və Avropa ölkələri üçün əhəmiyyətli iqtisadi mənbəyə çevrilmişdir [10].

2001-ci il isə dünyada "Könüllülər ili" elan edilmiş və elə həmin ilin yanvarında Ümumdünya Könüllülər Bəyannaməsi [6] qəbul edilmişdir.

Bəyannamədə deyilir ki, könüllülük vətəndaş cəmiyyətinin təməli, insani dəyərlərin qorunması, möhkəmləndirilməsi, fərdi inkişaf yolu, habelə insan potensialının dərki ilə vətəndaşların hüquq və vəzifələrinin həyata keçirilməsidir. Könüllülük, eyni zamanda, BMT-nin xalqların dünyanı dəyişdirmək gücünə sahib olduğu fikrini reallaşdıraraq ölkələrin inkişafında bir amil ola bilər. Bəyannamə 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə [2] və 1989-cu il Uşaq Hüquqları haqqında Beynəlxalq Konvensiyaya [3] uyğun hazırlanmışdır və "hər hansı bir insanın dinc birliklərə sərbəst qoşulmaq hüququ var" prinsipindən irəli gəlir.

Sosial xidmət sahəsində könüllü fəaliyyət insanların ictimai və sosial problemlərə yardım etmək üçün fərdi və ya qrup şəklində könüllü olaraq təşkil etdikləri layihələrdən biridir. Bu fəaliyyət daha yaxşı cəmiyyət yaratmağa kömək göstərir, sosial problemlərin həllinə yardım edir. Sosial xidmət sahəsində könüllü fəaliyyətinə bəzi məqamlar daxildir:

1. Mənfəətli təşkilatların və ya layihələrin dəstəklənməsi: insanlar könüllü fəaliyyət vasitəsilə ictimai və sosial məqsədləri olan təşkilatları və layihələri dəstəkləyə bilərlər. Bu, həmin təşkilat və layihələrə lazım olan maddi və mənəvi dəstəyi təmin üçün vacibdir.
2. Əlilliyi olan şəxslərə yardım: sosial xidmət sahəsində könüllü işləyən insanlar əlilliyi olan və çətinlik çəkən insanlara kömək edə bilərlər. Bu, onların gündəlik həyatlarını daha rahat yaşamalarına kömək edir.
3. Evsiz insanlara yardım: hazırda dünyada evsiz insanların sayı çoxdur. Könüllü fəaliyyətlər bu insanları qida, geyim və sığınacaqla təmin etməyə yardım göstərir.
4. Qadın və uşaqlara yardım: könüllü fəaliyyətlər zorakılığa məruz qalan qadınlara və uşaqlara yardım göstərmək, onların sosial və psixoloji problemlərini həll etmək üçün dəstək ola bilər.
5. Əməkdaşlığı təşkil etmək: könüllü işləyənlər müxtəlif təşkilatlar, qurumlar və hökumətlə əməkdaşlıq edərək sosial problemlərə daha geniş perspektivdə yanaşmağa kömək edir [7].

Sosial xidmət sahəsində könüllü fəaliyyət həm sosial problemlərə həll tapmaqda yardım edir, həm də insanların ictimai məsuliyyət hissini artırır və toplumun daha yaxşı bir yerə çevrilməsinə kömək edir. İnsanlar könüllü işlərə qoşularaq bu sahədə faydalı rol oynaya bilərlər.

Gənclərin daha çox öyrənməsi və könüllülükdə sərf edilən vaxtdan düzgün istifadə etməsi üçün dünya təcrübəsində həm dövlət, həm də özəl və ya ictimai təşkilatların təklif etdiyi proqramlar var. Azərbaycan könüllülər hərəkatı da bu praktikadan yararlanmaqdadır [1, s.20].

Müasir Azərbaycanda könüllülük sferasında real inkişaf Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlamışdır. Belə ki, dahi öndərin idarəçiliyinin ilk illərindən başlayaraq hərtərəfli və davamlı inkişaf

məqsədilə dövlət və özəl sektorlar, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanıldı. Bu prosesə insanları könüllü şəkildə cəlb etməyə, onların sahə təcrübəsindən yararlanmağa mühüm əhəmiyyət verildi. Heydər Əliyev tərəfindən əsası qoyulan ideyalar onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ölkə başçısının 9 iyun 2009-cu ildə imzaladığı "Könüllü fəaliyyəti haqqında" qanun [8] Azərbaycanda könüllülər hərəkatının daha da genişlənməsinə münbit zəmin yaratmışdır. Bu qanun qəbul edildikdən sonra Azərbaycan könüllüləri ölkəmizdə keçirilən kütləvi idman, siyasi, mədəni tədbirlərin idarə edilməsi prosesinə könüllü şəkildə cəlb edildilər. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – "ASAN xidmət" könüllüləri öz fəaliyyətinə cəlb edən ilk dövlət orqanlarından biri kimi tarixə düşdü. Ölkəmizdə inkişaf edən könüllülük hərəkatının öncüllərindən olan ASAN Könüllüləri Təşkilatı öz sıralarında minlərlə gəncə yer verib. Onların iştirakı ilə yüzlərlə təlim və layihələr həyata keçirilib. Bu rəqəmlər sürətlə dəyişməkdə, yəni artmaqdadır. Sosial həyatın bütün sahələrini əhatə edən bu layihələrlə minlərlə gənc öz bilik və bacarığını, istedadını nümayiş etdirib.

Azərbaycanda aparılan gənclər siyasətinə və könüllü hərəkatına dəstək verən qurumlardan biri də DOST Agentliyidir. 2019-cu ildən fəaliyyətə başlayan "Könüllü DOST" Proqramının əsas məqsədləri sosial məsuliyyətlilik hissinin artırılması, dövlət-vətəndaş münasibətlərinin inkişaf etdirilməsi, sağlamlıq imkanları məhdud və əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunması, gənclərin bilik və bacarıqlarının artırılması ilə onların əmək bazarına hazırlanmasıdır.

Xarici təcrübəyə istinadən qeyd edə bilərik ki, mötəbər universitetlər, işə götürən qurumların böyük hissəsi gənclərin könüllü fəaliyyəti ilə məşğul olmasına önəm verirlər. Azərbaycandakı özəl şirkətlər arasında da könüllülərlə işləmək təcrübəsi yayılmaqdadır. Seçilən gənclərin işlə təmin olunması ilə nəticələnən bu layihələrdə minlərlə tələbə iştirak edir və böyük təcrübə qazanır.

Könüllülər fəaliyyətlərini sosial, mədəni, iqtisadi və ekoloji inkişafın aləti olaraq görürlər. Könüllülük hərəkatında iştirak edən şəxs: 1) ödənişsiz, lakin ilkin hazırlıq və təlimə əsasən; 2) imkanları daxilində; 3) öz istəyi ilə və digər könüllülərlə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Könüllü iş insana yalnız hər hansı bir problemin həllində iştirak etmək və kiməsə faydalı olmaq imkanı vermir, həmçinin yeni insanlarla ünsiyyətə girməyə, özündən məmnunluq hissinin təmin edilməsinə kömək edir. Aparılan sorğulara əsasən də məlum olur ki, xüsusilə tələbələr üçün könüllü işlərdə iştirak etməkdə əsas səbəblər bunlardır: başqalarına kömək etmək və cəmiyyətə fayda vermək; öz bacarıqlarını yeni ortamda istifadə etmək; yeni dostlar tapmaq və yeni əlaqələr

qurmaq; özünə dəyər hissini inkişaf etdirmək. Könüllülər humanitar yardım və texniki dəstək göstərilməsi, insan haqlarının qorunması, cəmiyyətin demokratikləşməsi, həmçinin sülhün möhkəmlənməsi üzrə istər milli, istərsə də BMT-nin proqramları çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə ümumi rifahın inkişafında əhəmiyyətli rol oynamışlar, bu gün də oynamağa davam edirlər. Könüllü xidmətlər ictimai həyatda iştirak, həyat bacarıqlarının inkişaf etdirilməsi, riskli davranışların qarşısının alınması, fərqli mədəniyyətlərə inteqrasiya, təhsilin inkişaf etdirilməsi və fərdlərin inkişafına fayda vermək baxımından əhəmiyyətlidir.

## Nəticə

Könüllülük müxtəlif sahələr üzrə geniş imkanları əhatə edən dinamik və çoxşaxəli təcrübədir. Yerli qeyri-kommersiya təşkilatlarına töhfə vermək, təhsil proqramlarına dəstək olmaq və ya ekoloji təşəbbüslərdə iştirak etməkdən asılı olmayaraq, könüllülər sosial problemlərin həllində və müsbət dəyişikliklərin təşviqində mühüm rol oynayırlar. Çətinliklərin davam etdiyi bir dünyada könüllülük fəaliyyəti ümid işığı olaraq özünü göstərir. Bu, fərdlərin kollektiv hərəkat vasitəsilə daha yaxşı bir gələcək formalaşdıra biləcəklərinə olan inamı artırır.

Könüllülük özündə tapşırıqlar toplusu deyil, fərdlərin bir araya gələrək fərq yaratmaq gücünün sübutudur. Könüllü çalışmalarını təşviq edib dəstəklədikcə hər bir fərdin dəyişim üçün güclü potensiala sahib olduğuna inanan mədəniyyətə töhfə veririk. Könüllülük həm də vaxtını və səylərini bir işə həsr etməyi seçən şəxslərin həyatını zənginləşdirən güclü bir qüvvə kimi özünü göstərir. Təşkilatlar və daha geniş icmalarla qurulan əlaqələr könüllülük təcrübəsinin sərhədlərini aşan dəstək şəbəkəsi yaradır.

Könüllülük prosesinə həm Azərbaycan xalqının tarixində, həm də adət-ənənələrində tez-tez rast gəlirik. Könüllülük mərhəmət, əliaçıqlıq, ədalət hissi anlamını verir. Könüllü olmaq ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidməti özündə ehtiva edir. Biz dünən də belə idik, bu gün də beləyik, heç şübhəsiz ki, sabah da bu keyfiyyətimizə sadiq qalacağıq. Könüllülük öziradəsi və müstəqil seçimi əsasında əvəzi ödənilməyən fəaliyyət növüdür. Çoxsayda könüllü hərəkatlarının yaranması bu sferadakı sağlam rəqabət mühitini formalaşdırır və nəticə etibarilə bütün tərəflər, ümumilikdə dövlətimiz, cəmiyyətimiz qazanmış olur.

***Ədəbiyyat***

1. *Adilov, N., Paşayev, E. (2017). Könüllülük: uğur formulu. Bakı.*
2. *Universal Decleration of Human Rights, 1948 https://www.ohchr.org/sites/default/files/UDHR/Documents/UDHR_Translations/eng.pdf*

3. *Convention on the Rights of the Child, 1989 https://www.ohchr.org/sites/default/files/crc.pdf*
4. *İlham Əliyevin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışı, 1 fevral 2019-cu il.*
5. *Social Work Perspectives on International Volunteer Service https://www.researchgate.net/publication/236961975_Social_Work_Perspectives_on_International_Volunteer_Service*
6. *Universal Declaration of Volunteering, 2001 https://www.cm-odivelas.pt/cmodivelas/uploads/document/file/5791/anexo_9_declaracao_universal_do_voluntariado_de_janeiro_de_2001.pdf*
7. *https://resources.noodle.com/articles/social-work-volunteer-opportunities-for-future-social-workers/*
8. *"Könüllü fəaliyyət haqqında" Qanun, 2009: https://e-qanun.az/framework/18159*
9. *"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı: https://e-qanun.az/framework/36474*
10. *https://scwra.gov.az/az/view/news/9312/konulluluk-tarixchesi-ve-strategiyasi*

**A.N.Həsən**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzuajdarli@gmail.com***

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN NƏZƏRİ ASPEKTLƏRİ

***Xülasə***

*Məlumdur ki, strategiya anlayışı ilk dəfə hərbi sahədə istifadə olunmuş, daha sonra isə iqtisadiyyat kimi sahələrdə geniş yayılmışdır. Müasir dövrümüzdə isə düzgün strategiyanın seçilməsinə əsaslanan strateji idarəetmə bütün təhsil, eləcə digər sahələrdə geniş yayılmışdır. Bu səbəblə də strateji idarəetmənin məzmunu və nəzəri aspektləri aktuallıq qazanıb. Məqalədə strategiya anlayışı və onun tarixi, təhsil sferasına tətbiqi və düzgün strateji idarəetmənin təhsil sisteminin inkişafındakı rolu izah olunur.*

# ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ СТРАТЕГИЧЕСКОГО УПРАВЛЕНИЯ В УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Резюме***

*Известно, что концепция стратегии впервые была использована в боевой сфере, а затем широко распространилась и в таких областях, как экономика. В современном мире стратегический менеджмент, основанный на выборе правильной стратегии, получил широкое распространение во всех сферах, в том числе и в других. По этой причине концепция и теоретические аспекты стратегического управления стали актуальными. В статье раскрывается понятие стратегии и ее история, ее применение в сфере образования и роль правильного стратегического управления в развитии системы образования.*

# THE THEORETICAL ASPECTS OF STRATEGIC MANAGEMENT IN EDUCATIONAL INSTITUTIONS

***Summary***

*The concept of strategy was first used in the military field, and then it was widely spread in fields such as economics. In our modern era, strategic management based on choosing the right strategy is widespread in all fields including education. For this reason, the concept and theoretical aspects of strategic management have become topical. The article examines strategical management and its history, its application to the sphere of education, and the role of proper strategic management in the development of the educational system.*

***Açar sözlər:*** *strategiya, strateji idarəetmə, strateji planlama*
***Ключевые слова:*** *стратегия, стратегическое управление, стратегический план*
***Key words:*** *strategy, strategic management, strategic plan*

Strategiya sözünün tarixinə nəzər saldıqda bu anlayışın hərbi sahə ilə bağlı olması nəzərə çarpır. Qədim dövrlərdə strategiya müəyyən siyasətin həyata keçirilməsini, uyğun vasitələrdən istifadə edilməsini nəzərdə tuturdu. Menecment baxımından bu uzunmüddətli vəzifələrin təyin olunmasına və planların hazırlanmasına yönəlmişdir. Strategiyanın hərfi mənasına gəldikdə isə yunan dilindən tərcümədə "strategos" sözündən götürülüb və "stratos" sözü "ordu", "aqo" isə idarəetmə mənası kimi "aparıram", lüğəti mənasına görə isə "general sərkərdə məharəti", "hərb sənəti" deməkdir. XX əsrin sonlarından başlayaraq strategiya anlayışı menecment nəzəriyyə və praktikasına geniş yayılmağa başlamışdır.

Strateji idarəetmə eyni zamanda təhsil müəssisələrinin idarəetmə sistemində müstəsna rola malikdir. Strategiya qərar qəbul edərkən təşkilat rəhbərlərinin öz əllərində topladığı qaydalar toplusunu əks etdirir və təşkilatın missiyası və məqsədlərinə çatmasını təmin edən ümumi plan kimi də başa düşülür. Strategiya təşkilatın məqsədini və ona nail olmağın əsas yollarını müəyyən edərək vahid hərəkət istiqamətinin seçilməsini təmin edir. Müasir zəmanəmizdə elə məhz strategiya vasitəsilə təşkilatların səmərəli idarəedilməsi həyata keçirilir. Bütövlükdə strategiya dedikdə strateji məqsədləri əldə etmək üçün işlənib hazırlanmış ali proqram başa düşülür. Strategiya isə bu prosesin alt sistemidir və təşkilatın məqsədlərinin formalaşdırılmasını, onun həyata keçirilməsini, təşkilatın artımını, inkişafını təmin edir və möhkəmləndirilməsinə yönəlir.

Təhsil müəssisələrində strateji idarəetmə dedikdə məqsədlərin formalaşdırılması, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müvafiq strategiyanın hazırlanması nəzərdə tutulur. Strateji idarəetmənin əsas bazis elementi strategiyalardır və onların müəyyənləşdirilməsi strateji idarəetmənin səviyyəsindən asılıdır. Strategiyaların hazırlanması və strateji idarəetmə prosesi bir-biri ilə sıx bağlıdır. Missiyanı müəyyən etmə, taktiki siyasətləri seçmə və mövcud resursların düzgün yönləndirilməsi strateji idarəetmə prosesini özündə əks etdirir.

Təhsildə strateji idarəetmə menecerlərin müəssisənin strategiyalarının inkişaf edilməsi istiqamətində fəaliyyətidir. Təhsil sistemində strategiyalara təhsil müəssisəsinin iş sisteminin istiqaməti ilə bağlı planlar, hədəflərə dair göstəricilər daxildir.

Təhsildə idarəetmənin effektivliyini artırmaq üçün strategiyalar hazırlanan zaman aparılan analizlər əsasında strateji təfəkkür formalaşır. Təhsil mexanizminin səmərəliliyini göstərmək məqsədilə strateji təhlil aparılır. Bu da cari və perspektiv vəziyyətini təhlil etməyə imkan yaradır.

Strategiyanın uzun müddət üçün nəzərdə tutulması heç də o demək deyildir ki, strateji planlar toxunulmazdırlar və ya heç zaman dəyişilmirlər. Əksinə, strateji planlar uzunmüddətli olduqları üçün onlardakı dəyişiklik situasiyaya uyğun olaraq müntəzəm aparılmalı və istehsalla bağlı yeniliklər, yaxud da mənəvi və ya fiziki köhnəlmələr mütləq nəzərə alınmalıdır. Əks halda, əgər strateji planlarda vəziyyətlə bağlı dəyişikliklər aparılmazsa, onda müəssisədə qərarların qəbul edilməsində kobud səhvlərə yol verilə bilər ki, bu da müəssisədə, xüsusilə təhsil müəssisəsində yeniliklərin, müasir təlim texnologiyaların tədris prosesinə tətbiqinə maneə yarada bilər. Məhz bu baxımdan həyata keçirilməsi və onun düzəldilməsi müntəzəm və paralel aparılmalıdır. Strateji menecmentin ən mühüm vəzifələrindən biri də görülmüş işlə strateji planın tutuşdurulması və vəziyyətin qiymətləndirilməsi ilə bağlıdır [2].

Ölkəmizdə təhsildə strateji idarəetmədən danışılarkən Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında qəbul olunmuş təhsilin inkişafı üzrə Dövlət strategiyasına xüsusi nəzər yetirmək lazımdır. Strategiya özündə təhsilin strateji idarə olunmasına dair bir sıra məsələləri əks etdirir.

Beynəlxalq ekspertlərin cəlb olunması ilə hazırlanan strategiyada təhsil sisteminin hazırlığı nəzərə alınaraq, islahatların məqsədini və strateji istiqamətləri, seçilmiş prioritetləri, onların həyata keçirilməsi üçün qəbul olunmalı dövlət proqramlarını, məsul və tərəfdaş qurumları, hədəfləri və icra dövrü müəyyən edilir.

Təhsil sahəsində strateji idarəetmədə əsas məsələlərdən biri də hədəflərin məqsədi və məzmunu haqqında aydın təsəvvürün yaradılması, ictimai dəstək qazanması və həyata keçirilməsidir. Eyni zamanda strategiyanın məqsədi və məzmunu kütləvi informasiya vasitələri və digər üsullarla təhsil müəssisələrinin pedaqoji heyətinə və digər hədəf qruplara çatdırılmalıdır.

Səmərəli strategiyanın effektiv şəkildə tətbiqi təkcə müvəffəqiyyət qazandırmır, o həm də idarəetmənin keyfiyyətlilik səviyyəsini göstərir. Lakin hər zaman yüksək səviyyəli strategiya və onun uğurla tətbiq olunması hələ mütləq uğurlu nəticə verəcəyinə zəmanət vermir. Çünki fəaliyyət ərzində plandan kənar baş verən hadisələr səmərəli tətbiq olunan strategiyadan gözlənilən nəticələr əldə etməyə maneə olur. Belə halda təhsil müəssisəsinin rəhbərinin vəzifəsi strategiyada gərəkli olan düzəlişlər etməkdən ibarət olmalıdır. Strategiya təşkilatın müxtəlif çalarlı fəaliyyətlərinin inkişafı

perspektivlərinin müqayisəsi və gələcək müvəffəqiyyəti təmin etmək üçün fəaliyyət növləri arasında resursların bölüşdürülməsi əsasında seçilir.

Strategiya çərçivəsində təhsil sisteminin inkişafı üçün aşağıda qeyd edilən beş strateji istiqamətdə genişmiqyaslı tədbirlərin reallaşdırılması nəzərdə tutulur:

1) Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil sisteminin qurulmasına yönəlmişdir və təhsilin bütün pillələri üzrə kurikulumların inkişaf etdirilməsi;

2) İnsan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodlarını tətbiq edən, səriştəli təhsilverənin formalaşdırılması, pedaqoji kadrların peşəkarlığının yüksəldilməsi, yeni qiymətləndirmə modellərinin qurulması, xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim mühitinin yaradılması;

3) Təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin, təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;

4) Müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması;

5) Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması, Təhsilin İnkişafı Fondunun yaradılması [3].

Ölkəmizdə təhsil müəssisələrinin strateji idarəedilməsini təkmilləşdirmək üçün atılmış addımlardan biri də 2011-ci ildə qəbul olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasıdır. Konsepsiya çərçivəsində 2020-ciilədək bir sıra hədəflərə nail olunması hədəf olaraq müəyyən edilmişdi. Buraya təhsil sisteminin səmərəliliyində, onun nailiyyətlərinin formalaşmasında müəllim amilinin həlledici əhəmiyyətini nəzərə almaqla müəllim hazırlığının gücləndirilməsinə xüsusi önəm verilməsi, bütün ümumi təhsil müəllimləri üçün fəal (interaktiv) təlim texnologiyaları və inklüziv təhsil üzrə məqsədli ixtisasartırma təmin edilməsi, hər bir müəllimin İKT bacarıqlarına yiyələnməsi üçün çevik sistem yaradılması daxil idi [1].

Ümumiyyətlə isə, strateji hədəflərə çatmaq üçün strateji idarəetmə üsullarının inkişafına nail olmaq lazımdır. Bu metodologiyanın həyata keçirilməsində aşağıdakı mərhələlər əsas götürülməlidir:

- İcraya nəzarət əsasında idarəetmə;
- Ekstapolyasiya əsasında idarəetmə;
- Dəyişiklikləri qabaqcadan görmək əsasında idarəetmə;
- Çevik, cəld və keyfiyyətli qərarların qəbul edilməsi əsasında idarəetmə;

- Strateji planlaşdırma əsasında idarəetmə;
- Məqsədli investisiya-innovasiya layihələri əsasında idarəetmə;
- Keyfiyyətin kompleks idarə edilməsi konsepsiyası üzrə idarəetmə;
- Marketinq strategiyası əsasında idarəetmə [4].

Nəticə etibarı ilə təhsil müəssisənin strategiyası özündə strateji vəziyyətin prioritetlərini, resursları və strateji məqsədlərə nail olunması üzrə atılacaq addımların ardıcıllığını müəyyənləşdirən əsas fəaliyyət planıdır. Strategiyanın başlıca vəzifəsi isə müəssisə rəhbərlərini gələcək inkişafa hədəfləyərək təşkilatı hazırki vəziyyətdən rəhbərliyin arzuladığı gələcək duruma çatdırmaqdır.

***Ədəbiyyat***

1. *“Azərbaycan - 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası.*
2. *Ağasəf İmran, Menecment – Bakı: Nurlan 2007, 268 s.*
3. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.*
4. *B.V.İsmayılov, Strateji Menecment – Bakı: Təhsil, 2018, 296 s.*
5. *İ.M.Abbasov, Menecment – Bakı Biznes Universiteti, 2013, 206 s.*
6. *file:///C:/Users/User/Downloads/Strategy_and_Strategic_Leadership_in_Education_A_S.pdf*

**G.A.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullayeva.glay@mail.ru***

# İDARƏETMƏ PROSESİNDƏ QƏRARVERMƏ

***Xülasə***

*Məqalədə təhsilin idarəolunması zamanı qərarvermə prosesi izah olunmuş və təhlil edilmişdir. Qərarvermə prosesində qərarın xüsusiyyətləri, mərhələləri, modelləri, növləri kimi nüanslara toxunulmuşdur. İdarəetmənin ən əsas vəzifəsi qərarların qəbul edilməsidir. Bilindiyi kimi, təşkilatlar formalaşdığı gündən etibarən qarşılaşdığı müxtəlif problemlərin həll edilməsi üçün qərarların qəbul edilməsi zərurəti ilə üzləşirlər. Təşkilatların öz problemlərinin həll etmələri üçün verdikləri qərarlara idarəetmə qərarları deyilir. Qərarvermə prosesi təşkilatların effektivliyi və rəqabət qabiliyyəti baxımından olduqca əhəmiyyətli hesab edilir və idarəetmə prosesinin özəyini təşkil edir. İdarəetmədə qərar vermə prosesi təşkilatın və ya ayrı-ayrı fərdlərin öz vəzifə və səlahiyyətləri çərçivəsində məqsədə çatmaları üçün alternativlərin içərisindən ən yaxşısının seçilməsidir. Hər bir idarəedicinin ən vacib keyfiyyəti, onun əhəmiyyətli və çətin qərarlar qəbul etmək istəyinin və bu qərarları verə bilmə səriştəliyinin olmasıdır. İdarəedicinin iş göstəriciləri onun qəbul etdiyi qərarların effektivliyi ilə əlaqədardır. Qərar vermə prosesi rəhbərə vəziyyəti hərtərəfli təhlil edib qiymətləndirməklə sərbəst qərar qəbul etmək hüququ verir. Rəhbər özü qərar qəbul etdiyindən onun yerinə yetirilməsinə də o özü məsuliyyət daşıyır.*

# ПРИНЯТИЕ РЕШЕНИЙ В ПРОЦЕССЕ УПРАВЛЕНИЯ

***Резюме***

*В статье объяснен и проанализирован процесс принятия решений при управлении образованием. В процессе принятия решения были затронуты такие нюансы, как особенности, этапы, модели и виды решения. Важнейшей задачей управления является принятие решений. Как известно, организации сталкиваются с необходимостью принятия решений по решению различных задач, с которыми они сталкиваются со дня своего образования. Решения, принимаемые организациями для решения своих проблем, называются управленческими решениями. Процесс принятия решений считается очень важным с точки зрения эффективности и конкурентоспособности организаций и составляет основу процесса управления. Процесс принятия решений в управлении – это выбор лучшего среди альтернатив достижения целей организации или отдельного лица в рамках его обязанностей и полномочий. Самым важным качеством любого менеджера является его готовность принимать важные и трудные решения и компетентность для принятия этих решений. Эффективность работы менеджера связана с эффективностью его решений. Процесс принятия решений дает лидеру право свободно принимать решение путем тщательного анализа и оценки ситуации. Поскольку*

*руководитель принимает решение сам, он также несет ответственность за его реализацию.*

## DECİSİON MAKİNG İN MANAGEMENT PROCESS

***Summary***

*In the article, the decision-making process during education management is explained and analyzed. In the decision-making process, nuances such as features, stages, models, and types of the decision were touched upon. The most important task of management is decision-making. As it is known, organizations are faced with the need to make decisions to solve the various problems they face from the day of their formation. Decisions made by organizations to solve their problems are called management decisions. The decision-making process is considered very important in terms of the effectiveness and competitiveness of organizations and forms the core of the management process. The decision-making process in management is the selection of the best among the alternatives for the achievement of the goals of the organization or individual within the scope of their duties and powers. The most important quality of any manager is his willingness to make important and difficult decisions and the competence to make those decisions. The manager's performance is related to the effectiveness of his decisions. The decision-making process gives the leader the right to make a decision freely by thoroughly analyzing and evaluating the situation. Since the leader makes the decision himself, he is also responsible for its implementation.*

***Açar sözlər:*** *idarəetmə, idarəedici, qərarvermə, təhsil*
***Ключевые слова:*** *менеджмент, менеджер, принятие решений, образование*
***Key words:*** *management, managerial, decision-making, education*

Qərar hər hansı bir məsələnin hamı tərəfindən müzakirəsindən sonra ortaya çıxan nəticədir. Qərarvermə mürəkkəb proses olub məqsədə nail olmaq üçün imkanlar, vasitələr, yollar arasında uğurlu seçim etməyə imkan yaradan prosesdir. İdarəedici (rəhbər) qərar verən zaman qərarın müəssisənin fəalliyyətinə, məqsədinə, vəzifələrinə uyğun olmasına fikir verməlidir. Bunlar isə ilk öncə idarəedicinin şəxsi keyfiyyətlərindən, bacarığından, təcrübəsindən və başqa nüanslardan asılıdır.

Ali təhsil müəssisələrinin idarəetmə qərarı insanlar tərəfindən qoyulmuş qaydada qəbul edilir, beləliklə o, subyektiv xarakter daşıyır. Amma, hər şeydən qabaq qərarın keyfiyyəti onunla təyin edilir ki, o, cəmiyyətdə mövcud olan qanunauyğunluqları və əlaqələri nə dərəcədə nəzərə alır. İdarəetmə qərarları ya idarəetmə subyektinin iradəsinin idarə münasibətlərinin digər iştirakçısının iradəsi ilə razılaşdırılması nəticəsində, ya da ancaq bir idarəetmə subyektinin iradəsini bildirməklə qəbul edilir. Amma bu və ya digər halda qərar birtərəfli

qəbul edilir. O, səlahiyyətli orqandan, vəzifəli şəxsdən - idarəetmə subyektindən çıxır. İdarəetmə qərarı qanunların tələblərinə uyğun olmalıdır. Dövlət hakimiyyətinin qanunlarının, fərmanlarının və yuxarı təşkilatlarının başqa aktlarının əsasında icraya uyğun olmalıdır, əks təqdirdə qərarın icrası dayandırıla və ya əhəmiyyətsiz sayıla bilər.

Qərarvermə bir sıra xüsusiyyətlərə malikdir:

1. Qərarvermə mümkün qədər sürətli, çevik olmalıdır.
2. Qərarvermə təhsil müəssisəsinin vəzifəsinə, məqsədinə, fəaliyyətinə uyğun olmaqla idarəetmə prosesi zamanı maneələr yaranarkən bu maneələrin aradan qaldırılmasına istiqamətlənməlidir.
3. Qərarvermə prosesi texniki işə bənzəsə də, informasiyanın toplanılması, həmin informasiyaların optimallaşdırılması idarəedicidən ixtisaslı və təcrübəli olmasını tələb edir.
4. Qərar verərkən lazım olacaq resurslardan səmərəli istifadə etmək lazımdır.
5. Qərar verərkən idarə olunacaq təhsil müəssisəsinin indiki və gələcək vəziyyətini nəzərə almaq lazımdır. Bu, müəssisədə qərarın uzun müddət fəaliyyət göstərməsinə kömək edəcəkdir.
6. Qərar verilərkən onun kim tərəfindən idarə olunması, necə, nə vaxt, nə qədər maliyyə vəsaiti ilə, nə qədər müddətdə həyata keçiriləcəyi nəzərdə saxlanılmalıdır.

Göründüyü kimi, qərarvermə heç də asan proses deyil. Hətta təhsil müəssisəsinin rəhbəri qərar verərkən psixoloji stres yaşayır, çünki idarəçinin verəcəyi qərar müəssisənin indiki və sonrakı taleyini həll edir. Buna görə də bəzən idarəçi şəxs qərarvermədə çətinlik çəkərsə, bu qərar xüsusi ixtisas sahibinə müraciət etməklə də alına bilər.

Qərarvermə müəyyən mərhələ əsasında həyata keçirilir. Bu mərhələlər aşağıdakılardır:

1. Məqsədin müəyyən edilməsi mərhələsi;
2. Variantların müəyyən edilməsi mərhələsi;
3. Variantların tutuşdurulması və dəyərləndirilməsi mərhələsi;
4. Varianlar arasında seçim etmək və qərar vermək mərhələsi;
5. Seçilən variantın tətbiq edilməsi mərhələsi;
6. Əldə edilən nəticələr mərhələsi;
7. Qərarla nəticələrin tutuşdurulması mərhələsi;
8. Tədbirlərin görülməsi mərhələsi.

Bu mərhələlərin hər biri bir-biri ilə sıx bağlıdır və əvvəlki mərhələ sonrakı mərhələnin həyata keçirilməsi üçün dayaq rolunu oynayır. Bu baxımdan burada ən önəmli mərhələ məqsədin müəyyən olunması mərhələsidir, çünki düzgün seçilmiş məqsəd uğurlu nəticəyə aparır. Qərarvermə zamanı məqsədin tam aydın olması çox vacibdir. Məqsədin aydın

olması ilə bərabər, hər bir işçinin başa düşə biləcəyi şəkildə onların mənafe və maraqlarına uyğun olması da çox önəmlidir. Verilən qərarlar işçilər tərəfindən mütləq yerinə yetirilməlidir.

Bir ali təhsil müəssisəsinin işinin digər ali təhsil müəssisəsini işindən daha effektiv olması üçün qərarvermə prosesində 3 məqam gözlənilməlidir:

- Qərarvermədə düzgün və əsaslandırılmış qərar qəbul edilməlidir;
- Qərar ən qısa zamanda qəbul edilməlidir;
- Qəbul edilmiş qərar daha tez və uğurla reallaşmalıdır.

Qərarvermə prosesində aşağı səviyyəli orqanların qərarları yuxarı səviyyəli orqanların qərarına uyğun olmalıdır. Məsələn: Rayon Təhsil Şöbələrinin qərarları Elm və Təhsil Nazirliyinin qərarlarına və s. Bundan əlavə olaraq qərarlar cəmiyyətin sosial ədalət prinsiplərini nəzərə almalı, sosial-iqtisadi siyasətə uyğun olmalıdır. Bu qərarlar elmi xarakter daşımalıdır.

İdarəetmə praktikasında qərarların qəbulunda fərdi və ya kollektiv qərar qəbuletmə kimi 2 növü xüsusi fərqlənir. Bu növlərdən hansından istifadə olunması problemin xarakterindən asılıdır. Fərdi qərarlar çox vaxt tək rəhbər tərəfindən, kollektiv qərarlar isə mürəkkəb problemlərin həlli zamanı bir qrup şəxs tərəfindən qəbul edilir. Bu qruplara isə aşağıdakılar aiddir:

- Direksiya qrupları
- Kollegiya qrupları
- Rəhbərlər müşavirəsi
- Ekspert qruplar

Qərarların kollektiv qəbulunun müsbət və mənfi cəhətləri vardır. Bu müsbət tərəflərə aşağıdakıları nümunə göstərə bilərik:

- Qərarların kollektiv qəbulu fərdi qəbulu ilə müqayisədə daha effektiv və səmərəli olur, çünki qərarların kollektiv qəbulunun əsas məqsədi qərarların reallaşması zamanı yeni ideyaları və üsulları axtarıb ortaya çıxarmaqdır.
- Kollektiv qərar qəbulu qərarların daha çox mümkün variantının işlənməsinə imkan verir.
- Mürəkkəb problemlərin həlli zamanı daha effektiv nəticə verir.

Yuxarıda da qeyd etdiyimiz kimi kollektiv qərar qəbuletmənin mənfi cəhətləri də vardır. Mənfi cəhətlərə isə aşağıdakını nümunə göstərə bilərik:

- Təklif edilən fikirlər bir-birinə yaxınlaşmadıqda qəbul edilən qərar zamanı qərarın qapanmasına doğru gedilir.
- Müxtəlif fikirlərin səslənməsi səbəbindən toqquşmalar üzündən gərginlik və münaqişələr ortaya çıxa bilir.

Yuxarıda sadalananları nəzərə alaraq deyə bilərik ki, ali təhsil müəssisələrinin idarə edilməsi zamanı qərar qəbuletmədə yaxşı nəticələrin alınması üçün üç məsələni – konfliktləri, nəzərə alma funksiyasını, yekunlaşdırma işlərini tənzimləmək lazımdır.

Qərar qəbul edilməsində iştirak edən əsas üsullar üç qrupa bölünür:

1. İntuitiv qərar;
2. Müşahidə və ya səriştə əsasında qərar;
3. Rasional qərar.

İntuitiv qərar - hər bir rəhbər işçinin intuasiya əsasında qəbul etdiyi qərardır. Bu halda, daxili hissin hökmü əsas götürülür və heç bir təcrübəyə və ya elmi biliyə istinad edilmir.

Mülahizə və ya səriştə əsasında qərar - aparılmış müşahidələrin yekunlaşdırılması və yaxud da əvvəllər baş vermiş pozuntuların həlli zamanı müsbət nəticə vermiş təcrübənin tətbiqi yolu ilə olur. Bu halda həm ayrı-ayrı fərdlərin, həm də ümumi kollektivin təcrübəsinə və səriştəsinə əsaslanmaq olar.

Rasional qərar - elmi və təcrübi biliklərin tətbiqi, rəhbər işçinin intellektual səviyyəsi və qabiliyyəti əsasında qəbul olunur. Bu halda əsas meyar, elmi-nəzəri biliklərə və həm də qabaqcıl təcrübəyə və müasir elmi metodlara əsaslanmaqdır.

Qərarın qəbul edilməsində 2 modeldən də istifadə olunur:

1. Klassik qərar modeli
2. İdarəedici qərar modeli

**Klassik qərar modeli:** Bu qərar modeli təhsil müəssisəsinin iqtisadi məsələləri ilə sıx bağlı olan bir modeldir, yəni iqtisadi fərziyələrə əsaslanaraq qurulur. Bu zaman idarəedici şəxs təhsil müəssisəsinin iqtisadi xərclərini nəzərə alaraq uğurlu qərarlar almaq imkanı əldə edir. Bu model həm də normalara tabe olan – normativ modeldir, çünki bu zaman idarəedici şəxs qərar qəbul edərkən lazımı norma və qaydaları qarşısına qoyaraq qərar qəbul edir və bu qaydalardan kənara çıxmır.

**İdarəedici qərar modeli:** Bu model ən çətin vəziyyətlərdə qərar verən şəxsin qərar verməsinin asanlaşdırmaq və ona kömək etmək üçün istifadə olunan modeldir. İdarəedici qərar modeli mürəkkəb qərarlar üzərində qurulur. Bu modeldə verilmiş qərar vaxtında icra olunmalı və mütləq müsbət nəticə əldə olunmalıdır.

Qərarvermənin hansı model əsasında qurulmasından asılı olmayaraq təsirli olması ən vacib amillərdən biridir. Qərarın təsirli olması üçün isə müəssisənin maliyyə, maddi, təbii vəziyyəti nəzərə alınmalı və qərarlar universal deyil, yalnız konkret problemin həlli üçün qəbul edilməlidir.

İdarəetmənin qərarları təsiretmə baxımından 2 yerə bölünür: Xarici və müəssisə daxili qərarlar. Məsələn, ali məktəblər üçün xarici qərar dedikdə Nazirlər Kabinetinin verdiyi qərarları bura aid edə bilərik. Daxili qərarlar dedikdə isə Elmi Şuranın, konfransların idarəetmə orqanlarının qərarları nəzərədə tutulur.

Qərarlar növlərinə görə 4 cür qruplaşdırılır:

1. Təşkilati qərarlar

2. Strateji qərarlar
3. İdarəedici qərarlar
4. Əməliyyat yönümlü qərarlar

Təşkilati qərarlar, əsasən, müəssisənin tikinti işləri ilə, strateji qərarlar müəssisənin sərmayəsinin artırılması, yeni məhsulların axtarılması ilə, idarəedici qərarlar müəssisənin strukturu və strukturu meydana gətirəcək resursların planlaşdırılması ilə bağlı verilən qərarlardır. Əməliyyat yönümlü qərarlar isə fəaliyyət prosesində meydana çıxır və ən ali səviyyəni təşkil edir. Bu qərar müəssisə resurslarından ən təsirli və ən səmərəli olanını seçməyi tələb edir.

Göründüyü kimi, qərarvermə çox mürəkkəb və təcrübə gərəkdirən bir prosesdir. Bu proses zamanı qərarvermənin nəzəri əsaslarını və əhəmiyyətini bilməyən idarəedici uğur qazana və işçiləri bu qərarlara tabe edə bilməz.

***Ədəbiyyat***

1. *S.Rəsulov, R.Əzizov - Təhsilin idarə edilməsinin nəzəri və praktiki məsələləri, "Müəllim", Bakı – 2012.*
2. *M.Zamanova – Təhsildə keyfiyyətin sistemli idarəedilməsi, "Elm və təhsil", Bakı – 2017.*
3. *O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov – Təhsilin idarə olunmasının əsasları, "Mütərcim", Bakı – 2010.*
4. *S.Əliyeva – Təhsildə liderlik, Dərs vəsaiti, Bakı – 2017.*
5. *Magistrantların Respublika elmi konfransının materialları – "Təhsilin təşkili və idarə olunmasının aktual məsələləri", Bakı, 7-8 aprel, 2022.*

**A.İ.Xankişiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysenxan1998@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜZRƏ TƏŞKİL OLUNAN RESPUBLİKA FƏNN OLİMPİADALARININ NƏTİCƏLƏRİNƏ DAİR

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində təşkil olunan Respublika Fənn Olimpiadlarının nəticələrindən bəhs olunur. Ümumtəhsil müəssisələrinin şagirdlərinin Respublika Fənn Olimpiadalarında iştirakı çox önəmlidir. Respublika Fənn Olimpiadaları şagirdlər arasında rəqabət yaradır. Bu da onları həvəsləndirir. Olimpiadalar məktəblilərin gələcək karyeralarının müəyyən olunmasında, məktəblərin tərəfdaş təşkilatlarla əlaqələrinin qurulmasında müsbət rol oynayır.*

*Bugünkü yeniyetmələr daha bacarıqlı və yüksək hazırlığa malikdirlər. Doğrudan da şagirdlərimizin ildən-ilə əldə etdikləri uğurların sayı artmaqdadır. Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müxtəlif səpgili layihələr, olimpiadalar və bilik yarışları məhz bizə neçə-neçə yüksək bilik və bacarığa, istedada malik olan yeniyetmə və gənclərimizi tanıtdırıb. Sevindirici haldır ki, son illər Respublika Fənn Olimpiadalarında qalib olan şagirdlərin sayında artım müşahidə olunur.*

# ОБ ИТОГАХ РЕСПУБЛИКАНСКИХ ПРЕДМЕТНЫХ ОЛИМПИАД, ОРГАНИЗОВАННЫХ ДЛЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Резюме***

*В статье говорится об итогах республиканских предметных олимпиад, организованных в общеобразовательных школах. Очень важно участие учащихся общеобразовательных учреждений в Республиканской олимпиаде по естественным наукам. Республиканские олимпиады по естественным наукам создают конкуренцию среди учащихся. Это их мотивирует. Олимпиады играют положительную роль в определении будущей карьеры школьников и установлении связей между школами и партнерскими организациями.*

*Сегодняшние подростки более квалифицированы и хорошо подготовлены. Действительно, количество успехов, достигнутых нашими студентами, увеличивается с каждым годом. Различные проекты, олимпиады и конкурсы знаний, реализуемые Министерством образования, познакомили нас с нашими подростками и молодыми людьми, обладающими высокими знаниями, умениями и талантами. Отрадно видеть, что в последние годы увеличилось количество студентов, побеждающих на республиканских олимпиадах по естественным наукам.*

# ABOUT THE RESULTS OF REPUBLICAN SUBJECT OLYMPIADS ORGANIZED FOR GENERAL EDUCATION SCHOOLS

***Summary***

*The article talks about the results of the Republican Subject Olympiads organized in general education schools. The participation of students of general educational institutions in the Republican Science Olympiad is very important. Republican Science Olympiads create competition among students. This motivates them. Olympiads play a positive role in determining the future careers of schoolchildren and in establishing relations between schools and partner organizations.*

*Today's teenagers are more skilled and highly trained. Indeed, the number of successes achieved by our students is increasing year by year. Various projects, olympiads and knowledge competitions implemented by the Ministry of Education have introduced us to our teenagers and young people who have high knowledge, skills and talents. It is gratifying to see an increase in the number of students winning Republican Science Olympiads in recent years.*

***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, material, dərslik, tapşırıq*

***Ключевые слова:*** *общеобразовательные школы, материал, учебник, задание*

***Key words:*** *general education schools, material, textbook, assignment*

Fənn olimpiadalarında bütün təhsil müəssisələrinin 9-11-ci sinif şagirdləri və xüsusi sifarişlə seçilmiş 8-ci sinif şagirdləri iştirak edirlər. Olimpiadaların keçirilməsində əsas məqsəd xüsusi istedada malik olan şagirdləri üzə çıxarmaq, onların bilik və bacarıqlarını dəyərləndirmək və onların marağını artırmaqdır. Hər il keçirilən bu elm yarışması ölkənin bütün şəhər və rayonlarındakı məktəbləri əhatə edir. Bu, olimpiadanın geniş coğrafi əhatəyə malik olduğunu göstərir.

Olimpiadada iştirak edən tələbələrin xüsusi istedadı onların müəyyən bir elm sahəsində üstün qabiliyyətlərə malik olması deməkdir.

Bu cür tədbirlər gənc istedadların kəşfi, inkişafı və dəstəklənməsi üçün mühüm platforma yaradır. Bundan əlavə, tələbələr arasında rəqabəti təşviq etmək və elmə marağı artırmaq kimi təhsil sahəsində müsbət təsirlər yaratmaq potensialına malikdir [4, s.56].

Respublika Fənn Olimpiadalarına həm Azərbaycan dili, həm də rus dili üzrə təşkil olunan iki bölmə daxildir. Bu, həm Azərbaycan dilində təhsil alan tələbələrin, həm də rus dilində təhsil alan tələbələrin iştirakına imkan yaradır.

Fənn olimpiadaları əsasən 8 fənn üzrə təşkil edilir:

- Azərbaycan dili və ədəbiyyatı
- Tarix

- Coğrafiya
- Biologiya
- Kimya
- Riyaziyyat
- Fizika
- İnformatika

Olimpiada ənənəvi olaraq hər il keçirilir. Bu o deməkdir ki, tələbələr hər il bu mötəbər yarışmada öz istedadlarını nümayiş etdirmək və inkişaf etdirmək imkanı əldə edirlər.

Bu məlumatlara əsasən deyə bilərik ki, Respublika Fənn Olimpiadaları həm dil, həm də elm sahələri üzrə geniş tələbə kütləsini əhatə edən hərtərəfli tədbirdir.

Respublika Fənn Olimpiadaları hər tədris ilində bir dəfə, Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən keçirilən elm yarışıdır. Respublika Fənn Olimpiadaları rayon (şəhər) mərhələsi və Respublika mərhələsi olmaqla iki mərhələdən, Respublika mərhələsi isə yarımfinal və final turları olmaqla iki turdan ibarətdir [2, s.76].

Respublika Fənn Olimpiadalarında şagirdlərə təqdim edilən tapşırıqlar Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş münsiflər heyəti tərəfindən hazırlanır. Olimpiadanın təşkili və keçirilməsi qaydalarına əsasən, rayon (şəhər) mərhələsində 60 faiz və yuxarı nəticə göstərən şagirdlər respublika mərhələsində iştirak etmək hüququ qazanır.

Respublika Təşkilat Komitəsi və münsiflər heyətinin qərarı ilə keçid faizi şagirdlərin lehinə olaraq aşağı salına bilər. Rayon (şəhər) mərhələsində şagirdlər sinifləri üzrə iştirak edirlər. Sadəcə VIII sinif şagirdləri öz bilik və bacarıqlarını IX sinif şagirdləri ilə birgə müvafiq proqram əsasında nümayiş etdirirlər. Respublika mərhələsinin həm yarımfinal, həm final turunda tapşırıqlar iştirakçılara siniflər üzrə deyil, yaş qrupları üzrə təqdim edilir – VIII-IX siniflər Aşağı yaş qrupu, X-XI siniflər Yuxarı yaş qrupu.

Respublika mərhələsinin yarımfinal turunda şagirdlərə hər fənn və hər yaş qrupuna müvafiq olaraq 30 sual qapalı test formatında təqdim edilir. Respublika mərhələsinin yarımfinal turunda tapşırıqlar çətinlik dərəcəsinə görə 3 hissəyə bölünür: 1-10-cu suallar, 11-20-ci suallar, 21-30-cu suallar. Respublika mərhələsinin yarımfinal turunun nəticələrinə əsasən, hər fənn üzrə eyni qayda tətbiq edilmək şərti ilə Aşağı yaş qrupundan ilk 24 və 24-cü ilə eyni balı toplayan şagirdlər, Yuxarı yaş qrupundan ilk 48 və 48-ci ilə eyni balı toplayan şagirdlər finalda iştirak etmək hüququ qazanırlar [10].

Respublika mərhələsinin final turu açıq tipli suallardan təşkil edilir. Şagirdlərin yazı işləri münsiflər heyəti tərəfindən yoxlanılır və qiymətləndirilir. Respublika təşkilat komitəsi və münsiflər heyəti tərəfindən iştirakçılara

tapşırıqların həlləri təqdim edilir. Final turundan bir gün sonra münsiflər heyəti ilə iştirakçıların birgə yazı işlərinə baxış prosesi keçirilir.

Respublika Fənn Olimpiadalarının yekun nəticələri münsiflər heyətinin təqdimatı əsasında Respublika Təşkilat Komitəsinin qərarı ilə təsdiqlənir. Qaydalara əsasən, final mərhələdə iştirak edən şagirdlərin 50 faizi qalib elan edilir və onlara olimpiadanın medalı, diplom və hədiyyələr təqdim edilir. Final mərhələnin bütün iştirakçılarına sertifikat verilir.

Olimpiadaların təşkilində məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlərdə müvafiq fənlərə olan marağın artırılması, onların sağlam rəqabət prinsipləri əsasında öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə şərait yaradılmasından ibarətdir [8].

Respublika Fənn Olimpiadalarında 9-11-ci sinif şagirdləri və xüsusi istedadı ilə seçilən 8-ci sinif şagirdləri Azərbaycan və rus bölmələri olmaqla 8 fənn (Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, biologiya, kimya, riyaziyyat, fizika, informatika) üzrə iştirak edirlər.

Bu ilin ilk yarısında start götürən Respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsi yanvar ayında, respublika mərhələsinin yarımfinal turu fevral və mart aylarında, final turu isə may ayında keçirilib. Olimpiadalarda cəmi 28130 nəfər şagird iştirak edib; 6000-ə yaxını yarımfinala keçən şagirddən 805-i finala çıxıb. Onlardan 397-si isə qalib elan edilib. Respublika Fənn Olimpiadalarında hər fənn üzrə 9 nəfər ən yüksək nəticə göstərib. Olimpiadaların nəticələrinə əsasən, 186 şagird bürünc, 139 şagird gümüş, 72 şagird isə qızıl medal qazanıb.

Azərbaycan təhsillə əlaqəli olimpiada hərəkatı ilə bağlı işlərin böyük əksəriyyətini uğurla icra edir. Bu işdə bilik və bacarıqla yanaşı, vaxt da lazımdır. Nəticələrin yaxşı olması üçün sistemli iş qurulub. Bir çox liseylər dünyada seçilə bilən nəticələr göstərmişlər.

Beynəlxalq olimpiadada nəticələr ürəkaçandır. Şagirdlərin süni nəticələrlə yox, addım-addım irəli getməsini düşünürük. Artıq bu istiqamətdə nəticələr də var. Şagirdlərimizin yarışlarda 50 ölkə sırasına düşməsi yaxşı nəticə kimi qiymətləndirilməlidir. Bir neçə ildir ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklə beynəlxalq olimpiadalarda qalib olanlar müsabiqədənkənar ali təhsil almaq hüququna malikdirlər. Təbii ki, həmin şəxslər çox vaxt təhsilini ölkədən kənarda davam etdirirlər. Çünki qalib şagirdə dünyanın aparıcı universitetlərində tam təqaüd verilir. Bu say Azərbaycandan elə də az deyil. Lakin həmin şagirdlərin Azərbaycanda qalması əsas prioritet sahələrdən biridir. Xaricdə təhsil proqramı yenidən aktivləşdirilib. Sovet dövründə olimpiadaya düşən şagird sayı çox az idi. Ancaq indi o mərhələyə gəlib çatmışıq ki, qaliblər ölkədə qalıb öz təhsillərini davam etdirə bilər [9].

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, 2009.*
2. *Azərbaycan Respublikasının Konstitusiyası, 1995.*
3. *Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəzeti, 14 iyun, 2000-ci il.*
4. *Abbasov O. Təhsilin idarəolunması, Bakı, MM-S 2016, 232 səh.*
5. *Rəhim Ağamalıyev. Azərbaycan təhsili XXI əsrə doğru. İdarəetmə, prioritetlər, islahatlar. Bakı - 1998.*
6. *Səlahəddin Xəlilov. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı - 1999.*
7. *Zahid Qaralov. Azərbaycan təhsilini necə görmək istərdim? "Azərbaycan məktəbi" jurnalı, № 6, 1997, səh.16-20.*
8. *https://edu.gov.az/az/general-education/olimpiada-ve-musabiqeler-fenn-olimpiadalari-sabahin-alimleri-insa-yazi*
9. *https://edu.gov.az/olimpiada-ve-musabiqeler/beynelxalq-fenn-olimpiadalari*
10. *https://www.arti.edu.az/az/page/19-olimpiada*

**N.E.Niftaliyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***niftaliyevnamiq02@gmail.com***

# KARYERA PLANLAŞDIRMA VƏ HƏDƏFLƏRİNİ MÜƏYYƏNLƏŞDİRMƏDƏ MƏZUNLARIN ÜZLƏŞDİYİ ÇƏTİNLİKLƏR VƏ HƏLLİ YOLLARI

***Xülasə***

*Karyera planlaşdırma və hədəflərini müəyyənləşdirmədə məzunların üzləşdiyi çətinliklər və həlli yolları ilə bağlı olan məqalədə karyera inkişafının fərdin peşəkar həyatında inkişaf və yüksəliş prosesini ifadə etdiyi bildirilir. Göstərilir ki, çox vaxt təhsil, təcrübə, bacarıq və şəxsi məqsədləri əhatə edən karyera anlayışı insanı biznesdə də irəliləyişə və uğura aparan yoldur. Karyera insanın hansısa peşə sahəsində tutduğu vəzifələr və nailiyyətlər əsasında formalaşır. "Məzunların karyera uyğunluğu" məzunun təhsilinin, bacarıqlarının və təcrübələrinin əmək bazarının və ya konkret sənayenin tələblərinə uyğunlaşdırılmasına və tətbiqinə aid edilir. Məqalə karyera menecmentinin insanın karyerasına təsir edən amilləri başa düşməyi, karyera məqsədlərinə çatmaq üçün planlar qurmağı və qərarları buna uyğun idarə etməyi təşviq edir. Həmçinin vurğulanır ki, karyera tez-tez formalaşır və insanın iş həyatı boyu keçdiyi mərhələlərə görə dəyişə bilir və bu mərhələlərə təhsil, karyera başlanğıcı, orta karyera, yüksəliş və pensiyanın daxil olduğu izah edilir. Müəllif qeyd edir ki, karyera fərdin şəxsi, peşəkar və maddi məqsədlərə çatmaq üçün göstərdiyi səylə əlaqəli bir proses olduğundan, hər kəsin karyerası fərqlidir və karyera şəxsin şəxsi üstünlükləri, dəyərləri və məqsədləri istiqamətində formalaşır.*

# ПРОБЛЕМЫ И РЕШЕНИЯ, С КОТОРЫМИ СТАЛКИВАЮТСЯ ВЫПУСКНИКИ ПРИ ПЛАНИРОВАНИИ КАРЬЕРЫ И ПОСТАНОВКЕ ЦЕЛЕЙ

***Резюме***

*В статье, посвященной проблемам и решениям, с которыми сталкиваются выпускники при планировании карьеры и постановке целей, утверждается, что развитие карьеры означает процесс роста и продвижения в профессиональной жизни человека. Показано, что концепция карьеры, которая часто включает в себя образование, опыт, навыки и личные цели, является путем к прогрессу и успеху в бизнесе. Карьера формируется на основе должностей и достижений, занимаемых человеком в определенной профессиональной сфере. «Соответствие карьеры выпускника» означает адаптацию и применение образования, навыков и опыта выпускника к требованиям рынка труда или конкретной отрасли. Статья призывает управление карьерой понять факторы, влияющие на карьеру человека,*

*составить планы по достижению карьерных целей и принять соответствующие решения. Также подчеркивается, что карьера часто формируется и может меняться в зависимости от этапов, которые проходит человек в течение своей трудовой жизни, и поясняется, что к этим этапам относятся образование, начало карьеры, середина карьеры, продвижение по службе и выход на пенсию. Карьера — это личное, профессиональное и финансовое дело человека. Поскольку это процесс стремления к достижению целей, карьера у всех разная, и карьера формируется личными предпочтениями, ценностями и целями человека.*

# CHALLENGES AND SOLUTİONS FACED BY GRADUATES İN CAREER PLANNİNG AND GOAL SETTİNG

***Summary***

*The article, which is about the challenges and solutions faced by graduates in career planning and setting goals, states that career development means the process of growth and advancement in a man's professional life. It is shown that a career concept that often includes education, experience, skills and personal goals is the way to progress and succeed in business. Career is formed on the basis of positions and achievements held by a person in a certain professional field. "Graduate career fit" refers to the adaptation and application of a graduate's education, skills and experience to the requirements of the labor market or a specific industry. The article encourages career management to understand the factors that influence a person's career, make plans to achieve career goals, and manage decisions accordingly. It is also emphasized that career is often formed and can change according to the stages a person goes through during his working life, and it is explained that these stages include education, early career, mid-career, promotion and retirement. The author notes that career is an individual's personal, professional and financial Because it is a process of striving to achieve goals, everyone's career is different, and a career is shaped by a person's personal preferences, values, and goals.*

***Açar sözlər:*** *karyera inkişafı, məzun, fasiləsiz təhsil, karyera planlaması, effektiv karyera*

***Ключавые слова:*** *развитие карьеры, выпускник, непрерывное образование, планирование карьеры, эффективное карьера*

***Key words:*** *career development, graduate, continuing education, career planning, effective career*

**Mövzunun aktuallığı:** Bu məqalə karyera planlaşdırma və hədəflərinin müəyyən edilməsində çətinlikləri aşkar etmək və həlli yollarını tapmaqda məzunlara kömək edəcəkdir.

**Mövzunun elmi yeniliyi:** Məqalə məzunların karyera yüksəlişi üçün cari sənaye meylləri, texnoloji irəliləyişlər və əmək bazarındakı dəyişikliklər haqqında məlumatlı olmaları və uğurlu karyera üçün yollar təklif edir.

**Mövzunun nəzəri əhəmiyyəti:** Mövzunun nəzəri əsasını karyera planlaşdırılması və hədəflərini müəyyənləşdirmədə məzunların üzləşdiyi çətinliklər və həlli yolları ilə bağlı tədqiqatlarda, araşdırmalarda mövcud olan elmi əsaslandırmalara və nəzəri məsələlərə dair məlumatlar təşkil edir.

**Mövzunun praktik əhəmiyyəti:** Məqalədə karyera planlaşdırılması və hədəflərini müəyyənləşdirmədə məzunların üzləşdiyi çətinliklər və həlli yolları ilə bağlı verilmiş olan təkliflər məzunların karyera inkişafında, düzgün karyera planlaşdırılması və hədəflərin müəyyənləşdirilməsində, müəssisənin performasının yüksəldilməsinə və bacarıqlı kadrlarla təmin edilməsinə, karyeranın idarə edilməsi və planlaşdırılmasının tətbiqinə və təkmilləşdirilməsinə faydalar verə bilər.

## Giriş

“Karyera” termini fərdin peşəkar həyatında inkişaf və yüksəliş prosesini ifadə edir. Çox vaxt təhsil, təcrübə, bacarıq və şəxsi məqsədləri əhatə edən karyera anlayışı insanın biznesdə də irəliləyişə və uğura aparan yoludur. Karyera insanın hansısa peşə sahəsində tutduğu vəzifələr və nailiyyətlər əsasında formalaşır. “Məzunların karyera uyğunluğu” məzunun təhsilinin, bacarıqlarının və təcrübələrinin əmək bazarının və ya konkret sənayenin tələblərinə uyğunlaşdırılmasına və tətbiqinə aiddir. Karyera uyğunluğu məzunların təhsil illərindən başlayır və seçdikləri peşənin tələblərinə cavab verərək karyera yollarında addımlayır, cəmiyyətə effektiv töhfə vermək üçün nə qədər yaxşı hazırlanmış və təchiz edilmiş olduğunu qiymətləndirir. Burada ən böyük vəzifə təhsilin üzərinə düşür. İlk növbədə məzunların təhsillərinin daxil olmaq istədikləri sahəyə uyğun olması təmin edilməli, təhsil müddətində əldə etdikləri bilik və bacarıqlar seçdikləri peşənin tələblərinə uyğun olmalıdır. Bundan sonra məzunlar öz sahələrində işəgötürənlər tərəfindən tələb olunan lazımi bacarıqlara malik olmalıdırlar. Buraya həm texniki və ya sərt bacarıqlar, həm də ünsiyyət, komanda işi, problemin həlli və uyğunlaşma kimi yumşaq bacarıqlar daxildir.

**Məzunların karyera yüksəlişi üçün cari sənaye meylləri, texnoloji irəliləyişlər və əmək bazarındakı dəyişikliklər haqqında məlumatlı olmaları zəruri tələbdir.**

İnkişaf etməkdə olan mənzərədən xəbərdar olmaq onlara aktual olmağa və yeni çağırışlara uyğunlaşmağa kömək edir. Təcrübə, əməkdaşlıq proqramları və ya part-time işlərlə əldə edilmiş praktiki təcrübə məzunlar üçün çox vacibdir. Bu, real dünya ilə tanışlığı təmin edir və nəzəri bilikləri praktiki şəraitdə tətbiq etməyə imkan verir, onları işəgötürənlər üçün daha uyğun və cəlbedici edir. Hazırda Könüllülük proqramı məzunların iş təcrübəsinin formalaşdırılmasına dəstəkdir. Bu bir peşəkar şəbəkənin qurulması deməkdir və karyera uyğunluğu üçün vacibdir. Məzunlar öz sahələrində peşəkarlarla

əlaqə qurmaqdan, sənaye tədbirlərində iştirak etməkdən və sənaye inkişafları haqqında məlumatlı olmaq üçün şəbəkə imkanları ilə məşğul olmaqdan faydalana bilərlər. Azərbaycan Karyera İnkişaf Forumu Tövsiyə paketində işəgötürənlərin təcrübəsi haqqında deyilir: "İşəgötürənin təcrübə tələbini gənclərin ödəyə bilməməsi nəticəsində bir çox gənc ali təhsilli olmasına baxmayaraq kütləvi şəkildə işsizlikdən əziyyət çəkir. Tələbənin ali təhsil müəssisəsinə qəbul olduğu vaxtdan etibarən düzgün şəkildə maarifləndirilməsi və uyğun istiqamətə yönəldilməsi məhz karyera mərkəzləri tərəfindən aparılması zəruri olan məsələlərdəndir" [1,4]. Hazırda fasiləsiz təhsil və davamlı öyrənmə imkanlarının olması, məzunların ömür boyu öyrənmə düşüncəsini qəbul etmələri davamlı təhsil və təlim vasitəsilə yeni texnologiyalara və baş verən dəyişikliklərə uyğunlaşma bacarığı formalaşdıraraq zamanla məzunların karyera aktuallığını artırır, düşüncəli karyera planlaması və məqsəd qoyma ilə məşğul olan məzunlar maraq və bacarıqlarına uyğun gələn yollarla davam edirlər. Bu proaktiv yanaşma onların karyeralarının şəxsi istəklərinə uyğunluğunu artırır.

**Məzunların bazara effektiv hazırlanmaları.**

Təcrübələr göstərir ki, bu günün məzunları yaxşı hazırlanmış CV, onlayn profillər və peşəkar brendinq vasitəsilə özlərini effektiv şəkildə bazara hazırlamalıdırlar. Artıq təhsil illərindən brend şagird, brend tələbə kimi tanınmalı, bu estafeti brend müəssisə, brend şirkətə ötürməlidirlər. Bir qədər də bədii desək, özünü reklam, bacarıqları və nailiyyətləri haqqında aydın və cəlbedici bir hekayə təqdim etməklə satış qabiliyyətlərini artıraraq karyerada yüksəlişə nail ola bilərlər. Məzunların karyera inkişafında qlobal perspektivlər mühüm rol oynayır. Getdikcə qloballaşan dünyada qlobal perspektivə malik və mədəni şüurlu məzunlar işəgötürənlər üçün çox vaxt daha uyğun olurlar. Buraya beynəlxalq biznes təcrübələrini, dilləri və mədəniyyətlərarası ünsiyyəti başa düşmək daxildir. Karyera planlaması fərdin karyera məqsədlərini müəyyənləşdirməsi, müvafiq təhsil alması, təcrübə qazanması və arzuladığı peşə və ya vəzifələrə nail olmaq üçün strategiyaların hazırlanması prosesini əhatə edir. Bu strategiyalar A.Cabarzadə "Şəxsi İnkişaf və karyera planlaşdırması" məqaləsində "Karyerasının məqsədlərini müəyyən etməyi, müasir işaxtarma və müraciət üsullarından - CV, müsahibələr üsullarından istifadə etməyi tövsiyə edir" [2, 38]. Karyera inkişafı davamlı öyrənmə, bacarıqların inkişafı və iş dünyasındakı dəyişikliklərə uyğunlaşma kimi elementləri əhatə edir. Karyera menecmenti insanın karyerasına təsir edən amilləri başa düşməyi, karyera məqsədlərinə çatmaq üçün planlar qurmağı və qərarlarını buna uyğun idarə etməyi təşviq edir. Karyera tez-tez formalaşır və insanın iş həyatı boyu keçdiyi mərhələlərə görə dəyişə bilər. Bu mərhələlərə təhsil, karyera başlanğıcı, orta karyera, yüksəliş və pensiya daxildir [5, 31]. Karyera fərdin şəxsi, peşəkar və maddi məqsədlərə çatmaq üçün göstərdiyi

səylə əlaqəli bir proses olduğundan, hər kəsin karyerası fərqlidir və şəxsi üstünlükləri, dəyərləri və məqsədləri istiqamətində formalaşır. Azərbaycanda karyera sistemin inkişafında bir neçə mərhələ göstərilir: “Karyeranın ilkin mərhələsinə orta və ali təhsil almaq aid edilir və bu şəxsin 25 yaşınadək davam edir. Bu dövr ərzində insan onun tələblərini ödəyə bilən fəaliyyət növünün seçilməsində bir neçə iş dəyişə bilər. Növbəti olaraq təşəkkül mərhələsi gəlir. Bu mərhələ təxminən 25-30 yaş arası dövrü əhatə edir. Bu mərhələdə işçi seçdiyi peşəni mənimsəməyə eyni zamanda zəruri vərdişlər qazanmağa, peşəkarlığa, özünütəsdiq etməyə başlayır. İrəliləyiş mərhələsi 30-45 yaş arası dövrü əhatə edir. Bu mərhələyə işçinin ixtisasının yüksəlməsi baş verir, xidmət nərdivanının pillələri ilə yüksəlir. Yeni-yeni vərdişlər, praktiki təcrübələr vasitəsilə yüksək səviyyəyə çatır ki, bu da işçidə özünü ifadəetmə tələbatını inkişaf etdirir, işçinin bir şəxsiyyət kimi özünü təsdiqləməsinə imkan verir” [3,4].

Karyera heç də asan başa gəlmir. Çətinliklər qarşısında uyğunlaşma qabiliyyəti və möhkəmlik nümayiş etdirən məzunların dəyişən iş mühitlərində uğurla naviqasiya etmək ehtimalı daha yüksəkdir. Bu keyfiyyətlər davamlı karyera aktuallığına kömək edir. Məzunun karyera aktuallığı peşəkar inkişaf üçün fəal və strateji yanaşma tələb edən dinamik və inkişaf edən bir konsepsiyadır. Bacarıqlarını ardıcıl olaraq qiymətləndirən və təkmilləşdirən, sənaye tendensiyaları haqqında məlumatlı olan və karyeralarını aktiv şəkildə idarə edən məzunların seçdikləri sahələr üzrə aktual qalması və inkişaf etməsi ehtimalı daha yüksəkdir. Karyera planlaması insanın iş həyatı boyu şəxsi və peşəkar məqsədlərini müəyyən etmək və idarə etmək prosesidir. Bu, təhsil, təlim və məşğulluq haqqında əsaslandırılmış qərarlar qəbul etmək üçün fərdi bacarıqların, maraqların, dəyərlərin və istəklərin dərk edilməsinə sistemli yanaşmanı əhatə edir. Karyera planlamasının məqsədi şəxsi məqsədləri peşəkar imkanlarla uyğunlaşdırmaq, fərdlərə yerinə yetirən və mükafatlandırıcı karyera qurmağa imkan verməkdir. Karyera planlamasının əsas komponentlərinə nəzər salaq:

İlk olaraq özünüqiymətləndirmədən başlasaq, daha düzgün olar. Özünüqiymətləndirmə insanın güclü, zəif tərəflərini, maraqlarını, dəyərlərini və bacarıqlarını dərk etmək üçün mühüm ilk addımdır. Özünüqiymətləndirmə alətləri, şəxsiyyət testləri və karyera qiymətləndirmələri şəxsi atributlar haqqında fikir əldə etmək üçün istifadə edilə bilər. Karyera planlaması, karyera inkişafı strategiyalarının həyata keçirilməsi, özünüqiymətləndirmə və imkanları təhlil etdikdən sonra nəticələri qiymətləndirməyi hədəfləyir. Bu sistematik bir prosesdir. Karyera planlaması təşkilatda seçilmiş karyera yolunda irəliləmə prosesidir. Bu, fərdin planlarının və bu planların həyata keçirilməsi vasitələrinin müəyyən edilməsi prosesidir. Karyera planlaması – “özlərini, fərdlərin güclü və zəif tərəflərini bilmək və qiymətləndirmək istiqamətlərini

müəyyən etmək, bilik, bacarıq və təcrübələrinə uyğun gələcəklərini müəyyən etmək, müvafiq gözləntiləri, planları və məqsədləri müəyyən etmək, onlara hansı yol və üsullarla nail olmaq”dır [6, 28].

**Karyera seçimlərinin araşdırılmasında çətinliklər və həll yolları.**

Karyera seçimlərinin araşdırılması da karyera planlamasının əsas mərhələri sırasında şəxsi üstünlüklər və məqsədlərlə potensial uyğunluqları müəyyən etmək üçün müxtəlif karyera yollarını, sənaye sahələrini və iş rollarını araşdırmağı vacib sayır. Məqsəd təyini, təhsil və bacarıqların inkişafı, şəbəkə qurmaq, iş axtarışı strategiyaları, uyğunlaşma və davamlı öyrənmə, qiymətləndirmə və düzəliş kimi mərhələlər karyera planlamasının əhəmiyyətini, effektivliyini artırır. Effektiv karyera planlaması fərdlərə əsaslandırılmış qərarlar qəbul etmək, potensiallarını maksimum dərəcədə artırmaq və əmək bazarının dinamik təbiətinə uyğunlaşmaq imkanı verir. Bu, fərdlər təcrübə qazandıqca, yeni bacarıqlar əldə etdikcə və öz məqsəd və prioritetlərini yenidən qiymətləndirdikcə inkişaf edən davamlı bir prosesdir. Amma heç də hər şey göründüyü qədər asan deyil. Məzunlar tez-tez karyera məqsədləri üçün müxtəlif çətinliklərlə üzləşirlər. Bu çətinliklərdən ən əsası təcrübə çatışmazlığı ilə bağlıdır. Bir çox məzunlar praktiki iş təcrübəsinin olmaması səbəbindən iş tapmaqda çətinlik çəkirlər. Bəs bunun həll yolu nədir? Araşdırmaçılar belə hesab edirlər ki, müvafiq təcrübə qazanmaq üçün təhsil müddətində təcrübə, part-time iş və ya könüllülük imkanları axtarmaq ən yaxşı həll yoludur. Şəbəkə və məlumat müsahibələri də karyera işində əlaqələr qurmağınıza kömək edə bilər.

Məhdud şəbəkə problemi də məzunların karyera işində məzunların maneələrlə üzləşməsinə, peşəkar şəbəkə qurmaqda çətinliklərə səbəb ola bilər. Bunun həlli yolu isə münasib tədbirlərdə iştirak etmək, peşəkar təşkilatlara qoşularaq iş əldə edən məzunlarla əlaqə saxlayaraq onların təcrübəsindən yararlanmaqla həll edilə bilər. Məzunlar şəbəkəni genişləndirmək üçün LinkedIn kimi onlayn platformalardan istifadə edə bilərlər. Fikrimizcə Şəbəkə qurmaq dəyərli fikirlər, mentorluq və potensial iş imkanları əldə etməkdə məzunların yardımçısı ola bilər.

Məzunların karyera yolunda bacarıq uyğunsuzluğu problemi də diqqət tələb edir. Bəzi məzunlar onların akademik ixtisaslarının işəgötürənlər tərəfindən tələb olunan bacarıqlarla mükəmməl uyğunlaşmadığını görürlər. Bəs bu zaman hansı həll yolları var? Mütəxəssislərin fikrincə məzunlar ilk olaraq bacarıqlardakı boşluqları müəyyənləşdirməli, əlavə təlim və ya kurslardan keçərək şəxsi və peşəkar inkişafını təkmilləşdirməli, uyğun sertifikatlara sahib olmalıdırlar. Bacarıqların artırılması üçün onlayn kurslar və ya seminarlardan da yararlanmaq mümkündür. Kurs işlərindən, təcrübədən və ya dərsdənkənar fəaliyyətlərdən əldə edilən bilən bacarıqları vurğulamaq üçün CV hazırlanması ən yaxşı yoldur.

Məzunların karyera inkişafında üzləşdikləri çətinliklər sırasında əmək haqqı gözləntiləri, iş-həyat balansı, koorporativ mədəniyyətə uyğunlaşma, qeyri-müəyyən karyera yolu kimi problemlər heç də həlsiz deyil. Öz şəxsi inkişafını və peşəkarlığını təmin etməklə hər bir insan bacarıqlarına, potensialına uyğun iş tapa biər. Sadəcə olaraq bu çətinliklərin öhdəsindən gəlmək çox vaxt əzmkarlıq, uyğunlaşmaq qabiliyyəti və proaktiv yanaşma nümayiş etdirmək, güclü dəstək şəbəkəsi qurmaq, öyrənməyə açıq qalmaq və karyera planına davamlı olaraq təkmilləşdirmək və təkmilləşmək iddiaları daxil etmək lazımdır. Bu yolla karyera məqsədlərinə çataraq uzunmüddətli uğura imza atmaq olar.

## Nəticə:

1. Məzunlar karyera planlaşdırması və hədəflərin müəyyən olunması yolundakı çətinliklərdən xəbərdar oldular.
2. Problemin həlli yolları ilə tanış oldular.
3. Peşəseçimləri və karyera inkişafı ilə bağlı bəzi məqamlara aydınlıq gətirildi.
4. Karyera yüksəlişi üçün irəliləyişlər, qlobal dəyişikliklər və perspektivlərlə maarifləndirildilər.

***Ədəbiyyat***

1. *Azərbaycan Karyera İnkişaf Forumu. Tövsiyə paketi. Bakı - 2021, 23.* **https://dma.gov.az/storage/AK-F-To-vsiy-s-n-di.pdf**
2. *Cabarzadə A., Q., Şəxsi İnkişaf və karyera planlaşdırması. Bakı - 2019, 50*
3. *Əliyev M., Həmidov H. "İnsan Resurslarının İdarə edilməsi. Bakı -2002, 538.*
4. *M.H.Məmmədov, K.A.Şahbazov, H.S.Həsənov "Menecment" Bakı - 2005, 1012.*
5. *Nuriyeva S.Q. "Azərbaycanda fəaliyyət göstərən xidmət müəssisələrində işgüzar adaptasiya və karyera sisteminin formalaşması", 86.*
6. *Sibel Abalı. Z nasıl və karyera planlaşması. Pamukkale Universiteti Sosial Elmlər İnstitutu. Məsləhətçi: Prof. Dr. Cəlaləddin Serinkan, İyul 2023, 96.*

**V.H.Abbaszadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vusal.abbaszade1905@gmail.com***

# HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİNDƏ PEDAQOJİ KADR HAZIRLIĞI

***Xülasə***

*Məqalədə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın təhsil sektorunda aparılmış işlərdən bəhs edilir. O, təhsil işçilərinin millətin gələcəyinin formalaşmasında mühüm rol oynadığını xüsusi qeyd etmiş və buna görə də müəllim hazırlığına və peşəkar inkişaf proqramlarına investisiya qoyuluşunu vacib hesab etmişdir. Heydər Əliyev kənd yerlərində ixtisaslı müəllim çatışmazlığı problemini də həll edir, onların sayının və keyfiyyətinin artırılması üçün tədbirlər həyata keçirirdi. Tələbələrin mənzil problemini həll etmək üçün tələbə yataqxanalarının sahəsinin genişləndirilməsinə xüsusi qayğı göstərib. Bütövlükdə, Heydər Əliyevin təhsil sahəsində gördüyü işlər təhsilin keyfiyyətinin yüksəldilməsi və gələcək nəsli ölkənin inkişafına hazırlamaq məqsədi daşıyırdı.*

# ПОДГОТОВКА ПЕДАГОГИЧЕСКИХ КАДРОВ В ОБРАЗОВАТЕЛЬНОЙ ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА

***Резюме***

*В статье рассказывается о работе, проделанной в сфере образования Азербайджана во время руководства Гейдара Алиева. он особо отметил, что педагоги играют важную роль в формировании будущего нации, и поэтому счел важным инвестировать в программы подготовки учителей и повышения квалификации. Гейдар Алиев также решил проблему нехватки квалифицированных учителей в сельской местности и осуществил меры по увеличению их количества и качества. В целях решения жилищной проблемы студентов он уделил особое внимание расширению площади студенческих общежитий. В целом работа Гейдара Алиева в области образования была направлена на повышение качества образования и подготовку следующего поколения к развитию страны.*

# TRAINING OF PEDAGOGICAL PERSONNEL IN HEYDAR ALIYEV'S EDUCATIONAL POLICY

***Summary***

*The article talks about the work carried out in the education sector of Azerbaijan during the leadership of Heydar Aliyev. He specifically noted that educators play an important role in shaping the nation's future, and therefore considered it important to invest in teacher training and professional development programs. Heydar Aliyev also solved the problem of shortage of qualified teachers in*

*rural areas and implemented measures to increase their number and quality. In order to solve the housing problem of students, he paid special attention to expanding the area of student dormitories. As a whole, Heydar Aliyev's work in the field of education was aimed at improving the quality of education and preparing the next generation for the development of the country.*

***Açar sözlər:*** *Ulu Öndər, təhsil islahatları, pedaqoji kadr, təhsil ixtisasları, müəllim inkişafı*

***Ключевые слова:*** *великий лидер, реформа образования, педагогический персонал, образовательные специальности, развитие учителей*

***Key words:*** *Great Leader, educational reforms, pedagogical personnel, educational specialties, teacher development*

Hərtərəfli dünyagörüşü və liderliyi ilə seçilən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın inkişafında silinməz iz qoyub. Onun təsir göstərdiyi çoxşaxəli sahələr arasında təhsil onun transformativ təşəbbüslərinin xalqın rifahını formalaşdırmağa davam etdiyi bir sahə kimi seçilir. Müəllim hazırlığı Heydər Əliyevin Azərbaycanda olduğu dövrdə həyata keçirdiyi təhsil islahatlarının mühüm tərkib hissəsi idi. Təhsil işçilərinin millətin gələcəyinin formalaşmasında mühüm rol oynadığını dərk edərək onun hökuməti müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi və peşəkar inkişafı üçün müxtəlif təşəbbüslər həyata keçirmişdir.

Görkəmli dövlət xadimi ölkəyə birinci rəhbərliyi dövründə (1969-1982) Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın mədəni-intellektual resurslarının gücləndirilməsinə, bir neçə on ildən sonra dövlət müstəqilliyini elan edəcək Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdi. 1990-cı illərin əvvəlləri Sovet İttifaqının dağılmasından sonra çıxan Azərbaycan üçün keçid və çağırış dövrü oldu. Təhsil sistemi saysız-hesabsız problemlərlə, o cümlədən köhnəlmiş infrastruktur, müasir kurikulumun olmaması ilə üzləşdi.

Ali təhsilli müəllimlərin sayının artması və kənd məktəblərinin ixtisaslı müəllim kadrları ilə təmin edilməsi məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu dövr üçün olan statistik məlumatlara baxdıqda görə bilərik ki, 1969-cu il sentyabrın 1-i üçün Azərbaycanın ibtidai, səkkizillik və orta məktəblərində işləyən 75 min müəllimin yalnız 50 faizinin ali təhsili var idi. Azərbaycan rəhbəri bu vəziyyətin dərhal düzəldilməsi üçün müəyyən tədbirlər həyata keçirməyə başladı. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında qəbul edilən qərara əsasən respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müsabiqədənkənar qəbulu həyata keçirilməli idi. Bu

qərarın nəticəsi olaraq ötən əsrin 70-80-ci illərində Azərbaycan kəndinin müəyyən səviyyədə inkişafına nail olundu.

Qərarın tətbiqi zamanı meydana çıxan problem müsabiqədən kənar qəbul işində nöqsanlara yol verilməsi idi. Nöqsanlardan bəziləri bir sıra rayonlardan ali məktəblərə planda nəzərdə tutulan qədər gənci tövsiyə etmirdilər, bununla yanaşı qəbula gələn abituriyentlərin hazırlıq səviyyəsi aşağı olurdu. Məhz belə vəziyyətdə Heydər Əliyev yol verilən mövcud qüsurların tezliklə və qətiyyətlə aradan qaldırılmasını tələb edir, hər zamankı kimi müvafiq tapşırıqlarını verməklə problemin həll edilməsinə istiqamət vermişdir. Heydər Əliyev 1982-ci ildə bu məsələ ilə bağlı etdiyi nitqində deyirdi ki, respublikanın 30 rayonuna müsabiqədən kənar 30 yer ayrılsa da, ali məktəblərə cəmi 7 nəfər qəbul edilib.

Gənc kadrların yetişdirilməsi məqsədinin qarşıya qoyulması və onun tətbiqi kompleks bir prosesdir. Bu zaman yaranan problemlərdən biri Bakıya və digər şəhərlərə pedaqoji təhsil almaq üçün gələn gənclərin yaşaması məsələsi idi. Təhsil alan tələbələrin yaşaması üçün yataqxana şəbəkəsi çatışmırdı, ev kirayəsi isə baha olduğundan rayonlardan gələnlər üçün çətinliklər yaranırdı. Belə bir şərait əlbəttə ki, Heydər Əliyevi düşündürürdü.

Kənd yerlərində müəllim nüfuzunun artırılması üçün bir sıra işlər görülmüşdür. Bunlardan biri 1971-ci ildə kənd yerlərində ümumtəhsil məktəblərinin, o cümlədən həmin məktəblərin pensiyaya çıxmış müəllimləri, üçillik kənd texniki peşə məktəblərinin ümumtəhsil fənləri üzrə müəllimləri kənd təsərrüfatı vergisindən azad edildilər.

Təhsil daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, Azərbaycan müəllimlərinin qurultaylarında iştirak edir və proqram xarakterli nitq söyləyirdi. 1978-ci ildə 25 mart tarixində Azərbaycan KP MK bürosunun keçirtdiyi iclasda Azərbaycan müəllimlərinin qurultayının çağırılması haqqında qərar qəbul edildi. Büronun 17 may tarixli iclasında isə Heydər Əliyevin qurultay iştirakçılarına təbrik məktubunun və edəcəyi məruzənin mətni yüksək səviyyədə bəyənildi. 1978-ci ilin may ayında keçirilən Azərbaycan müəllimlərinin VI qurultayında çıxış edən Heydər Əliyev geniş nitq söylədi. Onun nitqində təhsilin əhəmiyyəti, həmin dövrdəki mövcud vəziyyəti dərindən təhlil edilir, vəzifələr müəyyən edilirdi.

Heydər Əliyev Azərbaycanın orta məktəb müəllimlərinin fəxri adlar almasında və ölkədə tanınması üçün mühüm işlər görmüşdür. O, Sov.İKP MK-ya dəfələrlə məktublar yazırdı. Heydər Əliyevin təkidlərinin nəticəsi olaraq qeyd edə bilərik ki, 1981-ci il aprelin 23-də Z.Şöyübova SSRİ Xalq müəllimi fəxri adının verilməsi barədə MK-ya 233 nömrəli məxfi məktub yazmış, az sonra bu istəyinə nail olmuşdu. Heydər Əliyev maarif işçilərinə mükafatları çox vaxt şəxsən özü təqdim edirdi.

Heydər Əliyevin fəaliyyəti nəticəsində ali və orta ixtisas təhsilli kadrların hazırlanması səviyyəsinə və miqyasına görə Azərbaycan yüksək səviyyədə inkişaf etdi. Belə bir inkişaf sonrasında Şərq respublikalarını keçərək onları geridə qoydu. Bu dövr üçün qeyd edə bilərik ki, respublika əhalisinin hər 10 min nəfərindən 172 nəfəri tələbə idi. Hər nə qədər gözəl bir nəticə olsa da böyük lider bu sayla kifayətlənmədi. O, yeni ali məktəblərin açılması və maarif işini davam etdirirdi. Beləliklə, Azərbaycanda 18-ci ali məktəb olan Gəncə Texnologiya institutu yaradıldı. Bu yeni ali təhsil müəssisəsinin yaradılmasının Azərbaycan üçün faydası böyük oldu. Nəticədə yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına imkan yarandı.

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi zaman Azərbaycan sovet dövlətinin xarici ölkələr üçün mütəxəssis hazırlayan əsas mərkəzlərindən birinə çevrilmişdi. Məhz onun uğurlarının nəticəsidir ki, Asiya, Afrika, Latın Amerikası, hətta Avropanın müxtəlif ölkələrindən də gənclər Azərbaycan ali məktəblərinə təhsil almaq üçün gəlirdilər. Xaricdən gələn tələbələrlə iş ali təhsil müəssisələrində çalışan şəxslərin məsuliyyətini artırırdı. 1969-cu il 12 avqust tarixində Azərbaycan KP MK bürosunun keçirmiş olduğu iclasda respublika ali məktəblərində təhsil alan xarici tələbələrlə işi yaxşılaşdırmaq barədə qərar qəbul olundu.

Xaricdən gələn tələbələrlə yanaşı həmçinin, azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində təcrübə keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail olunurdu. Məsələn, 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Almaniya Demokratik Respublikası, Polşa, Çexoslovakiya, Macarıstan və Yuqoslaviyada təhsil almağa göndərilmişdi. Adını çəkdiyimiz ölkələr hər nə qədər sosialist ölkələri olsalar da hər halda Avropa ölkələri kimi onlarda elm, təhsil yüksək səviyyədə inkişaf etmişdi. Sovet sistemi şəraitində Azərbaycan xarici ölkələrlə birbaşa əlaqə yarada bilmirdi. Daim inkişaf üçün çalışan Heydər Əliyev azərbaycanlı gənclərin ölkənin qabaqcıl ali məktəblərində müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaradırdı. O, gənclərə dünya elminin ən son nailiyyətlərindən və təhsil aldığı şəhərin əhalisinin mədəniyyətindən xəbərdar olmağı tövsiyə edirdi.

Bir sıra ixtisaslar var idi ki, Azərbaycan üçün yeni idi. Yeni ixtisaslar üzrə mütəxəssis hazırlayan ali məktəblərə daxil olmaq isə daha çətin idi. Bu ixtisasların bir çoxu, məsələn, informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. sahələrdə kadr çatışmazlığı, həm də mərkəzin yürütdüyü siyasət ucbatından Azərbaycanda hazırlanmırdı. Belə bir halın yaşanması Heydər Əliyevi narahat edirdi. O, gənclərin ölkənin müxtəlif, ilk növbədə Moskva, Leninqrad, Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə almağa başladı. Lakin proses gözlənildiyi kimi uğurlu həyata keçmirdi. 1972-1973-cü illərdə azərbaycanlılar bu məktəblərdə oxumağa çox az gedirdilər. Heydər Əliyev ölkənin ali

məktəblərində müsabiqədənkənar oxumağa gedən gənclərin ümumi sayının hər il artırılması üçün əlindən gələn hər şeyi edir, Moskvadan böyük inadkarlıqla icazə alırdı. Hətta onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olmaqla bu gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğı göstərirdi. Azərbaycanlı gənclər qabaqcıl ali məktəblərdə sadəcə elmlərə yiyələnməklə qalmır, həmçinin, yaşadıqları şəhərlərin bir çox tarixi-mədəniyyət abidələri ilə tanış olurdular. Əks olunan məlumatlar bizə bir daha göstərir ki, minlərlə azərbaycanlı gəncin yüksək ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi ümummilli liderin xeyirxahlığının və bu sahəyə verdiyi önəmin bariz ifadəsidir.

Müstəqilliyin ilk illərində bir-birini əvəzləyən müvəqqəti hakimiyyətlərin düzgün olmayan siyasətinin nəticəsində ölkənin digər əhəmiyyətli sahələri kimi Azərbaycan elm-təhsili də böhranla qarşılaşdı. Təhsil sahəsində ağır tənəzzül dövrü başlamış oldu. Azərbaycandan xaricə «beyin axını» gücləndi, elm və təhsil sahəsində çalışanlar ölkədə ən çətin vəziyyətdə yaşayan və ən nüfuzsuz sosial kateqoriyalara çevrilərək xırda biznesin artan nüfuzu qarşısında miskin duruma düşdülər, Azərbaycan elmi, təhsili uğursuz eksperimentlərin meydanına çevrildi.

Heydər Əliyev Azərbaycanın əsas sahələrindən biri olan təhsilin milli əsaslar üzərində müasir dünya təhsil sisteminə inteqrasiyasını əsas vəzifə kimi yenidən aktuallaşdırdı. Bu məqsədi reallaşdırmaq üçün mütərəqqi islahatları sistemli olaraq həyata keçirdi. Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın pulsuz icbari təhsil almaq hüququ təsdiq edildi. Bununla yanaşı səviyyəli təhsil uğrunda ədalətli rəqabət şəraitini yaratmaq məqsədilə bu sahədə özəl sektorun inkişafına şərait yaradıldı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan elmi son illərin məhrumiyyətlərindən azad olaraq öz qəddini düzəltdi, uçurumdan geriyə doğru addımlayaraq özünü sahmana saldı, dirçəliş yoluna qədəm qoydu. Vətəndən uzaq düşüb bir tikə çörək dalınca xaricə üz tutan istedadlı alimlərimiz tədricən geriyə qayıtmağa başladılar. Elmlər Akademiyasının fəaliyyətində yeni istiqamətlər müəyyənləşdi və 1997-ci ilin 31 yanvarında böyük öndərimizin akademiyanın bir qrup aparıcı alimi ilə keçirdiyi tarixi görüşdən sonra faktiki olaraq ötən əsrdə Elmlər Akademiyasının inkişafının üçüncü mərhələsi başlandı. Heydər Əliyev həmin görüşdəki çıxışında çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərh olunmasının dövlət üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha diqqətə çatdırdı. Azərbaycan elmi qarşısında dayanmış əsaslı problemlərə toxunub onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti,

xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə edərək, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Bütün bu tövsiyələr Azərbaycan elminin inkişafı məqsədinə hesablanmış fərman və sərəncamlarla müşayiət olunmuş, Heydər Əliyev ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir.

30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamlarla AMEA Rəyasət Heyəti və akademiyanın bütün işçilərinin əmək haqqları bir neçə dəfə artırılmış, 2002-ci ilin 12 avqustunda AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalanmış, böyük öndərimizin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas zalında bu bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir.

Hər il test üsulu ilə yüksək bal toplayıb ali məktəblərə qəbul edilən tələbələr də ümummilli liderimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. O, həmin tələbələr üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün fəxri təqaüdlərin, «Qızıl kitab»ın təsis olunmasını reallaşdırdı.

Heydər Əliyevin təhsil islahatları əbədi miras qoydu. Bu gün Azərbaycan müasir, inklüziv və qlobal miqyasda rəqabətədavamlı bir dövlətə baxışını əks etdirən güclü təhsil sisteminə malikdir. Onun təşəbbüslərinin təsiri azərbaycanlı tələbələrin uğur hekayələrində və ölkənin beynəlxalq arenada əldə etdiyi nailiyyətlərdə aydın görünür. Heydər Əliyevin Azərbaycan təhsilinin transformasiyasındakı rolu onun uzaqgörənliyinin və milli tərəqqiyə sadiqliyinin sübutu idi. O, dövrünün çağırışlarını həll etməklə və dinamik təhsil sisteminin əsasını qoymaqla Azərbaycanın XXI əsrdə inkişafını davam etdirməsini təmin etdi. Onun təhsil islahatlarının əks-sədaları bilik və tərəqqi toxumlarının çiçəklənməkdə davam etdiyi Azərbaycan məktəb və universitetlərinin dəhlizlərində səslənir.

### *Ədəbiyyat*

1. *Abbas Səmədov. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı, Gəncə - 2010.*
2. *Misir Mərdanov, Əsgər Quliyev, Heydər Əliyev. Təhsil millətin gələcəyidir!, Bakı – 2002.*
3. *Hümeyir Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası, Bakı – 2010.*
   *Hacıyev Rəhman. Azərbaycan gəncliyinin himayədarı, Bakı – 2014.*

**A.S.Əzizova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***azizva.aynur1999@gmail.com***

# MÜƏSSİSƏNİN STRATEJİ PLANLAŞDIRILMASININ MAHİYYƏTİ, MƏQSƏDİ VƏ HAZIRLANMASI MƏRHƏLƏLƏRİ

***Xülasə***

*Cəmiyyətimizdə təhsilin rolu davamlı bir proses kimi həmişə insan inkişafının ən mühüm tərkib hissəsindən biri olmuşdur. Müasir həyatımızın panoramasında əsas dominant dinamika qloballaşan təhsilin təzahürləri ilə müşahidə olunur. Bu baxımdan təhsil müəssisələri cəmiyyətin mədəni irsinin nəsildən-nəslə ötürülməsində öz əhəmiyyətli rolunu müəyyən edir və təhsilalanların bilik, bacarıq və səriştələr əldə etməsi sahəsində imkanlarını genişləndirir, yeni dəyərlər formalaşdırır və həyatın keyfiyyətini dəyişir. Məktəblərimiz bu məqsədlə institusional funksiya olaraq bütün fəaliyyətlərini daxili təhlilə və strateji cəhətdən planlaşdırmağa əsaslandırır.*

# СУЩНОСТЬ, ЦЕЛЬ И ЭТАПЫ ПОДГОТОВКИ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ ПРЕДПРИЯТИЯ

***Резюме***

*Роль образования в нашем обществе всегда была одной из важнейших составляющих развития человека как непрерывного процесса. Основная доминирующая динамика в панораме нашей современной жизни наблюдается при проявлениях глобализированного образования. В связи с этим образовательные учреждения определяют свою важную роль в передаче культурного наследия общества из поколения в поколение и расширяют возможности учащихся в области приобретения знаний, умений и компетенций, формируют новые ценности и меняют качество. жизни. Наши школы, как институциональная функция, основывают всю свою деятельность на внутреннем анализе и стратегическом планировании для этой цели.*

# THE ESSENCE, PURPOSE AND STAGES OF PREPARATİON OF THE STRATEGİC PLANNİNG OF THE ENTERPRİSE

***Summary***

*The role of education in our society has always been one of the most important components of human development as a continuous process. The main dominant dynamics in the panorama of our modern life is observed with the manifestations of globalized education. In this regard, educational institutions*

*determine their important role in the transmission of the cultural heritage of the society from generation to generation and expand the possibilities of students in the field of acquiring knowledge, skills and competences, form new values and change the quality of life. Our schools, as an institutional function, base all their activities on internal analysis and strategic planning for this purpose.*

***Açar sözlər:*** *məktəb, strateji planlaşdırma, bilik, bacarıq, inkişaf, təhsil, müəssisə*
***Ключевые слова:*** *школа, стратегическое планирование, знания, навыки, развитие, образование, предпринимательство*
***Key words:*** *school, strategic planning, knowledge, skills, development, education, enterprise*

Strateji plan, təşkilatın missiyasını - məqsəd və vəzifələri əks etdirən bir sənəddir.

Strateji planlaşdırma - (strategiya – latınca "sərkərdənin məharəti", uzaqgörmə deməkdir) görüləcək işin əvvəlcədən uzunmüddətli planlaşdırılmasıdır (Şəkil 1.1.). Bu termin ilk dəfə təhsil resurslarında 1984-cü ildə ortaya çıxdı və 1987-ci ilə qədər ABŞ-ın müxtəlif bölgələrindən təxminən beş yüz məktəb strateji planlaşdırmadan istifadə etməyə başladı.



**Şəkil 1.1. Məktəbin strateji planının hazırlanma prosesi**

Daha çox biznesdə istifadə olunan strateji planlaşdırma modeli məktəblər tərəfindən qəbul edildikdən sonra tədris prosesinin ehtiyacları və fəlsəfəsinə uyğunlaşdırıldı (Şəkil 1.1).

SP, təhsildə məqsədəçatma üçün rəhbərlik tərəfindən əvvəlcədən qəbul edilən qərar və ideyaların məcmusudur, idarəetmə qərarlarının qəbul edilməsində istiqamətverici alət hesab edilir. Strateji planlaşdırmanın aşağıdakı məqsədləri vardır:

- Məktəblərin idarəolunmasında cavabdehlik, şəffaflıq, hesabatlılıq və səmərəli tənzimləmə kimi mexanizmlərini yaratmaq;
- Dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sistemini formalaşdırmaq;
- Təhsil pillələri və səviyyələrini beynəlxalq təcrübəyə uyğunlaşdırmaq;
- Maraqlı tərəflərin iştirakı təmin edilməklə müəssisənin dövlət-ictimai

xarakterdə (Valideyn-Müəllim Assosiasiyası, İdarəedici Şura, Qəyyumlar Şurası və s.) idarə olunmasını təmin etmək;

- İdarəetmədə məlumat sistemləri və yeni hesabatvermə modelini yaratmaq;
- Pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma (lisenziyalaşdırma) sistemini yaratmaq;
- Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilmə sistemini təkmilləşdirmək;
- Məktəbdə informasiya-kommunikasiya texnologiyalarına və təlim metodologiyalarına uyğun infrastruktur yaratmaq.

Müəssisədə uğurlu SP-nin təməli sağlam bir təşkilat modelidir. Aşağıda göstərilən sxemdə ətraflı təsdiqlənmiş bir təşkilati model təqdim olunur. Müəssisənin Strateji Planlaşması aşağıdakı sxemdə verilən mərhələlər yolu ilə həyata keçirilir.

**Mərhələ 1.** Məktəbin missiyası, vizyonu və rəhbər prinsiplərinin müəyyən edilməsi.

Məktəbin missiyası (Sxem 1.2) onun fəaliyyətinə əsaslanan ümumi məqsədləri ifadə edir. Müəssisənin vizyonu yaxın və ya uzaq gələcəkdə əldə olunacaq nailiyyətlərin ifadəsidir. Strateji planda müəssisənin məqsədi araşdırılır və gələcəyə dair rəhbər qərarvermə prinsipləri ortaya çıxarılır, bu prinsiplərə aid olan ehtiyacları və fəlsəfəsi açıqlanaraq sənədləşdirilir.




**Sxem 1.2. Strateji Planlaşdırma modeli**

**Mərhələ 2.** SP hazırlanması üçün tədqiqatların aparılması.

Məktəb tərəfindən strateji planın hazırlanmasında icmanın təklifləri və maraqlı tərəflərin iştirakı nəzərə alınır. Məktəbin mövcud real vəziyyəti araşdırılır, zəif və üstün cəhətlər təhlil edilir və tədqiqat nəticələrinə əlavə olunur. Sonda əsas prioritetlər sənədləşdirilir və burada xarici təcrübə meylləri və normativlər nəzərə alınır. Məktəb tərəfindən strateji planın hazırlanmasında icmanın təklifləri və maraqlı tərəflərin iştirakı təmin edilir.

**Mərhələ 3.** Strateji hədəflər və məqsədlərin təyin edilməsi.

Məktəbin strateji hədəfləri əsasən tədqiqat nəticələrindən alınır və müəssisənin müasir idarəetmə mexanizmi, infrastrukturu və tədrisin yeni məzmununu əhatə edir. SP-na eyni zamanda, tədris proqramı (kurikulum), təhsilverənlərin peşəkar inkişafı və təhsilalanların bilik və bacarıqları üzrə

qiymətləndirmə prosesini təkmilləşdirən geniş və uzunmüddətli məqsədləri də daxil edilir. Məqsədlər nəzərdə tutulan hədəflərin yerinə yetirilməsi üçün zəruri olan strategiyalara əsaslanır və təlim nəticələrinin əldə olunmasına müsbət təsir göstərir.

**Mərhələ 4.** SP-nin həyata keçirilməsi.

Strateji planın müəyyən edilmiş mərhələlər və təyin edilmiş müddətə həyata keçirilməsi rəhbərliyin qərarı ilə təsdiqlənir. Planlaşma məktəbin strateji hədəfləri üzrə məqsəd və vəzifələrə çatmaq üçün lazım olan konkret icra planı hazırlanır, tədbirlər, fəaliyyət və müddət təyin edir.

**Mərhələ 5.** İcra planın həyata keçirilməsi

İcra planının həyata keçirilməsi təsdiqləndikdən sonra rəhbərlik fəaliyyətlər üzrə spesifik göstəricilər, icraçı məsul şəxslər və icra müddəti müəyyən edilir. İcra müddəti ərzində məktəb irəliləyişləri əldə etmək üçün monitorinq və qiymətləndirmə prosesi həyata keçirilir və hesabatlılıq üzrə məlumat sistemi təmin edilir.



**Şəkil 1.3. Strateji İnkişaf planının hazırlanması**

Strateji İnkişaf Planı (SİP) fəaliyyətlərin planlaşdırılması və həyata keçirilməsi prosesini tənzimləyən və prioritetlərin gücləndirilməsi üçün istifadə olunan bir idarəetmə vasitəsidir. Məlum olduğu kimi, SİP-in məzmununa məktəbin pedaqoji kollektivi, inzibatı məsul şəxslər və maraqlı tərəflərin cəlb olunması ilə uzun və qısamüddətli planın hazırlanması ilə yanaşı, eyni zamanda qiymətləndirilməsi daxildir (Şəkil 1.3).

SİP-nın təhsildə rolu məktəbin keyfiyyət təminatı ilə ölçülür və məktəbin strateji mexanizmləri tənzimlənir. Uğurlu strateji planının icrası məktəbdə idarəetmə, nizam- intizam, daxili nəzarət, büdcə və vaxt ehtiyatlarının düzgün idarə edilməsi və bütün nailiyyətlərin ardıcıl izlənilməsini tələb edir.

Düzgün hazırlanmış strateji plan və onun yerinə yetirilməsi vasitəsilə məktəbdə idarəetmənin planlaşdırılmaması və düzgün tətbiq edilməməsi, müəllim və şagirdlərin İKT üzrə təcrübəsinin olmaması, qərarların qəbul edilməməsi, imtahan prosesində baş verən neqativ hallar, şagird intizamsızlığı və zəif akademik nəticələr kimi halların qarşısının alınması nəticəsində məktəb iqlimini dəyişmək mümkündür.

SP gözlənilən məqsədlərə çatmaq üçün müxtəlif fəaliyyətlərin həyata keçirilməsi üzrə aşağıda qeyd olunan spesifik məqsədlər və istiqamətləri əhatə edir (Şəkil 1.4):

- Məktəbin təlim nəticələrinə nail olma;
- Mükəmməl bir məktəb profili yaratma;
- Məktəb idarə olunmasında olan boşluqları azaltma;
- Davamiyyət və nizam-intizamı yaxşılaşdırma;
- Məktəb liderliyini təşkili etmə və həyata keçirmə;
- Yeni pedaqoji texnikalar və təlim strategiyalarını tətbiq etmə;
- Tədrisin sistemli və səmərəli idarəolunmasının təşkil etmə;
- Valideyn və cəmiyyətin məmnunluğunu artırma;
- Ən yaxşı müəllimlərin cəlb olunmasına töhfə vermə.

İstiqamətlər müəyyən edildikdən sonra SP hazırlanmasında məktəbdə uyğun şəraitin və bəzi spesifik şərtlərin olması vacib komponent hesab edilir. Məktəbdə bu imkanlar məhdud olduqda SP hazırlanması müəyyən çətinliklərlə üzləşir. SP-nin hazırlanmasında bu komponentlərin nəzərə alınması onun səmərəli şəkildə tətbiqi və qiymətləndirilməsini təmin edir:

- Direktor tərəfindən məqsədyönlü rəhbərlik;
- Proqram (kurikulum) planlaşdırılması və inkişaf etdirilməsi;
- Uyğun kommunikasiya strukturları;
- İntelektual inkişafa yönəldilmiş tədris şərtləri;
- Uyğun təlim şəraitini yaradan mühit;
- Müsbət təhsil mühitində valideynlərin iştirakı;
- Qiymətləndirmə prosesinin həyata keçirilməsi;
- Maddi-texniki bazanın yaradılması və uçotunun aparılması;
- Təhsil islahatlarının həyata keçirilməsində ardıcıllığın yaradılması.

***Ədəbiyyat***

1. *Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. Yeni Azərbaycan qəzeti, 13 yanvar 2011-ci il, onlayn: http://www.yeniazerbaycan.com/Musahibe_e7357_az.html*
2. *Ağayev R. və Mehtiyev A. Azərbaycanda orta təhsil sisteminin Cənubi Qafqaz, Baltik və Şərqi Avropa ölkələrilə müqayisəli tədqiqi. İqtisadi Təşəbbüslərə Yardım İB, Bakı – 2010.*
3. *Anderson, G.L. Advocacy Leadership: Toward a Post-reform Agenda in Education. New York: Routledge. 2009.*
4. *Al-Jaghoub, S. and Westrup, C. (2003). Jordan and ICT-led development: towards a competition state? Information Technology & People. Vol 16. No. 1, 2003. pp. 93-110.*
5. *Apple. M.W.Foreward. In C.A.Torres(ED.), Globalizations and education: Collected essays on class, race, gender, and the state (pp. ix-xix). New York: Teachers College Press. 2009.*
6. *Borko, H., Jacobs, J. & Koellner, K., 2010, Contemporary approaches to teacher professional development. In PL Peterson, E. Baker & McGaw (eds), Third International Encyclopedia of Education, 7, 548-56.*

**S.M.Abbasova**
**Mingəçevir Dövlət Universiteti**
***samire7990@icloud.com***

# AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI: NAĞILLAR UŞAQLARIN MƏNƏVİ İNKİŞAFININ MÜHÜM AMİLİ KİMİ

***Xülasə***

*Məqalədə şifahi xalq ədəbiyyatı nümunələrinin uşaqların mənəvi inkişafında rolu dəyərləndirilmiş, bu sırada nağılların roluna üstünlük verilmiş, nağılların uşaqlara öyrədilməsi önə çəkilmiş, nağılların əsasən müəllimlər tərəfindən uşaqlara mənimsədilməsinə diqqət yetirilmişdir. Uşaqların mənəvi zənginliyinin artmasında, onların mükəmməl fərd kimi böyüməsində nağılların rolu dəyərləndirilmiş, bir çox təhlillər aparılaraq nağılların mənəvi əhəmiyyəti, tərbiyəvi cəhəti araşdırılmışdır. Tədqiqat 44 günlük Vətən müharibəsinə diqqət çəkərək bir daha əmin etdi ki, nağılların uşaqların həyatında rolu danılmazdır. Həmçinin, məqalədə folklor nümunələrinin, eləcə də nağılların uşağın milli ruhda böyüməsinə, inkişafına və yaradıcılıq qabiliyyətlərinin formalaşmasına göstərdiyi hərtərəfli, xüsusi təsiri də qeyd olunmuşdur.*

# АЗЕРБАЙДЖАНСКАЯ УСТНАЯ НАРОДНАЯ ЛИТЕРАТУРА: СКАЗКИ КАК ВАЖНЫЙ ФАКТОР ДУХОВНОГО РАЗВИТИЯ ДЕТЕЙ

***Резюме***

*В статье оценена роль образцов устной народной литературы в нравственном развитии детей, отведена приоритетная роль сказкам, подчеркнуто преподавание сказок детям, придается значение освоению сказочной речи. сказки учителей. Оценена роль сказок в увеличении духовного богатства детей и их развитии как совершенных личностей, проведены многочисленные анализы, исследованы нравственное значение и воспитательные стороны сказок. Исследование, обратившее внимание на 44-дневную Отечественную войну, еще раз подтвердило, что роль сказки в жизни детей неоспорима. В статье также говорится о всестороннем и особом влиянии фольклорных примеров и сказок на рост, развитие и формирование творческих способностей ребенка в национальном духе.*

# AZERBAIJAN ORAL FOLK LITERATURE: TALES AS AN IMPORTANT FACTOR OF CHILDREN'S SPIRITUAL DEVELOPMENT

***Summary***

*In the article, samples of oral folk literature are presented to the children. Its role in spiritual development has been evaluated, while the role has been given priority, and it has been prioritized to teach the children drawn, the narrations were mainly given to the children by the teachers attention has been paid to its meaning. Children's spirituality in increasing their wealth, as their perfect individual the role of crops in growth has been evaluated, many the spiritual importance of narrations and their therapeutic knowledge through analysis has been investigated. Attention to the 44-day Homeland War He made sure once again that children have a role in their children's lives. It is incredible. Besides, folklore samples are also included in the article. The contribution of the children to the growth and development of the national spirit and creativity the distinct, special impact it has on the formation of their capabilities has also been recorded.*

***Açar sözlər:*** *şifahi ədəbiyyat, nağıl, mənəvi inkişaf, təxəyyül, yaradıcılıq*

***Ключевые слова:*** *устное творчество, сказка, духовное развитие, воображение, творчество*

***Key words:*** *oral literature, narration, creativity spiritual development, imagination*

**Mövzunun aktuallığı:** Bu məqalə uşaqların mənəvi inkişafında nağılların rolunu dəyərləndirərək valideynlər, müəllimlər və tərbiyəçilər üçün uşaqların yaşına, maraqlarına və emosional ehtiyaclarına uyğun seçilməsinə kömək edəcəkdir.

**Mövzunun elmi yeniliyi:** Məqalə XXI əsrdə nağıllara yeni yanaşmalar tətbiq edərək uşaqlarda təsəvvür və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün yeni yollar təklif edir.

**Mövzunun nəzəri əhəmiyyəti:** Mövzunun nəzəri əsasını nağılların uşaqların mənəvi inkişafında nağılların tədrisi prosesində mövcud problemlərin həlli üçün əsaslandırmalar və tədqiqatlarda qeyd edilən nəzəri məlumat təşkil edir.

**Mövzunun praktik əhəmiyyəti:** Məqalədə şifahi xalq ədəbiyyatı nümunələri sırasında nağılların tədrisi zamanı müəllimlərin rast gəldikləri çətinliklər və onların həlli yolları ilə bağlı verilmiş təklifləri tədris prosesində nəzərə almağı və rəqəmsal resurslardan istifadə edərək hədəflərə çatmağı nəzərdə tutur.

## Giriş

Azərbaycan şifahi xalq ədəbiyyatı xalqın tarixi qədər qədim, taleyi qədər keşməkeşli və zəngindir. XXI əsrin fonundan şifahi ədəbiyyat tariximizə

nəzər salsaq, holavarlar, sayaçı sözləri, laylalar, oxşamalar, bayatılar, mahnılar, atalar sözləri, məsəllər, lətifələr, nağıllar, dastanlar boylanar keçmişimizdən. O tarixi səhifələdikcə hər bir nümunənin arxasından bir uşaq gülümsər gözləri ilə baxar bizə. Xalqın təfəkkürünə, fəlsəfəsinə bax. Bu nümunələr sanki uşaqlar üçün yaradılıb. Sanki məhz uşaqlar üçün bəstələnib. Uşaqlar üçün söylənib. Bu nümunələr nənələrimizin, analarımızın, ağbirçəklərimizin dilindən süzülüb damla-damla hopub ruhumuza.

Balama qurban ilanlar,
Balam nə vaxt dil anlar? [1]

İkicə misra açıb dilimizi, əlimizdən tutub addım-addım gəzdirib, bir hikmət dünyasına, sehrli sözlər aləminə aparıb. Balalarımız böyüdükcə folklorun sehrində bir nağıl dünyasına düşüblər. XXI əsrin bir nümayəndəsi olaraq bu məqaləmi oxuyan hər kəs, bəkə də, ifrata vardığımı düşünəcək. Amma əminəm ki, bir anlıq nənələrimizin nağıllar aləminə baş vuracaq, övladlarımızın mənəvi inkişafında məhz şifahi xalq ədəbiyyatının, onun zəngin nümunələri içərisində milli mənəvi sərvətimiz olan Azərbaycan nağıllarının yerini və əhəmiyyətli rolu zamanla dəyərləndiriləcəkdir. Çünki "Beşik nəğmələrindəki ahəng və ritmlərdə milli düşüncənin ilkin notları vardır. Bu nidalar altında tərbiyələnən körpələr hələ gözünü açmamış, qəhrəmanlıq, saflıq, doğruçuluq, düzgünlük kimi dəyərlər sisteminin sədaları altında böyüyür, bu səslər sistemi uşaq xarakterini formalaşdırır" [3].

Bugünkü nəsil üçün olduqca zəngin resurslar mövcuddur və çox vaxt bu nağıllar köhnəlib, onlara qulaq asan yoxdur deyə gileylənə bilərik. Amma diqqət etsək, görərik ki, bizim uşaqlığımızın qəhrəmanı olan Cırtdan bir obraz olaraq bu gün də yaşayır, sevilir və xoş əhval yaradır. Burada artıq müəllimin vəzifəsi önə çəkilir. Müəllim bu nağılı həm oxu, həm də multimedia materialı olaraq uşaqlara çatdırır, oxudur, filmi nümayiş etdirir və müasirlik baxımından qiymətləndirilməsinə nail olur. Cırtdan Divlə mübarizə aparır və qalib gəlir. Çırtdan xeyirin, Div isə şərin simvoludur. Bu gün bəşər mədəniyyəti sivilizasiyanın ən yüksək inkişafında hələ də xeyirlə şərin mübarizəsinin şahididir. Dünya müharibə qızışdırıcılarından - şər qüvvələrdən xali deyil. Dünya hökmdarları - divlər problemi həll edə bilmir. Amma Cırtdan divə qalib gəlir. Necə? Kurikulum uşaqlarda makro bacarıqların formalaşdırılmasını tələb edir və məhz problem həlletmə və qərarvermə bacarıqları problemin həllinə yol açır. Meşədə azan uşaqlar çıxış yolu axtarır, Cırtdan qərar verir: İşığa doğru getmək. Burada artıq öyrənənlər makro bacarıqlar - problem həlletmə və qərarvermə bacarıqları əldə etməyə stimullaşdırılırlar. Uşaqlar işıqda da təhlükə ilə rastlaşırlar. Cırtdan yenə təhlükəni dəf edir və Divlə problemi çözür, qalib gəlir.

Tədqiqat qeyd edir ki, xalqın fantaziyasının rəngbərəng və dilinin obrazlı olması hər şeydən çox sehrli-mifoloji nağıllarda görünür. Məlumdur ki,

bu nağıllarda iştirak edən qüvvələr divlərdir, lakin bu divlər heç bir zaman sona qədər insana qalib gəlmirlər. Bu divlər həmişə dağlarda, şəhərlərdən uzaq qalaçalarda yaşayır və ya yerin altında özlərinə bağlı-bağçalı saraylar salır, gözəl pəriləri və ya qızları bu yerlərə çəkib aparırlar. Nağılın qəhrəmanı adəti üzrə, ya təsadüfən və ya müəyyən göstərişlə bu yerləri tez tapır. Bu divlərin adət üzrə sarayları, mülkləri bir-birinə yaxın olur və hər zaman bir div o birisindən uzaqda yaşadıqca əvvəlki qardaşından daha sərt, daha qüvvətli və daha ziyankar olur. Lakin bu divlərin ifritə anaları oğlanlarından daha dəhşətli olur. Buna baxmayaraq bu ifritə qüvvətli, boylu-buxunlu nağıl qəhrəmanına vurulmaqdan çəkinmir. Divlərin arasında qara başlı, ağ başlı, bir başlı və yeddi başlısı olur. Lakin bunlar dəhşətli olduqları qədər də sarsaq olurlar. Ona görə də çox asanlıqla bəzən bu və ya başqa padşahın əmrinə tabe olurlar. Bu məqamlar uşaqlara emosional təsir bağışlayır və onlar həmişə düşünürlər ki, onlar da belə qüvvələrə güc deyil, ağılın gücü ilə asanlıqla qalib gələ bilərlər. Artıq zaman nağılların təhlilinə yeni yanaşmaları zərurətə çevirir. “Məlikməmməd”, “Yetim İbrahimin nağılı”, “Ağ atlı oğlan”, “Göyçək Fatma”, “Qazanılmış manat” və onlarca digər nağıllarımız uşaqlarımızın inkişafında, mənəvi cəhətdən zənginləşməsində, xeyirxahlıq, qəhrəmanlıq, zəhmətkeşlik, kimi dəyərlərə sahib olmasında az rol oynamır.

Təsadüfi deyil ki, ümumtəhsil məktəblərinin tədris proqramlarında şifahi xalq ədəbiyyatı nümunələri, xüsusən nağıllar mühüm yer tutur. Çünki nağıllar uşaqların hələ kiçik yaşlarından mənəvi inkişafında, zənginləşməsi və bir şəxsiyyət kimi formalaşmasında mühüm rola malikdir. Ən əsası nağılı kimsə danışır. Bu uşaqlarda nitqin inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Uşaqla nağılçı arasında dialoq qurulur. Dil nitq prosesinə çevrilərək ünsiyyəti təmin edir, görmə yaddaşı eşitmə yaddaşı ilə birləşərək zehnin fəaliyyətə gətirilməsini reallaşdırır. Bilirik ki, müasir dövrün uşaqları əsasən görmə və eşitmə ilə daha yaxşı mənimsəməyə malikdirlər. Bu mənada nağıllar asan yadda qalır və uşaqlar həyatda nağıl qəhrəmanlarına oxşamağa çalışırlar. Onlarda doğruçuluq, xeyirxahlıq, insansevərlik, yoldaşlıq, birlik, əməkdaşlıq kimi keyfiyyətlər formalaşır. Xüsusilə oğlan uşaqları xəyallar qurur, qəhrəmanlıq göstərməyə hazır olur, çətinliklərdən qorxmur, problem həll etməyə çalışırlar: “Nağıllar hər zaman yaxşı olanların qalib gəldiyi, səbrli olanların mütləq məqsədlərinə çatdıqları, edilən yaxşılıqların qarşılıqsız qalmayacağı, zəkanın çox zaman bədən gücündən üstün olduğu, sevginin bir çox şeydən daha qiymətli olduğu, yoldaşlığın çox əhəmiyyətli olduğu, əl-ələ vermənin və birlik içində olmanın hər zaman daha çox uğurlar gətirdiyi, heç bir zaman ümidsizliyə qapılmamaq lazım olduğu və əlimizdən gələni etdiyimiz təqdirdə müvəffəqiyyətin bizi onsuz da tapacağı mesajlarını verirlər” [5].

Ümumiyyətlə, belə hesab edirik ki, nağıllar, uşaqların mənəvi inkişafına müsbət töhfə verə bilər. Çünki nağıl elementlərinin uşaqların mənəvi

inkişafına mümkün təsirləri vardır. Müxtəlif ədəbiyyatlarda və tədqiqatlarda, eləcə də təcrübələrimizdə biz bu inkişafı müşahidə edirik. Bu elementlər ilk olaraq dəyərlər və əxlaqi prinsiplərlə bağlı öyrənmənin həyata keçirilməsidir. Uşaqlar məhz nağıllar vasitəsilə doğru və yanlış, yaxşı və şər, ədalət və empatiya haqqında öyrənirlər. Bu, uşaqlara öz dəyərlərini və əxlaqi prinsiplərini inkişaf etdirməyə kömək edir. Nağıllar uşaqların çox vacib olan emosional inkişafında da əsas rola malikdir. Nağıllar uşaqların emosional səviyyəsini artırır, personajlar arasındakı münasibətlər, həll edilməli olan problemlər uşaqlara emosional intellektini inkişaf etdirmək imkanı verir. Nağılların dil bacarıqlarını da inkişaf etdirdiyi danılmazdır. Nağıllar uşaqlarda dil bacarıqlarının inkişafına kömək edərək onların söz ehtiyatlarını genişləndirir, qrammatik qaydaların öyrənilməsi və ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi üçün münbit şərait yaradır. “Uşaqlara danışılan və ya oxunan nağıllar onlarda müsbət xarakterin formalaşmasına çox böyük təsir edir. Nağıllarda olduğu kimi uşaqlar da dostlarını xilas etmək, onlara yardım əlini uzatmaq, ac olanlara yemək vermək, böyüklərə hörmət, ailənin dəyərini bilmək, vətəni qorumaq və s. kimi müsbət xarakterlərə köklənərək müsbət keyfiyyətlərlə formalaşırlar. Təkcə nağılların uşaqların həyatında göstərdiyi təsiri təhlil etsək, görərik ki, folklorun uşaqların tərbiyəsində xidməti necə də böyükdür. Məhz buna görə də nağılların öyrədilməsinə xüsusi önəm vermək gərəkdir. Nağılları danışarkən nə qədər canlılıq yaratsaq, bir o qədər yüksək nəticə əldə etmiş olarıq. Nağılları öyrədərkən yaxşı olar ki, nağıl qəhrəmanlarının şəkillərini əks etdirən slaydlar hazırlansın. Bununla yanaşı, uşaqların iştirakı ilə nağıl qəhrəmanlarını əks etdirən kiçik səhnəciklər də hazırlamaq olar” [4].

Yaşadığımız dünya uşaqlarda təsəvvür və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsini və təkmilləşdirilməsini zərurətə çevirib. Nağıllardakı fantaziya aləmləri uşaqlarda təxəyyül və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirməyə imkan verir. 44 günlük Vətən müharibəsi şəhidlərinin qəhrəmanlığı və onlar haqqında əfsanəvi hekayələr, qazilərin, şahidlərin söhbətləri məhz Azərbaycan nağıllarının onların təxəyyüllərində yaratdıqları qəhrəmanlıq xəyallarının nəticəsidir desək, yanılmarıq. Göründüyü kimi nağıllar uşaqlarda özünə güvən və sosial bacarıqların formalaşdırılmasına səbəb olur. Bəzi nağıllardakı personajlar uşaqlara özünəinam bəxş edə bilir və onlara sosial əlaqələr qurmaq bacarıqlarını inkişaf etdirməyə kömək edir. Ona görə də uşaqların mənəvi inkişafına töhfə verən nağılların seçilməsi və tədris proqramlarına daxil edilərək öyrədilməsi vacibdir. Valideynlər, müəllimlər və tərbiyəçilər uşaqların yaşına, maraqlarına və emosional ehtiyaclarına uyğun nağıllar seçərək sağlam mənəvi inkişaf prosesində onlara dəstək olmalıdırlar.

***Ədəbiyyat***


1. *Azərbaycan uşaq folkloru (mətn). (2011). Bakı, Ağrıdağ, 469 s.*
2. *Əliyev R. (2014). Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı, 350 s.*
3. *Nəbiyev A. (2000). Azərbaycan uşaq folkloru. Bakı: Elm, 2000, 76 səh.*
4. *Rzayeva Ç. (2019) Məktəblilərin mənəvi inkişafında şifahi xalq ədəbiyyatı örnəklərinin rolu və onun tədrisi. «Azərbaycan dili və ədəbiyyat tədrisi». № 3-4 (261-262), səh. 79-88*
5. *Vəliyev Əfqan. Sosiologiya üzrə fəlsəfə doktoru Milli mənəvi sərvət olan nağıllarımız. 2020. https://stm.az/ru/news/147/milli-menevi-servetimiz-olan-nagillarimiz*

**N.R.Qədirova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rovshangadirov1970@gmail.com***

# YENİYETMƏ-VALİDEYN MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Bu məqalənin əsas məqsədi yeniyetmələrin ailədə valideynləri ilə münasibətlərinə aydınlıq gətirmək, bu zaman yaranan problemləri aşkara çıxarmaqdır. Müəllif qeyd edir ki, valideynlər yeniyetmələri tənqid etməkdən çəkinməli, başqaları ilə müqayisə etməməli, onların maraq aləminə daxil olmalı və yeniyetmələrə həssas yanaşmalıdırlar.*

# ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ПОДРОСТКОВО-РОДИТЕЛЬСКИХ ОТНОШЕНИЙ

***Резюме***

*Основная цель данной сттви-выяснить взаимоотношения подростков родителям следует воздерживаться от критики подростков, не сравнивать их в семье выявить проблемы, возникющие в это время. Автор отмечает, что с другими, войти в их мир интересов и быть чуткими к подроткам.*

# PSYCHOLOGICAL CHARACTERISTICS OF ADOLESCENT-PARENT RELATIONSHIPS

***Summary***

*The main purpose of this article is to clarify the relations of teenagers with their parents in the family, to reveal the problems that arise at this taim. The author says that parents should refrain from criticizing teenagers, not coparing them with others, enter into their world of interest and be sensitive to teenagers.*

***Açar sözlər:*** *ailə, mühit, münasibət, yeniyetmə, valideyn, yaş*
***Ключевые слова:*** *семья, среда, отношение, подросток, родитель, возраст*
***Key words:*** *family, environment, relation, teenager, parent, age*

Yeniyetməlik dövrü 11-12 yaşdan başlayaraq 14-15 yaşadək olan dövrdür. Bu dövr orta məktəbin V-VIII sinif şagirdlərini əhatə edir. 11-13 yaşlı oğlan və qızları adətən kiçik yeniyetmə, 13-15 yaşlı oğlan və qızları isə böyük yeniyetmə adlandırırlar. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq düzgün olmazdı. Müxtəlif amillərin təsiri

altında həmin yaş dövrü bir il tez və ya gec başlaya, yaxud bir il tez və ya gec bitə bilər. Bu yaş dövrü özünün praktik əhəmiyyəti, pedaqoji çətinlikləri uşaq şəxsiyyətinin dinamikasında baş verən psixoloji xüsusiyyətləri ilə diqqəti cəlb edir. Yeniyetməlik dövrünü bir çox psixoloji ədəbiyyatlarda "keçid dövrü", "çətin dövr", "dönüş dövrü", "böhran dövrü" adlandırırlar. Çünki bu yaş dövrü uşaqlıqdan gəncliyə keçid dövrü olub, valideyn və müəllimlərlə münasibətdə çətinliklərin yarandığı dövrdür. Bu yaş dövründəki oğlan və qızların istər fiziki, istərsə də, psixi inkişafında sürətli irəliləyişlər özünü göstərir. Belə ki, yeniyetmənin psixoseksual inkişafında xüsusi dəyişiklik baş verir. Yaş dövrləri nöqteyi-nəzərindən gedən fizioloji və psixoloji inkişaf sonralar yuxarı sinif yaşlarında özünəməxsus keyfiyyətləri əks etdirir [3, səh. 145-146]. Bu dövrdə cinsi yetişmənin başlanması bir növ cinsi yetkinlik üçün başlanğıc rolunu oynayır. Bu da öz növbəsində yeniyetmədə psixoloji yetkinliyin, eləcə də sosial yetkinliyin baş verməsi üçün əlverişli şərait yaradır. Yeniyetməlik dövrünə qədəm qoymuş uşağın həyatında ailə, məktəb, həmyaşıdlar yeni məna və əhəmiyyət kəsb etməyə başlayır. Yeniyetmənin fizioloji və psixoloji xüsusiyyətlərinə istinad edərək onun tərbiyəsi ilə məqsədyönlü məşğul olmaq olduqca vacibdir və indiki vəzifələr içərisində ən mürəkkəbidir [4, səh. 92].

Yeniyetmənin tərbiyəsində və onun xarakterinin formalaşmasında ailədaxili münasibətlərin və valideynlərin rolu böyükdür. Çünki yeniyetmə məhz ana və ata vasitəsilə təbiət və cəmiyyət haqqında təsəvvürlərə sahib olur, özünüqiymətləndirmə, özünütənqid kimi keyfiyyətlərə yiyələnir. Bəli, bu yaş dövründə yeniyetmənin özünüdərketməsi nəticəsində onun şəxsiyyətində də keyfiyyətcə mənfi və müsbət dəyişikliklər baş verir. Yeniyetmə artıq özünü uşaq deyil, yaşlı kimi hiss edir və onda belə bir istək yaranır ki, ətrafdakılar da ona uşaq kimi yox, yaşlı kimi yanaşsınlar. Yeniyetməlik dövründə uşaqlar müstəqilliyə can atırlar. Lakin bu zaman uşağın müstəqilliyə artan tələbatı ilə bu müstəqilliyə nail olmaq imkanları arasında ciddi ziddiyyətlər meydana çıxır. Bu cür ziddiyyətlərin yaranmasında çox vaxt valideynlər böyük rol oynayır. Çünki valideynləri yeniyetməyə hələ də uşaq gözü ilə baxır və ona həmin tələblərlə yanaşır. Belə olduqda isə yeniyetmə öz valideynləri qarşısında özünü təsdiq etməyə çalışır, ona öz etirazını bildirir. Belə situasiyalarda valideynlər övladına qarşı münasibətini dəyişmədikdə uşaqla valideyn arasında qarşıdurma, ixtilaf yaranır [5, səh. 255].

Bəzən də valideynlər öz şəxsi görüşlərinə zidd gedərək əvvəlki qadağalara indi icazə verirlər. Belə olduqda yeniyetmə valideynindən gözlədiyi müstəqilliyə nail olduğunu düşünür. Lakin valideynlərin bu cür davranışlarda ardıcıllıq göstərməməsi yeniyetmələrdə çaşqınlığa, aqressiyaya, valideynlə yeniyetmə arasında isə gərginliyə səbəb olur. Bu cür gərginliklərdə, hətta valideynlər çıxılmaz vəziyyətdə qalırlar.

Bəs valideynlər çətin dövr kimi qiymətləndirilən bu yaş dövründə övladları ilə necə davranmalı, onlarla necə münasibət qurmalıdırlar? Bu suala aydınlıq gətirək. İlk növbədə valideynlər övladının yeniyetməlik yaş dövrünün başladığını anlamalıdır. Bunun üçün onların yeniyetmələrdə baş verən fiziki və psixi dəyişiklikləri və bununla bağlı yaranan yeni xüsusiyyətləri bilməsi və öz övladında bunlara diqqət etməsi vacibdir. Yeniyetmələrdə səsin qalınlaşması, tər vəzilərinin aktivləşməsi, bədəndə baş verən fizioloji dəyişikliklər, bədən səthində tüklərin sərtləşməsi, uşağın öz xarici görünüşü ilə həddindən artıq maraqlanması, geyim və danışıq tərzində baş verən dəyişikliklər, müdaxilələrə qarşı verilən sərt reaksiya, tənqidin qəbul olunmaması, yaşıdlarına və sosial mühitə qarşı sonsuz maraq, əks cinsə qarşı meyil və s. yeniyetməlik dövründə özünü büruzə verən bütün bu xüsusiyyətlər kömək edir ki, valideynlər övladlarının artıq yeniyetmə olduğunu anlasın və onunla uşaq kimi rəftar etməsinlər. Valideynləri və müəllimləri ilə tez-tez konfliktlər yaşayan yeniyetmə üçün ən qəbuledilməz hal onun tənqidə məruz qalmasıdır.

Valideyn-övlad münasibətlərində anlaşılmazlıqlar keçmişdə də olub. Ancaq o dövrlərdə bir qədər həyat tərzi qapalı idi. Günümüzdə isə valideyn-övlad münasibətləri getdikcə gərginləşir. Burada günahı təkcə uşaqların üstünə atmaq olmaz. Söhbət əgər qarşılıqlı hörmət və düzgün tərbiyə sistemindən gedirsə, bu məsuliyyətli vəzifə əsasən valideynlərin üzərinə düşür. Çünki valideynin, uşağa nisbətən daha çox həyat təcrübəsi var. O bilməlidir ki, övladından yüksək tərbiyə, hörmət gözləyirsə, ilk növbədə özü övladına bu keyfiyyətləri göstərməlidir. Bir ailədə ki, valideyn övladına qarşı şiddət və zorakılıq nümayiş etdirir, o ailədə böyüyən uşaqda mənəvi-psixoloji travmalar yaranması ehtimalı çoxdur. Bundan əlavə, əksər ailələrdə analar uşaqları ata ilə qorxudurlar. Artıq uşağın ataya qarşı hörmət və sevgisi bir mənalı olaraq qorxu hisslərinə çevrilir. Valideynlər uşağın öz dünyasını kəşf edə bilməsi üçün ona imkan verməli, onlarda özlərinə qarşı güvən hissini yaratmalıdırlar. Əgər valideyn öz uşağına azadlıq vermirsə, ona güvənmirsə, bu həmin şəxsin ailədən tədricən uzaqlaşması ilə nəticələnir. Özünə başqa bir "sığınacaq" axtarmağa başlayır, bununla da yetkinlik yaşında olan yeniyetmədə psixoloji gərginliklər yaranır. Məsələn, elə valideynlər var ki, məktəbdə uşaqların qiymətlərini özləri yazdırırlar. Geyim seçimlərində belə uşağa sərbəstlik vermirlər "sən heçnə bacarmırsan", "səndən heç bir şey olmaz" "sən işə yaramırsan" və s. kimi sözlərlə uşaqların özlərinə qarşı olan inamlarını qırırlar. Bu atmosfer altında böyüyən uşaqlar, təbii ki, gələcəkdə də daima valideynlərinə aqressiv münasibət bəsləyirlər. Əlbəttə ki, bunu valideyn-övlad arasında gərginliklərin yaranmasının ilkin səbəblərindən biri kimi göstərmək olar. Uşaqlıq illərində övladları ilə dostcasına münasibət qurmağı bacaran valideynlər, bu münasibəti yeniyetməlik dövründə də davam etdirərək gənc üçün lazım olan rəhbərlik missiyasını da yerinə yetirmiş olurlar [2, səh. 22].

Yeniyetməlik yaş dövrü, demək olar ki, bütün ailə üzvlərinin sosial fərdi və ailə yetkinliyinin yoxlanması dövrüdür. Bu dövrdə ailədə böhran və konfliktlər nəzərə çarpır. Yeniyetmələr və valideynlər arasında qarşıdurma belə başlayır. Yeniyetmələr kobud, sərt olur, valideynlərini və başqa şəxsləri tənqid edir. Əvvəl valideynlər uşaqlarla qarşılıqlı münasibətlərdə çox şeyləri hiss etmirdilər, öz avtoritetlərinin yüksək olmasına inanırdılar. Lakin birdən-birə onların nüfuzdan düşməsi baş verir. Bunun baş verməsinin əsas səbəbi valideynlərin yeniyetmələri düzgün başa düşməməsidir. Bununla yanaşı, hətta normal münasibətlərin olduğu ailələrdə də bəzi çətinliklər özünü göstərir. Valideynlərin çox vaxt uşaqlarla yeniyetmələri düzgün ayırd edə bilməməsi bu çətinliyin baş verməsinin əsas səbəbidir. Əksər hallarda valideynlər nəyə icazə vermək və ya nəyə qadağa qoymaq lazım olduğunu bilmirlər. Bütün bunların hamısı valideynlərlə yeniyetmələr arasındakı qarşılıqlı münasibətdə bir sıra problemlərin yaranmasına səbəb olur. Ona görə də hər bir valideyn bu yaş dövründəki uşaqlarını düzgün tərbiyə etmək, onları gələcəkdə cəmiyyətə yararlı bir şəxiyyət kimi görmək, onlarda düzgün xarakter formalaşdırmaq istəyirsə, onları birbaşa tənqid etməkdən çəkinməli, onların maraq aləminə daxil olmağı bacarmalı, övladlarına dost kimi yanaşmalı, onlara qarşı həssas olmalı, öz yaşıdları ilə müqayisə etməməli, fikirlərini dinləməli, bu yaş dövrü ilə bağlı onlara məlumat verməlidir. Uşaq vaxtı övladının tərbiyəsi ilə məşğul olmayan özünə əziyyət vermək istəməyən valideyinin yaşlılıq həyatı ya “Qocalar evində”, ya da evdə əzab-əziyyət içərisində keçir [1, səh. 119].

Valideyn-övlad münasibətlərinə istinadən ailələr müxtəlifdir. Valideynlərlə uşaqlar arasında çox yaxın dost münasibəti olan ailələr - bu cür abu-hava bütün ailə üzvləri üçün münasibdir. Belə ki, valideynlər həyatın müəyyən bir sahəsində öz oğul və qızlarına təsir etmək imkanına malikdirlər. Lakin başqa ailələrdə bu münasibət şübhə altında olur. Belə ailələrdə valideynlər uşaq və böyüklərin fikir və arzularını nəzərə alır. Məsələn, müasir musiqiyə və modaya münasibətdə və s. Həmçinin uşaqlar da valideynlərə qulaq asır, onların fikirləri ilə razılaşırlar və ortaq məxrəcə gəlirlər. Belə uşaqlar aktiv, dostcanlı, mehriban və bir sıra müsbət xüsusiyyətlərə malik olurlar. Yaxşı münasibətlər atmosferi hökmranlıq edən ailələr - bu cür ailələrdə valideynlər uşaqların inkişafını izləyir, onların həyatı ilə maraqlanırlar, öz şəxsi-mədəni imkanları ilə onlara təsir etməyə çalışırlar. Belə ailələrdə konfliktlər olsa da, bu münasbətlər aydın və tez öz həlli yolunu tapır. Uşaqlar valideynlərdən heç nə gizlətmirlər, onlara inanırlar. Belə ailələrdə böyük və kiçiklər arasında müəyyən sərhəd olur. Uşaqlar adətən mədəni, sözə qulaq asan, hörmətcil böyüyürlər. Çox nadir hallarda öz müstəqil olmaqları barədə elan edirlər. Əksər ailələrdə valideynlər əsas diqqətlərini uşaqlarının təhsilinə yönəldirlər və bununla da kifayətlənirlər. Belə uşaqların həyatda yaşamaq üçün bütün şəraitləri var - geyim, videotexnika, musiqi və s. Bu uşaqların ayrıca

otaqları olur və bu otaqda uşaqların özlərinəməxsus avadanlıqları yerləşdirilir. Lakin onların mebellərin yerini dəyişdirməyə və ya otağı çirkləndirməyə belə ixtiyarları yoxdur. Uşaqlarla valideynlər arasında baryer yaranır. Bu münasibətlər də konfliktə gətirib çıxarır. Uşaqlıq, yeniyetməlik illərində övladlarını eqoist, özbaşına və ya özündən asılı vəziyyətdə böyüdən valideyn, sanki həm özünə, həm də başqalarına sübut etməyə çalışır ki, o hər şeyə qadirdir [1, səh. 120].

Elə ailələr də var ki, uşağı izləyirlər, ona inanmırlar, onlara güc tətbiq edirlər. Belə ailələrdə valideynlərlə uşaqlar arasında həmişə konflikt müşahidə olunur. Bu cür münasibət yeniyetmələrdə valideynlərinə qarşı düşmənçilik hissi yaradır. Müəyyən vaxt keçdikdən sonra belə uşaqlarda böyüklərə qarşı inamsızlıq hissi yaranmağa başlayır, onlar cəmiyyət arasında qarşılıqlı münasibət qurmaqda çətinlik çəkirlər.

Dözülməz şəraitdə olan ailələr - burada uşaqlar və valideynlər arasında münasibətlər qeyri-normal xarakter daşıyır. Belə ailələrdə atmosfer hər zaman gərgin olur. Dözülməz şəraitdə olan ailələrdə əksər vaxtlar valideynlərdən biri və ya hər ikisi müxtəlif alkoqol vasitələrə meylli olurlar. Bu cür vəziyyət çox vaxt cinayət hadisəsinə gətirib çıxara bilər.

Bununla da belə nəticəyə gəlmək olar ki, valideynlərin yeniyetmələrlə qarşılıqlı münasibətləri ailədə olan psixoloji iqlimindən asılıdır. Əgər uşaqlar valideynlərindən diqqət, qayğı və yaxşı münasibət görürsə, yeniyetmələrdə bu dövr rahat, səlis və asan keçir. Əgər bu dövrdə yeniyetmələr atıldığını, lazımsız olduğunu, sevilmədiyini hiss edərsə, onlarda başqalarına qarşı eqoizm, aqressiya, sərtlik və nifrət yaranır. Bu yaş dövründə valideynlər tələbatları ödəmək və azadlığı məhdudlaşdırmaq üçün bir mexanizmə çevrilirlər.

Əgər valideynlərin yeniyetmə ilə ünsiyyətində mürəkkəblik açıq-aydın görünürsə, onda bu hər şeydən əvvəl uşaqların sərbəst olmağa can atmaqları ilə əlaqələndirilir. Həqiqətən də yeniyetməlik yaş dövründə valideynlərlə uşaqlar arasında yaş distansiyası ilə əlaqədar olaraq konflikt şiddətlənir. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, yeniyetməlik yaşı sadəcə olaraq məktəbli həyatının müəyyən bir dövrü deyildir. Məktəblinin gələcək həyatını kökləri bəlkə də bu yaş dövründə inkişaf etməyə başlayır. Oğlan və qızlar yeniyetməlik yaş dövründə yeni bir aləmə daxil olurlar. Bu zaman uşaq üçün mövcud olan ətraf aləmdə yeniyetmə üçün hüdudsuz bir dünya yaranır. Qeyd etmək lazımdır ki, valideynlərin yeniyetmələrlə sosial-siyasi mövzularda söhbətləri də böyük tərbiyəvi əhəmiyyətə malikdir. Valideynlərin ictimai hadisələrə verdikləri qiymətlər əslində onlar üçün vətəndaşlıq dərsidir. Psixoloji tədqiqatlar göstərir ki, valideynlərin heç də hamısı bu imkanlardan eyni dərəcədə istifadə edə bilmirlər. Lakin bir cəhət də şübhəsizdir ki, valideyn-yeniyetmə arasındakı qarşılıqlı münasibətlər nə qədər əlverişli olarsa, onların şəxsiyyətinin formalaşması da bir o qədər düzgün istiqamətdə gedər.

***Ədəbiyyat***

1. *Ə.Ramiz. "Mən. Atam-anam. Sevgilim və övladlarım." ADPU – nəşriyyatı, Bakı - 2019.*
2. *M.Aysel "Yeniyetmələrin sosial davranışının tənzimi və onlara sosial nəzarətin təşkilinin psixoloji əsasları" mövzusunda magistr dissertasiyası, Bakı - 2018.*
3. *X.Hüseyn "Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri" , Qafqaz Universiteti nəşri, Bakı - 2012.*
4. *P.Əmrulla, R.Fərrux "Pedaqogika" – Azərbaycan Dövlət Pedaqoji Universitetin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti, "Elm və təhsil" Bakı - 2012.*
5. *S.Səməd, H.Muxtar "Ümumi psixologiya"- Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik, YYSQ-Milli Virtual Elektron Kitabxananın e-nəşri, Bakı - 2014.*

**A.R.Şəfiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shafiyeva16@gmail.com***

# EMOSİONAL İNTELLEKT ANLAYIŞI VƏ ONUN MAHİYYƏTİ

***Xülasə***

*İntellekt anlayışı düşünmək üçün əqli bacarıq, qərar vermə, abstrakt düşünmə, material mənimsəmə qabiliyyəti kimi təhlil olunur. XX əsrdən etibarən aparılan araşdırmalar intellekt anlayışının genişləndirilməli olduğunu və klassik olaraq qəbul edilmiş İQ (intellektual intellekt) ilə yanaşı EQ-nin (emosional intellekt) də bu tərifə daxil edilməli olduğunu ortaya qoydu. Emosional intellekt fərdlərin emosional anlayış, emosiyaların idarə edilməsi, empatiya və sosial bacarıqlar kimi sahələrdə sahib olduqları qabiliyyətlərin ölçüsüdür. Bu konsepsiya emosional zəkanın insanların iş və şəxsi həyatlarında əldə etdiyi uğurlarına, iş performansına və münasibətlərinə təsirini vurğulayır. Bu məqalədə emosional intellekt anlayışı, onun mahiyyəti və əhatə etdiyi qabiliyyətlərdən bəhs olunur.*

# ПОНЯТИЕ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА И ЕГО СУЩНОСТЬ

***Резюме***

*Анализируется понятие интеллекта как умственная способность мыслить, принимать решения, абстрактное мышление, способность усваивать материал. Исследования, проводимые начиная с 20-го века, показали, что понятие интеллекта следует расширить и включить в это определение EQ (эмоциональный интеллект) наряду с классически принятым IQ (интеллектуальным интеллектом). Эмоциональный интеллект - это мера способностей, которыми люди обладают в таких областях, как эмоциональное понимание, управление эмоциями, сочувствие и социальные навыки. Эта концепция подчеркивает влияние эмоционального интеллекта на успех людей в работе и личной жизни, производительность труда и отношения. В данной статье рассматривается понятие эмоционального интеллекта, его природа и способности, которые он охватывает.*

# THE CONCEPT OF EMOTIONAL INTELLIGENCE AND ITS ESSENCE

***Summary***

*The concept of intelligence is analyzed as the ability to think mentally, make decisions, think abstractly, and absorb material. Since the 20th century, research has revealed that the concept of intelligence should be expanded to include EQ (emotional intelligence) along with the classically accepted IQ (intellectual intelligence).*

*Emotional intelligence is a measure of the abilities individuals possess in areas such as emotional understanding, emotion management, empathy, and social skills. This concept emphasizes the impact of emotional intelligence on people's success in work and personal life, work performance and relationships. This article discusses the concept of emotional intelligence, its essence and the abilities it covers.*

***Açar sözlər:*** *emosiya, intellekt, emosional intellekt*
***Ключевые слова:*** *эмоции, интеллект, эмоциональный интеллект*
***Key words:*** *emotion, intelligence, emotional intelligence*

Emosional intellekt haqqında bəhs etməzdən öncə emosiya anlayışı ilə tanış olmalıyıq. “Emosiya nədir?” sualı elmdə müxtəlif şəkildə cavablandırılmışdır. Oksford İngilis Dili Lüğəti emosiyaya “hiss, meyil, şüur pozğunluğu, psixikanın hər cür həyəcanlı və gərgin halı” kimi tərif verir. Emosional intellekt nəzəriyyəsinin yaradıcılarından biri olan Daniel Goleman “emosiya” terminindən bir hiss və bu hissə xarakterik olan düşüncələr, psixoloji və bioloji hallar və bir sıra davranış meylləri mənasında istifadə edir [3, s.447]. Psixoloqların fərqli şərhlərini ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, əksər hallarda emosiyalar insanın indiki anda nəyəsə və ya kiməsə münasibətilə əlaqədar keçirdiyi yaşantılardır.

Həyatın gedişində qəbul edilə bilən sonsuz sayda şəxsi qərarlar arasından seçim etməkdə duyğular çox mühüm rol oynayır. Bir çox qərarlar yalnız məntiqə əsaslanaraq verilə bilməz. Duyğulardan xəbərdar olmamaq qərar seçimində səhvlərə səbəb ola bilər. Düzgün qərarlar qəbul etmək üçün insana motivasiyalarından və keçmiş təcrübələrindən toplanan emosional müdriklik başqa sözlə emosional intellekt lazımdır [6, s.14].

Emosional intellekt insan davranışının əsas izahedici elementlərindən biridir. İnsan beynin anatomik quruluşuna baxdığımız zaman bunu aydın görə bilərik:



Emosional intellektin fiziki yolu beyində, onurğa beynində başlayır. Əsas hissləriniz buraya daxil olur və təcrübəniz haqqında rasional düşünə bilməyiniz üçün beyninizin ön hissəsinə getməlidir. Lakin əvvəlcə onlar emosiyaların yaşandığı yer olan limbik sistemdən keçirlər. Limbik system emosiyaların generasiya olunduğu yerdir. Beləliklə, hadisələrə rasional reaksiyadan əvvəl emosional reaksiyamız yaranır. Emosional intellekt beynin rasional və emosional mərkəzləri arasında effektiv ünsiyyət tələb edir. Duyğularla effektiv şəkildə məşğul olmaq üçün gündəlik problem insan vəziyyəti üçün çox vacibdir, çünki beynimiz emosiyalara üstünlük vermək üçün çox güclüdür. Bu belə işləyir: gördüyünüz, qoxuladığınız, eşitdiyiniz, daddığınız və toxunduğunuz hər şey elektrik siqnalları şəklində bədəninizdən keçir. Bu siqnallar son təyinat yerinə, beyninizə çatana qədər hüceyrədən hüceyrəyə keçir. Onlar beyninizə onurğa beyninin yaxınlığındakı bazadan daxil olurlar, lakin rasional, məntiqi təfəkkürün reallaşdığı yerə çatmazdan əvvəl frontal lobunuza (alnınızın arxasına) getməlidirlər. Problem ondadır ki, onlar duyğuların yarandığı yer boyunca limbik sisteminizdən keçirlər. Bu səyahət, səbəbiniz işə başlamazdan əvvəl emosional olaraq hər şeyi yaşamağınıza zəmanət verir. Beyninizin rasional sahəsi (beyninizin ön hissəsi) limbik sisteminizin "hiss etdiyi" duyğuları dayandıra bilməz, lakin bu iki sahə bir-birinə təsir edə və sabitliyi qoruya bilər. Emosional və rasional "beyinləriniz" arasındakı əlaqə emosional zəkanın fiziki mənbəyidir [1].

İnsan davranışının fundamental elementləri kimi təzahür edən İQ və EQ arasındakı əlaqə uzun illər mübahisə doğuran məsələ kimi qalmaqda davam etmişdir. Bu məsələdə qəbul edilmiş ümumi fikir - bir insanın sadəcə nə qədər bilikli, ağıllı olduğuna əsaslanaraq onun emosional intellekti üçün proqnoz verməyin mümkün olmadığıdır. Koqnitiv intellekt və ya IQ çevik deyil. İntellekt – sizin 15 yaşınızda olduğu kimi, 50 yaşınızda da öyrənə bilmə bacarığınızdır. Emosional intellekt isə inkişafı mümkün olan bir ovuc çevik vərdişdir. Baxmayaraq ki, bəzi insanlar digərlərindən fərqli olaraq sövqtəbii emosional cəhətdən intellektualdırlar, digərləri bununla doğulmasalar belə, emosional intellektlərini inkişaf etdirə bilərlər [1].

Emosional intellekt və şəxsiyyət anlyışları da bir-birindən fərqlənir. Şəxsiyyət insanı müəyyən edən tapmacanın son hissəsi, sabit üslubdur. Şəxsiyyətiniz introversiyaya və ya ekstraversiyaya meyliniz kimi xüsusiyyətlərin nəticəsidir. Bununla belə, IQ kimi, şəxsiyyət emosional zəkanı proqnozlaşdırmaq üçün istifadə edilə bilməz. IQ kimi, şəxsiyyət də ömür boyu sabitdir. Şəxsiyyət xüsusiyyətləri həyatın erkən dövründə görünür. İnsanlar tez-tez müəyyən xüsusiyyətlərin (məsələn, ekstroversiya) daha yüksək EQ ilə əlaqəli olduğunu düşünürlər, lakin başqa insanlarla birlikdə olmağı üstün tutanlar tək qalmağı üstün tutan insanlardan daha emosional ağıllı deyillər. Siz

öz şəxsiyyətinizdən EQ-nu inkişaf etdirməyə kömək etmək üçün istifadə edə bilərsiniz, lakin ikincisi birincidən asılı deyil.




Beləliklə, İQ, emosional intellekt və şəxsiyyət – hər üçü birlikdə insanın kimliyini müəyyən edir. İQ, EQ və şəxsiyyətin birlikdə qiymətləndirilməsi insanın bütöv şəklini almaq üçün ən yaxşı yoldur [1].

1990-cı ildə C.Mayer və P.Salovey tərəfindən emosional intellekt anlayışına aydınlıq gətirilmişdir. C.Mayer və P.Saloveyə görə, emosional intellekt "emosiyaların tanınması, anlaşılması, ifadə və təhlili, emosional biliklərdən istifadə, emosiyaları idarəetmə bacarığıdır". Onların fikrincə, emosional intellekt eyni zamanda "insanları motivasiya edə bilmək üçün lazım olan özünənəzarət, iradi səy, təkid və qabiliyyət" kimi təhlil edilmişdir. Bəzi tədqiqatçılara görə, emosional intellekt "bir insanın özünün və başqalarının emosiyalarını tanıya bilməsi, onları bir-birindən fərqləndirməsi və bu məlumatları düşüncə və davranışlarında sərgiləyərək doğru bir şəkildə istifadə edə bilmək qabiliyyətidir" [2].

Psixoloji ədəbiyyatda emosional intellekti izah edən müxtəlif modellər mövcuddur. Bu modellər emosional intellekt anlayışının fərqli tədqiqatçılar tərəfindən müxtəlif şəkildə təsnif edilməsi nəticəsində ortaya çıxmışdır. Bu modelləri aşağıda verilmiş iki əsas bölmədə toplamaq mümükündür:

1. Qarışıq emosional intellekt modelləri (R.BarOn, K.Kuper və A.Savaf, D.Goleman) – Bu model insanların ətraf-mühitdən gələn təsirlər və tələblərlə bir şəkildə uyğunlaşmasını mümkün edən və bu istiqamətdə içərisində yer alınan çevrə ilə uyğun əlaqələrin inkişaf etdirilməsini vacib bilən şəxsi, emosional və sosial bacarıqlar olaraq təsvir edilir və emosional intellektin sosial intellekt təməlində təsvir olunmasını vacib sayır.

2. Bacarıqların əsas götürüldüyü emosional intellekt modeli (C.Mayer və P.Saloveyin modeli) - Emosional intellekti həm bir qabiliyyət qrupu kimi, həm də emosiyalar əsasında yaranan qabiliyyət növü kimi təsvir edir. C.Mayer və P.Salovey emosional intellektin detallı bir şəkildə açıqlamasını verərək onu təşkil edən bacarıqları beş əsas başlıq altında toplamışdır (Özünü tanıma;

Emosiyaları idarə edə bilmə; Özünü aktuallaşdırma; Empatiya; Münasibətləri davam etdirə bilmə) [4, s.200].

Emosional intellektin komponentləri ilə bağlı elmi ədəbiyyatda müxtəlif təsnifatlar mövcuddur. Lakin bütün təsnifatlar məzmun etibarilə bənzərdir. Travis Bredberri özünün "Emotional İntelligence 2.0" kitabında qeyd edir ki, Emosional intellekt – bizim hər birimizdə olan qeyri-maddi "nə isə"dir. Davranışlarımızı tənzimləməyimizə, sosial çətinliklər zamanı mövqeyimizi müəyyənləşdirməyə və şəxsi qərarlarımızı verməyə təsir göstərir. Emosional intellekt iki əsas kompetensiyaya daxil olan dörd əsas vərdişdən ibarətdir [1, s.23].




**Şəxsi kompetensiya** bizim başqa insanlarla ünsiyyətimizdən daha çox, fərdi olaraq özümüzə hədəflənmiş *özünüdərk və özünüidarə* vərdişlərimizi əhatə edir. Şəxsi kompetentlik – öz emosiyalarımızdan xəbərdar olmaq və davranışlarımızı, tendensiyamızı idarəetmə bacarığımızdır.

*Özünüdərk* - öz emosiyalarınızı dəqiq qəbul edə bilmə və baş verdiyi anda onlardan xəbərdar olma bacarığıdır.

*Özünüidarə* - aktiv qalmaq və öz davranışlarımızı pozitiv idarə edə bilmək üçün emosiyalarımızı anlamağımızdan istifadə bacarığımızdır.

**Sosial kompetentlik** - sizin sosial məlumatlanma və ünsiyyətin idarəedilməsi sahəsində vərdişlərinizdən ibarətdir; sosial kompetentlik – təsirli reaksiya verə bilməniz və ünsiyyətinizin keyfiyyətini yüksəltmək üçün başqalarının əhvalını, davranışını və motivlərini anlama bacarığınızdır.

*Sosial məlumatlılıq* - başqalarının emosiyalarını dəqiq qavrama və həqiqətdə nə baş verdiyini anlaya bilmə bacarığıdır.

*Ünsiyyətin idarəedilməsi* - qarşılıqlı fəaliyyətin uğurlu idarəsi üçün özünüzün və başqalarının emosiyalarını dərkinizdən istifadə etmək bacarığınızdır [1, s.24].

Uzun sürən araşdırmalarının nəticəsi olaraq araşdırmalarının nəticəsi olaraq Goleman El-ni 4 komponentə ayırır: Özünüdərk; Özünüidarəetmə;

Sosial məlumatlılıq (başqalarının duyğularını anlama); Münasibətlərin idarə olunması.

1. Özünüdərk - Bura şəxsin özü haqqında məlumatlılığı, özünütanıma xüsusiyyətləri və emosiyalarından agah olması daxildir. Hisslərini tanımaq yalnız insanın hansı hisslərə malik olmasını bilməkdən ibarət deyil. Bu eyni zamanda müəyyən hissin nə vaxt, hansı təsir altında və nə dərəcədə güclü surətdə üzə çıxmasından, keçirdiyimiz hisslərin davranışımızda necə əks olunmasından xəbərdar olmaqdır. Belə ki, insanlarda müxtəlif hisslər fərqli intensivliklə və fərqli səbəblərdən üzə çıxa bilər. Goleman qeyd edir ki, özünüdərk yüksək intuisiya və düzgün nəticə çıxarmanın əsasıdır. O bunu hətta mənəvi kompas adlandırır. Belə ki, öz hisslərini tanıma eyni zamanda mənəvi dəyərləri müəyyən etmənin əsas komponentidir.

2. Özünüidarəetmə - Öz hissləri haqqında məlumata sahib olan insan onları daha rahat idarə edə bilir. Burada əsas nəzərə alınacaq məqam hisslərin lazım gəldikdə güclü, lazım gəldikdə isə zəif büruzə verilməsidir.

3. Sosial məlumatlılıq (Empatiya) - El-nin növbəti bu komponenti başqalarırının hisslərindən xəbərdar olmağı özündə ehtiva edir. Bu prosesdə empatiya həlledici rola malikdir. Empatiya dedikdə insanın qarşısındakı şəxsin idraki və emosional vəziyyətini duyması, özünü başqalarının yerinə qoya bilməsi nəzərdə tutulur.

4. Münasibətlərin idarə edilməsi - Başqa insanlarla səmərəli münasibət qurmaq El-nin digər vacib aspektidir ki, bunun üçün də şəxsin sosial bacarıqlara sahib olması lazımdır. Sosial bacarıqlar dedikdə aktiv dinləmək, verbal və qeyri-verbal kommunikasiya qurmaq, liderlik və inandırıcılıq qabiliyyəti nəzərdə tutulur. Onu da vurğulayaq ki, sosial bacarıqlara sahiblik başqalarını anlamağın və düzgün münasibət qurmağın açar məqamıdır. Münasibət qurmaq yalnız qarşı tərəfi anlamaq deyil, eyni zamanda bu anlayışı ünsiyyət və kommunikasiyada tətbiq etməkdir [5, s.171-172].

Tədqiqatçıların fikirlərindən də göründüyü kimi deməli, təkcə emosiyaların olması kifayət deyil. Emosiyalar hər bir insanda mövcuddur və bunlar bizə həm kömək edə, həm də zərər verə bilər. Aristotelin də dediyi kimi “Hamı əsəbləşə bilər - bu asandır. Lakin düzgün adama, lazımi miqdarda, vaxtında, doğru səbəbə və uyğun üsulla əsəbləşmək - bu heç də asan deyil.” Emosional intellekt bizə özümüzün və başqalarının emosiyalarını tanımaq və qiymətləndirməkdən əlavə, emosiyalarla bağlı məlumatları gündəlik həyatımızda və işimizdə effektiv şəkildə əks etdirməklə onlara lazımi cavab verməyə imkan verir. Buna görə əgər fərd işində, təhsilində və ya şəxsi həyatında istədiyi nəticəni əldə etmək üçün öz duyğularını düzgün şəkildə istifadə edə bilirsə, onu “emosional zəkası yüksək şəxs” adlandırmaq olar.

Sevindirici haldır ki, elm adamları EQ-ni istənilən vaxt və hər yaşda inkişaf etdirilə və təkmilləşdirilə bilən öyrənilməsi mümkün intellekt sahəsi

kimi görürlər. Ümumi qəbul edilmiş yanaşmaya görə 13-19 yaşdan sonra çox da inkişaf etməyən IQ-dan fərqli olaraq emosional intellektin öyrənilmə ehtimalı yüksəkdir və həyat boyu inkişaf etməyə davam edərək daha adekvat səviyyəyə çata bilir [7, s.142]. Emosional zəkanın inkişafı bir tərəfdən koqnitiv inkişaf, digər tərəfdən isə bioloji yetkinləşmə kimi inkişaf proseslər ilə iç-içədir. Məktəb, ətraf-mühit, insanı əhatə edən şəxslər (valideyn, qohum, dost müəllim və s.) Eİ-nin dəyişməsinə bilavasitə təsir edən faktorlar hesab olunur. Bu səbəbdən 2002-ci ildə UNESCO bütün dünyada sosial və emosional təhsil proqramlarının yayılması üçün təşəbbüs göstərərək 140 ölkənin təhsil nazirliklərinə bu proqramın həyata keçirilməsinə dair bəyannamə göndərmişdir. Bu proqram çərçivəsində şagirdlərə zəruri emosional zəka bacarıqlarının öyrədilməsi nəzərdə tutulmuşdur [3, s.11].

***Ədəbiyyat***

1. *Bradberry, T., & Greaves.J. (2009). Emotional intelligence 2.0.*
2. *Əliyev, B., & Həşimova, N. (2019) Emosional intellekt: nəzəri baxışların təhlili. // Psixologiya jurnalı, 2019, № 2, s.17-29.*
3. *Goleman, D. (1995). Emotional intelligence.*
4. *Hüseynova.G., Vəliyeva.Y. (2022). Emosiyaların psixologiyası.*
5. *TAIM, Maksimum (2022). Metodika və pedaqogika vəsait. Bakı: Təhsil Nəşriyyat – Poliqrafiya, 2019.*
6. *Tuğrul, C. (1999). Duygusal zeka. Klinik Psikiyatri, 1, 12-20.*
7. *Yeşilyaprak, B. (2001). Emosional zəka və təhsil üçün təsirlər. Nəzəriyyə və Təcrübədə Təhsil İdarəçiliyi, 25 (25), s.139-146.*

**N.Q.Əkbərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***akbarlinazrin2001@gmail.com***

# İNKLÜZİV TƏHSİLİN MÜASİR TƏHSİL SİSTEMİNDƏ YERİ

***Xülasə***

*Müasir təhsil sistemindən danışarkən ən çox eşitdiyimiz ifadə "inklüziv təhsil" ifadəsidir. Tarix boyu təhsildə istifadə olunan bir çox yanaşma davamlı olaraq bir-birini əvəz etmişdir, lakin son 30 ildən çoxdur ki, beynəlxalq səviyyədə inklüziv təhsil yanaşması öz yerini sabit şəkildə saxlayır. Məqalədə inklüziv təhsilin yaranmasına gətirib çıxaran tarixi dövr nüanslı və mərhələli bir şəkildə təhlil olunmuşdur. Məsələnin daha ətraflı izahı üçün inklüziv təhsilin hüquqi bazası əsas götürülüb. Həmçinin məqalədə inklüziv təhsili digər təhsil yanaşmalarından fərqləndirən xüsusiyyətlər araşdırılmış və onun sarsılmaz mövqeyinin səbəbləri təhlil olunmuşdur.*

# МЕСТО ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В СОВРЕМЕННОЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ

***Резюме***

*Говоря о современной системе образования, чаще всего мы слышим фразу «инклюзивное образование». На протяжении всей истории многие подходы, используемые в образовании, сменяли друг друга, но вот уже более 30 лет подход инклюзивного образования прочно удерживает свое место на международном уровне. В статье детально и поэтапно проанализирован исторический период, приведший к созданию инклюзивного образования. Для более детального разъяснения вопроса за основу взяты правовые основы инклюзивного образования. Также в статье рассматриваются особенности, отличающие инклюзивное образование от других образовательных подходов, и анализируются причины его непоколебимого положения.*

# THE PLACE OF INCLUSIVE EDUCATION IN THE MODERN EDUCATION SYSTEM

***Summary***

*When talking about the modern education system, the phrase we hear the most is "inclusive education". Throughout history, many approaches used in education have continuously replaced each other, but for more than 30 years, the inclusive education approach has held steady at the international level. In the article, the historical period that led to the creation of inclusive education was analyzed in a nuanced and step-by-step manner. For a more detailed explanation of the issue, the legal basis of inclusive*

*education is taken as a basis. The article also examines the features that distinguish inclusive education from other educational approaches and analyzes the reasons for its unshakable position.*

***Açar sözlər:*** *inklüzivlik, inteqrasiya, təhsil, münasibət, sağlamlıq imkanı məhdud uşaqlar*
***Ключевые слова:*** *инклюзия, интеграция, образование, отношение, дети с ограниченным доступом к здравоохранению*
***Key words:*** *inclusion, integration, education, attitude, children with limited health opportunities*

"İnklüziv təhsil müasir təhsil sistemində tətbiq olunmalıdır" devizi nə qədər tez-tez səslənsə də, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi qeyri-pedaqoqlarla yanaşı, əksər müəllim və pedaqoqlar belə bu söz birləşməsinin tam olaraq hansı mənaya gəldiyini, nə üçün cəmiyyət və təhsilimiz üçün vacib olduğunu anlamır. Hər hansı bir yanaşma və ya modelin əhəmiyyətindən danışmazdan əvvəl, ilk növbədə, onun yarandığı tarixi dövrə baxılmalı, həmin model və ya yanaşmanın yaradılmasını zəruri edən səbəblər araşdırılmalıdır. Günümüzdə də tez-tez "inklüziv təhsil müasir təhsil sistemi üçün ən uğurlu seçimdir", "hər kəs birgə təhsil almalıdır" ifadələrini eşidirik. Bəs həqiqətən də, niyə məhz inklüziv təhsil bizim seçimimiz olmalıdır? İnklüziv təhsili, inklüziv təhsildən əvvəl istifadə olunan digər yanaşmalardan fərqləndirən nə idi? İnklüziv təhsilin hansı üstünlükləri bu modelin dünya miqyasında hələ də istifadə olunmasına, yerini başqa model və yanaşmalara verməməsinə gətirib çıxarmışdır. Bu kimi suallara cavab tapmaq üçün inklüziv təhsilin yaranmasına qədərki və yarandıqdan sonrakı tarixi dövrlərə nəzər salmaq lazımdır. Çünki bu yolla əvvəlki modellərdə olan boşluqları, inklüziv təhsilə keçidin əhəmiyyətini əyani olaraq görmüş olacağıq.

Təlim tədris işləri ilə məşğul olan hər bir müəllim (pedaqoq) pedaqogika fənni ilə artıq tanışdır. Pedaqogikada da vurğulandığı kimi hələ qədim zamanlardan iki tərbiyə sistemi mövcud olmuşdur:

1. Sparta tərbiyə sistemi
2. Afina tərbiyə sistemi

Qədim Spartada güclü hərbi sistemin hökm sürdüyü heç kəsə təəccüblü deyil. Spartalılar dırnaq arası desək, şikəst, xəstə doğulmuş uşaqları uçurumdan atırdılar. Çünki onlara orduya yararlı güc qaynaqları - əsgər lazım idi. Deməli, hələ qədim zamanlardan həmin şəxslərə qarşı çox sərt münasibət hökm sürürdü. Digər bir dövrə nəzər salsaq, görərik ki, Məhəmməd peyğəmbərdən əvvəl, hələ islam dini yayılmamışdan öncə yeni doğulan qız uşaqları diri-diri basdırılırdı. Bütün bu nümunələrdən görürük ki, bu və ya digər şəkildə cəmiyyətin bir-birindən fərqlənən kateqoriyaları arasında hər zaman ayrıseçkilik olmuşdur. Yenidən əlilliyi olan insanlara qayıtsaq, bu

kateqoriyadan olan insanlara qarşı on ikinci əsrə qədər humanist mövqe yox idi.

On ikinci əsrdən sonra sağlamlıq imkanları məhdud insanlara qarşı baxış nöqtəsi tədricən dəyişməyə başladı. On ikinci əsrdən on yeddinci əsrə qədər isə tibbin inkişafı ilə əlaqədar olaraq, sağlamlıq imkanları məhdud şəxsləri öyrənməyə başladılar. Bu dövrdən əlilliyin yaranma səbəbləri ilk dəfə nüanslı şəkildə araşdırılmağa başladı. 17-ci əsrdən sonra, 19-cu əsrin əvvəllərinə qədər artıq sağlamlıq imkanları məhdud uşaqları öyrənməkdən əlavə, öyrətməyin, təhsilə cəlb etməyin də vacibliyini anladılar. Bu məsələnin 17-ci əsrdə gündəmdə olması da təsadüfi deyildi. Belə ki, Komenski bu dövrdə pedaqogikanı ayrıca bir elm kimi fəlsəfədən ayırdı və təlim tərbiyə məsələlərinə baxışlarını əks etdirən “Böyük didaktika” əsərini yazdı. Didaktika sözünün hərfi mənası “öyrədirəm” deməkdir və üç suala cavab verir: nəyi?, kimə?, necə? öyrətmək. Bu nəzəriyyədə uşaqlar əlilliyi olan və ya olmayan kateqoriyalarına bölünmürdü, əsas təlim çərçivəsi nəyi, kimə və hansı şəkildə öyrətməkdən ibarət idi. Komenskinin yaratdığı bu nəzəriyyə dünya üzrə bir mexanizmin qurulması demək idi. Və indiyə kimi hələ də təlim və tərbiyə prosesi müxtəlif inqilabların olmasına, elmin inkişaf etməsinə baxmayaraq, Komenskinin 17-ci əsrdə yaratdığı nəzəriyyənin əsasında gedir. Tarix boyu təhsil sistemində olan bütün alimlərin, nəzəriyyəçilərin diqqət mərkəzində yalnız bir sual olub: “Bütün insanları necə təhsilləndirək? Necə öyrədək?”

Növbəti bir mərhələdə bütün dünyada təhsilin bir çox yeni modelləri, üsullar və təlim sistemləri, məsələn, “Dalton-plan”, “Laborator-briqada” üsulu və s. yaranmağa başladı. Və nəhayət cəmiyyət anladı ki, sağlamlıq imkanları məhdud uşaqlara da təhsil vermək lazımdır. Amma təbii ki, bir addım atılmazdan əvvəl qanunlara əsaslanmaq lazımdır, yəni əvvəlcə hüquqi baza yaradılır, sonrakı fəaliyyətlər də həmin qanunlara əsaslanır. Sağlamlıq imkanları məhdud uşaqların təhsili sahəsində də belə bir qanun ilk dəfə 1948-ci ildə BMT baş assambleyasında imzalandı. Bu, “İnsan Hüquqları Haqqında Bəyannamə” idi. 1948-ci ildə bu bəyənnamə yarandıqdan sonra rəsmi olaraq qəbul olundu ki, əlilliyi olan şəxslər təhsilə cəlb olunmalıdırlar. Bununla da tibbi model yaranmağa başladı. Tibbi modelə əsasən, sağlamlıq imkanları məhdud insanlara tibbi diaqnoz qoyuldu. Sağlamlıq imkanları məhdud uşaqlar tibbi diaqnozlarına görə qruplaşdırıldı. Məsələn, o dövr üçün “kor, kar, şikəst, debil” və s. kimi tibbi diaqnozlar yarandı. Daha sonra belə bir qənaətə gəlindi ki, bu tibbi diaqnozlara görə məktəblər yaransın və həmin şagirdlər orada təhsilə cəlb olunsun. Bu, XX əsrin ortalarında dünyada gedən bir təhsil siyasəti olub. 1948-ci il bəyənnaməsindən sonra belə məktəblər tədricən yaranmağa başladı. Məsələn, “kor və zəif görən uşaqlar üçün məktəblər”, “lal və kar uşaqlar üçün məktəblər”, “fiziki əlilliyi olan uşaqlar üçün məktəblər” və s. tipli məktəblər açılmağa başladı. Lakin uşaqların sayı az olduğundan bu məktəblər

regional məktəblər idi. Yəni yaxın ərazidə yerləşən rayonlardan yalnız birində xüsusi məktəb tikilirdi, ətraf rayonlarda yaşayan xüsusi qayğıya ehtiyacı olan uşaqlar da həmin məktəbdə təhsilə cəlb olunurdu. Bu tendensiya nəinki Azərbaycanda, bütün dünyada baş verdi. Hər bir prosesdən sonra ümumi mənzərəylə tanış olmaq məqsədilə monitorinqlər aparılır. Tibbi yanaşma modelinin tətbiqindən on il sonra aparılmış monitorinqlər göstərdi ki, bu modeldən istifadə edən ölkələrdəki SİM uşaqların hamısı heç də təhsilə cəlb olunmur. Belə ki, valideynlər hər gün xüsusi qayğıya ehtiyacı olan uşaqları xüsusi məktəblərə aparıb gətirməyə imkan tapmaya bilirdilər. Bu da öz növbəsində yenidən bəzi sağlamlıq imkanları məhdud uşaqların təhsildən kənarda qalması demək idi. Demək, tibbi model bütün sağlamlıq imkanları məhdud uşaqlara təhsil verilməsini nəzərdə tutan model idi, lakin tətbiqdə hər kəsə şamil olunmurdu. Bu modeldə olan boşluqların aradan qaldırılması üçün yeni bir model, inteqrasiya və ya normallaşdırma modeli yaradıldı. İnteqrasiyanın özü də iki hissəyə ayrılırdı:

1. Evdə təhsil
2. Pilot lahiyələr

Evdə təhsildə sağlamlıq imkanları məhdud uşaqlar rayon təhsil şöbələrində qeydiyyatdan keçirdilər və həmin rayondakı müəllimlər prosesə cəlb edilirdilər ki, sağlamlıq imkanları məhdud uşaqlara evdə təhsil keçilsin. Lakin bu yanaşmada da sosiallaşma problemi üzə çıxdı. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların təcrid olunmuş formada evdə təhsili onların digər yaşıdları ilə kommunikasiyada olmasının qarşısını alırdı.

Pilot lahiyələr Azərbaycanda da həyata keçirilməyə başlayırdı. Bu lahiyələr necə keçirilirdi? Sağlam uşaqların təhsil aldığı siniflərdə ayrı bir müəllim tərəfindən həmin yaş qrupundan olan SİM şagirdə təlim keçilirdi. Dünyada 80-ci illərə qədər inteqrasiya modeli davam etdi və nəhayət, son olaraq sosial model yaranmağa başladı.

Sosial model 30 ildən artıqdır ki, dünyada tətbiq olunur. Amma Azərbaycanda bu modelin tətbiqinə yeni başlanıb (sosial model istiqamətində ilk addımlar 2006-cı ildən atılmağa başlandı). Belə bir sual yaranır: Bu model niyə öz aktuallığını hələ də qoruyur? Və ya bu modelin Azərbaycanda tətbiqinə niyə ehtiyac duyuldu? Yuxarıda qeyd olunanları da nəzərə alaraq bu suallara bir neçə cavab variantı mövcuddur:

1. Əvvəla, sosial modeldə uşaqlar ayrı-seçkiliyə məruz qalmırlar;
2. Hər kəs birgə məktəblərdə təhsilə cəlb olunur;
3. Sosial modeldə sağlamlıq imkanları məhdud uşaqların məktəblərə əlçatanlığı daha rahatdır.

Çox zaman inklüziv təhsil modeli ilə inteqrasiya modeli, həmçinin xüsusi təhsil yanaşması bir-birilə qarışdırılır. Lakin nəzərə almaq lazımdır ki, inklüziv təhsil daha əhatəli anlayışdır. İnklüziv təhsil, təhsilə cəlb olunan

subyektlərə aid bütün məsələləri özündə ehtiva edir. Əgər xüsusi təhsildə uşaqlar konkret hər hansısa bir məhdudiyyətinə - məsələn, eşitmə məhdudiyyətinə görə ayrıca məktəblərdə - "Lal və kar uşaqlar üçün məktəblər"də təhsilə cəlb olunurdularsa, inklüziv təhsildə uşaqların dilindən, dinindən, cinsindən, irqindən, etnik mənsubiyyətindən, milliyyətindən və hətta fiziki və ya psixi məhdudiyyətindən asılı olmayaraq təhsilə cəlb olunması nəzərdə tutulur. Bir sözlə, inklüziv təhsil başlığı altında cəmiyyətin müxtəlif kateqoriyalarına mənsub üzvləri toplaşır. Yəni bura yalnız sağlamlıq imkanları məhdud uşaqların təhsili aid deyil. Bəs inklüziv təhsil dedikdə hansı qrup insanların təhsilə cəlb olunması nəzərdə tutulur? İnklüziv təhsil başlıca olaraq aşağıdakı şəxslərin adi təhsil müəssisələrində hər kəslə birgə təhsil almasını dəstəkləyən təhsil modelidir:

- valideyn himayəsindən məhrum uşaqlar;
- hiperaktiv uşaqlar;
- istedadlı uşaqlar;
- kimsəsiz uşaqlar;
- çətin tərbiyə olunan uşaqlar;
- zərərli vərdişlərə meyl edən uşaqlar;
- zorakılığa məruz qalan uşaqlar;
- bu və ya digər səbəbdən təhsildən geri qalan uşaqlar;
- hüquqları pozulan uşaqlar;
- davranışında problem olan uşaqlar və s. göründüyü kimi inklüziv təhsil unikal, biristiqamətli təhsil yanaşması deyil, əksinə çoxşaxəlidir.

Müasir dövrdə bir çox ölkələrdə əlilliyi olan uşaqlar digərləri ilə birlikdə məktəbəqədər təhsil müəssisələrində, orta və ali məktəblərdə təhsil alırlar. Şəxslərin cəmiyyətə məhz bu cür inteqrasiyasına inklüziv təhsil deyilir. Xüsusi təhsil müəssisələri isə sağlamlıq imkanları məhdud olan şəxslərin təlim-tərbiyəsi və sağlamlığının bərpası üçün təşkil edilir. İnklüziv təhsilə keçid xüsusi təhsildən tamamilə imtina etmək demək deyil. Əgər hər hansı bir şəxsdə ciddi formada psixi, əqli və ya fiziki ləngimələr olarsa, həmin şəxsə mütləq xüsusi təhsil verilməlidir. Çünki praktik olaraq həmin uşaqların inklüziv siniflərdə təhsil alması mümkün deyil. Belə ki, inklüziv siniflərdə fiziki, əqli və psixi pozuntuların ilkin simptomları olan uşaqlar təhsil ala bilər. İnklüziv siniflərdə təlim mühiti qurularkən sağlamlıq imkanları məhdud olan uşaqlarla sağlam uşaqların say nisbəti də nəzərə alınmalıdır. Beynəlxalq təcrübəyə əsasən, inklüziv siniflərdə sağlamlıq imkanları məhdud uşaqların sayı 10 faizdən artıq olmamalıdır. Yəni, əgər sinifdə 20 uşaq təhsil alırsa, onlardan 2-si sağlamlıq imkanları məhdud olan uşaq ola bilər.

**Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin əsas hüquqi bazası.** Mahiyyətcə humanizmi təlqin edən və demokratik prinsiplərə söykənən inklüziv təhsil yalnız məktəb çərçivəsində və təhsil sistemi səviyyəsində deyil,

eyni zamanda bütün cəmiyyət miqyasında hər kəsə bərabər imkanlar və irqindən, dinindən, maddi-sosial vəziyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir fərdinə ədalətli yanaşma tələb edir. İkinci dünya müharibəsində bir çox insanın sağlamlığında problemlərin yaranması ilə əlaqədar olaraq, ikinci dünya müharibəsindən sonra bütün dünyada humanizm ideyalarının təbliğinə və yayılmasına ehtiyac var idi. Bu baxımdan 1945-ci ildə BMT-nin (Birləşmiş Millətlər Təşkilatının) yaradılması xüsusi dönüş nöqtəsi idi. Belə ki, BMT yaradıldığı dövrdən sağlamlıq imkanları məhdud insanların hüquqlarını daim diqqət mərkəzində saxlayırdı. Birləşmiş Millətlər Təşkilatı Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması ilə bağlı müxtəlif illərdə müxtəlif konvensiyalar, bəyənnamələr imzalamışdır.

Bu təşkilatın humanist ideyaların ön planda olduğu, müxtəlif dövrlərdə hazırladığı sənədlər aşağıdakı ardıcıllıqla imzalanmışdır:

- 1948-ci ildə "İnsan hüquqlarının ümumdünya bəyənnaməsi";
- 1959-cu ildə "Uşaq hüquqları bəyannaməsi";
- 1960-cı ildə "Təhsil sahəsində ayrıseçkiliyə qarşı mübarizə haqqında konvensiya";
- 1971-ci ildə "Əqli cəhətdən geri qalan şəxslərin hüquqları haqqında bəyannamə";
- 1975-ci ildə "Əlillərin hüquqları haqqında bəyənnamə";
- 1982-ci ildə "Əlillərə dair ümumdünya fəaliyyət proqramı";
- 1989-cu ildə "Uşaq hüquqları haqqında konvensiya";
- 1990-cı ildə "Uşaqların yaşamasını, qorunmasını və inkişafını təmin etmək haqqında dünya bəyənnaməsi";
- 1990-cı ildə "Hamı üçün təhsil haqqında dünya bəyənnaməsi";
- 1993-cü ildə "Əlillər üçün bərabər imkanların yaradılması üçün standart qaydalar";
- 1994-cü ildə "Xüsusi təhsil ehtiyacı olan şəxslərin təhsili sahəsində prinsiplər və praktiki fəaliyyət haqqında Salamanka bəyənnaməsi";
- 2000-ci ildə "Dünya təhsil forumu tərəfindən qəbul edilmiş dakar fəaliyyət çərçivəsi".

Göründüyü kimi, tarix boyu inklüziv təhsilə münasibətin inkişaf dinamikası müsbət ideyalar istiqamətində olmuşdur. Səbəb isə xüsusi təhsilin beynəlxalq hüquqi sənədlərin əsas bazası olan humanist prinsiplərə zidd olaraq diskriminasiyanı təbliğ etməsi idi. Bu tipli təhsildə sağlamlıq imkanları məhdud uşaqlar kütləvi təhsil müəssisələrindən ümumiyyətlə təcrid olunurdu. Azərbaycan BMT-nin 2006-cı ildə qəbul etdiyi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyanı 2008-ci ildə ratifikasiya etmişdir. Bu konvensiyaya əsasən əlilliyi olan şəxslərin təhsil hüququ tam təmin olunmalıdır. Lakin Azərbaycandakı vəziyyətə baxsaq görərik ki, icbari orta

təhsildə (ibtidai və ümumi orta təhsil) oxuyan sağlamlıq imkanları məhdud uşaqların sayı yetərincə azdır. Bunun bir neçə səbəbi var:

1. Sağlamlıq imkanları məhdud uşaqlara tibbi baxımdan düzgün diaqnozun qoyulmaması;
2. Sağlamlıq imkanları məhdud uşaqların valideyn və ya qəyyumlarının inklüziv təhsilə mənfi münasibəti.

Lakin nəzərə almaq lazımdır ki, inklüziv təhsilin həm sağlamlıq imkanları məhdud uşaqlar, həm də sağlam uşaqlar üçün faydaları çoxdur. Belə ki,

- Sağlamlıq imkanları məhdud uşaqlar kollektivə uyğunlaşır, cəmiyyətə inteqrasiya edir;
- Sağlamlıq imkanları məhdud uşaqlarla birgə təhsil alan sağlam uşaqlarda onlara qarşı empatiya hissləri formalaşır;
- Sağlamlıq imkanları məhdud uşaqlar təcrid olunmuş hiss etmir, onlarda özünə inam hissi formalaşır;
- SİM uşaqlar cəmiyyətin digər üzvləri kimi bərabər hüquqlu şəxsiyyət kimi formalaşır;
- Digər uşaqlarla eyni səviyyədə, bərabər şəkildə təhsil aldıqları üçün gələcəkdə onların işsizlik problem də aradan qaldırılmış olur.

Məsələnin müqayisəli təhlili bir daha əyani şəkildə sübut etdi ki, inklüziv təhsil, həqiqətən də, müasir təhsil sistemində əvəzolunmaz rola malikdir. Bütün dünyada ədalətli, hər kəs üçün bərabər təlim mühitinin yaradılması yolu yalnız inklüziv təhsildən keçir.

***Ədəbiyyat***


1. *Əhmədov H. Azərbaycan Təhsilinin İnkişaf Strategiyası. Bakı: Elm, 2010.*
2. *Məmmədova Ü.R. İnklüziv təhsilə giriş. Bakı: ADPU, 2022, 218 s.*
3. *Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil: sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı: Allen Unwin (İdeal Print), 2020, 309 s.*
4. *Hüseynova N. T., Məlikov M.Ş. Xüsusi pdaqogikanın müasir problemləri, Bakı – 2018.*
5. *Hall, L. and McGregor, J.A follow-up study of the peer relationships of children with disabilities in an inclusive school. Journal of Special Education, 2000, 34(3), p.114.*
6. *Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2013, 708 s.*
7. *https://inclusionbc.org/*

**F.İ.Aslanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***firengizaslanova946@gmail.com***

# TƏDRİS PROSESİNİN GEDİŞİNDƏ MÜƏLLİM VƏ TƏLƏBƏLƏR ARASINDA ƏMƏKDAŞLIĞIN OPTİMALLAŞDIRILMASI ZAMANIN TƏLƏBİDİR

***Xülasə***

*Məqalədə ali təhsil müəssisələrinin müəllim və tələbələri arasında pedaqoji əməkdaşlığın mahiyyətindən söhbət gedir, təhsil sisteminin islahatı prosesində onun optimallaşdırılmasının yolları və şərtləri müəyyən edilir. Əsas diqqət pedaqoji əməkdaşlığın tədris məşğələlərinin gedişində optimallaşdırılmasına, müəllim və tələbələrin müxtəlif pedaqoji tapşırıqlarının həllinə yönəlir.*

# ОПТИМИЗАЦИЯ СОТРУДНИЧЕСТВА ПРЕПОДАВАТЕЛЕЙ И СТУДЕНТОВ В ХОДЕ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА – НАСУЩНАЯ ПОТРЕБНОСТЬ ВРЕМЕНИ

***Резюме***

*В статье рассматривается сущность педагогического сотрудничества преподавателей и студентов высших учебных заведений, определяются пути и условия его оптимизации в процессе реформирования системы образования. Основное внимание обращено на оптимизацию педагогического сотрудничества в ходе проведения учебных занятий, решения преподавателями и студентами различных педагогических задач.*

# OPTIMIZATION OF COOPERATION BETWEEN TEACHERS AND STUDENTS IN THE EDUCATIONAL PROCESS –AN URGENT NEED OF TIME

***Summary***

*The essence of pedagogical collaboration of teachers and students in higher education are determined by the ways and conditions of optimization in the process of reforming the education system. Focused on optimizing teachers' cooperation during the training sessions, the teachers and students of various educational tasks.*

***Açar sözlər:*** *pedaqoji əməkdaşlıq, pedaqoji əməkdaşlığın optimallaşdırılması, optimallaşdırma prinsipləri, pedaqoji fəaliyyəti, pedaqoji tapşırıq, interaktiv öyrənmə, pedaqoji və koqnitiv fəaliyyət*

***Ключевые слова:*** *педагогическое сотрудничество, оптимизация педагогического сотрудничества, принципы оптимизации; учебная работа, педагогическая задача, интерактивное обучение, учебно-познавательная деятельность*

***Key words:*** *pedagogical cooperation, optimizing the teaching principles of optimization, collaboration, training, pedagogical task, online training, training and educational activities*

Son onilliklər ərzində dəyişən sosial həyat "insan-insan" sistemində, xüsusilə də təhsil sferasında qarşılıqlı əlaqələrin mahiyyətinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Ali təhsildə təlim yükünün həcminin artması təlim məşğələlərinin aparılmasının forma və metodlarının dəyişməsi ilə xarakterizə olunur. Bu isə öz növbəsində müəllim və tələbələr arasında münasibətlərin yenidən nəzərdən keçirilməsini, yeni üsulların axtarışı və qarşılıqlı əlaqələrin qurulması yollarını tələb edir.

Ali məktəb müəllimi şagirdə hazır məlumatları çatdırmaqla yanaşı, onun biliklərinin artırılmasına da maraq oyatmalıdır. Dərs zamanı əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün şərait yaratmaqla bu məqsədlərə nail olmaq mümkündür - yəni, koordinasiyalı və əməkdaşlıq şəraitində işləmək üçün bacarıq və qabiliyyətlərin formalaşması. Bu da universitetdə təhsil prosesinin effektivliyinin yüksəldilməsində mühüm amildir.

Psixoloji ədəbiyyatda qarşılıqlı əlaqə, ilk növbədə, ünsiyyət prizması vasitəsilə nəzərə alınır, belə ki, hər cür insan təması şifahi ünsiyyətlə əlaqələndirilir. Ünsiyyətdə mənəvi dəyərlər, münasibətlər və normalar reallaşır. Bu səbəbdən ünsiyyət çox vaxt "əxlaqın subyekti" kimi müəyyən edilir. İnsan şəxsiyyətinin iç dəyərinə, onun şərəf və ləyaqətinə hörmətin tanınmasına istiqamətləndirilməsi ünsiyyətin humanistik mənəviyyatının dəyər strukturunun əsas, ayrılmaz amilidir. Ünsiyyət insanın bir növüdür, əxlaqın xüsusi bir mövcudluq yolu və şəxsiyyətlərarası əlaqələrin reallaşması, şəxsiyyətlərarası dialoqdur.

B.F.Lomov ən dəqiq şəkildə ünsiyyət və fəaliyyət arasındakı ayrılmaz əlaqəni açıqlayır: "Ünsiyyət onun hər bir iştirakçısının ara-sıra hərəkət sistemi deyil, onların qarşılıqlı əlaqəsidir. Onu kəsmək, bir iştirakçının fəaliyyətini digərinin fəaliyyətindən ayırmaq, qarşılıqlı ünsiyyətin təhlilindən uzaqlaşmaq deməkdir" [1, s.252].

N.A.Morevanın fikrincə, universal kateqoriya kimi qarşılıqlı əlaqə cisimlərin bir-birinə təsiri prosesidir. Bilavasitə və ya dolayı əlaqələr şəklində əlaqənin bir növü, hissələrin bütövə birləşdirilməsi üçün inteqrasiyaedici amil təbiətin və insanların dərk edilməsinin metodoloji prinsipi, hər hansı bir sistemin hərəkət formasıdır [3, s. 223].

Pedaqoji əməkdaşlığın optimallaşdırılması ali təhsil müəssisəsində pedaqoji prosesin optimallaşdırılmasının xüsusi halıdır. Ümumi didaktik

aspektdə Y.K.Babanski təhsil prosesinin optimallaşdırılmasını "bu prosesin inşası üçün ən yaxşı variantın müəllimlər tərəfindən məqsədyönlü seçim kimi nəzərdən keçirmək təklifini irəli sürmüşdür. Bu seçim ayrılan dövrdə təhsil və tərbiyə problemlərinin həllinin maksimum mümkün səmərəliliyini təmin edir" [4, s.78]. Daha sonra o, bu tərifi daha da tərtib edərək, optimallaşdırmanı elmi cəhətdən əsaslandırılmış seçim və verilən şərtlər üçün ən yaxşı öyrənmə variantının həyata keçirilməsini onun problemlərinin həllinin bütövlüyü və həm tələbələrin, həm də müəllimlərin sərf etdiyi vaxtın rasionallığı nöqteyi-nəzərindən adlandırır.

Müəllim və tələbələr arasında pedaqoji əməkdaşlığın optimallaşdırılması üçün yolu müəyyən etmək zəruridir. Bu yolun seçimi pedaqoji təsirlərin ən yaxşı nəticəsinin əldə olunması ilə bağlıdır. Bu halda, pedaqoji proses təhsil prosesinin optimallaşdırılması menecer tərəflə, yəni təlim-tərbiyənin bütün funksiyalarında həyata keçirilməsinə effektiv yanaşmanın seçilməsi ilə, öyrənmə və təhsil anlayışının bir proses və sistem kimi aydınlaşdırılması ilə əlaqə yaradır.

Pedaqoji əməkdaşlığın optimallaşdırılması şəxsi-sosial fəaliyyət üsulundan istifadə etməyi nəzərdə tutur. Belə ki, insan yalnız sosiallaşma prosesində, digər insanlarla ünsiyyət və qarşılıqlı əlaqədə olan şəxsə çevrilir.

Pedaqoji əməkdaşlığın optimallaşdırılmasında bir sıra prinsiplərin tələblərinə riayət edilməsi nəzərdə tutulandır. Bunlar, ilk növbədə:

- şəxsiyyətin özünüqiymətinin tanınmasını, onun harmonik özünü inkişaf etdirilməsi üçün şəraitin yaradılmasını nəzərdə tutan humanizm prinsipi;
- şəxsiyyətin inkişafı üçün sosial-mədəni mühitin yaradılmasını zəruri edən mədəni konformasiya prinsipi;
- insanı təbiətin bir hissəsi hesab edən və onun inkişafı üçün müvafiq bioloji və psixoloji mühitin yaradılmasını təmin edən təbiətə uyğunluq prinsipi;
- şəxsiyyətin sosial, mənəvi, ümumi mədəni və peşəkar inkişafının vəhdətini müəyyən edən, hər bir insanın yaradıcılığına, orijinallığına, fərdiliyinə diqqət yetirmək prinsipi;
- şəxsiyyətin və sosial-pedaqoji sistemdə baş verən dəyişikliklərin indiki dövrün tələblərinə uyğun və gələcək üçün proqnozla dinamizmi təmin edən davamlılıq prinsipi.

Pedaqoji əməkdaşlığın optimallaşdırılması müəllim və şagirdlər arasında qarşılıqlı əlaqələrin, qarşılıqlı münasibətlərin yaxşılaşdırılmasına, qarşılıqlı anlaşmanın qurulmasına, qarşılıqlı yardım göstərilməsinə şərait yaradan metodlar tətbiq etməklə mümkündür. Belə metodlara müxtəlif fəal təlim metodları aiddir.

Pedaqoji əməkdaşlığın optimallaşdırılmasının əsas xüsusiyyətləri aşağıdakılardır:

- birgə təhsil prosesinin yüksək təşkil edilməsi;

- ünsiyyətin dialoji xarakteri, tədris prosesinin subyektləri və obyektləri arasında hörmətcil və mehriban əlaqələr;
- bu prosesin addım-addım mahiyyəti;
- proses iştirakçılarının qarşılıqlı əlaqəsinin modelləşdirilməsi elementləri;
- şagirdlərin özünü inkişaf etdirmək qabiliyyətinin, yaradıcılıq qabiliyyətinin formalaşmasına, pedaqoji fəaliyyətlərdə özünü reallaşdırmaq istəyinə diqqət yetirmək.

Pedaqoji fəaliyyət təhsil prosesinin tərkib hissəsidir və ali təhsil müəssisəsinin əsas fəaliyyət istiqamətlərindən biridir. Buraya bütün növ təlimlərin təşkil edilməsi və keçirilməsi, tərəqqinin cari və son monitorinqi və tələbələrin təlim keyfiyyətinin yüksəldilməsi daxildir. Müəllim üçün akademik fəaliyyət əsas və vacib işlərdən biridir. Müəllimdən tələb olunur ki, pedaqoji materialı tapıb cəmləməyi bacarsın, onu məntiqi və ifadəli şəkildə təqdim etsin, əsas ideyaları şagirdlərin şüuruna çatdırsın, şagirdlərlə düzgün münasibət qursun və onu qoruyub saxlasın, onlarda müstəqil şəkildə bilik əldə etmək, peşəkar bacarıq və qabiliyyətlərini inkişaf etdirmək, gündəlik elmi, koqnitiv və praktiki fəaliyyətlərinə rəhbərlik etmək istəyi və arzusu oyatsın.

Burada əsas məsələ müəllimin təlimin məzmunu və texnologiyası baxımından müəyyən situasiyaya ən uyğun olan optimal didaktik qərarlar qəbul etmək bacarığıdır. Ən yaxşı didaktik çıxış yollarından biri də şagirdin başqalarının köməyi ilə edə biləcəyindən təkbaşına edə biləcəyi şeylərə keçiddir. Məhz qarşılıqlı əlaqə və əməkdaşlıq yolu ilə inkişafın faktiki inkişaf zonasından proksimal inkişaf zonasına keçməsi mümkündür. L.S.Vyqotskiyə görə, bu, təhsildə ən əhəmiyyətlisidir.

Optimal didaktik qərarlar qəbul etmək bacarığı müəllimin gündəlik üzləşdiyi universal bir işdir. Bu universal bacarığa çoxlu sayda konkret peşə funksiyaları və bacarıqlar daxildir.

Tələbələr tərəfindən təhsil məlumatlarının qavranılması prosesi məktəbəqədər təhsil zamanı formalaşmış köhnə təfəkkür formalarının və universitetdə yeni materialların öyrənilməsi zamanı yaranan yenilərin müqayisəsidir. Eyni zamanda, onlar arasında müxtəlif əlaqələr və münasibətlər üzə çıxır. Şagirdlərin fikir və hərəkətlərinin tutarsızlığı problem şəklində mövcuddur. Onlar bilik yaratmaq üsulu deyil, onu dərk etmə formasıdır. Pedaqoji əməkdaşlığın gedişində şagirdlər öyrənilən təhsil materialında tanış olmayan məqamları və müxtəlif nüansları təhlil edərək, onları "mövcud" biliklərlə, struktur sualları ilə korrelyasiya edirlər ki, bu da mübahisəli məsələnin və ya müzakirə olunan problemin həlli üçün fərziyyələri ehtiva edir.

Bir qayda olaraq, şagird cavab vermək üçün artıq bir və ya bir neçə variantı olduğu halda suallar verməyə başlayır. Anlayış prosesi belə baş verir. Yeni anlayış təkcə birgə pedaqoji və koqnitiv fəaliyyətin məhsuluna

münasibəti dəyişmir, eyni zamanda, şagirdlərin mövzunun öyrənilməsində onların daha da pedaqoji və koqnitiv fəaliyyəti ilə bağlı məqsəd qoyulmasına təsir edir.

Şagird fəaliyyət subyektinin mövqeyini aldıqda, özünütənqid və özünü tənzimləmə həyata keçirilir, öyrənməyə olan predispozisiya yaradılır. Eyni zamanda koqnitiv maraq onun yaranması üçün möhkəm əsas əldə edir. Öyrənmə prosesində ən mürəkkəb təfəkkür prosesləri, təxəyyülün fəaliyyəti, bilik aktivləşir, düzgün metodlar seçilir, müxtəlif bacarıqlar yoxlanılır. Təlimin fəaliyyəti canlı təcrübələr ilə rənglənmiş şəxsi əhəmiyyətə yiyələnir.

Ünsiyyət aktlarında, qarşılıqlı əlaqə prosesində partnyorlar tərəfindən bir-biri haqqında təsəvvür yaranır. Q.M.Kruçinskiy qeyd edir: "Ünsiyyət prosesində insanın insanla qarşılıqlı əlaqəsi həm də onların daxili dünyalarının qarşılıqlı təsiridir: fikir, obraz mübadiləsi, məqsəd və ehtiyaclara təsiri, başqasının qiymətləndirmələrinə təsiri, onun emosional vəziyyəti" [5, s.125]. O, vurğulayır ki, mövzu-obyekt qarşılıqlı əlaqəsi nə qədər mürəkkəbdirsə, partnyorun daxili aləminə daxil olan nüfuz bir o qədər dərin olmalıdır. Onun daxili aləminin əks olunması da bir o qədər mükəmməldir. Qarşılıqlı təsir prosesində başqa bir insana insan kimi yanaşmaq, ilk növbədə, onun da öz daxili aləminə sahib olduğunu anlamaqdır [5].

M.V.Foucault özünün "Hermeneutics of the Subject" əsərində, dünyanın universal fəaliyyətindən irəli gələn, hər kəsin ruhi fəaliyyətinin uğurlu olması üçün vahid bir kriteriya, yəni mövzunun statusunun ustalıqla həyata keçməsini təklif etmişdir. Bunda müəllimin rolu böyükdür. "Mentor o şəxsdir ki, mövzunun özü üçün göstərdiyi qayğı ilə maraqlanır", - o qeyd edib. "Tərbiyəçi fərdin transformasiyasının icraedicisi kimi çıxış edir" [6, s.248].

Müəllimlə şagirdlərin qarşılıqlı əlaqəsi qarşılıqlı təsir və qarşılıqlı anlaşma baxımından nəzərdən keçirilir. Bu aspektlər pedaqoji əməkdaşlığın səviyyəsi kimi xarakterizə olunur. Emosional səviyyədə qarşılıqlı əlaqə özünü bir münasibət kimi göstərir və qarşılıqlı anlayışdan asılıdır. Qarşılıqlı anlayış qarşılıqlı bilik, anlayış prosesidir. Bu qarşılıqlı əlaqəni qavrama səviyyəsidir. Qarşılıqlı təsir ünsiyyətin əsasını təşkil edir və onun xarici və daxili təzahürlərini (hərəkətləri, davranışı və münasibəti, qiymətləndirilməsi) istədiyi istiqamətdə dəyişmək məqsədilə bir nəfərin digərinə təsiridir.

Müəllimin menecer fəaliyyətinin qeyri-adiliyi ondan ibarətdir ki, bilavasitə didaktik əhəmiyyətə malik olan ən mühüm sosial münasibətlər də idarəetmə obyekti kimi fəaliyyət göstərir. Bunlar "şagirdlər - təhsil məlumatları (tədris materialı)", "müəllim-şagird", "şagird - digər tələbələr" səviyyələrində olan münasibətlərdir. Məhz müəllimin onların didaktik mahiyyəti, onların səmərəli tətbiqi üçün yaradılan şərait, pedaqoji işdə onlardan istifadə etmək bacarığı təhsil prosesinin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edən dərin bilikləridir.

Birgə maarifləndirici və koqnitiv tədbirlərdə iştirak edərək, onun hər bir subyekti digər mövzunun mümkün reaksiyasını nəzərə almalı, ona uyğun olaraq öz hərəkət və mesajlarını planlaşdırmalıdır. Hər bir mövzunun gözlənilməsi dərəcəsi qeyri-müəyyəndir, çünki onun şəxsi mənası şüursuz istinad nöqtələri ilə müəyyən edilir. Gözləmə dərəcəsinin həddi pedaqoji vəziyyətin normativ və dəyər oriyentasiyaları ilə təyin edilir. Bununla əlaqədar olaraq, bəzi reaksiyalar müəyyən bir hərəkətə cavab olaraq daha çox görünür, bəziləri isə az, yenə də digərləri isə gözləntilər aralığından kənardır. Gözləntilər və ehtimal qiymətləndirmələri normativ və dəyər oriyentasiyaları ilə təyin edilir və onların hər bir şagirdin sosial qarşılıqlı əlaqəsinin fərdi təcrübəsində əks etdirilməsini təmsil edir.

Şagirdlər müəllimlə və bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla, ünsiyyətcil kompetensiyanın minimum səviyyəsinin mövcud olduğu şəraitdə təhsil şəraitində şərti normativ-qiymət referens nöqtəsi kimi "elementar davranış" haqqında ümumi təsəvvür formalaşdırırlar. Pedaqoji əməkdaşlığın məqsədi davranışın ustalığı deyil. Müəllim özünü bu elementar davranışın formalaşdırılması üçün ayrıca tapşırıq qoymur. Pedaqoji əməkdaşlıq sözün ən geniş mənasında qarşılıqlı əlaqə üçün imkan yaradır, iştirakçılara ona güvənməyə imkan verir. Qarşılıqlı əlaqənin hər bir mərhələsində bu "elementar davranış" ilə əlaqədar davranışın qarşılıqlı uyğunlaşdırılması baş verir.

Beləliklə, pedaqoji prosesin pedaqoji qarşılıqlı əlaqəsinin keyfiyyətinin təmin edilməsi və onun səviyyəsinə çatdırılması müəllim və şagird arasında əməkdaşlıq vacibdir.

***Ədəbiyyat***

1. *Abbasov A. Pedaqogika. Bakı: Mütərcim, 2010, 344 s.*
2. *Ломов Б.Ф. Методологические и теоретические проблемы психологии. - М. : Наука, 1984. - 444 с.*
3. *Выготский Л.С. Детская психология: Вопросы детской (возрастной) психологии // Собр. соч.: в 6 т. - Т. 4. - Ч. 2. -М. :Педагогика, 1984. -452 с.*
4. *Морева Н.А. Основы педагогического мастерства: учеб. пособие для вузов. - М. : Просвещение, 2006. - 320 с.*
5. *Бабанский Ю.К. Оптимизация процесса обучения (Общедидактический аспект). - М. : Педагогика, 1977. - 256 с.*
6. *Кручинский Г.М. Психология внутреннего диалога. - Минск: Университетское, 1988. - 206 с.*
7. *Фуко М.В. Герменевтика субъекта // Социологос. Общество и сферы смысла: сб. работ; сост., общ. ред. и предисл. В.В.Винокурова, А.Ф.Филиппова. - Вып. 1. - М. : Прогресс, 1991. - С. 245-258.*

**F.M.Hacıyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***haciyevafirengiz498@gmail.com***

# ALİ MƏKTƏBLƏRDƏ PRAKTİK MƏŞĞƏLƏLƏRİN KEÇİRİLMƏSİ

***Xülasə***

*Məqalədə ali məktəblərdə tələbələrin praktik məşğələlərin təşkilinin nəzəri əsasları və tətbiqi məsələləri nəzərdən keçirilir. Praktiki məşğələlərin üstünlükləri, keçirilmə formaları, əsas elementləri xarakterizə olunub. Qeyd olunur ki, praktik məşğələlər, bir qayda olaraq, mühazirənin davamı olub, qazanılmış nəzəri bilikərin həyatda və təcrübədə tətbiqini təmin edir, tələbələrdə ixtisas bacarıqları və vərdişləri formalaşdırır. Məqalədə məlum olur ki, praktik məşğələlər yaradıcı istiqamətdə qurulmalı, məşğələlər üçün seçilən tapşırıqlar metodik cəhətdən əsaslandırılmalı, evristik, problemli təlim, tədqiqatçılıq metodları və müvafiq innovasiyalardan geniş istifadə olunmalıdır.*

# ПРОВЕДЕНИЕ ПРАКТИЧЕСКИХ ЗАНЯТИЙ В ВУЗАХ

***Резюме***

*В статье рассматриваются теоретические основы и практические вопросы организации практических занятий студентов в вузах. Охарактеризованы преимущества практических занятий, формы их проведения и основные элементы. Отмечается, что практические занятия, как правило, являются продолжением лекции, обеспечивают применение полученных теоретических знаний в жизни и на практике, формируют у студентов профессиональные навыки и привычки. В статье выявлено, что практические занятия должны создаваться в творческом направлении, выбранные для задач задания должны быть методически обоснованы, широко использоваться эвристическое, проблемное обучение, методы исследования и соответствующие инновации.*

# CONDUCTİNG PRACTİCAL EXERCİSES İN HİGHER SCHOOLS

***Summary***

*In the article, the theoretical basis and application issues of organizing students' practical exercises in higher schools are considered. The advantages of practical exercises, their forms and main elements are characterized. It is noted that practical exercises, as a rule, are a continuation of the lecture, ensure the application of acquired theoretical knowledge in life and practice, and form professional skills and habits in students. The article reveals that practical exercises should be created in*

*a creative direction, tasks selected for tasks should be methodologically justified, heuristic, problem-based training, research methods and relevant innovations should be widely used.*

***Açar sözlər:*** *praktik məşğələ, bacarıq, müəllim, tələbə, dərs*
***Ключевые слова:*** *практическое занятие, навык, учитель, ученик, урок*
***Key words:*** *practical training, skill, teacher, student, lesson*

Praktiki məşğələlər məqsədyönlü təlim növüdür. Praktiki məşğələlər əldə edilmiş biliklərin bilavasitə təkrar tətbiqi yolu ilə bilik və bacarıqlarının formalaşdırılması və inkişafını təmin edir. Praktiki məşğələ zamanı biliklər sistemləşdirilir, mühazirələrdə və müstəqil iş zamanı əldə edilmiş nəzəri biliklər dərinləşir və möhkəmləndirilir, peşə hazırlığı təkmilləşdirilir, bacarıqlar formalaşır. Humanitar və sosial-iqtisadi fənlərin öyrənilməsində praktiki məşğələlərdən istifadə edilməsi bir sıra hallarla bağlıdır. Birincisi, mütəxəssis hazırlığına yönəlmiş hər hansı bir təhsil sistemi müvafiq peşəkar əhəmiyyətli biliklərin, bacarıqların, davranış və hərəkətlərin vərdişlərinin formalaşmasına, inkişafına və korreksiyasına yönəldilmişdir. İkincisi, praktiki məşğələlər saatlara görə digər dərs növləri arasında mühüm yer tutur. Üçüncüsü, praktik məşğələlər prosesində nəzəri məşğələlərin həll edə bilmədiyi problemlər həll edilir, ən əsası isə biliklərin praktiki bacarıqlara çevrilməsidir. Dördüncüsü, praktiki məşğələlər zamanı, bir qayda olaraq, akademik fənnin nəzəri hissəsinin öyrənilməsi zamanı ciddi metodoloji səhvlər və pozuntular aşkar edilir. Təcrübəli məşğələlərdə tələbələrin tədris məlumatlarını təhlil etmək, elmi təfəkkürünü inkişaf etdirmək, yaradıcı müzakirədə fəal iştirak etmək, düzgün nəticə çıxarmaq, mübahisə etmək və öz fikirlərini müdafiə etmək bacarıqlarının formalaşdırılmasına diqqət yetirilir. Praktik məşğələlər apararkən biliyin psixologiya elmi tərəfindən müəyyən edilmiş bacarıq və qabiliyyətlərə çevrilməsi qanunauyğunluqlarını bilmək lazımdır. Onlar, ilk növbədə, müəyyən ardıcıllıqla bağlıdır: bilik, ilkin bacarıqlar, sadə bacarıqlar, mürəkkəb bacarıqlar.

Göstərilən ardıcıllıq pozularsa, bacarıqların keyfiyyətində uğursuzluqlar yarana bilər. Bu ardıcıllıqda əsas elementlər aşağıdakı kimi müəyyən edilir:

- Bilik obyektlər və reallıq haqqında əldə edilmiş məlumatların, anlayışların və fikirlərin məcmusudur.
- İlkin bacarıqlar: əldə edilmiş biliklərin praktikada müstəqil tətbiqidir.
- Sadə bacarıqlar şüurun idarəetmə funksiyasını qoruyarkən avtomatik olaraq yerinə yetirilən sadə texnika və hərəkətlərdir.
- Avtomatikliyə qədər öyrənilən mürəkkəb bacarıqlar - dəqiq, asan və tez yerinə yetirilən motor, sensor və zehni kompleks hərəkətlərdir.

- Kompleks bacarıqlar - gələcək peşə fəaliyyətinin davamlı dəyişən şəraitində bilik, bacarıqları yaradıcı şəkildə tətbiq etmək və istədiyiniz nəticəni əldə etmək bacarığıdır.

Bacarıqların formalaşdırılmasının ilkin şərti şagirdlərin vizual, eşitmə və fəaliyyət nümayişi yolu ilə müəyyən sinfin problemlərinin həllinin məntiqi və strukturunu başa düşmələrinə nail olmaqdır. Bacarıqlar o halda daha sürətli formalaşır və daha möhkəm saxlanılır ki, universitetdə onların dəstəklənməsi üçün düşünülmüş sistem, yəni sinifdənkənar fəaliyyət növlərinin kompleksi olsun. Məsələn, tələbələrin dərsdənkənar tədbirlərdə, konfranslarda, treninqlərdə və s. iştirak etməsi aid ola bilər. Praktiki məşğələlərin aparılması üçün bir çox mümkün metodik sxemlər arasında ən çox istifadə olunan formalar şərti olaraq təyin edilə bilən formalardır: fərdi, mikro səviyyəli, fərdi-qrup, ekspert, rol oyunu.

Fərdi formada dərslər aşağıdakı sxem üzrə aparılır. Müəllim qrupa müraciət edərək hər bir şagird üçün tapşırıq qoyur. Dərs iştirakçıları müstəqil olaraq, müəllimin verdiyi əmrə əsasən, problemi mərhələli şəkildə həll edirlər. Alınan nəticələr barədə məlumat verilir. Sonra müəllim bir neçə nəfərdən müsahibə alır. Hamısı düzgün cavab verərsə, o sual verir: "Başqa nəticələr varmı?" Əks halda, şagirdlərin hərəkətlərini düzgün qiymətləndirir. Onları bu tip problemlərin həlli üçün bir sxem yazmağa dəvət edir. Yanlış hesablamalar olarsa, müəllim səhvlərin səbəblərini öyrənir, şagirdlərin diqqətini onlara cəlb edir və onlardan ən yaxşı şəkildə necə qaçmaq barədə tövsiyələr verir.

Mikro səviyyəli forma - qrupun alt qruplara bölünməsini və onlara tapşırıqların verilməsini nəzərdə tutur. Alt qruplardakı tələbələr müəyyən edilmiş vaxt ərzində problemləri həll edirlər. Müəllim yarımqruplar üzrə işlərə nəzarət edir, şərhlər və dəqiqləşdirmələr aparır. Müəyyən edilmiş vaxtın sonunda müəllim alt qruplardan birinin nümayəndəsinə işin nəticələri haqqında hesabat vermək vəzifəsini qoyur. Hesabat zamanı digər alt qruplar ekspert, tənqidçi kimi çıxış edir və sonra öz həlli yollarını bildirir. Nəhayət, hər bir problemin ümumi həlli hazırlanır.

Fərdi-qrup şəklində - müəllim tələbələri ardıcıl olaraq bütün qrupla bir növ praktik hərəkəti əhatə edən rol funksiyalarını yerinə yetirməyə dəvət edir. Təyin olunmuş tələbə qrupa məqsədləri, işin yerinə yetirilməsi qaydasını izah edir və onları əsaslandırır. Qalan tələbələr bir mövzu kimi sorğu keçirmək təcrübəsi qazanırlar. Sonra digər sinif iştirakçıları tədqiqatçı rolunu qəbul edirlər. Hər bir tələbənin hərəkətləri kollektiv müzakirəyə məruz qalır.

Rol forması - müəllimin bir neçə tələbəyə gələcək peşəkar məqsədləri üçün rol oynama vəzifələri təyin etdiyini nəzərdə tutur. Yenilikçi müəllimlər dərslər zamanı rollu oyunlardan fəal şəkildə istifadə edirlər. Belə ki, dərslər aparılarkən şagirdlərə gələcək peşələri ilə bağlı müəyyən rollar həvalə edilir. Konkret tapşırıqlar tələbələrə gələcək peşə fəaliyyətində real çətinlikləri daha

yaxşı təsəvvür etməyə və onun problemlərini yaradıcı şəkildə həll etməyə imkan verir. Dərslər müəllimin rəhbərliyi altında həyata keçirilən fəaliyyətlərin ətraflı təhlili ilə başa çatır.

Ekspert forması - müəllim bir və ya bir neçə tələbəni ekspert təyin edir və qrupa bir qismini verir. İşi bitirdikdən sonra müəllimin əmri ilə ekspert baş verənlərə öz baxışını ifadə edir və bu tip peşəkar problemlərin həllini optimallaşdırmaq üçün tövsiyələr verir. Tələbələr praktiki tapşırıqları yerinə yetirərkən şəxsi təcrübəni, eləcə də tövsiyə olunan materiallarda təsvir olunan dünya təcrübəsini tam nəzərə almağa çalışmalıdırlar.

Praktiki dərs zamanı iki qrupdan olan tələbələrin rəqib kimi çıxış etdiyi, əvvəlcədən seçilmiş problem üzrə öz arqumentasiya və əks-arqumentasiya sistemini hazırlayan müzakirəsi təşkil olunur.

Təcrübəli müəllimlərin fəaliyyətində "konkret problemli vəziyyətlərin təhlili" metodu geniş yayılmışdır. Hazırlıq mərhələsində vəziyyətin mahiyyəti formalaşır, dərsin məqsədləri, yeri və vaxtı müəyyən edilir. Yazılı formada tələbələrə bir neçə təsvir edilmiş problemli vəziyyətlər verilir. Dərs zamanı aşağıdakılar həyata keçirilir: tələbələr tərəfindən sonrakı nəticələr və qərarın əsaslandırılması ilə vəziyyətin müstəqil təhlili; təhlilin nəticələri və vəziyyətin həlli yolları haqqında hesabat; təqdim olunan həllərin kollektiv müzakirəsi. Praktiki dərs keçirmək üçün müəllim metodiki işlənmə hazırlayır. Metodoloji inkişafda aşağıdakılar onun əsas elementləri kimi əks olunur:

- giriş hissəsində: dərsin aktuallığı və onun gələcək peşəkar fəaliyyət üçün əhəmiyyəti;
- dərsin məzmununun qısa təsviri;
- dərslərə hazırlığın yoxlanılması yolları və müəllimin mülahizəsinə əsasən digər suallar;
- əsas hissədə: tədris sualları və onlara ayrılan tədris vaxtı verilir;
- mənimsəniləcək tədris materialının məzmunu;
- praktiki işin idarə edilməsi üzrə müəllimə metodiki tövsiyələr;
- tələbələrin idrak fəaliyyətini artırmaq üçün tədris və maddi dəstək, üsul və vasitələrdən istifadə qaydası;
- nəzarət üsulları təhsil tapşırıqlarının yerinə yetirilməsi və s.;
- yekun hissədə: dərsin yekunlaşdırılması;
- qarşıya qoyulan məqsəd və vəzifələrə nail olma dərəcəsinin qiymətləndirilməsi meyarları;
- tələbələrin təhsil fəaliyyətinin qiymətləndirilməsi:
- müstəqil iş üçün tapşırıq: tövsiyə olunan ədəbiyyat siyahısı.

Rəhbər praktiki dərsin keçirilməsi üçün plan hazırlayır. Planda təhsil məqsədləri, tədris və maddi dəstək, dərslərin keçirilməsi qaydası müəyyən

edilir. Dərsin əvvəlində müəllim mövzunun əsas kateqoriyaları üzrə “giriş” nəzarəti keçirir və bir qayda olaraq, şagirdlərdən bir neçə məsələni həll etməyi tapşırır. Tapşırıqlar əvvəllər tələbələrə müstəqil iş üçün tapşırıqlar kimi təklif olunanlara oxşar olmalıdır. Tələbələrin gələcək peşə fəaliyyəti məsələlərinin həlli ilə tapşırıqların “bağlanmasından” istifadə etmək lazımdır. Cavablarda səhvlər olarsa, müəllim səhvlərin səbəblərini öyrənir, şagirdlərin diqqətini onlara cəlb edir və onların qarşısını almaq üçün tövsiyələr verir.

“Giriş” nəzarətini həyata keçirdikdən sonra müəllim praktiki dərsin əsas məsələləri üzərində işləməyə başlayır. Şagirdlər müstəqil iş zamanı təklif olunan tapşırıqları kifayət qədər dərindən işləmişlərsə, müəllim işgüzar oyun metodundan istifadə edərək dərsin əsas hissəsini keçirir. Bu halda, tədqiqat qrupu mikroqruplara bölünür, hər biri öz vəzifəsini alır. Tapşırığı yerinə yetirdikdən sonra hər bir mikroqrupun fəaliyyəti qiymətləndirilir. “Giriş” nəzarəti zamanı qrupun müstəqil iş üçün təyin edilmiş tədris materialını kifayət qədər mənimsəmədiyi ortaya çıxdısa, o zaman müəllim işgüzar oyunu mərhələlərlə, hər bir mərhələnin məzmununu daha ətraflı öyrənməklə aparır. Materialların mənimsənilməsinin nəticələrinin monitorinqi zamanı elektron test proqramlarından istifadə edilə bilər. Dərsi yekunlaşdırarkən müəllim şagirdlərin diqqətini həlli ən böyük çətinlik yaradan problemlərə yönəltməklə, tədris tapşırıqlarının yerinə yetirilmə dərəcəsini qısaca qeyd edir. Gələcəkdə hansı məsələlərə xüsusi diqqət yetirməli olduğunu müəyyən edir. Praktik dərsin strukturu fərqli ola bilər. Bir halda, əvvəlcə müəllimin özü müəyyən sinif məsələlərin həlli yollarını nümayiş etdirir, sonra oxşar məsələlərin həlli üçün məşqlər təşkil edir, başqa bir halda, tələbələr dərhal problemləri müstəqil həll etməyə başlayırlar, lakin zəruri hallarda müəllim izahatlar və məsləhətlər verir [1, s.164]. Praktiki dərs, bir qayda olaraq, mühazirələrdə nümunələri verilmiş tətbiqi məsələlərin həllidir. O, nəzəriyyə ilə təcrübə arasında əlaqəni təmin edir, tələbələrdə mühazirələrdə və müstəqil iş nəticəsində əldə etdikləri bilikləri tətbiq etmək bacarıq və vərdişlərinin inkişafına kömək edir. Mühazirə və praktiki məşğələ ciddi şəkildə vaxt baxımından növbələşməli və problemli vəziyyətlə metodik cəhətdən əlaqəli olmalıdır. Mühazirə tələbələri praktiki dərsə, praktiki dərsi isə növbəti mühazirəyə hazırlamalıdır.

Hər bir praktiki dərsdə hər bir müəllimin əsas vəzifəsi öz intizamını öyrətməklə yanaşı, şagirdə düşünməyi, standart və qeyri-standart məsələləri həll etməyi öyrətmək, müəyyən peşəkar əhəmiyyətli şəxsiyyət keyfiyyətlərini inkişaf etdirməkdir. Praktik məşğələlərin məqsədi ümumi peşə və xüsusi fənlər üzrə sonrakı təhsil fəaliyyəti üçün zəruri olan praktiki peşə və ya təhsil bacarıqlarının formalaşdırılmasıdır.

***Ədəbiyyat***

1. *Ф.В.Шарипов - Педагогика и психология высшей школы, Москва Логос 2012, 446 с.*
2. *М.Ю.Зеленков - Особенности организации тренировочных занятий, Москва - 2011, 109 с.*
3. *ТРУБИЛИНА - Факультет прикладной информации, Профиль преподавания, Методические средства педагогического опыта для подготовки магистрантов по направлению «Информационные системы и технологии», «Информационные системы и технологии в науке и управлении», Краснодар – 2017.*
4. *Mahmudova R. -Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları, Bakı,"Çaşıoğlu", 2005.*
5. *Kazımov N. -Ali məktəb pedaqogikası, Bakı - 1999, 458 s.*

**S.H.Bağırova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***bagirovaseadet01@gmail.com***

# ALİ MƏKTƏBLƏRİN ORTA ƏSRLƏR TARİXİNİN TƏDRİSİNDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMİNİN MAHİYYƏTİ

***Xülasə***

*Bu məqalədə ali pedaqoji təhsil müəssisələrində orta əsrlər tarixi kursu üzrə keçirilən seminar məşğələlərində yaradıcı təfəkkürün inkişaf etrilməsi probleminin mahiyyətinin əhəmiyyəti təhlil edilib. Yaradıcı təfəkkürün inkişafına təsir edən metodlardan istifadənin səmərəliyi işıqlandırılmışdır.*

# СУТЬ ПРОБЛЕМЫ РАЗВИТИЯ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ СРЕДНЕВЕКОВЬЯ В ВЫСШЕЙ ШКОЛЕ

***Резюме***

*В данной статье проанализирована важность сущности проблемы развития творческого мышления на семинарских занятиях, проводимых по курсу истории Средневековья в высших учебных заведениях. Подчеркнута эффективность использования методов, влияющих на развитие творческого мышления.*

# THE ESSENCE OF THE PROBLEM OF DEVELOPING CREATIVE THINKING IN THE TEACHING OF MEDIEVAL HISTORY IN HIGHER SCHOOLS

***Summary***

*This article analyzed the importance of the essence of the problem of developing creative thinking in the seminar sessions held on the medieval history course in higher educational institutions. The effectiveness of using methods affecting the development of creative thinking has been highlighted.*

***Açar sözlər:*** *yaradıcı təfəkkür, tənqidi təfəkkür, lahiyələr metodu, proqnozlaşdırma, metodika, psixologiya, təhsilalanlar*

***Ключевые слова:*** *креативное мышление, критическое мышление, метод проектов, прогнозирование, методология, психология, обучающиеся*

***Key words:*** *creative thinking, critical thinking, project method, forecasting, methodology, psychology, students*

Müasir dövrümüzdə qabaqcıl ölkələrin təhsilinə nəzər yetirsək, təlimdə uğurla aparılan islahatlar və təhsil alan tələbələrin müvəffəqiyyətli nəticələrini aydın şəkildə görə bilərik. Bütün bunlar yeni təlim texnologiyaları və üsullarının effektiv təsirinin göstəriciləridir. İstifadə olunan üsullardan ən faydalısı təfəkkürlə bağlı texnikalardır. Xüsusilə yaradıcı təfəkkürün həm orta, həm ali məktəblərdə təhsil alanların bacarıq və istedadlarının üzə çıxmasına imkan yaradır, onlarda idraki fəallığın inkişafını daimi olaraq təmin edir. Sovetlər dövründə təhsil ənənəvi olaraq keçirilirdi, bu isə sadəcə olaraq təhsil alanların tarix və digər elmləri dərindən mənimsəməsinə imkan vermir, nəticə olaraq əzbərçilik yaradırdı. Lakin Azərbaycan Respublikası Heydər Əliyevin rəhbərliyi ilə öz müstəqilliyini qazandıqdan sonra ölkənin bütün sahələri ilə bərabər təhsil sahəsində xüsusi islahatlar keçirildi. Bu gün Heydər Əliyevin təhsil strategiyası onun mütəşəkkil və bacarıqlı davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələ açmışdır" [1, s.16]. Bu əhəmiyyətli dövlət sərəncamını təhsil sahəmizin pedaqoji, metodoloji əsasını hesab edə bilərik. Sənəd ölkə prezidentinin gənclərin təhsil gələcəyinə və ümumilikdə dövlətin təhsil sisteminə olan diqqətini, qayğısını, təhsilə verdiyi dəyəri əks etdirir. İslahatların həyata keçirilməsi sayəsində pedaqoji sahəsinə yeniliklər gətirildi. Beləliklə, ənənəvi təlimdən uzaqlaşaraq şagird və tələbələrimizin keçirilən dərslərə marağını artıran, təhsil alanların dərslərdə daha fəal iştirakını təmin edən metodlardan, onların təfəkkürünü, təxəyyülünü, diqqət və hafizəsini, yaradıcılıq dünyasını aktivləşdirərək inkişafını təmin edən təlim texnikalarından istifadəyə keçid olundu.

Ali məktəblərdə Orta əsrlər tarixinin tədrisində keçirilən mühazirə və seminar məşğələlərində tələbələrimizin mövzulara dair məntiqi, tənqidi, yaradıcı yanaşmaları dərsin səviyyəsini yüksəltməyə xidmət etməklə yanaşı, həmçinin onları düşündürür, fikrən analiz, sintez edib dərsin məzmununu daha yaxşı qavrayırlar, bu zaman yoldaşlarının düşüncələrinə və ya mövzunun özünə tənqidi yanaşıb öz əks fərqli fikirlərini bildirir. Bunun özü isə artıq yaradıcılığı ortaya çıxarır, onlar öz fərziyyələrini irəli sürürlər. Nəticə etibarilə dərsin mənimsəmə prosesi dərindən aparılır və ortaya yeni fikirlər meydana çıxır. Azərbaycan tarixinin orta əsrlər dövrünə nəzər salsaq, görkəmli tarixi şəxsiyyətlərdən olan Şah İsmayıl Xətai'nin "Mərkəzləşmiş vahid Azərbaycan dövləti"nin birləşdirilməsində böyük xidmətləri olmuşdur. Bu mövzunu müasir dövrlə inteqrasiya etdikdə ali məktəblərdə təhsil alan tələbələr "44 günlük Zəfər tarixi" ilə müqayisə metodundan istifadə edərək başda ali komandan

İlham Əliyev olmaqla daha böyük qələbənin şahidi olurlar. Daha sonra təhsil alanlar bəhs olunan mövzu ilə bağlı layihə həyata keçirirlər.

Yaradıcı təfəkkürə yönəlmiş üsuldan biri elə lahiyələr metodudur. Bəs layihələr metodunun özü nədir?

"Layihə metodu, bu nəticələrin məcburi təqdimatı ilə tələbələrin müstəqil hərəkətləri nəticəsində müəyyən bir problemi həll etməyə imkan verən müəyyən bir təhsil və idrak üsulları toplusudur. Əgər layihə metodundan pedaqoji texnologiya kimi danışırıqsa, onda bu texnologiya yaradıcı xarakter daşıyan tədqiqat, axtarış, problem əsaslı metodlar toplusunu əhatə edir. Ümumiyyətlə, tədrisdə layihə metodu və ya problemin həlli metodu XX əsrin əvvəllərində təfəkkürün problemin həlli olduğunu müdafiə edən amerikalı dilçi C.Dyuinin əsərlərində işlənib hazırlanmışdır" [2].

Ali məktəblərdə Orta əsrlər tarixinin tədrisində tələbələr Şah İsmayılın Azərbaycan torpaqlarını birləşdirmək uğrunda apardığı mübarizə ilə III İvan Vasilyeviçin Rusiya torpaqlarını birləşdirməsində göstərdiyi səylər arasında oxşar və ya fərqli cəhətləri araşdırıb tarixi mənbələrə, faktlara müraciət edərək layihə hazırlaya bilərlər. Bu zaman müxtəlif təqdimat formaları vasitəsilə nümayiş edirlər. Sonda hazırlanmış layihələrin müzakirəsi aparılır. Layihələrin hazırlanması tələbələrdə yaradıcılığı, zehni, idraki fəaliyyəti hərəkətə keçirir və onların bacarıqlarını ortaya çıxarır. Yaradıcı təfəkkürün inkişafı üçün tələbələr xüsusi zəmində yeni layihə qurmağı, yaradıcı şəkildə düşünməyi öyrənməlidir. Ən əsas şərt odur ki, təsilalanlar müstəqil halda axtarışlar aparmalıdır, bununla da onlarda tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi, layihə üçün iş üsullarının azad seçməsi, təqdimatın onların özlərinin seçdiyi ardıcıllıqla göstərilməsinə verilən imkanlar onların yaradıcılıq azadlığı ilə bağlıdır.

Yaradıcılığı ortaya çıxaran kifayət qədər üsullar var. Təhsil sahəsində üstünlük verilən yaradıcılığa yönəlmiş digər texnika proqnozlaşdırmadır. Professor Mübariz Əmirov kitabında proqnozlaşdırma texnikasını aşağıdakı kimi ifadə etmişdir.

Proqnozlaşdırma

Proqnozlaşdırma - gələcəyə proqnozların qurulması.

《Nə olardı, əgər...》 (proqnozlaşdırma) (cütlərdə aparılır)

1. Günəş itsə nə olardı?
2. İştirakçılar məktəbdə oxumasalar nə olardı?
3. Çəkməli pişik yalnız özü haqqında fikirləşsə, pəhləvan isə xeyirxah olsa idi nə olardı? Bu mövzuda inşa yazmaq və ona şəkillər çəkmək [3, s.473].

Ali məktəblərdə seminar məşğələlərində Şah İsmayıl Xətai'nin "Siz nə istəyirsiniz, Azərbaycan taxt-tacını, yoxsa "Gülüstan" qalasını?" [4, s.52] işlətdiyi bu cümlə ətrafında fikir mübadiləsi aparsaq, o zaman proqnozlaşdırma belə olacaq:

Şah Xətai Təbrizi deyil, Gülüstan qalasının alınmasını seçsəydi, hadisələr necə cərəyan edərdi?

Bir digər sual əgər məşvərətdə qızılbaş əmirləri şahla eyni fikirdə olmasaydılar nə olardı?

Müəllimlər proqnozlaşdırmanı verdikdən sonra ümumiləşdirmə aparıb nəticəyə gəlirlər. Yaradıcı düşünməyə təsir edən amillər kifayət qədər çoxdur. Biz bunları sadalayanda müasir texnologiyalardan bəhs etmədən keçə bilmərik. Əgər keçmiş təlimlə yeni təlimi müqayisə etsək, ən böyük fərqlərdən birinin də informasiya mübadiləsinin sürətlə dövran etdiyi müasir texnologiyalar olduğunu görərik.

Şeirlər, hekayələr, şəkillər, maketlər və s. bir sözlə yaradıcı əsərlər yaradıcı təfəkkürün texnikalarına daxildir. Tələbələr bununla öz bilik və bacarıqlarını nümayiş etdirirlər. Bilirik ki, metodika, pedaqogika, psixologiya bir-birləri ilə əlaqəlidir. Psixologiyada yaradıcılıq ilə bağlı Rusiya psixoloqu S.L.Rubinşteyn yaradıcılığa belə bir tərif vermişdir: "Yaradıcılıq insanın xüsusi növ fəaliyyəti olub ictimai əhəmiyyəti olan maddi və mənəvi dəyərlərin yaradılması prosesidir. Yaradıcılıq da mahiyyət etibarı ilə idrakdır. Yaradıcılığa sadəcə olaraq idrakdır demək də azdır. Ona görə ki, hər cür idrak fəaliyyəti elə insanın fəallığıdır. Yaradıcılıq insanın fəallığının xüsusi formasıdır" [5, s.330].

İstedadın başlıca şərtlərini Ə.Ə.Əlizadə yaradıcı təfəkkürdə görür. O qeyd edir ki, "İstedadlı uşaqların qəribə koqnitiv üslubu var. Onlar adi bir şeydə qeyri-adilik görür, rastlaşdıqları problemləri ağlagəlməz və qeyri-formal yollarla həll edirlər" [6, s.316].

Azərbaycan dövlətinin gələcəyi onun bilikli, bacarıqlı, kreativ düşünən gənclərinə bağlıdır. Bu məqsədlə təhsil sahəsində müəllimlərdən bilik verməklə yanaşı əldə olunan bilikləri tətbiq edən və yeni bilgiləri kəşf edib lahiyələr ortaya çıxaran tələbələrin yetişdirilməsi tələb olunur. Bu da aydın olduğu kimi yaradıcı tənqidi, məntiqi bütövlükdə desək, təfəkkürün aktiv fəaliyyətinə dayanır.

**Nəticə:** Məqalədə çoxsaylı tədqiqatçıların fikir və müddəalarına istinad edərək Ali təhsil müəssisələrində Orta əsrlər tarixinin tədrisində yaradıcı təfəkkürün inkişafının əhəmiyyəti üzə çıxarılmışdır.

**Mövzunun aktuallığı:** Orta əsrlər tarixinin tədrisində yaradıcı təfəkkürün inkişaf etdirilməsi probleminin mahiyyətini və yaradıcılığa təsir edən metodların əhəmiyyəti qeyd olunub. Mövzu kifayət qədər araşdırılmadığına görə bir çox tədqiqatçının diqqət mərkəzindədir.

**Məqalənin elmi yeniliyi:** Yaradıcı təfəkkürün inkişafı ilə bağlı probleminin təhlilində aydın oldu ki, bu mövzu təhsil sahəsində tələbələrin idrak fəallığının inkişafına motiv yaradır.

**Məqalənin praktiki əhəmiyyəti:** Məqalədən ali və orta ümumtəhsil məktəblərdə müəllimlər və tələbələr elmi fəaliyyətlərində yararlana bilər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Əsərləri, Cild: 90. Sayı: 4, 2023.*
2. *Метод проектов как прогрессивная педагогическая технология. https://study-english.info/ict-projects.php*
3. *Mübariz Əmirov. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlim metodikası. Bakı - 2014.*
4. *Oktay Əfəndiyev "Azərbaycan Səfəvilər Dövləti". Bakı – 2007.*
5. *Prof. S.İ.Seyidov və prof. M.O.Həmzəyev. Psixologiya /Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı – 2007.*
6. *Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. - Bakı: ADPU, 2006.*

**S.M.Əlirzayev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seyyadelirza@gmail.com***

# PEŞƏ-İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN YARADICI DÜŞÜNCƏ TƏRZİ

***Xülasə***

*Məqalədə yaradıcı təfəkkürün mahiyyəti və strukturu aydınlaşdırılır, burada yaradıcı təfəkkür qeyri-standart fəaliyyət metodlarından istifadəyə və orijinal ideyalar yaratmaq bacarığına əsaslanan subyektiv yeni bir şeyin yaradılması prosesi kimi başa düşülür, yaradıcı təfəkkürün strukturu yaradıcılığın hər bir mərhələsində hansı problemlərin həll olunduğuna əsasən müəyyən edilir.*

*Tələbələrin yaradıcı təfəkkürünün formalaşması üçün zəruri olan pedaqoji şəraiti: tələbələrin ehtiyac-motivasiya sferasının yenilənməsi; problemli təlim prosesində yaradıcı məsələlərin həlli alqoritmini və layihə metodunu mənimsəmək; əsasən kiçik qrup təhsili; müəllimin yaradıcılıq fəaliyyətini təşkil etməyə psixoloji və pedaqoji hazırlığı; təlim prosesində tələbələrin əks etdirmə mövqeyinin inkişafı müəyyən edilir.*

# ТВОРЧЕСКОЕ МЫШЛЕНИЕ СТУДЕНТОВ В ПРОФЕССИОНАЛЬНО-СПЕЦИАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Резюме***

*В статье уточняется сущность и структура творческого мышления, где под творческим мышлением понимается процесс создания чего-то субъективного нового, основанный на использовании нестандартных методов деятельности и умении генерировать оригинальные идеи, структура творческого мышления определяется исходя из того, какие задачи решаются на каждом этапе творчества.*

*Педагогические условия, необходимые для формирования творческого мышления учащихся: обновление потребностно-мотивационной сферы учащихся; освоение алгоритма и метода проекта решения творческих задач в процессе проблемного обучения; преимущественно малогрупповое обучение; психолого-педагогическая готовность педагога к организации творческой деятельности; определяется развитие рефлексивной позиции учащихся в процессе обучения.*

# CREATİVE THİNKİNG OF STUDENTS İN VOCATİONAL EDUCATİON İNSTİTUTİONS

***Summary***

*The article clarifies the essence and structure of creative thinking, where creative thinking is understood as a subjective process of creating something new based on the use of non-standard methods of activity and the ability to generate original ideas, the structure of creative thinking is determined based on what problems are solved at each stage of creativity.*

*Pedagogical conditions necessary for the formation of creative thinking of students: updating the need-motivation sphere of students; mastering the algorithm and project method of solving creative issues in the process of problem learning; mainly small group education; psychological and pedagogical readiness of the teacher to organize creative activity; the development of students' reflective position in the learning process is determined.*

***Açar sözlər:*** *peşə məktəbləri, yaradıcı düşüncə, yaradıcılıq, peşə hazırlığı, yaradıcı təfəkkür*

***Ключевые слова:*** *профессиональные училища, творческое мышление, креативность, профессиональная подготовка, творческое мышление*

***Key words:*** *vocational schools, creative thinking, creativity, professional training, creative thinking*

Müasir cəmiyyətin inkişafında texnoloji tərəqqi nəticəsində baş verən qlobal addım istənilən sənaye sahəsində rəqabətqabiliyyətli mütəxəssisin formalaşmasında təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. Bu halda əsas vəzifə peşəkar həyat prosesində yaranan problemlərin və vəziyyətlərin həllinə qeyri-standart yanaşmaların işlənib hazırlanması və təşkilidir.

İndi təhsil müəssisələri şagirdlərin sistemli təfəkkürünün, yaradıcılıq fəaliyyətinin və müstəqilliyinin inkişafına yönəlmiş prinsipial yeni vəzifələr qoyurlar. Peşə-ixtisas təhsili müəssisələrində mütəxəssis hazırlığında əsas şey hazır biliklərin mənimsənilməsi deyil, məzunlarda müstəqil bilik əldə etməyə və ondan yaradıcı şəkildə istifadə etməyə imkan verən idrak üsullarını mənimsəmək bacarığının inkişafıdır.

İstənilən kadr hazırlığı sahəsində gələcək mütəxəssislərin yaradıcı təfəkkürünün inkişafı peşə təhsilin uğurlu fəaliyyətinin göstəricisidir. Təhsil paradiqmalarının dəyişməsi prosesləri, təlimə şagirdyönümlü yanaşmanın tətbiqi, müəllim və şagird arasında qarşılıqlı əlaqənin subyekt-subject aspektini vurğulayan pedaqoji texnologiyaların işlənib hazırlanması modelləri fonunda bu vəzifə daha da aktuallaşır. Yaradıcılıq potensialına malik, yaradıcı işdə özünü həyata keçirə bilən mütəxəssisin hazırlanmasına sosial sifariş də xüsusi əhəmiyyət verir.

Bu baxımdan, hər bir tələbənin yaradıcılıq qabiliyyətlərini qorumaq və inkişaf etdirmək üçün nəzərdə tutulmuş peşə təhsilin xüsusi rolu var. Tələbələrin yaradıcı təfəkkürünün təbiətinin öyrənilməsi, peşə-ixtisas təhsili müəssisələrində hazırlıq prosesində onun formalaşması mexanizmlərinin və şərtlərinin müəyyən edilməsi alimlərin diqqətini cəlb etməkdə davam edir.

M.İ.Meeroviç və L.İ.Şragina görə: "Müasir cəmiyyətin şəxsiyyətdə yaradıcı düşüncə tərzinin sabit komponentlərini formalaşdıran intellektual və psixoloji inkişaf sisteminə ehtiyacı var. İntellektual sistem kimi bu düşüncə tərzinin əsas xüsusiyyəti hər hansı bir problemi təhlil etmək, sistemli əlaqələr qurmaq, ziddiyyətləri müəyyən etmək, onların ideal səviyyədə həll yollarını tapmaq, belə həll yollarının işlənməsinin mümkün variantlarını proqnozlaşdırmaq və s. [4]

Yaradıcı təfəkkür dedikdə, bayağı fikirlərdən istifadə etmədən, çərçivədən kənar düşünmə qabiliyyətini başa düşəcəyik, halbuki düşüncə prosesi daxili motivin meydana çıxması nəticəsində baş verməli və yaranmış problemin həllində şəxsi maraq göstərməlidir.

Təhsil müəssisəsinin tələbələri müəyyən şəxsiyyət keyfiyyətlərinə malik olmalıdırlar: dəyişən həyat vəziyyətlərinə çevik uyğunlaşmalı, lazımi bilikləri müstəqil əldə etməyi bacarmalı, onları praktikada məharətlə tətbiq etməli, məlumatla bacarıqla işləməli, lazımi ümumiləşdirmələr, nəticələr çıxarmalı, nümunələr yaratmalı, təhlil etməli, müstəqil tənqidi düşünmək, yeni ideyalar irəli sürmək, yaradıcı düşünmək, öz mənəviyyatını, intellektini, mədəni səviyyəsini inkişaf etdirmək üzərində işləmək, müxtəlif sosial qruplarda ünsiyyətcil olmaq, müxtəlif sahələrdə birgə işləməyi bacarmaq, istənilən münaqişədən asanlıqla çıxa bilmək.

Bu baxımdan, tədris prosesinin xüsusi təşkilini, məzmununa, təlim məşğələlərinin təşkili formalarına müəyyən metodik yanaşma tələb edən yaradıcılıq qabiliyyətlərinin inkişafı probleminin praktiki işlənməsinə ehtiyac var.

Yaradıcı təfəkkürün formalaşması yaradıcı fəaliyyət prosesində, yəni idrak marağı tələb olunduqda, şəxsi ehtiyacı həyata keçirmək və ya şəxsi məna ehtiva edən peşəkar problemi həll etmək üçün praktiki hərəkətlər həyata keçirildikdə mümkündür.

Beləliklə, peşə-ixtisas təhsili müəssisələrində tələbələrdə yaradıcı təfəkkürün inkişafı üçün ən yaxşı vasitə tədqiqat fəaliyyətidir. Tədqiqat fəaliyyəti bir və ya bir neçə tədqiqat əməliyyatında həll edilməli olan yaradıcılıq və tədqiqat problemlərinin həllinə yönəlmiş fəaliyyətdir.

A.V.Xutorskinin fikrincə, yaradıcılıq - "bir-biri ilə əlaqəli qabiliyyətlərin bütün sistemlərini - elementlərini özündə cəmləşdirən inteqrativ qabiliyyətdir. Məsələn, yaradıcılıq qabiliyyətləri təxəyyül, assosiativlik, fantaziya, xəyalpərəstlikdir" [5].

Peşə-ixtisas təhsili müəssisələrində tələbələrin yaradıcı təfəkkürün inkişafına yönəlmiş tədqiqat fəaliyyətini həyata keçirərkən müəllim əqli fəaliyyətin təşkilatçısıdır. Bu o deməkdir ki, müəllim tədqiqat fəaliyyəti prosesində tələbələrdə yaradıcı təfəkkürün aktivləşməsi və tələbatı üçün situasiya və şərait yaratmalıdır. Belə tədqiqat fəaliyyətlərinin təşkili üçün bəzi tələbləri qeyd edək:

1. Fəaliyyət prosesində tələbənin şüurlu şəkildə yeni və orijinal ideyalar irəli sürmək üçün səy göstərməsi zəruridir.
2. Əgər tələbə ilk cəhddə səhvə yol verirsə, o zaman onun səhv fikrini əsaslı şəkildə təhlil etmək və ona başqa variantları nəzərdən keçirməyi və ya yeni tədqiqat üsullarını sınamağı təklif etmək lazımdır.
3. Müzakirə üçün şərait yaratmaq, "həqiqət mübahisədə doğulur" devizini xatırlatmaq lazımdır.
4. Təklif olunan problemin həlli üçün irəli sürülən fərziyyələrin və hərəkətlərin praktiki sınaqdan keçirilməsinə şərait yaratmaq lazımdır.
5. Fəaliyyət prosesində tələbə planlaşdırılmamış nəticə əldə edərsə, o zaman onun diqqətini fəaliyyət nəticəsində və ya ehtimal irəli sürmə prosesində baş verə biləcək izahat və ya xətanın axtarışına cəlb etmək lazımdır.
6. Tələbənin diqqətini alınan və gözlənilən tədqiqat nəticələrinin uyğunluğuna yönəltmək lazımdır.

Qeyd etmək lazımdır ki, peşə-ixtisas təhsili müəssisələrində tələbələrin peşəkar əhəmiyyətli keyfiyyətlərini inkişaf etdirmək texnologiyası aşağıdakı hallarda səmərəli şəkildə həyata keçirilə bilər:

- peşə təhsili müəssisəsinin gələcək məzununun peşə və yaradıcılıq fəaliyyətinin, peşə əhəmiyyətli keyfiyyətlərinin, belə fəaliyyətin həyata keçirilməsi üçün zəruri olan şəxsi xassələrinin təhlilinə əsaslanır;
- tələbələrin peşə fəaliyyətinə maraq və qabiliyyətlərinin öyrənilməsi əsasında;
- təlimin məzmununun müəyyən edilməsini (fundamental və xüsusi biliklərin optimal balansının müəyyən edilməsini) əhatə edir;
- təlimə layihə əsaslı və şəxsiyyətyönümlü yanaşma əsasında həyata keçirilir (təlimin təşkilati formalarının, tədris metodlarının və müstəqil işin seçilməsi, müasir tədris vasitələrinin tətbiqi);
- daxiletmə, cari və yekun nəzarət (monitorinq) üsulları sisteminə malikdir;
- rahat öyrənmə mühiti təmin edir [8].

Peşə-ixtisas təhsili müəssisələrində gələcək mütəxəssislərin hazırlanmasının humanitar səviyyəsini yüksəltməklə yanaşı, tələbələrdə yaradıcı təfəkkürün inkişafına da kömək edir. Tələbələr gələcək peşə fəaliyyətlərində qeyri-standart yanaşma tələb edən problemli situasiyaların

həlli zərurəti ilə üzləşəcəklər. Bu cür problemlərin effektiv həlli yaradıcı fəaliyyətdə müəyyən təcrübə olmadan mümkün olmayacaqdır.

Problemli təlimdə təlim prosesi təbii təfəkkür prosesinə yanaşır, tələbələrdən yüksək əqli fəallıq tələb edir, onların müstəqil yaradıcı fəaliyyət qabiliyyətini formalaşdırır.

Bu baxımdan, təfəkkür idrak prosesi kimi ən çox təhsil prosesində inkişaf etməlidir. Bundan əlavə, bir proses olaraq düşünmə müəyyən mərhələlərə malikdir, bunlardan ən vacibləri: problemli vəziyyətin yaranması, problemin qoyulması, problemin həlli və icrası. Bütün bu təfəkkür mərhələləri təlim fəaliyyəti prosesində fərd tərəfindən inkişaf etdirilməli və həyata keçirilməlidir.

Tələbələrin yaradıcı təfəkkürünün mühüm komponenti problemin həllini tapmaq ehtiyacının olmasıdır. Təhsil subyektlərinin baxılan vəzifəyə şəxsi münasibəti yenilənmədən belə bir ehtiyac yaranmaya bilər. Bu mənəvi ehtiyac təkcə özlüyündə deyil, şagirdlərin özünə hörmətini artırır, həm də onlara problemin həlli yollarını müqayisə etmək, seçmək və əsaslandırmaq imkanı verir.

Tələbələrin yaradıcı təfəkkürünün belə bir komponentinin hadisələrin tənqidi qavrayışının mövcudluğu kimi rolu əhəmiyyətlidir. Bu baxımdan həm hüquqi vəziyyətin özünün reallığını, həm də onun dərk edilməsinin mümkün variantlarını müzakirə etmək cəhdləri dəstəklənməlidir. Belə bir təhsil tapşırığı müəllim vəziyyəti başa düşmək üçün aydınlaşdırıcı suallar verdikdə, eyni hadisəyə müxtəlif qiymətlər verdikdə mümkün olur.

Gələcək mütəxəssislərin tənqidi təfəkkürünün inkişafının bu komponentləri təhsil prosesində tam şəkildə həyata keçirilə bilər. Eyni zamanda, tələbələrin yaradıcı təfəkkürünün inkişafının prosessual tərəfi peşə təhsilinin məzmun tərəfinə uyğun olmalıdır.

Deməli peşəkar öz müqəddəratını təyinetmə prosesində tələbələrin yaradıcı təfəkkürünün xüsusiyyətlərinin öyrənilməsi zamanı yaradıcı təfəkkürlə peşəkar öz müqəddəratını təyinetmə arasındakı əlaqələr empirik olaraq müəyyən edilmiş və nəzəri cəhətdən əsaslandırılmış, yaradıcı təfəkkür parametrləri, yaradıcı təfəkkürün inkişaf səviyyəsi ilə tələbələrin akademik nailiyyətləri arasında peşəkar öz müqəddəratını təyinetmə komponentləri təhlil edilmiş və əsas psixoloji amillər müəyyən edilmişdir.

Bir insanın peşə tələblərinə uyğunluğu əmək məhsuldarlığında səmərəliliyin və müvəffəqiyyətin təminatıdır, eyni zamanda peşəkar və şəxsi rifahın təminatıdır.

Əsas vəzifələrdən biri şagirdlərə öz qabiliyyətlərini tam nümayiş etdirmək, təşəbbüskarlıq, müstəqillik və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməkdir. Bu tapşırığın müvəffəqiyyətlə həyata keçirilməsi əsasən tələbələrin yaradıcılıq fəaliyyətinin artırılması üçün metod və üsullardan

istifadə edilməsindən asılıdır. Onlar çox müxtəlifdir və tədris prosesində geniş tətbiq olunur.

Yaradıcı təfəkkürün inkişafı metodologiyası aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- fəaliyyət - hər hansı bir fəaliyyət prosesində hər hansı inkişaf baş verir;
- fərdilik - nəzərə almaq lazımdır ki, hər bir uşağın fərdi xüsusiyyətləri ona öz qabiliyyətlərini yalnız müəyyən hüdudlarda məşq etməyə imkan verir;
- ardıcıllıqlar - ən sadələrdən başlayaraq, onları mənimsədikcə onları tədricən çətinləşdirən məşqlər təklif etməlisiniz;
- mərhələ-mərhələ - bacarıqları inkişaf etdirmək üçün təlim fəaliyyətlərinə təlimlər daxil edin, növbəti mərhələyə başlayanda əvvəlkini keçə bilməzsiniz;
- psixoloji rahatlıq - uşaq öz uğursuzluqlarını hiss etməməlidir;
- müəllim, valideynlər və psixoloji xidmət arasında əməkdaşlıq.

Yaradıcı təfəkkürün inkişafı üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

- tədris üslubunda ənənəvilikdən, məişətdən, monotonluqdan qaçınmaq;
- həddən artıq işdən və məşq yükündən qaçınmaq;
- koqnitiv maraqların stimullaşdırılmasından istifadə etmək;
- müxtəlif üsullarla (illüstrasiyalar, oyunlar, krossvordlar, zarafat problemləri, əyləncəli məşqlər) idrak maraqlarını stimullaşdırmaq;
- əqli fəaliyyət və tərbiyə işinin texnikalarını xüsusi öyrətmək, tədrisin problem-axtarış metodlarından istifadə etmək.

Beləliklə, şagirdlərdə öyrənmə üçün müsbət motivasiya formalaşdırmaq lazımdır ki, bu da bilik əldəetmə prosesində könüllü səylərin təzahürünü, mahiyyət etibarilə uşağın idrak fəaliyyətinin inkişafıdır.

Peşə hazırlığının ilkin mərhələsində tələbələrin yaradıcı təfəkkürü ilə peşəkar öz müqəddəratını təyinetmə arasında əlaqələrin tədqiqi yaradıcı təfəkkürlə peşəkar özünütəyinetmənin ümumi səviyyəsi, həmçinin yaradıcı təfəkkür və peşəkar öz müqəddəratını təyinetmə səviyyəsi arasında statistik əhəmiyyətli əlaqələrin peşəkar öz müqəddəratını təyinetməni operativ şəkildə təmin edən tənzimləyici xarakterli şəxsi keyfiyyətlərin mövcudluğunu göstərdi. Burada, yaradıcı təfəkkür fərdi peşəkar öz müqəddəratını təyinetmə tərzinin formalaşmasını təmin edən əsas keyfiyyət hesab edilə bilər.

Yuxarıda deyilənləri ümumiləşdirərək deyə bilərik ki, qeyd olunan məsələlər kifayət qədər işlənib hazırlansa da, müasir təhsil nəzəriyyəsi və praktikasında peşə-ixtisas təhsili müəssisələrində tələbələrinin yaradıcı təfəkkürünün formalaşdırılması problemi psixoloji-pedaqoji tədqiqatlarda lazımi şəkildə öz əksini tapmamışdır.

Beləliklə, tədqiq olunan sahədə pedaqoji elmin vəziyyətinin təhlili peşə-ixtisas təhsili müəssisələrində tələbələrinin yaradıcı təfəkkürünün formalaşmasına sosial və peşə ehtiyacı ilə bu məsələnin elmin nəzəriyyə və

praktikasında kifayət qədər inkişaf etdirilməməsi arasındakı ziddiyyəti müəyyən etməyə imkan verdi.

Yaradıcılıq imkanlarının formalaşdırılmasının yol və vasitələrinin nə nəzəriyyə, nə də elm, ümumiyyətlə, dərk etmədiyini söyləmək düzgün olmazdı. Belə yol və üsulların elmi qurulması tempinin onlara olan tələbatın artım tempinə uyğun olmadığını söyləmək daha düzgün olardı. Nəticə etibarilə, yaradıcılıq mexanizmləri haqqında bilik əldə etmək üçün artıq məlum olan üsul və üsullar əsasən öz fundamental imkanlarına malikdir. Yaradıcılıq pedaqogikasının vəzifəsi sırf yaradıcılığa çevrilir: yaradıcılıq problemlərinin tədqiqi sahəsində müasir vəziyyətin unikallığına uyğun gələn orijinal, gözlənilməz həllərin axtarışını tələb edir.

***Ədəbiyyat***


1. *Mədədov P.Y., Eminov A. Pedaqogika və Evrologiya. Bakı - "Gənclik" – 2014.*
2. *Дахин, А. Компетенция и компетентность: сколько их у российского школьника? / А.Дахин // Народное образование. - 2004. - № 4. - С. 136-137.*
3. *Гриб О.О., Ребро И.В., Мокрецова И.С. Формирование креативного мышления у студентов в процессе исследовательской деятельности // Успехи современного естествознания. – 2012. – № 5. – С. 98-99;*
4. *Меерович М.И. Технология творческого мышления: практическое пособи / М.И.Меерович, Л.И.Шрагина. - Минск: Харвест, 2003. - С. 15-19.*
5. *Хуторской А.В. Развитие одаренности школьников: Методика продуктивного обучения: Пособие для учителя. - М., 2000.*
6. *Хуторской, А.В. Индивидуализация и профильность обучения в старшей школе / А.В.Хуторской // Интернет-журнал «Эйдос». - 2003.*
7. *Философский энциклопедический словарь. - М., 1983.*
8. *Лебедева Ю.Л. Креативность как профессионально важное качество студентов специальности «дизайн». «Науки об образовании». Омск 2007.*

https://cyberleninka.ru › article › kreativnost-kak-prof.

9. *Щадриков, В.Д. Новая модель специалиста: инновационная подготовка и компетентностный подход / В.Д.Шадриков // Высшее образование сегодня. - 2004.-№8.-С. 27-31.*

**X.K.Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***xumar.huseynova.97@gmail.com***

# MƏKTƏBƏHAZIRLIQ QRUPLARINDA ƏXLAQ TƏRBİYƏSİNİN APARILMASI ÜZRƏ İŞLƏRİN TƏŞKİLİ

***Xülasə***

*Tərbiyənin əsas və ən önəmli, özəyini təşkil edən tərkib hissəsi əxlaq tərbiyəsidir. Uşaqların şəxsiyyət kimi formalaşmasında əxlaq tərbiyəsinin böyük rolu vardır. Əxlaq tərbiyəsi ilk növbədə ailədə daha sonra təhsilin bünövrəsi olan məktəbəqədər təhsil müəssisəsində inkişaf etdirilir. Əxlaq tərbiyəsi məktəbəqədər təhsil müəssisələrində həm təlim fəaliyyətində, həm ekskursiyalar, həm də gəzintilərdə aparılır. Məşğələ və ekskursiyalar, uşaqlara əxlaqi dəyərləri, normaları öyrətməyə kömək edir və onların mənəvi inkişafına təsir edir.*

# ОРГАНИЗАЦИЯ РАБОТЫ ПО ПРОВЕДЕНИЮ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ В ДОШКОЛЬНЫХ ГРУППАХ

***Резюме***

*Главной и важнейшей составляющей воспитания является нравственное воспитание. Нравственное воспитание имеет большую роль в формировании ребенка как личности. Нравственное воспитание развивается прежде всего в семье, а затем в дошкольном образовательном учреждении, которое является основой воспитания. Уроки и экскурсии помогают привить детям моральные ценности и нормы и повлиять на их нравственное развитие.*

# ORGANIZATION OF WORK ON CONDUCT OF MORAL EDUCATION IN PRE-SCHOOL GROUPS

***Summary***

*The main and most important component of education is moral education. Moral education has a great role in the formation of children as a personality. Moral education is developed first of all in the family and then in the preschool educational institution, which is the foundation of education. Lessons and excursions help teach children moral values and norms and influence their moral development.*

***Açar sözlər:*** *uşaq, tərbiyə, əxlaq*
***Ключевые слова:*** *ребенок, воспитание, нравственность*
***Key words:*** *child, upbringing, morals*

Əxlaq tərbiyəsi tərbiyənin ən əsas tərkib hissələrindən biridir. Əxlaq ictimai şüurun ən qədim forması olmaqla insanların həm cəmiyyətə, həm də bir-birinə olan münasibətlərini nizamlayır.

Uşaqların şəxsiyyət kimi formalaşmasında əxlaq tərbiyəsinin böyük rolu vardır. Əxlaq tərbiyəsi ilk növbədə ailədə daha sonra təhsilin bünövrəsi olan məktəbəqədər təhsil müəssisəsində inkişaf etdirilir. Əxlaq tərbiyəsi məktəbəqədər təhsil müəssisələrində həm təlim fəaliyyətində, həm ekskursiyalar, həm də gəzintilərdə aparılır.

Biz uşaq tərbiyəsindən danışarkən onlarda əxlaqi keyfiyyətlərin formalaşmasını önə çəkirik. Çünki bir uşaqda əxlaqi keyfiyyətlər formalaşdırdıqda həmin uşaq həm ətraf aləmə, həm cəmiyyətə, həm də Vətənə, torpağa qarşı layiqli bir övlad olur. Biz bu gün hər bir uşağı gələcəyin bir şəxsiyyəti, əsgəri, həkimi, müəllimi, mühəndisi sayırıq, təbii ki, onların düzgün tərbiyəsi də ilk olaraqda tərbiyəçi-müəllimdən asılıdır.

Uşağın əxlaq tərbiyəsinə ilk olaraq vətənpərvərlik tərbiyəsi aiddir ki, burada uşaqlara Ana Vətən, atributlarımız, şəhidlərimiz, dinimiz, dilimiz və s. bu amillər öyrədilməlidir.

Biz tərbiyənin tərkib hissəsindən danışarkən həmişə əxlaqi söhbətlərin aparılmasını vacib bilmişik. Hələ uşaq bağçada olan zaman tərbiyəçi-müəllim uşağa bir nağıl oxuyur, həmin nağıldakı mənfi obrazlarla müsbət obrazları qarşılaşdırır, uşaqlarda mərhəmət, humanizm hissləri aşılayır.

Əxlaq tərbiyəsinin formalaşdırılması, həm də insanların cəmiyyətdə düzgün davranmağı öyrətmək məqsədi ilə həyata keçirilir.

Əxlaq tərbiyəsi tərbiyənin elə bir sahəsidir ki, onu ictimai mühit, cəmiyyət olmadan qiymətləndirmək olmaz. Yəni, əxlaq - cəmiyyətdə insanlararası və ətraf aləmə qarşı münasibətləri tənzimləyən keyfiyyətlərin cəmidir. Əxlaq anlayışına geniş yanaşdıqda həm milli, həm də ümumbəşəri dəyərlərin məcmusu kimi xarakterizə etmək olar. Məktəbəqədər təhsil müəssisələrində əxlaq tərbiyəsi zamanı bir sıra vəzifələr yerinə yetirilir:

1. Uşaqlarda mənəvi davranış, hiss və vərdişlərin formalaşdırılması;
2. Vətənpərvərlik tərbiyəsi - öz vətəninə sevgi, məhəbbət və məsuliyyət hissinin formalaşdırılması;
3. Öz davranış və fəaliyyətinə görə şəxsi məsuliyyət hissinin tərbiyəsi;
4. Uşaqlarda yüksək əxlaqi şüurun tərbiyəsi və s.

Məktəbəqədər təhsilin əsas vəzifəsi uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq bütün pedaqoji prosesin nəticəsi kimi yüksək əxlaqi hisslərə malik insanın meydana gəlməsinə, onun mənəvi duyğularının, mənəvi iradəsinin, vicdanının, sosial davranış vərdişlərinin formalaşmasına xidmət edir. Məktəbəhazırlıq yaş dövründə uşaqlarda əxlaqi hisslər və təsəvvürlər məzmununa görə yeni mahiyyət daşıyır. Vətən, yaşlıların əməyi, təbiət, ictimai hadisələr və s. haqqında uşaqların təsəvvürləri xeyli genişlənir.

Bu yaş dövründə tərbiyəçi-müəllim və valideynlər uşaqlarda müsbət kefiyyətləri xarakter formasında möhkəmləndirilməlidirlər.

1. Məktəbəhazırlıq yaş qrupunda uşaqların Vətən haqqında anlayışa və biliyə malik olmaları təmin olunmalıdır;
2. Dövlətin himni, bayrağı, gerbi, sərhəddi, müstəqilliyi haqqında aydın və mühüm anlayışlar yaradılmalıdır;
3. Vətənimizin təbii sərvətləri (bitki, heyvanat aləmi, suları, iqlimi və s.) haqqında müvafiq biliyə malik olmalıdırlar;
4. Xalqımız və adət-ənənələrimiz haqqında məlumatları olmalıdır;
5. Məktəbəhazırlıq yaş qrupunun uşaqları dahi klassiklərimiz Nizami, Füzuli, Xətai, A.Səhhət, S.Vurğun və b. və müasir şair və yazıçılar haqqında məlumata malik olmalıdırlar;
6. Öz xalqının milli-mənəvi dəyərləri (tarixi, dili, dini, mənşəyi, musiqisi, incəsənəti və s.) haqqında sadə məlumatlara malik olmalıdırlar.

Əxlaq tərbiyəsi bir şəxsin mənəvi inkişafını və sosial münasibətlərini formalaşdırmağa kömək edir. Bu, bir şəxsin insanlara hörmət etməsi, xeyirxah davranmağı öyrətməsi və digər insanlarla pozitiv münasibətlərinin inkişaf etdirilməsi ilə əlaqəlidir.

Əxlaq tərbiyəsinin təlim fəaliyyətində formalaşdırılması daim tərbiyəçi-müəllimlər üçün maraqlı olmuşdur.

Əxlaq tərbiyəsinin formalaşdırılması üçün istifadə olunan konkret işlərin hansı dəyərləri təmsil etdiyi tərbiyəçi-müəllim tərəfindən müəyyənləşdirilir və bu dəyərlərin təlimin məqsədində uyğunluğu qiymətlənirilir.

Əxlaq tərbiyəsinin formalaşdırılması üzrə işlərin aparılması təlimin tərbiyəedici funksiyasının tərkib hissəsi kimi problemin elmi pedaqoji ədəbiyyatda təhlili bir çox tədqiqatlar və elmi məqalələr əsasında aparılmışdır.

Bu mövzuda aparılmış tədqiqatlar, məktəbəqədər müəssisələrdə, məktəblərdə əxlaq tərbiyəsi üçün təlimin təşkil edilməsinin mərhələrini və problemlərini təhlil edir.

Bundan əlavə ailə mühitində aparılan əxlaq tərbiyəsi şəxsiyyətin inkişafında mühüm rol oynayır.

Məşğələ və ekskursiyalar, əxlaq tərbiyəsinin formalaşdırılması üçün effektiv və maraqlı bir yol təşkil edir.

Məşğələ və ekskursiyalar, uşaqlara əxlaqi dəyərləri, normaları öyrətməyə kömək edir və onların mənəvi inkişafına təsir edir.

Tərbiyəçi-müəllimlər ekskursiyalar vasitəsilə uşaqları müəyyən bir yerə getməyə dəvət edərək, onları yeni məkanda, məsələn, muzeylərdə, tarixi məkanlarda səyahət etməklə əxlaq tərbiyəsin formalaşdırmaq olar. Ekskursiyalar zamanı tərbiyəçi-müəllimlər uşaqlara tarixi məkanlar barədə məlumat verir, uşaqlarda təhliletmə bacarığı inkişaf etdirilir.

Uşaqlarda bir sıra əxlaq tərbiyəsi mövzularını təcrübə etmək üçün rollu oyunlar təşkil edilir. Uşaqlar müxtəlif rollu oyunlar vasitəsilə hər hansı bir situasiyada doğru və yanlışı ayırd edə və problem həll etməyi öyrənə bilər. Bu onların əxlaq tərbiyəsinin formalaşdırılmasına kömək edir.

Məşğələ zamanı və ekskursiyalar vaxtı uşaqlarla əxaq tərbiyəsi mövzuları üzərində müzakirələr təşkil edilir. Bu, onların fikirlərini paylaşmağı və başqalarının fikirlərini eşitməyini təmin edir. Bu onların əxlaq dəyərlərini anlamağa və müzakirə etməyə kömək edir. Məşğələlər uşaqların əxlaqi dəyərləri və normaları öyrənmək üçün ideal bir yoldur. Əxlaqi tərbiyəni formalaşdırmaq üçün məşğələ zamanı uşaqlara hekayələr oxunur, bu uşaqlara əxlaqi normaları hekayələr vasitəsilə öyrətməyə imkan verir.

Məşğələlər böyük və məktəbəhazırlıq qruplarında əxlaq tərbiyəsinin formalaşdırılmasında interaktiv və maraqlı bir yoldur. Uşaqlar öz müşahidə və təcrübələri vasitəsilə əxlaq tərbiyəsi prinsiplərini daha yaxından tanımaq və öyrənmək imkanına sahib olurlar.

Ekskursiyalar uşaqlarda əxlaq tərbiyəsinin formalaşdırılması üçün maraqlı və effektiv bir vasitədir. Ekskursiyalar, uşaqlara əxlaqi dəyərləri, insan haqlarını, hörməti, mənəvi normaları öyrətməyə kömək edir.

**Mövzunun aktuallığı:** İstər ənənəvi, istərsə də yeni təlim üsulunda dəyişməyən məsələlərdən biri böyük və məktəbəhazırlıq qruplarında uşaqlarda əxlaq tərbiyəsini düzgün və səmərəli formalaşdırmaqdır. Hər dövr üçün uyğun olan məşğələ və ekskursiyalar prosesində əxlaq tərbiyəsini inkişaf etdirmək olar.

**Məqalənin elmi yeniliyi:** Məqalədə məşğələ və ekskursiyaların əxlaq tərbiyəsinin formalaşdırılmasına müsbət təsiri elmi olaraq göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Tədqiqatdan əldə olunan nəticə haqqında deyə bilərik ki, böyük və məktəbəhazırlıq qruplarında əxlaq tərbiyəsinin formalaşdırılması zamanı məşğələ və ekskursiyalardan istifadə onlarda əyani və praktik şəkildə öz biliklərindən istifadə etmə və yeni bilikləri qazanmağa kömək edir.

***Ədəbiyyat***

1. *Paşayev. Ə, Rüstəmov. F., Pedaqogika, Bakı – 2017.*
2. *Cəfərli. H. Uşaq bağçasında əxlaq tərbiyəsinə dair iş təcrübəsindən. Bakı: Maarif, 1968.*
3. *Əliyeva. Ş., Məktəbəqədər pedaqogika, Bakı – 2011.*
4. *Səlimxanova. X. Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasında şifahi xalq yaradıcılığı nümunələrinin təsiri (böyük qruplarda) Ped.elm.nam.dis, Bakı -1989 (s.159).*
5. *İsmixanov. M., Pedaqogikanın əsasları, Bakı – 2003.*

**F.N.Abbaslı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fatimeabbasli22@gmail.com***

# ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞINDA PSİXOLOJİ MONİTORİNQİN ROLU

***Xülasə***

*Müasir dövrdə təhsil həyatında psixoloji vəziyyət önəmli yerlərdən birini tutur. Psixoloji vəziyyət kimi psixoloji xidmət və onun monitorinqi məsələləri də təbii ki, öyrənilməsi zəruri olan mövzulardan biridir. Psixoloji xidmətin monitorinqi zamanı biz görürük ki, bu proses birbaşa olaraq şagirdlərin idrak fəaliyyətinə təsir edir. Psixoloji vəziyyət şagirdlərin idrak fəaliyyətinə birbaşa təsir göstərdiyi üçün, monitorinq də məhz bu mövzuya xidmət edir. Bu səbəbdəndir ki, psixoloji vəziyyətin monitorinqinə yüksək diqqət göstərilməlidir. Xüsusilə də son illərdə bu sahəyə olan maraq və diqqət əvvəlki illərə nisbətən daha da artmışdır.*

# РОЛЬ ПСИХОЛОГИЧЕСКОГО МОНИТОРИНГА В ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧЕНИКОВ

***Резюме***

*Психологическое состояние занимает одно из важных мест в образовательной жизни в современную эпоху. Конечно, вопросы психологической службы и ее мониторинга, а также психологического состояния. Это один из предметов, которые необходимо изучать. Во время мониторинга психологической службы мы видим, что этот процесс напрямую влияет на познавательную деятельность учащихся. Поскольку психологическое состояние оказывает непосредственное влияние на познавательную деятельность учащихся, мониторинг служит именно для этой цели. По этой причине большое внимание следует уделять наблюдению за психологическим состоянием. Особенно в последние годы интерес и внимание к этой области возросли даже больше, чем в предыдущие годы.*

# THE ROLE OF PSYCHOLOGICAL MONITORING IN THE COGNITIVE ACTIVITY OF STUDENTS

***Summary***

*İn modern times, the psychological condition occupies one of the most important places in educational life. The issues of psychological sevice and its monitoring, such as psychological condition, are of course one of the topics that need to be discussed. During the monitoring of the psychological service, we see that this*

*process directly affects the cognitive activity of the students. Since the psychological state has a direct effect on the students' cognitive activity, monitoring serves this very purpose. For this reason, high attention should be paid to monitoring the psychological state. Especially in recent years, the interest and attention to this field has increased even more than in the previous years.*

***Açar sözlər:*** *ümumtəhsil, məktəb, psixoloji xidmət, monitorinq, şagird, idrak fəallığı*

***Ключевые слова:*** *общее образование, школа, психологическая служба, мониторинг, ученик, познавателная деятельность*

***Key words:*** *general education, school, psychological service, monitoring, student, cognitive activity*

Təhsil müasir sivilizasiyamızın ən hərəkətverici qüvvəsidir. Belə ki, istənilən sahənin inkişafı birbaşa təhsillə əlaqədardır. Lakin təhsil təkbaşına müəyyən nəticəni verməyəcəkdir. Bunun üçün təhsillə birlikdə təhsilalanların psixoloji vəziyyətini araşdırmaq da lazımdır. Çünki psixoloji vəziyyəti mümkün qədər aydın olan şagird təhsildən daha çox yararlanacaqdır. Bunun üçün təhsil müəssisələri üçün psixoloqlar təhkim olunmuşdur ki, bu məsələlərə daha çox diqqət ayrılsın. Lakin bu məsələ ancaq psixoloqların işi deyil. Müəllimlər, valideynlər və digər təhsil işçiləri də bu işlərlə yaxından maraqlanmalı öz köməyini əsirgəməməlidirlər. Şagirdin inkişafını ölçmək üçün müəyyən işlər görmək və bundan sonrakı prosesin necə qurulacağı haqqında planlı olmaq psixoloji xidmətin əsasını təşkil edir.

Məktəbdə psixoloji monitorinq təhsil müəssisələrində psixoloji dəstəyin effektivliyini qiymətləndirmək və yaxşılaşdırmaq üçün əhəmiyyətli bir alətdir. Bu monitorinq şagirdlərin psixoloji dəstəyə verdiyi reaksiyaları, dəstəyin onlara təsiri, müdaxilələrinin effektivliyi kimi məsələləri ölçmək üçün istifadə olunur.

İdrak fəallığı məktəbdə psixoloji monitorinqin nəticələrini anlamaq, müəssisələrdə şagirdlərin psixoloji dəstəyə cavab verməsini qiymətləndirmək üçün önəmlidir. Bu, şagirdlərin məktəb təhsili dövründə psixoloji dəstəyə necə reaksiya verdiklərini, onların mənfi hisslərini azaldıb-azaltmamaqda və ya öyrənmə prosesinə qarşı motivasiyasında hansısa dəyişikliklər olduğunu müəyyənləşdirmək üçün lazımlıdır. İdrak fəallığı insanların dünyanı görmə, anlama, təfəkküretmə və məlumatları emaletmə qabiliyyətidir. Psixologiya bu idrak fəallığını anlamaq, təhlil etmək və insanların davranışları, hissləri, düşüncələri və mənəviyyatı üzərində təsirə sahib olmaq üçün bir alətdir.

Psixoloji monitorinq tədbirləri məktəbdə psixoloji dəstəyin effektivliyini artırmağa kömək edərək, şagirdlərin psixoloji tələblərinə uyğun şəkildə dəstək almasına imkan yarada bilər. Bu da onların məktəb təhsili

dövründə daha müvəffəqiyyətlə öyrənmələrini və mənəvi sağlamlıqlarını artırmağa kömək edir. Psixologiya idrak fəallığını tədqiq etmək və anlamaq üçün fərqli tədqiqatlar və metodlar istifadə edir. Bu, insanların mənəvi və psixoloji proseslərini anlamağa kömək edərək, onların davranışlarını və reaksiyalarını daha yaxşı anlamağa imkan verir. Psixoloji dəstək idrak fəallığına dair bir sıra məsələlərə baxır. Məsələn, koqnitiv psixologiya insanın məlumatları qəbuletmə, yaddaş prosesləri və problem həlletmə gücünü anlamaq üçün tədqiqatlar aparır. Emosioal psixologiya isə insanların hisslərini, emosiyalarını və onların davranışlara təsirini anlamağa çalışır. Bu cür tədqiqatlar və məlumatlar insanların idrak fəallıqlarını formalaşdırmaq və təkmilləşdirmək üçün psixologiya sahəsində əhəmiyyətli təsirə malik olur.

Əgər şagirdlərin psixoloji vəziyyəti haqqında bir analiz lazımsa, bu məsələ ciddi və kompleksdir. Geniş bir psixoloji təhlil etmək üçün şagirdlərlə müsahibələr aparmaq, psixoloji testlər və anketlər tətbiq etmək və onların davranışlarını müşahidə etmək vacibdir. Şagirdlərin öyrənmə mərhələləri, sosial münasibətləri, özünə güvəni, motivasiyası və stresləri daxil olmaqla bir çox fərqli amillərə diqqət yetirmək lazımdır. Bunun üçün geniş bir analiz üçün profesionallar və təcrübəli psixoloqlar tərəfindən tədqiqat və müşahidələr lazım olur.

Məktəbyaşlı uşaqların idrak fəallığı onların dünyanı görmə, anlama, məlumatları qəbuletmə və emaletmə qabiliyyətidir. Psixoloji monitorinq bu yaş dövründəki uşaqlara idrak fəallığını qiymətləndirmək, anlamaq və yaxşılaşdırmaq üçün əhəmiyyətli bir alətdir. Psixoloji monitorinq tədbirləri, məktəbdəki uşaqların mənəvi və psixoloji sağlamlıqlarını qiymətləndirməyə kömək edir. Bu tədbirlər uşaqların davranışlarını, reaksiyalarını, öyrənmə proseslərini və mənəviyyatlarını anlamaq üçün müxtəlif metodlar istifadə edir.

Psixoloji xidmətin göstərilməsi üçün psixoloq əvvəlcə öz işi haqqında plan qurmalıdır. Bu plan qurularkən o psixoloji dəstək göstəriləcək şagirdi öncədən araşdırmalıdır. Çünki ayrı-ayrı şagirdlərin psixoloji vəziyyətləri arasında çox böyük fərqlər mövcuddur. Bu fərqlər özünü daha yaş məsələlərində göstərir. Şagirdlərin yaş qrupları arasında psixoloji durumda fərqliliklər onların təhsil sahəsində də özünü göstərir. Bu fərqliliklərə nəzər yetirək.

Şagirdlərin psixoloji diaqnostikası üçün, onların davranışlarını, emosional və sosial məqamlarını qiymətləndirmək məqsədilə müxtəlif yollar mövcuddur. Psixoloji testlər, anketlər, müşahidələr və müsahibələr əsaslı diaqnostik vasitələr olaraq istifadə olunur. Bu test və anketlər şagirdlərin mənəviyyatını, mədəniyyətini, öyrənmə qabiliyyətlərini və sosial münasibətlərini qiymətləndirməyə kömək edir. Psixoloji diaqnostikada mütəxəssislərin, psixoloqların və məktəb psixoloqlarının müvafiq təcrübəsi və

bilikləri vacibdir. Bu proses, şagirdlərin müraciət etdiyi məsələləri anlamaq və onlara yardım etmək üçün əhəmiyyətli olur.

Müasir dövrdə psixologiyada inkişafın dövrləşdirilməsində 6-10 yaş aralığı kiçik məktəbli dövrü və ya ibtidai təhsil səviyyəsi adlanır. Bu zaman şagirdlərin fizioloji inkişafı sürətlə davam edir, onlar tez boy atır, çəki alırlar. Eyni zamanda onlar ilk dəfə məktəb, müəllim və şagirdlərlə əlaqəyə girirlər deyə adaptasiya olmaqda çətinlik çəkə bilərlər. Bəzi şagirdlərdə bu adaptasiya prosesi çətin keçir və onlar məktəbə gəlmək və oxumaq fikrindən daşınmaq istəyirlər. Bu zaman psixoloq onları məktəbə uyğunlaşdırmaq üçün bəzi işləri görməlidir:

- Adaptasiya məşqləri;
- Məktəbə uyğun oyunlar;
- Sinif qaydalarının birlikdə hazırlanması;
- Yuxarı siniflərlə tanışlıq;
- Mükafatlandırma və təşəkkür sistemindən istifadə etmək;
- Motivasiya vermək.

Məktəbə yeni başlayan uşağın əsas fəaliyyət növü təlim olur, o, əməkdaşlıq və kommunikasiya bacarıqlarına yiyələnir, bilik öyrənir və bu bilikləri bacarığa çevirir. Bütün bu proseslər bizim üçün sadə görünsə də, məktəbə təzə qədəm qoymuş uşaqlar üçün bunlar böyük zəhmət tələbə edən işlərdir. Bu işlərin yerinə yetirilməsində əziyyətlə qarşılaşan şagirdlərdə depresiya, nevroz, stres, travma kimi bir sıra zərərli nəticələr baş verə bilər. Bu da onların təlim nailiyyətlərinin azalmasına səbəb olacaqdır. Bu yaşlı şagirdlərdə görmə və eşitmə üzvləri daha yaxşı inkişaf etdiyi üçün bu yolla gələn məlumatlar onları daha çox maraqlandırır. Eyni zamanda diqqətin bir növü olan qeyri-ixtiyari diqqət öz dominant səviyyəsini nümayiş etdirir. Bu səbəbdəndir ki, şagirdlər xaricdən gələn qıcıqlara daha tez reaksiya verə bilirlər. Günlük iş planlarının düzgün qurulmaması da şagirdlərin təlim fəaliyyətinə mənfi təsir edən amillərdən biridir. Kiçik yaşlı uşaqlarda hafizənin qeyri-ixtiyari növü öz birinciliyini saxlayır. Bu zaman onlar al-əlvan, maraqlı, şəkilli, rəngli məlumatları daha yaxşı yadda saxlaya bilirlər. İbtidai səviyyənin ilk illərində, yəni I-II siniflərdə şagirdlərdə əzbərçilik qabiliyyəti yüksək olur. Bu hal valideyn və müəllimləri narahat etsə də, bu tam normal bir hal hesab edilir. Sonralar hesab, oxu, yazı kimi bacarıqlara yiyələnən şagird əzbərçilikdən uzaqlaşır. Bu yaşlı şagirdlərdə qavrayış yaxşı inkişaf etmiş olur. Lakin yeni öyrəndiyi bəzi məlumatları qarışdıra bilər. Onlar daha çox ümumiləşdirmə, qruplaşdırma, müqayisə kimi yollardan istifadə edirlər. Onların apardıqları ümumiləşdirmələr daha çox zahiri xarakter daşıyır. Bu yaşlı şagirdlərdə emosional hafizə inkişaf etdiyindən onlar obrazlı məlumatları daha

yaxşı dərk edir və yadda saxlayır. Bu səbəbdəndir ki, rollu oyunlar və simulyativ xarakterli iş üsulları onların marağını daha çox cəlb edir.

Növbəti yaş qrupu isə yeniyetməlik yaş dövrüdür. Bu dövr 10 yaşdan 14-15 yaşa kimi olan şagirdləri əhatə edir. Lakin bu yaş formal xarakter daşıyır. Yeniyetməlik dövrü individual olduğu üçün ayrı-ayrı şagirdlərdə yaş fərqinə səbəb olur. Müxtəlif amillər təsir göstərdiyi üçün bu dövr gec və ya tez təzahür edə bilər. Yeniyetməlik dövrü kiçik və böyük olmaqla 2 yerə bölünür. Bu 2 dövr arasında belə böyük fərqlər özünü göstərir. Psixoloji ədəbiyyatlarda "böhranlı dövr", "çətin dövr" adlandırdığımız dövr məhz bu dövrdür. Bu dövrdə uşaqların bədənlərində çox böyük dəyişikliklər özünü göstərir. Təbii ki, bu proseslər onun psixoloji durumundan da yan keçmir. Bəzən bədəndə baş vermiş dəyişikliklər uşaqlar tərəfindən xoş qarşılanmır. Bu zaman onlar bu haldan narahat olur və hətta depresiyaya düşə bilərlər. Bu hal isə birbaşa olaraq təlim və təhsil sisteminə təsirsiz ötüşmür. "Məktəb nevrozları" adlandırılan şagirdlərin əksəriyyəti də məhz bu yaş qrupuna aid olan şagirdlərdir. Bu zaman onlar çox həssas olur. Kiçik hərəkətlərdən əsəb keçirə, tez həyəcanlana bilirlər. Bu zaman bəzi şagirdlər öz müəllimlərinə və valideynlərinə daha çox bağlanır, bəziləri isə öz hüquqlarının müdafiəsinə qalxır. Nəticədə müəllimə və valideynə baş qaldırmaqda ittiham olunur. Bu kimi vəziyyətlərdə psixoloq həm şagirdlə, həm də valideyni ilə daim maraqlanmalı və onlara öz məsləhətlərini verməlidir.

Böyük məktəb yaşlı uşaqlar psixoloji arenada özünəməxsus yer tutur. Belə ki, biz onların artıq gənc olduqlarının fərqinə varmalıyıq. Bu yaşlı şagirdlər artıq özlərini böyümüş hiss edirlər və psixologiyalarını bu yöndə dəyişdirirlər. Onlar dünyanı dəyişdirəcək gücə malik olduğuna inanır, romantik hisləri özünü büruzə verir, məsuliyyət hissləri aşılanır, əməkdaşlıq, kommunikasiya kimi bacarıqları daha da inkişaf edir. Bu dövr onların öz peşəsini, sənətini seçməsi kimi mühim prosesləri özündə əks etdirir. Psixoloji vəziyyətin bu yolda böyük əhəmiyyəti vardır. Belə ki, tam, aydın düşünməyə qadir olan şagird öz gələcəyinin hansı peşədə olmasını, nəyə marağının olmasını dərk edir. Bu yolda psixoloq, müəllim və valideynlərin böyük rolu var. Çünki bəzən valideynlər ixtisasını seçməkdə şagirdlərə dəstək göstərmək əvəzinə onları nəyəsə məcbur edirlər. Nəticədə yanlış ixtisas seçimi edən şagird ya universitet həyatını hədər edir, ya da istəmədiyi, sevmədiyi işdə işləməyə məcbur olur. Bu kimi halların baş verməməsi üçün müəllimlər, xüsusilə də psixoloqlar şagird və valideynlərlə mütəmadi əlaqədə olmalıdırlar. Bəzi hallarda isə şagirdlərin fikrində müəyyən düşüncələr olsa da, onlar hansı ixtisasa yiyələnəcəkləri barədə dəqiq qərar verə bilmirlər. Eynilə bu halda da psixoloq və müəllimlər şagirddə olan bacarıq və bilikləri araşdırıb, üzə çıxarıb onlara yol göstərməlidirlər.

İdrak fəallığının artırılması üçün fərqli psixoloji xidmətlər mövcuddur:

1. Nevropsixoloji testlər və qiymətləndirmələr: Beyin fəallığı və idrak prosesləri ilə bağlı testlər vasitəsilə müşahidələr və qiymətləndirmələr aparılır. Bu, zehni işləmə və yaddaş funksiyalarını qiymətləndirmək üçün istifadə olunan prosedurlar tətbiq edir;
2. Koqnitiv davranış terapiyası: Bu terapiya nevropsixoloji fəaliyyəti gücləndirən, idrak proseslərini təkmilləşdirən və davranışları dəyişdirən mənbələr tətbiq edir;
3. Oyun terapiyası: Bu, uşaqlar və gənclər üçün idrak fəallığını artırmaq və müəyyən məsələləri həll etmək üçün oyunlar vasitəsi ilə məşğulluq tədbirlərinin tətbiqi deməkdir;
4. Konsentrasiya və diqqət təlimləri: İdrak fəallığını artırmaq üçün, diqqəti yaxşılaşdırmaq və konsentrasiyanı təkmilləşdirmək məqsədilə təlimlər təklif olunur;
5. Ətraflı məsləhət: Psixoloqlar və nevropsixoloqlar, fərdin özünə xüsusi məsləhətlər və təlimlər təklif edərək, idrak fəallığını artırmağa kömək edir.

Hər bir fərdin ixtiyarına, müraciət etdiyi problemin xüsusiyyətlərinə və öhdəliklərinə görə uyğun psixoloji xidmətlərdən istifadə etmək əhəmiyyətlidir.

Beləliklə, bütün məktəb yaşlı şagirdlərin müəyyən dərəcədə psixoloji dəstəyə ehtiyacı vardır. Düzdür bu dəstək fərqli məqamlarda, fərqli xüsusiyyətlərdə özünü göstərir. Lakin unutmamaq lazımdır ki, şagirdlər özlərini nə qədər böyük və ağıllı göstərmək istəsələr də, onların daim nəzarətə və köməyə ehtiyacı vardır.

***Ədəbiyyat***

1. *Nuriyev S., İbrahimova D. Təhsildə sosial-psixoloji xidmət. Bakı, Elm və təhsil, 2016.*
2. *Allahverdiyev R. Məktəb psixoloqu. Bakı - 2003.*
3. *Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmət I hissə. Bakı -2008, 280 s.*
4. *Çələbiyev N.Z. Təhsildə psixoloji xidmət II hissə. Bakı - 2009, 329 s.*
5. *Əliyev R.İ. Məktəbdə psixoloji xidmətin aktual məsələləri. Bakı -2004, 80 s.*
6. *Güləliyeva İ. Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması. Bakı – 2020.*
7. *Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının sosial psixoloji məsələləri. Bakı - 2012.*
8. *https://aak.gov.az/upload/dissertasion/ped/ped_n_rmt_24_05_16.pdf*

**M.F.Cümşüdova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*jumshudovaminura@gmail.com*

# TƏHSİL SİSTEMİNDƏ QİYMƏTLƏNDİRMƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Təhsil sistemində qiymətləndirmə təlim prosesində, şagirdlərin məhsuldarlığında və məlumatlılığında mühüm mərhələdir. Bu proses şagirdlərin necə öyrəndiyini, nə öyrəndiyini və hansı sahələri təkmilləşdirməli olduqlarını müəyyən etməyə kömək edir. Qiymətləndirmə təlim prosesində mərhələlərin, təcrübənin və dəyişikliklərin yaxşı təhlilini göstərməklə şagirdin inkişafı haqqında dəyərli məlumat verir. Bundan əlavə, qiymətləndirmə tədris metodlarının və proqramlarının effektivliyini qiymətləndirməyə kömək edir və təhsilin keyfiyyətini yüksəltməyə imkan verir. Qiymətləndirmə prosesi şagirdlərin güclü və zəif tərəflərini müəyyən edir və onların öyrənmələrini təkmilləşdirmək üçün təhsil prosesini müvafiq qaydada tənzimləyir. Ümumiyyətlə, təhsil sistemində qiymətləndirmə tədris və təlimin səmərəliliyinin yüksəldilməsi, inkişafın nəzərdən keçirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün mühüm amildir.*

# ЗНАЧЕНИЕ ОЦЕНИВАНИЯ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

***Резюме***

*Оценивание в системе образования является важным этапом процесса обучения, продуктивности и информированности учащихся. Этот процесс помогает определить, как учащиеся учатся, чему они учатся и какие области им необходимо улучшить. Оценка предоставляет ценную информацию о развитии учащихся, предоставляя хороший анализ этапов, опыта и изменений в процессе обучения. Кроме того, оценивание помогает оценить эффективность методов и программ обучения и позволяет повысить качество образования. Процесс оценки выявляет сильные и слабые стороны учащихся и соответствующим образом корректирует процесс обучения для улучшения их обучения. В целом оценивание в системе образования является важным фактором повышения эффективности преподавания и обучения, анализа развития и улучшения качества образования.*

# IMPORTANCE OF ASSESSMENT IN EDUCATIONAL SYSTEM

***Summary***

*Assessment in the educational system is an important stage in the learning process, in the productivity and awareness of students. This process helps determine*

*how students learn, what they learn, and what areas they need to improve. Assessment provides valuable information about learner development by providing a good analysis of stages, experience and changes in the learning process. In addition, evaluation helps to evaluate the effectiveness of teaching methods and programs and allows to improve the quality of education. The assessment process identifies students' strengths and weaknesses and adjusts the learning process accordingly to improve their learning. In general, assessment in the education system is an important factor for improving the efficiency of teaching and learning, reviewing development and improving the quality of education.*

***Açar sözlər:*** *təhsildə qiymətləndirmə, təhsilin nəticələri, nəticəyə yönəlik qiymətləndirmə, təhsilin səviyyəsinin qiymətləndirilməsi*

***Ключевые слова:*** *оценка в образовании, результаты образования, оценка, ориентированная на результат, оценка уровня образования*

***Key words:*** *assessment in education, results of education, result-oriented assessment, assessment of the level of education*

Məktəblərdə şagirdlərin nailiyyətlərinin və təhsilin səviyyəsinin qiymətləndirilməsi dövlət tərəfindən müəyyən edilmiş meyarlara uyğun aparılır. Qiymətləndirmənin və keyfiyyətin müəyyən edilməsinin bu mərhələsi monitorinq vasitəsilə həyata keçirilir. Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi və onların inkişaf səviyyələrinin monitorinqi məktəb təcrübəsinin mühüm komponentləridir.

Monitorinq prosesi şagirdlərin irəliləyişlərini qiymətləndirmək, əldə edilmiş nailiyyətləri qiymətləndirmək və gələcək potensial inkişafları proqnozlaşdırmaq üçün vaxtaşırı həyata keçirilir. O, məlumatların obyektiv və ədalətli şəkildə toplanmasına zəmanət verir və həmçinin müəyyən nöqtədən sonra şagird və müəllim performansının necə dəyişdiyini nümayiş etdirə bilir.

Tədris prosesi boyunca şagirdlərin tərəqqisini və nailiyyətlərini nümayiş etdirmək üçün əldə edilmiş məlumatların olması çox vacibdir. Bu məlumatlar həm pedaqoqa, həm də şagirdə təlim prosesinə olan nöqsanları görməyə və resurslarını daha effektiv idarə etməyə kömək edir.

Monitorinq prosesi obyektiv məlumatların toplanması və onun şagird nailiyyətlərinə və tədrisin keyfiyyətinə təsirinin qiymətləndirilməsi üçün mühüm alətdir. Bu, təlimin inkişafını təmin etmək və fəaliyyətlərin effektivliyini artırmaq üçün xüsusi dəyərə malikdir [3, s.29].

Şagirdlərin materialı başa düşdüklərini səmərəli şəkildə nümayiş etdirmələri təlim prosesi üçün çox vacibdir. Qiymətləndirmə təhsilin məqsəd və standartlara cavab verib-vermədiyini müəyyən etmək üçün çox vacib prosesi həyata keçirir. Bu, şagirdlərin bacarıqlarını və əhatə olunan materialın düzgünlüyünü qiymətləndirmək üçün vacibdir.

Təlim prosedurunun effektivliyini müəyyən edən mühüm komponent qiymətləndirmədir. Bu, əldə edilmiş bilik və bacarıqları qiymətləndirmək, eləcə də təlim metodlarının və təlim prosesinin effektivliyini müəyyən etmək üçün çox vacibdir. Qiymətləndirmə təlim prosesinin təşkilinə, mövzunun daha yaxşı qavranılmasına və bütün təlim məqsədlərinə nail olunmasına kömək edir. Bundan əlavə, qiymətləndirmə tədris və təlim prosesində dəyişiklikləri stimullaşdırır. Şagirdlərin öyrənməsini asanlaşdıran innovativ təlim məqsədləri yaratmağa və həyata keçirməyə imkan verir.

Müasir dövrün şagirdləri təkcə fundamental oxu və riyaziyyat bacarıqlarını deyil, həm də dünya ilə əlaqəli mürəkkəb bacarıqları əldə etməlidirlər. Bu, tənqidi əsaslandırma, təhlil və nəticə çıxarma kimi praktiki bacarıqların inkişafını zəruri edir. Müəllimlər qiymətləndirmə məqsədlərinin və qiymətləndiriləcək mövzunun müəyyən edilməsində fəal iştirak etməlidirlər [9].

Təhsilin qiymətləndirilməsi müasir təhsil sistemində ən əhəmiyyətli və müzakirə olunan mövzulardan biridir. Qiymətləndirmə prosedurları və metodologiyalarının əhəmiyyəti getdikcə artır, çünki onlar şagirdlərin öyrənməsini təkmilləşdirmək üçün müxtəlif baxış və yanaşmaları dəyərləndirən və özündə birləşdirən mədəniyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda təhsilin qiymətləndirilməsi ilə bağlı məqalələr və materiallar bu sahədə ən son inkişafları, maneələri və qərarları təfərrüatlandırır. Məqalələr qiymətləndirmə üsulları, koqnitiv tələb səviyyələri, alternativ qiymətləndirmə metodları, summativ və formativ qiymətləndirmələr kimi geniş mövzuları əhatə edir.

Qiymətləndirmə formaları müəyyən bir şagirdin qavramasını, biliklərin mənimsənilməsini və bacarıqlarının inkişafını qiymətləndirən strukturlaşdırılmış sənədlərdir. Koqnitiv tələb səviyyələri şagirdlərin problem həll etmə, anlama və düşünmə qabiliyyətlərinin qiymətləndirilməsini əhatə edir [10].

Yaxşı tərtib edilmiş monitorinq nəticələri müəllimin nə etdiyini, onun şagirdlərinin ehtiyaclarını nə dərəcədə ödədiyini və dərs vəsaitlərində, planlaşdırmada və kurikulumda dəyişikliklərin edilməsinin lazım olub-olmadığını müəyyən etməyə kömək edir. Şagirdin uğurunun qiymətləndirilməsi şagirdin nə bildiyini, ondan necə istifadə edə biləcəyini və nəticə çıxara biləcəyini öyrənmək üçün bir üsul kimi qəbul edilir. Monitorinq əsasən aşağıdakı səbəblərə görə istifadə olunur:

- Şagirdlərin necə inkişafını müşahidə etmək;
- Pedaqoqun öz təlimləri ilə bağlı dəyişikliklər etmək;
- Şagirdlərin təlimlərinin uğurunu mühakimə etmək;
- Kurikulumun qiymətləndirilməsi.

Bu monitorinqlər müəllimlərə şagirdlərini daha yaxşı başa düşməkdə, dərslərində dəyişikliklər etməkdə və şagirdlərinin təlim prosesində nə dərəcədə yaxşı nəticə əldə etdiklərini görməkdə kömək edir. Qiymətləndirmə şagirdləri öyrətmək üçün yeni yollar tapmaq və təkmilləşdirmək üçün faydalı vasitədir. Bu, şagirdlərə öyrənmə prosesinə daha yaxşı diqqət yetirməyə kömək edir və şagirdlərin inkişafına kömək etmək üçün düzgün addımlar atmağa imkan verir [1].

Təhsil sistemlərində qiymətləndirmə metodlarının seçimi ölkədən asılı olaraq onun fərqli təhsil məqsədləri və prinsiplərinə uyğun olaraq dəyişir. Bu mövzu ilə bağlı fərqli perspektivlər mövcuddur. Məsələn, Finlandiya daha az imtahan və qiymətləndirmədən istifadə etməklə, şagirdlərin fəaliyyətini əsasən sinifdə keçirilən dərslər vasitəsilə qiymətləndirir. Finlandiyadan fərqli olaraq, Çin öz şagirdlərini qiymətləndirən zaman daha çox imtahan, test və digər qiymətləndirmə üsullarından istifadəyə diqqət yetirir.

Təhsil sistemləri arasındakı fərqlər ölkənin iqtisadi və mədəni mühitini, arzu olunan bilik və bacarıqları və təhsilin özünün məqsədlərini göstərir. Hər bir xalqın öz təhsil sisteminin tərkibini və nəticələrini diktə edən fərqli qaydaları var.

Təhsil sisteminin şagirdlərin, iqtisadiyyatın və bütövlükdə cəmiyyət üçün nəzərdə tutulan nəticələri verib-vermədiyini anlamaq əsasən qiymətləndirmədən asılıdır. Effektiv qiymətləndirmə olmadığı halda, şagirdlərin öyrənib-öyrənmədiyini və islahatların uğurla davam edib-etmədiyini müəyyən etmək mümkün deyil [4, Маргарит].

Qiymətləndirmə təlim nəticələrinin müəyyən edilməsi və təcrübənin təkmilləşdirilməsi üçün çox vacibdir. Təhsil planlarının və məqsədlərinin bir hissəsi olmalı olan bu metod şagirdin öyrənməsini qiymətləndirmək üçün strukturlaşdırılmalıdır. Fərdi şəkildə şagirdlərin inkişafını effektiv ölçmək üçün təhsilin məzmunu və təlim proseslərinə aid qiymətləndirmə metodologiyaları müəyyən edilməlidir. Qiymətləndirməni planlaşdırarkən nəzərə alınmalı olan əsas amillərə məqsəd, sınaqdan keçiriləcək sahələr və istifadə olunacaq qiymətləndirmə vasitələrinin xüsusiyyətləri daxildir. Qiymətləndirmə alətləri dörd meyar əsasında qiymətləndirilir: uyğunluq, əlverişlilik, etibarlılıq və düzgünlük. Mətn məlumatlarını nəzərə alaraq, müxtəlif sahələrə və öyrənmə üslublarına uyğunlaşmaq üçün çoxsaylı qiymətləndirmə sistemlərindən istifadə edilməsi təklif olunur. Qiymətləndirmə dövrü nəticələrin qiymətləndirilməsi ilə yekunlaşır və bu nəticələr əsasında təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün dəyişikliklər edilə bilər. Qiymətləndirmə sistemi təhsilin nəticələri və tədris üsulları ilə uyğunlaşdırıldıqda, o, təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq və şagird öyrənməsinə kömək etmək potensialına malikdir [4].

Orta və ali təhsilin əsas məqsədi innovativ düşüncəyə malik yüksək səviyyəli mütəxəssislər hazırlamaqdır. Bu prosesdə monitorinq və

qiymətləndirmə çox vacib rol oynayır. Orta məktəb müəllimləri və ali təhsil müəssisələri mühüm elmi anlayışa malik müəllimlərin səmərəli fəaliyyəti ilə bu problemi həll etmək üçün əməkdaşlıq etməlidirlər. Bu, mütəxəssislərin uğurlu elmi-praktik fəaliyyətinə, eləcə də cəmiyyətin gələcək nəslinin əsaslı inkişafına töhfə verəcəkdir.

Son illərdə qiymətləndirmə dünya pedaqogikasında təhsil prosesinin ən mühüm mərhələlərindən biri kimi böyük diqqəti cəlb edir. Şagirdlərin akademik nailiyyətlərinin qiymətləndirilməsi sistemi yenidən qiymətləndirilir. Məktəbin məqsədlərindən biri tələbələri öz potensiallarını kəşf etməyə, öz-özünə öyrənməyə və digərlərindən üstün olmağa həvəsləndirməkdir. Bu, şagirdlərin fundamental səriştələrinin inkişafı üçün əlverişli şəraitin yaradılmasını təmin edir. Tədris prosesində şagirdin fəaliyyəti ilə bağlı məlumatların toplanması və təhlili mərhələsi qiymətləndirmə adlanır. Prosesin məqsədi, prinsipləri, vəzifələri və üsulları təhsil prosesində iştirak edən bütün subyektlərin, o cümlədən məktəb rəhbərliyinin, müəllimlərin, valideynlərin və şagirdlərin özlərinin köməyi ilə müvafiq şəkildə müəyyən edilməlidir.

Nailiyyətlərin monitorinqi və öyrənmə çətinliklərinin diaqnostikası üçün əsas alət qiymətləndirmə sistemidir. O, təhsilin keyfiyyətini müəyyən edir, qlobal standartlara uyğunluğu təmin edir və təlim planlarında və taktikalarında dəyişikliklərə imkan verir. Qiymətləndirmə tədris materialının, eləcə də nəzərdə tutulan nəticələrin qiymətləndirilməsi metodunun təkmilləşdirilməsi üçün mühüm prosedurdur. Əldə edilmiş nəticələrin planlaşdırılmış məqsədlərlə əlaqələndirilməsi prosesidir [5].

Təhsilin məqsədi və məzmunu ilə bağlı qlobal perspektivlər zaman keçdikcə inkişaf edir. Təhsildə qiymətləndirməyə mövcud yanaşmalar yeni perspektivlər təqdim edir. Təhsil məqsədləri genişləndirilir, qiymətləndirmənin yeni forma və üsullarından istifadə edilir, qiymətləndirmə təcrübəsində şagird və müəllimin rolu yenidən qiymətləndirilir.

Qlobal qiymətləndirmə nümunələri bütün dünyada milli təhsil sistemlərinə təsir göstərir. Milli sistemlərin əksəriyyəti öz meyarlarına əsaslanan qiymətləndirmə prosedurlarına keçir. Elmi-metodiki nəşrlərin həcminin sürətlə artması, alimlərin və təcrübəli müəllimlərin bu sahədə araşdırmaları və s. bu islahat mərhələsində mühüm əhəmiyyət kəsb edir.

Elmi nəşrlərin təhlili təhsildə qiymətləndirmənin yaradılmasında beynəlxalq təcrübədən faydalanmaq üçün istifadə olunur. O, dünya nəzəriyyəsi və praktikasında tələbələrin təhsil nəticələrinin qiymətləndirilməsində mövcud tendensiyaları müəyyən etməyə, eləcə də problemlərin və ziddiyyətlərin aydınlaşdırılmasına kömək edir. Qiymətləndirmə proseslərinin bu fəaliyyətlərin görülməsi təhsildə daha yaxşı qiymətləndirmə üçün hansı sahələrin təkmilləşdirilməsi lazım olduğunu vurğulayır [8].

Təhsil keyfiyyətinin monitorinqi şagird hazırlığının uğurla ölçülməsini və təhlilini tələb edir. Bu, şagirdlərin bilik, bacarıq və sinifdə nailiyyətlərini obyektiv qiymətləndirmək üçün müxtəlif test texnologiyalarından istifadə etməklə həyata keçirilir. Şagirdlərin müxtəlif mədəniyyətlərini, bilik və bacarıqlarını qiymətləndirmək üçün dərsliklərin tərtibatında da xüsusi diqqətli olmaq lazımdır. Bir tərəfdən, şagirdlərin mövzunu başa düşmələrini qiymətləndirmək üçün imtahanlar və sınaqlar kimi ənənəvi prosedurlardan istifadə olunur. Digər tərəfdən müasir texnologiya və sistemlər ilə akademik kurslarda və sahələrdə təlim nəticələrinin daha dəqiq qiymətləndirilməsi həyata keçirilir.

Bu texnologiyalar və metodlar şagirdlərin öyrənilən məzmunu qavramasının genişliyini və dərinliyini, həmçinin öyrənənin bilik və bacarıqlarının inkişafını qiymətləndirmək üçün nəzərdə tutulub. Bu sistemlər həmçinin məktəb rəhbərləri və müəllimləri məlumatlarla təmin etməklə onlara şagirdlərin irəliləyişlərini qiymətləndirməyə, mövcud tədris üsullarını təkmilləşdirməyə və təlim prosesini təkmilləşdirə biləcək tədbirlər və dərslər yaratmağa imkan verir. Belə texnologiya və metodik metodların geniş tədqiqi təhsilin daha səmərəli və dərinləşməsinə kömək edir [7].

Tələbə müvəffəqiyyəti standart olaraq hər sessiyanın və ya dövrün sonunda qiymətləndirilir. Bu imtahan zamanı tələbələrlə bağlı mühüm qərarlar və ya dəyər mühakimələri verilir. Bu prosedur, yazılı və şifahi imtahanlar, çoxseçimli testlər, tapşırıqlar, dərs və kurs təlimatı zamanı tamamlanan layihələr kimi çoxsaylı ölçmələrin nəticələrinə və standartlarına əsaslanır. Təlim proqramının məqsəd və davranışlarının qiymətləndirilməsinə dair məlumatlara təlim proqramının hədəf davranışlarının qiymətləndirilməsi deyilir. Təlim prosesində məqsədlər və hərəkətlər qiymətləndirilir və təhsilin qiymətləndirilməsinin bir hissəsi kimi nəzərə alınır. Proqramın etibarlılığını və faydalılığını qiymətləndirmək davranış və məqsədlərə diqqət yetirməyi zəruri edir.

Təhsilin səmərəliliyinin qiymətləndirilməsi təhsil sisteminin öz məqsədlərinə nə dərəcədə nail olduğunu göstərir. Effektivlik dəyərlərinin ölçülməsi və qiymətləndirilməsi çətin prosesdir, çünki onlar yalnız uşağın sinifdəki təcrübələrinə deyil, həm məktəb daxilində, həm də məktəbdən kənarda müxtəlif fəaliyyətlərin təsirinə əsaslanır. Bu mövzular təhsil tədqiqatı və qiymətləndirməsinin mühüm komponentləridir və bu sahədə geniş tədqiqatlar davam etdirilməlidir.

Yekun olaraq, qiymətləndirmə olmadan və ya düzgün həyata keçirilmədən keyfiyyətli təhsil əldə etmək mümkün deyil. Hazırda da bütün dünyada tətbiq olunan qiymətləndirmə modelləri durmadan inkişaf edir. Mövcud boşluqlar aradan qaldırılır və daimi olaraq yeni texnologiyalarla

inteqrasiyadadır. Yekun məqsəd keyfiyyətli və ədalətli təhsil mühitinin formalaşdırılmasıdır [2].

***Ədəbiyyat***

1. *Aydın Ə., Talıb Ş., Ənvər A. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi". Kurikulum, 1, 2008, səh.86-94.*
2. *Baykul Y. "Eğitim sisteminde değerlendirme". Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi. 1992, 7(7), s.85-94*
3. *Ənvər A. "Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə)". Bakı: "CN POLİGRAFİYA", 2023, 100 səh.*
4. *Fuentealba C. "The role of assessment in the student learning process". J Vet Med Educ., 2011, 38(2). p.157-162.*
5. *Ермаханов М.Н., Асылбекова Г.Т., Сабденова У.О., Сейтханова Ж.А., Абдибаева М.М., Диканбаева А.К., Куандыкова Э.Т., Кадырова Р.Б. "Функции системы оценивания в развитии образовательной системы". Международный журнал прикладных и фундаментальных исследований. 2016, 1(1), стр.63-64.*
6. *Маргарит К. "Что является наиболее важным в системах оценки достижений учащихся: основные ориентиры". Качество образования в Евразии. 2013, 1, стр.7-36.*
7. *Новикова И.Д., Распутина А.А., Репина Е.Н. "Средства оценивания результатов обучения". Издательство СГУ им. Питирима Сорокина, 2019, стр.87.*
8. *Шмигирилова И.Б., Рванова А.С., Григоренко О.В. "Оценивание в образовании: современные тенденции, проблемы и противоречия (обзор научных публикаций)". Образование и наука. 2021, 23(6), стр.43-83.*
9. *https://www.edutopia.org/assessment-guide-importance*
10. *https://www.facultyfocus.com/articles/educational-assessment/the-importance-of-educational-assessment-tools-and-techniques-for-assessing-your-students/*

**S.M.Ağalarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aminaagalarova5@gmail.com***

# ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ TƏLİM KEYFİYYƏTİNƏ TƏSİR VASİTƏSİ KİMİ

***Xülasə***

*Məqalədə məktəb qiymətləndirməsinin ümumi məsələlərinə toxunmaqla özünüqiymətləndirmə problemindən söhbət açılır və ona şagirdlərin reflektiv təfəkkürünü formalaşdıran amil kimi yanaşılır. Özünüqiymətləndirmənin təlimi mahiyyəti, məzmunu və meyarları təlim keyfiyyətinə təsir vasitəsi kimi şərh edilir. Göstərilir ki, müasir cəmiyyətdə uğur qazanmaq üçün ensiklopedik bilik və onun nəticəsində qazanılan bacarıqlar hər hansı bir fəaliyyəti keyfiyyətli təşkil etmək üçün kifayət etmir. Şagird təlim standartlarını reallaşdırma məqamlarında gördüyü işlərin nəticələrini də özü üçün araşdırmağa səy göstərməli, öz fəaliyyətini obyektiv və səmərəli formada qiymətləndirməyi bacarmalıdır. Belə bir bacarığın formalaşması təlimdə inkişafetdiriciliyə və biliklərin keyfiyyətli mənimsənilməsinə müsbət təsir etmiş olar.*

# САМООЦЕНКА КАК СРЕДСТВО ВЛИЯНИЯ НА КАЧЕСТВО ОБУЧЕНИЯ

***Резюме***

*В статье рассматривается проблема самооценки, затрагивая общие вопросы школьного оценивания и рассматривается как фактор, формирующий рефлексивное мышление учащихся. Сущность, содержание и критерии обучения самооценке трактуются как средство воздействия на качество обучения. Показано, что для достижения успеха в современном обществе недостаточно энциклопедических знаний и навыков, полученных в результате них, для качественной организации любой деятельности. Обучающийся должен стремиться к проверке результатов своей работы в точках реализации для себя стандартов подготовки и уметь объективно и эффективно оценивать свою деятельность. Формирование такого навыка положительно скажется на развитии обучения и качественном усвоении знаний.*

# SELF-ASSESSMENT AS A MEANS OF INFLUENCE ON THE QUALITY OF TRAINING

***Summary***

*The article examines the problem of self-esteem, touching on general issues of school assessment and is considered as a factor shaping the reflective thinking of*

*students. The essence, content and criteria of self-assessment training are interpreted as a means of influencing the quality of training. It is shown that to achieve success in modern society, encyclopedic knowledge and skills obtained as a result of it are not enough for the high-quality organization of any activity. The student must strive to check the results of his work at the points of implementation of training standards for himself and be able to objectively and effectively evaluate his activities. The formation of such a skill will have a positive impact on the development of learning and the qualitative acquisition of knowledge.*

***Açar sözlər:*** *məktəb qiymətləndirməsi, summativ qiymətləndirmə, özünüqiymətləndirmə meyarları, reflektiv inkişaf, təlim keyfiyyəti*
***Ключевые слова:*** *школьная оценка, суммативное оценивание, критерии самооценки, рефлексивное развитие, качество обучения*
***Key words:*** *school assessment, summative assessment, self-assessment criteria, reflective development, quality of education*

Münasibətləri subyekt-subyekt düzənində qurulan, şəxsiyyyətyönümlülüyü önə çəkən müasir təlimdə əsas prioritetlərdən biri də qazanılan bilik, bacarıq və vərdişlər sayəsində şagirddə adekvat hissiyyat, mənlik formalaşdırmaq, özünüqiymətləndimə mədəniyyəti tərbiyə etməkdir. İbtidai təhsil səviyyəsindən başlayaraq aktuallaşan bu problemin optimal həlli şagirdlərdə özünə güvəni artırır, onlar özlərini, davranış və hərəkətlərinin motivlərini, ünsiyyət ehtiyacını və sosial mühitlə münasibətləri anlamağa başlayırlar.

Bu mərhələdən etibarən şagirddə dünya haqqında bilgilər əldə etməyin ahəngdar, sakit inkişaf dövrü start götürür və o, bir məktəb komandasının üzvü olaraq özünü bir çox sosial rollarda sınayır. Münasibət, dəyər, motiv, ehtiyac və maraqlar sistemində öz "mən"ini dərk etməyə çalışır. Özünüdərketmənin artan xətt üzrə inkişafı mərhələsinə qədəm qoyur. Bu məqamda özünüdərkin formalaşması öyrənmədəki nailiyyətlərdən, sinif müəlliminin onlarla ünsiyyətinin xüsusiyyətlərindən və ailədəki dəyərlər, psixoloji vəziyyətlər sistemindən çox asılıdır.

Psixoloq və müəllimlər hesab edirlər ki, özünüqiymətləndirmə insan fəaliyyətinin səviyyəsini, fərdi inkişaf trayektoriyasını müəyyən edən, özünüdərketmənin əsasını təşkil edən, özünütənzimləmənin mərkəzi həlqəsi olan "Mən konsepsiyası"nın tərkib hissəsidir və şagird onun vasitəsilə öz nailiyyətlərinin maksimumunu təyin edir. Müasir dərsin "Qiymətləndirmə və ya refleksiya" mərhələsinə aid şərhə görə "Qiymətləndirmə istənilən prosesin təkmillləşməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz nailiyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir.

Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq üçün bütün sinfin və müəllimin qarşısında şagirdlərin özlərinə qiymətverməsi təcrübəsindən, habelə qarşılıqlı qiymətləndirmədən istifadə etmək olar" [6, 21].

Özünəhörmət fərdin bütövlükdə özünə, şəxsi fəaliyyət və davranışının ayrı-ayrı aspektlərinə verdiyi qiymətdir. Bu qiymətləndirmənin əsas meyarı fərdin yaxşı mənalandırma sistemidir. Özünəhörmətin yerinə yetirdiyi əsas funksiya tənzimləyicilikdir ki, bunun vasitəsilə fərdin şəxsi seçim problemləri həll olunur, onun nisbi sabitliyi və müstəqilliyi təmin edilir. Özünəhörmətin formalaşmasında başqalarının qiymətləndirmələri də mühüm rol oynayır. Özünəhörmət özünüdərketmə komponenti olan zehni inkişaf amilləri ilə qarşılıqlı əlaqədə olan sistemli formalaşma kimi qəbul edilir. Özünəhörmət fərdin şəxsiyyətə çevrilməsinin vacib şərtlərindən biridir. Bu, fərddə başqalarının tələblərinin səviyyəsinə cavab vermək və öz şəxsi qiymətləndirmələrinin səviyyəsinə uyğun olmaq ehtiyacı formalaşdırır. Bir sözlə, özünəhörmət özünüdərketmə strukturunun müstəqil elementidir.

Mənlik və heysiyyat insanın özünü tanıması və özünə münasibətidir. Özünəhörmət, onun formalaşmasının qarşılıqlı təsir edən amilləri ilə uzun və mürəkkəb bir prosesin nəticəsidir. İnsan öz uğur və uğursuzluqlarını, fəaliyyətinin nəticələrini, başqalarının qiymətləndirmələrini onun vasitəsilə təhlil edir.

Peşəkar müəllim ilk dərs günlərindən başlayaraq şagirdlərdə özünəgüvən hissi tərbiyə etməklə onlarda özünüqiymətləndirmə mədəniyyəti formalaşdırmağa çalışmalıdır. Bunun üçün o, özünəhörmətin diaqnostik və emosional metodologiyasını dərindən bilməli, şagirdlərin özünəhörmət və istək səviyyəsini, özünəhörmətin emosional xarakterini müəyyənləşdirməlidir. Oxuduğu mətnlərdəki obrazların "mən" obrazının xüsusiyyətlərinə nə dərəcədə adekvat gəldiyini dərk edən şagird bu və ya digər kateqoriyalı insanlarla yaxınlıq dərəcəsini müəyyən edir, tam yaxınlığı və unikal fərqlilikləri təyin etməyə imkan qazanır.

Müasir təlimdə keyfiyyət məsələsinə xüsusi önəm verilir və "keyfiyyətli təhsil" anlayışı şagirdin təlim fəaliyyətinin hərtərəfli xarakteristikası, dövlət təhsil standartlarına uyğunluq dərəcəsi kimi qəbul edilir.

Təhsilin keyfiyyəti onun dövlət təhsil standartlarına, təlimi nəticələrə uyğunluğu ilə ölçülür və keyfiyyətin yüksək olması da yalnız biliklərin mənimsənilməsi, təlimi səriştələrin qazanılması ilə əldə olunan bir sadə məsələ də deyildir.

Təlimi keyfiyyət təhsilin ictimai şüurdakı nüfuzunun səviyyəsindən, dövlət prioritetləri sistemindən, maliyyələşmədən, maddi-texniki təchizatın səviyyəsindən, müasir idarəetmə texnologiyalarından istifadə imkanlarından çox asılıdır.

Şagirdə "bilməli", "bacarmalı" prizmasından deyil, "bildiklərini praktikada necə tətbiq edir və öz əməyini necə təkmilləşdirir" prizmasından dəyər verilməlidir. Müasir informasiya və texnologiyalar əsrində, bazar iqtisadiyyatı şəraitində məzunun nəyi bildiyi yox, necə və nə üçün çalışacağı önəmlidir. Müasir səviyyədə bilik hər şeyi həll edə bilən meyar deyildir.

Müasir müşahidələr göstərir ki, uğur qazanmaq üçün bilik, ensiklopedik savad bir o qədər də kifayət etmir. Əsas məsələ ümumiləşdirilmiş bilik və bacarıqları konkret iş şəraitində, peşə fəaliyyəti sahəsində vəziyyətə müvafiq tətbiq etmək bacarığıdır. Yalnız bu halda bilik insan səriştəsinin əsasını təşkil edir. Yəni strateji olaraq da qiymətləndirmə də bu məsələləri özündə ehtiva etməlidir.

Şübhəsiz ki, təhsilin keyfiyyətini yüksəltmək uğrunda aparılan mübarizədə ən məsul və məsuliyyətli şəxs yenə də müəllimdir. Şəxsiyyətyönümlülüyə, mənəvi kriteriyalara, əxlaqi keyfiyyətlərə, məqamında qərar vermə qabiliyyətinə yüksək qiymət verildiyi dövrdə müəllimin mövqeyi güclənməkdə, ixtisaslı kadrların hazırlanmasında onun rolu artmaqdadır. Müəllimin peşəkarlıq səviyyəsi, təlimin keyfiyyətinə və nəticələrinə şagirdin əsaslı motivasiyası təhsilin ümumi keyfiyyətini formalaşdıran amillərdir. Öyrənən və öyrədənlə bağlı olan bu iki amildən birinin olmaması təlimi keyfiyyətə zəmanət vermir.

Müasir dövrdə şagirdlərin akademik nailiyyətlərinin qiymətləndirilməsi sistemi qazanılan təhsilin keyfiyyətini üzə çıxaran inteqrativ kompleks problemlərin tərkib hissəsidir. İstənilən standart və qeyri-standart vəziyyətlərdə əldə olunmuş biliyin sistemliliyini, bütövlüyünü, dərinləşməsini və s. yoxlamaq, qiymətləndirmək olar. Müəllim əməyinin keyfiyyətinin qiymətləndirilməsi onun bu meyarlara necə yanaşması ilə dəyərləndirilə bilər.

Bir qayda olaraq şagirdin təlimi keyfiyyəti müəllim tərəfindən qiymətləndirilir və bu tədris üçün təkzibolunmaz həqiqətdir. Buna baxmayaraq müasir qiymətləndirmənin forma və şərtləri ciddi dəyişikliyə uğrayıb. Müasir qiymətləndirmə şagirdə, biliyə, qazanılan səriştələrə münasibətdə ənənəvi qiymətləndirmədən ciddi fərqlənir. İndi məktəb qiymətləndirməsinin əsas formaları olan diaqnostik, formativ və summativ qiymətləndirmədən başqa özünüqiymətləndirmə kimi forması da mövcuddur. Çoxsaylı metodiki araşdırmalar özünüqiymətləndirmənin öyrənmə prosesində mühüm rol oynadığını göstərir. Fəal, bacarıqlı, özünə güvəni olan şagird öz işlərində müstəqil şəkildə səhv axtarır, imkanlarına uyğun mətnlər, tapşırıqlar seçir və s.

Psixoloqlar, adətən, özünəgüvənin iki növünü müəyyənləşdirirlər: adekvat və təhrif olunmuş. Adekvat özünüqiymətləndirmə fərdin reallıqda mövcud olan qabiliyyət və keyfiyyətlərini əks etdirir, yəni bu tip adamlar öz fəaliyyətini obyektiv qiymətləndirir.

Təhrif olunmuş qiymətləndirmədə isə obyektivlik gözlənilmir, fəaliyyətin nəticələri ya çox yüksək, ya da çox aşağı dəyərləndirilir. Peşəkar müəllim şagirdlərdə özünəhörmət və güvəni artırmağa kömək edə bilən ünsiyyət qaydaları formalaşdırmalıdır. Təlim prosesində əsassız tənqid aradan qaldırılmalı, hər bir şagirdə şəxsiyyət kimi yanaşılmalı, yalançı tərifə yer verilməməli, qarşılıqlı dəstək və ünsiyyət mühiti yaradılmalıdır. Şagirdlər lazım gələndə "yox" deməyi öyrənməlidir. Öz-özünə öyrənmə, özünü təhsil, özünü inkişaf etdirmə reflekslərlə şərtlənməlidir. Bəs refleksiya nədir?

Refleksiya – insanın öz hərəkətlərini və vəziyyətini dərk etməyə yönəlmiş daxili psixoloji fəaliyyəti, özünü başqaları tərəfindən göründüyü (qəbul edildiyi) kimi dərk etməsi və özünə diqqət etmək, öz fəaliyyətini təhlil etmək, qiymətləndirmək bacarığıdır.

Şagirdin məntiqi və yaradıcı düşüncəsi o zaman formalaşır ki, o, özünü qiymətləndirmədə davamlı olaraq təkmilləşir, obyektivliyə və məqsədyönlülüyə nail olur. Öz bilik və bacarıqlarına arxalanmaqla qazandığı biliklərin keyfiyyətini yüksəltməyə və özünü də təkmilləşdirməyə çalışır. Sinifdən sinfə keçdikcə özünü, imkanlarını, qabiliyyətini, mənimsədiklərinin keyfiyyətini və digər insanlar arasındakı yerini başa düşür. Özünə hörmət onu şəxsiyyət kimi formalaşdırır, onda başqalarına obyektiv münasibət yaranır.

Təsadüfi deyildir ki, psixoloqlar özünə hörməti insanın davranış və fəaliyyətlərinin tənzimlənməsində iştirak edən ən vacib şəxsi formalardan biri hesab edirlər. Özünə hörmətin intellektual, sosial, əxlaqi və etik bir iş kimi fəaliyyət göstərməsi insana dərin refleksiv xarakter verir. Bütün bunlara əsaslansaq belə bir nəticəyə gəlmək olar ki, təhsilin keyfiyyətinin müəyyən edilməsində şagirdlərin özünə inamının olması özünütəhsil, özünüinkişaf etdirmə səmərəliliyinin şərti, amili və vasitəsidir.

Özünəhörmət təhsilin keyfiyyətini müəyyən etmək üçün bir şərtdir, çünki bu, təlim prosesində özünüdərk formalaşdırmağa, bilik, bacarıq, vərdiş və peşə fəaliyyət metodlarının mənimsənilməsinə kömək edən, arzu olunan şəxsi keyfiyyət və dəyər sistemi yaradan qarşılıqlı əlaqələr kompleksini həyata keçirməyə imkan verir.

Özünüqiymətləndirmə təhsilin keyfiyyətini müəyyən edən amildir, çünki o, reflektiv təfəkkür aktı kimi təlim prosesinin səbəbi, hərəkətverici qüvvəsidir. Bu qüvvə təhsilin ümumi tərəqqisinə, səmərəliliyinə təsir göstərir.

Elmi-metodiki ədəbiyyatda təhsilin keyfiyyəti təlim prosesinin və onun nəticəsinin ayrılmaz xarakteristikası kimi başa düşülür, təhsil prosesinin nə olması və hansı məqsədlərə çatması tələblərinə cavab verir, yəni onların cəmiyyətin, dövlətin sosial sifarişinə uyğunluq dərəcəsini ifadə edir. Təhsilin ümumi keyfiyyəti aşağıdakı amillərlə müəyyən edilir:

- təlimin məzmunu;
- ən son pedaqoji texnologiyalar;

- maddi-texniki təchizat;
- humanist istiqamət;
- şagirdlərin bilik, bacarıq və vərdişlərə olan tələbatının ödənilməsi;
- tədris metodlarına sahiblənmə;
- sosial aktivlik;
- müəllimin idraki bacarıqları;
- şagirdin obyektiv qiymətləndirilməsi və s.

Motivasiya, dərketmə, praktik fəaliyyət, emosional-iradi və semantik dəyərlər təhsilin keyfiyyət meyarları olmaqla yanaşı, onun qiymətləndirilməsinin də mürəkkəbliyini, çoxşaxəliliyini, əhatəliliyini və inteqrativliyini göstərən amillərdir. Təbii ki, müasir dərs şagirdlərin yüksək motivasiyası və fəal iştirakı əsasında baş tutur, yeni biliklər onların məlum biliklərinə, təcrübəsinə əsaslanaraq qazanılır, yenilənir. Bu zaman təlim prosesində müxtəlif forma, metod və texnikalardan, tədris vəsaitlərindən istifadə olunur, optimallıq təmin edilir. Təfəkkürün nitqdən ayrılmazlığı isə dioloji anlaşmanı zəruri edir və yeni materialın dərki, başa düşülməsi ünsiyyət (dialoq) prosesində yaranır. Dialoji ünsiyyət düşüncəni "oyadır" və çətin görünən suallara cavablar tapılır.

Bu gün izahlı-illüstrativ təlim növünün innovativ təlim növünə, təlimin yeniləşmiş forma və metodlarından istifadənin innovativ təcrübəsinə çevrilməsi baş verir. Dərslərin təşkilində "şagirdmərkəzlilik" aparıcı istiqamət kimi qəbul edilir. Müəllim və şagirdlər arasında əməkdaşlıq, qarşılıqlı anlaşma, dialoji ünsiyyət subyekt-subyekt münasibətlərini gücləndirir. Şagirdlərin yaradıcılıq qabiliyyətini, intellektual səviyyəsini, yaradıcı təfəkkürünü inkişaf etdirməyə yardım edən interaktiv forma, metod, üsul və vasitələrdən istifadə olunur. Təhsilin keyfiyyəti bir tərəfdən müəllimin yüksək peşəkar səriştəsi, digər tərəfdən isə şagirdlərin şəxsi maraq və səriştələrinin inkişafı ilə müəyyən edilir.

Təlim prosesində şagirdlərin özünəhörmət səviyyəsi istifadə olunan bilikləri yeniləmək və onları qiymətləndirmək bacarığı ilə əlaqələndirilir.

İnnovativ təlim şagirdlərin şəxsiyyətinin formalaşmasında, onların imkanlarının, fəallığının ictimai əhəmiyyətinin üzə çıxarılmasında özünüqiymətləndirmə mühüm rol oynayır. Təbii ki, insan üçün özünü qiymətləndirmək, ətrafdakı reallığın fakt və hadisələrini qiymətləndirməkdən qat-qat çətindir. Özünüqiymətləndirmə təhsil prosesinin bütün formalarında (dərs, praktik məşğələ, imtahan, ekskursiya, yoxlama və yaradıcı yazıların aparılması və s.) ayrılmaz element olmalıdır.

Biz yuxarıda refleksiya anlayışına aydınlıq gətirdikdə özünüqiymətləndirmənin refleksiv mahiyyətlə bağlılığına da toxunmuşduq. Bir daha onun üzərinə qayıdaraq bildirmək istəyirik ki, özünə hörmətin, özünə güvənin intellektual, peşəkar, koqnitiv, emosional-iradi situasiya kimi fəaliyyət göstərməsi ona refleksiv xarakter verir. Reflektiv təfəkkürün formalaşması

insanın şüurunun və davranışının dünyagörüşünü, mədəni-sosial fəaliyyət komponentlərini zənginləşdirir, həyatın bütün sahələrində onun rolunun əhəmiyyətini artırır. Təhsil səviyyəsi nə qədər yüksəkdirsə, insanın refleks təfəkkürünün inkişafına verdiyi töhfə də bir o qədər çox olur. Təhsil insanın həyat təcrübəsinin inkişafıdır, dünya və "mən" haqqında təsəvvürləri qurmaq, həmin dünyada öz yerini, rolunu tapmaqdır. Təhsil ünsiyyət qurmaq, təhlil etmək, dizayn vermək, seçmək, yaratmaq bacarığıdır.

Yekun olaraq onu bildirmək istəyirik ki, özünüqiymətləndirmə digər qiymətləndirmə formalarından tam təcrid olunmuş bir üsul deyil, bu təlim prosesində məqsədyönlü işin gündəlik sistemidir. Özünüqiymətləndirmə qabiliyyətinin inkişaf etdirilməsinin obyektiv ehtiyacı təkcə şagirdlərin refleksiv təfəkkürünün formalaşdırılması şərti, amili və vasitəsi deyil, həm də təhsilin keyfiyyətinin yüksəldilməsinin vacib komponentidir. "Qiymətləndirmə fəal təlim modelinin komponenti kimi obyektivliyin meyarı olanda təlimdə təhrikedicilik xüsusiyyəti qazanır və şagirdlərin idraki-fiziki keyfiyyətlərini gücləndirməyə xidmət edir" [3, 138].

***Ədəbiyyat***

1. *Azərbaycan dili - 5. Dərslik. Bakı, Altun kitab, 2012, 200 s.*
2. *Azərbaycan dili – 5. Müəllim üçün metodik vəsait. Bakı, Altun kitab, 2012, 200 s.*
3. *Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, "Elm və təhsil", 2019, 380 s.*
4. *Əşrəfov R. Azərbaycan dili tədrisinin aktual problemləri. Sumqayıt, 2017, 365s.*
5. *Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, Mütərcim, 2012, 402 s.*
6. *Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2017, 149 s.*

**G.V.Cəbrayılova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***cebrayilovagulnare1801b@gmail.com***

# BİOLOGİYA DƏRSLƏRİNDƏ STEAM METODİKASININ ZƏRURİLİYİ VƏ İMKANLARI

***Xülasə***

*Bu məqalədə Biologiya dərslərində STEAM metodikasının metodik zəruriliyi və imkanlarınından istifadə etməklə öyrənməyə hərtərəfli yanaşmanı təşviq etmək üçün müxtəlif fənlərin bir araya gətirilməsindən bəhs edilir. Bu inteqrasiya nəinki hər bir sahədə anlaşma dərinliyini artırır, həm də fərdləri müxtəlif yanaşmadan istifadə edərək mürəkkəb problemləri həll etməyə hazırlayır. STEAM dərs modeli üçün üstünlük verilən metodlardan biri konstruktivist öyrənmə nəzəriyyəsinin sinifdə tətbiqi yolları olan E öyrənmə modelləridir. 5E öyrənmə modeli elmi və riyazi anlayışların öyrədilməsi üçün effektiv strategiyadır. 5E modeli aktiv öyrənməyi təşviq edir. 5E dərs modelində tətbiqinə baxdiqda "Çiyələklərdən DNT-nin çıxarışı" dərsi genetikanın mücərrəd dünyasını həssas və cəlbedici təcrübəyə çevirdiyi aydın əks olunur. Gündəlik inqrediyentlərdən və bir az yaradıcılıqdan istifadə etməklə müəllimlər şagirdlərin şüurunda DNT möcüzələri üçün qalıcı qiymətləndirməni aşılaya bilərlər. Bu praktiki yanaşma elmi proseslərin sirrini açmaqla yanaşı, gələcək alim və kəşfiyyatçılar üçün zəmin yaradaraq, kəşf və araşdırma sevgisini oyadır.*

# НЕОБХОДИМОСТЬ И ВОЗМОЖНОСТИ МЕТОДИКИ STEAM НА УРОКАХ БИОЛОГИИ

***Резюме***

*В этой статье рассматривается интеграция различных дисциплин для продвижения комплексного подхода к обучению путем использования методологических потребностей и возможностей методологии STEAM на уроках биологии. Такая интеграция не только увеличивает глубину понимания в каждой области, но и готовит людей к решению сложных проблем, используя разнообразный подход. Одним из предпочтительных методов модели обучения STEAM являются модели электронного обучения, которые представляют собой способы применения конструктивистской теории обучения в классе. Модель обучения 5E — это эффективная стратегия преподавания научных и математических концепций. Модель 5E поощряет активное обучение. Применительно к модели урока 5E урок «Извлечение ДНК из клубники» ясно отражает, как абстрактный мир генетики превращает абстрактный мир генетики в чувствительный и увлекательный опыт. Используя повседневные ингредиенты и немного творчества, учителя могут привить ученикам непреходящую признательность за чудеса ДНК. Этот практический подход не*

*только раскрывает тайну научных процессов, но и создает основу для будущих ученых и исследователей, прививая любовь к открытиям и исследованиям.*

# THE NEED AND POSSIBILITIES OF THE STEAM METHODOLOGY IN BIOLOGY LESSONS

***Summary***

*This article discusses the integration of various disciplines to promote a comprehensive approach to learning by using the methodological needs and opportunities of STEAM methodology in Biology classes. This integration not only increases the depth of understanding in each area, but also prepares individuals to solve complex problems using a diverse approach. One preferred method for the STEAM learning model is E learning models, which are ways to apply constructivist learning theory in the classroom. The 5E learning model is an effective strategy for teaching scientific and mathematical concepts. The 5E model encourages active learning. When applied to the 5E lesson model, the lesson "Extracting DNA from Strawberries" clearly reflects how the abstract world of genetics turns the abstract world of genetics into a sensitive and engaging experience. By using everyday ingredients and a little creativity, teachers can instill in students a lasting appreciation for the wonders of DNA. This hands-on approach not only unlocks the mystery of scientific processes, but also creates a foundation for future scientists and explorers, instilling a love of discovery and exploration.*

***Açar sözlər:*** *STEAM, biologiya, 5E modeli, DNT, çiyələk, təcrübə*
***Ключевые слова:*** *STEAM, биология, модель 5E, ДНК, клубника, опыт*
***Key words:*** *STEAM, biology, 5E model, DNA, strawberry, experience*

Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat mənasını verən STEAM müxtəlif yanaşmalar vasitəsilə biologiya dərslərinə effektiv şəkildə inteqrasiya oluna bilər. Biologiya dərslərində STEAM tətbiq etməyin bəzi yolları və imkanları bunlardır:

1. Biotexnologiya layihələri: Genetik mühəndisliyi və DNT ardıcıllığını nümayiş etdirmək üçün biotexnologiya layihələrini birləşdirmək.
2. Səhra səfərləri: Bioloji müxtəlifliyi və ekoloji qarşılıqlı əlaqəni müşahidə etmək üçün botanika bağlarına, zooparklara və ya yerli ekosistemlərə çöl səfərləri təşkil etmək.
3. Məlumatların təhlili: Statistik təhlil və tənqidi düşünmə bacarıqlarını öyrətmək üçün bioloji məlumat dəstlərindən istifadə edərək məlumatların təhlili məşqlərini birləşdirmək.
4. Bədii nümayəndəlik: Şagirdləri bioloji nümunələrin çəkilməsi və ya hüceyrə strukturlarının modellərinin yaradılması kimi bioloji anlayışların bədii təsvirlərini yaratmağa həvəsləndirmək.

5. Texnologiya inteqrasiyası: Şagirdlərə mürəkkəb bioloji prosesləri vizuallaşdırmağa kömək etmək üçün virtual parçalanmalar, molekulyar modelləşdirmə və ya simulyasiyalar üçün texnologiya alətlərindən istifadə etmək.

6. Fənlərarası layihələr: Əhali dinamikasının modelləşdirilməsi və ya riyazi tənliklərdən istifadə edərək bioloji sistemlərin öyrənilməsi kimi biologiya, riyaziyyat və texnologiyanı əhatə edən fənlərarası layihələri təşviq etmək.

7. Birgə öyrənmə: Şagirdlərdən ətraf mühitin davamlılığı və ya sağlamlıq elmləri ilə bağlı real dünya problemlərini həll etmək üçün elmi bilikləri tətbiq etməyi tələb edən qrup layihələri vasitəsilə birgə öyrənməni təşviq etmək.

Biologiya və STEM inteqrasiyası problemlərin həllinə və öyrənməyə hərtərəfli yanaşmanı təşviq etmək üçün müxtəlif fənləri bir araya gətirir. Bu inteqrasiya nəinki hər bir sahədə anlaşma dərinliyini artırır, həm də fərdləri müxtəlif yanaşmadan istifadə edərək mürəkkəb problemləri həll etməyə hazırlayır. STEM dərs modeli üçün üstünlük verilən metodlardan biri konstruktivist öyrənmə nəzəriyyəsinin sinifdə tətbiqi yolları olan E öyrənmə modelləridir. *E öyrənmə modelləri* - Konstruktivizm sorğu öyrənmə və konseptual dəyişikliyin tətbiqinə əsaslanır. E öyrənmə modelləri yenilənir və sürətlə inkişaf etdirilir. 5E öyrənmə modeli elmi və riyazi anlayışların öyrədilməsi üçün effektiv strategiyadır. Bu model şagirdlərə beş əsas addımda öyrənmə prosesini yaşamağa imkan verir. 5E modeli şagirdləri təlim prosesində fəal rol oynamağa həvəsləndirir, onlara mövzuları dərindən başa düşməyə kömək edir və biliyi qalıcı edir. 5E modeli aktiv öyrənməyi təşviq edir. Biologiya dərslərində bu modelin tətbiqi zamanı şagirdlər dinləmək və oxumaqdan daha çox işləməklə məşğul olurlar. Sual verməyi, müşahidə etməyi, modelləşdirməyi, təhlil etməyi, izah etməyi, nəticə çıxarmağı, dəlillərdən mübahisə etməyi və mənimsədikləri haqqında müzakirə etməyi öyrənirlər. Şagirdlər izahatlar qurmaq, problemləri həll etmək, araşdırmaları planlaşdırmaq və həyata keçirmək üçün həmyaşıdları ilə birlikdə işləyirlər.

Çiyələklərdən DNT-nin çıxarılması üçün 5E dərs modelində tətbiqinə baxaq:

1. ***Cəlbetmə (Engage).***

Məqsəd: Şagirdlərin marağını cəlb etmək və mövzunu təqdim etmək.

Fəaliyyət: DNT-nin quruluşunu və onun əhəmiyyətini əks etdirən videonu göstərin. “DNT haqqında nə bilirsiniz?” kimi açıq tipli suallar verin. və ya “DNT canlı orqanizmlərdə harada tapılır? Maraq oyatmaq üçün DNT ilə əlaqəli əyləncəli fakt və ya hekayəni paylaşın”.

2. ***Araşdırma (Explore).***

Məqsəd: Şagirdlərə praktiki fəaliyyət vasitəsilə DNT çıxarılması konsepsiyasını araşdırmaq imkanı verin.

Fəaliyyət: Hər bir şagird və ya qrupa təhlükəsizlik qaydalarını vurğulayaraq, DNT çıxarılması üçün bir sıra materiallar təqdim edin. Şagirdlərə çiyələklərin əzilməsi, ekstraksiya məhlulunun hazırlanması və DNT-nin çıxarılması prosesinə rəhbərlik edin. Təcrübə zamanı onları müşahidələr aparmağa və suallar verməyə təşviq edin.

Çiyələkdən DNT çıxarmaq məşhur və praktik təcrübədir.

Lazım olan materiallar: Təzə çiyələk (2-3), kilitli çanta, qabyuyan yuyucu (1 ç.q), süfrə duzu (1/2 çay qaşığı), su (1/4 fincan), qəhvə filtri, spirt (dondurucuda soyudulmuş), kiçik plastik və ya şüşə qab, taxta çubuq və ya şiş.

Prosesin əsas gedişi:

**1. Çiyələkləri hazırlayın:** Çiyələklərin yaşıl uclarını çıxarın və kilidli torbaya qoyun.

**2. Çiyələkləri əzin:** Torbanın içərisində çiyələkləri yaxşıca əzin. Bu, hüceyrə divarlarını parçalayır və DNT-ni buraxır.

**3. Ekstraksiya məhlulunu hazırlayın:** Ayrı bir qabda 1 ç/q qabyuyan yuyucu toz, 1/2 ç/q xörək duzu və 1/4 stəkan suyu qarışdırın, yumşaq qarışdırın, lakin çoxlu baloncuklar yaratmayın.

**4. Çiyələklərlə və məhlulu birləşdirin:** Ekstraksiya məhlulunu torbanın içərisində əzilmiş çiyələklərə tökün. Torbanı bağlayın və içini yumşaq bir şəkildə qarışdırın. 5 dəqiqə gözlədin.

**5. Qarışığı süzün:** Kiçik qabın ağzının üstünə qəhvə filtri qoyun. Mayeni ayırmaq üçün çiyələk qarışığını süzgəcdən keçirin.

**6. Spirt qatı:** Kiçik qabı təxminən üçdə birinə spirt ilə doldurun, qabı əyin və süzülmüş çiyələk mayesini yavaş-yavaş yan tərəfə tökün.

**7. DNT-ni müşahidə edin:** DNT spirt və çiyələk qarışığı arasında buludlu, ipli təbəqə kimi görünəcək. DNT zəncirlərini yumşaq bir şəkildə toplamaq üçün taxta çubuq və ya şişdən istifadə edə bilərsiniz.

3. ***İzahetmə (Explain)***

Məqsəd: Elmi prinsipləri təqdim etmək və DNT çıxarılması prosesini izah etmək.

Fəaliyyət: Hər addımın arxasındakı elmi izah edən sinif müzakirəsi aparın. Hüceyrə membranlarının parçalanmasında yuyucu vasitənin rolunu, duzun məqsədini və DNT-nin spirtdə niyə çökdüyünü müzakirə edin. Əsas anlayışları göstərmək üçün vizual, diaqram və ya sadə modeldən istifadə edin.

4. ***Dərinləşdirmə (Elaborate)***

Məqsəd: Şagirdlərə əlavə fəaliyyətlər vasitəsilə anlayışlarını dərinləşdirməyə imkan verin.

Fəaliyyət: Şagirdləri kiçik qruplara bölün və onlara DNT çıxarılmasının daha geniş təsirlərini müzakirə edin. Real dünya tətbiqlərində necə istifadə olunur? Təcrübədə variasiyaları araşdırın: Meyvənin növünü dəyişdirsəniz,

başqa yuyucu vasitələrdən istifadə etsəniz və ya temperaturu dəyişsəniz nə baş verir?

5. ***Qiymətləndirmə (Evulate)***

Məqsəd: Şagirdlərin DNT ekstraksiyasını başa düşmələrini qiymətləndirmək.

Fəaliyyət: Anlayışı ölçmək üçün qısa yazılı əks və ya viktorina təyin edin. Şagirdlərdən çıxarma prosesində hər bir addımın məqsədini izah etmələrini tələb edən suallar verin. Təcrübəni daha geniş bioloji anlayışlarla əlaqələndirmək qabiliyyətini qiymətləndirmək üçün şagirdlərin laboratoriya hesabatlarını və ya qrup müzakirələrini nəzərdən keçirin.

**Nəticə:** Bu 5E dərs modeli DNT hasilatı kontekstində şagirdin məşğulluğunu, kəşfiyyatını, izahını, işlənməsini və qiymətləndirilməsini təşviq edən əsaslı yanaşma təqdim edir. “Çiyələklərdən DNT-nin çıxarışı” dərsi genetikanın mücərrəd dünyasını həssas və cəlbedici təcrübəyə çevirir. Gündəlik inqrediyentlərdən və bir az yaradıcılıqdan istifadə etməklə müəllimlər şagirdlərin şüurunda DNT möcüzələri üçün qalıcı qiymətləndirməni aşılaya bilərlər. Bu praktiki yanaşma elmi proseslərin sirrini açmaqla yanaşı, gələcək alim və kəşfiyyatçılar üçün zəmin yaradaraq, kəşf və araşdırma sevgisini oyadır. O, tənqidi düşüncəni, araşdırmanı və elmi prosesi daha dərindən dərk etməyi təşviq edir.

***Ədəbiyyat***

1. *Biologiya tədrisində STEAM metodologiyası / R.Məmmədova, Rəqşanə Fəxrəddin qızı. // Elmi əsərlər / Azərbaycan Respublikası Təhsil İnstitutu.- 2022.- C.89, №4. -s.197-203.*
2. *Beynəlxalq STEAM məktəblərinin təcrübəsindən / O. Mustafayev //Azərbaycan müəllimi. -2021. -12 fevral. -s.8.*
3. *STEAM təhsil metodu / S.Qarayeva // 525-ci qəzet.-2020.- 25 yanvar.- s.11.*
4. *STEAM məktəblərdə / L.Əlimərdanova: //Azərbaycan müəllimi. -2023. -22 sentyabr. - s.12.*
5. *STEM, STEAM, STREAM: Tədris prosesində istifadə olunan yeni pedaqoji texnologiyalar kimi / H.Əhmədov, Hümeyir Hüseyn oğlu. pedaqogika üzrə e. d-ru, prof., akad. 1958- //Azərbaycan müəllimi. -2021. -8 oktyabr. - s.13.*

**A.A.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysueliyeva848@gmail.com***

# MÜƏLLİM HAZIRLIĞI (AZƏRBAYCAN VƏ FİNLANDİYA TƏHSİL SİSTEMİNDƏ MÜQAYİSƏLİ TƏHLİL)

***Xülasə***

*Müəllimlik vacib və hörmətli bir peşədir. Şagird nailiyyətlərində müəllimin rolu danılmazdır. Hər hansı bir ölkənin təhsil sisteminin keyfiyyəti onun müəllimlərinin keyfiyyətindən heç vaxt üstün ola bilməz. Ümummilli lider H.Əliyev müəllim əməyini yüksək qiymətləndirərək deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq". Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemini bütün tiplərdən olan ümumtəhsil məktəbləri, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə təhsil üzrə pedaqoji təhsil proqramlarını həyata keçirən tədris müəssisələrini əhatə edir. Son illərdə Finlandiyanın təhsil sahəsində aparıcı olduğunu görürük. Finlandiyanın təhsil sisteminə baxdıqda müəllim peşəsinə xüsusi diqqət ayrıldığını görürük. Finlandiyada müəllim üçün magistr dərəcəsi vacibdir. Müəllim olmaq istəyənlər təhsil aldığı zaman yaradıcı, tənqidi, ədalətli və azad düşünmə məntiqinə sahib olurlar. Müəllim olmaq üçün hazırlaşan tələbələrin ünsiyyət bacarığını, şagird-müəllim arasındakı əməkdaşlığı inkişaf etdirmək, inkişaf etməkdə olan təhsil sahəsinə ayaq uydurmaq, biliklərini dinamik saxlamaq üçün məktəblərdə ən azı həftədə bir dəfə təhsil proqramları hazırlanır. Finlandiyada müəllimlərin məktəbdə işləyə başladığı gündən özlərini daim inkişaf etdirmələrinə nəzarət olunur. Bəs Azərbaycanda müəllim hazırlığı necə olur? İndi Azərbaycanda və Finlandiyada müəllim hazırlığının necə olduğunun müqayisəli təhlilinə baxaq.*

# ПОДГОТОВКА УЧИТЕЛЕЙ (СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ СИСТЕМЫ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА И ФИНЛЯНДИИ)

***Резюме***

*Учитель – важная и уважаемая профессия. Роль учителя в успеваемости учащихся неоспорима. Качество системы образования любой страны никогда не может быть лучше, чем качество ее учителей. Общенациональный лидер Г.Алиев высоко оценил труд учителя и сказал: «Я не знаю более высокого имени на земле, чем учитель». В каждом из нас есть частичка теплого сердца учителя. Это учитель, который мудро и терпеливо научил нас любить родную землю и честно трудиться на благо всех. У каждого*

*из нас есть свой учитель, и память о нем мы храним в своих сердцах с уважением и благодарностью на протяжении всей жизни». Система непрерывного педагогического образования и подготовки учителей в Азербайджанской Республике включает общеобразовательные школы всех типов, образовательные учреждения, реализующие программы педагогического образования по среднему, высшему, последипломному и дополнительному образованию. В последние годы мы видим, что Финляндия является лидером в сфере образования. Когда мы смотрим на финскую систему образования, мы видим, что особое внимание уделяется профессии учителя. Для учителя в Финляндии необходима степень магистра. Те, кто хочет стать учителями, во время учебы обладают творческой, критической, справедливой и свободомыслящей логикой. Образовательные программы готовятся не реже одного раза в неделю в школах с целью развития коммуникативных навыков учащихся, готовящихся стать учителями, сотрудничества между учениками и учителями, идти в ногу с развивающейся областью образования и сохранять динамичность своих знаний. В Финляндии непрерывное развитие учителей отслеживается с того дня, как они начинают работать в школе. Как проходит подготовка учителей в Азербайджане? Теперь давайте посмотрим на сравнительный анализ подготовки учителей в Азербайджане и Финляндии.*

# TEACHER TRAINING (COMPARATIVE ANALYSIS OF THE EDUCATIONAL SYSTEM OF AZERBAIJAN AND FINLAND)

***Summary***

*Teaching is an important and respected profession. The role of the teacher in student achievement is undeniable. The quality of any country's education system can never be better than the quality of its teachers. The national leader H.Aliyev appreciated the teacher's work and said: "I do not know a higher name on earth than a teacher." Each of us has a particle of the teacher's warm heart. It is the teacher who wisely and patiently taught us to love our native land and work honestly for the welfare of all. Each of us has his own teacher, and we keep his memory in our hearts with respect and gratitude throughout our lives." The continuous pedagogical education and teacher training system in the Republic of Azerbaijan includes general education schools of all types, educational institutions that implement pedagogical education programs on secondary, higher, post-diploma and additional education. In recent years, we see that Finland is a leader in the field of education. When we look at the Finnish education system, we see that special attention is paid to the teaching profession. A master's degree is essential for a teacher in Finland. Those who want to become teachers have a creative, critical, fair and free thinking logic when they study. Educational programs are prepared at least once a week in schools in order to develop communication skills of students preparing to become teachers, student-teacher cooperation, keep pace with the developing field of education, and keep their knowledge dynamic. In Finland, the continuous development of teachers is monitored from the day they start working in the school. How is teacher training in Azerbaijan?*

*Now let's look at the comparative analysis of teacher training in Azerbaijan and Finland.*

***Açar sözlər:*** *pedaqoji təhsil, müəllim, müəllim hazırlığı, Finlandiya təhsil sistemi*
***Ключевые слова:*** *педагогическое образование, учитель, подготовка учителей, Финская система образования*
***Key words:*** *pedagogical education, teacher, teacher training, Finnish education system*

F.N.İbrahimov və R.L.Hüseynzadəyə görə, “Müəllimlik peşəsi deyə bilərik ki, cəmiyyətimizdə kütləvi peşədir. Çünki, nəsilləri öyrətmək tərbiyə etmək çox gərəkdir. Buna görə də müəllimlik peşəsinə həmişə ehtiyac duyulmaqdadır” [2, s.155].

Müəllimlərin vəzifələri milli kurikulum, həmçinin cari dövlət siyasət məqsədləri ilə müəyyən edilir. Bundan başqa onları əhatə edən mədəniyyət və normalar əsasında formalaşır. Müəllimlərin ictimai gözləntilərinə daxildir: milli kurikulumda göstərilən tələblərə cavab verməli, şagird və tələbələrin ehtiyaclarına xidmət etməli, onları bir şəxsiyyət kimi cəmiyyətdə formalaşdırmalı, yeni təhsil siyasəti həyata keçirməli və s.

“Finlandiya məktəblərində “müvəffəqiyyətinizin sirri nədədir?” deyə soruşulduqda ilk olaraq “müəllimlərimiz” deyə cavab verirlər. Həqiqətən də, burada müəllimlik peşəsi həkimlik və hüquqşünaslıq peşəsi qədər çox prestijli müqəddəs və etibarlıdır.” [3, s.4]

Finlandiyada müəllimlik ən çox seçilən peşədir. Ölkənin hər yerində yüksək ixtisaslı müəllimlər çalışır. Finlandiya pedaqoji təhsili ən nüfuzlu akademik proqramlardan birinə çevrilib. Finlandiya xüsusilə tədqiqata önəm verir və müəllimlər çalışırlar ki, şagirdlərə tədqiqata maraq yaratsınlar. Həm cəmiyyət, həm də valideynlər müəllimlərdən çox razıdır. Müəllimlərin təhsili digər müəllimlər tərəfindən nəzarətdə saxlanılır. Çünki, heç bir sinif otağı müəllimin şəxsi ərazisi deyil. Finlandiyada peşə məsuliyyəti yüksək səviyyədədir. Finlandiyada müəllimin formalaşmasının yaxşı təhsilin açarı olduğunu düşünənlər var və bununla da şagird nailiyyətlərini yüksəldirlər. Müəllim peşəsi bütün dünyada təhsil islahatçıları arasında dəbdə olan mövzuya çevrilib. Uğurlu təhsil sistemləri karyeraları boyu müəllim olmaq üçün düzgün insanları tapmaqla daha çox məşğul olurlar. Finlandiyanın hərtərəfli təhsil sistemi və müəllim hazırlığına beynəlxalq marağın olmasının səbəbi onun PİSA şöhrəti ilə əlaqədardır. Təhsil sisteminin əsas təməli şagird nailiyyətlərinin artmasıdır. Buna görə də, Finlandiya 1970-ci illərdə təhsil islahatları keçirdi. Təhsil sistemindəki uzun və dərin çalışmalar nəticəsində

finlandiyalı təhsil mütəxəssisləri şagird nailiyyətlərinin artırılmasında əsas faktorun müəllim olduğunu göstərdilər. Təhsil islahatlarından sonra müəllim hazırlığı universitetlərdə yerləşdirildi. Finlandiyadakı bir tələbə müəllim olmaq istəyirsə, ilk öncə mütəxəssislər tərəfindən hazırlanmış imtahanları keçmək məcburiyyətindədirlər. Bu imtahan 300 riyaziyyat sualı, dil biliyi, problem həlletmə bacarıqlarından ibarətdir. Əlavə olaraq tələbələrin pedaqoji bilikləri də yoxlanılır. İmtahanlardan keçən tələbələrdən müsahibə götürülür. Bu müsahibədə tələbələrin motivasiyası, öyrətmə və öyrənmə istəyi, kommunikativ bacarıqları yoxlanılır. Bütün bu mərhələlərdən sonra on tələbədən biri bu ixtisasa qəbul olur.

Tədqiqat müəllim hazırlığının funksiyasının əsasını təşkil edir. Belə ki, hər bir müəllim ixtisası üzrə təhsil alan tələbə müəllim statusunu qazanmaq üçün magistr dərəcəsi almalıdır.

Azərbaycan Respublikasında müəllim olmaq istəyən tələbələr DİM (Dövlət İmtahan Mərkəzinin) imtahanında iştirak edir. İmtahanda topladığı bala əsasən ixtisas seçimi edir. Müəllim hazırlığı 4-5 ildir (ixtisasa görə dəyişir, məs: tarix və coğrafiya müəllim hazırlığı ayrı-ayrılıqda 4 il olduğu halda, tarix-coğrafiya müəllim hazırlığı 5 ildir). Müəllimlərin işə qəbulu Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Müsabiqə nəticəsinə görə müəllimlər işə qəbul olur. Müsabiqə dörd mərhələdən ibarətdir. Birinci mərhələdə müəllim hazırlığını bitirən tələbələr ərizə verir, ikinci mərhələdə test imtahanı, üçüncü mərhələdə vakant yerlərin seçilməsi, dördüncü mərhələdə isə Elm və Təhsil Nazirliyi tərəfindən yaradılan xüsusi qrup tərəfindən müsabiqə mərhələsi təşkil olunur. Müsahibədə iştirak etmək üçün bakalavr dərəcəsi mütləqdir.

İstər Azərbaycanda, istərsə də Finlandiyada müəllim hazırlığı ali təhsil müəssisələrində həyata keçirilir. Azərbaycan Respublikasında pedaqoji kadrların ilkin hazırlığı orta ixtisas müəssisələrində (kolleclər), ali təhsil müəssisələrində (universitetlər, akademiyalar, institutlar), Finlandiyada isə həm universitetlərdə, həm də tətbiqi elmlər universitetlərində aparılır. Azərbaycanda məktəbəqədər təhsildə müəllimlərdən bakalavr dərəcəsi tələb olunur. Finlandiyada məktəbəqədər təhsil ilə mərkəzə əsaslanan ECEC (Early Childhood Education and Care) məşğuldur. Məktəbəqədər təhsilin müəllimləri ali təhsilli olmalıdır. ECEC-in kadr strukturuna məktəbəqədər təhsilin müəllimləri ilə yanaşı başqa iki vəzifə daxildir: sosial pedaqoqlar və uşaq baxıcıları. Sosial pedaqoqlar tətbiqi elmlər universitetinin bakalavr dərəcəsinə malikdir. Uşaq baxıcılarından yuxarı orta ixtisas tələb olunur.

Finlandiyada hər bir ibtidai və orta məktəb müəlliminin müəllim ixtisası alması üçün magistr dərəcəsi tələb olunur. Belə ki, Finlandiyadakı universitetlərdə bakalavr təhsilinin müddəti 3 il, ardınca davam etdirilməsi məcburi olan magistr təhsili isə 2 ildir. Burada ibtidai müəllim hazırlığı 5 ildir.

Helsinki universitetinə (2013) görə ümumi müəllim hazırlığı 5-5,5 il arasında dəyişməkdədir.

Azərbaycanda isə belə bir məcburiyyət yoxdur. Bakalavr dərəcəsi kifayət edir və müəllim hazırlığı dörd ildir. Finlandiyada beş illik müəllim hazırlığı proqramına daxildir: bakalavr və magistr dissertasiyaları, məktəblərdə mövcud olan fənnlər üzrə tətqiqatlar, pedaqoji təcrübə dövrləri, təhsil elmləri üzrə əsas, orta, kiçik səviyyəli işlər və s. Azərbaycanda dörd illik müəllim hazırlığı proqramına daxildir: bakalavr dissertasiyası, təcrübə dövrü və s.

Finlandiya və Azərbaycan Respublikasında müəllim hazırlığı (ibtidai təhsil) üzrə tələbələr qəbul imtahanı əsasında seçilir. Azərbaycan Respublikasında qəbul imtahanı test formasında, Finlandiyada isə qəbul imtahanına çox vaxt yazılı imtahan, qabiliyyət imtahanı və müsahibə daxildir. İbtidai təhsil (sinif rəhbəri) əsas fənn təkmil tədqiqatlar və təcrübədən ibarətdir. Hazırda məzun olan sinif rəhbərlərinin əksəriyyəti həm sinif, həm də fənn müəllimliyi ixtisaslarına yiyələnmişlər. İbtidai təhsil üzrə magistr dərəcəsinə aşağıdakılar daxildir:

- təhsildə əsas və digər fənn tədqiqatları;
- dil və ünsiyyət tədqiqatları;
- təhsildə qabaqcıl tədqiqatlar;
- istəyə görə tədqiqatlar.

Azərbaycan Respublikasında fənn müəllimi olmaq üçün qəbul balına uyğun universitetə qəbul olduqdan sonra dörd il boyunca həmin fənni tam mənimsədəcək bir proqramı bitirməli və sonuncu semestr orta məktəbdə təcrübə keçməlisən. Finlandiya da isə ya ibtidai təhsili təkmilləşdirib fənn müəllimi ola bilərlər ya da bəzi universitet və fakültələrdə tələbələr birbaşa fənn müəllimi hazırlığı üçün müraciət edə bilərlər. Belə hallarda təhsil müəllim hazırlığı şöbəsi və müvafiq fənn kafedraları arasında əməkdaşlıq şəraitində həyata keçirilir. Müəllim hazırlığı şöbəsi pedaqoji fənnlərin tədrisinə cavabdehdir. Müxtəlif fakültələrin fənn kafedraları isə tədris fənləri üzrə təhsil verir. Burada fənn müəllimi hazırlığı 5-6 ildir. Tədris elə təşkil olunub ki, fakültələrin fənn kafedraları müvafiq fənn üzrə təlimatın verilməsinə müəllimlərin hazırlıq şöbəsi isə onların təhsildə tədrisinin təşkilinə cavabdehdir. Təcrübədə tələbələr adaptasiya zamanı tədris və şagirdlərlə tanış olurlar. Tələbələr məktəblərdə ya tək, ya da cütlər formasında təcrübə keçirlər. Onlar dərsin tədrisini müşahidə edir, tədrisi təcrübədən keçirir və komanda müəllimi kimi çıxış edirlər. Burada məqsəd tədris prosesi haqqında tələbələrin təsəvvürlərini genişləndirmək, onları müəllim vəzifəsini yerinə yetirməyin müxtəlif üsulları ilə tanış etməkdir. Həmçinin, təcrübənin məqsədi tələbələrə

öz işlərini qiymətləndirməkdə (refleksiyada) bələdçilik etmək, onların peşəkar inkişafını dəstəkləməkdir.

Finlandiyada peşə təhsili müəssisələrində müəllim hazırlığı nisbətən fərqlidir. Müəllimlər öz fənn sahəsi üzrə peşə təhsili aldıqdan sonra 3 il öz iş təcrübəsi keçirlər, sonra müəllimlərin pedaqoji təhsili ilə peşə təhsili müəllim hazırlığı başa çatır. Peşə təhsili alan tələbələrin çoxu təcrübə zamanı məktəbdə işləyir və praktik məşğələlərini də burada keçirlər. Təcrübəçilərə nəzarət edilir və qiymətləndirilir. Peşə müəssisəsindən və tədris fənnindən asılı olmayaraq müəllimlərdən ya magistr dərəcəsi, ya tətbiqi elmlər universitetinin dərəcəsi, ya da öz peşə sahəsi üzrə ən yüksək ixtisas və bu sahədə ən az üç il iş təcrübəsi tələb olunur. Qəbul prosesi namizədlərin əvvəlki tətqiqat və təcrübəsinə əsaslanır. Peşə müəllim hazırlığının məqsədi tələbələrə rəhbərlik etmək, peşə və iş həyatlarındakı inkişaf nəzərə alınaraq öz tədris sahələrinə uyğun bilik və bacarıq verməkdir. Peşə müəllim hazırlığına əsas tədqiqatlar, peşə fənninin pedaqoji tədqiqatları, pedaqoji təcrübə və digər tədqiqatlar daxildir. Peşə müəllim hazırlığı müəssisələri öz tədris planlarını tərtib etməkdə sərbəstdirlər. Tələbələri həm tədris müddətində, həm də sonrakı peşəkar həyatlarında əməkdaşlıq etməyə təşviq etmək diqqət mərkəzindədir.

Azərbaycan Respublikasında peşə hazırlığı həyata keçirən müəssisələrin sayı günü-gündən artır. Peşə təhsili müəssisələrində müəllim hazırlığı magistr dərəcəsi tələb etmir. Azərbaycanda peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbul forması üç mərhələli müsabiqədən keçməkdən ibarətdir. Birinci mərhələdə müsabiqədə iştirak etmək üçün ərizə verən namizədlərin nailiyyətləri qiymətləndirilir. İkinci mərhələdə namizədlər üzrə test mərhələsi, üçüncü mərhələdə isə müsahibə keçirilir. Peşə məktəblərinə mühəndis-pedaqoji işçi kimi qəbul olmaq istəyənlər üçün yalnız müsahibə keçirilir. Müsahibə götürənlər Elm və Təhsil Nazirliyi tərəfindən yaradılan xüsusi işçi qrup tərəfindən həyata keçirilir. Əgər vakansiyaların sayı az olarsa, kadr təminatı üçün ali və orta ixtisas təhsili müəssisələrinə müraciət etmək mümkündür.

Azərbaycan Respublikasında ali təhsil müəssisələrində müəllim kimi çalışmaq üçün magistr dərəcəsi tələb olunur. Magistr dərəcəsi olan müəllim ali təhsil müəssisələrində sadəcə seminar dərsləri keçir. Mühazirə və seminar dərslərini tədris etmək üçün müəllimdən doktorluq dərəcəsi tələb olunur. Finlandiyada isə ali təhsilli akademik kadrların təhsili üçün magistr dərəcəsi mütləqdir. Tədqiqatların sayı digər müəllimlərin tədqiqatlarından çox olmalıdır.

***Ədəbiyyat***

1. *"Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyul 2007-ci il tarixli №102 li qərarı.*
2. *F.N.İbrahimov, R.L.Hüseynzadə., Pedaqogika I cild, Bakı - 2012, s. 706.*

3. *S.Ramizoğlu. Finlandiyada təhsil və tərbiyə haqqında mülahizə, "Respublika", 14 yanvar 2014-cü il, №006 .*
4. *M.Thrupp, P.Seppanen, J.Kauko, S.Kosunen., Finland`s famous education system, p. 466.*
5. *Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında), Müəllim üçün vəsait , "Adiloğlu", Bakı - 2005.*
6. *Mkbrayd Rob, Kazımzadə A., Şiriyev B., Müəllim hazırlığı / pedaqoji təhsil (Yekun hesabatların layihəsi), "Azərbaycan müəllimi", 19 noyabr 2002-ci il №57.*
7. *https://www.taylorfrancis.com/books/oa-mono/10.4324/9780203068793/dynamics-education-politics-hannu-simola-jaakko-kauko-janne-varjo-mira-kalalahti-fritjof-sahlstrom*
8. *https://eurydice.eacea.ec.europa.eu/national-education-systems/finland/organisation-and-governance*

**A.K.Siracova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***siracovaysu@gmail.com***

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTEQRASİYA İMKANLARI

***Xülasə***

*Azərbaycan dilinin tədrisində həyata keçirilməsi nəzərdə tutulan bir sıra məzmun istiqaməti və ya məzmun xəttindən biri də "Dil qaydaları" üzrə bilik və bacarıqların inteqrasiyada formalaşdırılmasıdır. Şagirdlər dil qaydalarını öyrənməklə dilin fonetik, leksik və qrammatik quruluşu ilə tanış olur, bunlarla bağlı konkret anlayışlara sahib olurlar. Qayda və şərhlərin inteqrativ formada öyrədilməsi şagirdlərin düzgün dil və nitq bacarıqlarının formalaşması və inkişafina imkan yaradır.*

*İnteqrasiya həm də varisliyin təminatçısıdır. Yeni dərslik və dərs vəsaitlərinə diqqət yetirsək, belə görmək olar ki, ənənəvi təlimin bir çox elementləri Azərbaycan dili kursunun məzmununda, mənimsədilməsi sistemində özünü qoruyub saxlamışdır. Yeni dərsliklərdə təcrübi, əməli mahiyyətə geniş yer ayrılsa da, dil qaydasının vasitəçi kimi rolu da diqqətdən kənarda qalmamışdır. Məqalədə bu məsələlər ətraflı şərh edilir, nümunələr göstərilir və fikir mübadiləsi aparılır.*

# ВОЗМОЖНОСТИ ИНТЕГРАЦИИ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Резюме***

*Одним из содержательных направлений или содержательных линий, которые предполагается реализовать в преподавании азербайджанского языка, является формирование знаний и умений по интеграции «Правил языка». Изучая правила языка, учащиеся знакомятся с фонетической, лексической и грамматической структурой языка и имеют связанные с ними конкретные понятия. Обучение правилам и толкованиям в комплексной форме способствует формированию и развитию у учащихся правильных языковых и речевых навыков.*

*Интеграция также является фактором преемственности. Если обратить внимание на новые учебники и учебные материалы, то можно увидеть, что многие элементы традиционного образования сохранились в содержании курса азербайджанского языка, в системе его усвоения. Хотя в новых учебниках много места отведено практической, практической сути, роль языкового правила как посредника не осталась без внимания. В статье подробно разъясняются эти вопросы, приводятся примеры и происходит обмен мнениями.*

# POSSIBILITIES OF INTEGRATION IN THE LESSONS OF THE AZERBAIJAN LANGUAGE

***Summary***

*One of the content directions or content lines that are supposed to be implemented in the teaching of the Azerbaijani language is the formation of knowledge and skills for the integration of "Language Rules". Learning the rules of the language, students get to know the phonetic, lexical and grammatical structure of the language and have specific concepts related to them. Learning rules and interpretations in a complex form contributes to the formation and development of correct language and speech skills in students.*

*Integration is also a factor of succession. If you pay attention to new textbooks and teaching materials, you can see that many elements of traditional education have been preserved in the content of the Azerbaijani language course, in the system of its assimilation. Although in the new textbooks, much space is devoted to practical, practical content, the role of the language rule as a mediator has not been left without attention. In the article, these questions are explained in detail, examples are given, and there is an exchange of opinions.*

***Açar sözlər:*** *dil təlimi, fonetik bəhsi, inteqrasiya, vahid nitq rejimi,*

***Ключевые слова:*** *языковая подготовка, фонетическая дискуссия, интеграция, единый речевой режим*

***Key words:*** *language preparation, phonetic discussion, integration, unified speech mode*

Dil bütöv bir sistem təşkil edir və bu sistemdə mövcud olan daxili qanunauyğunluqları bilmədən, dil qaydalarının bir-biri ilə dialektik vəhdətini nəzərə almadan onu tam və yetərli səviyyədə qavramaq mümkün deyildir. İnteqrasiya müqayisə zəminində qurulur və oxşar cəhətləri olmayan anlayışları müqayisə obyektinə çevirmək qüsurludur.

Hər hansı bir dilçilik məfhumunun leksik-qrammatik əlamətlərini bilmədən onlar arasında əlaqənin xüsusiyyətini başa düşmək və beləliklə də, dil hadisələri zəncirindəki zəruri, obyektiv münasibətləri qavramaq olmaz. Bu cəhəti nəzərə alan professor Həsən Balıyev yazırdı: "Müəllim qrammatik məfhum və anlayışlar barədə ən zəruri bilikləri şagirdlərə verməklə bərabər, onların ayrı-ayrı bölmələri üzrə proqramda konkret olaraq göstərilmiş bacarıqlara yiyələnməsi qayğısına da qalmalıdır" [1, 2].

Mənimsənilən məfhum digəri ilə əsas və əlavə əlamətlərinə görə inteqrasiyada araşdırıldıqdan sonra onlardan nitq praktikasında istifadə reallaşır. Qrammatik əşya olmadan dərəcə, zaman, miqdar əlamətləri mümkün deyildir. Tədqiqat işində dilçilik bölmələrinin inteqrativ tədrisinə diqqət ayırmış, dil qaydalarının mənimsədilməsində fəndaxili və fənlərarası inteqrasiyanın imkanlarını araşdırmışıq.

Ümumi şəkildə "qrammatik biliklər" adlandırılan dil qaydaları haqqında elmi-pedaqoji ədəbiyyatlarda geniş danışılmışdır. Bir mənalı olaraq belə fikrə gəlinmişdir ki, qaydaları öyrənmək mənimsəməni asanlaşdırır.

Azərbaycan dilinin tədrisində həyata keçirilməsi nəzərdə tutulan bir sıra məzmun istiqaməti və ya məzmun xəttindən biri də "Dil qaydaları" üzrə bilik və bacarıqların inteqrasiyada formalaşdırılmasıdır. Şagirdlər dil qaydalarını öyrənməklə dilin fonetik, leksik və qrammatik quruluşu ilə tanış olur, bunlarla bağlı konkret, aydın və sadə anlayışlara sahib olurlar. Qayda və şərhlərin inteqrativ formada öyrədilməsi şagirdlərin düzgün dil və nitq bacarıqlarının formalaşması və inkişafına imkan yaradır, ən zəruri linqvistik anlayışların və məfhumların qavranılmasına yardım edir.

İnteqrasiya həm də varisliyin təminatçısıdır. O, yeni dərslik və dərs vəsaitlərinə diqqət yetirsək, belə görmək olar ki, ənənəvi təlimin bir çox elementləri Azərbaycan dili kursunun məzmununda, mənimsədilməsi sistemində özünü qoruyub saxlamışdır. Yeni dərsliklərdə təcrübi, əməli mahiyyətə geniş yer ayrılsa da, dil qaydasının vasitəçi kimi rolu da diqqətdən kənarda qalmamışdır.

İbtidai sinfi nəzərə almasaq, dil qaydalarına aid nəzəri biliklər, əsasən II sinifdən başlayır və burada mətndaxili inteqrasiya imkanlarından geniş istifadə edilir. Dərsliyə əlavə vəsaitə diqqət etsək, inteqrasiya əsasən dil qaydası üzrə deyil, mətnin məzmunu, strukturu və təhlili üzrə qurulur. Standartların əksəriyyətində bu cür əlaqəni müşahidə etmək mümkündür. Yeni dərsliklə köhnə dərsliyi müqayisə etsək, varisliyin necə gözlənildiyini və yenilikləri müşahidə edə bilərik. Fəndaxili əlaqə sisteminə fikir versək görərik ki, fəndaxili əlaqənin özü dildaxili əlaqəyə əsaslanır. Dildəki bu bağlılıq dillə təfəkkürün vəhdəti və fərqi kimi özünü göstərir. Dil bir sistem olaraq fonetikadan (fonemdən) başlanır, mətn sintaksisində, niqdə tamamlanır. Təcrübə də göstərir ki, söz səslə əlaqədə öyrənilir.

Hər bir proses özünü özündən qabaqkı və özündən sonrakı fəaliyyətdə göstərir. Bir dil faktı dişli çarx kimi bir-birinə ilişməyəndə sistem hərəkətdən qalır, nitq, ifadə, qanun, üsul yarımçıqlığı yaranır. Məsələn, dil qaydalarının mənimsənilməsi işi səslərin və hərflərin öyrədilməsi ilə paralel aparılır. Elə ilk 3 səsin (***a, n, t***) öyrədilməsi prosesində şagird dil qaydaları ilə tanış olur və belə bir nəticə hasil olur:

1) bu səsləri tanıyır və onları düzgün tələffüz edə bilir;
2) həmin səslərin vasitəsilə sözləri yazmağı və oxumağı bacarır;
3) sözün səs və hərf tərkibini fərqləndirə bilir;
4) sözdəki sait və samit səsləri işarələrin köməyi ilə bir-birindən ayırd edə bilir;
5) sözləri hissələrə bölməyi, sözlərin hecalardan ibarət olmasını dərk edir;
6) şəkillərə baxaraq və ya sözlərdən istifadə edərək cümlə qura bilir;

7) sözdəki hecaların sayı ilə oradakı saitlərin sayının uyğun gəldiyini anlayır.

Əyləncəli oyunlar belə inteqrasiyada verilmiş, danışıq səsləri təbiətdəki canlı və cansız əşyaların səslərinə bənzədilərək təqdim olunmuşdur. I-IV siniflərdə öyrədilmiş səs və hərflər vasitəsilə qazanılmış təlim nailiyyətlərini aşağıdakı kimi sistemləşdirmək olar:

1. Səslə hərfin fərqini başa düşür;
2. Sözün səslərdən yarandığını anlayır;
3. Sait və samit səsləri fərqləndirməyi bacarır;
4. Sözün heca tərkibini öyrənir;
5. Hecalarla sözdəki saitlərin sayca uyğunluğunu başa düşür;
6. Sözə sual verməyi bacarır;
7. Sözün qrammatik məna növlərinə bələd olur, ad, əlamət, say, hərəkəti bildirən sözləri fərqləndirir, qrafik işarəsini tanıyır;
8. Cümlə qurmaq bacarığı əldə edir;
9. -lar$^2$ şəkilçilərinin kəmiyyət (çoxluq) anlayışı yaratdığını dərk edir;
10. Sözün kökü və şəkilçisi haqqında ilkin təsəvvür yazanır;
11. Söz birləşmələri və cümlələri fərqləndirməyi bacarır, bunları şifahi və yazılı şəkildə ifadə etməyi öyrənir;
12. Sözlərin omonimliyi, sinonimliyi və antonimliyi ilə bağlı bilik əldə edir;
13. Tərkibində ***k, q*** samitləri olan sözlərin bəzi tələffüz qaydaları ilə tanış olur;
14. Mürəkkəb sözlərə aid ilkin məlumatları mənimsəyir.

Öyrədiləcək dil qaydalarının tədrisi zamanı şagirdlər həmin qaydaları yeni metodlarla öyrənirlər. Köhnə dərsliklərdən fərqli olaraq, yeni dərsliklərdə dil qaydalarına dair testlər, "düşün və cavab ver", "doğru-yanlış" kimi məntiqi başlıqlar altında öyrədilir.

Yeni nəşr edilmiş dərsliklərdə fəndaxili əlaqə əvvəlcə nitq hissələrinin, sonra sözün tərkib hissələrinin, quruluşunun inteqrasiyasında mənimsədilir. Təbii ki, söz olmadan onun tərkibindən, quruluşundan bəhs etmək mümkünsüzdür [1,2,3,4].

Əslində fonetika ilə bağlı təlimin təməli savad təlim dövründə qoyulur, şagirdlər heca-söz ardıcıllığı və hadisələrlə primitiv də olsa bu dövrdə tanış olurlar. Mövzu daxili mənimsəmə vasitəsilə onlara məlum olur ki, səs və hərf tərkibinin müqayisəsi zəminində çalışmalara, tapşırıqlara üstünlük verilməklə ədəbi tələffüz və yazı ilə bağlı ilk vərdişlər yaradılır.

Səsin sözlərlə müqayisəsi effektiv nəticələr verir və bir növ başlanğıcda fonetikanın tədrisinin orfoepiya və orfoqrafiya ilə inteqrativ tədrisinin təməli qoyulur. Şagirdlər müəyyən təsvirlər üzərində işləməklə (məsələn, boş

xanaların doldurulması) səsin ictimai mahiyyəti, növləri, səsin sözdə rolu və s. məsələlərlə ilkin tanışlıq qazanırlar.

Fonetika, orfoepiya və orfoqrafiya ilə bağlı dil qaydalarının öyrədilməsinə dair verilənlər həm məzmun standartlarına, həm də həcminə görə kifayət qədər genişdir. Həmin qaydalara aid biliklər çalışmalar və testlər vasitəsilə daha da möhkəmlənir.

İnteqrasiya imkanları səfərbər edilərək şagirdlərin səs və hərf haqqında əvvəlcədən bildikləri nəzəri məlumat bir az da genişləndirilir və dəqiqləşdirilir. Bu dərsin sonunda şagirdlər səs və hərf haqqında aşağıdakıları mənimsəyir:

1) sözlərin səslərin birləşməsindən yarandığını;
2) səslərin sait və samit olmaqla iki qrupa bölündüyünü;
3) hərflərin yazıda səslərin işarəsi oluduğunu;
4) səsin eşidildiyini, hərfin isə yazılaraq gözlə göründüyünü.

Dərsin gedişi prosesində şagirdlər paralel olaraq sözlərin yazılış və tələffüz qaydalarına aid biliklərini bir az da möhkəmləndirirlər. Onlar əyani şəkildə görürlər ki, sait səsləri tələffüz edərkən hava axını ağız boşluğunda heç bir maneəyə rast gəlmir, samitlərdə isə əksinə, səs ağız boşluğunda müxtəlif maneələrə rast gəlir.

Şagirdlər əlifba sırası ilə əks edilmiş cədvələ baxaraq sait səslər bir, samitləri isə digər qrafada yazırlar. Bu zaman qruplarla iş daha səmərəli nəticələr əldə etməyə imkan verir. Şagirdlərə iş vərəqləri paylanır, təxminən aşağıdakı qaydada biliyi möhkəmləndirən və inteqrasiya (burada fənlərarası inteqrasiya riyaziyyat fənninin 5.1. standartına əsaslanmaqla qurulur) prosesinə təkan verir:

I qrup verilmiş sözlərdə saitlərin altından xətt çəkir, rast gəlməyən digər saitləri ayrıca sətirdə yazır.

II qrup samitlə başlayıb saitlə bitən beş söz yazır.

III qrup saitlə başlayıb samitlə bilən beş söz yazır.

IV qrup ***p, b, t, d, s, z, h, y*** səslərinə saitlər əlavə edib sözlər düzəldir.

Bundan sonra sait və samitlər haqqında şagirdlərin əldə etdikləri təlim nəticələri ümumiləşdirilir:

1. Sözlər səslərdən yaranır və səslər iki qrupa bölünür.
2. Dilimizdə 9 sait, 25 samit səs vardır.
3. Saitlər uzun tələffüz edilir və tələffüz zamanı ağız boşluğunda heç bir maneəyə rast gəlmir.
4. Samit səsləri tələffüz edərkən hava axını ağız boşluğunda müxtəlif maneələrə rast gəlir [4].

Heca mövzusu isə “Çahargah əfsanəsi” adlı mətn üzərində iş getdikdən sonra dil qaydasında mənimsədilir. Burada da fənlərarası inteqrasiya riyaziyyatın 5.2. standartı ilə qurulur və əsas diqqət hecaların sait səs sayına bərabər olmasına yönəldilir. Yəni şagirdlər sözlər üzərində müşahidələr

apararaq görürlər ki, sözdə neçə sait səs varsa, o qədər də heca vardır. Hər hecada yalnız bir sait səs ola bilər. Samit səs isə iki və daha artıq qola bilər. Şagirdlər bu istiqamətdə əməli iş apardıqdan sonra bu nəticəyə gəlirlər ki, bəzi sözlərdə bir sait bir hecaya bərabər olur: ***a-na, a-ta, a-i-lə*** və s. Göründüyü kimi, belə hecalarda samit səs olmur. Hecaya aid dil qaydasını mənimsəmədə (4.1.1.) şagird sözdə hecaların sayının saitlərin sayından asılı olduğunu bilir, induktiv dərs tipi seçilməklə kiçik qruplarla iş aparılır. Motivasiya ***b, d, y, k, n, m, ş, t, p, h*** lövhəyə yazılması və bu hərflərdən söz düzəldilməsi tapşırığı ilə yaradılır. Belə bir köməkçi sualla sinfə müraciət edilir: "Nə üçün bu qədər hərfdən bir söz belə düzəltmək mümkün olmadı?". Şagirdlər cavabı belə dəqiqləşdirirlər ki, saitlər olmadığına görə söz düzəltmək mümkün olmadı.

Bundan sonra tədqiqat sualı (Sözlərdə hecaların sayını necə müəyyənləşdirmək olar?) qoyulur və tədqiqat qruplarla iş vasitəsilə aparılır. Məlumat mübadiləsi təşkil edilib ümumiləşdirmə apardıqdan sonra nəticə alınır ki, hecalar saitlərin hesabına yaranır.

Heca bəhsinin şüurlu və təcrübi şəkildə mənimsədilməsi üçün verilmiş hecalardan sözlər düzəltmək, birhecalı, ikihecalı, üçhecalı sözlər tapmaq kimi çalışmalar üzərində iş yaxşı nəticə verir. Heca mövzusu mənimsədildikdən sonra onunla bilavasitə bağlı olan və orfoqrafiyanın əsas qaydalarından biri hesab olunan "Sözlərin sətirdən sətrə keçirilməsi" bir dil qaydası kimi mənimsədilir.

Düzgün yazı mədəniyyətinin formalaşmasında sözün sətirdən-sətrə keçirilməsi qaydalarını bilməyin xüsusi əhəmiyyəti vardır. "Sözün sətirdən sətrə keçirilməsi" mövzusu ilə bağlı şagirdlər aşağıdakı qaydaları yadda saxlayır və təcrübədə tətbiq edə bilmək vərdişləri qzanırlar:

1. Sözlər sətirdən-sətrə hecalarla keçir;
2. Sətrin sonunda defis (-) işarəsi qoyulur;
3. Sətrin sonunda bir hərfi saxlayıb, qalanını yeni sətrə keçirmək olmaz: a-rzu yox, ar-zu düzgündür;
4. Sözdən bir hərfi ayırıb növbəti sətrə keçirmək olmaz: təbi-i yox, tə-bii düzgündür;
5. Bir saitdən ibarət heca sətirdən-sətrə keçmir.

Bundan sonra verilən sözlərdən hansının sətirdən-sətrə keçirilməsinin mümkün olmadığı (işıq, dairə, nail), yaxud mətndə hansı sözlərin sətirdən-sətrə düzgün keçirilmədiyini müəyyənləşdirmək xarakterli test və çalışmalar üzrə iş aparılır [2, s.20].

Mövcud samit səslərdən sait artırmaqla yeni sözlər düzəltmək tapşırıqlı işlər heca, onun mahiyyəti, dildə rolu kimi məsələləri anlamağa yardım edən səmərəli üsullardan sayılır. Orfoepiya və orfoqrafiya təliminin düzgün aparılmasında sözlərin yazılışı və deyilişi ilə bağlı qaydaların elmi əsaslarla müəyyənləşdirilməsinin xüsusi rolu vardır.

Şagird hələ birinci sinifdən sözlərin tələffüzü və yazılışına diqqət edərək görür ki, sözlərin heç də hamısı deyildiyi kimi yazılmır və ya yazıldığı kimi tələffüz edilmir. Məsələn, ***qonaq, papaq*** yazsaq da, ***qonax***, ***papax*** kimi tələffüz edirik. Bunun səbəbi və əhəmiyyəti nədir?

Müəllim düzgün yazı və ox təliminin əsasını təşkil edən bu sualın cavabını tapmaq üçün əvvəlcədən belə bir motivasiya yaradır. Lövhəyə ***ailə, yarpaq, məqsəd, pomidor*** kimi tələffüzü fərqli sözlər yazaraq onları adi şəkildə tələffüz etməyi təklif edir.

Şagirdlər ***ayilə, yarpax, məksəd, pamidor*** şəklində tələffüz edilən sözləri yazıldığı kimi tələffüz edir və müqayisə aparırlar və bu suala cavab tapırlar: Hansı formada tələffüz daha asandır və sürətlidir? Təbii ki, şagirdlər bu sualın cavabında çətinlik çəkməyəcəklər. Nəticə olaraq başa düşəcəklər ki, sözün asan tələffüzü daha önəmlidir. Onda yeni bir suala cavab tapmaq lazım gələcək: Madam ki, belə asandır, onda nə üçün sözləri tələffüz etdiyimiz kimi yazmayaq? Müəllim bu sualın cavabına aydınlıq gətirərək başa salmalıdır ki, belə olsa, onda sözlərin əsl qrammatik forması itər, dilin leksik normaları pozular. Bu işin ardınca dərslikdə və iş dəftərində yerinə yetirilməsi nəzərdə tutulan orfoepik və orfoqrafik çalışmaları yerinə yetirən şagirdlər sözün düzgün yazı və tələffüz qaydalarını əyani şəkildə mənimsəyirlər. Çalışmalar vasitəsilə şagirdlər bəzi sözlərin səhv yazılışını, bəzi sözlərin düzgün tələffüz variantını, bir qrup sözlərdə tələffüz zamanı bəzi səslərin düşdüyünü, digərlərində isə əlavə səslər artırıldığını dərk edir, düzgün oxu və yazı vərdişlərinə yiyələnirlər. Bundan sonrakı dərsdə tapşırıqlarda ardıcıl olaraq düzgün oxu və yazı bacarıqlarının formalaşdırılması istiqamətində iş aparılır ki, bu da şagirdlərdə orfoepiya və orfoqrafiya təlimi üzrə qazandırılması nəzərdə tutulan bilik və bacarıqların əsas məğzini təşkil edir. Məsələn, "Saitlərin deyilişi və yazılışı", "Samitlərin deyilişi və yazılışı" adlı növbəti dərslərdə düzgün oxu və yazı vərdişləri elmi əsaslarla inkişaf etdirilir.

Saitlərin tələffüzü və yazılışı ilə bağlı orfoepik və orfoqrafik vərdişlərin qazandırılması prosesində şagirdlər alınma sözlərin yazılışı və deyilişi (kolbasa-kalbasa), iki yanaşı saitli sözlərdə iki sait arasına samit əlavə edilməsi (ailə-ayilə), bəzi sözlərdə saitin düşməsi (səadət-sa:dət) hadisəsini qavrayır və yadda saxlayırlar. Bu iş müvafiq çalışmalarla möhkəmləndirilir və şagirdlər lazımi nəticələr əldə edirlər. Bunun üçün ən münasib üsul "Belə yazılır, belə deyilir" tipli çalışmalardan istifadə etməkdir:

**Belə yazılır:** camaat, müəssisə, kollektiv, tərif, taxta, müalicə, qəhrəman.

**Belə tələffüz edilir:** cama:t, müəssə, kallektiv, tə:rif, taxda, ma:licə, qəhraman.

Samitlərin yazılışı və deyilişi ilə bağlı şagirdlər aşağıdakı təlim nəticələrinə sahib olurlar:

1. Bəzi sözlərdə ***"d"*** samitinin ***"t"*** kimi tələffüzü və ya əksinə: ***kənd-kənt, qənd-qənt, şaftalı-şafdalı, dəftər-dəfdər*** və s.

2. Sözsonu mövqedə ***q-x*** əvəzlənməsi: ***ocaq-ocax, qoçaq-qoçax, aşıq-aşıx.***

3. Bəzi sözlərdə tələffüz zamanı ***q-k*** əvəzlənməsi: ***məqsəd-məksət, nöqtə-nöktə, toqqa-tokqa.***

4. Bəzi sözlərdən samitin düşməsi: ***neftçi-nefçi, rentgen- rengen***.

5. ***g-k*** əvəzlənməsi: ***əsgər-əskər, seçki-seçgi.***

6. ***n-m*** əvəzlənməsi: ***şənbə-şəmbə, zənbil-zəmbil, anbar-ambar.***

7. ***ç-ş*** əvəzlənməsi: ***köçdü-köşvü, uçdu-uşdu.***

8. ***l-n, l-d, l-r, z-l, l-d*** əvəzlənməsi: ***oğlanlar-oğlannar, qızlar-qızdar, açarlar-açarrar, qarlar-qarrar, taxırlar (taxmaq) - taxıllar, güclü-güjdü.***

Sözlərin deyilişi və yazılışı ilk baxışdan asan görünsə də, ibtidai siniflərdə tədris olunmasına, hər sinifdə təkrarlanmasına və XI sinifdə ifadə vasitəsi kimi öyrənilməsinə baxmayaraq şagirdlər orfoepik vərdişlərə tam və mükəmməl yiyələnə bilmirlər. Araşdırma zamanı aydın oldu ki, bunun bir neçə səbəbi vardır: a) orfoepik tələb bütün fənlər üzrə iş ardıcıl, sistemli gözlənilmir; b) bütünlükdə nitq hissələrinin orfoepiyası xüsusi mövzu kimi ayrıca mənimsədilmir; c) müəllimlər mətn oxusu zamanı orfoepik normaların gözlənilməsinə tələbkarlıqla yanaşır; ç) məktəblərimizdə vahid nitq rejimi yoxdur.

Fonetika bəhsinin istənilən mövzusu fəndaxili inteqrasiyada (bölməni ümumilikdə, həyat bilgisi, fizika, riyaziyyat fənləri ilə fənlərarası əlaqədə də öyrənmək şansları mövcuddur) öyrənildikdə mənimsəmənin keyfiyyətindən, qaydanın bütövlüyündən, tamlığından, zəruriliyindən danışmaq olar.

***Ədəbiyyat***


1. *"Azərbaycan dili" (tədris dili kimi) Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik, Bakı, "Şərq-Qərb", 2020, 208 s.*
2. *"Azərbaycan dili" (tədris dili kimi) Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı, "Şərq-Qərb", 2020, 208 s.*
3. *"Azərbaycan dili" (tədris dili kimi) Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik, Bakı, "Şərq-Qərb", 2019, 192s.*
4. *"Azərbaycan dili" (tədris dili kimi) Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün fənni üzrə metodik vəsait. Bakı, "Şərq-Qərb", 2019, 192 s.*
5. *Cəfərova L. "Fənn kurikulumunun tədrisi üsulu və vasitələri. Bakı – 2018.*
6. *Cəfərova N. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası II hissə. Bakı, ADPU , 2019, 430s.*
7. *Hacıyev A., Mehrabova T. Müasir Azərbaycan dili mühazirə mətnləri. Bakı - 2019.*

8. *Kazımov A., Əliyev H. Ə.Əfəndizadə Azərbaycan dilində suallar və cavablar. Bakı - 2019.*
9. *Qurbanov V. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Müəllim nəşriyyatı, 2014, 258 s.*
10. *Qurbanov V. Azərbaycan dili təliminin problemlərinə dair (mülahizələr və şərhlər). Bakı, "Müəllim" nəşriyyatı, 2019, 204 s.*

**S.E.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***svnchesenova3@gmail.com***

# "AZƏRBAYCAN DİLİ" DƏRSLİKLƏRİ MÜASİR TƏLİM VASİTƏSİ KİMİ

***Xülasə***

*Hazırda Azərbaycan dili fənni ənənəvi proqramlarda olduğu kimi yalnız dil qaydalarını mənimsətmək xarakteri daşımır, dinləmə, anlama, oxu, yazı vərdişləri, bacarıqları formalaşdırmalıdır. Bunun üçün Azərbaycan dili fənninin dörd məzmun xətti müəyyənləşdirilmişdir və həmin məzmun xətləri I sinifdən XI sinfə qədər dəyişməz olaraq davam etdirilir.*

*Məzmun xətləri nitq bacarıqlarının tələblərini ehtiva edir. Nitq bacarıqları şəxsiyyətin əsas göstəricilərindəndir. Oxu vərdişləri şagirddə müxtəlif mətnləri anlayışla oxumağı, mütaliə qabiliyyətlərini, danışma bacarıqları onun özünü təqdim etmə, fikrini çatdırma qabiliyyətini inkişaf etdirməlidir. Bu nitq bacarıqlarının formalaşdırılması üçün müəyyən dil qaydalarının mənimsənilməsinə də ehtiyac yaradır. Dil qaydaları kimi, tam həcmlə verilməməli, yalnız zəruri qaydalar şagirdə mənimsədilməlidir. Burada yoruculuq, bezdiricilik, mexaniki əzbərçilik olmamalıdır.*

*Şagirdlər zəruri dil qaydalarını bilməli, yazılı və şifahi nitqlərində onlardan istifadə etməlidirlər. Ümumiyyətlə, demək olar ki, müstəqil, müəllimin göstərişi olmadan, müxtəlif dil hadisələrini müqayisə edən şagirdlər tədrisi prosesində belə işlərin mümkünlüyünü və zəruriliyini nümayiş etdirirlər. Qeyd edilən tələblər və funksiyalar baxımından istifadədə olan "Azərbaycan dili" dərslikləri əsas təlim vasitəsi kimi ardıcıl olaraq qiymətləndirilməli, təhlil edilməli və təkmilləşdirilməlidir.*

# УЧЕБНИКИ «АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК» КАК СОВРЕМЕННЫЙ ОБРАЗОВАТЕЛЬНЫЙ ИНСТРУМЕНТ

***Резюме***

*В настоящее время предмет азербайджанский язык не носит характера овладения правилами языка, как в традиционных программах, он должен формировать навыки и умения аудирования, понимания, чтения, письма. Для этого предмет азербайджанский язык были определены четыре строки содержания, и эти строки содержания продолжаются без изменений от класса I до класса XI.*

*Строки контента содержат требования к навыкам разговорной речи. Речевые навыки являются одним из основных показателей личности. Навыки чтения должны развивать у учащегося умение читать различные тексты с пониманием, навыки чтения, разговорные навыки, его умение подать себя и передать свои мысли. Для формирования этих речевых навыков необходимо*

*усвоить определенные правила языка. Как и языковые правила, они не должны приводиться полностью, ученик должен усвоить только необходимые правила. Здесь не должно быть утомительного, скучного, механического запоминания.*

*Студенты должны знать необходимые языковые правила и использовать их в письменной и устной речи. В целом практически самостоятельно, без руководства преподавателя, учащиеся, сравнивая разные языковые явления, демонстрируют возможность и необходимость такой работы в процессе обучения. С точки зрения указанных требований и функций используемые учебники «азербайджанского языка» должны последовательно оцениваться, анализироваться и совершенствоваться как основное средство обучения.*

## "AZERBAIJAN LANGUAGE" TEXTBOOKS AS A MODERN EDUCATIONAL TOOL

***Summary***

*At present, the subject of the Azerbaijani language does not have the character of mastering the rules of the language, as in traditional programs, it must form listening, comprehension, reading, and writing skills. Four lines of content were defined for this subject, the Azerbaijani language, and these lines of content continue without changes from class I to class XI.*

*Content lines contain requirements for conversational skills. Speech skills are one of the main indicators of personality. Reading skills should develop the student's ability to read various texts with understanding, reading skills, conversational skills, his ability to present himself and convey his thoughts. To form these speech skills, it is necessary to learn certain rules of the language. As well as language rules, they should not be given completely, the student should learn only the necessary rules. There should be no tedious, boring, mechanical memorization here.*

*Students must know the necessary language rules and use them in written and oral speech. In general, practically independently, without the teacher's guidance, students, comparing different linguistic phenomena, demonstrate the possibility and necessity of such work in the learning process. From the point of view of the specified requirements and functions, the used textbooks of the "Azerbaijan language" must be consistently evaluated, analyzed and improved as the main means of education.*

***Açar sözlər:*** *dərslik, metodik vəsait, Azərbaycan dili, məzmun xətləri*
***Ключевые слова:*** *учебник, методические материалы, азербайджанский язык, содержательные линии*
***Key words:*** *textbook, teaching materials, Azerbaijani language, content lines*

Kurikulum ümumi təhsil sahəsi üzrə bir çox istiqamətləri özündə əks etdirən konseptual sənəddir. Burada təlim nəticələri əks olunur ki, bunlar da təlimin nəticəsini əvvəlcədən müəyyən etməyə şərait yaradır. Müəllim təlimin əvvəlində hansı nəticələri əldə edəcəyini bilir və bunun əsasında da təlim

prosesini planlaşdırır. Kurikulumlar zamanın, qloballaşmanın müasir təsiri və nəticələrinə əsaslanaraq tətbiq edilir. Bu sənəddə təhsilin idarə edilməsi, təhsilin məzmunu, təlimin starategiyaları, planlaşdırılma, qiymətləndirmə məsələləri əks olunur [1].

Kurikulumun yeni prinsipləri yeni dərsliklərin məzmununu formalaşdırdı. Bu sənədə əsasən Azərbaycan dili fənninin məzmunu dinləyib-anlama, oxu, yazı və dil qaydaları olaraq dörd xəttə bölünürdü. Hər bir məzmun xəttinin öz tələbləri və xüsusiyyətləri var. Kurikulumun tələblərinə görə Azərbaycan dili fənni ənənəvi proqramlarda olduğu kimi yalnız dil qaydalarını mənimsətmək xarakteri daşımır, dinləmə, anlama, oxu, yazı vərdişləri, bacarıqları formalaşdırmalıdır. Yəni şagird Azərbaycan dili vasitəsi ilə nitq bacarıqlarına yiyələnməlidir. Bunun üçün Azərbaycan dili fənninin dörd məzmun xətti müəyyənləşdirilmişdir və həmin məzmun xətləri I sinifdən XI sinfə qədər dəyişməz olaraq davam etdirilir.

Məzmun xətlərinə aid alt standartların məzmunu isə sinifdən sinfə keçdikcə sadədən mürəkkəbə doğru genişlənir. Bu genişlənmə təlimin inkişafının təmin olunması məqsədi daşıyır. Şagirddə hər bir məzmun xətti üzrə tələb olunan bilik və bacarıqları formalaşdırmaqla həmin alt standartları rahatlıqla reallaşdırmaq mümkündür. Bunun üçün hər bir məzmun xətti üzrə tələbləri və onları reallaşdırmaq üsullarını bilmək vacibdir.

Dinləmə məzmun xəttinin tələbinə görə şagird müəllimin, sinif yoldaşının ifasında, yaxud müəyyən texniki vasitələrlə mətni dinləməli, müvafiq sual və tapşırıqlarla dinləmə qabiliyyətinin səviyyəsi müəyyənləşdirilməlidir. Bu səviyyələrə və şagirddən tələb olunan bacarıqlara uyğun olaraq müxtəlif standartlar müəyyənləşdirilmişdir. Təlim ilinin sonunda şagird bir çox bacarıqları nümayiş etdirməlidir [1].

Dinləmə bacarıqları formalaşdıran materiallarda bəzi çatışmazlıqlar vardır ki, bunun da başlıcası texniki avadanlıqların olunmamasıdır. Dinləmə məzmun xətti özündə həm məzmunun, həm də tələffüzün dinlənilməsini əks etdirir. Şagird bədii, nəqli və elmi-publisistik mətni dinləyərkən danışıq tərzi, ədəbi dil nümunəsi ilə tanış olmalıdır.

Kurikulum əsaslı Azərbaycan dili dərsliklərində məzmunun digər hissəsi oxu məzmun xətti ilə bağlıdır. Oxu məzmun xəttində şagird mətni oxumalı, mətnlə bağlı müxtəlif bacarıqlar əldə etməli, oxuduğu mətnin məzmununu başa düşməli, hadisə və əhvalatları anlamalı, onlar arasında əlaqəni qurmalı, pozulmuş qanunauyğunluqları bərpa etməli, mətnin buraxılmış hissəsini məzmuna uyğun olaraq yenidən təşkil etməli, öz fikir və mülahizələri ilə mətni genişləndirə bilməlidir. Şagird oxu prosesində rast gəldiyi tanış olmadığı sözlərin müvafiq qarşılığını tapmaqla şərh etməli, söz və ifadələrin çoxmənalılığını, həqiqi, yaxud məcazi mənada olmasını bilməli, onları əks formada işlətməyi bacarmalıdır. Bu standartlar aşağı siniflərdən

yuxarı siniflərə doğru mürəkkəbləşərək davam etdirilir. Yuxarıda müəyyənləşdirilmiş bilik və bacarıqlar, məzmun xəttinin tələbləri standartlarda əksini tapır. Bəzi alt-standartların tələbləri ilə bağlı məsələləri təhlil etməyi zəruri hesab edirik. Standartlar quruluşuna görə bilik və bacarıq modelinə uyğundur. Onların ad hissəsi biliklərin adını və məzmununu, feil hissəsi ilə bacarıqların növünü müəyyən edir. Hər bir alt standart şagirdin hansısa bir bacarıqlarını yoxlayır.

Bəzi standartlarda şagird ona verilmiş sözün həqiqi və məcazi mənada olmasını müəyyənləşdirməli, buna uyğun olaraq, mətndəki tapşırıqlara cavab yazmaq vərdişləri formalaşdırılmalıdır. Bəzilərində mətnin hissələri arasında əlaqəni müəyyənləşdirməlidir. Bu əlaqələri müəyyənləşdirdikdən sonra yuxarı siniflərə keçdikcə şagird mətnin giriş, ümumi və nəticə hissəsini müəyyənləşdirdikdən sonra onlar arasında əlaqələri müəyyən etməyi bacarmalıdır.

Hər bir dövlət standartının reallaşdırılması üzrə iş aparmaq vacibdir. Bu gün dünyada intellektual və iqtisadi aktiv insan üçün müəyyən edilmiş bacarıqlar vardır. Həmin bacarıqlar müxtəlif beynəlxalq qiymətləndirmə imtahanları tərəfindən yoxlanılır. Bu imtahanlar məktəblilərin qərarvermə, müqayisə etmə, böhranlı vəziyyətlərdə davranma aktivliyini və səriştəsini yoxlayır. Buna uyğun olaraq da dövlət tərəfindən standartlar müəyyənləşir və dərsliklər də onun əsasında hazırlanmalıdır. Şagird bu gün mətndəki əsas fikir və ideyaları müəyyənləşirirsə, gələcəkdə qarşılaşacağı situasiyalarda, tədqiqat və digər xarakterli vəziyyətlərdə də öz miqyasına müvafiq olaraq münasibət bildirmə bacarığına malik olacaqdır.

Yazı məzmun xətti şagirdin arayış, protokol, tezis, xülasə yazmaq, eləcə də müxtəlif tipli mətnlər yazmaq, mətnin hissələri arasında əlaqəni gözləməklə yazıya düzəlişlər etmək, sitatlardan istifadə etmək bacarığını formalaşdırır. Bununla bağlı şagird yazı məzmun xəttinə aid bir çox bilik və bacarıqları nümayiş etdirməli, ilk olaraq Azərbaycan dili dərsində mənimsədiyi dil qaydalarından istifadə etməlidir. Azərbaycan dilində düzgün yazmaq, düzgün cümlə strukturundan istifadə etmək əsas bacarıqlardandır [3]. Çünki düzgün yazı qabiliyyəti hər bir kəsin savadlılığının göstəricisidir. Yazı məzmun xətti təkcə normalara müvafiq yazı qaydalarını özündə əks etdirmir. Buraya şagirdin fikrini düzgün yazılı şəkildə ifadə etmək bacarığı da daxildir. Şagird müxtəlif məzmunlu mətnlər hazırlamalı, təqdimatlar etməlidir.

Yazı məzmun xəttinin tələbinə görə şagird düzgün, dəqiq, məntiqli və ahəngdar yazı vərdişlərinə yiyələnməlidir. Həm nəzəri, həm də praktiki olaraq şagird mətnləri görməli, qaydaları mənimsəməli və bacarıqları formalaşmalıdır. O, plan qurmalı, qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirməlidir. Şagird bu tələblər üzrə mətnin tərkib hissələrini

müəyyənləşdirmək və onlar arasındakı əlaqəni tapmaq bacarığını inkişaf etdirməlidir.

Yuxarıda qeyd etdiyimiz məzmun xətləri nitq bacarıqlarının tələblərini ehtiva edir. Nitq bacarıqları şəxsiyyətin əsas göstəricilərindəndir. Oxu vərdişləri şagirddə müxtəlif mətnləri anlayışla oxumağı, mütaliə qabiliyyətlərini, danışma bacarıqları onun özünü təqdim etmə, fikrini çatdırma qabiliyyətini inkişaf etdirməlidir. Bu nitq bacarıqlarının formalaşdırılması üçün müəyyən dil qaydalarının mənimsənilməsinə də ehtiyac yaradır. Dil qaydaları kimi, tam həcmlə verilməməli, yalnız zəruri qaydalar şagirdə mənimsədilməlidir. Burada yoruculuq, bezdiricilik, mexaniki əzbərçilik olmamalıdır.

Bu prinsiplərə uyğun olaraq kurikulum əsaslı Azərbaycan dili dərslikləri formalaşdırılmalı idi. Dərsliklərdə həm didaktikanın tələbləri gözlənilməli, həmçinin də standatların tələblərinə əməl edilməlidir.

Didaktikanın məlum prinsipləri ilə yanaşı, Azərbaycan dili dərsliklərinin tərtibi prosesində nəzərə alınmalı spesifik prinsip və tələblər də mövcuddur. Bəzən onları bir-birindən fərqləndirmək, təcrid etmək mümkün olmur. Biz onları fərqləndirməyə səy göstərmədən “Azərbaycan dili” dərsliklərinin hazırlanmasında nəzərə alınması zəruri olan məsələlər, şərtlər üzərində dayanmağı məqsədəuyğun hesab edirik. Burada təqdim olunan prinsiplərin milli kurikulumun tətbiqi baxımından dəqiqləşdirməyə və tamamlamağa məruz qalacağı şübhəsizdir. Dərslik tərtib edilərkən ilk növbədə yuxarıda qeyd etdiyimiz kurikulumların tələblərinə uyğun olmalıdır. Kurikuluma uyğunluq onda nəzərdə tutulmuş məzmunun dərslikdə əhatə olunmasını tələb edir. Kurikulumda şagirdlərin mənimsəməli olduqları biliklərin məzmunu və həcmi ümumi şəkildə müəyyənləşdirilir. Burada tədrisin elmi-nəzəri və ideya-siyasi səviyyəsinin necə olacağı, uşaqlarda dünyagörüşün hansı əlamətlərini formalaşdırmağın zəruri olduğu göstərilir. Proqramda strategiya verilirsə, dərslikdə onun taktikası əksini tapmalıdır. Dərslikdə proqramın məzmununun əhatə olunmaması və ya onun əlavələr, lüzumsuz materiallarla yüklənmələr ciddi nöqsan hesab edilir. Proqrama uyğunluq prinsipi orada verilmiş təxmini tematikanın əhatə olunmasını tələb edir. “Azərbaycan dili” dərsliyi tərtib edilərkən mövzuların proqramdakı ardıcıllığı, əsasən, gözlənilməlidir. Dərslik müəllifi bu tələbə şüurlu yanaşmalı, materialın asan mənimsənilməsini, möhkəm yadda qalmasını təmin edən müəyyən dəyişikliklər aparmalıdır.

Hazırda kurikulumlar dilin bütün vahidlərinin qarşılıqlı əlaqədə öyrədilməsini tələb edir. Bu zaman savadlı şifahi və yazılı vərdişlərin yaranmasının praktik əhəmiyyətini nəzərə almaq lazımdır. Nitq bacarıqlarının inkişafı dərsliyin aparıcı mövzusu olduğundan bütün bölmələrin içərisindən qırmızı bir xətt kimi keçməli, hər bir çalışma nitq inkişafının bu və ya digər

sahəsi üzrə iş aparmağa imkan verməlidir. Bununla yanaşı, dərsliyə nitqin səs mədəniyyəti, düzgün tələffüz, düzgün yazılış, söz yaradıcılığı, frazeologiya, üslubiyyat, nitqin təmizliyi, onun ekspressiv-emosional cəhəti, şifahi və yazılı ifadə və inşalar üzrə çalışmalar daxil edilməlidir.

Dərslik kurikulumların məqsədini açmalı, nəzərdə tutulmuş biliklər, anlayışlar, qaydalar, faktik materialın sistemi bir növ tezislər şəklində dərslikdə verilməlidir. Onun açılması, əsl məzmunun verilməsi müəllimin üzərinə düşür. Proqramda strategiya verilirsə, onun taktikası dərslik müəllifindən asılıdır. Müəllif həmin mövzu ilə əlaqədar nələri və necə vermək üzərində düşünməlidir. Bu şərtlə ki, elmi yanlışlıqlara yol verilməsin. Bu tərtibat zamanı şagirdlərin anlama səviyyəsi nəzərə alınsın.

Bütün bunlar ilk növbədə əsas materialın, nəzəri məlumatların, tərif, qayda və izahatların köməyi ilə təqdim olunmalıdır. Beləliklə, dərsliyin strukturu müəllifin yaradıcı fəaliyyətindən asılı olur. “Azərbaycan dili” dərsliklərin [2, 3, 4, 5, 6] strukturu tarixən bir neçə prinsipə əsaslanmışdır ki, birincisi elmlik prinsipidir. Bu prinsip hər hansı müddəanı, qayda və qanunu təhrif etmədən sadələşdirməyi, başa düşüləcək şəkildə verməyi tələb edir. Dil faktları elə təqdim olunmalıdır ki, eyni anlayış (fonetika, ismin halları, feilin zamanları və s.) haqqında, məsələn, VI, XI sinif şagirdlərinin, ali məktəb tələbələrinin, müəllimin, alimin fikri mahiyyətcə təxminən eyni olsun.

Dərsliklər tərtib edilərkən, adətən, asandan çətinə, sadədən mürəkkəbə prinsipi, şagirdlərin yaş xüsusiyyətləri, anlama səviyyələri nəzərə alınaraq eyni qayda bəzən müxtəlif şəkildə verilir. Bu prosesdə hər hansı qayda, termin rəngdən-rəngə düşür, dəyişir, bəzən isə təhrif olunurdu. Dərsliklərdə elmilik prinsipinin gözlənilməsi belə qaydasızlıqların, təsadüflərin qarşısını alır.

Metodist alimlər də qeyd edir ki, dərslik imkan daxilində müasir elmin səviyyəsinə maksimum yaxınlaşmanı təmin etməlidir. Bununla belə, dərsliyə elmdə cilalanmış, hamı tərəfindən qəbul olunmuş, həm də təlimin həmin mərhələsinə elə məlumat və informasiyalar daxil edilməlidir ki, şagird onları anlaya bilsin.

“Azərbaycan dili” dərsliklərində şagirdlərdə nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif elmi-kütləvi və bədii mətnlər təqdim olunur. Mətnin quruluşu və əsas fikrin müəyyənləşdirilməsi Azərbaycan dili dərslərində şagirdlər müxtəlif qabiliyyətlərini nümayiş etdirmək üçün onlara təqdim edilmiş mətnlər üzrə işləməyi bacarmalıdırlar. Buna görə mətn və onunla bağlı bir çox biliklərə malik olmaq vacibdir.

Müasir dərsliklərdə mətnin içərisində və onun sonunda şagirdlərin bilik və bacarıqlarını yoxlaması üçün müxtəlif tipli tapşırıqlar, problem-suallar və çalışmaların verilməsi ilə xarakterizə olunur. Fənnin öyrənildiyi başlanğıc siniflərdə dərsliklər obrazlı dildə, oyun stilində tərtib olunmalıdır. Dərsliklər

şagirdlər üçün yazılır, buna görə də onlar elmi səpkidə deyil, elmi-kütləvi dildə hazırlanmalıdır.

Dərslik hazırlanması sahəsində son illərin təcrübəsi göstərir ki, dərsliklərin məzmunu və strukturu müəyyənləşdirilərkən müəllif qrupları müxtəlif yanaşmalardan istifadə edirlər. Bir qrup müəlliflər nəzəri materiallara geniş yer verir və müəyyən mövzu ilə bağlı bütün məlumatları şagirdlərə çatdırmağa çalışırlar. Başqa qrup müəlliflər praktik fəaliyyətlə nəzəri bilikləri əlaqəli şəkildə verməyə çalışır, lakin bəzən onun uyğun metodik həllini tapa bilmirlər. Bəzi müəlliflər isə dərslikdə fəaliyyətdən istifadə etməklə yanaşı, fənnin müəyyən məsələləri barədə dərin biliklər verirlər. Müxtəlif müəllif qrupları tərəfindən tərtib edilmiş yeni Azərbaycan dili dərsliklərində bunu müşahidə etmək olar. Bütün hallarda müəlliflər unudurlar ki, ümumi orta təhsil səviyyəsində şagirdlərin əksəriyyəti dərin və çoxhəcmli nəzəri bilikləri qavramaqda çətinlik çəkirlər. Nəticədə şagirdlərdə həmin fənni öyrənə bilməyəcəyi barədə fikir yaranır. Beləliklə də, şagirdlərin həmin fənnə qarşı marağı azalır, onu öyrənməkdən imtina edirlər.

Dərsliklərimizin məzmununun seçilməsində və məzmunun hansı həcmdə verilməsində, həmçinin dərsliklərin strukturunun müəyyənləşdirilməsində bəzən özünü göstərən pərakəndəliyi aradan qaldırmaq üçün qəbul olunmuş fənn kurikulumlarının məzmun standartları əsasında mükəmməl fənn proqramları hazırlanmalıdır. Bu proqramlarda hər bir mövzunun və onun əsas hissələrinin adı və həcmi verilməli, həmçinin öyrənilən mövzulara aid saat miqdarı və ən zəruri tədris resursları göstərilməlidir. Proqramlarda, həmçinin hər mövzunun öyrənilməsi məqsədi və əldə olunacaq nəticələrin verilməsi müəllimlər üçün faydalı olardı.

Metodist alimlərin [7, 8, 9, 10, 11] qənaətinə əsasən, hansısa materialı şagirdlərin tam olaraq başa düşməsi məqsədi ilə ilk növbədə onun haqqında təsəvvür yaradılmalıdır. Onların fikrincə, tədris prosesinin dərslikdə əks olunan metodoloji mərhələləri aşağıdakılar ola bilər:

1. Təsəvvür. Dərs materialı öyrənilərkən təsəvvürün yaradılması üçün motivasiya qoyulmalı, mövzuya giriş üçün tapşırıqlar verilməli, müşayiətedici vasitələrdən (rəsm, foto, sxem və s.), obyektlərdən və situasiyalardan istifadə edilməli, dərsin məqsədi aydın şərh edilməlidir.
2. İnkişaf. İnkişafa təlim prosesində induksiya və deduksiya proseslərindən istifadə etməklə, inkişafetdirici fəaliyyət növlərinin tətbiq olunması ilə, bilikləri ümumiləşdirmək və sistemləşdirməklə nail oluna bilər.
3. Tətbiq. Hər hansı mövzunun şərhində təlim obyektinin tətbiqinə xüsusi yer ayrılmalıdır. Obyektlərin və hadisələrin tətbiqini bildikdə təhsilalanlarla öyrənmə marağı və öyrənilənlərin yaddaşda saxlanmasının vacibliyi fikri artır. Tətbiq mənimsənilmiş anlayışlardan istifadəyə yönəldilir.

4. İnteqrasiya. Dərslikdə verilən biliklərin müxtəlif fənlərlə, həyat hadisələri ilə inteqrasiya olunmuş şəkildə təqdim olunması yeni anlayışların və biliklərin daha yaxşı dərk edilməsinə xidmət edir. İnteqrasiya həm şaquli, həm də üfüqi xarakterli olmaqla fənn daxilində aşağı siniflərdə öyrənilənlərlə əlaqələndirilir və daha dərin, daha yüksək səviyyədə dərk edilir.

Şagirdlər zəruri dil qaydalarını bilməli, yazılı və şifahi nitqlərində onlardan istifadə etməlidirlər. Ümumiyyətlə, demək olar ki, müstəqil, müəllimin göstərişi olmadan, müxtəlif dil hadisələrini müqayisə edən şagirdlər tədrisi prosesində belə işlərin mümkünlüyünü və zəruriliyini nümayiş etdirirlər. Qeyd edilən tələblər və funksiyalar baxımından istifadədə olan "Azərbaycan dili" dərslikləri əsas təlim vasitəsi kimi ardıcıl olaraq qiymətləndirilməli, təhlil edilməli və təkmilləşdirilməlidir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulum) (V-XI siniflər). Bakı - 2013, 135 s.*
2. *Azərbaycan dili (tədris dili). Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: "Altun kitab", 2016, 200 s.*
3. *Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik, "Altun kitab MMC", Bakı - 2017, 192 s.*
4. *Azərbaycan dili. Ümumitəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: "Altun kitab", 2014, 176 s.*
5. *Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslik, "Şərq-Qərb", Bakı - 2019, 160 s.*
6. *Azərbaycan dili (tədris dili) Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün fənni üzrə dərslik, "Şərq-Qərb", Bakı - 2016, 192 s.*
7. *Kazımov A.S. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası, I hissə. Dərs vəsaiti. ADPU, Bakı - 2013, 186 səh.*
8. *Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, "Nasir" nəşriyyatı, 2013, 564 s.*
9. *Nəzərov A., Mollayeva E. Müasir dövrun təhsil problemləri. Dərs vəsaiti. Bakı - 2011.*
10. *Paşayeva P.Ş., Abbasova S.İ. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, ADPU, 2021, 157 s.*
11. *Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, Nuran, 2015, 408 s.*

**G.A.Gəncəliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulnargenceliyeva89@gmail.com***

# LİNQVİSTİK TƏHLİL KOMMUNİKATİV BACARIQLARI FORMALAŞDIRMA VASİTƏSİ KİMİ

***Xülasə***

*Məqalədə tətbiqi linqvistikanın "Azərbaycan dili" təlimindəki mövqeyinə aydınlıq gətirilir və dilçiliyin ayrı-ayrı bölmələri üzrə mənimsənilən dil vahidlərinə (fonetik, leksik, qrammatik, semantik) onun təhlil predmeti kimi yanaşılır. Göstərilir ki, "Azərbaycan dili" tədrisində istifadə olunan bu spesifik metod dil normalarını dərindən qavramağa kömək etməklə yanaşı, kommunikativ bacarıqların formalaşdırılmasına da ciddi təsir göstərir. Linqvistik təhlilin düzgün təşkili şagirdlərdə ədəbi dil normalarına məsuliyyətli yanaşma vərdişləri yaradır. Təhlil prosesində şagird orfoepik, orfoqrafik, leksik, qrammatik və üslubi normaların, punktuasiya qaydalarının nitqdəki əhəmiyyətini şüurlu olaraq dərk edir və bu da onlarda kommunikativ bacarıqların yaranmasına müsbət təsir göstərir.*

# ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ КОММУНИКАТИВНЫХ НАВЫКОВ

***Резюме***

*В статье уточняется положение прикладной лингвистики в преподавании «Азербайджанского языка» и в качестве предмета ее анализа рассматриваются языковые единицы (фонетические, лексические, грамматические, семантические), освоенные в отдельных разделах языкознания. Показано, что этот специфический метод, используемый при обучении «Азербайджанскому языку», не только помогает глубоко понять языковые нормы, но и оказывает существенное влияние на формирование коммуникативных навыков. Правильная организация лингвистического анализа формирует у учащихся привычки ответственного подхода к нормам литературного языка. В процессе анализа студент осознанно понимает значение орфоэпических, орфографических, лексических, грамматических и стилистических норм, правил пунктуации в речи, и это положительно влияет на формирование коммуникативных навыков.*

# LINGUISTIC ANALYSIS AS A MEANS OF FORMING COMMUNICATION SKILLS

***Summary***

*The article clarifies the position of applied linguistics in teaching the "Azerbaijani language" and considers language units (phonetic, lexical,*

*grammatical, semantic) mastered in certain sections of linguistics as the subject of its analysis. It is shown that this specific method used in teaching the "Azerbaijani language" not only helps to deeply understand language norms, but also has a significant impact on the formation of communication skills. The correct organization of linguistic analysis forms in students the habits of a responsible approach to the norms of the literary language. In the process of analysis, the student consciously understands the meaning of pronunciation, spelling, lexical, grammatical and stylistic norms, punctuation rules in speech, and this has a positive effect on the formation of communication skills.*

***Açar sözlər:*** *linqvistik analiz, nitq inkişafı, kommunikativ səriştə, leksik məna, qramamtik məna*

***Ключевые слова:*** *лингвистический анализ, развитие речи, коммуникативная компетентность, лексическое значение, грамматическое значение*

***Key words:*** *linguistic analysis, speech development, communicative competence, lexical meaning, grammatical meaning*

Müasir təlimin ana məqsədlərindən biri şagirdlərin mədəni nitqini formalaşdırmaq, onları cəmiyyətdaxili ünsiyyətə hazırlamaq və birgə yaşayış qaydalarına uyğunlaşdırmaqdır. Uşaqlarda nitq elementləri və onların rabitəliliyə doğru inkişafı lap kiçik yaşlarından – ailə, uşaq baxçası, həmyaşıdlarla ünsiyyət mərhələsindən özünü göstərsə də, leksik imkanlara, dil normalarına və üslubi çalarlara görə təkmilləşmə ibtidai təlim səviyyəsindən etibarən başlayır və ömürboyu təhsil mərhələsində də davam edir. Bu davamlılıqdakı keyfiyyəti şərtləndirən amillərdən biri də təlim prosesində "dil qaydaları xətti" ilə "nitq inkişafı xətti"ni paralel inkişaf etdirmək və onların inteqrativ imkanlarından düzgün yararlanmaqdır.

Biz yaxşı bilirik ki, müasir təlimdə məzmun xətlərinin dinləyib-anlama, danışma, oxu, yazı və dil qaydaları ardıcıllığında qurulması həm inteqrativliyi, həm də ona paralel olaraq nitq inkşafını təmin etmək məqsədi güdür. Şagird dinləyib anladıqlarını danışır, oxuduqlarını yazıda ifadə etməyi bacarır. Sonuncu məzmun xətti olan dil qaydaları isə nitq inkişafını formalaşdıran bu istiqamətləri orfoepik, orfoqrafik, qrammatik, üslubi və punktual normalarla təmin edir.

Təlim prosesi ilə məşğul olanlar yaxşı bilir ki, nitqin fonetik, leksik, qrammatik tərəflərinin öyrədilməsi Azərbaycan dili tədrisinin tərkib hissəsidir və bunlar olmadan nitq inkişafının əsasını təşkil edən kommunikativ akt həyata keçirilə bilməz. Yəni ədəbi dil normalarına sahiblənmədən nitqin mədəni inkişafından danışmaq olmaz.

Ənənəvi təlimdə dilin nəzəri əsaslarına daha çox yer verilir, praktik tapşırıqlar isə, adətən, həmin nəzəri məlumatların dərinləşdirilməsinə və

möhkəmləndirilməsinə xidmət edirdi. Bu zaman şagirdlərin praktik nitq inkişafına, müstəqil, yaradıcı işlərə az diqqət yetirilirdi.

Təbii ki, elmin nəzəri əsaslarını dərindən bilmədən, hər hansı bir qaydanı qanunayuğunluq çərçivəsində mənimsətmədən əsaslı nitq bacarıqları formalaşdırmaq da mümkün deyildir. Qrammatik material əsasında şagirdin nitqini formalaşdırmaq, dil və nitq məsələlərini paralel aydınlaşdırmaq, qaydanın nitq üçün zəruriliyini əsaslandırmaq müəllimin hazırlığından, məlumatlılıq səviyyəsindən, mətnlər üzrə işi qurma bacarığından çox asılıdır.

Bəzi müəllimlər düşünür ki, Azərbaycan dili dərsliklərində qrammatik materiala az yer vermə tendensiyası müşahidə olunur və bu da savadsız nitqə, dilin ayrı-ayrı hadisələrinin yanlış və ya qeyri-dəqiq başa düşülməsinə gətirib çıxarır. Bu fikirdə olanlara müəyyən dərəcədə haqq versək də, qeyd etməliyik ki, müasir dərsliklər sırf qrammatika dərslikləri deyil, qaydaların da köməkçi vasitə olaraq iştirak etdiyi mətn, nitq inkişafı dərslikləridir. Bu dərsliklərdə təqdim olunan qaydalar da dinləyib-anlama, danışma, oxu və yazı prosesini daha düzgün tənzimləmək üçün vasitədir.

Dil qaydalarının mənimsənilməsinə keçidin də mətn kontekstində olması bu zərurətdən doğur. Şagird mətn üzərində işlədiyi zaman müəyyən fonetik, leksik, qrammatik, semantik vahidlə rastlaşır, ona xas olan nəzəri məlumatları öyrənir və onların oxşar modellərindən öz nitqində istifadə edir.

Yekun olaraq qrammatik məfhumun məzmunundan doğan qaydalar ilə elmi tanışlıq onda qrammatik səriştə formalaşdırır ki, bu da ona əsas nitq hissəsi ilə köməkçi nitq hissəsini, sadə cümlə ilə mürəkkəb cümləni, cümlənin intonasiyaya görə növlərini, cümlə üzvlərinin sıralanmasını və s. fərqləndirməyə, nitqini bu əsaslarda qurmağa imkan verir.

Əslində, müasir dil təliminin ana məqsədi şagirdlərdə düzgün şifahi və yazılı nitq vərdişləri formalaşdırmaq, onları normal cəmiyyətdaxili ünsiyyətə hazırlamaqdır. Bu hazırlıq məktəbəqədər mərhələdən başlayır, məktəb dövrü davam edir və ömür boyu təhsil anlayışı altında təkmilləşir, zənginləşir, daha mükəmməl formalar alır.

Alimlər sübut edirlər ki, nitq mədəniyyətinin əsas ünsürlərindən olan "səs mədəniyyəti" uşaqlarda artıq 5 yaşında tam formalaşır və onlar təbii tələffüz elementlərinə sahiblənirlər. Sonrakı mərhələlərdə bu səslərin qrafik işarəsi olan hərflərlə, sait-samit məsələləri ilə, heca, vurğu kimi anlayışlarla rastlaşır, tələffüz və yazı fərqlərini anlayır, səsdüşümü, səsartımı hadisələrini dərk edir, tədricən fonem anlayışının mahiyyətini anlamağa yaxınlaşırlar. Hiss edirlər ki, bir səsi akustik cəhətdən fərqli ifadə etmək sözün maddi qabığını dəyişir, yeni məna, yeni fikir formalaşdırır. Məsələn, *pir-tir-bir-şir; göz-söz-döz; göl-göy-göz* və s.

Deməli, praktik linqvistika da fonetika bölməsinə aid dil qaydalarının mətn və çalışmalar üzərində tədqiq və təhlilindən başlayır. "Mətn üzrə

linqvistik təhlillər zamanı öyrənilmiş nəzəri qaydaların tətbiqi, bilik, bacarıq və vərdişlərin formalaşması səviyyəsi müəyyənləşir" [5,120]. Fonetik analizdən başlamaqla linqvistik təhlilin leksik, qrammatik, semantik növlərindən istifadə olunur. Fonetik təhlil zamanı orfoepik-orfoqrafik, leksik və morfoloji təhlil zamanı isə etimoloji təhlillərlə onun tətbiq sahəsi bir qədər də genişləndirilir. Sintaksis bəhsinin tədrisi prosesində isə üslubi-qramamtik məqamlara, punktuasiya məsələlərinə yer verilir.

Yəni ümumtəhsil məktəbləri "Azərbaycan dili" fənninin məzmununa uyğun olaraq linqvistik təhlilin vahid metodiki sistemi yaradılır, fonetik, leksik, söz tərkibinə görə, etimoloji, qrammatik (morfoloji və sintaktik) və durğu işarələrinə görə təhlillərin aparılması məcburi funksiya daşıyır.

Bütün bunlar üzrə aparılan işlər isə əsas hədəf olaraq iki problemin həllini nəzərdə tutur: 1) Öyrənilən nəzəri məlumatların praktikada tətbiqinə nail olmaq və qaydaları dil praktikası zəminində əsaslandırmaq; 2) Öyrənilən və praktikada tətbiq olunan dil normaları əsasında şagirdlərdə kommunikariv nitq bacarıqları formalaşdırmaq, onların şifahi və yazılı nitqini müsbət istiqamətdə təkmilləşdirmək.

Əslində, bacarıq sosial əhəmiyyətli bir sahədə qazanılacaq uğur üçün bir təminatdır. Kommunikativ bacarıq nitq fəaliyyəti, şifahi və yazılı nitqin təkmilləşdirilməsi, müxtəlif situasiyalarda dildən istifadə etmək imkanları ilə bağlı məsələdir. Linqvistik təhlildə geniş mənada kommunikativ səriştənin formalaşması zamanı yaranan problemləri "həll edir". Hər hansı bir bədii əsərin, mətnin ideoloji, tematik, estetik məzmununu çatdıran dil vasitələri sistemini müəyyən edir, müəllifi, obrazı, hadisəni dilin, nitq vahidinin aydınlaşdıra biləcəyi sərhədlərə qədər öyrənir.

Əslində, bədii mətn yazıçı ilə oxucu arasında ünsiyyət aktı, müəlliflə oxucu arasındakı dialoqda vasitəçi, düzgün və ifadəli nitq nümunəsidir. Mətnlərin leksikasına, qrammatik strukturuna, üslubi orijinallığına diqqət yetirmək birbaşa şagirdləri səlis danışmağın, ifadəni şüurlu surətdə qurmağın nə qədər vacib olduğuna inandırmaqdır.

Məsələn, müəllim "Mürəkkəb cümlə" mövzusunu mənimsətdikdən sonra tətbiq işini, mətn üzrə linqvistik təhlili elə qurmalıdır ki, şagird təkcə mürəkkləb cümlənin quruluşunu, onun sadə cümlədən fərqini aşkar etməklə kifayətlənməsin, onun istifadə dairəsini, üslubi funksiyalarını da araşdırmağı bacarsın, məqamı gələndə həmin mürəkkəb cümlədəki fikri sadə cümlə kontekstində çatdıra bilsin. Ona verilən tapşıqırlar əsasında dərk etsin ki, sadə cümlələr məlumat ötürür, mürəkkəb cümlələr isə eyni hadisələri təsvir edir, onu daha dolğun, qarşılıqlı əlaqədə çatdırır.

Geniş mənada linqvistik təhlil dilçiliyin bir çox məsələlərini əhatə edir və müəyyən filoloji spektrlərə malikdir. Dil hadisə və qanunlarını, dil faktlarını linqvistik təhlil qədər şərh edən ikinci bir tətbiqi metod yoxdur. Linqvistikanın

nəzəri tərəfi "ölü dilləri" belə tədqiq etmə imkanına malikdir. Bizi isə linqvistik təhlil bir metod, priyom, vasitə, üsul və s. kimi ümumtəhsil məktəbləri "Azərbaycan dili" təlimi mövqeyindən maraqlandırır.

Biz düşünürük ki, müasir "Azrbaycan dili" mətnləri üzrə aparılan işlər, linqvistik təhlillər doğma dilimizin zənginliyini, tükənməz imkanlarını şagirdlərə dərk etdirmək dərsləri olmalıdır. Çünki dilin gözəlliyini dərk etməklə onun qaydalarına şüurlu əməl etmək şagirdlərdə şifahi və yazılı nitq bacarıqlarını formalaşdıracaq aparıcı amillərdir.

Bunun üçün linqvistik təhlilin fonetika mərhələsindən başlayaraq dilimizin ən kiçik vahidi olan səs, onların əmələ gəlməsi, səs-hərf münasibətləri, səslərin kəmiyyət və keyfiyyətindəki dəyişikliklər, orfoepiya ilə orfoqrafiyanın qarşılıqlı münasibətləri, fonetik hadisə və qanunlar (ahəng qanunu, cingiltiləşmə), vurğu kimi məsələlər inteqrasiyada öyrədilməli, araşdırılmalıdır. "Dilimizin səs sistemi, səslərin əmələ gəlməsi və xüsusiyyətləri, səslə hərfin, orfoqrafiya ilə opfoepiyanın fərqi, eləcə də bunların bir-birinə qarşılıqlı münasibəti, fonetik məfhumların təsnif və müqayisə edilməsi, fonetik hadisə və faktların düzgün təyin edilməsində fonetik təhlilin müstəsna rolu vardır" [6,62].

Təbii ki, fonetik təhlilin bu spektrdə aparılması nəzəri materialları möhkəmləndirməklə yanaşı, nitq inkişafı üçün zəruri olan tələffüz, düzgün yazı problemlərinin də səmərəli həll olunmasına kömək edir, fonetikanın üslubi məqamları (fonetik kəkələmə, cingiltiləşmə, karlaşma, səs-nida, assonans, alliterasiya və s.) kommunikativ nitq bacarıqlarına üslubi zənginlik çaları gətirir. Təhlil zamanı şagird orfoepiyanın, orfoqrafiyanın əsas qaydaları ilə bir daha tanış olur, şifahi və yazılı nitqində onlardan səmərəli istifadə edir. Alınma sözlərdə vurğunun yerini düzgün müəyyənləşdirərək "kosmos" sözünü olduğu kimi, "motor" sözünü isə "mator" kimi tələffüz edir. Yəni mənimsənilən qayda ədəbi tələffüz normalarına əməl etməyi şərtləndirir.

Kommunikativ bacarıqların, bütövlükdə nitq mədəniyyətinin formalaşmasında lokomotiv rolunu dilin lüğət tərkibi, geniş mənada leksikologiya bölməsi oynayır. Roluna, mənşəyinə, işlənmə dairəsinə, məna qruplarına və s. görə fərqlənən bu sözlər qrupu linqvistik baxımdan leksik təhlilin elementləridir. Mütəxəssislər məsləhət bilirlər ki, leksik təhlilin sadə cümlə modelləri üzrə deyil, mətnlər üzrə aparılması daha məqsədəuyğundur. Leksik məzmunun tam əhatə olunmasının yolu bu üsuldan keçir. Etimoloji təhlili də buraya əlavə etsək, təhlilin mətn kontekstində aparılması qaçılmazdır.

Leksik təhlillərin düzgün təşkili şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, sözün bütün leksik layları təhlilə cəlb olunduğu üçün şagird sözü öz lüğət fondunun hansı hissəsinə daxil edəcəyini daha tez aydınlaşdırır, onun məna qruplarından nitqində düzgün istifadə edir. Leksikanın üslubi imkanlarından yararlanır. Ən əsası da leksik məna ilə qrammatik mənanın

sərhədlərini və leksik-semantik vəhdəti dəqiqləşdirməklə qrammatik biliklər üçün zəmin hazırlayır.

Mətndəki sözü leksik və qrammatik mənaların qarşılıqlı təsiri nəticəsində yaranan, inteqrativ vəhdəti təmin edən çoxkomponentli semantik quruluşa malik linqvistik əlamət kimi nəzərdən keçirir. Başa düşür ki, linqvistik bilik ən çox sözün strukturundakı leksik və qrammatik mənaların qarşılıqlı təsiri əsasında məlum olan real biliklərlə müəyyən edilir. Anlaşılır ki, leksik vasitələrin seçilməsinin nəticəsi minimum lüğətin tərtibidir. Qrammatik vasitələrin seçilməsi isə qrammatik formaya əsaslanır və çox vaxt süni sintaktik konstruksiyalara gətirib çıxarır.

Məktəbdə ən çox istifadə olunan linqvistik təhlil növlərindən biri də qrammatik təhlildir və bu da bəhsin xarakterinə uyğun olaraq morfoloji və sintaktik istiqamətdə aparılır. "Bu tip təhlillərdə morfem, söz, söz birləşmələri, cümlə üzvləri, cümlənin növləri, mətnlər təhlil predmeti olur və morfoloji-sintaktik təhlil qarşılıqlı (morfoloji vahidin sintaktik vəzifəsi və sintaktik vahidin ifadə vasitəsi) aparıldıqda daha effektli nəticə əldə olunur" [5,123].

Morfoloji təhlildə hər bir sözün leksik mənasına qayıdılır, leksik məna dəqiqləşdikdən sonra hansı nitq hissəsinə məxsusluq, yəni qramamtik məna, morfoloji əlamət, sintaktik vəzifə dəqiqləşdirilir. Qrammatik kateqoriyaların formaları, intonasiya, sözlərin sıralanması və s. məsələlərə də aydınlıq gətirilir.

Unutmaq olmaz ki, qrammatik təhlil şagirdlərə müstəqil işləməyi öyrədir, bu da nitq inkişafını formalaşdırmaq üçün güclü vasitədir. Qrammatik təhlil zamanı qazanılan vərdişlər (müqayisə, ümumiləşdirmə, konkretləşdirmə, modelləşdirmə və s.) kommunikativ bacarıqların da təkmilləşməsinə xidmət edir.

Müəllim mütəmadi olaraq şagirdlərin linqvistik və nitq səriştəsini inkişaf etdirmək üçün mətnin linqvistik təhlilinin metodoloji probleminin elmi həllinə diqqət yetirməli, tədris metodlarını praktik nitq ehtiyacına əsaslanaraq qurmalıdır. Yəni aparılan linqvistik təhlil şagirdin nitq mədəniyyətini təkmilləşdirməli, onun təsəvvüründə dilin linqvistik mənzərəsini canlandırmalıdır. Təhlilin yekunu olaraq qazanılan bacarıqlar yalnız dil qaydalarına aid bilikləri deyil, digər məzmun xətlərinə aid filoloji məlumatları (ideya, məzmun, müəllifin və obrazların dili, janr, üslubi məqamlar və s.) dərinləşdirməyə kömək etməlidir.

Bütövlükdə mətn əsasında aparılan linqvistik təhlil şagirdlərin dil və nitq səriştəsinin inkişafına kömək edir. Şagird mətndəki sintaktik konstruksiyaları, cümlələri öz nitqinin oxşarı kimi qəbul edir və fərdi kommunikativ məqsədini həyata keçirmək üçün həmin cümlə modellərindən nitqində istifadə edir. Düzgün linqvistik təhlil ona imkan verir ki, mətnin məzmunu ilə forması arasında əlaqə əsasında mətnin növünü, qrammatik kateqoriyaların mətndəki yerini, linqvistik vasitələrin mətndəki rolunu

aydınlaşdıra və öz nitqində onlarda istifadə edə bilsin. Linqvistik təhlil sayəsində şagird mətnin janr ilə üslubu arasındakı inteqrativ əlaqəni görür, linqvistik təhlildən texnoloji metod kimi istifadə edərək öz analitik təfəkkürünü inkişaf etdirir. Mətnin linqvistik təhlili mətnin qurulması qanunauyğunluqları ilə tanış olmağa, ədəbi dil normalarının mətndəki mövqeyini müəyyənləşdirməyə, praktik olaraq kommunikativ bacarıqları formalaşdırmağa imkan verir.

Müəllim linqvistik təhlil apararkən mətnlərin kommunikativ məqsədini və praktik təyinatını unutmamalı, mətnin linqvistik təhlilinə dilə aid biliklər sistemini üzə çıxaran səmərəli texnoloji üsul kimi yanaşmalıdır. Linqvistik təhlillər dil qaydalarına aid bilikləri dərinləşdirməklə bərabər, həmin qaydaların nitq inkişafına təsiri məsələlərinə aydınlıq gətirməlidir.

***Ədəbiyyat***

1. *Azərbaycan dili – 8. Dərslik. Bakı, "Şərq-Qərb", 2015, 160 s.*
2. *Azərbaycan dili – 8. Metodik vəsait. Bakı, "Şərq-Qərb", 2015, 160 s.*
3. *Azərbaycan dili – 9. Dərslik. Bakı, "Şərq-Qərb", 2020, 200 s.*
4. *Azərbaycan dili – 9. Metodik vəsait. Bakı,"Şərq-Qərb", 2020, 200 s.*
5. *Balıyev H, Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, "Elm və təhsil", 2019, 380 s.*
6. *Hümmətova R. Linqvistik təhlilin elmi-metodiki əsasları. Bakı, 2017, 214 s.*
7. *Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, Mütərcim, 2012, 402 s.*

**N.Q.Quliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***narmin.guliyeva01@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ PSİXOLOJİ XİDMƏTƏ NƏZƏRİ BAXIŞ

***Xülasə***

*İxtisaslı praktik psixoloq uşaqların əqli inkişafındakı keyfiyyət dəyişikliklərini vaxtında dəqiq müəyyən etməklə, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla təlim və tərbiyənin ən yaxşı üsul və vasitələrinin seçilməsində və uğurla həyata keçirilməsində təhsil işçilərinə köməklik göstərir. Psixoloji xidmətlərin özəyini yalnız psixoloji biliklərdən praktikada istifadə nöqteyi-nəzərindən qiymətləndirmək düzgün olmazdı. O, psixologiya elminin nəzəriyyələrinin, konsepsiyalarının və tədqiqat metodologiyalarının faktiki təcrübə ilə nə dərəcədə uyğunlaşdığını araşdırmaq üçün bir sıra imkanlar təqdim edərək, gələcəkdə inkişaf etməyə təşviq edir.*

# ОБЗОР ПСИХОЛОГИЧЕСКОЙ УСЛУГИ В СРЕДНИХ ШКОЛАХ

***Резюме***

*Квалифицированный практический психолог помогает педагогам выбрать и успешно реализовать лучшие методы и средства обучения и воспитания, точно выявляя во времени качественные изменения психического развития детей с учетом их возраста и индивидуальных особенностей. Было бы некорректно оценивать суть психологической службы только с точки зрения использования психологических знаний на практике. Он поощряет будущее развитие, предоставляя ряд возможностей для изучения того, в какой степени теории, концепции и исследовательские методологии психологической науки соответствуют реальной практике.*

# OVERVIEW OF PSYCHOLOGICAL SERVICES IN SECONDARY SCHOOLS

***Summary***

*A qualified practical psychologist assists educators in selecting and successfully implementing the best methods and means of training and education by accurately identifying qualitative changes in children's mental development in time, taking into account their age and individual characteristics. It would not be correct to evaluate the core of psychological services only from the point of view of using psychological knowledge in practice. It encourages future development by providing a*

*range of opportunities to explore the extent to which the theories, concepts, and research methodologies of psychological science align with actual practice.*

***Açar sözlər:*** *məktəb, psixoloji xidmət, qiymətləndirmək*
***Ключевые слова:*** *школа, психологическая служба, оценка*
***Key words:*** *school, psychological service, evaluate*

Uşaqların təlim və tərbiyəsi fəaliyyətində elmi-psixoloji məlumatların nəzərə alınması təhsildə psixoloji xidmətin həyata keçirilməsi üçün həlledici şərtdir. Təhsil müəssisələrində psixoloji xidmətin təşkil edilməsini psixologiya üzrə xüsusi hazırlığa malik, yüksək təhsilli praktik psixoloqlar həyata keçirirlər. Onlar erkən uşaqlıqdan erkən yeniyetməlik dövrünə qədər uşağın təhsil və valideynlik problemlərinin həllində fəal iştirak edirlər. Uşaq doğulduğu gündən orta məktəbi bitirənə qədər lisenziyalı psixoloqun diqqət mərkəzində olmalıdır.

Uşağın əqli inkişafının sistematik müayinəsi həmin dövrdə və ya həyatının ilk 16-18-ci ilində aparılmalıdır. Bütün bu prosesdə mütəmadi olaraq psixodiaqnostik testlər aparılır, uşağın əqli inkişaf tempi və xarakteri qiymətləndirilir, onun təlim və tərbiyəsinin səmərəliliyini artırmaq üçün təkliflər verilir və onların icrası izlənilir [7].

Təhsil və təlim standartını yüksəltmək məqsədi daşıyan təşəbbüslərin monitorinqi psixoloji xidmətin təhsil sistemində ən mühüm və çətin vəzifəsidir. Praktik psixoloqun işinin əsas istiqamətlərindən biri bu prosesləri uşaqların inkişafının sosial və təbii qanunlarına uyğunlaşdırmaq və onları təhsil və təlim nəzəriyyəsinin əsas ideyaları ilə uyğunlaşdırmaq zərurətindən ibarətdir [4].

Təhsildə sosial-psixoloji xidmətin əsas məqsədi böyüməkdə olan nəslin hər bir fərdinin digər fənlərlə yanaşı, məktəbəqədər və məktəb yaşlarında həyata yaradıcı münasibətinin formalaşmasına fəal təsir göstərməkdir. Uşaqların maraq və meyllərinin tərbiyəsi, onların intellekt və şəxsiyyətinin yaranmasındakı nöqsanların səbəblərini aşkara çıxarmaq və bu cür qüsurların qarşısının alınması və aradan qaldırılması, yəni onların qarşısının alınması üçün zəruri tədbirlərin görülməsi onun fəaliyyətində ön plandadır.

Şagirdlərin psixi sağlamlığının təmin edilməsi təhsilin əsas prioritetləri arasında sosial-psixoloji xidmətlərdən biridir. Bütün ontogenetik mərhələlərdə sağlam zehni inkişaf psixi sağlamlığın əsasını təşkil edir, elmi araşdırmalar çox uzun müddətdir sübut edir.

Təhsildə sosial-psixoloji xidmət bütövlükdə psixoloji xidmət sisteminin sadəcə olaraq tərkib hissəsi deyil, həm də elmi, tətbiqi, praktik və təşkilati istiqamətlərin bütövlüyünü nəzərdə tutan inteqral hadisədir. Bunlarla yanaşı, təhsildə sosial-psixoloji xidmətin 3 əsas istiqamətini fərqləndirirlər.

1) Elmi istiqamət təhsil sistemində elmi cəhətdən əsaslandırılmış psixoloji xidmət konsepsiyasının yaradılmasını, təlim və tərbiyə müəssisələrində psixoloqun funksiyaları və mövqeyinin müəyyən edilməsini, praktik psixoloqun iş texnologiyasını və zəruri avadanlıqlar kompleksinin işlənib hazırlanmasını nəzərdə tutur. Bu texnologiya şəxsiyyətin inkişafı və formalaşmasının elmi tədqiqatlar əsasında əldə edilmiş təlim və tərbiyə göstəricilərinə əsaslanmalıdır.

2) Aktual istiqamət çərçivəsində uşaqların təlim və tərbiyə işindəki konkret çətinliklər, davranışdakı pozuntular, münasibətlər sistemində yaranan ünsiyyət çətinlikləri ilə bağlı təxirəsalınmaz problemlar və vəzifələr müzakirə edilir, həll olunur.

3) Perspektiv istiqamət çərçivəsində uşağın fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə bağlı proqnozlaşdırıcı proqramlar, ahəngdar inkişaf, yaradıcı həyata psixoloji hazırlıq üçün konkret proqramlar hazırlanır və həyata keçirilir. Bu isə oz növbəsində hamının inkişafı üçün əlverişli psixoloji şəraitin yaradılması zəminində mümkündür [1].

Müasir dövrdə dünya psixoloji xidmət sistemində praktik psixoloqun ixtisaslaşma və peşə hazırlığı baxımından tətbiqi xarakterli 4 əsas istiqamət mövcuddur: psixodiaqnostika, psixoloji məsləhətlər, psixoprofilaktika və psixokorreksiya.

Psixodiaqnostik istiqamət uşağın psixoloji müayinəsində peşəkar metodların tətbiqini nəzərdə tutur. Bu metodlar sırasında standartlaşdırılmış test metodları və kliniki ekspert metodları 2 əsas qrup olaraq fərqləndirilir. Bunlarla yanaşı, müasir psixodiaqnostika təcrübəsində əsas tədqiqat metodlarından müşahidə, sorğu, eksperiment kimi metodların da tətbiqi geniş vüsət almışdır. Psixodiaqnostika üzrə ixtisaslaşmış praktik psixoloqun başlıca vəzifəsi təhsil sistemində uşaqların və yaşlı adamların psixologiyası və davranışını etibarlı diaqnostik müayinə metodları vasitəsilə ölçüb qiymətləndirməkdən və buna əsasən ixtisaslı psixoloji xarakteristikalar və tövsiyələr hazırlamaqdan ibarətdir [6].

Praktik psixoloqun fəaliyyətində xüsusi ixtisas hazırlığı tələb edən ikinci istiqamət psixoloji konsultasiyadır. Bu istiqamət özündə aşağıdakı xüsusi iş formalarını əks etdirir:

1. Keçirilmiş psixodiaqnostik müayinələrin nəticələrinə əsasən psixoloji-pedaqoji tövsiyələrin işlənib hazırlanması və dəqiq ifadə edilməsi. Bu tövsiyələr uşaq və yaşlılar üçün müvafiq formada, icrası baxımından anlaşıqlı və asan olmalıdır.
2. Psixoloji məsləhətlərə ehtiyacı olan şəxslərlə söhbətlərin keçirilməsi. Bu söhbətlər uşaq və ya yaşlının praktik psixoloqdan zəruri tövsiyələr alması ilə başa çatmalıdır.

3. Müəllimlər və valideyinlərin ixtisasının və təcrübəsinin artırılması çərçivəsində psixoloji maarifləndirmə tədbirlərinin həyata keçirilməsi.

Təhsil müəssisəsinin tipindən asılı olaraq bu tələblərdə müəyyən dəyişikliklər ola bilər. Məktəbdə praktik psixoloq üçün o qədər də böyük olmayan, mütənasib ölçülü, 10-12 nəfərin yerləşə biləcəyi təxminən 25-30 kv metr sahəsi, həm təbii, həm də süni işıqlandırılması normal olan kabinet olmalıdır. Kabinet uşaqlarla fərdi və qrup halında söhbətlərin aparılması, diaqnostika və korreksiya üzrə işlərin yerinə yetirilməsinə xidmət etməlidir.

Psixologiya kabineti praktik psixoloqun gündəlik iş yeridir. Yaxşı olar ki, psixologiya kabineti məktəb binasının I mərtəbəsində inzibati və təsərrüfat, həmçinin idman və musiqi otaqlarından aralıda, səs-küysüz bir yerdə olsun [2].

Otağın rəngləri sakitləşdirici mavi, yaşıl və ya sarı rəng çalarlarına uyğun olmalıdır. Bu rəng qammaları iş şəraitinə uyğunlaşma üçün münasib hesab olunur. Otaqda canlı dekorativ otaq bitkilərinin olması, heç də az əhəmiyyətə malik deyildir. Psixoloqun iş otağı heç də müəssisə işçiləri üçün istirahət və əyləncə yeri deyil. Burada müvafiq avadanlıqların, mebel və invertarların olması da vacib şərtdir.

Əgər biz keyfiyyətli psixoloji xidmətdən danışırıqsa, ilk növbədə cəmiyyətin psixoloji mədəniyyəti və istifadəçilərin praktik psixoloqa etibarı ön plana keçir. Bunun üçün cəmiyyət elə bir mədəni səviyyəyə qalxmalıdır ki, uşaqdan böyüklərə qədər bu xidmətdən yararlanmağın qaydalarına bələd olmalı, onunla maraqlanmalıdırlar. Maraq isə öz-özünə yaranmır. Onun yaranması üçün insanlar psixoloqa inanmalıdır.

İstifadəçi psixoloqunun elmi-praktik hazırlığına inanmırsa, özünün ailə problemlərini, ehtimallarını, şübhələrini ona etibar etməz. Yaxud, qadın, kişi, yeniyetmə, gənc heç kimə deyə bilmədiyi xoşagəlməz hadisəni, arzu və istəyini psixoloqa danışmaz. Əslində, çox zaman psixoloqların fəaliyyətindəki uğursuzluqlar da məsələlərin həllinə alternativ yol tapa bilməmələrindən yaranır. Deməli, praktik psixoloqun əsas vəzifəsi başqalarında özünə qarşı inam yaratmaqdır. Bunun üçün insanlara məsuliyyətlə yanaşmaq, situasiyanı hərtərəfli təhlil etmək, obyektiv nəticə çıxarmaqla düzgün yol göstərmək lazım gəlir [3].

Psixoloji xidmət işinə sosial marağın az olmasının ikinci səbəbi cəmiyyətin özünün onun xidmətlərindən yararlanmaq üçün hazır olmamasıdır. Cəmiyyətin ən çox inkişaf etmiş təbəqəsi sayılan ziyalılar belə elmi psixologiyanın nailiyyətlərinə arxayınlıqla yanaşmır, öz problemlərini psixoloqlardan daha çox falçılılara, "uzaqgörən"lərə etibar edirlər. Psixoloji xidmət işinin inkişaf etmədiyi, psixoloji gərginliyin, stress və digər halların çoxaldığı cəmiyyətdə əhalinin həmin insanlara üz tutması təbiidir. Ona görə də cəmiyyətdə praktik psixoloqların nüfuzunun artırılmasına, sosial həyatın bütün

sahələrində, eləcə də təhsil sistemində psixoloji xidmət işinin genişləndirilməsinə ciddi ehtiyac yaranıb.

## Nəticə

Məlumdur ki, şüur və şüuraltı sahələrin funksiyası genişdir. Onun gücü, özünəməxsusluğu, mühitə, insanlara təsir imkanları qapalı, qeyri-müəyyəndir. Şüuraltı sahəyə psixoloji təsir göstərilən insanda bu səviyyədə hansı proseslərin getdiyini müəyyənləşdirmək üçün fenomenal bilik, təcrübə və mürəkkəb avadanlıqlar tələb olunur. Bu prosedurun çətinliklərini, məsuliyyətini elmi psixologiya nümayəndələri yaxşı bilirlər. Bildikləri üçün də şüuraltı sahə üzərində praktik işə ehtiyatla yanaşır, onun haqqında ehtiyatla yazır, danışır və davranırlar. Halbuki psixikanın problemlərini özləri üçün fəaliyyət sahəsi seçmiş, lakin elmi psixologiyadan anlayışı olmayan, özlərini "bilici" adlandıranlar haqqında bunu demək olmaz.

Təəssüf hissi ilə qeyd etməliyik ki, xüsusən son illərdə elmi psixologiya özünün praktik sahəsinə kifayət qədər nəzarət edə bilmir. Ehtimal ki, özünün akademik səviyyəsini qoruyub saxlamaq üçün praktik sahə ilə ciddi əməkdaşlığa da az maraq göstərir. Belə yanaşma, əlbəttə, problemi həll etmir. Nəticədə daha çox məsuliyyətlə yanaşılmalı olduğu halda, nəzarətsiz buraxıldığından praktik psixoloji xidmət sahəsində nizamsızlıq yaranıb. Məhz bunun nəticəsidir ki, cəmiyyətdə özünə layiqli yer tapmadığı üçün praktik psixologiya hazırda böhran keçirir.

***Ədəbiyyat***

1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı - 2009.*
2. *Bayramov F.İ., Hüseynova D.R., Namazova A.S. 114 psixoloji test. Bakı - 2011.*
3. *Cavadov R.A., Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı - 2006.*
4. *Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları. I kitab. Bakı - 2006.*
5. *Əliyeva H, Mədədov P, Əlixanova G. Təhsildə psixoloji xidmət, Bakı -2006.*
6. *İbrahimova D., Nuriyev S. Təhsildə sosial-psixoloji xidmət. Bakı - 2016.*
7. *İbrahimov A., Cəfərova Y. Uşaqlarımızın istedadına diqqətli olaq. Bakı -2000.*
8. *Qədirov Ə. Yaş psixologiyası. Bakı - 2008.*

**E.E.Aslanzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elvinaaslanzad@gmail.com***

# BƏDİİ MƏTNLƏRİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏNİN İMKANLARI

***Xülasə***

*Məqalədə bədii mətnlərdən və onların tədrisində interaktiv təlim metodlarından istifadənin imkanlarından bəhs edilmişdir. İnteraktiv təlim metodları texnologiya və onlayn resurslardan geniş istifadə etməyə imkan verir. Şagirdlər interaktiv üsullardan istifadə edərək dərslərini daha mükəmməl şəkildə öyrənə bilərlər. Bu məqalədə də interaktiv təlim metodları haqqında geniş məlumat verilərək həmin metodların şagirdlərin motivasiyasını artırmağa, onları təlim prosesinə daha aktiv qoşulmağa və müstəqil öyrənmə bacarığının inkişafına kömək etdiyi vurğulanır. Həmçinin, bədii mətnlərin tədrsində istifadə edilə biləcək bir çox təlim metodları göstərilir və onların həyata keçirilməsi haqqında məlumat verilir.*

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ ХУДОЖЕСТВЕННЫХ ТЕКСТОВ

***Резюме***

*В статье говорится о художественных текстах и о возможностях использования интерактивных методов для их обучения. Интерактивные методы обучения широко используют технологии и онлайн-ресурсы. Студенты могут усваивать уроки еще лучше, используя интерактивные методы для лучшего понимания текстов. В этой статье также представлена обширная информация об интерактивных методах обучения и подчеркивается, что эти методы помогают повысить мотивацию учащихся, активнее вовлекать их в процесс обучения и развивать навыки самостоятельного обучения. Также показаны многие методы обучения, которые можно использовать при преподавании художественных текстов, и дана информация об их реализации.*

# POSSİBİLİTİES OF USİNG İNTERACTİVE TEACHİNG METHODS WHEN TEACHİNG LİTERARY TEXTS

***Summary***

*The article talks about the possibilities of using artistic texts and interactive teaching methods for teaching them. Interactive learning methods make extensive use of technology and online resources. Students can learn their lessons in an even better way by using interactive methods to better understand the texts. This article also*

*provides extensive information about interactive learning methods and emphasizes that these methods help to increase students' motivation, make them more actively involved in the learning process, and develop independent learning skills. Also, many teaching methods that can be used in the teaching of literary texts are shown and information about their implementation is given.*

***Açar sözlər:*** *bədii mətn, tədris, interaktiv təlim, şagird, müəllim*
***Ключевые слова:*** *художественный текст, обучение, интерактивное обучение, ученик, учитель*
***Key words:*** *literary text, teaching, interactive learning, student, teacher*

Təhsil sistemimizdə baş verən dəyişikliklərdə müasir təhsilin ehtiyac və tələbləri nəzərə alınmalıdır. Bu kontekstdə bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqi təhsil müəssisələrimizi bir çox cəhətdən fərqlənən yenilik və təcrübə ilə təmin edir. İnteraktiv tədris metodları təlim prosesinə maraqlı nüans əlavə edir, şagirdlər arasında müstəqil öyrənməni təşviq edir və onlara daha cəlbedici, praktiki, zəngin məlumatlar təqdim edir.

Ölkəmizdə davamlı təhsil islahatı çərçivəsində ümumtəhsil məktəblərində çalışan ibtidai sinif müəllimlərinə əhəmiyyətli vəzifələr həvalə edilmişdir. Həmin vəzifələr arasında interaktiv təlim metodlarının tətbiqi bu günün ən aktual tələblərindən biri hesab edilir.

Şagirdlərin aktivliyini təmin etmək üçün interaktiv texnikalardan istifadə edən müəllim dərs boyu vasitəçi mövqeyini tutmalıdır. İbtidai sinif müəllimi, dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemləri üçün bir model olaraq qəbul edilən interaktiv tədris metodlarından istifadə etməlidir.

“İnteraktiv” termini latın dilindən gəlir və iki fərqli mənaya malikdir. Birinci termin, “intero”– daxili bir şeyə istinad etmək üçün, ikinci termin isə “internashin” – beynəlxalq bir şeyə istinad etmək üçün istifadə olunur. “Aktiv” termini dünya miqyasında bilinən “fəallaşmaq”, “fəallıq”, “fəal” mənasında istifadə olunan “aktivishin” sözündən gəlir. Bu fəallaşma adi fəallaşma şəkildə deyil, dinamik fəallaşma kimi qəbul edilir. Deməli, “interaktiv” termini təhsil prosesinin yüksək dinamik stimullaşdırılması kimi başa düşülməlidir. Bu fəallıq bütün dünya standartlarına uyğun olmalıdır [ 5, s. 200-201].

İnteraktiv tədris metodlarının tətbiqinin əsas məqsədi hər bir uşağın biliyini, bacarığını və dünyagörüşünü ən yüksək dərəcədə inkişaf etdirməkdir. İnteraktiv təlim üsullarından dərsin bütün mərhələlərində istifadə etmək mümkündür. Yeni tapşırığın öyrənilməsində onlardan istifadə daha vacibdir.

İbtidai siniflərdə interaktiv tədris metodlarından istifadə şagirdlərinin ünsiyyətini asanlaşdırır və daha ifadəli və dinamik bir danışma forması olan dialoji nitqin inkişafına kömək edir. Təcrübələrdən aydın olur ki, ibtidai sinif müəllimləri yalnız bir növ dialoq danışıqlarından, yəni sual-cavab formasından istifadə edirlər.

Müasir tədris metodları şagirdlərin idrak qabiliyyətlərini və tənqidi düşüncəni inkişaf etdirmək üçün hazırlanmışdır. Bu təlim yanaşmalarının tətbiqi ilə şagirdin idrak keyfiyyətləri, duyğuları, şüuru, bacarıqları, meyilləri və maraqları inkişaf edir.

Müasir pedaqoji yanaşmalar müəllimlərə şagirdlərlə qarşılıqlı əlaqələrini optimallaşdırmağa və onların gizli qabiliyyətlərini ortaya qoymağa imkan verir. Şagirdlərin hər birinin öz dünyası, bacarıqları, emosional düşüncəsi, həyatı var. Müasir və mütərəqqi təhsil sistemi hər bir uşağın fərdiliyini tanımalı və ona heç bir şərt olmadan təhsil prosesinin bərabərhüquqlu iştirakçısı kimi yanaşmalıdır. Müşahidələr aşağıdakı xüsusiyyətlərin interaktiv öyrənmə yanaşmaları ilə əlaqəli olduğunu göstərir:

- müəllimin özünün aktivliyilə şagirdin birgə yaradıcı fəaliyyətə cəlb olunması;
- şagirdlərin tədqiqat bacarıqlarını inkişaf etdirilməsi;
- müəllimin şagirdlərlə və şagirdlərin bir-birilə əməkdaşlığı;
- sosial bərabərliyi və normal psixoloji şəraiti yaratmaq üçün musiqili, süjetli didaktik oyunlardan istifadə [5, s.217].

Bu xüsusiyyətlər bədii mətnlərin tədrisinə də aiddir.

İnteraktiv təlim üsulları şagirdlərə aşağıda qeyd edilən keyfiyyətləri aşılamalıdır:

- sərbəst fikir söyləməyi, müstəqil düşünməyi;
- şəxsi təcrübə və bilikləri təhlil etmək bacarığını;
- özünüqiymətləndirməyi;
- əməkdaşlıq etmək və komanda işində iştirak etmək bacarığını;
- ümumi məqsədə çatmaq üçün vəzifələrin bölüşdürülməsini [5, s.217-218].

Göründüyü kimi, ibtidai siniflərdə interaktiv təlim üsullarının tətbiqi ilə təlimin həm tərbiyələndirici, həm inkişafetdirici, həm də təhsilləndirici funksiyaları özünü daha qabarıq şəkildə göstərir.

İbtidai siniflərdə bədii mətnlərin üzərində iş aparılması zamanı müəllimlərin qarşısında çox ciddi vəzifələr qoyulur. Belə ki, sinif müəllimi şagirdlərin hər birinin fərdi yaradıcılığını, qavrama qabiliyyətini nəzərə alaraq bədii mətnlərin oxusunda, məzmununun dərkində və ona uyğun verilən tapşırıqların həllində müxtəlif interaktiv təlim metodlarından istifadə etməklə mükəmməl dərs prosesi təşkil etməli və yüksək nəticələr əldə etməlidir. Bu nəticələr arasına şagirdlərin nailiyyətləri, idrak qabiliyyəti, əməkdaşlıq qurma bacarığının inkişafı və ümumilikdə təhsilin keyfiyyətinin yüksəlməsi daxildir.

İndiyə qədər tətbiq edilən təlim metodlarının tələbinə əsasən bəzən şagirdlərin fəaliyyətində passiv təkrarlama olurdu. Şagird təlim materialının üzərində müstəqil düşünmək yerinə, daha çox yadda saxlamaq, deyilənləri təkrarlamaqla məhdudlaşırdı. Bu isə şagirdlərin marağını artırmır, onları fərqli

fikirlər qazanmağa təhrik etmirdi. İndi isə Azərbaycan dili dərslərində interaktiv təlim metodlarının fərqli növlərindən istifadə edilməklə şagirdlərin yüksək fəallığına və müstəqilliyinə nail olmaq mümkündür. Həmin təlim metodları aşağıdakılardır:

1. Beyin həmləsi;
2. Rollu oyun;
3. Söz assosiasiyaları;
4. Söz zənciri;
5. Şaxələndirmə;
6. BİBÖ;
7. Venn diaqramı;
8. Kublaşdırma;
9. Debat;
10. Diskussiya və s. [3, s. 195].

Əgər müəllimlər və şagirdlər bədii mətnlərin tədrisində bu interaktiv təlim metodlarından doğru şəkildə istifadə edərlərsə, bu, təhsil prosesini daha maraqlı və yaradıcı edər. Həmçinin şagirdlərin bədii bacarıqlarını daha effektiv şəkildə inkişaf etdirməkdə əhəmiyyətli bir rol oynaya bilər. Bu, müəyyən edilmiş bacarıqları inkişaf etdirmək və məktəblilərin dünyasında təhsil standartlarını reallaşdırmaq üçün yaradıcı tərəfdaşlığı təmin edəcəkdir.

“Beyin həmləsi” metodu bədii mətnlərin tədrisində müstəqil düşünməni, tədqiqat bacarığını və yaradıcılığı artırmağa imkan verən innovativ təlim üsulludur. Bu metod şagirdlərə mətnləri müxtəlif nəzəri nöqtədə tədqiq etməyə, öz fikirlərini formalaşdırmağa və mətnlərin anlamını daha dərin şəkildə başa düşməyə kömək edir. “Beyin həmləsi” metodunun qrup işində tətbiqi nəticəsində hər bir şagird qrup üzvləri ilə birgə işləyərək mətnlərin tədqiqini daha yaradıcı və müstəqil şəkildə həyata keçirməyə nail olur. Bədii mətnlərin öyrədilməsində “beyin həmləsi” metodu istifadə edilərkən qısa müddətdə sual və problem ilə əlaqədar bütün mümkün təkliflər, fikirlər və variantlar qeyd olunur. Daha sonra isə həmin məlumatların müzakirəsi təşkil edilir. “Beyin həmləsi” metodu daha çox yeni mövzunun öyrənilməsinə başlayarkən tətbiq olunur. Bu, şagirdlərin mövzu ilə daha dərindən tanış olmalarına kömək edir.

“Rollu oyunlar” metodu bədii mətnlərin tədrisində effektiv bir təlim yolu kimi qiymətləndirilir və kiçik yaşlı məktəblilərin təlim prosesinə böyük təsir göstərə bilər. Bu metodun bir neçə əsas faydalı xüsusiyyəti var:

- Əlaqələndirici oyun tərzi: Rollu oyunlar şagirdləri müxtəlif mövzular və obrazlar ətrafında əlaqələndirən interaktiv və maraqlı bir oyun tərzini təqdim edir. Bu, şagirdlərin mövzu ilə əlaqəsini quraraq daha yaxşı başa düşmələrinə imkan verir.

- Mürəkkəb faktların asan şəkildə öyrənilməsi: Rollu oyun üsulu mürəkkəb və çətin mövzuların asan mənimsənilməsinə kömək edir. Belə ki, şagirdlər oyun prosesində maraqlı və əyləncəli fəaliyyətlərlə mürəkkəb faktları daha asan öyrənirlər.
- Tədqiqat bacarığı və müstəqil düşünmə: Rollu oyunlar şagirdlərin müstəqil düşünmə bacarığını inkişaf etdirmələrinə kömək edir. Onlar müstəqil olaraq rollarını ifa etməklə mövzunu daha dərin şəkildə tədqiq edir və öz fikirlərini formalaşdırmağa nail olurlar.
- Təlimi maraqlı və yaradıcı edir: Rollu oyun prosesi dərsi monotonlaşdıran faktorları azaldır və şagirdlərin marağını, fəallığını və iştirakını artırır.

Bu metodun təcrübəsi göstərir ki, rollu oyunlar bədii mətnlərin tədrisində şagirdlərin motivasiyasını, marağını və öyrənmə fəaliyyətini artırmaq üçün effektiv bir yoldur.

“Söz assosiasiyası” şagirdlərin biliklərini artırmaq üçün əlaqəli vəziyyətlər yaratmaq və müstəqil düşünməyə cəlb etmək üçün əlverişli metodudur. Bu metod müəllimin tələb etdiyi mövzunu daha effektiv və qısa bir zamanda təqdim etmək üçün müəyyən edilmiş strategiyanın bir hissəsi olaraq göstərilə bilər. Metodun təşkili aşağıdakı kimi ola bilər:

- Müəllim tələb etdiyi mövzunu qısaca və aydın şəkildə izah edir;
- Söz assosiasiyası yaratmağa nail olmaq üçün müəllim mövzuya aid əsas fikirləri və kəyfiyyətləri təsvir edir;
- Müəllim mövzunun önəmini, aktuallığını və ya əlaqəli məqamlarını təsvir edir;
- Şagirdlər müəllimin təsvirlərini dinləyir və mövzuya dair yaddaşlarındakı məlumatları tətbiq edir;
- Hər şagird müəllimin sözündən aldığı təsirə əsasən müəyyən bir düşüncəni paylaşmağa çalışır;
- Söz assosiasiyası yaratmaq üçün şagirdlər müəyyən bir mövzu ətrafında ağıllarına gələn fikirləri ifadə edirlər.

Müəllim şagirdlərin cavablarına əsaslanaraq daha dərin suallar verir və mövzu ilə əlaqəli daha geniş müzakirələri dəstəkləyir. Bu metod, mövzunun sürətli öyrənilməsinə və təhlilinə kömək edir, çünki hər bir şagird mövzunu müəyyən bir maraqlı nöqtədən başlamaq və fikirlərini bir-birinə əlavə etmək üçün fərqli bir yanaşma təklif edir. Bu metodun tətbiqi şagirdlərə fikir və düşüncələrini azad ifadə etməyə şərait yaratmaqla, onların kommunikasiya bacarığı qazanmalarına və müxtəlif mövzuları müzakirə etməyə nail olmalarına kömək edir. Bu da onların lüğət ehtiyatının zənginləşdirilməsində, fikrinin ifadəsi üçün daha düzgün cümlə qurmaq bacarıqlarının inkişafında mühüm bir rol oynaya bilər.

Bədii mətnlərin tədrisində "Venn diaqramı" şagirdlərə abstrakt konsepsiyaları anlamaq və təsvir etmək üçün effektiv bir yoldur. Venn diaqramı müxtəlif mənbələr arasındakı əlaqələri və oxşarlıqları göstərmək üçün istifadə olunan qrafik bir metoddur. Bədii mətnlərin tədrisində Venn diaqramları tətbiqi aşağıdakı mərhələlərdə aparılır:

- Müəllim şagirdlərə müxtəlif bədii mətnləri tədqiq etmələrini və əlaqəli xüsusiyyətləri seçmələrini təklif edir;
- Şagirdlər müvafiq bədii əsərləri oxuyaraq fərqli məzmun və mövzuları müqayisə edir, oxşarlıqları və fərqlilikləri qeyd edirlər;
- Şagirdlər müxtəlif əsərlərdən aldıqları təsirləri və düşüncələri qeyd edir və bu təsirləri birinci Venn dairəsinə yerləşdirirlər;
- Oxşar məzmun və fikirlərin olduğu əsas sahələrə diqqət yetirirlər və bu oxşarlıqları ikinci Venn dairəsində göstərirlər;
- Şagirdlər Venn diaqramı vasitəsilə müqayisə edilən əsas konseptləri göstərən qrafik bir təsvir hazırlayırlar.

Bu, şagirdlərin müxtəlif bədii mətnləri analiz etməklə oxşarlıqları və fərqləri daha vizual və aydın bir şəkildə anlamalarına kömək edir.

Bir sözlə, Venn diaqramı vasitəsi ilə şagirdlər analitik bacarıqlarını inkişaf etdirir və müvafiq məlumatları müqayisə etməyə nail olurlar.

Venn diaqramı üzrə iş fərdi, cütlərlə, qruplarla, yaxud da, bütün sinif ilə təşkil oluna bilər.

Bədii mətnlərin tədrisində debat metodundan istifadə etmək şagirdlərin düşünmə, rəy bildirmə və izah etmə bacarığına nail olmalarına kömək edə bilər. Debatlar zamanı əks fikirlər toqquşur və dəlillərin müdafiəsi sayəsində bir tərəf üstünlük qazanır. Debatlar həm şifahi, həm də yazılı vasitələrlə aparıla bilər. Debatlar uşaqların müstəqilliyinin, fəallığının və sosiallaşmasının inkişafına kömək edir.

İşgüzar səs-küy texnikası dərsin keçirilməsini yaxşılaşdırır, sinifdəki şagirdlər arasında mövzu ilə bağlı sərbəst fikir mübadiləsini təşviq edir. Müəllim tərəfindən ətraflı şifahi izahatdan sonra sinif sonradan 3-4 nəfərlik qruplara bölünür. Müəllimin danışığı təhlil olunur. Sonradan nəticələrə baxıldıqdan sonra fikir mübadiləsi aparılır.

İndiki dövrdə bədii üslubda oxu materiallarının məzmun standartları və təlim məqsədləri əhəmiyyətli dərəcədə dəqiqləşdirilmişdir. Metodist alimlərimizin belə bir didaktik statusun formalaşdırılmasında rolu və əməyi yüksək olmuşdur. Bu alimlərimizdən prof.Y.Ş.Kərimov, prof.A.N.Rəhimov, dos.B.İbadova, dos.A.Hacıyev, dos.H.Abdullayeva, dos.E.Y.Kərimova, dos.N.Cəfərova, prof.M.Həsənov bu sahədə çoxlu işlər görmüşlər.

Prof.A.N.Rəhimovun "Ana dilinin tədrisi metodikası" [4] və prof.Y.Ş.Kərimovun "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası" [2] dərsliklərində ifadəli oxu tədrisində bədii mətnlərin üzərində işlər,

təhlillərin aparılması və s. kimi məsələlərin şərhinə dair geniş məlumatlar əks olunmuşdur.

Qeyd olunan dərslik və dərs vəsaitlərində ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinin bədii mətnlər üzrə işlə bağlı əsas məqsədləri aşağıdakılardır:

- şagirdlərə şüurlu, ifadəli, sürətlə, düzgün oxumaq, kitablardan müstəqil istifadə vərdişi aşılamaq;
- yazılı ədəbiyyatın gözəl nümunələri və xalqımızın şifahi xalq ədəbiyyatı incilərinin köməyilə şagirdləri milli adətlərimiz ilə tanış etmək;
- şagirdlərin məntiqi, idraki təfəkkürünü və ümumi inkişafını təmin etmək;
- şagirdlərdə Azərbaycan dilinə sevgi, onun təmizliyinin qorunmasına sadiqlik aşılamaq [2, s.6].

Ana dilinə mükəmməl yiyələnən uşaqlar yüksək ideyalı bədii ədəbiyyatımızı, qəzetlər və dövri nəşrləri, elmi-kütləvi kitabları oxuyaraq biliklərini zənginləşdirirlər. İstehsalın, mədəniyyətin və incəsənətin inkişafına fəal töhfə vermək üçün bir insanın dilin mürəkkəbliyini hərtərəfli başa düşməsi son dərəcə vacibdir. Metodistlər hesab edirlər ki, Azərbaycan dilinin tədrisində bədii materiallarla tanışlıq şagirdlərin şəxsiyyətinin inkişafında mühüm amildir [1, s. 16].

Son illərdə texnologiya və təhsil sahəsindəki inkişaf interaktiv təlimdən istifadə üçün yeni imkanlar yaratmışdır. İnteraktiv təlim metodlarından istifadə müəllimlərə müəyyən bir fənn üzrə tədrisi daha səmərəli qurmaq imkanı verir. Bu gün bədii əsərləri interaktiv metodlar ilə mənimsətməyin imkanları çox zəngindir. Bu imkanlara interaktiv lövhələr, təhsil ilə əlaqəli slaydlar, kliplər, filmlər daxildir. Aparılan müşahidələr ölkəmizin orta ümumtəhsil məktəblərində interaktiv təlim metodlarına marağın artdığını göstərir. İbtidai sinif müəllimləri interaktiv öyrənmə yanaşmalarına böyük maraq göstərir və bu işdə fəal iştirak edirlər.

***Ədəbiyyat***

1. *Kazımov A., Osmanova T. Azərbaycan dili dərslərində interaktiv təlim metodları (orta məktəb müəllimləri üçün). Bakı: Elm və təhsil, 2011, 68 səh.*
2. *Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Səda, 2013, 497 səh.*
3. *Kərimov Y.Ş. Təlim metodları. Bakı, Nasir, 2007, 210 səh.*
4. *Rəhimov A.N. Ana dilinin tədrisi metodikası, Bakı, Maarif, 2009, 231 səh.*
5. *Sadıqov F.B. Pedaqogika. Bakı, Bakı Biznes Universitetinin nəşriyyatı, 2006, 556 səh.*

**G.V.Mahmudova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunelmahmudova58@gmail.com***

*"Ümidlə yol getmək gediləcək yerə çatmaqdan daha gözəldir".*
***Louis Stevenson***

# V SİNİF AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ MOTİVASİYANIN DÜZGÜN QURULMASININ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə V sinif şagirdlərində Azərbaycan tarixi dərslərində motivasiyanın qurulmasından, qurulma üsullarından, qurulmasında edilən səhvlərə aydınlıq gətirilmişdir. Dərsdə şagirdlərin təfəkkürünün fəallığı məsələsi, yəni öyrənənlərin təfəkkürünün inkişaf etdirilməsi istiqamətində şəraitin yaradılmasına yönəlmişdir.*

# ВАЖНОСТЬ ПРАВИЛЬНОГО УСТАНОВЛЕНИЯ МОТИВАЦИИ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В V КЛАССЕ

***Резюме***

*В статье выяснены построение мотивации, методы её построения, а также ошибки, допущенные при построении уроков истории Азербайджана для пятиклассников. На уроке вопрос активности мышления учащихся ориентирован на создание условий для развития мышления учащихся.*

# THE IMPORTANCE OF CORRECT ESTABLISHMENT OF MOTIVATION IN CLASS V AZERBAIJAN HISTORY LESSONS

***Summary***

*In the article, the construction of motivation, methods of construction, and mistakes made in the construction of Azerbaijani history lessons for V graders have been clarified. In the lesson, the question of the activity of students` thinking is focused on creating conditions for the development of students` thinking.*

***Açar sözlər:*** *Azərbaycan tarixi , təhsil, motivasiya, müəllim, dərs, şagird, üsul və yolları*

***Ключевые слова:*** *история Азербайджана, образование, мотивация, учитель, урок, ученик, методы и приёмы*

***Key words:*** *history of Azerbaijan, education, motivation, teacher, lesson, student, methods and ways*

**Mövzunun aktuallığı:** Orta məktəblərdə Azərbaycan tarixinin tədrisi zamanı motivasiyanın yaradılması çox önəmlidir. Motivasiya şagirdləri dərsə hazırlamaqla yanaşı onların fəaliyyətini formalaşdırır. Azərbaycan tarixinin tədrisində motivasiyanın yaradılma üsulu düzgün seçilməli və düzgün tətbiq olunmalıdır.

Müasir məktəbin aktual problemləri var. Bu problemlərindən biri - tədrisdə motivasiyanın zəif olmasıdır. Motivasiya nədir? Motivlərin formalaşması və inkişaf etməsi prosesinə motivasiya deyilir. Motivasiya sözü latın sözü olub "movere", yəni "hərəkət etdirmə, hərəkətləndirmə" mənasını verir [6, səh. 32-33].

Təlim prosesində müsbət nəticə əldə etməyin başlıca yolu motivasiyanın yüksəldilməsi ilə müəyyən olunur. Motivasiya istənilən fəaliyyətə maraq oyatmaq deməkdir. Fəal dərs və ya dərsin fəallığı elə motivasiyadan başlanır. Motivasiya məqsədə doğru atılmış ilk addımdır. Müəllim ilk öncə dərsin məqsədini müəyyən etməlidir. Bu məqsədə uyğun motivasiya etməyi müəyyənləşdirməlidir. "Motivasiya" anlayışı ilk dəfə alman filosofu A.Şopenhauerin əsərlərində istifadə edilmişdir.

V sinif dünənki ibtidai sinifdir. Oyun xarakterli dərslərin təşkili onlar üçün daha maraqlı gəlir və səmərəli olur. Səmərəli dərsin isə əsası motivasiya mərhələsində qoyulur.

Fəal dərsin ilkin mərhələsi olaraq, motivasiya həmçinin dərsin yekunu ilə bağlıdır, başqa formada desək, təlimin nəticəsi əsas motivasiya mərhələsindən asılıdır. Bəs nə üçün biz dərsin bu mərhələsini motivasiya adlandırırıq? Psixologiya elmində "motivasiya" — insanın hər hansı fəaliyyətində və ya hərəkətində müəyyən daxili səbəblərə görə onun fəallığını və şəxsi marağını işə salan əsas bir qüvvədir. Müasir tədris prosesində motivasiya şagirdin təfəkkür prosesini inkişaf etdirən və onun idrak fəallığını artıran amil kimi çıxış edir. Tədris prosesinin uğurlu alınması, bu prosesə sinifdə hər bir şagirdin könüllü və fəal iştirak etməsi məqsədi ilə müəllim motivasiyanı öz iradəsi ilə şüurlu formada təşkil edir. Lakin, müəllimin əsas bacarığı ondan ibarətdir ki, onun iradəsi ilə "süni" yaradılmış və idarə olunan bu proses şagird üçün çox təbii keçsin və nəticədə onun idrak prosesini fəallaşdırsın. Tədris fəaliyyətində motivasiya mərhələsinin vəzifəsi və əsas məqsədi şagirdlərin diqqətini dərsdə öyrənilən məzmuna cəlb etmək, onlarda daxilən maraq oyatmaq, yeni biliklərin vacibliyinə və səmərəliliyinə fərdi olaraq inam yaratmaqdır. Həmçinin cəlbolunma elə bir fəaliyyətdir ki, şagirdlər idrak fəallığı əsasında aktiv şəkildə dərsə cəlb olunurlar. Dərsin sonrakı

mərhələlərinin gedişində də motivasiya böyük rol oynayır. Dərsin əvvəlində motivasiyanın düzgün qurulması şagirdləri fəal şəkildə dərsə cəlb etməklə bərabər, həm də dərsin qalan hissəsinin uğurlu alınmasına imkan yaradır. Bu məqamda müəllimin diqqət yetirməli olduğu əsas məqam isə sinifdəki bütün şagirdlərin tədris prosesinə cəlb olunmasına şərait yaratmaqdır [1].

Bəs şagirdi dərsə necə cəlb etmək olar?

Bunun üçün nəzərə alınmalı əsas məsələ dərs zamanı hansı bilik və bacarıqlar öyrəniləcəksə, onların şagirdin real həyatı ilə əlaqələndirilməsidir. Belə olduqda fəaliyyət şagirdlər tərəfindən daha çox maraqla qarşılanır və onların öyrənmə prosesinə qoşulması daha əlçatan olur. Dərsin əvvəlindən şagirdləri səmərəli şəkildə cəlb edəndə təlim prosesi daha uğurlu olur. Bu prosesə müəyyən qədər yaradıcı yanaşmaq lazımdır. Motivasiyanın tapmaca xarakterli olması və ya yalnız mövzunun adının tapılması ilə əlaqələndirilməsi yanlış yanaşmadır.

Məsələn, "Vətən" mövzusunda keçilən dərslərdə müəllimlər, adətən, müxtəlif təbiət mənzərələrini göstərir və şagirdlərdən "Vətənimizin gözəl təbiəti var", "Bunun qədrini bilmək lazımdır", "Vətəni qorumaq gərəkdir" kimi fikirləri alırlar. Amma bu motivasiyanı aşağıdakı kimi genişləndirsək, daha maraqlı olar. Neft buruqları, pambıq tarlaları, qızıl və kömür mədənləri, üzüm bağları əks olunmuş lövhələri şagirdlərə göstərib vətənimizin yeraltı və yerüstü sərvətlərlə zəngin olması və düşmənlərimizin də məhz bu səbəblərdən yurdumuza göz dikməsi barədə fikirlərin alınmasına asanlıqla nail olmaq olar.

Motivasiyanın düzgün qavranılmasında verilən sualların güclü rolu var. Motivasiya zamanı qapalı suallardan istifadə etmək olmaz. Sual seçilərkən iki və ya daha çox cavabı olan suallara üstünlük vermək lazımdır ki, şagirdlər müxtəlif fərziyyələr irəli sürsünlər. Bu zaman sinifdə mübahisə yaranacaq və bu da dərsi daha maraqlı edəcəkdir.

Dərsə başlamaq və öyrənənlərin öyrənməyə maraqlarını artırmaq üçün müəyyən psixoloji mühitin yaranması əsas şərtdir. Bu məqsədə nail olmaq üçün müəllim:

- şagirdin təlim prosesinə daxilən qoşulması üçün şərait yaratmalı ("istəyirəm");
- tədris fəaliyyətinə qarşı şagirddə olan tələbləri aktuallaşdırmalı ("lazımdır");
- tədris fəaliyyətinin mövzu çərçivəsini yaratmalı ("bacarıram").

Motivasiyada şagirdlərin qarşısına elə detallar çıxarmaq lazımdır ki, onlar bu haqda hər hansı bir anlayışa malik olsunlar. Bu baxımdan qarşıya qoyulan problem sinfin yaş imkanlarına və inkişaf səviyyəsinə uyğun seçilməlidir. Ümumiyyətlə, dərsin başqa mərhələlərində olduğu kimi, motivasiya mərhələsində də rəngarənglikdən istifadə etmək müəllimin işə yaradıcı yanaşmasının məhsulu kimi ortaya çıxır.

**Motivasiyanın yaradılmasına təsir edən amillər aşağıdakılardır:**

1. Motivasiya qismində istifadə olunan materialların cəlbedici, qeyri-adi, müəmmalı, gözlənilməz, marağı və həm də müstəqil təfəkkürü ruhlandırmağa qadirdir;
2. Materialın təqdim olunma üsul və formaları;
3. Müəllim tərəfindən bələdçilik (istiqamətləndirici suallar, fərziyyələrin irəli sürülməsi zamanı həvəsləndirmə və dəstəklənmə).

**Motivasiyanın yaradılma yolları:**

1. Rəmzi (simvolik) materialın şərhi (bu, rəsm, foto-şəkil, simvol, təranə (melodiya), ədəbi əsərdən parça, əşya, rəvayət, tapmaca, qrafik, sxem və s. ola bilər). Müəllim bu materialı təqdim edərkən şagirdlərə müəyyən sual verə bilər - "Bu nəyi bildirir? Bunun bizim mövzumuzla nə kimi əlaqəsi var?"
2. Sual verməyə həvəsləndirmə. Sualın 3 növü var:

- Biz nəyi bilirik?  Biz nəyi bilmirik? Biz daha nələri bilmək istərdik?
- açıq suallar (Motivasiyanin düzgün qavranılmasmda verilən sualların güclü rolu var. Motivasiya zamanı qapalı suallardan istifadə etmək olmaz. Sual seçilərkən iki və ya daha çox cavabı olan suallara üstünlük vermək lazımdır ki, şagirdlər müxtəlif fərziyyələr irəli sürsünlər. Bu zaman sinifdə mübahisə yaranacaq və bu da dərsi daha maraqlı edəcəkdir.)
- öyrənilən mövzuya aid suallar.

3. Problemin müzakirəsi və müxtəlif yollarla həll edilməsinə yönəltmə.

**Nümunə:**

**Mövzu:** Bizim doğma Vətənimiz.

**Motivasiya:** Lövhədə vatman kağızının ortasında «?» işarəsi və çox sözlər yazılan əyani vəsait bərkidilib.



**Problemin qoyulması:**

Uşaqlar şəkilə diqqətlə baxın və sözləri oxuyun. Sual işarəsinin altında elə bir anlayışın adı gizlənib ki, bu sözlərin hamısını özündə birləşdirir. (Vətən) (Uşaqların fikirləri müxtəlif ola bilər, müəllim bu prosesə rəhbərlik etməlidir.) Təsvirdə olan sual işarəsi götürülür, Vətən yazılır. Sonra uşaqların zehni qabiliyyətlərini fəaliyyətə gətirən suallar verilir:

1. Siz bu fikrə nə üçün gəldiz?
2. Ana ilə Vətən arasında hansı əlaqə var?
3. Bölünməz, əvəzedilməz deyəndə nəyi başa düşürük? və s. [3,s.117-119]

**Motivasiyanın qurulmasında olunan səhvlər:**

***Səhv 1.*** Müəllim motivasiya qismində real problem əvəzinə bir həll variantı olan çalışmadan istifadə edir. Unutmaq olmaz ki, idrak motivasiyasını doğuran əsas - problemdir. Adi çalışmanın (bir həll variantı olan) problemlə yəni, müxtəlif fərziyyələri və həll variantlarını doğuran ziddiyyətlə) qarışdırmaq olmaz. Çalışma və problem arasında bu əsas fərqi görə bilməmək son nəticədə motivasiyanın yaranmasına gətirib çıxarır.

***Səhv 2.*** Müəllim motivasiya qismində real problem əvəzinə həvəsləndirici informasiyadan (maraqlı, cəlbedici) və ya onun təqdimatı üsullarından (oyun, rəngbərəng şəkil) istifadə edir. Həvəsləndirici material şagirdlərdə nə qədər maraq oyatsa da, o yalnız şagirdlərin qeyri-iradi diqqətini cəlb etməyə xidmət edir, lakin təfəkkürü oyada və fəallaşdıra bilmir. Hətta çox da cəlbedici olmayan, lakin problemin əsas mahiyyətini daşıyan material cəlbedici görünən, lakin yalnız qeyri-iradi diqqəti qüvvətləndirən cəlbedici material ilə müqayisədə idrak motivasiyasını daha çox fəallaşdırmağa və bütün dərs ərzində lazımi səviyyədə saxlamağa malikdir [2, s. 382-384].

Azərbaycan tarixi V sinif dərsliyində "Rəşidiyyə" – məşhur Azərbaycan Universiteti mövzusunun motivasiyası müəllimlərə təqdim olunan metodik vəsaitdə belə təqdim olunub:

**Motivasiya:** Şagirdlərə məktəbə aid şəkillər göstərilir və onlar haqqında fikirləri soruşulur. Şagirdlər təhsil aldıqları orta məktəb və onun vəzifələri haqqında ilkin fikirlərini söyləyirlər. İkinci şəkil barədə sadə məlumatlarını ifadə edir və əvvəlki fikirləri ilə əlaqələndirirlər. Şagirdlərə: Orta məktəbdən başqa daha hansı təhsil ocaqları tanıyırsınız?; Məktəbi bitirdikdən sonra təhsilinizi harada davam etdirmək istəyirsiniz? - deyə sual verilir və kiçik müzakirə davam etdirilir.

Motivasiyanı qurarkən əsasən videoroliklərdən istifadə etmək şagirdlər tərəfindən daha çox marağa səbəb olur. Müxtəlif slaydlar, söz oyunu, krossvordlar şagirdlərin dərsə marağını artırır, dərsi və şagirdləri fəallaşdırır. Məsələn, Azərbaycan tarixi V sinif dərsliyində "Qırx il kölə kimi yaşamaqdansa" mövzusuna aid "Babək" filmindən məqsədəuyğun seçilmiş

fraqment göstərilərək motivasiya qurmaq olar. Şagirdlər bu zaman müzakirəyə cəlb olunur.

Mövzuya aid tarixi bədii, sənədli və cizgi filmlərindən fraqmentlərin nümayişi şagirdlərə həmin prosesləri daha aydın anlamağa kömək edir. Məsələn, 5-ci sinif dərsliyində “Gəncə niyə Yelizavetpol adlandı?” mövzusunun tədrisi zamanı Cavad xan filmindən kiçik bir fraqment, “Kitabi-Dədə Qorqud” – yurdumuzun tarix salnaməsi mövzusunun tədrisi zamanı mövzusu ilə bağlı cizgi filmi göstərilir. Bu da mövzularla bağlı şagirdlərdə aydın təsəvvür yaradır.

**Motivasiya yaradılma yolları:**

- əyani vəsaitlərdən istifadə etmək;
- açıq tipli suallar vermək;
- krossvord tərtib etmək;
- hekayə oxumaq;
- buraxılan məlumatı və səhvi tapmaq [4].

Müəllimin verdiyi suallar və multimedia materialları dərsin məqsədinə yönəldilməli, bilavasitə məzmuna və mövzuya uyğun qurulmalıdır (məsələn, V sinif Azərbaycan tarixi fənnindən “Ağqoyunlu dövləti” mövzusuna motivasiya sadəcə Azərbaycan himni səslənən video ilə qurula bilməz). Təəssüflər olsun ki, hazırda istifadə olunan metodik vəsaitlərdə (məsələn, tarix fənninə aid metodiki vəsaitlərdə) verilmiş motivasiya nümunələri, adətən formaldır və müəllim bu metodik tövsiyələrdən yararlana bilmir. Beləliklə, tarix dərslərində motivasiya yaradılarkən şagirdin yaş və idrak xüsusiyyətlərinə uyğun üsullardan istifadə etmək, onların maraq və tələbatlarını nəzərə alaraq dərsin seçilməsi mühümdür [5].

**Ümumiləşdirmə:** V siniflərdə Azərbaycan tarixinin tədrisində dərsin ilkin mərhələsi kimi motivasiyanın qurulması önəmli prosesdir. Bu prosesdə edilən səhvlərin aradan qaldırılması və düzgün təşkil edilməsi, şagirdlərin dərsin bu mərhələsinə cəlb edilməsi müəllimin qarşısına qoyduğu məqsədlərdən biri olmalıdır.

**Məqalənin elmi yeniliyi:** Məqalədə Azərbaycan tarixi dərslərində motivasiyanın qurulmasının nə dərəcədə vacib olması araşdırılmışdır. Bunun üçün hansı yollardan istifadə edilməsi məsələsinə aydınlıq gətirilmişdir.

**Məqalənin nəzəri əhəmiyyəti:** Məqalədə irəli sürülən müddəalar, əldə olunan nəticələr tarixin tədrisi metodikasının məzmununun təkmilləşdirilməsinə motiv yaradır.

**Məqalənin praktiki əhəmiyyəti:** Şagirdlərin idrak fəaliyyətini gücləndirmək üçün təlim zamanı ilkin mərhələdə motivasiyanın qurulması ilə uğurlu nəticə alınır ki, bu təcrübədən də orta məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilər.

**Nəticə:** Azərbaycan tarixi dərslərində motivasiyanın yaradılması, onun rəngarəng yaradılma formalarından səmərəli istifadənin yolları öyrənilərək ümumiləşdirilmişdir. Məqalədə çoxsaylı tədqiqatçıların fikir və müddəalarından istifadə edilərək motivasiyanın yaradılmasının daha təkmilləşdirilmiş metodik yolları üzə çıxarılmışdır.

***Ədəbiyyat***

1. *Tanış olaq elmi-ictimai-bədii jurnal "Pedaqoji təcrübə. Tarix dərslərində motivasiya mərhələsi", 14 iyun 2016-cı il.*
2. *Əmirov, M.M. "Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası". Bakı - 2014 (səh. 382-384).*
3. *Əliyeva, F. Məmmədova, Ü. "Müasir təlim texnologiyaları" Bakı – 2015 (səh. 117-119).*
4. *Həsənov, İ. "Motivasiya fəal dərsin mərhələləri kimi".*
5. *Бехтенова, Е.Ф. "Педагогические условия создания мотивационной основы познавательной деятельности школьников на уроках истории", Текст научной статьи по специальности «Науки об образовании» - 2014.*
6. *Məmmədova, N. Magistr dissertasiyası "Dövlət qurumlarında performans dəyərləndirilməsi və motivasiya məsələləri". Bakı - 2015 (səh.32-33).*

**Ə.F.Rüstəmli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aminarustamli671@gmail.com***

# TARİX ÜZRƏ DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARININ MAHİYYƏTİ (V-VII SİNİFLƏRİN MATERİALLARI ƏSASINDA)

***Xülasə***

*Məqalədə V-VII sinif tarix üzrə dərsdənkənar tədbirlərdə şagird şəxsiyyətinin formalaşdırılmasının əhəmiyyəti vurğulanmışdır. Tarix üzrə dərsdənkənar işlərə dair müxtəlif iş formaları, metodları, üsulları və vasitələrindən səmərəli istifadə olunaraq araşdırılmışdır. Dərsdənkənar tədbirlərə aid nümunələr verilmiş və şagird şəxsiyyətinə təsiri qeyd olunmuşdur.*

# СУЩНОСТЬ ВОЗМОЖНОСТЕЙ И ПУТЕЙ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ ВО ВНЕУЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ ПО ИСТОРИИ (НА МАТЕРИАЛАХ V-VII КЛАССОВ)

***Резюме***

*В статье подчеркнута важность формирования личности ученика во внеклассной деятельности V-VII классов по истории. Различные формы работы, методы, приемы и средства внеклассной деятельности по истории были исследованы путем эффективного использования. Были приведены примеры внеклассной деятельности и отмечено их влияние на личность ученика.*

# THE ESSENCE OF POSSIBILITIES AND WAYS OF PERSONALITY FORMATION IN EXTRA-CURRICULAR ACTIVITIES ON HISTORY (BASED ON THE MATERIALS OF CLASSES V-VII)

***Summary***

*In the article, the importance of the formation of the student's personality in the extracurricular activities of the V-VII classes in history was emphasized. Methods and means of conducting extracurricular activities were investigated using methodical tools. Examples of extracurricular activities were given and their impact on the student's personality was noted.*

***Açar sözlər:*** *şagird, şəxsiyyət, tarix dərsi, dərsdənkənar iş, milli-şüur, vətənpərvərlik*

***Ключевые слова:*** *ученик, личность, урок истории, внеурочная деятельность, национальное самосознание, патриотизм*

***Key words:*** *student, personality, extracurricular, textbook, national consciousness, patriotism, history, teacher, class*

**Mövzunun aktuallığı:** Məqalədə ümumtəhsil məktəblərinin V-VII siniflərində Azərbaycan və Ümumi tarix fənnlərində təkcə dərs zamanı deyil, dərsdənkənar tədbirlərdə də şagird şəxsiyyətinin formalaşmasının önəmli olduğu vurğulanmışdır. Dərsdənkənar tədbirlər təşkil olunarkən şagirdlərin maraq dairəsinə uyğunluğunun nəzərə alınmalı olunduğu qeyd olunur. Məktəblərimizdə təlim prosesi ilə yanaşı dərsdənkənar tədbirlərin şagird şəxsiyyətinin, onlarda müstəqillik qabiliyyətlərinin formalaşmasına yönəlmişdir. Dərsdənkənar tədbirlər zamanı şagirdlərdə tarix fənninə marağın artması bilik və bacarıqların inkişafına müsbət təsir göstərir.

Təhsil həyatımızın hər bir sahəsində çox mühüm rol oynayır. Təhsilin praktiki tətbiqini dərk edən insan həyatında uğur qazanır. Məktəb təhsil ocağı olduğu üçün cəmiyyəti elmi biliklərlə formalaşdıran, daim inkişaf edən bütöv bir prosesdir.

Şəxsiyyətin formalaşmasında bildiyimiz kimi, üç mühüm amil: irsiyyət, mühit və tərbiyə əsas rol oynayır. Təbii ki, irsiyyət və tərbiyə, eləcə də mühit və tərbiyə amilləri ilə yanaşı üstünlük verən pedaqoq və psixoloqlar da olmuşdur. Sağlam xarakterə malik şəxsiyyətin formalaşdırılması ailənin, məktəbin və cəmiyyətin əsas hədəflərindən biri hesab olunur. Bunun həyata keçirilməsində isə məktəbin rolu xüsusilə önəmlidir. Bu məqamda PİSA Beynəlxalq Şagird Qiymətləndirməsi proqramının yaradıcısı Andreas Şleyxerin fikrini xatırlamaq yerinə düşər: "Bu günün məktəbi sabahın cəmiyyətidir. Bu gün məktəbimiz necədirsə, sabah cəmiyyətimiz elə olacaqdır" [4, səh. 2-3].

Təhsil prosesindən, xüsusən də məktəbdən danışarkən şəxsiyyətin formalaşmasında müəllimin rolunu nəzərə almamaq olmaz. Ailədən sonra şagirdin bir şəxsiyyət kimi formalaşmasında məktəb çox mühüm əhəmiyyətə malikdir. Müəllim təkcə fasilitator, informasiya ötürən şəxs deyil, o həm də öyrədəndir, şagird üçün rol modeldir.Şagirdlər isə tədqiqatçı kimi formalaşırlar. Onlarda idrak maraqları və müstəqil düşünmə qabiliyyətləri inkişaf edir. Erkən inkişaf dövrü ailədə baş verərkən, məktəb dövrü ondan sonrakı ilk formal təhsil dövrüdür. Bu dövrdə müəllimlər uşaqların şəxsiyyətinin, xarakterinin formalaşmasında müstəsna rol oynayırlar. Müəllimlər həm də cəmiyyəti inşa edən şəxslərdir. Bu barədə ictimai-siyasi xadim Xudu Məmmədovun bu fikri xüsusilə önəmlidir: "Müəllim sadəcə dərs deyən, bir-iki saat sinif otaqlarında şagirdlərlə təmasda olan şəxsiyyət, adi tərbiyəçi deyil. O, zaman və gənclik arasında körpü yaradan, öz şəxsiyyəti ilə

nümunə olan, sabahın qurucularını hazırlayan, millətin gələcəyi üçün böyük məsuliyyət daşıyan bir varlıqdır” [3].

Tarix dərslərində dərsdənkənar tədbirlər şagird şəxsiyyətinin formalaşmasına şərait yaradır. Dərsdənkənar tədbirlərdə əsas diqqət onun nizam-intizamlılığına, mənəviyyatının inkişafına və işgüzarlılığına istiqamətləndirilir. Dərsdənkənar tədbirlərdə əsas diqqət şagirdlərin bilik, bacarıq, vərdişlərinin dərinləşməsinə və nəticədə fənnə marağı artır, qavramanı daha sürətli və maraqlı edir. Bu müddətdə şagirdlər dərsdə olduğu kimi təkcə dərsliklə deyil, həmçinin lüğət, müxtəlif ədəbiyyatlarla işləmə vərdişinə də yiyələnmiş olur və onların elmi dünyagörüşü genişlənir. Dərsdənkənar fəaliyyət dərsin davamlı rolunu oynayıb, bununla bağlı bir çox metodiki vəsaitlər vardır. Sinifdənxaric və məktəbdənkənar iş formaları yalnız dərs saatı bitdikdən sonra, şagirdlərin asudə vaxtında keçirilir. Dərsdənkənar məşğələlərin verilməsi şagirdlərin meyl və bacarıqları nəzərə alınmaqla, onların ərizələri əsasında məktəb rəhbərliyi ilə müəyyənləşdirilir. Dərsdənkənar məşğələlərdə şagirdlərin minimum sayı səkkiz, maksimum sayı isə 15 olur. Dərs dövlət proqramı əsasında keçirildiyi halda, sinifdənxaric iş zamanı mövzu seçimində müəllim azaddır. Məlum olduğu kimi dərs təlimin əsas təşkili formasıdır. Sinifdənxaric və dərsdənkənar işlər isə könüllü xarakter daşıyır. Tarix üzrə sinifdənxaric işlərin təşkili ilə bağlı təsnifatı keçən əsrin 40-cı illərində Bernadski vermiş, həmçinin sinifdənxaric işin nəzəriyyəsinin hazırlanmasında A.F.Rodin və sonralar A.A.Vagində böyük töhvə vermişdir. Vagin tarix üzrə dərsdənkənar işlərdən dərnəkləri, ekskursiya işi, tarix muzeyləri, diyarşünaslıq, sinifdənxaric oxunu geniş təhlil etmişdir. M.Əmirov qeyd edir ki, aşağıdakı bəzi yollar ilə tarix dərsində sinifdənxaric işlər aparıla bilər:

1. Bədii kitabların oxunub mütaliə edilməsi yolu ilə;
2. Kiçik rollara malik tarixi oyunların təşkili yolu ilə;
3. Bəzi tarix əhəmiyyətli səyahətlərin təşkili yolu ilə;
4. Tarixi günlərimizlə əlaqədar, bayram tədbirlərinin, şənliklərinin keçirilməsi yolu ilə;
5. Tariximizdə anım günlərin keçirilməsi [1, səh. 637-638].

Dərsdənkənar tədbirlər şagirdlərin tarix dərsində olan aktivliyini artırmaqdan əlavə, onların tariximizdə baş vermiş hadisələri daha yaxından bilmək, mənimsəmək və elmi dünyagörüşlərini düzgün formalaşdırır. Belə tədbirlər şagirdlərin tarixə idrakı marağının inkişaf etdirir, onların yaradıcı potensialının həyata keçirilməsində, şəxsi yaradıcı fəaliyyətini, estetik və mənəvi tərbiyəsini formalaşdırır. Dövrümüz texnologiyaların inkişaf dövrü olduğundan şagirdlər üçün dərsdənkənar işlərin planlanmasında çoxda çətinlik yaşanmır. Lakin tarix dərsində bu kimi işlərin təşkil edilməsi zamanı şagirdlərin maraq dairəsini düzgün seçmək onların bu işə ürəklə yanaşmalarına diqqət yetirmək vacibdir [2, səh. 16-17].

Ümumtəhsil məktəblərin V-VII sinif tarix dərsliklərindəki mövzulardan istifadə edərək şagird şəxsiyyətinin dərsdənkənar fəaliyyətlərdə formalaşdırılması məsələsinə diqqət yetirək. Məsələn, V sinif Azərbaycan tarixi fənnində "Qayalar üzərində tarix" mövzusu, VI sinif Azərbaycan tarixində "Mezolit - Orta daş dövrü" mövzusu üzrə dərsdənkənar tədbir kimi şagirdlərlə Qobustan qayaüstü təsvirlərini görmək üçün ekskursiyanın təşkili ilə şagirdlər Azərbaycanın qədim yaşayış məskənlərindən biri olduğunu əyani şəkildə görürlər. Həmçinin əyani şəkildə Qobustan qayaları ilə tanış olduqları üçün dərs zamanı öyrəndikləri biliklər yaddaşlarında həmişəlik qalmış olur. Bu ekskursiya nəticəsində tarix fənnini yeni öyrənməyə başlayan şagirdlərdə fənnə maraq artır.

V sinif Azərbaycan tarixindən "Xocalı soyqırımı" mövzusu üzrə dərsdənkənar tədbir kimi isə Ana harayı abidəsinə, "Qanlı Yanvar" mövzusu üzrə Şəhidlər Xiyabanına ziyarət təşkil etmək və yaxud tarix gecəsi təşkil oluna bilər. "Ana harayı" və ya Bakıda "Xocalı soyqırımı" abidəsi - 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində mülki azərbaycanlılara qarşı erməni silahlı birləşmələri tərəfindən törədilmiş soyqırım hadisəsi qurbanlarının xatirəsinə Bakı şəhərinin Xətai rayonunda, Şah İsmayıl Xətai metrostansiyası yaxınlığında ucaldılmış abidədir. Bu tədbir şagirdlərdə milli şüur və vətənpərvərlik hisslərinin aşılanmasında böyük rol oynayacaqdır.

VI sinif Ümumi tarix fənnindən Babil dövləti mövzusunda Hammurapinin qanunlarının tam mətnini sənədli mənbə kimi verə bilərik. Bu mətni oxuduqdan sonra şagirdlərdə qədim şumer və akkad adət-ənənələri və hüquq normaları haqqında biliklər formalaşacaq. VII sinif Azərbaycan tarixindən "IX-XI əsrlərdə Azərbaycan mədəniyyəti" mövzusundan "Kitabi Dədə Qorqud" dastanını əlavə oxu olaraq şagirdlərə verə bilərik. "Kitabi Dədə Qorqud" dastanı həmin sinifdə oxuyan şagirdlərdə soykökümüz, qədim dövlətçilik ənənələrimiz, tariximiz haqqında fikirlər formalaşacaq, dərsdə qazanılan biliklə yanaşı bu dastan həm də bədii əsər olduğundan şagirdlərin nitq qabiliyyəti inkişaf edəcəkdir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə V-VII siniflərin tarix üzrə dərsdənkənar tədbirlərdə şəxsiyyətin formalaşdırılmasının imkan və yollarının mahiyyəti araşdırılmışdır. Dərsdənkənar tədbirlərin vacibliyi və yüksək səviyyədə keçirildiyi təqdirdə şagirdlərdə tarix fənninə marağın artacağı vurğulanmışdır. Bunun elmi əhəmiyyəti diqqətə çatdırılmışdır. Həmçinin mövzu ilə bağlı bir çox ədəbiyyatlara istinad olunmuşdur.

**Məqalənin nəzəri əhəmiyyəti:** Məqalədə irəli sürülən müddəalar, əldə olunan nəticələr şagird şəxsiyyətinin formalaşmasında dərsdənkənar tədbirlərin rolunu göstərir.

**Məqalənin praktiki əhəmiyyəti:** Təlim prosesində şagirdlərin mənimsədikləri biliklərlə yanaşı dərsdənkənar fəaliyyətlərinə də geniş yer

verilməsinin nəticəsi olaraq cəmiyyət üçün şəxsiyyətin yetişdirilməsi əsas prinsip və vəzifələrdən biridir.

**Nəticə:** Tarix üzrə dərsdənkənar tədbirlərdə şəxsiyyətin formalaşdırılmasının imkan və yollarının mahiyyəti araşdırılıb, öyrənilib ümumiləşdirilmişdir. Məqalədə çoxsaylı tədqiqatçıların fikir və müddəalarından istifadə edilərək müzakirələr metodunun daha təkmilləşdirilmiş metodik yolları üzə çıxarılmışdır. Bu sahədə aparılan qabaqcıl təcrübələrdən bəhs edilmişdir. Dərsdənkənar tədbirlərlə biz şagirdlərdə tarix fənninə sevgi formalaşdıra bilərik.

***Ədəbiyyat***

1. *Əmirov, M.M. "Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlimi Metodikası", Bakı - 2014, (səh. 637-638).*
2. *Əmirov M. Tarix üzrə dərsdənkənar iş. Metodik vəsait, Bakı - 2014, (səh. 16-17).*
3. *Bayramlı R. "Şəxsiyyətin formalaşmasında məktəbin rolu" https://fuyuzat.az/sexsiyyetin-formalasmasinda-mektebin-rolu/*
4. *Nadaf Z.A. "Education and Personality Development", Kashmir - 2017, (s.2-3).*

**F.C.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***firuzeaysen@gmail.com***

# ÜMUMİ TARİX KURSUNUN IX SİNİFLƏRİNDƏ BİLİKLƏRİN TRANSFORMASİYASINDA BİNAR DƏRS ÜSULUNDAN İSTİFADƏ

***Xülasə***

*Ümumtəhsil məktəblərinin IX sinif Ümumi tarix dərslərində Binar texnologiyasından istifadə dərsin daha səmərəli və faydalı keçməsi üçün əhəmiyyətlidir. Binar dərs vasitəsi ilə şagirdlər əldə edəcəkləri bilikləri digər fənlərlə əlaqəli şəkildə mənimsəyirlər. Müəllim dərs prosesi zamanı Binar texnologiyasından istifadə edərək dərsin mövzusuna uyğun digər fənn müəllimi ilə işləməyi bacarmalıdır.*

# ИСПОЛЬЗОВАНИЕ МЕТОДА БИНАРНОГО УРОКА ПРИ ТРАНСФОРМАЦИИ ЗНАНИЙ В IX КЛАССАХ КУРСА ОБЩЕЙ ИСТОРИИ

***Резюме***

*Использование бинарной технологии на уроках Всеобщей истории IX класса общеобразовательной школы важно для более эффективного и полезного урока. С помощью бинарных уроков учащиеся приобретают знания, которые они приобретут в связи с другими предметами. Учитель должен иметь возможность работать с учителем других предметов по теме урока с использованием бинарной технологии в процессе урока.*

# USE OF THE BINARY LESSON METHOD IN THE TRANSFORMATION OF KNOWLEDGE IN THE IX CLASSES OF THE GENERAL HISTORY COURSE

***Summary***

*The use of binary technology in class IX general history classes of general education school is important for a more efficient and useful lesson. By means of binary lessons, student s acquire the knowledge they will acquire in connection with other subjects. The teacher should be able to work with the teacher of other subjects according to the subject of the lesson using binary technology during the lesson process.*

***Açar sözlər:*** *tarix təlimi, Binar dərs, fənlərarası transformasiya, inteqrasiya, bilik və bacarıqlar, metod*

***Ключевые слова:*** *преподавание истории, бинарный урок, междисциплинарная трансформация, интеграция, трансформация, знания и навыки, метод*
***Key words:*** *history teaching, binary lesson, interdisciplinary transformation, integration, knowledge and skills, method*

**Mövzunun aktuallığı:** Ümumtəhsil məktəblərinin müəllimlərinin təcrübələrindən məlum olur ki, pedaqoji təhsil müəssisələrində Binar dərs üsulundan geniş istifadə olunmaması aktual deyil. Bu sahədə olan boşluq doldurulmalı və problem düzgün şəkildə həll edilməlidir.

Təlim prosesində müxtəlif texnologiyalardan, metod və vasitələrdən istifadə təlimin keyfiyyətini yüksəldir. Binar texnologiyasının tətbiqi tarix kursunun tədrisində biliklərin transformasiyasında əlverişli metodlardandır. “Binar” sözünün mənasına nəzər saldıqda ingiliscə “iki hissədən ibarət, iki tərkib hissəsi olan” mənasında işlədilməsinin şahidi oluruq. Binar prinsipə görə əksər hallarda tarixi hadisələri ikili (binar) qarşılaşdırma əsasında müəyyənləşdirilir, yəni eyni hadisənin mövcud olub-olmadığına, tarixi təzahürünə əsasən müəyyənləşdirilir. Binar dərsin keçirilməsində bir neçə müəllim iştirak edir. Bu texnologiya daha çox mühazirələri oxuyan zaman istifadə olunur. Müəyyən dərsin tədrisini eyni zamanda 2 ayrı-ayrı fənn müəllimi apara bilər. Bu texnologiya müəllim tərəfindən yaxşı hazırlanan zaman az vaxt tələb edir. Bunu yenilikçi pedaqoqlar tətbiq edirlər. Düzgün təşkil edilmiş təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilir və müəllimlər tərəfindən təyin edilir. Binar üsulu ilə keçirilən dərslərdə şagirdlər təlim prosesinin passiv iştirakçısı olmur. İnteqrativlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu o zaman mümkün olur ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunur.

Binar dərslərin keçirilməsində məqsəd:

1. fənnlər üzrə bilikləri transformasiya səviyyəsində öyrənmək;
2. müəllimlərin əməkdaşlığını inkişaf etdirmək;
3. şagirdlərdə fənnlərin bir-biri ilə bağlılıq əlaqəsi, dünyanın tamlığı barədə əqidələri formalaşdırmaqdır [4, səh. 25].

Təcrübə göstərir ki, Binar dərsdə fənnlər üzrə bilikləri inkişaf etdirmək, fənlərarası əlaqələrin bağlılıq əlaqəsi, bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq bacarıqlarının yaranması üçün vacib şərtdir. Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində qarışıq halda olan faktların sistemləşdirilməsidir. Bu mənada inteqrasiya olunmuş məzmun informativ

cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. İnteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənnlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənnlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Tarix təliminin coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, biologiya, musiqi, riyaziyyatla yetərincə əlaqəsi vardır. Tarixin digər qohum fənlərlə əlaqəli təlimi şagirdlərdə elmi dünyagörüşün formalaşdırılmasının ən optimal yoludur [5, səh. 320].

Ümumi tarixdən 9-cu sinifdə tədris olunan “Birinci Dünya müharibəsi” mövzusunda Binar dərs nümunəsinə nəzər salaq. Bir tarix müəllimi və bir coğrafiya müəllimi ilə dərs prosesi təşkil olunur.

**Nümunə 1.** Tarix müəllimi öz şərhinə başlayaraq bildirir ki, XX əsrin əvvəllərində dünyanın yenidən bölüşdürülməsi uğrunda Avropa dövlətlərinin iki hərbi-siyasi bloku arasında mübarizə Birinci Dünya müharibəsinin başlanmasına səbəb olmuşdur. Əsas bu ziddiyyət Almaniya ilə Böyük Britaniya arasında idi. Alman hərbi-siyasi dairələri Böyük Britaniya, Fransa və Rusiyanı zəiflətmək, onların müstəmləkələrinin bir hissəsini ələ keçirməklə yanaşı, yeni müstəmləkələr əldə etmək niyyətində idilər. Müttəfiqi Avstriya-Macarıstan imperiyası isə Balkan yarımadasında öz nüfuzunu genişləndirməyə və yeni ərazilər işğal etməyə çalışırdı. Böyük Britaniya müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun müstəmləkələrinin bir hissəsini ələ keçirmək, Osmanlı imperiyasını bölüşdürmək ümidində idi. Fransa itirilmiş Elzas və Lotaringiya vilayətlərini geri almaq və Reyn vilayətinin bir hissəsini ələ keçirmək istəyirdi. Rusiya isə Balkan yarımadasında, Bosfor və Dardanel boğazlarında öz hökmranlığını yaratmağa, həm də Almaniyanı iqtisadi cəhətdən zəiflətməyə çalışırdı. 1914-cü il iyunun 28-də Avstriya-Macarıstan taxt-tacının vəliəhdi Frans Ferdinandın serb millətçisi Qavrila Prinsip tərəfindən öldürülməsi müharibənin başlanması üçün bəhanə oldu. Avstriya-Macarıstan Serbiyaya ultimatum verib qatilin təslim edilməsini istədi. Rədd cavabı aldığı üçün Serbiyaya müharibə elan etdi. Birinci dünya müharibəsi gedişində Marna, Çanaqqala, Verden, Somma çayı sahilində döyüş, Kaporetta döyüşləri baş vermişdir. 1914-1918-ci illəri əhatə edən müharibə 1918-ci il noyabrın 11-də ildə Kompyen meşəsində Almaniya ilə onun rəqibləri arasında sülh barışığının imzalanması ilə başa çatmışdır. Birinci Dünya müharibəsi müstəmləkə sisteminin böhranının başlanğıcını qoymuşdur [1, səh. 42-47].

Coğrafiya müəllimi tarix müəlliminin şərhinə Avropanın relyefindən məlumat verərək davam edir. Avropa Avrasiya materikinin qərb hissəsində yerləşən qitədir. Orta Avropanın relyefi üçün düzənliklər səciyyəvidir. Onlardan ən böyüyü Almaniya-Polşa ovalığıdır. Orta Avropanın Atlantik okeanı sahillərində qurunun tektonik əyilməsi baş vermişdir. Tədrici enmələr sahilboyu ərazilərin su altında qalması ilə nəticələnir. Subasmaların qarşısını almaq üçün bəndlər tikilir, dəniz qurudulur və antropogen mənşəli düzənliklər yaradılır. Cənubi Avropa Aralıq dənizinin şimal sahillərini əhatə edir. Orta Avropa ilə müqayisədə sahil xətləri çox parçalanmışdır. Yarımada və adaların relyefi, əsasən, dağlıqdır. Pireney, Apennin, Balkan yarımadalarındakı dağlar intensiv tektonik və seysmik proseslərlə səciyyələnir. Etna, Vezuvi kimi fəaliyyətdə olan vulkanlar da burada yerləşir. Balkan yarımadasında Karst platosu vardır. O, əsasən, əhəngdaşı süxurları ilə örtülüdür. Bu süxurlar intensiv yuyulmaya məruz qalır. Onlarda karst relyef formaları, o cümlədən, mağaralar yaranır. Qitədə regionlar relyefinə görə bir-birindən kəskin fərqlənir. Şərqi Avropada yerləşən eyni adlı düzənlik Karpat dağlarından Ural dağlarınadək uzanır. Orta Rusiya, Volqaboyu, Valday yüksəklikləri bu ərazidədir. Düzənliyin şimalında buzlaq relyef formaları geniş yayılmışdır. Şərqi Avropa düzənliyi Ukrayna, Belarus ölkələrinə və Rusiyanın Avropa hissəsinə uyğun gəlir. Şərqi Avropa düzənliyi əhalinin ən çox məskunlaşmış ərazilərindən biridir. Burada Moskva, Sankt-Peterburq, Kiyev və başqa nəhəng sənaye şəhərləri yerləşir. Şərqi Avropa düzənliyinin cənubunda, Asiya və Avropanın sərhədində cavan dağ sistemləri olan Krım və Qafqaz dağları uzanır [2, səh.16-19].

Tarix fənni ilə fiziki, iqtisadi və sosial coğrafiya, xəritəşünaslıq arasında inteqrasiyanın olması şagirdlərə dünyada baş verən təbii, sosial-iqtisadi hadisə və bu prosesləri, təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqələri daha dərindən dərk etməyə, insanın hərtərəfli fəaliyyəti və məskunlaşması üçün coğrafi mühit şəraitini qiymətləndirməyə imkan verir. Şagirdlər dərsin sonunda Birinci Dünya müharibəsində ərazi dəyişikliklərini əks etdirən cədvəl və sxemlər hazırlayırlar.

Fənlərarası əlaqələrin transformasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır. Şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

**Nümunə 2.** IX sinif Ümumi tarix fənnindən "Dünya xalqlarının mədəniyyəti" mövzusunu musiqi fənni ilə əlaqələndirərək tarix və musiqi müəllimlərinin əməkdaşlığı nümunəsinə baxaq. Tarix müəllimi öz nitqində

qeyd edir ki, XX əsr və XXI əsrin əvvəlləri müharibələrlə yanaşı, mədəniyyətlə də tarixin yaddaşında qalıb. Müxtəlif xalqlarda mədəniyyətin inkişafı inteqrasiyaya səbəb oldu. Mədəniyyət yalnız elm, ədəbiyyat və incəsənətdən ibarət deyildir. Qloballaşan dünyada müxtəlif mədəniyyətlər davamlı olaraq bir-birinə təsir göstərməkdədir. Bu mənada, dünya mədəniyyətinin, o cümlədən Qərb musiqisinin Azərbaycan musiqisinə birtərəfli təsirindən danışmaq düzgün olmazdı. Şərq musiqisinin, eləcə də Azərbaycan muğamının Qərb və dünya musiqisinə təsiri də getdikcə artmaqdadır. Azərbaycan bəstəkarlarının, xüsusilə Fikrət Əmirovun simfonik əsərləri Qərbdə muğam kimi möhtəşəm musiqiyə böyük maraq və məhəbbət yaratmışdır. Xalqımız XX əsrin ikinci yarısında bəşər mədəniyyətinə Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov kimi dünya şöhrətli bəstəkarlar, Rəşid Behbudov, Müslüm Maqomayev, Alim Qasımov, Əzizə Mustafazadə kimi sənətkarlar vermişdir [1, səh. 51].

Musiqi müəllimi isə tarix müəlliminin söylədiklərini musiqi ilə əlaqələndirərək qeyd edir: "İnsan bütün dövrlərdə musiqini ilahi möcüzə, daxili aləmini zənginləşdirən, əhval-ruhiyyəsini gözəlləşdirən dəyər hesab edib". Azərbaycan Dövlət Filarmoniyasının tərkibində olan musiqi kollektivlərindən biri də Dövlət Kamera Orkestridir. Bu musiqi kollektivi məşhur Azərbaycan bəstəkarları Fikrət Əmirov və Qara Qarayevin təşəbbüsü ilə 1964-cü ildə yaradılıb. Azərbaycan Dövlət Kamera Orkestri üçün Qara Qarayev, Fikrət Əmirov, Azər Dadaşov, Faiq Nağıyev, Oqtay Rəcəbov və başqaları maraqlı əsərlər yazmışlar. Digər tərəfdən Azərbaycan bəstəkarlarının filmlərə, o cümlədən cizgi filmlərinə yazdıqları musiqi əsərlərinin səsləndirilməsi də Azərbaycan Dövlət Kamera Orkestrinin öhdəsinə düşür. Şagirdlər dərsdə "Rok hərəkatı" anlayışının mahiyyəti ilə tanış olurlar. XX əsrin ortalarında "Qəzəblənmiş gənc adamlar" cərəyanının üzvləri şəxsiyyət azadlığı, insanın özünüifadə hüququ uğrunda mübarizəsində Rok musiqisini yaradırlar. Səhnə və məişət məsələlərində demokratizmi təbliğ edən Rok musiqi cərəyanı Böyük Britaniya və ABŞ da yaranmışdır. İkinci müharibədən sonra yazılmış əsərlərin müasir dövr üçün əhəmiyyətini dərk edirlər. Musiqi müəllimi isə tarix müəlliminin söylədiklərini musiqi ilə əlaqələndirərək qeyd edir: İnsan bütün dövrlərdə musiqini ilahi möcüzə, daxili aləmini zənginləşdirən, əhval-ruhiyyəsini gözəlləşdirən dəyər hesab edib. Azərbaycan Dövlət Filarmoniyasının tərkibində olan musiqi kollektivlərindən biri də Dövlət Kamera Orkestridir. Bu musiqi kollektivi məşhur Azərbaycan bəstəkarları Fikrət Əmirov və Qara Qarayevin təşəbbüsü ilə 1964-cü ildə yaradılıb. Azərbaycan Dövlət Kamera Orkestri üçün Qara Qarayev, Fikrət Əmirov, Azər Dadaşov, Faiq Nağıyev, Oqtay Rəcəbov və başqaları maraqlı əsərlər yazmışlar. Digər tərəfdən Azərbaycan bəstəkarlarının filmlərə, o cümlədən cizgi filmlərinə yazdıqları musiqi əsərlərinin səsləndirilməsi də Azərbaycan Dövlət Kamera Orkestrinin öhdəsinə düşür [3, səh. 64-65].

Keçirilən Binar dərs zamanı tarix və musiqi müəllimlərinin əməkdaşlığı nəticəsində şagirdlər XX əsrin əvvəlləri Azərbaycanın həm tarixi aspektdən, həm də mədəniyyət və incəsənətində baş vermiş inkişafı dəyərləndirə biləcəklər.

Fənlərarası əlaqə prosesində tədris fənni şagirdlər tərəfindən yaxşı mənimsənilir, bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır. Biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin edilir. Fənlərarası əlaqədən ardıcıl şəkildə istifadə tədrisin səviyyəsini yüksəldir, şagirdlərin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Buna görə də təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxılmalı, şagirdlər həyat boyu öyrənməyə hazırlanmalıdır. İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər. Bu məqsədlə uşaqları inteqrativ biliklər əldə etməyə hazırlayan fənlərarası əlaqəyə geniş yer verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün fənlər üzrə proqram materiallarına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən bilməlidir. Beləliklə, məzmun yeni məlumatlarla, bağlılıqlarla və asılılıqlarla zənginləşərək daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

**Məqalənin elmi yeniliyi:** Binar texnologiyasının səciyyəvi cəhətləri müəyyənləşdirilərək onun mahiyyətinə aydınlıq gətirilmişdir. İnteqrasiyanın müxtəlif formalarından istifadə edən qabaqcıl orta məktəb müəllimlərinin iş təcrübəsi öyrənilərək ümumiləşdirilmişdir. Məqalədə irəli sürülən müddəalar tarixin tədrisi metodikası elminin praktiki əsaslarının zənginləşməsinə bir töhfə olmasıdır.

**Məqalənin nəzəri əhəmiyyəti:** Məqalədə irəli sürülən müddəalar, əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin məzmununun təkmilləşdirilməsinə motiv yaradır.

**Məqalənin praktiki əhəmiyyəti:** Təhsilalanların idrak fəaliyyətini gücləndirmək üçün təlim zamanı Binar texnologiyasından istifadə etməklə uğurlu nəticə alınır ki, bu təcrübədən də orta məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilər.

**Nəticə:** IX sinif Ümumi tarix üzrə inteqrasiyanın rəngarəng formalarından səmərəli istifadənin yolları öyrənilərək ümumiləşdirilmişdir. Məqalədə çoxsaylı tədqiqatçıların fikir və müddəalarından istifadə edilərək müzakirələr metodunun daha təkmilləşdirilmiş metodik yolları üzə çıxarılmışdır. Bu sahədə aparılan qabaqcıl təcrübələrdən istifadə edilmişdir.

***Ədəbiyyat***

1. *9-cu sinif Ümumi tarix fənni üzrə dərslik. Bakı – 2020.*
2. *9-cu sinif Coğrafiya fənni üzrə dərslik. Bakı – 2020.*
3. *9-cu sinif Musiqi fənni üzrə dərslik. Bakı - 2020.*
4. *Nəzərov A. "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı – 2010.*
5. *M.M.Əmirov, "Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlimi Metodikası" Bakı – 2014.*

**N.R.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullayevanise2@gmail.com***

# TƏLİMİN İDARƏ EDİLMƏSİNƏ MÜASİR YANAŞMALARIN DİDAKTİV VƏ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə təlim prosesinə yeni yanaşmaların mahiyyəti təhlil edilib. Ümumtəhsil məktəblərində dərsin idarə olunması zamanı yeni təlim texnologiyalarından istifadənin səmərəliyi işıqlandırılmışdır. Tədris prosesinin təşkilində müasir yanaşmalar: şəxs mərkəzli yanaşma, interaktiv yanaşmalar, problem əsaslı təlim metodu, konstruktiv öyrənmə nəzəriyyəsi ətraflı şəkildə tətqiq edilmişdir. Mövcud materiala uyğun müasir yanaşmalardan istifadə kimi məsələlər əsaslandırılmış, müasir tədris prosesinin təşkilinin çatışmayan xüsusiyyətləri qeyd edilmişdir. Tədris prosesinin təşkilinə dair bəzi tövsiyələr verilmişdir.*

# ДИДАКТИЧЕСКОЕ И ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ СОВРЕМЕННЫХ ПОДХОДОВ К УПРАВЛЕНИЮ ОБУЧЕНИЕМ

***Резюме***

*В статье проанализирована суть новых подходов к тренировочному процессу. Подчеркнута эффективность использования новых технологий обучения при организации уроков в общеобразовательных школах. Подробно изучены современные подходы в организации учебного процесса: личностно-ориентированный подход, интерактивные подходы, проблемный метод обучения, теория конструктивного обучения. Обоснованы такие вопросы, как использование современных подходов в соответствии с имеющимся материалом, а также отмечены недостающие особенности организации современного учебного процесса. Даны некоторые рекомендации по организации учебного процесса.*

# DİDACTİC AND EDUCATİONAL SİGNİFİCANCE OF MODERN APPROACHES TO TRAİNİNG MANAGEMENT

***Summary***

*The essence of new approaches to the training process was analyzed in the article. The effectiveness of using new learning technologies during lesson management in secondary schools has been highlighted. Modern approaches in the organization of the teaching process: person-centered approach, interactive*

*approaches, problem-based learning method, constructive learning theory have been studied in detail. Issues such as the use of modern approaches in accordance with the existing material are justified, and the missing features of the organization of the modern teaching process are noted. Some recommendations on the organization of the educational process have been given.*

***Açar sözlər:*** *müasir yanaşmalar, interaktiv yanaşma, yeni təlim texnologiyaları, təhsil, təlim prosesi, idarəetmə*
***Ключевые слова:*** *современные подходы, интерактивный подход, новые технологии обучения, образование, процесс обучения, менеджмент*
***Key words:*** *modern approaches, interactive approach, new learning technologies, education, learning process, management*

XXI əsrin cəmiyyət təhsili, təhsilalanlara müstəqil düşünmə və problemləri həll etmə bacarığı inkişaf etdirərək fərdi şəxsiyyətin formalaşmasına nail olmalıdır. Bu məqsədə çatmaq üçün təlimdə yeni yanaşmalara geniş yer verilməlidir. Həmçinin, təhsil proqramları müasir cəmiyyətin mütərəqqi inkişafına və təkmilləşdirilməsinə yönəlmiş insanların və vətəndaşların formalaşmasını təmin etməlidir. Müasir təhsilin əsas vəzifələrindən biri də şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onların fərdi, eləcə də mənəvi inkişafını zənginləşdirməlidir. Bununla belə nəticəyə gələ bilərik ki, müasir cəmiyyət təkrarlanan və standart şəxsiyyətlərə deyil, fərdi və müstəqil düşüncəyə malik şəxsiyyətlərə ehtiyac duyur.

Bu baxımdan professor Aydın Kazımzadə yazır: "Təlimin məzmunu təhsilin məzmununa qoyulan tələblərin həyata keçirilməsində köməkçi rol oynayır [1, s.2]. Deməli, təlimin öyrənmə prosesində öyrənənlərə təqdim etdiyi bilik və bacarıqlar, təhsil müəssisələrinin qoyduğu standart və tələblərə cavab verməlidir. Bu, təhsilin məqsəd və standartlarına uyğun olaraq təlimin effektiv şəkildə təşkil edilməsinə və öyrənənlərin müvafiq bacarıqlara nail olmasına kömək edir." Müasir dövrdə təhsilin və təlimin məzmunu bəşəriyyət tərəfindən əldə edilmiş sosial təcrübənin bütün aspektlərini əks etməlidir. Cəmiyyətin hər bir inkişaf səviyyəsində bu təcrübə, təhsilin məzmununu təyin edən aşağıdakı elementləri əks etdirməlidir:

- "Biliklər toplusu - istehsalat, düşüncə, təbiət, cəmiyyət və fəaliyyət üsulları haqqında bütün ən son biliklər, təhsilin əsasını təşkil etməlidir;
- Fəaliyyət üsulları - müstəqil düşünmə və tətbiq bacarığını artırmağa nail olan təhsilin önəmli bir hissəsidir. Bu, təhsilalanların müəyyən fəaliyyətləri həyata keçirmələri üçün təmin edilmiş təcrübələr əsasında şəxsiyyətlərinin inkişafını dəstəkləyir;
- Yaradıcı fəaliyyət təcrübəsi - təhsil, əvvəlki bilik və bacarıqların yeni şəraitdə tətbiq edilə bilməsi üçün yaradıcı fəaliyyət təcrübəsini də əks

etdirməlidir. Bu, yeni fəaliyyət formalarının axtarışı və formalaşdırılmasını dəstəkləməlidir;

➢ Cəmiyyətin uğurlarına hörmətlə yanaşma təcrübəsi - təhsil, ətraf aləmə, insanın fəaliyyət obyektləri və üsullarına, digər insanlara və bütün bəşəriyyətin əldə etdiyi maddi və mədəni sərvətlərə hörmətlə yanaşma və dəyərləndirmə üzrə təcrübəni əks etdirməlidir” [2].

Tədris prosesinin təşkilində müasir yanaşmalar aşağıdakılardır:

➢ **Fərdi mərkəzli yanaşma** - hər bir uşağın özünəməxsusluğunu qoruyub saxlamağı və onun inkişafına təkan verməyi əhatə edir. Bu, hər bir uşağın öz potensialını tam ölçüdə ifadə etməsi üçün əlavə dəstəyə ehtiyac olduğu anlayışını özündə əks etdirir. Bu yanaşma, uşaqların daxili keyfiyyətlərini, estetik duyğularını və ətrafdakı reallığa olan yanaşmalarını inkişaf etdirməyə nail olmağı hədəfləyir. Bu, şagirdlərin özünə qarşı müsbət bir münasibət quraraq öz şəxsiyyətlərini formalaşdırmağa kömək edir. Əlavə olaraq, bu yanaşma, bilik və bacarıqlara yiyələnməyə, tədris prosesinə marağı inkişaf etdirməyə, yaradıcılıq qabiliyyətlərini aşkara çıxarmağa və şagirdlərin inkişafını təmin edir.

➢ **İnteraktiv yanaşmalar** - təhsil prosesində tələbələrə bir-biri ilə qarşılıqlı əlaqədə olmağa imkan verən müxtəlif təhsil üsullarını özündə ehtiva edir. “İnteraktiv öyrənmə” isə bu interaktiv metodların tətbiqi nəticəsində ortaya çıxan bir öyrənmə təcrübəsini ifadə edir. Bu, tələbələrə passiv bir şəkildə məlumat təqdim etmək əvəzinə, onların fəal iştirak etmələrini təmin edir. Bu üsullar, tələbələrin müstəqil düşünmələrini və problemlərin həlli bacarıqlarını inkişaf etdirmələrini təmin edir” [3, s.791].

Müəllim bu prosesdə təlimin təşkilatçısı kimi rolda qalmaqdan əlavə, təhsilalanların öyrənmə prosesinə daha fəal şəkildə qatılmağını təşviq etməlidir. Bu, təhsilalanların öz düşüncə və fikirlərini ifadə etmələri üçün rahat bir mühit yaratmağı və onların öz öyrənmə təcrübələrini inkişaf etdirmələri üçün fürsət yaratmağı ilə əlaqəlidir. İnteraktiv yanaşmada kiçik qruplarda işləmək ən populyar strategiyalardan biridir, çünki bu, bütün tələbələrə (utancaq olanlar da daxil olmaqla) təlimdə iştirak etmək, əməkdaşlıq etmək və şəxsiyyətlərarası ünsiyyət (xüsusilə, fəal dinləmək, ümumi rəy inkişaf etdirmək, problemləri həll etmək) bacarıqlarını inkişaf etdirməyə şərait yaradır.

**Maarifləndirici oyunlar** - interaktiv dərslərdə öyrənməni təşviq etmək üçün çox effektiv və maraqlı bir üsuldur. Bu oyunlar, təhsilalanlara müxtəlif mövzularda maraqlı və təcrübi təcrübələr təqdim edir və onlara aktiv şəkildə iştirak etməyə imkan verir. Maarifləndirici oyunlar, müstəqil düşünməni, problem həll bacarığını və əlaqə qurmağı inkişaf etdirməyə kömək edir. Bu kateqoriyaya rollu oyunlar yaratmaq və simulyasiyalar daxildir. Rol oyunları, təhsilalanların müxtəlif rolları təqdim etdiyi və bu rollar əsasında əməkdaşlıq etmələrini tələb edən təcrübələrdir. Bu, ictimai bacarıqların, əlaqə qurmağın və

qrup işində iştirak etmənin inkişafını təmin edir. Simulyasiyalar isə tələbələrə müxtəlif mühitlərdə və ya proseslərdə təcrübələr etməyə imkan verən interaktiv oyunlardan biridir. Bu, tələbələrin abstrakt və ya teorik konseptləri reallaşdırmağa və müstəqil tədqiqat aparmağa imkan verir. Məsələn, bir müstəqil tədqiqat prosesini, biznesin idarə olunmasını və ya elmi tədqiqatı təmin edən simulyasiya proqramları ilə tələbələr öz bacarıqlarını inkişaf etdirə bilərlər.

**Problem situasiyalı təlim metodu** – təhsilalanlara həll etmək üçün müstəqil düşünmə və tədqiqat bacarığı inkişaf etdirməyə nail olmağa xidmət edir. Bu metod, təhsilalanlara tədqiqat aparmaq, müstəqil düşünmək və problemlərin həll yollarını tapmağa nail olmaq üçün müəllimin hazır məlumat verməkdən çox, problemləri müzakirə və həll etməyə təşviq etməsini təklif edir.

Əsas məqsəd, təhsilalanların intellektual potensiallarını və zehni fəaliyyətlərini aktivləşdirməkdir. Bu, onlara sadəcə faktları öyrənməyə, anlamağa və məlumat toplamağa yox, həm də problemləri müstəqil şəkildə həll etməyə və müzakirə etməyə nail olmağa kömək edir [4, s.1].

Problem əsaslı təlim, müzakirənin mahiyyətini və təqdimatın nəsrdə təqdim olunması və müzakirə olunması prinsiplərini də təklif edir. Müəllim tədqiqat üçün problem qoymaqla, təhsilalanlara həll etmə üsullarını müzakirə etməyə, mübahisəyə səbəb olmağa və onların öz fikirlərini formalaşdırmağa motiv yaradır. Bu metoda əsasən, təhsilalanlar məlumatları yalnız tədqiqat və müzakirə yolu ilə öyrənmirlər. Bu, onları aktiv müstəqil öyrənməyə və həyatda rast gələn problemləri həll etməyə hazırlayır.

Problemimizlə bağlı A.O.Mehrabov yazır: "**Konstruktiv öyrənmə nəzəriyyəsi** faydalı və müasir bir təcrübəyə sahibdir və biliyin əldə edilməsində və inkişaf etdirməsində əhəmiyyətli bir rolu var. Bu nəzəriyyəyə görə, biliyin əsasını formalaşdıran prinsip, yeni ideyaların və biliklərin əvvəlki biliklərlə birləşdirilməsidir. Başqa bir sözlə, öyrənmə prosesi passiv deyil, əksinə, insanın fəal həyat təcrübəsi ilə əlaqəlidir. Hər bir insan, biliyini başqalarından qəbul etmək əvəzinə, onu özü əldə edir və inkişaf etdirir. Konstruktiv öyrənmə təcrübəsi özünün tərəfini bilmək və dünyagörüşünü formalaşdırmaq üçün əsaslı bir imkan təqdim edir. Bu nəzəriyyə əsasında öyrənənlər, müstəqil düşünmə qabiliyyətlərini artırmaq üçün araşdırmalar, müzakirələr və mühakimələr əsasında öz anlayışlarını müəyyənləşdirirlər. Öyrənənlərin beyni ağ lövhə olmadığından, hər bir insanın təlim prosesinə başlaması özünün sahib olduğu müəyyən həyat təcrübəsi ilə əlaqəlidir" [5, s.78-80].

1991-ci ildə Wheatley Kozmetski problem mərkəzli öyrənmə yanaşmasından istifadə edərək konstruktivist tədris modelini təklif etmişdir. Wheatley Kozmetskydən qeyd edir ki, hər bir tələbə biliklərin faydalı problem

həlli sxemində sıralanmasına imkan verəcək öz konseptual konstruksiyalarını qurmağa həvəsləndirilməlidir.

Wheatley Kozmetski problem mərkəzli öyrənmə yanaşmasını tətbiq edərək, müəllimin rolu barədə danışıqlar vasitəsilə stimullaşdırıcı və həvəsləndirici təcrübələr təqdim etmək və fərdiləşdirilmiş sxemin qurulmasında tələbələrə bələdçi olmağa nail olması lazımlığını vurğulayır. Tələbələrin əvvəlki biliklərinə əsaslanan tapşırıqların seçilməsi ilə bağlı daha ətraflı məlumat verir və tapşırıqlar aşağıdakı xüsusiyyətləri ehtiva etməlidir:

- “Başlanğıcda hər kəs üçün əlçatan olmalıdır;
- Tələbələri qərar qəbul etməyə dəvət etmək;
- “Əgər belə olsaydı necə olardı?” suallarını təşviq etmək;
- Tələbələri öz metodlarından istifadə etməyə həvəsləndirmək;
- Müzakirə və ünsiyyəti təşviq etmək.

Bu tapşırıqlar tələbələri aktiv şəkildə düşünməyə, öz fikirlərini ifadə etməyə və birgə işləməyə həvəsləndirir. Bu, onların müstəqil düşünmə bacarığını inkişaf etdirməyə və öyrəndiklərini praktikada tətbiq etməyə kömək edir” [6, s.152].

Müasir yanaşmalardan istifadə təlimdə mühüm rol oynayır, eyni zamanda qəbul edilməlidir ki, müasir tədris prosesinin təşkilinin öz çatışmayan xüsusiyyətləri vardır. Tədris prosesinin təşkilinə dair bəzi tövsiyələr vermək mümkündür. Bu tövsiyələr onun keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq və cəmiyyətin müəyyən etdiyi tapşırığın yerinə yetirilməsində müəllimə kömək edəcək:

**1. Material və texniki baza -** Təhsilin effektiv şəkildə təşkil edilməsi üçün hər bir məktəbin bütün lazımi texniki vasitələrlə təchiz olunması zəruridir. Müəllimlər tədris zamanı interaktiv ağıllı lövhələrdən və proyektorlardan istifadə etməlidirlər. Bu tədris prosesini daha maraqlı və interaktiv edə bilər. Şagirdlər də bu texnologiyalardan istifadə edərək müstəqil öyrənmə imkanlarına sahib ola bilərlər. Material və texniki baza kimi elektron kitabxana sistemləri, tələbələrə elektron kitablar və digər resurslara çıxış imkanı verir. Bu, tədris materialının daha interaktiv və müstəqil öyrənilməsinə kömək edir.

**2. Müəllimlərin yüksək peşəkarlığı -** Müəllimlərin yüksək peşəkarlığı, tədris prosesinin keyfiyyətini artırmaq və təhsilalanlara daha effektiv şəkildə təhsil vermək üçün əhəmiyyətli bir amildir.

**3. Məktəblərin elmi-metodiki təchizatı -** Məktəblərin elmi-metodiki təchizatının yetərincə təşkil edilməsi təhsilalanlar və müəllimlər üçün əlaqəli və effektiv tədris prosesini təmin edər.

**4. Valideynlərin məktəbin həyatında fəal iştirakı -** Uşaqlarının təhsilində yüksək müvəffəqiyyətə nail olmalarına kömək edir.

**Nəticə:** Məqalədə təlimin idarə edilməsində müasir yanaşmaların əhəmiyyətini vurğulayaraq, bu yanaşmaların təlim prosesindəki səmərəliliyi şərh edilib. Təlimdə istifadə olunan yeni texnologiyaların, tələbə motivasiyasını artırmaq, öyrənmə prosesini daha maraqlı və interaktiv etmək, təhsilalanlara geniş əlaqə və təcrübə imkanı təmin etmək kimi səmərəli təkliflər verilmişdir. Müasir dövrün tələblərini nəzərə alaraq təlim prosesinin səmərəliliyinin yüksəldilməsi üçün istifadə etdiyimiz yeni yanaşmaların mahiyyətinə və məzmununa nüfuz etdikdə aydın olur ki, təlimdə təhsilalanlara fərdi yanaşılmadan, qarşılıqlı əlaqədən, maarifləndirici oyunlardan, problemli situasiyalardan didaktikanın tələbləri əsasında istifadə etdikdə təlim keyfiyyəti, eləcə də təhsilalanlarda milli-mənəvi dəyərlərimizə məhəbbət hissini də formalaşdırmış oluruq. Təlimə yeni yanaşmalara dair verdiyimiz təsnifatın məzmunundan aydın olur ki, həmin yanaşmalar təhsilalanların təlimə marağını artırmaqla yanaşı, onların tərbiyəsinə və təfəkkürlərinin inkişafına birbaşa zəmin yaradır.

**Problemin aktuallığı:** Ümumtəhsil məktəblərində təlimin idarə edilməsində yeni yanaşmaların tətbiqi çox önəmlidir. Yeni təlim texnologiyaları tələbələrə bilik verməklə yanaşı onlarda bacarıqları da formalaşdırır. Dərs zamanı müasir yanaşmaların düzgün seçilməsi, düzgün istifadəsi, düzgün formada tətbiq olunmasını bilmək üçün məhz bu yanaşmalardan səmərəli şəkildə istifadə qaydasını bilmək lazımdır.

**Problemin elmi yeniliyi:** Ümumtəhsil məktəblərində təlim prosesinin idarə edilməsində yeni yanaşmaların elmi yenilikləri, texnologiya və təhsil üçün müasir tədqiqatların nəticəsi olaraq ortaya çıxmaqdadır. Bu yeniliklər, şagirdlərin öyrənmə prosesini daha səmərəli və effektiv hala gətirmək üçün mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti:** Müasir yanaşmalar, məktəblərdə təlimin idarə olunmasında yeni perspektivlər və optimal yanaşmalar təmin edir. Bu yanaşmalar, şagirdlərin təhsil proqramlarına uyğunlaşdırılması, onların fərqli tələblərinə cavab verilməsi üçün istifadə edilir. Bu yanaşmalardan məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

***Ədəbiyyat***

1. *Kazımzadə. A., Azərbaycan müəllimi - Müasir dövrdə təhsilin məzmunu və onun idarə edilməsi, Azərbaycan müəllimi, məqalə - 2010, -s.2.*
2. *Зеленина Ольга Александровна - https://nsportal.ru/nachalnaya-shkola/materialy-mo/2014/01/25/sovremennye-podkhod-k-organizatsii-uchebno-vospitatelnogo*
3. *Использование интерактивные методы обучения в учебном процессе - Экономика и социум, №3(82), 2021, s.863*

4. *Проблемно-ориентированный метод обучения - Л.В.Ещеркина, А.Е.Можеевская, статья, s.4*
5. *Mehrabov A.O., Azərbaycan təhsilinin müasir problemləri, Bakı, Mütərcim, 2007, s.448*
6. *Wheatley, G.H. (1991). Constructivist perspectives on science and mathematics learning. Science Education, 75(1), 9-21.*

**"Magistrant" dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- "MAGİSTRANT" dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **(müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 15.02.2024*
*Kağız formatı 60x84  1/16, çap vərəqi 22*
*Sifariş 70, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*